İbrahim Bayramov
Nazim Mustafa

# HƏQİQƏTİN ONOMASTİKASI

İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası
Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi
Azərbaycan Dillər Universiteti

**Həqiqətin onomastikası.** İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması. Birinci nəşr
Bakı, "Şərq-Qərb", 464 səh.

ISBN 978-9952-537-79-6

**İdeya müəllifi:**
**Kamal Abdulla**, *akademik*

**Müəlliflər:**
**İbrahim Bayramov,** *filologiya üzrə elmlər doktoru, professor*
**Nazim Mustafa,** *tarix üzrə fəlsəfə doktoru*

**Layihəyə məsul:**
**Araz Qurbanov,** *Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təhlilçisi*

**Redaksiya heyəti:**
**Rəvan Həsənov,** *Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru*
**Mayıl Əhmədov,** *Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının direktoru*
**Firdovsi Əliyev,** *Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər nazirinin müavini*
**Ramiz Məmmədov,** *akademik, Azərbaycan Coğrafiya Cəmiyyətinin sədri*
**Musa Qasımlı,** *tarix elmləri doktoru, professor, Milli Məclisin üzvü*
**Əziz Ələkbərli,** *filologiya üzrə elmlər doktoru, Milli Məclisin üzvü*
**Musa Quliyev,** *Milli Məclisin üzvü*
**Müqabil Bayramov,** *"Geodeziya və Kartoqrafiya" MMC-nin direktor müavini*
**Həcər Verdiyeva,** *tarix üzrə elmlər doktoru*
**Aslan Bayramov,** *filologiya üzrə elmlər doktoru*
**Kifayət İmamquliyeva,** *filologiya üzrə fəlsəfə doktoru*

**Korrektorlar:**
**Kəmalə Quliyeva**
**Esmina Novruzova**

*Gərgin tədqiqat işinin bəhrəsi olan bu kitab erməni vandalizminin və saxtakarlığının ən bariz nümunələrindən birinə – indiki Ermənistan ərazisində tarixən yaşamış Azərbaycan türklərinin izlərini silmək üçün onlara məxsus 1600-dən artıq toponimin kütləvi şəkildə dəyişdirilməsinə və saxtalaşdırılmasına, bir çox yaşayış məntəqələrinin isə məqsədli şəkildə Yer üzündən tamamilə silinməsinə həsr olunmuşdur. Kitab mütəxəssislər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

ŞƏRQ-QƏRB
www.eastwest.az
www.fb.com/eastwest.az
info@eastwest.az

© BBMM, 2021

Kitab
Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyevin tövsiyələri əsasında
tərtib olunmuşdur

*"İndiki Ermənistan Respublikasının ərazisi qədim Azərbaycan torpağıdır. Bu, faktdır, tarixi faktdır. Heç uzağa getmək lazım deyil. XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir. Hər kəs görər ki, indiki Ermənistanın bütün ərazisindəki toponimlərin, demək olar ki, mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Mən xahiş edirəm, bizim alimlərimiz bunu dərc etsinlər ki, hər kəs görsün...*

*İndiki Ermənistan ərazisində tarixi Azərbaycan adları, şəhərlərin, kəndlərin adları dəyişdirilib. Bu adlar neçənci ildə dəyişdirilib? Ona görə biz deyəndə ki, indiki Ermənistan tarixi Azərbaycan torpağında yaradılıb, tam həqiqəti deyirik. Biz yaxşı bilirik ki, ermənilər bizim torpağımıza, o cümlədən indiki Ermənistan ərazisinə XIX əsrin əvvəllərində köçürülüblər, Rus-İran müharibəsindən sonra...*

*1978-ci ildə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisindəki kəndlərin birində ermənilərin bu bölgəyə gəlməsinin 150 illiyini əks etdirən abidə ucaldılıb. 1978-ci ildən 150 ili çıxın, deməli, 1828-ci ildə gəliblər. Müharibə başlayan kimi o abidəni dağıdıblar, amma onun qalıqları qalıb və indi istənilən adam gedib baxa bilər. Onun şəkillərini də göstərmək lazımdır. Onlar gəlmədilər, Şərqi Anadoludan və İrandan bizim torpaqlarımıza köçürülüblər. Bu proses XIX əsrin əvvəllərindən başlanmışdır və sonralar daha geniş vüsət almışdır. Mən deyəndə ki, İrəvan bizim qədim torpağımızdır, tam həqiqəti deyirəm. Bunu hər kəs bilir..."*

**İlham Əliyev**,
**Azərbaycan Respublikasının Prezidenti**
*3 iyun 2020-ci il, Tərtər*

# MÜNDƏRİCAT


*Ön söz. Coğrafi adlar – etnik tarixin yaddaşı* ........ 8

*İndiki Ermənistan Respublikası ərazisində azərbaycanlıların tarixən yaşadığı və hazırda adları dəyişdirilmiş yaşayış məntəqələri* ........ 20

*Ləğv edilmiş və ya dağıdılmış kəndlər* ........ 301

*Adları dəyişdirilmiş hidronimlər* ........ 396

*Adları dəyişdirilmiş oronimlər* ........ 406

*Adları dəyişdirilmiş yaylaqlar və qışlaqlar* ........ 425

*İrəvan xanlığının mahal, sultanlıq və əyalətləri* ........ 440

*Hazırda "Ermənistan Respublikası" adlandırılan tarixi Azərbaycan ərazilərini kimlər və nə vaxt idarə etmişlər* ........ 443

*İstifadə olunmuş ədəbiyyat* ........ 448

Ləğv edilmiş və ya dağıdılmış kəndlər – 499

Adları dəyişdirilmiş yaşayış məntəqələri – 704
Adları dəyişdirilmiş oronimlər – 231
Adları dəyişdirilmiş hidronimlər – 116
Adları dəyişdirilmiş yaylaqlar və qışlaqlar – 137

## *Ön söz*

# Coğrafi adlar – etnik tarixin yaddaşı

Coğrafi adlar mahiyyət etibarilə hər hansı bir ərazidə etnosun tarixən mövcud olmasına dair təkzibolunmaz sübutların, onun tarix və mədəniyyətinə, inancına, yaşam tərzinə dair məlumatların daşıyıcısıdır. Yunan dilində "ad qoymaq", "adlandırmaq" anlamını verən onomastika və onun coğrafi adlarla bağlı olan sahələri bu gün həm dilçilik, həm də coğrafiya elmlərinin bir istiqaməti çərçivəsindən kənara çıxaraq sosial-siyasi sahələrə, hətta dövlətlərarası, xalqlararası münasibətlərə də nüfuz edə, bir çox hallarda isə çirkin əllərdə ideoloji silaha, ictimai şüurun manipulyasiya vasitəsinə çevrilə bilmişdir. Bu reallıq Ermənistan Respublikasının azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə aksiyalarında və kulturosid siyasətində, azərbaycanlılara aid tarixi yer adlarının kütləvi şəkildə dəyişdirilməsində, maddi-mədəni izlərinin silinməsində və mənimsənilməsində özünü daha qabarıq göstərməkdədir. Lakin həqiqət gec-tez üzə çıxır. Onu həmişəlik nə gizlətmək, nə də təhrif etmək mümkündür. Həqiqət istənilən halda üzə yalanı, saxtakarlığı, riyakarlığı ifşa edir.

Hörmətli oxucular, sizə təqdim olunan kitabın əsas missiyası da həqiqətin və bu gün "Ermənistan Respublikası" adlandırılan qədim ərazilərimizlə bağlı tarixi yaddaşın bərpasıdır. Kitabın "Həqiqətin onomastikası" adlandırılması da məhz bu zərurətdən irəli gəlmişdir.

Ermənilərin bu ərazilərlə əlaqəli uydurduqları "qədim tarix"in saxtakarlıq, siyasi mif olması hazırda öz təsdiqini tapmışdır. Azərbaycana qarşı ərazi iddiası irəli sürən ermənilərin, əslində, Cənubi Qafqazda ən son məskunlaşan etnos olduqları da sübut edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tarixdə ilk erməni dövlətinin 1918-ci ildə qədim Azərbaycan torpaqlarında – keçmiş İrəvan xanlığının ərazisində yaradıldığını və həmin ərazidəki toponimlərin mütləq əksəriyyətinin azərbaycanlılara məxsus olduğunu dəfələrlə bəyan etmişdir. Bildirmişdir ki, "**İndiki Ermənistan Respublikasının ərazisi qədim Azərbaycan torpağıdır. Bu faktdır, tarixi faktdır. Heç uzağa getmək lazım deyil. XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir. Hər kəs görər ki, indiki Ermənistanın bütün ərazisindəki toponimlərin, demək olar ki, mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Mən xahiş edirəm, bizim alimlərimiz bunu dərc etsinlər ki, hər kəs görsün**".

Oxuculara təqdim edilən "Həqiqətin onomastikası" kitabı da məhz dövlət başçısının tövsiyələri əsasında qələmə alınmış ensiklopedik topludur və məqsəd tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasıdır. Kitaba indiki Ermənistan Respublikasının ərazisində azərbaycanlıların tarixən yaşadıqlarını sübut edən məlumat və xəritələr daxil edilmişdir. O da xüsusi olaraq vurğulanmalıdır ki, hətta XIX əsrə aid xəritələrdə də ermənilərlə bağlı yer adlarına rast gəlinməmişdir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev Ermənistan Respublikası ərazisinin tarixi Azərbaycan torpaqları olduğunu göstərərək demişdir: "**İrəvan xanlığında yaşayan əhalinin əksəriyyəti azərbaycanlılar idi. Zəngəzur mahalı qədim Azərbaycan torpağıdır və süni şəkildə Ermənistana verilmişdir. Zəngəzur mahalının Ermənistana verilməsi böyük ədalətsizlik idi. Bütün Ermənistan ərazisinin əksər toponimləri Azərbaycan mənşəli toponimlərdir**".

Beləliklə, bu gün "Ermənistan Respublikası" adlanan dövlətin ərazisi tarixi Azərbaycan torpaqlarının bir hissəsini əhatə edir. Məlumdur ki, hər hansı bir etno-mədəni arealda coğrafi onomastika qatının formalaşması uzunsürən prosesdir. Yer-yurd adları orada yaşayan xalqlar tərəfindən formalaşdırılır, tədricən isə folklorda və tarixi ədəbiyyatlarda öz əksini tapır. Müəyyən ərazi və buradakı köklü əhali ilə bağlı oykonimlər (yaşayış məntəqələrinin, şəhər və kəndlərin, yaylaqların, qışlaqların və s. adları), antrotoponimlər (şəxs adlarından törəmiş coğrafi adlar), hidronimlər (çayların, nohur və göllərin, bulaqların, şəlalələrin və s. adları) və oronimlər (dağ, dərə, təpə, aşırım və s. adları) orada yaşayan xalqların tarixini, mədəniyyətini və etnoqrafiyasını özündə aydın əks etdirir. Bu adlar eyni zamanda həmin ərazinin coğrafi mövqeyi, relyefi, orada baş vermiş tarixi hadisələr, miqrasiya prosesləri və s. ilə də səsləşir.

Qədim yazılı mənbələr də təsdiq edir ki, "erməni" konfessionimi altında tanıdılan haylar ilk dəfə bu regiona xristian missionerləri kimi gəlmişlər. Haylar ərəb xilafəti dövründə islam dinini qəbul edən aborigen türkmənşəli boyların tərk etdikləri ərazilərdə bəzi dini məbədlərə sahib çıxmış, onları kilsəyə çevirmiş, elə oradaca saxta tarix yaratmağa başlamışlar. Halbuki istər Orta əsrlərə aid yazılı mənbələrdə, istərsə də çar Rusiyasının işğalı dövrünün rəsmi sənədlərində, hərbi-topoqrafik xəritələrdə buradakı yer adlarının Azərbaycan türklərinə və bütövlükdə azərbaycanlılara aid olduğu aydın şəkildə göstərilmişdir.

Azərbaycan türklərinin və azərbaycanlıların əcdadları Cənubi Qafqazın, o cümlədən də indi "Ermənistan Respublikası" adlanan dövlətin qədim sakinləri olan aborigen əhalisi idi. Bu faktı əsaslı şəkildə təsdiqləyən amillərdən biri də coğrafi adlardır. Hazırda "Ermənistan Respublikası" kimi təqdim edilən ərazi müxtəlif dövrlərdə Urartu, Sasani, Ərəb xilafəti, Sacilər, Salarilər, Şəddadilər, Rəvvadilər, Səlcuqilər, Eldənizlər, İlxanilər, Teymurilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar, Osmanlı dövlətlərnin və çar Rusiyasının tərkibinə daxil olmuşdur. Tarixdə ilk müstəqil erməni dövləti isə yalnız 1918-ci ildə Azərbaycan torpağında – İrəvan xanlığının ərazisində yaradılmışdır. Burada yaşayan azərbaycanlılar XIX əsrdən etibarən çar Rusiyasının xristianlaşdırma siyasəti və sovet hakimiyyətinin milli ayrı-seçkilik siyasəti nəticəsində – 1905–1906, 1918–1920, 1948–1953 və 1988–1991-ci illərdə öz tarixi-etnik torpaqlarından zorən, silah gücünə deportasiya olunmuşlar.



*"İrəvanda məqbərə"*
*Rəssam Vanderburx. 1838-ci il*

Tarixi mənbələrə əsasən indiki Ermənistan Respublikası ərazisində yaşamış qədim türk tayfalarından biri ***kimmerlər*** (e.ə. 722–705-ci illərdə) olmuşlar. Bu isə Urartu çarı I Rusanın dövrünə təsadüf edir[1]. İrəvan yaxınlığındakı Qəmərli rayonunun (04.09.1945 – Artaşat), eləcə də Eçmiədzin rayonunun ərazisindəki Qəmərli kəndinin adı (15.07.1946 – Medzamor) etnonim olaraq həmin tayfanın adını özündə əks etdirir. Yeri gəlmişkən, Gümrü şəhərinin adı da kimmerlərlə bağlıdır.

[1] Дьяконов И. К методике исследований по этнической истории («киммерийцы») // Этнические проблемы Центральной Азии в древности. Москва. 1981, с. 82

Qərbi Azərbaycan ərazisində yaşamış türk tayfalarından biri də ***saklar*** idi. Assur mənbələrinə görə, saklar e.ə.VII əsrdə Qara dənizin şimalından Qafqaza gəlməyə başlamışlar. Herodot bu tayfanın adını "skiflər" kimi verir. Sakların Qərbi Azərbaycana – indiki Ermənistan ərazisinə gəlməsi e.ə. VII əsrdən başlamışdır. Bu tayfanın adı Ermənistandakı Sisian rayonunun adında öz izini qoruyub saxlamışdır[2]. ***Quqarlar*** isə, təqribən, e.ə. VII–VI əsrlərdə bu ərazidə yaşamışlar. Onlar Göyçə gölü və Pəmbək əyaləti ətrafında məskunlaşmışdılar. Qədim mənbələrə görə, burada Qoqarena əyaləti olmuşdur. Türkmənşəli quqar tayfasının adı Quqark toponimində özünü göstərir.


*Aşağı Qaranlıq, indiki Kavar (Kəvər) vilayətində Qaraqoyunlu dövlətində oğuz bəyi Əhməd ibn Qasımın məzarüstü daşı. 1575-ci il*

Bu torpaqlarda məskunlaşmış türk tayfalarından biri ***"şiraq"*** adlanırdı. Tarixi mənbələrdə bu etnonim "şirak", "siraq", "çirak" kimi müxtəlif fonetik formalarda da qeydə alınmışdır. Şirak tayfası Göyçə gölü ətrafında, Arpaçayın aşağı axarında yaşamışdır. Bu tayfanın adı indiki Ermənistanın ərazisində tarixən mövcud olmuş Şirak əyalətinin adında, Şörəyel toponimində özünü qoruyub saxlamışdır.

Qərbi Azərbaycan ərazisində ***qarqar*** və ***peçeneq*** türk tayfaları da yaşamışlar. Bu tayfaların adlarını özündə yaşadan coğrafi adlar da çoxdur[3]. ***Şadılı*** tayfası Vedibasar bölgəsində və Göyçə gölü kənarında məskunlaşmış saqa-qamər boylarının qurduğu Saqa dövləti ilə bağlıdır[4]. "Şadlı" sözü isə qədim türk dilində ali rütbə bildirən "şad" sözündən yaranmışdır[5]. Bu etnonimə Vedibasar mahalında azərbaycanlıların yaşadıqları Şidli kəndinin adında rast gəlinir. İndiki Ermənistan Respublikası ərazisində tarixən məskunlaşan qədim türk tayfalarından biri də ***kəngərlərdir***. Kəngərlər əsasən Ağrı vadisində və Gürcüstanla sərhəd ərazilərdə yaşamışlar. Kəngərli tayfasının adı Ermənistan ərazisindəki Qızılqoç nahiyəsində (indiki Aşosk) Kəngər dağının oronimində özünü qoruyub saxlamışdır.

Cənubi Qafqaz regionunun türk tayfalarından biri ***zəngi*** idi. Zəngilər oğuz boylarının qayı qoluna aiddir. Qayı qolunun ***qaçar, baharlı, zəngənə, zülqədər, padar, çoban*** tayfalarının adları ilə bağlı Zəngəzurda onlarca toponim vardı. Ermənilərin bu gün "Hrazdan" adlandırdığı Zəngi çayının, "Masis" kimi təqdim etdiyi Zəngibasar ərazilərinin adı da bu tayfa ilə əlaqəlidir. İndiki Ermənistan ərazisində həmçinin tarixən ***cinli, sabunçu, bayandur, qacar, peçeneq, qazax, əfşar, xalac, şamlı, ustaclı, türkman, ayrım, qarapapaq, qaramanlı, muğanlı*** və b. türk tayfaları da yaşamışdır. Ümumiyyətlə, Ermənistan Respublikası təsis edilənədək qədim oğuz boylarının və onların çoxsaylı tayfalarının adları bu ərazidəki coğrafi adlarda mövcud olmuşdur.

Ermənilər tarixi gerçəklikləri saxtalaşdıraraq iddia edirlər ki, guya onlar indiki Ermənistan ərazisinin ən qədim sakinləri olmuşlar, türklər isə yalnız XI əsrdən etibarən səlcuqların bu torpaqlara axını zamanı gəlmişlər. Halbuki tanınmış erməni tarixçisi Karen Yüzbaşyan səmimi etiraf edir ki, qədim türklər

[2] Kırzıoğlu Fahrettin M. Kars tarihi, I c., İstanbul, "Işil" matbaası, 1953, s. 91–94

[3] Bayramov I. Qərbi Azərbaycan türk mənşəli toponimləri. Bakı, "Elm", 2002, s. 162–163, 207–208

[4] Ağasıoğlu F. Vedibasar mahalının qədim türk tayfaları. "Vedibasar" qəzeti, Bakı, 27 fevral 2003-cü il

[5] Ağasıoğlu F. Azər xalqı (seçmə yazılar). Bakı, Ağrıdağ, 2000, s. 70

Qafqazda səlcuqların gəlişindən xeyli əvvəl də yaşamışlar. Hətta Ərəb xilafəti dövründə sərhəd bölgələrinin əmirləri, bir qayda olaraq, türk tayfalarının başçılarından seçilirdi[6].

Qədim türk eposunun – "Kitabi-Dədə Qorqud" dastanının coğrafi mühiti həm də Qərbi Azərbaycanla sıx şəkildə bağlıdır. "Oğuznamə"lərdə və "Kitabi-Dədə Qorqud" dastanında çəkilən yüzlərlə yer-yurd adı Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində mövcud olmuşdur. Dastanda adı çəkilən Alagez (Alagöz/Ələyəz), Şirokuz (Şirək oğuzları eli, yəni Şörəyel), Bayındır, Altuntaxt, Cızıqlar, Ağlağan, Gökcə dəngiz (Göyçə gölü), Gökcə dağ oğuzların doğma yurdları olmuşdur. "Kitabi-Dədə Qorqud" dastanından məlum olur ki, Göyçə gölü hövzəsi oğuzların xanı Qazan xanın hökm etdiyi ərazilərdən biri idi. Bayandurlu Həsən padşahın əmri ilə Əbu Bəkr Tehraninin oğuz boylarının tarixi haqqında yazdığı "Kitabi-Diyarbəkriyyə" əsərində Oğuz xanın Göyçə yaylaqlarında yaşamasından və burada da vəfat edərək dəfn olunmasından bəhs edilir[7]. VII əsrin ortalarından etibarən regionda islam dini yayılmış və indiki Ermənistan ərazisində yaşayan oğuz boyları bu inancı qəbul etmişlər. Buradakı qıpçaq tayfalarının bir qismi isə xristian etiqadında qalmışdır.

Qərbi Azərbaycan, indiki Ermənistan Respublikası ərazisindəki yaşayış məntəqələrinin adını özündə əks etdirən və günümüzə gəlib çatan ilk siyahılar Osmanlı-Səfəvi dövlətləri arasında gedən hərbi-siyasi qarşıdurmalardan sonra tərtib edilmişdir. Çuxur-Səəd bəylərbəyliyinin ərazisində 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə və 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə müasir Ermənistanın türk mənşəli yer adları geniş şəkildə, dəqiqliklə öz əksini tapmışdır[8]. 1763–1782-ci illərdə Eçmiədzin katolikosu olmuş Simeon Yerevansinin "Cambr" əsərində də İrəvan xanlığının ərazisindəki türkmənşəli coğrafi adlar haqqında kifayət qədər məlumat verilir[9].



*İrəvan xanlığının bayrağı (orijinal)*

1827-ci ildə Rusiya qoşunları İrəvan və Naxçıvan xanlıqlarını işğal etdikdən sonra 1828-ci il fevralın 10-da imzalanan Türkmənçay müqaviləsi ilə İrəvan və Naxçıvan xanlıqları Rusiyaya birləşdirildi. Martın 21-də çar I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarını birləşdirən ərazidə "Erməni vilayəti" yaradıldı. İrəvan xanlığının 15 mahalı yeni yaradılan İrəvan əyalətinin tərkibinə daxil edilmişdi. Həmin vaxt "Erməni vilayəti"nin ərazisinəki 1111 kənddən yalnız 62-də ermənilər yaşayırdı ki, onlardan da yalnız 14-nün adı erməni mənşəli idi[10].

İrəvan xanlığının Rusiya qoşunları tərəfindən işğalından sonra rus tarixçi-statisti İvan Şopenin rəhbərliyi altında 1829–1832-ci illərdə xanlığın ərazisində kameral siyahıyaalma keçirilmişdir. Onun nəticələrinə görə, İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə İran və Türkiyədən 57266 nəfər erməni

---

[6] Юзбашян Карен. Армянские государства эпохи Багратидов и Византия. Москва, 1998, с. 216–217

[7] Ebu Bekr-i Tihrani. Kitab-ı Diyarbekriyye. Ankara, Türk Tarih Kurumu, 2011, s. 30–31

[8] İrəvan əyalətinin icmal dəftəri. Bakı, "Elm", 1996

[9] Ереванци Симеон. Джамбр. Москва, 1958

[10] Vandalizm: tarixi adlara qarşı soyqırımı. Tartib edəni Nazim Mustafa. Bakı, Turxan NPB, 2014, s. 4

(10631 ailə) köçürülmüşdür[11]. İrəvan xanlığı ərazisində yeni yaradılan İrəvan əyalətində 831 kənd qeydə alınmışdı ki, bunlardan 310-u müharibə nəticəsində boşalmışdı. İ.Şopenin verdiyi məlumatların təhlilindən aydın olur ki, Türkmənçay (1828) müqaviləsinə əsasən İrandan köçürülən ermənilər İrəvan xanlığının 119 kəndində, Ədirnə (1829) müqaviləsinə əsasən Türkiyədən köçürülən ermənilər isə xanlığın 128 kəndində yerləşdirilmişdilər. Köçürülmələr nəticəsində İrəvan xanlığının ərazisində azərbaycanlılarla ermənilərin qarışıq yaşadıqları 50 kənd meydana gəlmişdi.

İran ərazisindən ermənilərin köçürülüb gətirilməsinə rəhbərlik edən rus ordusunun erməni əsilli polkovniki Lazarevin yazdığı kimi, ermənilər Azərbaycan torpaqlarında özlərinə "yeni vətən" əldə edirdilər[12]. Nəticədə, 1828-ci ildən 1830-cu ilədək Cənubi Qafqaza İrandan 40 min, Türkiyədən 90 mindən artıq erməni köçürülüb yerləşdirilmişdi[13]. Ümumiyyətlə, rəsmi və qeyri-rəsmi köçürülmələr nəticəsində Cənubi Qafqazda 200 mindən artıq erməni yerləşdirilmişdi[14]. Ermənilərin həmin ərazilərə köçürülməsi etnik balansın məqsədli şəkildə ermənilərin xeyrinə dəyişdirilməsinə xidmət edirdi. XX əsrin əvvəllərində İrəvan quberniyasına daxil olan 7 qəzadan 4-də azərbaycanlılar çoxluq təşkil edirdilər.



*İrəvan xanı Hüseynqulu xan Qacar (1742–1831)*

D.D.Paqirevin «Алфавитный указатель к пятиверстной карте Кавказского края» (Тифлис, 1913) əsərində, «Сборник материалов для описания местностей и племен Кавказа (СМОМПК, вып.: 4, 5, 13, 25, 27, 40, Тифлис, 1884, 1886, 1892, 1898, 1900, 1909), «Кавказский календарь» (Тифлис, 1846, 1878, 1907, 1908, 1916), «Материалы для изучения экономического быта государственных крестьян Закавказского края» (тт. I–IV, Тифлис, 1862–1886) və s. kitablarda, «Акты собранные Кавказской Археографической Комиссией» (тт. I–XII, Тифлис, 1866–1904) sənədlər toplusunda, E.Q.Veydenbaumun (Путеводитель по Кавказу, Тифлис, 1888), S.Anisimovun (Путеводитель по Кавказу, М., 1924), Z.Qorqodyanın "1831–1931-ci illərdə Sovet Ermənistanının əhalisi" (İrəvan, 1932, erməni dilində), K.M.Avetisyanın "Coğrafi adlar lüğəti" (İrəvan, 1969, erməni dilində) və s. əsərlərdə türkmənşəli toponimlər olduğu kimi qeydə alınmışdır. Zaven Qorqodyanın "1831–1931-ci illərdə Sovet Ermənistanının əhalisi" kitabında qeydə alınmış 2310 yaşayış məntəqəsi və digər inzibatı vahidlərin, təqribən, 2000-nin adı türkmənşəlidir.

Ermənilərin Cənubi Qafqaza, o cümlədən də keçmiş Azərbaycan xanlıqlarının ərazisinə növbəti axını XIX əsrin 90-cı illərində baş vermiş, Türkiyədəki erməni üsyanlarının yatırılması nəticəsində 300 minə yaxın erməni Qafqaza köçüb gəlmiş, region qan çanağına dönmüşdür. Çar Rusiyasının hakim

[11] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб, Типография Императорский Академии Наук, 1852, с. 642

[12] Глинка С.Н. Описание переселения армян азербайджанских в пределе России, Баку, «Элм», 1990, с. 111

[13] Парсамян В. История армянского народа, 1801–1900 гг., кн. I, Ереван, «Айастан», 1972, с. 66

[14] Шаврова Н.Н. Новая угроза русскому делу в Закавказье: предстояшая распродажа Мугани инородцам, Баку, «Элм», 1990, с. 63




*İravan quberniyasının etnoqrafik xəritəsi. 1886-cı il*

dairələrinin ermənipərəst mövqeyindən istifadə edən ermənilər 1905–1906-cı illərdə azərbaycanlıların yaşadığı ərazilərdə silah gücünə etnik təmizləmə siyasəti həyata keçirməyə başlamışdılar. Həmin illərdə indiki Ermənistan ərazisində dağıntılara məruz qoyulan azərbaycanlı yaşayış məntəqələrinin bir qismi xarabalığa çevrilmişdir. Sırf ermənilərdən ibarət anklavlar məhz o zaman yaranmışdır[15].



*İrəvan kələntəri Məhəmməd Rzabəyin 1715-ci ildə səfir qismində Fransaya səfəri. XVIII əsrə aid Fransa miniatürü*

1918-ci il mayın 28-də tarixi Azərbaycan torpaqlarında ilk erməni dövləti – Ermənistan Respublikası yaradıldı. Bir gün sonra Müsəlman Milli Şurası İrəvanın siyasi mərkəz kimi Ermənistana güzəşt edilməsi haqqında qərar qəbul etdi. Azərbaycan Milli Şurası İrəvan şəhərini o şərtlə Ermənistan Respublikasına paytaxt kimi güzəştə getmişdi ki, Azərbaycana qarşı ərazi iddiası irəli sürülməyəcək[16]. Lakin Ermənistan hökuməti nəinki vədinə əməl etdi, əksinə, həm Azərbaycan Respublikasının ərazilərinin işğalını, həm də İrəvan quberniyası ərazisində azərbaycanlılara qarşı soyqırımı siyasətini davam etdirdi.

1918–1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı törətdiyi qırğınlar Ermənistan dövlətinin yeritdiyi işğalçılıq və etnik təmizləmə siyasətinin nəticəsi idi. 1918-ci ilin mart ayınadək erməni silahlı dəstələri təkcə İrəvan quberniyasında 198 kəndi darmadağın etmiş, təqribən 135 min nəfər soydaşımızı soyqırımına məruz qoymuşdu. Ermənistan daşnak hökuməti Zəngəzuru azərbaycanlılardan tamamilə təmizləməklə Paris Sülh Konfransını fakt qarşısında qoymaq, daha sonra Qarabağı və Naxçıvanı ələ keçirməklə daşnak parlamentinin 28 may 1919-cu il tarixli "Birləşmiş Ermənistan" yaradılması haqqında qərarını reallaşdırmaq niyyətində idi.

1918–1920-ci illərdə Qarabağın dağlıq hissəsində 150-dən artıq, Zəngəzur qəzasında 217 kənd bütövlüklə dağıdılmış, əhalisinin xeyli hissəsi erməni silahlı qüvvələri tərəfindən vəhşicəsinə öldürülmüşdü. Təkcə İrəvan quberniyasında 300-dən artıq kənd dağıdılmış, əhalisi soyqırımına məruz qoyulmuşdu. Ermənistan ərazisində azərbaycanlıların yaşadığı 130 kənd erməni silahlı dəstələri tərəfindən dağıdıldıqdan sonra həmişəlik olaraq xarabalığa çevrilmişdi. 1916-cı ildə İrəvan quberniyasında 373582 nəfər azərbaycanlı qeydə alındığı halda, 1920-ci ilin noyabrında Ermənistan SSR-də cəmi 12 min nəfər azərbaycanlı qeydə alınmışdı.

1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti quruldu. Ermənistan Xalq Komissarları Soveti 20 iyul 1921-ci ildə Ermənistanın 8 qəza, 33 nahiyədən ibarət inzibati-ərazi bölgüsünü təsdiq etdi. Bir qədər sonra – avqustun 31-də 9-cu qəza – Zəngəzur qəzası yaradıldı. Sovet Azərbaycanı isə, öz növbəsində, Zəngəzurun qərb hissəsini – sonradan yaradılan Gorus, Sisian, Qafan rayonlarını və Meğri rayonunu öz inzibati-ərazi bölgüsündən çıxartdı. Beləliklə, Yuxarı Zəngəzurun ermənilərin əlinə keçməsi prosesi başa çatdırıldı.

---

[15] Mustafa N. Erməni silahlı dəstələrinin 1905–1906-cı illərdə Cənubi Qafqazda törətdikləri qırğınlar. "Hərbi bilik" (hərbi elmi-nəzəri, publisistik jurnal). Bakı, 2013, №5, s. 92–100

[16] Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), fond 970, siy. 1, iş 1, v. 51–52

1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar qəbul etmişdir. Həmin qərarla Ermənistanın 22 rayonundan 100 min azərbaycanlının köçürülməsi nəzərdə tutulmuşdu. 1948–1953-cü illərdə bu qərar zorakı üsullarla həyata keçirilmiş, 24 rayondan (200-dən artıq yaşayış məntəqəsindən) və İrəvan şəhərindən, təqribən, 100 min nəfər azərbaycanlı öz tarixi-etnik torpaqlarından deportasiya edilmişdir.

1988-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayətində baş qaldıran erməni separatizminin qarşısının vaxtında alınmaması öncə Ermənistanda yaşayan azərbaycanlıların tarixi-etnik torpaqlarından deportasiyası ilə nəticələndi. Rəsmi Moskvanın ermənilərə arxa durması nəticəsində 1988–1989-cu illərdə indiki Ermənistan ərazisində azərbaycanlıların yaşadığı 170 tam və ermənilərlə birgə yaşadığı 94 məntəqə azərbaycanlılardan təmizləndi. Ümumiyyətlə, həyata keçirilən sonuncu etnik təmizləmə nəticəsində Ermənistanın 22 kənd rayonundan və 6 şəhərindən, təqribən, 230 mindən artıq azərbaycanlı və 18 mindən artıq müsəlman kürdü Azərbaycana deportasiya edildi.

Ermənilərin XIX–XX əsrlərdə azərbaycanlılara qarşı törətdiyi kütləvi qırğınlar, soyqırımıları və deportasiya aksiyalarına hüquqi-siyasi qiymət vermək məqsədilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 26 mart 1998-ci ildə "Azərbaycanlıların soyqırımı haqqında" Fərman imzalamış və bütün soyqırımı faciələrini yad etmək üçün 31 mart Azərbaycanlıların Soyqırımı günü elan edilmişdir.



*Sərdarabad qalası. Rəssam Q.Qaqarin (1847)*

Ermənistanda türkmənşəli coğrafi adların erməniləşdirilməsi prosesi daşnak hökuməti zamanında geniş vüsət almışdı. 1919-cu ilin dekabrında Ermənistan hökumətinin qərarı ilə Daxili İşlər Nazirliyinin nəzdində kəndlərin, şəhərlərin, çayların və dağların adlarının dəyişdirilməsi üçün xüsusi komissiya yaradılmışdı[17]. 1918–1920-ci illərdə daşnakların hakimiyyəti dövründə indiki Ermənistan ərazisində 17 yaşayış məntəqəsinin adı erməniləşdirilmişdir[18]. 1920-ci ildə Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra – 1935-ci ilədək Ermənistanda 200-ə yaxın yaşayış məntəqəsinin (oykonimlərin) adı hökumətin qərarları əsasında dəyişdirilmişdir. 1935-ci ildən etibarən isə yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanları əsasında həyata keçirilmişdir[19].

Ermənistan ərazisində coğrafi adların dəyişdirilməsi etnosiyasi vandalizmin təzahürü idi. Azərbaycan türklərinin tarixi-etnik torpaqlarındakı izlərini silmək məqsədini güdən addəyişmə əməliyyatları əsasən aşağıdakı qaydada həyata keçirilmişdir (adlar sovet Ermənistanındakı inzibati rayonların bölgüsü əsasında verilir):

---

[17] ARDA, fond 897, siyahı 1, iş 105; «Слово» qəzeti, (Tiflis), 30 dekabr 1919-cu il, №113

[18] Bayramov İbrahim. Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. Bakı, "Çıraq", 2012, s. 215–216

[19] Армянская ССР: Административно-территориальное деление на 1-ое августа 1988 года. Издание шестое. Ереван: Айастан, 1988.



*XIX əsrin əvvəllərində inşa olunmuş Sərdar (Abbas Mirzə) məscidini erməni vandalları XX əsrin sonlarında bu vəziyyətə salmışlar. Hazırda tikili tamamilə yox edilmişdir.*

**1. İlk növbədə, türklərin soykökü, onların tarixi keçmişi ilə bağlı yaşayış məskənlərinin adının (etnonimlər) dəyişdirilməsinə xüsusi diqqət yetirilmişdir.** Məsələn, Aşağı Türkmənli – Lusaqyuğ (Eçmiədzin), Qorçulu – Mrqaşad, Sərdarabad – Hoktember (Qurduqulu, Hoktemberyan), Bəyandur – Vağadur (Gorus), Şirvancıq – Lernakert (Artik) və s.

**2. Bir çox yaşayış məskənlərinin adı ermənicəyə hərfi tərcümə (kalka) edilmişdir.** Məsələn, Armudlu – Tandzut (Qurduqulu, Hoktemberyan), Daşqala –Karaberd (Ağin, Ani), Dərəkənd – Dzoraqyuğ (Quqark), Dərəçiçək – Tsaxkadzor (Axta, Hrazdan), Göl – Liçk (Aşağı Qaranlıq, Martuni), Güllübulaq - Vardaxpuyr (Qızılqoç, Qukasyan) və s.

**3. Bəzi yaşayış məskənlərinin adı "beynəlmiləlçilik" pərdəsi altında dəyişdirilmişdir.** Məsələn, Qaraqışlaq – Dostluq (Zəngibasar, Masis), Sultanabad – Şurabad (Ağbaba, Amasiya), Cücəkənd – Qızılşəfəq (Voronsovka, Kalinino), Aşağı Necili – Sayat-Nova (Zəngibasar, Masis), Çanaxçı – Sovetakert (Vedi, Ararat) və s.

**4. Yaşayış məskənlərinin adlarının bir qismi isə cüzi dəyişikliklə, ona oxşar, lakin ermənicələşdirilmiş adlarla əvəz edilmişdir.** Məsələn, Dərəbas – Darbas (Qarakilsə, Sisian), Dəlilər – Dalar (Qəmərli, Artaşat), Ələyəz – Araqats (Talin), Gabud – Kapuyt (Paşalı), Çırpılı – Crapi (Ağin, Ani) və s.

**5. "Ermənistan SSR-in inzibati ərazi bölgüsü"nün qeyd etdiyimiz nəşrlərində adının önündə "Yuxarı", "Aşağı", "Böyük", "Kiçik" sözləri gələn türkmənşəli yaşayış məntəqələrinin adında əksini tapan həmin sözlərin ermənicə, yəni müvafiq olaraq "Verin", "Nerkin", "Mets", "Pokr" şəklində yazılması bu adların erməni dilində olması görüntüsü yaratmağa xidmət etmişdir.** Məsələn, Verin Zağalı – Axpradzor (Basarkeçər, Vardenis), Nerkin Zeyvə – Hartaşen (Eçmiədzin), Mets Kəpənəkçi – Musaelyan (Düzkənd, Axuryan), Pokr Şiştəpə – Pokr Sepasar (Qızılqoç, Qukasyan) və s. Biz isə oxuculara təqdim olunan mətnlərdə həmin adları ermənilərin təqdim etdiyi kimi deyil, əslində olduğu kimi vermişik. Yəni Yuxarı Zağalı, Aşağı Zeyvə, Böyük Kəpənəkçi, Kiçik Şiştəpə və s.[20]

Ermənistan SSR Ali Sovetinin 19 aprel 1950-ci il tarixli qərarı ilə əhalisi Azərbaycana köçürüldüyü üçün Əzizbəyov (keçmiş Paşalı) rayonundan Arınc, Cul (Hartavan), Bulaqlar, Zirək, Tarp kəndləri, Abaran rayonundan Kirəşli, Hamamlı, Əştərək kəndləri, Axta rayonundan Qorçulu, Mikoyan rayonundan Heşin, Qışlaq, Ardaraz kəndləri yaşayış məntəqələri siyahısından silinmişdir.

1920–1988-ci illərdə indiki Ermənistan ərazisində 517 türkmənşəli yaşayış məntəqəsinin adı dəyişdirilmişdir[21].

Ermənistan ərazisində azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə siyasəti həyata keçirildikdən sonra Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 3 aprel 1991-ci il tarixli qərarı ilə 91 yaşayış məntəqəsinin, 8 avqust 1991-ci il tarixli qərarı ilə 16 yaşayış məntəqəsinin adı dəyişdirilərək mənəvi soyqırımına məruz qoyulmuşdur.

[20] Vandalizm: tarixi adlara qarşı soyqırımı, s. 11–12

[21] Arzumanlı Vaqif, Mustafa Nazim. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı, "Qartal", 1998, s. 151




*İrəvan quberniyasının inzibati xəritəsi. Mənbə:* "Географическое описаніе Россійской Имперіи по губерніямъ и областямъ съ географическими картами". Санкт–Петербургъ: Типографія «Бережливость», 1913.

Sovet hakimiyyəti illərində adı dəyişdirilən toponimlər barəsində Ermənistan SSR Ali Sovetinin qərarlarının bir nüsxəsi, bir qayda olaraq, SSRİ Ali Sovetinin Rəyasət Heyətinə, onun Katibliyinə və SSRİ Nazirlər Sovetinin nəzdindəki Dövlət Geodeziya və Kartoqrafiya Baş İdarəsinə göndərilirdi ki, həmin dəyişikliklər yaşayış məntəqələrinin siyahısında və buraxılan xəritələrdə nəzərə alınsın. Bu gün o sənədlər Rusiya Federasiyası Dövlət Arxivinin müvafiq fondlarında saxlanılır.

Amerika Şarja Universitetinin dosenti Arsen Saparovun araşdırmalarına görə, Sovet hakimiyyəti illərində Ermənistan ərazisində mövcud olan 107 hidronimdən 71-nin (66 %), 315 oronimdən 164-nün (52 %) adı dəyişdirilmişdir[22].

23 avqust 1991-ci ildə Ermənistan dövlət müstəqilliyini əldə etdikdən sonra addəyişmə prosesi əsasən başa çatdırılmışdır. Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə əvvəllər azərbaycanlılara məxsus olmuş 31 yaşayış məntəqəsinin adı dəyişdirilərək erməniləşdirilmişdir. Ümumiyyətlə, son dövrədək 704 Azərbaycan mənşəli inzibati-ərazi vahidinin adı dəyişdirilmişdir.

İndiyədək Ermənistan Respublikası ərazisində 499 azərbaycanlı yaşayış məntəqəsi müxtəlif yollarla – əhalisi kütləvi qırğınlara və soyqırımına məruz qoyulmaqla, deportasiya edilməklə, kəndlər süni surətdə birləşdirilməklə və s. üsullarla siyahıdan silinmişdir ki, bu yaşayış məntəqələri haqqında məlumatlar kitabda ayrıca başlıq altında verilir. Bu kəndlərin böyük əksəriyyəti törədilən 1905–1906-cı illər kütləvi qırğınları, 1918–1920-ci illər soyqırımı və 1948–1953-cü illər deportasiyasından sonra xaraba qalmışdır[23]. Ümumiyyətlə, son 200 ildə indiki Ermənistan ərazisində azərbaycanlıların yaşadığı iki mindən artıq yaşayış məntəqəsi müxtəlif yollarla (əhalisi deportasiya edilməklə, silah gücünə qovulmaqla, soyqırımına məruz qoyulmaqla, yandırılıb xarabaya çevrilməklə və s.) siyahıdan silinmiş, tarixi Azərbaycan torpaqlarında monoetnik Ermənistan dövləti yaradılmışdır.

"Həqiqətin onomastikası" kitabında indiki Ermənistan Respublikası ərazisində mövcud olan türkmənşəli mikro və makrotoponimlər tarix, coğrafiya və dilçilik kontekstində araşdırılır. Eyni zamanda hər bir yaşayış məntəqəsinin coğrafi koordinatları, tarixi mənbələrdə qeyd edilən adları, toponimlərin müxtəlif fonetik formaları göstərilməklə yanaşı, yaşayış məntəqələrinin taleyi, əhalinin etnik tərkibi tarixi faktlar və statistik rəqəmlərlə verilir. Azərbaycanlıların deportasiyası və ermənilərin bu ərazilərə, hansı yaşayış məntəqəsinə nə vaxt, haradan köçürülüb yerləşdirilməsi məhz erməni və rusdilli mənbələrə, arxiv sənədlərinə istinad edilərək şərh olunur. Əsərdə həmçinin ərazinin türkmənşəli oykonimlərinin məna növləri (antropooykonim, etnooykonim, orooykonim, hidrooykonim, zoooykonim, fitooykonim), oronimlər, hidronimlər sistemli şəkildə oxuculara təqdim edilir.

Bu kitabda azərbaycanlılara məxsus toponimlərin yerləşdiyi ərazi haqqında məlumat həm həmin yaşayış məntəqəsinin yerləşdiyi, 1988–1989-cu illərdə azərbaycanlıların Ermənistandan deportasiyasınadək mövcud olan 37 inzibati rayon bölgüsünə əsasən, həm də "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci ildə yeni qəbul edilən vilayət (marz) bölgüsünə əsasən verilir. Ermənistanın yeni inzibati-ərazi bölgüsünə əsasən həmin vaxtadək mövcud olan rayonlar üzrə bölgü ləğv edilmiş, əvəzində 11 vilayət (marz) yaradılmışdır. **Şirak** vilayətinə mərkəzi Gümrü şəhəri olmaqla, keçmiş Amasiya (Ağbaba), Qukasyan (Qızılqoç), Axuryan (Düzkənd), Ani (Ağin) və Artik rayonları, **Lori** vilayətinə mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhəri olmaqla, keçmiş Kalinino, Stepanavan (Cəlaloğlu), Tumanyan (Allahverdi), Spitak (Hamamlı) və Quqark rayonları, **Tavuş** vilayətinə mərkəzi İcevan (Karvansara) şəhəri olmaqla, keçmiş Noyemberyan, İcevan (Karvansara) və Tauş (Şəmşəddin) rayonları, **Araqadzon** vilayətinə mərkəzi Aştarak (Əştərək) şəhəri ol-

[22] Saparov Arseny. The alteration of place names and construction of national identity in Soviet Armenia. https://doi.org/10.4000/monderusse.8604

[23] Rəhimoğlu Həbib. Silinməz adlar, sağalmaz yaralar. Bakı, "Azərnəşr", 1997, s. 125–130.

maqla, keçmiş Talın, Aparan, Araqats (Ələyəz), Aştarak (Əştərək) rayonları, **Kotayk** vilayətinə mərkəzi Hrazdan (Axta) şəhəri olmaqla, keçmiş Hrazdan (Axta), Kotayk (Abovyan – Ellər), Nairi rayonları, **Geğarkunik** vilayətinə mərkəzi Qavar (Kəvər) şəhəri olmaqla, keçmiş Krasnoselsk (Çəmbərək), Vardenis (Basarkeçər), Martuni (Aşağı Qaranlıq), Kamo (Kəvər) və Sevan rayonları, **Armavir** vilayətinə mərkəzi Armavir (Sərdarabad) şəhəri olmaqla, keçmiş Bağramyan, Hoktemberyan (Qurduqulu) və Eçmiədzin rayonları, **Ararat** vilayətinə mərkəzi Artaşat (Qəmərli) şəhəri olmaqla, keçmiş Masis (Zəngibasar), Artaşat (Qəmərli) və Ararat (Vedi) rayonları, **Vayotsdzor** vilayətinə mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhəri olmaqla, keçmiş Vayk (Əzizbəyov, Paşalı) və Yeğeqnadzor – (Keşişkənd-Mikoyan) rayonları, **Sünik** vilayətinə mərkəzi Qapan (Qafan) şəhəri olmaqla, keçmiş Meğri, Sisian, Qafan və Gorus rayonları daxil edilmişdir. **İrəvan** şəhərinə də ayrıca vilayət statusu verilmişdir.

Tarixi Azərbaycan torpaqlarında Azərbaycan mənşəli yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi prosesi əsasən başa çatdırılmışdır. Adları hələlik siyasi motivlərə əsasən bilərəkdən dəyişdirilməyən yalnız bir neçə yaşayış məntəqəsi saxlanılmışdır. Məsələn, Nizami (Zəngibasar), Avşar (Vedi), Hallavar (Quqark), Şamlıq (Tumanyan), Cil (Krasnoselsk) və s. Ermənilər tarixi saxtalaşdırdıqları kimi, tarixi xəritələri də saxtalaşdırıb, mövcud türkmənşəli toponimlər, hidronimlər, oronimlər erməni adları ilə əvəz edilib. Ermənilərin xəritə saxtakarlığının qarşısını almaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 aprel 2012-ci il tarixində imzaladığı Sərəncama əsasən Cənubi Qafqazın 1903-cü il hərbi-topoqrafik xəritəsi yenidən çap edilmişdir.

Kitaba Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeçiliyindəki "Geodeziya və Kartoqrafiya" MMC tərəfindən hazırlanan 1903-cü ilə aid hərbi-topoqrafik xəritənin indiki Ermənistan ərazisini əhatə edən hissəsindən ibarət xəritə, Ermənistan Respublikası ərazisində Azərbaycan mənşəli toponimlər xəritəsi və Ermənistan Respublikası ərazisində Azərbaycan mənşəli hidronimlər xəritəsi də əlavə edilib.

İndiki Ermənistan ərazisinin toponimlər sisteminin və onomastikasının öyrənilməsi bütöv Azərbaycanın tarixi coğrafiyasının öyrənilməsi baxımından xüsusi rol oynayır və eyni zamanda siyasi əhəmiyyət kəsb edir. Tarixi həqiqətlərin üzə çıxması erməni siyasi dairələrinin və onların havadarlarının, erməni tarixşünaslığının indiki Ermənistan ərazisinin tarixi erməni torpağı olması barədə iddialarını alt-üst edir.

Hörmətli oxucular! Sizin mühakimənizə verilən bu kitaba təqribən iki yüz illik müddət ərzində tarixi Azərbaycan torpaqlarında – bu gün "Ermənistan Respublikası" adlandırılan ərazilərdə soyqırımı və deportasiyaya məruz qoyulmuş, ləğv edilmiş, həmçinin adları dəyişdirilmiş yaşayış məntəqələri, yaylaqlar və qışlaqlar, hidronimlər və oronimlər – ümumiyyətlə, 1700-dən artıq onomastik vahid haqqında ensiklopedik lüğət şəklində məlumat daxil edilib. Kitab yazılarkən müxtəlif dillərdə çap edilmiş 400-dən artıq əsərə istinad edilmişdir. Ermənilərin Cənubi Qafqaza kütləvi şəkildə köçürüldükləri bütün dövrlərdə bu torpaqların qədim sakinlərinə – azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə cinayətlərinin, onların etnomədəni izlərinin silinməsinə, maddi-mədəni irsinin vəhşicəsinə talanmasına, dağıdılmasına və mənimsənilməsinə yönəldilmiş fəaliyyətlərinin ifşası üçün bu rəqəm də son hədd deyildir. Onların sayının daha çox olması ehtimalı böyükdür. Bu istiqamətdə araşdırmalar davam etməkdədir. Hələlik oxuculara kitabın birinci – ilkin variantı təqdim olunur. Amma iş bununla bitmir. Odur ki kitabın növbəti – ikinci nəşri üçün arzu və təkliflərinizi, iradlarınızı, bu nəşrə daxil edilməyən toponimləri bu ünvana göndərməyinizi xahiş edirik: **toponimler@gmail.com**

***İ.Bayramov***
***N.Mustafa***

# İndiki Ermənistan Respublikası ərazisində azərbaycanlıların tarixən yaşadığı və hazırda adları dəyişdirilmiş yaşayış məntəqələri

## A

**Abaran (Baş Abaran)** – İrəvan quberniyasının Eçmiədzin qəzasında kənd. İndi Araqatsotn vilayətinin mərkəzidir. İrəvandan 59 km şimalda, Abaran çayının sahilində, Alagöz dağının şərq ətəyində, dəniz səviyyəsindən 1880 m hündürlükdə yerləşir. Adı 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 174), Qafqazın 5 verstlik xəritəsində (348, s. 33) qeyd edilmişdir. 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə "Abaran" adlı nahiyənin (143, s. 54; 109) və Abaran nahiyəsində Abaran kəndinin (143, s. 109) olduğu qeyd edilir. Ermənilər buraya əvvəlcə 1828–1829-cu illərdə İranın Xoy, 1915–1920-ci illərdə Türkiyənin Van, Muş, Ələşkirt və Ərzurum vilayətlərindən köçürülüb yerləşdirilmişdir (427, s. 306). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən Türkiyəyə köç etmişdir. Burada indi yalnız ermənilər yaşayır. "Apar" toponimi türk etnoniminə (299, s. 47, 287; s. 103, 197) cəmlik bildirən "-an" şəkilçisinin qoşulması ilə əmələ gəlib, "aparların (avarlar) yaşadığı yer" mənasını ifadə edir. Erməni müəlliflərinin əsərlərində "Aparan" formasında qeyd edilir. Etnotoponimdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra, 1920–1930-cu illərdə Ermənistan SSR-in Eçmiədzin qəzasının inzibati ərazi bölgüsünə "Baş Abaran" adı ilə daxil edilmişdir. 1930-cu il sentyabrın 9-da "Abaran" adında rayon yaradılmışdır. Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin (***bundan sonra Erm. SSR AS RH-nin***) 3 yanvar 1935-ci il tarixli qərarı ilə adı dəyişdirilib "Aparan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 24).

Coğrafi koordinatları: 40°35′ şm. e., 44°21′ ş. u.

**Abdalağalı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 75 km şimal-şərqdə, dəniz səviyyəsindən 1940 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində Avdalağalu formasında qeyd edilir (415, s. 66). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 1). Ermənilərlə yanaşı, 1897-ci ildə 10 nəfər azərbaycanlı yaşamışdır (415, s. 67). XX əsrin əvvəllərində ermənilərin təzyiqi nəticəsində azərbaycanlılar kəndi tərk etmişlər. Toponim türk mənşəli "abdal" etnoniminə əsaslanan (355, s. 165) Abdalağalı tayfasının adından yaranmışdır. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilib "Vağaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 185).

Coğrafi koordinatları: 40°08′ şm. e., 45°19′ ş. u.

**Acıbac** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 40 km məsafədə, Nor Astğaberd kəndindən 2 km şimal-qərbdə, Gığı çayının sol qolu olan Acıbac çayının sahilində, dəniz səviyyəsindən 1950 m hündürlükdə yerləşir. Kəndin adı həm də "Acıbacı", "Acıbazı" formalarında işlənir. 1921-ci il avqustun 31-də

Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə 1886-cı ildə 202, 1897-ci ildə 34 nəfər azərbaycanlı yaşamışdır (415, s. 54–55, 132–133). Sonradan azərbaycanlılar deportasiya edilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. Burada 1922-ci ildə 77, 1926-cı ildə 90, 1931-ci ildə 115 (415, s. 55, 132–133), 1939-cu ildə 134, 1959-cu ildə 190, 1970-ci ildə 227, 1979-cu ildə 202 nəfər (427, s. 316; 416, s. 24) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında azərbaycanlılar tamamilə öz doğma yerlərindən deportasiya edilmişdir. Toponim türk dilində "hündür dağ aşırımı" mənasında işlənən "acı" sözü ilə (337, s. 238) Azərbaycan dilində "düzən yerdə tirə, təpəcik, hündür yer" mənasında işlənən "bazı" sözünün (253, s. 120) fonetik forması olan "bac" sözünün birləşməsindən əmələ gəlmişdir. "Acı" sözü Dağlıq Altayın türk mənşəli toponimlərinin tərkibində "aju/ajı" formalarında işlənir. Bu söz qədim türk dilində aju formasında "geniş dərə", "yarğan", "çökəklik" mənalarında işlənmişdir (359, I (1), s. 610). Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Acabac" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 24).

Coğrafi koordinatları: 39°15' şm. e., 46°05' ş. u.

**Adamxan** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 26 km cənub-şərqdə, dəniz səviyyəsindən 2000 m hündürlükdə yerləşir. Kəndin digər adı Atamxan olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 22). 1828-ci ilə qədər burada azərbaycanlılar yaşamışdır. 1828–1829-cu və 1877–1878-ci illərdə Türkiyənin Ələşkirt vilayətinin kəndlərindən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmiş (386, s. 595–598; 416, s. 189) və azərbaycanlılar deportasiya olunmuşdur. Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 iyul 1968-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilib "Vardadzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 189).

Coğrafi koordinatları: 40°11' şm. e., 45°11' ş. u.

**Adıyaman** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 63 km şimal-qərbdə, dəniz səviyyəsindən 2150 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (s. 126), Qafqazın 5 verstlik xəritəsində (348, s. 7) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Qarnhovit" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 51).

Coğrafi koordinatları: 40°29' şm. e., 43°57' ş. u.

**Ağadərəsi** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Kotayk (Ellər) şəhərindən 44 km cənub-qərbdə, dəniz səviyyəsindən 1450 m hündürlükdə yerləşir. Kəndin adı erməni dilinə kalka edilərək Aqadzor ("dzor" erməni dilində "dərə" deməkdir) formasında işlədilir (415, s. 44). Burada ermənilərlə yanaşı, 1831-ci ildə 27 nəfər, 1873-cü ildə 14 nəfər, 1886-cı ildə 15 nəfər, 1897-ci ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, 44–45, 124). XX əsrin əvvəllərində, 1905–1906-cı illərdə azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Toponim Azərbaycan dilində "varlı, zadəgan, mülkədar" mənasında işlənən

"ağa" və "dərə" sözlərindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Katnaxpyur" (Südlü bulaq) qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 104).

Coğrafi koordinatları: 40°15′ şm. e., 44°40′ ş. u.

**Ağakiçik** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 58 km şimal-qərbdə, Mastara çayının yanında, dəniz səviyyəsindən 1750 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 3). Kəndin adı erməni müəlliflərinin əsərlərində, əsasən, Ahaqçi kimi qeyd edilir (415, s. 34; 427, s. 147). Kənddə 1873-cü ildə 160, 1886-cı ildə 257, 1897-ci ildə 301, 1904-cü ildə 359, 1914-cü ildə 383, 1916-cı ildə 337 nəfər azərbaycanlı yaşamışdır (415, 34–35, 116–117). 1918-ci ildə kəndin (erməni təcavüzünə məruz qalaraq) əhalisi – azərbaycanlılar qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuş, 1915–1916-cı illərdə Türkiyənin Sasun, Taron, Muş, Ələşkirt, Ərzurum, Qars, İranın Xoy vilayətlərindən köçürülüb gətirilən ermənilər 1918-ci ildə burada yerləşdirilmişdir (85, s. 111; 416, s. 133). Hazırda kənddə ermənilər yaşayır. Toponim "ağa" və "kiçik" sözlərindən əmələ gəlib, "kiçik ağaya mənsub kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə adı dəyişdirilib "Zovasar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 133).

Coğrafi koordinatları: 40°28′ şm. e., 43°57′ ş. u.

**Ağbulaq** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayəti ərazisində kənd. Şurnuxu kəndindən 9 km cənub-qərbdə, Bazarçayın sağ qolu olan Keşin çayının sol sahilində, dəniz səviyyəsindən 1700 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində "Ağbulaq qışlağı" formasında (348, s. 4) qeyd edilmişdir. Kənddə yaşayan azərbaycanlılar 1918-ci ildə erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar tarixi-etnik torpaqlarına qayıda bilmişlər. Burada 1926-cı ildə 66, 1931-ci ildə 88 (415, s. 28–29, 112–113; 416, 14), 1939-cu ildə 146, 1959-cu ildə 187, 1970-ci ildə 355 nəfər (427, s. 166; 416, 14) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının sonlarında Ermənistan dövləti tərəfindən kəndin sakinləri – azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim Azərbaycan dilində "keyfiyyətli, içməyə yararlı" mənasında işlənən "ağ" sözü ilə "bulaq" hidroterminindən əmələ gəlmişdir. Kəndin adı ərazidəki eyniadlı bulağın adından götürülmüşdür. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Ağbulağ" edilmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 41–42).

Coğrafi koordinatları: 39°21′ şm. e., 46°23′ ş. u.

**Ağbulaq** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 39 km şimal-qərbdə, dəniz səviyyəsindən 1800 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 4). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Toponim Azərbaycan dilində "keyfiyyətli, içməyə yararlı" mənasında işlənən "ağ" sözü ilə "bulaq" sözünün birləşməsindən əmələ gəlmişdir. Ermənistan SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə adı

dəyişdirilərək "Lyusaxbyur" edilmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 94).

Coğrafi koordinatları: 40°24' şm. e., 44°22' ş. u.

**Ağbulaq** – İrəvan quberniyasının Novo-Bayazid qəzasında, Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 68 km şimal-şərqdə, dəniz



*Ağbulaq kəndi*

səviyyəsindən 2150 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 119), Qafqazın 5 verstlik xəritəsində (348, s. 4) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 136, 1873-cü ildə 422, 1886-cı ildə 575, 1908-ci ildə 940, 1914-cü ildə 982, 1919-cu ildə 1329 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 30–31, 114–115). 1919-cu ilin fevral-mart aylarında kəndin əhalisi ermənilər tərəfindən qovulmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma yurdlarına qayıtmışlar. Kənddə 1922-ci ildə 1053, 1926-cı ildə 1229, 1931-ci ildə 1392 (415, 31, 115; 416, s. 14), 1939-cu ildə 1504, 1959-cu ildə 1141, 1970-ci ildə 1563, 1979-cu ildə 1450 nəfər (427, s. 166; 416, s. 14) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci il noyabrın 24-dən 28-dək Ermənistan dövləti tərəfindən gecə saat 1–3 radələrində kəndin əhalisi tarixi-etnik torpaqlarından vəhşicəsinə qovulmuşdur. Hazırda orada ermənilər yaşayır. Toponim "içməyə yararlı, keyfiyyətli su" mənasında işlənən "ağ" sözü ilə "bulaq" hidroniminin birləşməsindən əmələ gəlmişdir. Kəndin ərazisində XVII–XVIII əsrlərə aid tarixi abidələr indi də qalır. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Ağberk" edilmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 14).

Coğrafi koordinatları: 40°31'47" şm. e., 45°16' 46" ş. u.

**Ağcaarx** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 7 km cənub-şərqdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (s. 91), Qafqazın 5 verstlik xəritəsində (348, s. 4) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 129, 1873-cü ildə 508, 1886-cı ildə 669, 1897-ci ildə 822, 1904-cü ildə 720, 1914-cü ildə 763, 1916-cı ildə 709 nəfər azərbaycanlı yaşamışdır (415, s. 62–3, 138–139). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Kəndə xaricdən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada ermənilərlə yanaşı, 1922-ci ildə 137, 1926-cı ildə 159 nəfər azərbaycanlı yaşamışdır (415, s. 63, 139). Kənddə yaşayan azərbaycanlılar sıxışdırılaraq 1930-cu ildə deportasiya olunmuşdur. Toponim Azərbaycan dilində "ağımtıl" mənasında işlənən "ağca" sözü ilə Azərbaycan dilində "su axıtmaq üçün qazılan cığır" mənasında işlənən "arx" sözündən əmələ gəlmişdir. Kəndin ərazisində axan arxın şəffaflığına görə kənd "Ağcaarx" adlandırılmışdır. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Arevik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°06' şm. e., 44°05' ş. u.

**Ağcaqala** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 19 km şimal-şərqdə, Alagöz dağının cənub-qərbində, dəniz səviyyəsindən 885 m hündürlükdə yerləşir. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 163), Qafqazın 5 verstlik xəritəsində (348, s. 4) qeyd edilmişdir. Kənddə 1828-ci ilə qədər yalnız azərbaycanlılar yaşamışdır. Buraya ermənilər 1828–1830-cu illərdə İranın Maku vilayətindən köçürülmüşdür (416, s. 99). Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 79, 1873-cü ildə 38, 1886-cı ildə 6, 1897-ci ildə 31 nəfər azərbaycanlı yaşamışdır (415, s. 80–81, 150–151). 1918-ci ildə kənddə yaşayan azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Toponim Azərbaycan dilində sifətin çoxaltma dərəcəsinin morfoloji əlamətini bildirən "-ca" şəkilçisinin qədim türk dilində "kiçik, alçaq, çox da hündür olmayan" mənasında işlənən "ağ" sözü ilə (94, s. 68) "qala" sözünün birləşməsindən əmələ gəlib, "kiçik, alçaq qala yanında olan kənd" mənasını ifadə edir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilib "Tsaxqalanc" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 99).

Coğrafi koordinatları: 40°12' şm. e., 44°13' ş. u.

**Ağcaqışlaq** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 12 km şimalda, Zəngi çayının sahilində, dəniz səviyyəsindən 930 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 49), Qafqazın 5 verstlik xəritəsində (348, s. 4) qeyd edilmişdir. "İrəvan əyalətinin icmal dəftəri"ndə göstərilir ki, kənddə türk mənşəli qəmərli tayfası yaşayır (143, s. 49). Erməni ədəbiyyatında kəndin 1831-ci ildə salındığı göstərilir (416, s. 56). Erməni tədqiqatçıları tarixi həqiqəti saxtalaşdırmışlar. Belə ki 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə göstərilir ki, Yuva kəndinin yaxınlığında Ağcaqışlaq kəndi yerləşir və kəndin əhalisi qəmərli camaatındandır. İllik gəliri 3000 ağçadan ibarət olmuşdur (143, s. 49). Kənddə 1831-ci ildə 70, 1873-cü ildə 184, 1886-cı ildə 138, 1897-ci ildə 200, 1904-cü ildə 186, 1914-cü ildə 220, 1916-cı ildə 197 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuş və kəndə xaricdən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma evlərinə qayıda bilmişlər. Burada ermənilərlə yanaşı, 1922-ci ildə 54, 1926-cı ildə 96, 1931-ci ildə 102 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, 1948–1949-cu illərdə azərbaycanlılar Azərbaycana köçürülmüşdür. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim "ağımtıl, bozumtul düzən, çöl" mənasında işlənən "ağca" sözü ilə (93, s. 23) "qışlaq" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 21 iyun 1948-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilib "Getaşen", 28 may 1967-cı il tarixli qərarı ilə yenidən dəyişdirilib "Getazat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 56).

Coğrafi koordinatları: 40°02' şm. e., 44°33' ş. u.

**Ağhəmzəli** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. 1937-ci ilə kimi keçmiş Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 20 km şimal-qərbdə, Qırxbulaq

çayının yanında, dəniz səviyəsindən 855 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 3). Ermənilər bu kəndə 1828-ci ildən sonra İrandan köçürülmüşdür (386, s. 547–549). Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 232, 1873-cü ildə 301, 1886-cı ildə 273, 1897-ci ildə 376, 1904-cü ildə 843, 1914-cü ildə 927, 1916-cı ildə 516 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). 1918-ci ildə azərbaycanlılar erməni soyqırımına



*Ağhəmzəli kəndi*

məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz evlərinə qayıda bilmişlər. Burada 1922-ci ildə 93, 1926-cı ildə 98, 1931-ci ildə 207 nəfər azərbaycanlı yaşamışdır (415, s. 47, 127). 1948–1949-cu illərdə azərbaycanlılar Azərbaycana köçürülmüşdür. Hazırda kənddə ermənilər yaşayır. Toponim Azərbaycan dilində "zadəgan", "seyid", "ruhani" mənasında işlənən "ağa" sözü ilə qızılbaşlara məxsus "həmzəli" etnonimi əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 may 1967-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilib "Marmaraşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati-ərazisinə daxil edilmişdir (416, s. 134).

Coğrafi koordinatları: 40°03′ şm. e., 44°28′ ş. u.

**Ağin** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunda kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 22–23 km cənub-qərbdə, Arpaçayın kənarında, vilayət mərkəzi Gümrüdən 28 km cənub-qərbdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə Ağit kimi (143, s. 130), Qafqazın 5 verstlik xəritəsində Ağin formasında (348, s. 5) qeyd edilmişdir. Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. XIX əsrin əvvəllərində azərbaycanlılar tarixi torpaqlarından qovulmuş, 1829–1830-cu illərdə Türkiyənin Muş, Ələşkirt, Ərzurum vilayətlərindən, 1877–1878-ci illərdə Qarsdan ermənilər köçürülüb burada yerləşdirilmişdir (427, s. 177; 416, s. 14). Toponim qədim türk dilində "uca, hündür, böyük" mənasında işlənən "ağ" sözü ilə qədim türk dilində "daxma, koma, mağara" mənasında işlənən "in" sözünün (299, s. 209) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Erm. SSR AS RH-nin 12 oktyabr 1961-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Ani" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 14).

Coğrafi koordinatları: 40°35′ şm. e., 43°42′ ş. u.

**Ağkənd** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 23 km şimalda, Səlim çayının yanında, Arpa çayının sağ sahilində, dəniz səviyyəsindən 1610 m hündürlükdə yerləşir. Kənddə 1831-ci ildə 222, 1873-cü ildə 498, 1886-cı ildə 546, 1897-ci ildə 670, 1904-cü ildə 918, 1914-cü ildə 1010, 1916-cı ildə 704 nəfər yalnız azərbaycanlılar yaşamışdır (415, s. 90–91, 160–161). 1918-ci ildə kənd sakinləri erməni təcavüzünə məruz qalaraq qırğınlarla kəndi tərk etməyə məcbur olmuşlar. Yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar öz kəndlərinə qayıda bilmişdir. Burada 1922-ci ildə 106 nəfər azərbaycanlı, 1926-cı ildə 126 nəfər azərbaycanlı, 172 erməni, 1931-ci ildə 167 nəfər azərbaycanlı, 297 erməni (415, s. 91,

161), 1939-cu ildə 621 nəfər azərbaycanlı və erməni (427, 185) yaşamışdır. Ermənilər buraya 1829-cu ildə İranın Xoy və Səlmas vilayətlərindən köçürülmüşdür (416, s. 15). Azərbaycanlılar 1948–49-cu illərdə zorla Azərbaycana köçürülmüşdür. Hazırda kənddə ermənilər yaşayır. Toponim qədim türk dilində "kiçik, balaca" mənasında işlənən "ağ" sözü ilə (359, I (1), s. 96) türk dilində "yaşayış məntəqəsi", "şəhər" mənasında işlənən "kənd" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 iyul 1968-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Ağncazor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 15).

Coğrafi koordinatları: 39°54' şm. e., 45°14' ş. u.

**Ağkənd** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 109 km şimal-qərbdə, Bazarçayın sağ qolu, Sisian çayının sol qolu olan Taxtakörpü çayının aşağı axarında, dəniz səviyyəsindən 1680 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 5). Kənddə 1828-ci ilə kimi azərbaycanlılar yaşamışdır. 1828–1829-cu illərdə İranın Xoy və Səlmas vilayətlərindən köçürülüb gətirilən ermənilər bu kənddə yerləşdirilmiş (427, s. 295) və azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Toponim "kiçik" mənasında işlənən "ağ" sözü ilə (94, s. 68) "kənd" coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 17 aprel 1948-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Aşotavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 22).

Coğrafi koordinatları: 39°28'35" şm. e., 45°59' 52" ş. u.

**Ağkilsə** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 24 km cənub-qərbdə yerləşir. Vilayətin Polad Ayrım kəndinin tərkibində olmuşdur. 1930-cu ilə kimi keçmiş Dilican rayonunun ərazi bölgüsünə daxil idi. Kənddə 1897-ci ildə 115, 1904-cü ildə 130, 1919-cu ildə 151 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31, 114–115). 1919-cu ilin mart ayında azərbaycanlılar ermənilər tərəfindən deportasiya olunmuş, soyqırımına məruz qalmışdır. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə dönə bilmişlər. Burada 1922-ci ildə 132, 1926-cı ildə 114, 1931-ci ildə 166 (415, s. 31, 115), 1959-cu ildə 187, 1987-ci ildə 70 nəfər azərbaycanlı yaşamışdır (85, s. 77). 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar dövlət səviyyəsində deportasiya edilmiş, tarixi-etnik torpaqlarından qovulmuşlar. Toponim rəng mənasında işlənən "ağ" sözü ilə dini məbəd mənasını bildirən "kilsə" sözünün birləşməsindən əmələ gəlmişdir. Kəndin adı yaxınlıqdakı ağ rəngdə olan kilsə (albanlara məxsus) adından götürülmüşdür. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci tarixli qərarı ilə kəndin adı dəyişdirilib "Cermakavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 41–42).

Coğrafi koordinatları: 40°43' şm. e., 45°02' ş. u.

**Ağkilsə** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 86 km cənub-şərqdə, Qaramasuyu çayının yanında, dəniz səviyyəsindən 2050 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 120), Qafqazın 5 verstlik xəritəsində (348, s. 5) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 263, 1886-cı ildə 321, 1897-ci ildə 389, 1908-ci ildə 173, 1914-cü ildə 515, 1916-cı ildə 443 nəfər

azərbaycanlı yaşamışdır (415, s. 26–27, 110–111). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlara məruz qalaraq qovulmuşlar. Sağ qalan azərbaycanlılar 1920-ci ildə indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz kəndlərinə qayıda bilmişlər. 1922-ci



*Ağkilsə kəndində*
*Aşıq Ələsgərin məzarı*

ildə burada 198, 1926-cı ildə 244, 1931-ci ildə 307 (415, s. 27, 111), 1959-cu ildə 276, 1979-cu ildə 448 nəfər azərbaycanlı (427, s. 39) yaşamışdır. 1988-ci ildə Ermənistan dövləti tərəfindən azərbaycanlılar tarixi-etnik torpaqlarından qovulmuşlar. Kənddə XI–XIII əsrlərə aid qədim alban kilsəsi vardır. Kənddən 2-3 km yuxarıda köhnə yaşayış sahəsi və qəbiristanlığın qalıqları buranın qədimliyini sübut edir. Bu tarixi abidələrə istinad edib demək olar ki, kənd II–III əsrlərdə salınmışdır. Kəndin adı buradakı alban kilsəsindən götürülmüşdür. Toponim rəng bildirən "ağ" və dini məbəd mənasında işlənən "kilsə" sözlərindən ibarətdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Azad" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 7).

Coğrafi koordinatları: 40°11′ şm. e., 45°52′ ş. u.

**Ağkilsə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 8 km şimal-şərqdə, dəniz səviyyəsindən 1880 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 5). 1937-ci ilə kimi keçmiş Leninakan rayonunun inzibati ərazi bölgüsünə daxil idi. Kəndin əsas və yerli sakinləri azərbaycanlılar olmuşdur. Ermənilər buraya 1820–1825-ci illərdə Türkiyənin Qars və Ərzurum bölgələrindən köçürülmüşdür (Erməni Sovet Ensiklopediyası, V c., İrəvan, 1980, s. 675). 1897-ci ildə burada 12 nəfər azərbaycanlı yaşamışdır (415, s. 40–41). XX əsrin əvvəllərində (1905–1906-cı illərdə) onlar deportasiya olunmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Kəndin ərazisindəki ağ rəngdə olan kilsəyə görə oykonim Ağkilsə adlandırılmışdır. Erm. SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Kraşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 114).

Coğrafi koordinatları: 40°52′ şm. e., 43°67′ ş. u.

**Ağqala** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 14 km şimal-qərbdə, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 1930 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 5). Kənddə 1831-ci ildə 39 nəfər, 1873-cü ildə 192, 1886-cı ildə 253, 1897-ci ildə 331, 1904-cü ildə 424, 1914-cü ildə 507, 1916-cı ildə 520 nəfər azərbaycanlı yaşamışdır (415, s. 68–69, 144–145). 1918-ci ildə azərbaycanlılar, ermənilər tərəfindən qırğınlara məruz qalaraq qovulmuşlar. Azərbaycanlılar kənddən qovulandan sonra buraya Türkiyədən köçürülüb gətirilən ermənilər

yerləşdirilmişdir. Sağ qalan azərbaycanlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz doğma kəndlərinə dönmüşlər. Burada 1922-ci ildə 3 nəfər azərbaycanlı, 31 erməni, 1926-cı ildə 76 azərbaycanlı, 105 erməni, 1931-ci ildə 202 azərbaycanlı, 111 erməni, 55



*Ağqala kəndində qədim istehkamın divarları*

kürd (415, s. 69, 145), 1939-cu ildə 442, 1959-cu ildə 287, 1970-ci ildə 2200 nəfər (427, s. 179) azərbaycanlı və erməni əhali yaşamışdır. Sonralar azərbaycanlıları sıxışdırıb çıxarmaq məqsədilə Ağqala kəndi ilə Əyrivəng kəndi birləşdirilmişdir. Kənddə yaşayan azərbaycanlılar da 1988-ci ildə Ermənistan dövləti tərəfindən qovulmuş, deportasiya edilmişdir. Toponim rəng bildirən "ağ" sözü ilə "qala" sözünün birləşməsindən əmələ gəlmişdir. Kəndin adı buradakı albanlara məxsus ağ rəngli qaladan götürülmüşdür. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Berdkunk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 46).

Coğrafi koordinatları: 40°26′ şm. e., 45°06′ ş. u.

**Ağqıraq** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda kənd. Martuni şəhərindən 55,5 km cənub-şərqdə, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 2030 m hündürlükdə yerləşir. Kəndin qədim adı Ağqıraq olsa da (386, s. 595–596; 415, s. 66; 427, s. 180), sonralar erməni müəlliflərinin əsərlərində Əliqırıq (415, s. 66), Əliqrağı, Əliqraq kəndi (427, s. 85) kimi sabitləşdirilmişdir. XX əsrin ortalarında kənd Əliqrıx da adlandırılmışdır (415, s. 66). Qafqazın 5 verstlik xəritəsində Əlikrıx kimi qeyd edilmişdir (348, s. 12). 1897-ci ildə burada ermənilərdən başqa 3 nəfər azərbaycanlı yaşamışdır (415, s. 66–67). Sonradan onlar da kənddən deportasiya edilmişdir. 1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra – 1829–30-cu illərdə ermənilər Ağqıraq kəndinə Türkiyənin Ələşkirt və Van bölgəsindən köçürülüb yerləşdirilmiş, (386, s. 595–598; 427, s. 345; 416, s. 25), azərbaycanlılar isə deportasiya olunmuşdur. Kəndin ərazisində türklərlə bağlı VIII–IX əsrlərə aid tarixi abidələr vardır. Toponim qədim türk dilində "kiçik, balaca" (359, I (1), s. 96), ərazicə çox da geniş olmayan (94, s. 68) mənasında işlənən "ağ" sözü ilə, sahil mənasında işlənən "qıraq" sözü (359, II (2), s. 161) əsasında formalaşmışdır. Erm. SSR AS RH-nin 3 noyabr 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Astğadzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 25).

Coğrafi koordinatları: 40°07′ şm. e., 45°21′ ş. u.

**Ağpara** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Azdan) rayonunda kənd. Rayondakı Dərəçiçək kəndinin yaxınlığında, Misxanlı və Əlibəy dağlarının ətəyində yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 116), Qafqazın 5 verstlik xəritəsində (348, s. 5) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Kənddə 1897-ci ildə 6 nəfər azərbaycanlı yaşamışdır. Ermənilər buraya 1829-cu ildə Maku əyalətindən köçürülüb yerləşdirilmişdir (427, s. 164). Toponim qədim türk dilində "kiçik, xırda" mənasında işlənən "ağ" sözü ilə

(359 I (1), s. 96) "hissə, torpaq sahəsi" mənasında işlənən "para" sözünün (339, s. 429) birləşməsindən əmələ gəlmişdir. Kəndin adı erməniləşdirilərək "Ağbyurak" qoyulmuşdur. Kənd sonradan Ağbyurak qəsəbəsi kimi Hrazdan şəhərinə birləşdirilmişdir.

Coğrafi koordinatları: 40°30' şm. e., 44°44 ş. u.

**Ağudi** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda kənd. Vilayət mərkəzi Qapan şəhərindən 97 km şimal-qərbdə, dəniz səviyyəsindən 1650 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində Aqudı formasında qeyd edilmişdir (348, s. 6). Kənddə 1831-ci ildə 60, 1873-cü ildə 450, 1886-cı ildə 903, 1897-ci ildə 1162, 1908-ci ildə 1345, 1914-cü ildə 1070 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147; 416, s. 15). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə, qırğınlara



*Ağudi kəndində Orta əsrlərə aid qoç fiqurlu mazar daşı*

məruz qalaraq qovulmuşlar. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənd sakinlərindən sağ qalanlar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra doğma evlərinə qayıda bilmişdir. Burada 1922-ci ildə 298, 1926-cı ildə 319, 1931-ci ildə 496 (415, s. 77, 147), 1959-cu ildə 828, 1970-ci ildə 1222 (427, s. 200; 416, s. 15) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan dövləti tərəfindən etnik torpaqlarından tamamilə qovulmuşlar. Hazırda orada ermənilər yaşayır. Toponim qədim türk dilində "hörmətli, uca, yüksək" mənasında işlənən "ağ" sözü ilə uti//udi türkdilli tayfasının adının birləşməsi əsasında (168, s. 119) formalaşmışdır. Etnotopo-



*Ağudi kəndi*

nimdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Ağitu" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 15).

Coğrafi koordinatları: 39°30' şm. e., 46°04' ş. u.

**Ağyoxuş** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Göyçə gölünün cənub-şərqində, düzənlikdə, dəniz səviyyəsindən 2100 m hündürlükdə yerləşir. 1953-cü ildə Canəhməd (Sultanəli qışlağı) kolxozuna birləşdirilib. Kənddə 1831-ci ildə 192 nəfər azərbaycanlı yaşamışdır (415, s. 110). Lakin sonralar kənd ləğv edildiyi üçün kənddə yaşayanlar haqqında məlumat yoxdur. Yalnız mənbələrdə 1970-ci ildə burada 341 nəfər azərbaycanlının yaşadığı göstərilir (427, s. 184). Kəndin sakinləri 1988-ci ildə Ermənistan dövləti tərəfindən qovulmuşlar. Toponim qədim türk dilində "hündür, yuxarı" mənasında işlənən "ağ" sözü ilə (299, s. 16) "yolun dağa, təpəyə qalxan hissəsi", "yuxarı qalxan yer" mənasında işlənən "yoxuş" sözünün (10, s. 561) birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan toponimdir. 4 iyul 2006-cı il tarixli qərarla kəndin adı dəyişdirilərək "Zariver" qoyulmuşdur. "Ermənis-

tan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 76).

Coğrafi koordinatları: 40°16′ şm. e., 45°49′ ş. u.

**Ağzıbir** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 20 km şimal-qərbdə, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 1930 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 5). Kənddə 1831-ci ildə 108, 1873-cü ildə 380, 1886-cı ildə 557, 1897-ci ildə 696, 1904-cü ildə 755, 1914-cü ildə 1068, 1916-cı ildə 917 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 68–69,



*Ağzıbir kəndi*

144–145). 1918-ci ildə kəndin əhalisi ermənilər tərəfindən qırğınlara məruz qalaraq qovulmuşdur. Sağ qalan azərbaycanlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz doğma kəndlərinə dönə bilmişlər. Kənddə 1922-ci ildə 327 nəfər azərbaycanlı yaşamışdır (415, s. 145). 1922–1926-cı illərdə kənddə ermənilər yerləşdirilmiş və azərbaycanlılar sıxışdırılmışdır. 1926-cı ildə kənddə 165 nəfər azərbaycanlı, 276 erməni, 1931-ci ildə 295 nəfər azərbaycanlı, 365 erməni (415, 69, 145), 1947-ci ildə 600 nəfər azərbaycanlı yaşamışdır. Azərbaycanlılar SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, 1948-ci ildə Azərbaycana deportasiya edilmişdir. O vaxtdan kənddə yalnız ermənilər yaşayır. Toponim "tək bir çıxacağı olan yer", "kiçik dağ yolu" mənasında işlənən ağzıbir sözü əsasında (359, I (1), s. 67; 9, s. 39) formalaşmışdır. Kənd adını yerləşdiyi əraziyə görə almışdır. Toponimin yaranması Göyçə gölünə yalnız quru ilə çıxışı (ağzı) olan yarımada ilə bağlıdır. Erm. SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lçap" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 91).

Coğrafi koordinatları: 40°27′ şm. e., 45°03′ ş. u.

**Axta** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, İndi Vayotsdzor vilayətində kənd. Arpa çayının sol qolu olan Axtaçay dağ çayının sahilində, dəniz səviyyəsindən 1650 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 60), Qafqazın 5 verstlik xəritəsində (348, s. 23) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 187, 1873-cü ildə 290, 1886-cı ildə 304, 1897-ci ildə 426, 1904-cü ildə 458, 1914-cü ildə 504, 1916-cı ildə 463 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158–159). 1918-ci ildə kənd sakinləri erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşlar. Sağ qalanlar yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra ata-baba yurdlarına qayıda bilmişlər. Burada 1922-ci ildə 129, 1926-cı ildə 131, 1931-ci ildə 199, (415, s. 89, 159), 1939-cu ildə 268, 1959-cu ildə 202, 1970-ci ildə 379 nəfər (427, s. 122) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında kənd sakinləri – azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim padar türk tayfasından olan axta etnonimi (286, s. 57) əsasında əmələ gəlmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 10–11).

Coğrafi koordinatları: 39°38′ şm. e., 45°33′ ş. u.

**Axtaxana** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, Sünik vilayətində kənd. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Vilayət mərkəzi Qapan şəhərindən 22 km şimal-qərbdə, dəniz səviyyəsindən 1150 m hündürlükdə yerləşir. Kənddə ermənilərin məskunlaşdırılmasından sonra azərbaycanlı əhali tədricən yer-yurdlarını tərk etmişdir. Toponim atçılıqla məşğul olan "axta" etnonimi ilə (286, s. 57) fars dilində "yaşayış məntəqəsi, ev, kənd" mənasında işlənən "xana" sözünün birləşməsindən (339, s. 590) əmələ gəlmişdir. Etnotoponimdir. Kəndin adı 1918-ci ildə dəyişdirilərək "Xlatağ", sonra Erm. SSR AS RH-nin 1 iyun 1940-cı il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Zorastan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 127–128).

Coğrafi koordinatları: 39°16′ şm. e., 46°21′ ş. u.

**Axtala (Aşağı Axtala)** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Allahverdi (Tumanyan) rayonunda, indi Lori vilayətində şəhər. Allahverdi (Tumanyan) yaşayış məntəqəsindən 10 km şimal-şərqdə, Şamlıq kəndindən 4 km şərqdə yerləşir. Buranın qədim sakinləri azərbaycanlılar olmuşdur. XIX əsrin əvvəllərində kəndə İran və Türkiyədən ermənilər köçürülmüşdür. Qəsəbədə 1959-cu ildə 100 nəfər azərbaycanlı, 424 nəfər erməni, 1970-ci ildə 120 nəfər azərbaycanlı, 541 nəfər erməni yaşamışdır. 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Toponim türk tayfası olan padarların bir qolunu təşkil edən axta etnonimi (286, s. 57) əsasında formalaşmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 10).

Coğrafi koordinatları: 41°09′ şm. e., 44°46′ ş. u.

**Axtala** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Allahverdi (Tumanyan) rayonunda, indi Lori vilayətində kənd. Borçalı (Debet) çayının sol sahilində, Ləlvər dağının ətəyində, Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 62 km məsafədə, dəniz səviyyəsindən 740 m hündürlükdə yerləşir. Bura tarixən azərbaycanlıların yaşayış məntəqəsi olmuşdur. 1770-ci ildə mis mədənlərini işlətmək üçün buraya yunanlar köçürülmüşdür. Kənddə azərbaycanlılarla yanaşı, erməni və yunanlar da yaşamışdır. Burada 1897-ci ildə 69 azərbaycanlı yaşamışdır (415, s. 67). 1918-ci ildə azərbaycanlılar qovulmuş, kəndə əlavə olaraq ermənilərlə yanaşı, yunanlar yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlıların bir hissəsi öz doğma kəndlərinə qayıda bilmişdir. 1926-cı ildə burada 12 nəfər azərbaycanlı, 51 nəfər erməni, 71 nəfər yunan, 1931-ci ildə 10 nəfər azərbaycanlı, 114 nəfər erməni, 124 nəfər yunan (415, s. 7, 98–99), 1939-cu ildə 398 nəfər azərbaycanlı, erməni və yunan (427, s. 115) yaşamışdır. Yaşayış məntəqəsini ləğv etmək məqsədilə Axtala şəhər tipli qəsəbəsi ilə birləşdirilmiş və azərbaycanlılar SSRİ Nazirlər sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, 1948-ci ildə Azərbaycana köçürülmüşdür. İndi orada yalnız ermənilər yaşayır. Toponim "istiqamət, fərqləndirmə" mənasında işlənən "aşağı" sözü ilə padar türk tayfasının bir qolu olan "axta" etnonimi əsasında yaranmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 10).

Coğrafi koordinatları: 41°09′ şm. e., 44°45′ ş. u.

**Axund Buzovand** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 6 km şimal-şərqdə, Gərni çayı sahilində, dəniz səviyyəsindən 860 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 49), Qafqazın

5 verstlik xəritəsində (348, s. 23) Buzovand kimi qeyd edilmişdir. Erməni ədəbiyyatında kəndin 1831-ci ildə salındığı qeyd edilir (416, s. 46). 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə Gərni nahiyəsinə daxil olan kəndlərdən biri kimi Buzovand kəndinin adı da göstərilmişdir. Kəndin gəliri 11.500 ağçadan ibarət olmuşdur (143, s. 49). Burada 1831-ci ildə 137, 1873-cü ildə 210, 1886-cı ildə 254, 1897-ci ildə 341, 1904-cü ildə 322, 1914-cü ildə 385, 1916-cı ildə 299 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). 1918-ci ildə azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İranın Xoy və Səlmas bölgələrindən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir (416, s. 46). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra, 1922-ci ildən sonra azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. Burada 1926-cı ildə 161 nəfər azərbaycanlı, 11 erməni, 1931-ci ildə 195 nəfər azərbaycanlı, 19 nəfər erməni yaşamışdır (415, s. 46–47, 126–127). SSRİ Nazirlər Sovetinin xüsusi qərarları ilə azərbaycanlılar 1948–1949-cu illərdə Azərbaycana köçürülmüşdür. Hazırda orada ermənilər yaşayır. Toponim xəzər türk tayfasından olan bozal etnonimində (286, s. 45) öz əksini tapan "bus" (boz) etnonimi ilə (287, s. 253) türk mənşəli "abant" (avand) etnoniminin (288, s. 258) birləşməsindən əmələ gələn etnotoponimdir. Toponimin əvvəlində işlənən "axund" dini mənada işlənən sözdür. 1920-ci ildə kəndin adı dəyişdirilərək "Buzovand", sonra Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Berdik" qoyulmuşdur.

Coğrafi koordinatları: 40°00' şm. e., 44°34' ş. u.

**Alaçıqqaya** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Dilican şəhərinin yaxınlığında kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 28 km cənubda, Tərsa çayının aşağı axarında, meşəlikdə yerləşir. 1930-cu ilə kimi keçmiş Dilican rayonunun tabeliyində olmuşdur. Kənddə 1897-ci ildə 85, 1904-cü ildə 118, 1919-cu ildə 166 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31, 114–115). 1919-cu ilin mart ayında kənd sakinləri ermənilərin təcavüzünə məruz qalmış və deportasiya olunmuşlar. Sağ qalan kənd sakinləri indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz evlərinə dönə bilmişlər. 1922-ci ildə burada 97, 1926-cı ildə 94, 1931-ci ildə 119 (415, s. 31, 115), 1939-cu ildə 120, 1959-cu ildə 187, 1970-ci ildə 154 (427, s. 65), 1988-ci ildə 154 nəfər (85, s. 79) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının axırlarında kənd sakinləri ermənilərin təcavüzü nəticəsində doğma torpaqlarını tərk etməli olmuşlar. Toponim "daxma, koma, müvəqqəti yaşayış yeri" mənasında işlənən "alaçıq" sözü ilə (365, s. 130–131) "qaya" sözünün birləşməsindən əmələ gəlmişdir. Kənd hazırda "Alaçux" adlanır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°44' şm. e., 44°51' ş. u.

**Alagöz** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 20 km şimal-şərqdə, dəniz səviyyəsindən 915 m hündürlükdə yerləşir. Ədirnə müqaviləsinə (1829) əsasən, İrəvan xanlığının ərazisində ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişdir. Ermənilər kəndə 1828–1829-cu illərdə İranın Xoy vilayətindən köçürülmüşdür (416, s. 26). Toponim alagöz türk tayfasının adı (407, s. 120) əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 31 iyul 1950-ci il tarixli qərarı ilə adı dəyişdirilib "Araqats" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 26).

Coğrafi koordinatları: 40°19' şm. e., 43°39' ş. u.

**Alagöz** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Araqats (Alagöz) rayonunda,

indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 20 km şimal-şərqdə, Abaran–Hamamlı (Spitak) yolunun üstündə, dəniz səviyyəsindən 2050 m hündürlükdə yerləşir. Ədirnə müqaviləsinə (1829) əsasən, İrəvan xanlığının ərazisində ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişdir. Ermənilər buraya 1829–1830-cu illərdə Türkiyənin Muş, Antep vilayətlərindən köçürülüb yerləşdirilmişdir (427, s. 56). Erməni müəlliflərinin əsərlərində həm də "Alagyaz" formasında qeyd edilir (427, s. 56). Toponim alagöz türk etnonimi (271, s. 20; 407, s. 120) əsasında əmələ gəlmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 9).

Coğrafi koordinatları: 40°40' şm. e., 44°17' ş. u.

**Alagöz (Ələyəz)** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 19 km şimal-şərqdə, Alagöz çayının yanında, Alagöz çayının sağ qolu olan Yoğun çayının sahilində, dəniz səviyyəsindən 1580 m hündürlükdə yerləşir. Kəndin adı 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə "Ələyəz" (143, s. 58), Qafqazın 5 verstlik xəritəsində "Alagöz" (348, s. 10), «Сборник сведений о Кавказе» toplusunda "Alagöz" və "Alayaz" (364, №770) formalarında qeyd edilmişdir. Erməni müəlliflərinin əsərlərində "Alayaz" (415, s. 160), "Alagəz", "Alagöz" (427, s. 62) kimi yazılır. Kəndin ilkin və əsl adı Alagözdür. Burada azərbaycanlılarla bağlı XI–XIII əsrlərə aid tarixi abidələr vardır (427, s. 62). Kəndin adı V əsrdən xatırlanır (422, s. 57). Kənddə 1831-ci ildə 32, 1873-cü ildə 223, 1886-cı ildə 356, 1897-ci ildə 412, 1904-cü ildə 524, 1914-cü ildə 576, 1916-cı ildə 322, 1919-cu ildə 97 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 160–161). 1918–1919-cu illərdə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kəndə ermənilər yerləşdirilmişdir. Yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənd sakinləri doğma evlərinə dönmüşdür. Burada 1922-ci ildə 180 nəfər azərbaycanlı, 91 erməni, 1926-cı ildə 267, 1931-ci ildə 353 (415, s. 91, 161), 1959-cu ildə 499, 1970-ci ildə 884, 1979-cu ildə 963 nəfər (85, s. 359) azərbaycanlı yaşamışdır. 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim alagöz türk etnonimi (271, s. 204; 407, s. 120) əsasında əmələ gəlmişdir. Kənd 3 aprel 1991-ci ildən "Yeğeqis" adlanır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 71).



*Alagöz (Ələyəz) kəndinin mənzərəsi*

Coğrafi koordinatları: 39°51' şm. e., 45°21' ş. u.

**Alapars** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda, Kotayk vilayətində kənd. Vilayət mərkəzi Kotayk (Ellər) şəhərindən 17 km cənub-qərbdə, Zəngi (Hrazdan) çayının sahilində, dəniz səviyyəsindən 1500 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 78), Qafqazın 5 verstlik xəritəsində (348, s. 11) qeyd edilmişdir. Kənd XVIII əsrdə İrəvan xanlığının Dərəçiçək mahalının tabeliyində olmuşdur. Xanlıq ləğv edildikdən sonra XIX əsrin əvvəllərində ya-

radılan İrəvan quberniyasının Novo-Bəyazid qəzasının inzibati-ərazi bölgüsünə daxil edilmişdir. 1930–1964-cü illərdə keçmiş Axta (Hrazdan) rayonunun tərkibində olmuş, 1964-cü ildə keçmiş Sevan rayonunun tabeliyinə verilmişdir. Bir ildən sonra yenidən Axta (Hrazdan) rayonuna qaytarılmışdır. Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. Ermənilər buraya 1829–1830-cu illərdə İranın Xoy, Maku, Səlmas, Türkiyənin Van, Ələşkirt vilayətlərindən köçürülüb yerləşdirilmişdir (427, s. 69; 416, s. 9). 1829-cu ildə kəndə İrandan 83 erməni köçürülmüşdür (386, s. 591–594). 1831-ci ildə kənddə 182 nəfər azərbaycanlı yaşamışdır. 1840–1850-ci illərdə azərbaycanlılar sıxışdırılaraq tarixi-etnik torpaqlarından çıxarılmış və kənd tam ermənilərin yaşayış məntəqəsinə çevrilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim rəng bildirən "ala" sözü ilə "bars" türk etnonimi (299, s. 84) əsasında formalaşmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 9).

Coğrafi koordinatları: 40°25′ şm. e., 44°38′ ş. u.

**Aldərə (Əldərə)** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Mığrı (Meğri) rayonunda kənd. Vilayət mərkəzi Qapan şəhərindən 86 km cənub-şərqdə, Araz çayının sahilində, dəniz səviyyəsindən 600 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində Əlidərə formasında (348, s. 12) qeyd edilmişdir. Albanların XIV–XVI əsrlərə aid tarixi abidələrinin (alban kilsəsi, qala və s.) qalıqları indi də durur. Kənddə 1831-ci ildə 131, 1873-cü ildə 911, 1886-cı ildə 1077, 1897-ci ildə 1094, 1904-cü ildə 1505, 1914-cü ildə 1987 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 66–67, 142–143). 1918-ci ildə kənd sakinləri erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar 1922–1924-cü illərdə tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada 1926-cı ildə 414, 1931-ci ildə 490 (415, s. 67, 143), 1959-cu ildə 601, 1970-ci ildə 831, 1979-cu ildə 784 nəfər (427, s. 72) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci il noyabrın 24–28-də kəndin sakinləri – azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda orada ermənilər yaşayır. Toponim qədim Azərbaycan dilində "qırmızı" mənasını bildirən "al" sözü ilə (üzün allanması ifadəsində indi də özünü göstərir) "dərin çuxur" mənasını ifadə edən "dərə" sözünün birləşməsindən formalaşmışdır və "qırmızı dərə" mənasını bildirir. Kəndin salındığı ərazinin torpağı qırmızı süxurlardan ibarət olduğu üçün Aldərə adlandırılmışdır. Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Alvank" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 9).

Coğrafi koordinatları: 38°56′ şm. e., 46°20′ ş. u.

**Allahverdi** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Allahverdi (Tumanyan) rayonunda, indi Lori vilayətində şəhər. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 50 km şimal-şərqdə, Borçalı çayının sahilində, dəniz səviyyəsindən 770 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 13). 9 sentyabr 1930-cu ildə Allahverdi (Tumanyan) adında rayon təşkil edilmişdir. 1963-cü ildə ona respublika tabeliyində şəhər statusu verilmişdir. Erməni ədəbiyyatında "Alaverdi" fonetik formasında əksini tapmışdır (416, s. 9). XIX əsr və XX əsrin əvvəllərində Tiflis quberniyasının Borçalı qəzasının, 1920–1929-cu illərdə Lori-Pəmbək qəzasının tərkibinə daxil olmuşdur. Əsas sakinləri azərbaycanlılar idi. Burada azərbaycanlılarla yanaşı, yunanlar və ermənilər də yaşamışdır. Ermənilər buraya 1828-ci ildən sonra köçürülmüşdür. 1831-ci ildə 24 nəfər azərbaycanlı, 1873-cü ildə 143 nəfər azər-

baycanlı, 70 nəfər erməni, 1886-cı ildə 132 nəfər azərbaycanlı, 46 nəfər erməni, 989 nəfər yunan, 1897-ci ildə 187 nəfər azərbaycanlı, 104 nəfər erməni, 1100 nəfər yunan yaşamışdır (415, s. 67, 98–99). 1918–1920-cı illərdə azərbaycanlılar öz doğma torpaqlarından ermənilər tərəfindən qovulmuşdur. 1920-ci il noyabrın 29-da indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlıların sağ qalanları geri qayıtmışdır. 1922-ci ildə 24 nəfər azərbaycanlı, 87 nəfər erməni, 1242 nəfər yunan, 1926-cı ildə 40 nəfər azərbaycanlı, 6563 nəfər erməni, 1500 nəfər yunan, 1931-ci ildə 272 nəfər azərbaycanlı, 538 nəfər erməni, 1351 nəfər yunan (415, s. 7, 99), 1970-ci ildə 278 nəfər azərbaycanlı, 21835 nəfər erməni və yunan (427, s. 67) yaşamışdır. Azərbaycanlılar 1988-ci ildə ermənilər tərəfindən qovulmuşlar. Yunanlar filiz mədənlərində işləmək üçün bura 1790-cı ildə gəlmişdir. Rəsmi sənədlərdə "Alaverdi" kimi yazılır. Toponim borçalı türk tayfasına mənsub "allahverdi" etnonimi əsasında əmələ gəlmişdir (427, s. 67). "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 9).

Coğrafi koordinatları: 41°00′ şm. e., 44°38′ ş. u.

**Almalı** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 45 km cənub-şərqdə, dəniz səviyyəsindən 1600 m hündürlükdə yerləşir. Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 6, 1897-ci ildə 14, 1926-cı ildə 5 nəfər azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158). Hazırda kənddə ermənilər yaşayır. Almalı adlı toponimlərə indiki Ermənistanın Sünik, Vayotsdzor, Geğarkunik vilayətləri (keçmiş Keşişkənd (Yeğeqnadzor), Kəvər (Kamo), Paşalı (Vayk) və Qafan rayonlarında) ilə yanaşı, Azərbaycanda, Türkiyədə geniş şəkildə rast gəlmək olur (427, s. 96–97). Almalı toponimlərinin meyvə adı ilə bağlılığı yoxdur. Bu, türk etnonimidir. Hələb türkmənlərinin tayfa birliyinə daxil olan tayfalardan biri "almalı" adlanır (407, s. 90). Kəndin adı "almalı" etnonimi əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Xndzorud" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 97).

Coğrafi koordinatları: 39°33′ şm. e., 45°24′ ş. u.

**Alpava** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 9 km şimalda, Gərnibasar çayının sağ sahilində, dəniz səviyyəsindən 880 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində Arpavar formasında qeyd edilir (415, s. 60, 419, s. 129) "İrəvan əyalətinin icmal dəftəri"ndə "Alpevi" (143, s. 99), "Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti"ndə "Albava" (427, s. 71), "Alpava", "Alpavan" (427, s. 104) formalarında göstərilmişdir. Kənddə 1831-ci ildə 35, 1873-cü ildə 97, 1886-cı ildə 121, 1897-ci ildə 127, 1904-cü ildə 188, 1914-cü ildə 305, 1916-cı ildə 161 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuş və kəndə xaricdən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. Sağ qalan azərbaycanlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz kəndlərinə qayıda bilmişdir. Burada ermənilərlə yanaşı, 1922-ci ildə 31, 1926-cı ildə 30, 1931-ci ildə 51 nəfər azərbaycanlı yaşamışdır (415, s. 47, 127). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar 1948–1949-cu illərdə Azərbaycana köçürülmüş və kənd tam erməniləşdirilmişdir. Toponim qədim türk dilində "igid, qoçaq, cəsur" mənalarında işlənən "alp" sözü ilə (359, I (1), s. 430) türk dilində "düzənlik, geniş yer" (359, I (2), s. 1166), "dərə, vadi" (365, s. 403) mənasında işlənən "ova" sözünün fonetik variantı olan "ava" sözü-

nün birləşməsindən əmələ gəlib, "igidlərin, qoçaqların məskəni, yurdu, düzənlik, vadi" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 20 avqust 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lusakert", 21 oktyabr 1967-cı il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Nşavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 146).

Coğrafi koordinatları: 40°01' şm. e., 44°31' ş. u.

**Amağu** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 12 km cənub-qərbdə, Arpaçayın sol qolu olan Amağu çayının yaxınlığında, dəniz səviyyəsindən 1660 m hündürlükdə yerləşir. X əsrdən adı çəkilir. Kəndin ərazisində X–XI əsrə aid tarixi abidələr var (416, s. 16). Monqollar tərəfindən xarabalığa çevrildikdən sonra kənd XIV–XV əsrlərdə yenidən bərpa edilmişdir (422, s. 20). Kəndin yaxınlığında iki məbəd vardır ki, onlardan biri 1221-ci ildə tikilmişdir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 57), Qafqazın 5 verstlik xəritəsində (348, s. 14) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 31, 1873-cü ildə 198, 1886-cı ildə 240, 1897-ci ildə 354, 1904-cü ildə 350, 1914-cü ildə 385, 1916-cı ildə 510, 1919-cu ildə 135 nəfər yalnız azərbaycanlılar yaşamışdır (415, s. 90–91, 160–161). 1918-ci ildə kənd sakinləri erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar ata-baba yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 97, 1926-cı ildə 104, 1931-ci ildə 131 (415, s. 91, 161), 1959-cu ildə 385, 1970-ci ildə 526, 1979-cu ildə 491 nəfər (427, s. 206–207; 416, s. 16) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında kənd sakinləri Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Amagu, ya Ağuan – ağuam (Ağvan) toponiminin bir variantıdır, ya da həmin ərazidəki Ağu kəndindən (143, s. 57) fərqləndirmək üçün Aqu toponiminin önünə "am" sözü artırılmaqla əmələ gəlmişdir. Toponimin ikinci tərəfi "aqu" sözü ilə bağlıdır. Aqu (ağu) qədim türk dilində "səxavətli, əliaçıq" mənasını ifadə edir (359, I (1) s. 159). Tatar alimi Q.F.Səttarov "aqu" sözünün qədim türk dilində ümumi isim kimi işlənərək "səxavətli, alicənab, comərd" mənasını ifadə etdiyini qeyd edir (177, s. 43). Yuxarıda deyilənlərə əsasən ehtimal etmək olar ki, Amağu toponimi "səxavətli, əliaçıq, comərdlər ölkəsi, yurdu" mənasını ifadə edir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 15).

Coğrafi koordinatları: 39°40' şm. e., 45°12' ş. u.

**Amasiya (Hamasa)** – Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, indi Şirak vilayətində kənd. Yerli əhali kəndi "Hamasa" adlandırmışdır. Kənd vilayət mərkəzi Gümrü şəhərindən 23 km şimal-qərbdə, dəniz səviyyəsindən 1870 m hündürlükdə, Arpaçayın yuxarı axarında yerləşir. Əhalisi 1921-ci ilədək yalnız azərbaycanlılardan ibarət olmuşdur. Ağbaba nahiyəsi 1877–1878-ci illər rus-türk müharibəsindən sonra yaradılan Qars vilayətinin Qars qəzasının tərkibinə daxil edilmişdir. Hamasa kəndində 1886-cı ildə 274, 1914-cü ildə 564, 1931-ci ildə 645, 1959-cu ildə 1527, 1970-ci ildə 2773, 1980-ci ildə 3175 nəfər yaşamışdır (416, s. 16). Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevral ayında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhali Qars vilayətinin kəndlərinə köç etmişdir. 1921-ci ildə imzalanan Qars müqaviləsi ilə Ağbaba nahiyəsinin böyük bir ərazisi sovet Ermənistanının tərkibinə daxil edilmişdir. Bundan sonra Ağbaba nahiyəsi kəndlərinin, o cümlədən Hamasa əhalisinin bir qismi doğma kənlərinə qayıtmışdır. Ermənilər Hamasa nahiyə mərkəzində sovet hakimiyyəti qurulduqdan sonra gəlib məmur kimi yerləşmişlər. 1930-cu il oktyabrın 9-da Ağbaba

nahiyəsinin əsasında Amasiya rayonu yaradılmışdır. Həmin ərazidə 1926-cı ildə 9888, 1939-cu ildə 14911, 1959-cu ildə 12794, 1972-ci ildə 19724 nəfər yaşamışdır ki, bunun da 85%-dən çoxunu azərbaycanlılar təşkil edib. 1988-ci ilin



*Amasiya kəndi*

əvvəlində rayondakı 27 yaşayış məntəqəsindən 21-də azərbaycanlılar, 5-də ermənilər, rayon mərkəzi Amasiyada azərbaycanlılarla ermənilər birgə yaşamışlar. Amasiya rayon mərkəzində yaşayan 3210 nəfər əhalinin 1650 nəfərini azərbaycanlılar təşkil edirdi. Ümumiyyətlə, Amasiya rayonunun 21476 nəfər əhalisinin 18256 nəfəri azərbaycanlılar olmuşdur. Amasiyadan azərbaycanlılar Ermənistan dövləti tərəfindən 1988-ci ilin noyabr-dekabr aylarında tamamilə qovulmuşlar. "Hamasa" sözü türk dilində "yaranışdan gələn igidlik, doğuluşdan gələn qəhrəmanlıq" mənasını verən "hamaset", yaxud "hamasi" sözündən əmələ gəlmişdir (244 b, s. 63). "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 16).

Coğrafi koordinatları: 40°56′ şm. e., 43°46′ ş. u.

**Aralıq** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 13 km cənub-qərbdə, dəniz səviyyəsindən 1480 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi keçmiş Leninakan rayonunun tabeliyində olmuşdur. Kənddə azərbaycanlıların etnoqrafik qruplarından olan qarapapaqlar yaşamışdır (415, s. 40). Burada 1886-cı ildə 300, 1897-ci ildə 397, 1908-ci ildə 441, 1914-cü ildə 510 nəfər qarapapaqlar (azərbaycanlılar) yaşamışdır (415, s. 40–41, 122–123). 1918-ci ildə azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya olunmuş, 1921-ci ildə Türkiyənin Muş vilayətinin Ardon kəndindən ermənilər köçürülərək burada yerləşdirilmişdir (416, s. 74). Hazırda kənddə ermənilər yaşayır. Toponim "hüdud, sərhəd, iki torpağı, mülkü və s. bir-birindən ayıran xətt, mərz" (9, s. 114), "iki yaşayış məntəqəsi arasındakı məsafə", "ortalıq" (339, s. 52) mənasında işlənən "ara" sözünə Azərbaycan dilində məkan anlayışı bildirən "-lıq" şəkilçisinin artırılmasından əmələ gəlib "aralıqda, iki yaşayış kəndinin arasında, iki kəndin sərhədində yerləşən kənd" mənasını bildirir. Erm. SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Yerezqavors" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 74).

Coğrafi koordinatları: 40°42′ şm. e., 43°46′ ş. u.

**Aralıq Kolanlı** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 24 km cənub-şərqdə, Alagöz dağının qərb tərəfində, dəniz səviyyəsindən 840 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində "Aralıx" formasında qeyd edilmişdir (348, s. 18). Erməni müəlliflərinin əsərlərində kəndin adı həm Aralıq, həm də Aralıq Kolanlı formalarında qeyd edilir (415, s. 84). Kənddə 1831-ci ildə 284, 1873-cü ildə 676, 1886-cı ildə 701, 1897-ci ildə 886, 1904-cü ildə 768, 1914-cü ildə 887, 1916-cı ildə 772, 1919-cu ildə 1118 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 84–85, 152–153). 1919-cu ilin sonunda kəndin sakinləri erməni təcavüzünə məruz qalaraq qırğınlarla deportasiya olunmuşdur. Kəndə xaricdən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistan ərazi-

sində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına qayıda bilmişlər. Burada ermənilərlə yanaşı, 1922-ci ildə 224, 1926-cı ildə 248, 1931-ci ildə 294 nəfər azərbaycanlı yaşamışdır (415, 84–85, 152–153). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar 1948–1949-cu illərdə tarixi-etnik torpaqlarından zorla Azərbaycana deportasiya olunmuşlar. 1986-cı ildə erməni dilində çap edilmiş "Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti"ndə burada yaşayan azərbaycanlı əhali erməni əhalisi kimi göstərilir (427, s. 962). Guya burada elə tarixən ermənilər yaşamışdır. Bu, erməni saxtakarlığının bir formasıdır. Toponim Azərbaycan dilində "orta, iki yerin arası, ara" mənasında işlənən "aralıq" sözü ilə Azərbaycan dilində mənsubluq bildirən "-lı" şəkilçisini qəbul edən "kolanı" türk tayfa adı əsasında əmələ gəlib, "aralıqda kolanı tayfasına aid kənd" mənasını ifadə edir. Kəndin adı əvvəlcə dəyişdirilib "Aralıq", sonra Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Qriboyedov" (rus yazıçısı, diplomatı) qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 63).

Coğrafi koordinatları: 40°06′ şm. e., 44°16′ ş. u.

**Arazdəyən** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 34 km cənub-şərqdə, Araz çayının sahilində, dəniz səviyyəsindən 810 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 17). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Ermənilər bura 1897-ci ildə köçürülmüşdür. Kənddə ermənilərlə yanaşı, azərbaycanlılar da yaşamışdır. Kənd Araz çayının yaxınlığında yerləşdiyi üçün Arazdəyən adlandırılmışdır. Toponim "Araz" çay adı ilə "dəyən" (döyən) feli sifətinin birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 iyul 1968-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Yerasx" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 74).

Coğrafi koordinatları: 39°43′ şm. e., 44°50′ ş. u.

**Arbat** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 27 km şimal-qərbdə, Zəngi çayından axan Şiraabad arxının yanında, dəniz səviyyəsindən 850 m hündürlükdə yerləşir. Zəngibasar rayonu yaradılanadək, 1969-cu ilə kimi keçmiş Vağarşabad rayonunun tərkibində olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə Arebat kimi (143, s. 77), Qafqazın 5 verstlik xəritəsində Arbat formasında (348, s. 18) qeyd edilmişdir. "İrəvan əyalətinin icmal dəftəri"ndə kəndin adı Qırxbulaq nahiyəsinin tərkibində olan Arebat şəklində göstərilir. İbrahim Əhməd oğlunun adına olan zəhmətin gəliri: 20000 ağça qeyd edilir (143, s. 77). Kənddə 1831-ci ildə 391, 1897-ci ildə 671, 1914-cü ildə 1160 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 80–81, 150–151). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq qırğınlarla deportasiya olunmuş və kəndə Türkiyədən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. Ermənilərlə yanaşı, burada 1922-ci ildə 263, 1926-cı ildə 341, 1931-ci ildə 263 nəfər azərbaycanlı yaşamışdır (415, s. 81, 151). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar 1948–1950-ci illərdə zorla Azərbaycana köçürülmüşdür. Toponim qədim türk dilində "yulğun" bitki adı mənasında işlənən "arubat" sözündən (299, s. 58) əmələ gəlmişdir. "Ermənistan Respublikasının

inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 29).

Coğrafi koordinatları: 40°08' şm. e., 44°23' ş. u.

**Arcut** – İrəvan quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark (Qarakilsə) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 5 km şimal-qərbdə, Böyük Qarakilsə (Kirovakan) şəhərindən 6 km şimal-qərbdə, Bozabdal dağının ətəyində, Pəmbək çayının yaxınlığında, dəniz səviyyəsindən 1600 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində Arçut kimi qeyd edilmişdir (348, s. 21). Kənddə 1831-ci ildə 137, 1873-cü ildə 357, 1886-cı ildə 477, 1897-ci ildə 574, 1914-cü ildə 759 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). Kəndin sakinləri 1918-ci ildə erməni təcavüzünə məruz qalaraq qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına qayıda bilmişlər. 1922-ci ildə 697, 1926-cı ildə 823, 1931-ci ildə 886 (415, s. 51, 131), 1939-cu ildə 1052, 1959-cu ildə 1295, 1970-ci ildə 2009, 1979-cu ildə 2172 nəfər (427, s. 484) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabrında kəndin sakinləri Ermənistan dövləti tərəfindən qırğınlarla qovulmuşdur. İndi kənddə ermənilər məskunlaşıb. Toponim "artuç" (ardıc) bitki adı (299, s. 57) əsasında yaranmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 37).

Coğrafi koordinatları: 40°51' şm. e., 44°22' ş. u.

**Ardanış** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 72 km şimal-şərqdə, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 1975 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Ərdanuc" (143, s. 62), Qafqazın 5 verstlik xəritəsində "Ardanic" formasında (348, s. 18) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 119, 1873-cü ildə 389, 1886-cı ildə 602, 1897-ci ildə 788, 1908-ci ildə 1000, 1914-cü ildə 1045, 1916-cı ildə 1158, 1919-cu ildə 1154 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 30–31, 114–115). 1919-cu ilin əvvəllərində (fevral-mart aylarında) kəndin sakinləri ermənilər tərəfindən qırğınlarla qovulmuş və onlar Azərbaycana qaçmışlar. Sağ qalan ardanışlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz doğma kəndlərinə dönə bilmişlər. 1922-ci ildə burada 1138, 1926-cı ildə 1257, 1931-ci ildə 1246 (415, s. 31, 115), 1939-cu ildə 1643, 1959-cu ildə 1406, 1970-ci ildə 2034, 1979-cu ildə 2037 (427, s. 491), 1986-cı ildə 2500 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci il noyabrın 24-dən 28-dək Ermənistan dövləti tərəfindən kənd sakinləri tarixi-etnik torpaqlarından qovulmuşdur. Hazırda orada ermənilər yaşayır. Toponim qədim türk dilində "dağ", "dağlıq", "dağ kəndi" mənasında



*Ardanış kəndi*



*Ardanış kəndində azərbaycanlıların toyu*

işlənən "art" sözündən (299, s. 55) və məkan anlayışı bildirən "-an" və "-ış" sözdüzəldici şəkilçisindən ibarət olub, "dağlıq yerdə yerləşən kənd" mənasını bildirir. Kəndin relyefi bu məna ilə uyğun gəlir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 37).

Coğrafi koordinatları: 40°29′ şm. e., 45°21′ ş. u.

**Arıxvəli** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 12 km cənub-şərqdə yerləşir. 1937-ci ilə kimi keçmiş Leninakan rayonunun tərkibində olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 128), Qafqazın 5 verstlik xəritəsində (348, s. 19) qeyd edilmişdir. Ədirnə müqaviləsinə (1829) əsasən, İrəvan xanlığının ərazisində ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişdir. Toponim türk mənşəli "arıq" etnonimi ilə Vəli şəxs adının birləşməsindən əmələ gəlmişdir. "Arıq (Arıx) tayfasından olan Vəliyə məxsus kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 21 oktyabr 1967-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lernut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 89).

Coğrafi koordinatları: 40°52′ şm. e., 43°55′ ş. u.

**Armaş** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 27 km cənub-şərqdə, dəniz səviyyəsindən 830 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Toponim türk dilində "möhkəm, qüvvətli" mənasında işlənən "armas" sözü (359, I (1), s. 340) əsasında formalaşmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 36).

Coğrafi koordinatları: 39°46′ şm. e., 44°48′ ş. u.

**Armudlu** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 26 km cənub-şərqdə, dəniz səviyyəsindən 1700 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 19). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Ermənilər kəndə 1829–30-cu illərdə Türkiyənin Ələşkirt və Muş vilayətlərindən köçürülüb yerləşdirilmişdir (416, s. 198). Toponim "armud" bitki adına burada çoxluq mənasını bildirən "-lu" şəkilçisinin artırılması ilə düzəlmişdir. Erm. SSR AS RH-nin 31 may 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Tufaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 198).

Coğrafi koordinatları: 40°36′ şm. e., 43°54′ ş. u.

**Arpa** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 15 km qərbdə, Arpa çayının yanında, dəniz səviyyəsindən 1050 m hündürlükdə



*Arpa kəndi*

yerləşir. Burada 1321-ci ildə tikilmiş qədim alban abidə-məbədinin qalıqları indi də durur. Mənbələrdə Arpanyal, Arbanyal kimi də xatırlanır (427, s. 421). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 20). Kənddə ermənilərlə yanaşı, 1897-ci ildə 34, 1926-cı ildə 15 nəfər azərbaycanlı yaşamışdır (415, s. 90–91). 1930-cu illərdə azərbaycanlılar kənddən qovulmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Arpa türk şəxs adı (238, s. 156) əsasında formalaşmışdır. Görünür, sonralar tayfa adı kimi sabitləşmişdir. Erm. SSR AS RH-nin 10 sentyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Areni" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 31).

Coğrafi koordinatları: 39°43′ şm. e., 45°11′ ş. u.

**Artız** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Kotayk, Abovyan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Kotayk (Ellər) şəhərindən 74 km cənub-şərqdə, dəniz səviyyəsindən 1900 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 20). Kənddə 1873-cü ildə 221, 1886-cı ildə 267, 1897-ci ildə 426, 1904-cü ildə 293, 1914-cü ildə 480, 1916-cı ildə 466 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 44–45, 124–125). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuş, kəndə 1915–1918-ci illərdə Türkiyənin Van və Qars vilayətlərindən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir (416, s. 55). Sağ qalan kənd sakinləri indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz evlərinə qayıda bilmişdir. Burada ermənilərlə yanaşı, 1922-ci ildə 63, 1926-cı ildə 39, 1931-ci ildə isə 74 nəfər azərbaycanlı yaşamışdır (415, 44–45, 124–125). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar 1948–1949-cu illərdə Azərbaycana köçürülmüşdür. Hazırda kənddə ermənilər yaşayır. Toponim qədim türk dilində "ardıc, ardıc kolu" mənasında işlənən "artız" sözündən (299, s. 57) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Geğard" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 55).

Coğrafi koordinatları: 40°09′ şm. e., 44°47′ ş. u.

**Artik (Ərtik)** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində şəhər. Vilayət mərkəzi Gümrü şəhərindən 20 km cənub-şərqdə, Alagöz dağının şimalında, dəniz səviyyəsindən 1750 metr hündürlükdə yerləşir. İlk dəfə VII əsrdə bir mənbədə adı çəkilir (427, s. 438). Qafqazın 5 verstlik xəritəsində (348, s. 20) qeyd edilmişdir. 1924-cü ilə kimi Aleksandropol qəzasına tabe idi. Erm. SSR AS RH-nin 20 oktyabr 1938-ci il tarixli qərarı ilə qəsəbə adlandırılmışdır. Tarixən burada azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1829–1830-cu illərdə Türkiyənin Ərzurum



*Artik/Ərtik şəhəri*

və Qars vilayətlərindən köçürülmüşdür (427, s. 438). Ermənilər toponimin erməni dilində "kişi" mənasında işlənən "ayr" sözü ilə fars dilində "yuxarı, yüksək" mənasında işlənən "tik" sözünün birləşməsindən əmələ gəldiyini göstərirlər (427, s. 438). Əvvəlcə onu qeyd edək ki, "tik" fars sözü yox, əsl Azərbaycan sözüdür. Toponim qədim türk dilində "dağ keçidi" (359, I (1),

s. 309), "dağ, dağlıq" (299, s. 55) mənasında işlənən "art" sözünə "-ik" şəkilçisinin artırılması ilə düzəlmişdir. "-ik" şəkilçisi qədim türk dilində məkan anlayışı bildirən isimlərə də qoşulmuşdur. Buna VII–XIII əsrlərə aid qədim türk abidələrində rast gəlinir (299, s. 660). Artik dağlıq yerdə yerləşir. Deməli, oykonimin adı əraziyə uyğun verilmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 34).

Coğrafi koordinatları: 40°37′ şm. e., 43°57′ ş. u.

**Aşağı Adyaman** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 34 km cənub-qərbdə, Adyaman çayının yanında, dəniz səviyyəsindən 1960 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 61), Qafqazın 5 verstlik xəritəsində (348, s. 7) qeyd edilmişdir. Adyaman kəndindən köçənlər yeni yaşayış yerlərinə "Aşağı Adyaman" adı qoymuşlar. 1897-ci ildə burada 13 nəfər azərbaycanlı yaşamışdır (415, s. 64–65). Ermənilər buraya 1828–1829-cu illərdə Türkiyənin Ələşkirt bölgəsindəki Topraqqala kəndindən və Muş vilayətindən köçürülmüşdür (427, s. 844; 416, s. 144). Erm. SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Nerkin Getaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 144).



*Aşağı Adyaman kəndi*

Coğrafi koordinatları: 40°08′ şm. e., 45°15′ ş. u.

**Aşağı Ağbaş** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 12 km şimal-şərqdə, Çatmadağın ətəyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 3) qeyd edilmişdir. Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. Ermənilər buraya 1828-ci illərdə İranın Səlmas və Xoy bölgələrindən köçürülmüşdür (427, s. 431). Kənddə ermənilərlə yanaşı, 1897-ci ildə 11, 1926-cı ildə isə 2 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46–47). Toponim türk mənşəli "ağbaş" etnonimi (238, s. 323; 92, s. 24) əsasında əmələ gəlmişdir. "Aşağı" sözü fərqləndirici əlamət bildirir. Erm. SSR AS RH-nin 20 avqust 1945-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Arevşat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°02′ şm. e., 44°32′ ş. u.

**Aşağı Ağcaqala** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 37 km şimal-qərbdə, Alagöz dağının cənub-qərb tərəfində, dəniz səviyyəsindən 1600 m hündürlükdə yerləşir. Kəndin digər adı Hacıqala olmuşdur (415, s. 34). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 4). Kənddə 1831-ci ildə 53, 1873-cü ildə 398, 1886-cı ildə 502, 1897-ci ildə 617, 1904-cü ildə 315, 1914-cü ildə 334, 1916-cı ildə 733 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 34–35, 116–117). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq köklü sakinləri azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuş və 1915–1918-ci illərdə Türkiyənin Sasun vilayətinin Arzvik, Qrmav, Qdzak, Kaşkşenk kəndlərindən və Muş vilayətindən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir (427, s. 545; 416, s. 144). Gö-

ründüyü kimi, 1918-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. Erməni müəlliflərinin əsərlərində tarixi faktlar saxtalaşdırılaraq kənddə 1831-ci ildə və 1897-ci ildə azərbaycanlıların yox, ermənilərin yaşadığı göstərilir (427, s. 545). Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən "aşağı" sözü ilə türk dilində "ağımtıl, quru, bozumtul düzən, çöl" mənasında işlənən "ağca" sözünə (93, s. 22–23) "qala" sözünün qoşulmasından əmələ gəlib, "ağımtıl, bozumtul yerdə tikilən qala yanındakı kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 12 sentyabr 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək Nerkin Bazmaberd qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 144).

Coğrafi koordinatları: 40°20′ şm. e., 44°03′ ş. u.

**Aşağı Ağdan** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 11 km şimalda, dəniz səviyyəsindən 650 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Toponim türk dilində "kiçik, alçaq, çox da hündür olmayan" mənasında işlənən "ağ" sözü ilə (94, s. 68) "çöl, səhra, açıq yer" mənasında işlənən "dan" sözünün (287, s. 470) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 may 1967-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək Morut, 11 noyabr 1970-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək Aknaxbyur qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 11).

Coğrafi koordinatları: 40°57′ şm. e., 45°09′ ş. u.

**Aşağı Axta (Hrazdan)** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda şəhər, indi Kotayk vilayətinin mərkəzi. Zəngi çayının yaxınlığında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 23) qeyd edilmişdir. Kənddə 1897-ci ildə 119 nəfər azərbaycanlı yaşamışdır (415, s. 16–17). XX əsrin əvvəllərində, 1905–1906-cı illərdə azərbaycanlılar kənddən qovulmuş və kənd ermənilərin yaşayış məntəqəsinə çevrilmişdir. 1926-cı ildə kənddə cəmi 3 nəfər azərbaycanlı yaşamış (415, s. 16–17) və sonralar onlar da qovulmuşlar. Toponim fərqləndirmə mənasını bildirən "aşağı" sözü ilə padar türk tayfasının bir qolunu təşkil edən "axta" etnoniminin (286, s. 57) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 30 iyun 1959-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək Hrazdan qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 88).

Coğrafi koordinatları: 40°30′ şm. e., 44°46′ ş. u.

**Aşağı Alçalı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayəti ərazisində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 53 km cənub-şərqdə, Göyçə gölündən 2 km aralıda, Alçalı çayının yanında, dəniz səviyyəsindən 1950 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 14). XIX əsrin 20-ci illərinə qədər burada azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra, 1829–1830-cu illərdə Türkiyənin Ələşkirt bölgəsindən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir (416, s. 35). Azərbaycanlılar həmin vaxtdan kənddən qovulmuşdur. Toponim fərqləndirici əlamət bildirən "aşağı" sözü ilə Azərbaycan dilində mənsubluq bildirən "-lı" şəkilçisi qəbul etmiş "alça" bitki adının birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 27 sentyabr 1968-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Ardzvanist" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 35).

Coğrafi koordinatları: 40°09′ şm. e., 45°30′ ş. u.

**Aşağı Əylənli** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 7 km cənub-qərbdə, Kasax çayının sağ sahilində, dəniz səviyyəsindən 890 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 8). Kəndin digər adı Əylənli-Yasaxlu olmuşdur (415, s. 80; 348, s. 8). Burada 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra, 1828–1830-cu illərdə kəndə İrandan köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir (386, s. 583–586). 1830-cu ildən sonra qarışıq kəndə çevrilmişdir. Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 59, 1897-ci ildə 8 nəfər azərbaycanlı yaşamışdır (415, s. 80–81, 150). Onlar 1890-cı illərdə ermənilər tərəfindən sıxışdırılaraq tarixi-etnik torpaqlarından qovulmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim "Əylənli" nəsil adı əsasında əmələ gəlmişdir. Əylənli tayfası F.Sümərin "Oğuzlar" əsərində "Əylənoğlu" formasında qeyd edilir (238, s. 185). "Aşağı" sözü fərqləndirici əlamət bildirir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lenuği", 1991-ci ildən isə "Xoronk" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 98).

Coğrafi koordinatları: 40°08' şm. e., 44°14' ş. u.

**Aşağı Girətağ** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Yuxarı Girətağ kəndindən 4 km cənub-qərbdə, Oxçu çayının sol sahilində, dəniz səviyyəsindən 1440 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində Kirətaq formasında qeyd edilmişdir (348, s. 134). Tarixən Zəngəzur qəzasında Girətağ adlı bir kənd olmuşdur. Sonralar bir qrup kənd sakini Girətağdan köçərək kəndin yaxınlığında yeni kənd salmışlar və yeni salınan kənd "Aşağı Girətağ", Girətağın özü isə "Yuxarı Girətağ" adlanmışdır. Aşağı Girətağda 1897-ci ildə 87 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57). 1918-ci ildə kəndin sakinləri erməni soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənd sakinləri doğma yurdlarına dönə bilmişlər. Kənddə 1922-ci ildə 82, 1926-cı ildə 87, 1931-ci ildə 127 (415, s. 57, 135), 1939-cu ildə 139, 1959-cu ildə 167, 1979-cu ildə 143 nəfər (427, s. 868) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından tamamilə deportasiya olunmuşdur. Hazırda orada ermənilər yaşayır. Toponim türk dilində "dağ silsiləsi, sıra dağlar", "çöl, dağ, hündür yer, təpəlik", "dağ qılıcı, yayla" mənasında işlənən "kir" sözü ilə (359, 11 (2), s. 860; 339, s. 327) "dağ" (tağ) sözünün birləşməsindən əmələ gəlmişdir. Toponimin əvvəlindəki "aşağı" sözü fərqləndirici əlamət bildirir. Kəndin adı rəsmi sənədlərdə sonradan "Nerkin Giratağ" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 144–145).

Coğrafi koordinatları: 39°13' şm. e., 46°16' ş. u.

**Aşağı Gödəkli** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 5 km şimalda, dəniz səviyyəsindən 820 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində "Gedaklu" formasında qeyd edilmişdir (348, s. 127). Kənddə 1831-ci ildə 26, 1873-cü ildə 154, 1886-cı ildə 206, 1897-ci ildə 123, 1904-cü ildə 439, 1914-cü ildə 153 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57, 134–135). 1918-ci ildə azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. Sağ qalan kənd

sakinləri indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz evlərinə dönə bilmişlər. Burada 1922-ci ildə 42, 1926-cı ildə 60, 1931-ci ildə 74 (415, s. 57, 135), 1939-cu ildə 87, 1959-cu ildə 95, 1970-ci ildə 447, 1979-cu ildə 294 nəfər (416, s. 44) azərbaycanlı yaşamışdır. 2008-ci ildə erməni dilində çap olunmuş "Ermənistanın yaşayış məntəqələri lüğəti"ndə kənddə yaşayanların ümumi sayı göstərilsə də, bilərəkdən etnik tərkibi göstərilməmişdir (416, s. 44). 1988-ci il noyabrın axırında azərbaycanlılar Ermənistan dövləti tərəfindən öz doğma torpaqlarından qovulmuşlar. Hazırda orada ermənilər yaşayır. Toponim "aşağı" fərqləndirici sözü ilə türk mənşəli qazaxlar tayfasının bir qolu olan gödəkli etnonimi adının birləşməsindən (386, s. 535) əmələ gəlmişdir. Ermənistan parlamentinin 04 iyun 2006-cı il tarixli qərarı ilə yaşayış məntəqəsinin adı dəyişdirilərək "Barquşad" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 44).

Coğrafi koordinatları: 39°13′ şm. e., 46°27′ ş. u.

**Aşağı Gözəldərə** – İrəvan quberniyasında Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 46 km cənub-şərqdə, Gözəldərə çayının sahilində, dəniz səviyyəsindən 1980 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 58). 1828-ci ilə qədər burada yalnız azərbaycanlılar yaşamışdır. Ermənilər buraya Türkmənçay müqaviləsindən sonra, 1828–1829-cu illərdə Türkiyənin Ələşkirt və Muş vilayətlərinin kəndlərindən köçürülüb yerləşdirilmişdir (386, s. 595–598; 416, s. 190). 1897-ci ildə kənddə ermənilərlə yanaşı, 108 nəfər azərbaycanlı yaşamışdır (415, s. 66–67). XX əsrin əvvəllərində, 1905–1906-cı illərdə ermənilərin təcavüzünə məruz qalan azərbaycanlılar deportasiya olunmuşdur. Hazırda orada ermənilər yaşayır. Toponim fərqləndirici əlamət bildirən "aşağı" sözü ilə "gözəl" və "dərə" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vardenik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 190).

Coğrafi koordinatları: 40°07′ şm. e., 45°26′ ş. u.

**Aşağı Güllüdüzü** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 31 km şimal-şərqdə, dəniz səviyyəsindən 2050 m hündürlükdə yerləşir. Kənddə 1873-cü ildə 115, 1886-cı ildə 217, 1904-cü ildə 151, 1914-cü ildə 166, 1916-cı ildə 407 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). 1918-ci ildə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Ancaq indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri ata-baba yurdlarına dönə bilmişlər. Burada 1922-ci ildə 142, 1926-cı ildə 31, 1931-ci ildə 190 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 93, 161). 1959-cu ildə rayondakı Yuxarı Güllüdüzü kəndi ilə birləşdirilib Güllüdüzü kəndi yaradılmışdır. Toponim fərqləndirici əlamət bildirən "aşağı" sözündən və "güllü, çiçəkli" mənasında işlənən "güllü" sözünə Azərbaycan dilində "enişi, yoxuşu, çuxuru, təpəsi olmayan" mənasında işlənən "düz" sözünün birləşməsi nəticəsində əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vardahovit" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 188).

Coğrafi koordinatları: 39°53′ şm. e., 45°29′ ş. u.

**Aşağı Xatınarx** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən

39 km cənub-şərqdə, Böyük Qarasu çayının yanında, dəniz səviyyəsindən 834 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 262). Kənddə 1828–1829-cu illərə kimi yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra 1828–1829-cu illərdə buraya İranın Xoy və Salmas vilayətlərindən ermənilər köçürülüb yerləşdirilmişdir (427, s. 778; 416, s. 50). Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 208 nəfər azərbaycanlı yaşamışdır (415, s. 152). 1870-ci illərdə azərbaycanlılar sıxışdırılaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. 1670–1680-ci illərdə Çuxur Səəd bəylərbəyi Səfi xanın Qarasu çayından çəkdirdiyi arxın kənarında onun arvadı Xatın kənd saldırmış və həmin kənd Xatınarx adlanmışdır (427, s. 778; 327, s. 55). Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə adı dəyişdirilərək Qay qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 50).

Coğrafi koordinatları: 40°05' şm. e., 44°18' ş. u.

**Aşağı Xotanan** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 21 km şimal-qərbdə, dəniz səviyyəsindən 1150 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 268). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Toponim türk mənşəli xotan etnonimi (275, s. 399) əsasında formalaşmışdır. Toponimin sonundakı "-an" şəkilçisi cəmlik bildirir. "Xotanlar tayfasının yaşadığı kənd" mənasını ifadə edir. Erməni ədəbiyyatında "Nerkin Xotanan" formasında əksini tapmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 145).

Coğrafi koordinatları: 39°17' şm. e., 46°22' ş. u.

**Aşağı Kilsə** – İrəvan quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark (Qarakilsə) rayonunda, indi Lori vilayətində kənd. Quqark şəhərindən 23 km cənub-qərbdə, Hallavarla Güllüdərə kəndləri arasında yerləşir. Quqark (Qarakilsə) rayonunda tarixən Kilsə kəndi olmuşdur. Sonra Kilsə kəndindən ayrılanlar yeni kənd salmış, yeni salınan kəndi Kilsə kəndindən fərqləndirmək üçün onu Aşağı Kilsə adlandırmışlar. Kənddə 1922-ci ildə 87, 1926-cı ildə 110, 1931-ci ildə 128 (415, s. 54–55, 132–133), 1987-ci ildə 120 nəfər (85, s. 314) azərbaycanlı yaşamışdır. 1988-ci ilin dekabr ayında ermənilər kəndə hücum edərək azərbaycanlıları zor və qırğınlarla öz doğma kəndlərindən qovmuşlar. Toponim "aşağı" fərqləndirici sözü ilə "dini məbəd" mənasında işlənən "kilsə" sözünün birləşməsindən əmələ gəlmişdir. Hazırda kənd "Kilisa" adlanır və orada yalnız ermənilər yaşayır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 208).

Coğrafi koordinatları: 40°45' şm. e., 44°25' ş. u.

**Aşağı Qanlıca** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 10 km şimal-qərbdə, Gümrü-Amasiya yolunun 12 kilometrliyində, dəniz səviyyəsindən 1650 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi keçmiş Leninakan rayonunun tabeliyində olmuşdur. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Ermənilər buraya 1828–1829-cu illərdə Türkiyənin Qars vilayətinin İncələr kəndindən köçürülmüşdür (416, s. 185). Toponim türk mənşəli "qanlı" etnoniminə (393, s. 42–53) "-ca" şəkilçisinin artırılması əsasında

əmələ gəlmişdir. Toponimin əvvəlindəki "aşağı" sözü fərqləndirici əlamət bildirir. Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vağramaberd" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 185).

Coğrafi koordinatları: 40°51′ şm. e., 43°45′ ş. u.

**Aşağı Qarabağlar** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində kənd. Kəndin başqa adı Çimənkənd olmuşdur. 1950-ci ilədək indiki Ermənistan ərazisində mövcud olan Qarabağlar rayonunun inzibati-ərazi bölgüsünə daxil olmuşdur. 1951-ci ildə Qarabağlar rayonu ləğv ediləndən sonra ərazisi keçmiş Vedi rayonunun tabeliyinə verilmişdir. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 26 km cənub-şərqdə, Vedi çayının sağ sahilində, dəniz səviyyəsindən 1075 m hündürlükdə yerləşir. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Aşağı Qarabağ" formasında (143, s. 172), 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə "Kiçik Qarabağ" (143, s. 104) formasında, Qafqazın 5 verstlik xəritəsində "Aşağı Qarabağlar" kimi (348, s. 114) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 756, 1886-cı ildə 924, 1897-ci ildə 1260, 1904-cü ildə 1725, 1914-cü ildə 1879, 1916-cı ildə 2026 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). 1919-cu ildə azərbaycanlılar qırğınlarla qovulmuş və 1920-ci ildən sonra Türkiyədən köçürülüb gətirilən ermənilər



*Aşağı Qarabağlar kəndi*

bu kənddə yerləşdirilmişdir. Sağ qalan azərbaycanlılar Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndə qayıda bilmişlər. Burada 1922-ci ildə 880 azərbaycanlı, 210 erməni, 1926-cı ildə 690 azərbaycanlı, 141 erməni, 1931-ci ildə 663 azərbaycanlı, 178 erməni və kürd (415, s. 87, 157), 1939-cu ildə 4600 nəfər azərbaycanlı (85, s. 237) yaşamışdır. 1948–1950-ci illərdə SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, zorla tarixi-etnik torpaqlarından çıxarılaraq Azərbaycana köçürülmüşdür. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim fərqləndirici əlamət bildirən "aşağı" və kəngərli tayfasına mənsub "qarabağlar" etnonimi əsasında (168, s. 99) əmələ gəlmişdir. Etnotoponimdir. 1920-ci ildə kəndin adı dəyişdirilərək "Çimənkənd", sonra Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Urtsadzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 200–201).

Coğrafi koordinatları: 39°54′ şm. e., 44°49′ ş. u.

**Aşağı Qaraçimən** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 5 km məsafədə, dəniz səviyyəsindən 840 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə 1831-ci ildə 11, 1873-cü ildə 63, 1886-cı ildə 225, 1897-ci ildə 34, 1904-cü ildə 216 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57, 134–135). 1918-ci il dekabrın axırlarında ermənilər azərbaycanlıları qırğınlarla qovmuş və yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndin sakinləri öz yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 210, 1926-cı ildə 154, 1931-ci ildə 212 nəfər azərbaycanlı yaşamışdır (415, s. 57,

135). 1926-cı ildən sonra Yuxarı Qaraçimən ləğv edilərək Aşağı Qaraçimən kəndi ilə birləşdirilmiş və Qaraçimən kəndi yaradılmışdır. 1988-ci ilin noyabr ayında ermənilər azərbaycanlıları tamamilə qovmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim türk dilində "böyük, geniş" mənasında işlənən "qara" sözü ilə (142, s. 271) "yaşıllıq, otluq" mənasında işlənən "çimən" (çəmən sözünün dialekt variantı) sözünün birləşməsindən əmələ gəlib, "böyük çəmənlik" mənasını bildirir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək Ditsmayri qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 69).

Coğrafi koordinatları: 39°12′ şm. e., 46°28′ ş. u.

**Aşağı Qaraqoymaz** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 40 km şimal-qərbdə, Alagöz dağının qərb tərəfində, dəniz səviyyəsindən 1800 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində "Qaraqoymaz" formasında qeyd edilmişdir (348, s. 117). Kənddə 1831-ci ildə 49, 1873-cü ildə 265, 1886-cı ildə 356, 1897-ci ildə 233, 1904-cü ildə 394, 1914-cü ildə 418, 1916-cı ildə 322 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 34–35, 118–119). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri – azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 1915–1918-ci illərdə Türkiyənin Sasun, Taron, Muş və Xnıs (Hnıs) vilayətlərindən köçürülüb gətirilən ermənilər və kürdlər burada yerləşdirilmişdir (415, s. 34; 85, s. 112; 416, s. 145). Hazırda kənddə ermənilər yaşayır. Toponim türk dilində "böyük", "təpə", "dağın zirvəsi", "zirvə" mənasında işlənən "qara" sözündən (339, s. 256) və türk dilində "kənd" mənasında işlənən "köy" sözünün forması olan "koy" sözü ilə (339, s. 282) "dağın cənub yamacı", "yüksəkliyin meşəsiz tərəfi", "dağın gün düşən tərəfi" mənasında işlənən "mes" (maz – İ.B) sözünün (339, s. 369) birləşməsindən əmələ gəlmişdir. "Böyük dağın, təpənin gün düşən, cənub tərəfində olan kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək Nerkin Sasunaşen qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 145).

Coğrafi koordinatları: 40°21′ şm. e., 43°58′ ş. u.

**Aşağı Qaranlıq** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, indiki Ermənistan ərazisində rayon və rayon mərkəzi olmuşdur. İndi Geğarkunik vilayətində şəhər. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 36 km cənub-şərqdə, İrəvandan 130 km məsafədə, Göyçə gölünün cənubunda, dəniz səviyyəsindən 1930 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 118). 1939-cu il sentyabrın 9-da rayon kimi yaradılmışdır. Toponim Azərbaycan dilində məkan mənası bildirən "-lıq" şəkilçisi qəbul etmiş, türk dilində "təpə", "qaya" mənasında işlənən "qara" sözü (339, s. 256) əsasında əmələ gəlib "təpəlik, dağlıq, qayalıq yer" mənasını bildirir. "Qara" sözü ilə "-lıq" şəkilçisi arasındakı "n" bitişdirici samit funksiyasını yerinə yetirir. Kənd, doğrudan da, qayalıq, dağlıq bir yerdə yerləşib və hər tərəf təpəlikdən, dağlıqdan ibarətdir. Kəndin relyefi adına uyğun gəlir. Toponimdəki "aşağı" sözü fərqləndirici əlamət bildirir. Yaşayış məntəqəsinin adı 1926-cı ildə dəyişdirilərək "Martuni" qoyulmuşdur. "Er-



*Aşağı Qaranlıq kəndi*

mənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 135).

Coğrafi koordinatları: 40°08′ şm. e., 45°18′ ş. u.

**Aşağı Qarxın** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Üçkilsə (Vağarşabad) rayonunda, Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 39 km cənub-şərqdə, Böyük Qarasu çayının yanında, dəniz səviyyəsindən 825 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 37), Qafqazın 5 verstlik xəritəsində (348, s. 123) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 318, 1873-cü ildə 369, 1886-cı ildə 420, 1897-ci ildə 586, 1904-cü ildə 568, 1914-cü ildə 604, 1916-cı ildə 631 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuş, kəndə 1915–1918-ci illərdə Türkiyənin Sürməli vilayətindən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir (416, s. 29). Sağ qalan azərbaycanlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada ermənilərlə yanaşı, 1922-ci ildə 169, 1926-cı ildə 201, 1931-ci ildə isə 212 nəfər azərbaycanlı yaşamışdır (415, s. 83, 153). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar 1948–1949-cu illərdə zorla tarixi-etnik torpaqlarından Azərbaycana köçürülmüşdür. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində fərqləndirici əlamət bildirən "aşağı" sözü ilə oğuz tayfalarından olan qarxın (mənbələrdə "qarqın", "qarkın" kimi qeyd edilir) etnonimi (238, s. 300) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 15 iyul 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək Araks qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 29).

Coğrafi koordinatları: 40°03′ şm. e., 44°18′ ş. u.

**Aşağı Qoylasar** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Kəndin başqa adı Sufla Qoylasar olmuşdur (415, s. 48). Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 5 km cənub-qərbdə, Xaraba Kotanlı kəndindən 7 km cənubda, dəniz səviyyəsindən 840 m hündürlükdə yerləşir. Burada tarixən yalnız azərbaycanlılar yaşamışdır. 1828–1830-cu illərdə kəndə İrandan ermənilər köçürülmüşdür (386, s. 551–554). Burada 1831-ci ildə 5, 1873-cü ildə 4, 1897-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). XX əsrin əvvəllərində (1905–1906) azərbaycanlılar öz torpaqlarından qovulmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən "aşağı" sözü ilə "qala" və "hasar" sözlərinin təhrif edilmiş forması olan "qoylasar" sözündən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 1 dekabr 1949-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Dimitrov" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 69).

Coğrafi koordinatları: 40°00′ şm. e., 44°29′ ş. u.

**Aşağı Necili** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 20 km şimal-qərbdə, dəniz səviyyəsindən 827 m hündürlükdə yerləşir. Keçmiş Zəngibasar (Masis) rayonu təşkil edilənədək 1969-cu ilə kimi keçmiş Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 186). Kənddə 1831-ci ildə 411 nəfər azərbaycanlı, 114 nəfər erməni, 1873-cü ildə 1183 nəfər, 1886-cı ildə 1147 nəfər, 1897-ci ildə 1178 nəfər, 1908-ci ildə 1430 nəfər, 1914-cü ildə 1573 nəfər, 1916-cı ildə 1074 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). 1918-ci ildə kəndin əhalisi erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Sağ qalan azərbaycanlılar yalnız indiki Ermənistan

ərazisində sovet hakimiyyəti qurulandan sonra öz yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 555, 1926-cı ildə 726, 1931-ci ildə 379 nəfər azərbaycanlı yaşamışdır (415, s. 49, 129). Bununla yanaşı, 1939-cu ildə 877, 1959-cu ildə 1164, 1970-ci ildə 1671, 1979-cu ildə 1818 nəfər azərbaycanlı, erməni və kürd yaşamışdır (416, s. 174). Ermənilər buraya 1828-ci ildə və 1946–1948-ci illərdə İrandan köçürülmüşdür (386, s. 547–550; 416, s. 174). 1988-ci ilin oktyabr-noyabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim fərqləndirici əlamət bildirən "aşağı" sözü ilə "nəcli" türk etnonimi (143, s. 30) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixi qərarı ilə adı dəyişdirilərək Sayat Nova qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 174).

Coğrafi koordinatları: 40°04' şm. e., 44°23' ş. u.

**Aşağı Pirtikan** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Talin şəhərindən 9 km şimalda, Mastara kəndindən 2 km şimal-şərqdə, Mastara çayının yanında, dəniz səviyyəsindən 1900 m hündürlükdə yerləşir. Kəndin digər adı Türk Pirtikanı (Pirtikan Türk) olmuşdur (415, s. 36). Kənddə 1873-cü ildə 65, 1886-cı ildə 112, 1897-ci ildə 140, 1904-cü ildə 153, 1914-cü ildə 166, 1916-cı ildə 157 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 36–37, 118–119). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq sakinləri – azərbaycanlılar qırğınlarla deportasiya olunmuş və Türkiyədən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim qıpçaqların "tikan" etnonimi (286, s. 66) əsasında əmələ gəlmişdir. Toponimin əvvəlindəki "aşağı" sözü Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən söz kimi iştirak edir. "Pir" sözü isə dini məbəd mənasında işlənir. "Tikan tayfasının tikdiyi pirin yanındakı kənd" mənasını ifadə edir. Etnotoponimdir. Erm. SSR AS RH-nin 2 mart 1940-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Zoragyuğ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 126).

Coğrafi koordinatları: 40°28′ şm. e., 43°54′ ş. u.

**Aşağı Şorca** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Kəndin başqa adları Yeni Keyti, Salman kənd olmuşdur (415, s. 26). İ.Şopenin əsərində kəndin adı "Aşağı Keyti və ya Salman kəndi" formasında qeyd edilmişdir (386, s. 599). Kənd vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 83 km cənub-şərqdə, Məzrə çayının sağ sahilində, dəniz səviyyəsindən 2260 m hündürlükdə yerləşir. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 297). Kənddə 1831-ci ildə 164, 1873-cü ildə 411, 1886-cı ildə 524, 1897-ci ildə 584, 1908-ci ildə 721, 1914-cü ildə 910, 1916-cı ildə 843 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. Sağ qalan azərbaycanlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra geri qayıda bilmişlər. Burada 1922-ci ildə 394, 1926-cı ildə 494, 1931-ci ildə 617 (415, s. 27, 113), 1939-cu ildə 764, 1959-cu ildə 634, 1970-ci ildə 932, 1979-cu ildə 1045 (416, s. 145), 1987-ci ildə 1500 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci



*Aşağı Şorca kəndi*

ilin noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim "duzlu, şoranlı" mənasında işlənən "şor" sözünə sifətin çoxaltma dərəcəsini bildirən "-ca" şəkilçisinin artırılması əsasında yaranmışdır. Erməni ədəbiyyatında "Nerkin Şorja" formasında əksini tapır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 145).

Coğrafi koordinatları: 40°40′ şm. e., 45°45′ ş. u.

**Aşağı Talın** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 48 km şimal-qərbdə, dəniz səviyyəsindən 1585 m hündürlükdə yerləşir. Kəndin digər adı "Türk Tatar Talını" olmuşdur (415, s. 34). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 236). Kənddə 1873-cü ildə 248, 1886-cı ildə 253, 1897-ci ildə 418, 1908-ci ildə 376, 1914-cü ildə 400, 1916-cı ildə 471 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 34-35, 118–119). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq yerli sakinləri – azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş, oraya Türkiyədən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir (415, s. 119). Hazırda kənddə ermənilər və yezidi kürdlər yaşayır. Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən "aşağı" sözü ilə türk dilində "söyüd ağacı, söyüd kolu" mənasında işlənən "tal" sözündən (341, s. 182; 337, s. 235) və türk dilində "daxma, koma, mağara, kaha" mənasında işlənən "in" sözündən (299, s. 209) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək Nerkin Talin qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 81).

Coğrafi koordinatları: 40°20′ şm. e., 43°51′ ş. u.

**Aşağı Türkmənli** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 35 km cənub-şərqdə, Böyük Qarasu çayının yanında, dəniz səviyyəsindən 835 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində "Türkmənli" formasında qeyd edilmişdir (348, s. 248). Ermənilər kəndə 1915–1920-ci illərdə Türkiyənin Sürməli vilayətinin Baharlı kəndindən köçürülüb yerləşdirilmişdir (416, s. 93). Toponim Azərbaycan dilində fərqləndirici əlamət bildirən "aşağı" sözü ilə "-li" mənsubluq şəkilçisi qəbul etmiş qızılbaşların "türkmən" etnonimindən (175, s. 18) əmələ gəlib, "Türkmən tayfasının yaşadığı kənd" anlamını verir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lusagyuğ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 93).

Coğrafi koordinatları: 40°05′ şm. e., 44°15′ ş. u.

**Aşağı Zağalı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 64 km cənub-şərqdə, Göyçə gölünün cənub-şərq sahilində, dəniz səviyyəsindən 1920 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 94). Aşağı Zağalı kəndinə ermənilər 1829–1830-cu illərdə Türkiyə və



*Aşağı Zağalı kəndi*

İrandan köçürülüb yerləşdirilmişdir. Burada ermənilərlə yanaşı, azərbaycanlılar da yaşamışdır. Toponim Azərbaycan dilində "mağara", "kaha" mənasında işlənən "zağa" sözünə "-lı" şəkilçisinin artırılması əsasında yaranmışdır. Kənd dağlıq ərazidə, zağa olan yerdə salındığı üçün Zağalı adlandırılmışdır. "Aşağı" fərqləndirici əlamət bildirən sözdür. Erm. SSR AS RH-nin 12 dekabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Tsovak" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 103).

Coğrafi koordinatları: 40°10' şm. e., 45°38' ş. u.

**Aşnak** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 50 km şimal-qərbdə, Alagöz dağının cənub-qərbində, İrəvan-Talin avtomobil yolunun sol tərəfində, dəniz səviyyəsindən 1420 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 85), Qafqazın 5 verstlik xəritəsində (348, s. 303) qeyd edilmişdir. Kəndin adı həm də "Eşnək" formasında göstərilir (348, s. 303; 415, s. 34; 427, s. 294). Kəndin adı ilk dəfə V əsrdə xatırlanır. Burada IV–V əsrlərə aid alban kilsəsinin qalıqları, IX-X əsrlərdə tikilən qalanın xarabalıqları indi də durur. Qədim Aşnak kəndi indiki Aşnak kəndindən 5 km qərbdə yerləşmişdir (427, s. 294). Kənddə 1831-ci ildə 62, 1873-cü ildə 363, 1886-cı ildə 469, 1897-ci ildə 744, 1904-cü ildə 477, 1914-cü ildə 507, 1916-cı ildə 806 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 34–35, 116–117). Kənd 1918-ci ildə erməni təcavüzünə məruz qalaraq sakinləri – azərbaycanlılar qırğınlarla tarixi torpaqlarından deportasiya olunmuşdur. Bura 1915–1920-ci illərdə Türkiyənin Sasun vilayətinin kəndlərindən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir (427, s. 294; 416, s. 22). Kəndi tərk edən azərbaycanlılardan sağ qalanlar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra ata-baba torpaqlarına qayıda bilmişdir. 1922-ci ildə kənddə ermənilərlə yanaşı, 22 nəfər azərbaycanlı yaşamışdır (415, s. 117). Onlar 1924–1925-ci illərdə sıxışdırılaraq kənddən qovulmuşdur. Lakin tarixi faktlar erməni müəlliflərinin əsərlərində saxtalaşdırılaraq təhrif edilir. "Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti"ndə göstərilir ki, Aşnak kəndində 1831-ci ildə 62, 1873-cü ildə 363 nəfər erməni yaşamışdır (427, s. 294). Halbuki bu illərdə kənddə ermənilər yox, təkcə azərbaycanlılar yaşamışdılar (415, s. 116). Hazırda kənddə ermənilər yaşayır. Toponim "aşina/aşna" türk etnoniminə (180, s. 30; 393, s. 16–20) cəmlik bildirən "-k" şəkilçisinin artırılması yolu ilə düzəlib, "aşina tayfasının yaşadığı kənd" mənasını ifadə edir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 22).

Coğrafi koordinatları: 40°19' şm. e., 43°55' ş. u.

**Avan** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 15 km şimal-qərbdə, Alagöz (Ələyəz) dağının ətəyində, dəniz səviyyəsindən 1680 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 89) qeyd edilmişdir. 1728-ci ildə tərtib edilmiş həmin dəftərdə göstərilir ki, əhalisi Qaracalar aşirətindəndir (tayfasındandır) (143, s. 89). Qaracalar türk tayfalarından biridir. Kənddə 1831-ci ildə 104, 1873-cü ildə 321, 1886-cı ildə 368, 1897-ci ildə 465, 1908-ci ildə 300, 1914-cü ildə 301, 1916-cı ildə 556 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107). 1986-cı ildə erməni dilində çap edilmiş "Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti"ndə 1831–1916-cı illərdə burada ermənilərin yaşadığı göstərilir və azərbaycanlılar ermənilər kimi təqdim edilir (427, s. 356). 1918-ci ildə kəndin köklü sakinləri olan azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. 1916-cı ildə buraya Türkiyənin Sasun, Muş, Ərzurum, Van və Qars vilayətlərindən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. Toponim urartu dilində

"ölkə" mənasında işlənən ebani (ebani) sözü (317, s. 70, 339; s. 37) əsasında əmələ gəlmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 25).

Coğrafi koordinatları: 40°20′ şm. e., 44°10′ ş. u.

**Avdallar** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Kotayk (Ellər) şəhərindən 58 km cənub-qərbdə, İrəvan şəhərindən 11-12 km şimalda, dəniz səviyyəsindən 1400 m hündürlükdə yerləşir. Kəndin digər adı "Abdalar"dır (415, s. 44). Burada 1873-cü ildə 59, 1886-cı ildə 112, 1897-ci ildə 115, 1904-cü ildə 131, 1914-cü ildə 194, 1916-cı ildə 192 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 44–45, 124–125). 1918-ci ildə azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya olunmuş, 1918–19-cu illərdə Türkiyənin Van əyalətindən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir. Sağ qalan kənd sakinləri indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz yurdlarına qayıda bilmişlər. Ermənilərlə yanaşı, burada 1922-ci ildə 29, 1926-cı ildə 7, 1931-ci ildə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s. 45, 125). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, 1948–49-cu illərdə azərbaycanlılar Azərbaycana köçürülmüşdür. Hazırda kənddə ermənilər yaşayır. Toponim abdal türk tayfasının adına (355, s. 165) cəm bildirən "-ar" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. "Abdallara, abdal tayfalarına mənsub kənd" mənasını verir. Etnotoponimdir. Ermənistan SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilib "Hatsavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 120).

Coğrafi koordinatları: 40° 08′ şm. e., 44°39′ ş. u.

**Avdıbəy** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 37 km cənub-qərbdə, dəniz səviyyəsindən 1750 m hündürlükdə yerləşir. Burada 1897-ci ildə 7 nəfər azərbaycanlı yaşamışdır (415, s. 40–41). Ermənilər kəndə Türkiyənin Muş və Ərzurum vilayətlərindən köçürülüb yerləşdirilmişdir (416, s. 99). XX əsrin əvvəllərində onlar kənddən deportasiya olunmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Toponim Avdıbəy şəxs adından yaranmışdır. Ermənistan SSR AS RH-nin 4 may 1939-cu il tarixli qərarı ilə adı dəyişdirilib "Tsaxkaşen", 21 oktyabr 1967-ci il tarixli qərarı ilə isə yenidən dəyişdirilərək "Tsaxkaber" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 99).

Coğrafi koordinatları: 40°47′ şm. e., 44°06′ ş. u.

**Avşar** – İrəvan quberniyasının İrəvan qəzasının Vedibasar mahalında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 13 km cənub-şərqdə, Vedi çayından ayrılan arxın yanında, dəniz səviyyəsindən 835 m hündürlükdə yerləşir. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftər"ində "Avşar" (143, s. 172), 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftər"ində Vedi nahiyəsində "Əfşaryerli" formasında (143, s. 51), Qafqazın 5 verstlik xəritəsində "Avşar" kimi (348, s. 3) qeydə alınmışdır. Erməni müəlliflərinin əsərlərində kəndin 1831-ci ildə salındığı göstərilir (416, s. 26). Əslində, kəndin tarixi çox qədimdir. Belə ki "İrəvan əyalətinin müfəssəl dəftər"ində XVI əsrdə Vedi nahiyəsində Avşar adlı kəndin mövcudluğu qeyd edilir (143, s. 172). Kənddə 1831-ci ildə 80, 1873-cü ildə 886, 1886-cı ildə 1059, 1897-ci ildə 1166, 1904-cü ildə 1094, 1914-cü ildə 1203, 1916-cı ildə 1160 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 84–85, 154–155). 1918–1919-cu illərdə azərbaycanlılar ermənilər tərəfindən qırğınlara məruz qalaraq

qovulmuşlar. Bu kənddə xaricdən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. 1920-ci ildə indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənddən qovulmuş azərbaycanlılardan sağ qalanları doğma kəndlərinə qayıtmışlar. 1920-ci ildən sonra kənddə azərbaycanlılarla yanaşı, ermənilər də yaşamışdır. Burada 1922-ci ildə 420 nəfər azərbaycanlı, 322 erməni, 1926-cı ildə 533 azərbaycanlı, 317 erməni, 1931-ci ildə 608 azərbaycanlı, 327 erməni yaşamışdır (415, s. 85, 155). 1831–1916-cı illərə kimi Avşar kəndində yalnız azərbaycanlılar yaşamışdır (415, s. 154–155). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar 1948–1950-ci illərdə zorla Azərbaycana köçürülmüşdür. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim "çevik və ovçuluğu sevən" mənasını verən (228, s. 40) avşar oğuz tayfasının (399, s. 56) adı əsasında əmələ gəlmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 26).

Coğrafi koordinatları: 39°50' şm. e., 44°41' ş. u.

**Ayarlı** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 25 km şimal-şərqdə, Abaran çayının qolunun yanında, dəniz səviyyəsindən 975 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 24). Kənddə 1831-ci ildə 38, 1873-cü ildə 265, 1886-cı ildə 252, 1897-ci ildə 355, 1904-cü ildə 353, 1914-cü ildə 373, 1916-cı ildə 339 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 80–81, 150–151). 1918-ci ildə kəndin sakinləri erməni təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuşdur. Sağ qalan azərbaycanlılar indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra ata-baba yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 97 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 151). Onlar 1924–1925-ci illərdə sıxışdırılaraq kənddən çıxarılmış, yerlərinə ermənilər və kürdlər yerləşdirilmişdir. Hazırda kənddə ermənilər yaşayır. Toponim "öz təşkilatı olan və varlılar hesabına kasıblara köməklik məqsədini güdən şəhər yoxsullarından ibarət təbəqə" mənasını bildirən "ayarı" sözü əsasında (338, s. 574) yaranan ayarlı nəsil adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Lernamerdz" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 88).

Coğrafi koordinatları: 40°15' şm. e., 44°15' ş. u.



*Ayarlı kəndi*

**Ayaslı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 7 km şimal-şərqdə, Gərni çayının sahilində, dəniz səviyyəsindən 865 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Böyük Ayaslı" formasında (143, s. 49), Qafqazın 5 verstlik xəritəsində "Ayaslı" kimi (348, s. 24) qeyd edilmişdir. Kənddə tarixən yalnız azərbaycanlılar yaşamışdır. 1828–1829-cu illərdə İranın Xoy və Səlmas bölgələrindən ermənilər köçürülərək burada yerləşdirilmişdir (427, s. 228; 416, s. 19). Erməni ədəbiyyatında kəndin 1831-ci ildə salındığı göstərilir (416, s. 19). Erməni tədqiqatçıları tarixi həqiqəti saxtalaşdırmışlar. 1728-ci ildə tərtib edilmiş "İrəvan

əyalətinin icmal dəftəri"ndə Karni nahiyəsinə daxil olan kəndlərin siyahısında Böyük Ayaslı kəndi adında kənd əksini tapmışdır. İllik gəliri 28300 ağçadan ibarət olmuşdur (143, s. 49). Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 129, 1873-cü ildə 55, 1886-cı ildə 55, 1897-ci ildə 37 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). 1918-ci ildə azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. Yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlıların az bir qismi tarixi torpaqlarına dönmüşdür. 1926-cı ildə burada 5 nəfər azərbaycanlı yaşamışdır (415, s. 47). Onlar da 1929–1930-cu illərdə qovulmuşdur. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim "ayaslı" etnonimi əsasında əmələ gəlmişdir. 1918-ci ildə kəndin adı dəyişdirilərək "Ayqestan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 19).

Coğrafi koordinatları: 40°01′ şm. e., 44°33′ ş. u.

**Ayğırgöl** – İrəvan quberniyasında Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 12 km şərqdə, Üçkilsə (Vağarşabad) – Qurduqulu (Hoktemberyan) yolunun üstündə, Ayğırgölün yanında, dəniz səviyyəsindən 870 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Ermənilər kənddə 1926-cı ildən məskunlaşmışlar (415, s. 80–81). Kəndin adı Ayğırgölün adından götürülmüşdür. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə adı dəyişdirilib "Aknaliç" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 11).

Coğrafi koordinatları: 40°14′ şm. e., 44°15′ ş. u.

**Ayısəsi** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 17 km şimal-şərqdə, dəniz səviyyəsindən 2000 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində kəndin adı



*Ayısəsi kəndi*

"Aysəs", "Aysayi", "Aysası" formalarında qeydə alınmışdır (427, s. 237). Kəndin adı IX əsrdən xatırlanır (422, s. 66). Kənddə 1873-cü ildə 219, 1886-cı ildə 313, 1897-ci ildə 311, 1904-cü ildə 412, 1914-cü ildə 453, 1916-cı ildə 336 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 160–161). 1918-ci ildə azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuş və yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndin sakinlərindən sağ qalanlar ata-baba yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 254, 1926-cı ildə 184, 1931-ci ildə 288, 1939-cu ildə 326, 1959-cu ildə 232, 1979-cu ildə 353 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 91, 161; 416, s. 28). 1988-ci ildə kəndin sakinləri Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Kənddə VII, X–XI əsrlərə aid alban kilsəsi, türklərin həyatı ilə bağlı digər tarixi abidələr (xaç daşları) indi də qalmaqdadır (422, s. 66–69). Toponim vəhşi heyvan mənasında işlənən "ayı" sözü ilə türk dilində "bataqlıq", "iyimiş", "qoxumuş", "nəm", "rütubətli" mənasında işlənən "sas/sası" sözünün birləşməsi əsasında (359, I (1), s. 395) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 10 sentyabr 1946-cı il tarixli qərarı ilə

kəndin adı dəyişdirilib "Qızılgül", Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Arates" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 28).

Coğrafi koordinatları: 39°54′ şm. e., 45°26′ ş. u.

**Aynazur** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 14 km şimal-qərbdə, dəniz səviyyəsindən 1610 m hündürlükdə yerləşir. Burada 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. Ermənilər Aynazur kəndinə 1828–1829-cu illərdə İranın Xoy və Səlmas vilayətlərindən köçürülmüşdür (427, s. 158; 416, s. 13). Kənddə ermənilərdən başqa, 1897-ci ildə 75, 1926-cı ildə 4 nəfər azərbaycanlı yaşamışdır (415, s. 90–91). 1926-cı ildən sonra azərbaycanlılar kənddən çıxarılmışdır. Hazırda burada ermənilər yaşayır. Toponim türk dilində "cin, şeytan" mənasında işlənən "ayna" sözü ilə (359, I (1), s. 17) türk dilində "yarğan" mənasında işlənən "car" sözü (339, s. 178–179) əsasında əmələ gələn "zur" sözünün birləşməsindən əmələ gəlmişdir. Ehtimal ki, həmin dərə qorxulu, vahiməli olduğu üçün Aynazur adlandırılmışdır. Erm. SSR AS RH-nin 10 sentyabr 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Axavnadzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 13).

Coğrafi koordinatları: 39°47′ şm. e., 45°13′ ş. u.

**Ayrım** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 60 km şimal-qərbdə, Tona (Debet) çayının yanında, İrəvan–Tiflis dəmiryolunun üstündə, dəniz səviyyəsindən 500 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Toponim ayrım türk etnonimi (245, s. 43) əsasında düzəlmişdir. Rəsmi sənədlərdə "Ayrum" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 20).

Coğrafi koordinatları: 41°13′ şm. e., 44°55′ ş. u.

**Azadek (Azadyer)** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 24 km şimal-qərbdə, Arpaçayın sağ sahilində, dəniz səviyyəsindən 1625 m hündürlükdə yerləşir. Kəndin adı erməni müəlliflərinin əsərlərində Azatak, Azader, Azad, Azadak formalarında da qeyd edilir (427, s. 39, 41). Kəndin ilkin adı Azatak olmuşdur (416, s. 8). Burada 1828-ci ilə kimi azərbaycanlılar yaşamışdır. 1828–1829-cu illərdə ermənilər buraya İranın Xoy və Səlmas vilayətlərindən köçürülüb yerləşdirilmişdir (427, s. 41; 416, s. 8). Kənddə İrandan 1831-ci ildə köçürülmüş 33, Səlmas vilayətindən 1842-ci ildə köçürülmüş 37 erməni ailəsi yaşamışdır (Dərələyəz mahalının kameral təsviri, 2017, s. 110, 195). Burada ermənilərlə yanaşı, 1897-ci ildə 20, 1926-cı ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, s. 88–89). 1930-cu ildən burada yalnız ermənilər yaşayır. Kəndin adının yaranması ilə bağlı erməni müəlliflərin əsərlərində göstərilir ki, bura gələn ermənilər azader (azad idi) deyərək kəndi "Azadeğ" adlandırmışlar (427, s. 41). Bu, elmi həqiqətə uyğun deyil. Yaşayış məntəqəsinin adı qədim türk dillərində "kiçik, kiçildilmiş" mənalarında işlənən "aza" sözü ilə qədim türk dilində işlənən "dağ" sözünün fonetik variantı kimi işlənən "tak/dak" sözündən əmələ gəlib, "kiçik dağ yanında salınmış kənd" mənasını ifadə edir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 8).

Coğrafi koordinatları: 39°39′ şm. e., 45°26′ ş. u.

# B

**Babacan** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Kəndin əsl adı Babacan dərəsidir (415, s. 26; 348, s. 26; 427, s. 526). Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 87 km şimal-şərqdə, Göyçə gölünün yaxınlığında, dəniz səviyyəsindən 1950 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 82), Qafqazın 5 verstlik xəritəsində (348, s. 26) qeyd edilmişdir. Babacan azərbaycanlıların yaşadığı kənd olmuşdur. 2008-ci ildə erməni dilində çap olunmuş "Ermənistanın



*Babacan kəndi*

yaşayış məntəqələrinin lüğəti"ndə kəndə yaşayanların etnik tərkibi göstərilmədən ümumi sayı verilib (416, s. 102). Kənddə 1873-cü ildə 107, 1886-cı ildə 173, 1897-ci ildə 244, 1908-ci ildə 259, 1914-cü ildə 265, 1916-cı ildə 290, 1919-cu ildə 265 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 26–27, 110–111). 1919-cu ilin yazında kəndin sakinləri erməni təcavüzünə məruz qalmış və qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılar ata-baba torpaqlarına dönə bilmişlər. Burada 1922-ci ildə 309, 1926-cı ildə 345, 1931-ci ildə 373 (415, s. 27, 111), 1939-cu ildə 522, 1959-cu ildə 600, 1970-ci ildə 839, 1979-cu ildə 1140 (416, s. 102), 1967-ci ildə 775 (ASE, I c., 1975, s. 410), 1987-ci ildə 880 nəfər (85, s. 279–280) azərbaycanlı yaşamışdır. 1988-ci ildə ermənilər azərbaycanlıları doğma torpaqlarından qovmuşlar. Toponim "Kitabi-Dədə Qorqud" dastanlarında adı çəkilən Baybecan adı ilə bağlı yaranmışdır. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək əvvəlcə "Qızılkənd", Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Tsapatağ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 102).

Coğrafi koordinatları: 40°25' şm. e., 45°32' ş. u.

**Babakişi** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan şəhərindən 11 km şimal-qərbdə, Misxana çayının yaxınlığında, dəniz səviyyəsindən 1750 m hündürlükdə yerləşir. Ermənilər buraya 1829-cu ildə Türkiyənin Ələşkirt vilayətindən köçürülmüşdür (427, s. 159). Kənddə 1897-ci ildə 11 nəfər azərbaycanlı yaşamışdır (415, s. 16–17). 1905–1906-cı illərdə azərbaycanlılar kənddən qovulmuş, kəndə tam ermənilər yerləşdirilmişdir. 1926-cı ildə ermənilərlə yanaşı, 3 nəfər azərbaycanlı (415, s. 17) yaşamışdır. 1930-cu ildə kənddə olan 3 nəfər azərbaycanlı da qovulmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Babakişi şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Erm. SSR AS RH-nin 15 iyul 1948-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Ağavnadzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 13).

Coğrafi koordinatları: 40°35' şm. e., 44°41' ş. u.

**Babakişi** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Nairi rayonunda kənd. Nairi rayonu yaradılanadək, 1972-ci ilə kimi Abaran rayonunun tərkibində olmuşdur. Vilayət mərkəzi Hrazdan şəhərindən 34 km cənub-şərqdə, Zəngi çayından axan arxın yanında, dəniz səviyyəsin-

dən 1800 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 26) qeyd edilmişdir. Kənddə X–XIV əsrlərə aid tarixi abidələr vardır. Kənddə 1831-ci ildə 72, 1873-cü ildə 268, 1886-cı ildə 435, 1897-ci ildə 431, 1904-cü ildə 483, 1914-cü ildə 573, 1916-cı ildə 471 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 45, 96–97). 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalaraq yerli sakinlər – azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş və orada Türkiyədən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir (415, s. 97). Ermənilərin buraya 1829-cu ildə Tiflisdən, Türkiyənin Ələşkirt, Muş, Sasun, İranın Xoy və Səlmas vilayətlərindən gəldiyi göstərilir (427, s. 747; 416, s. 49). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənddə ermənilərlə yanaşı, 1922-ci və 1931-ci illərdə 4 nəfər azərbaycanlı yaşamışdır (415, s. 97). Onlar 30-cu illərin ortalarında sıxışdırılıb kənddən çıxarılmışdır. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Babakişi şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Kəndin adı dəyişdirilərək "Bujakan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 49).

Coğrafi koordinatları: 40°27′ şm. e., 44°14′ ş. u.

**Bacoğlu** – Qars vilayətinin Şörəyel nahiyəsində, sonradan Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 7 km şimal-qərbdə, dəniz səviyyəsindən 1550 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tabeliyində olmuşdur. Kənddə 1886-cı ildə 391, 1897-ci ildə 543, 1904-cü ildə 600, 1914-cü ildə 698 nəfər azərbaycanlı yaşamışdır (415, s. 40, 123). 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. Türkiyənin Ərzurum, Muş, Qars vilayətlərindən ermənilər köçürülərək burada yerləşdirilmişdir (416, s. 118). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz evlərinə qayıda bilmişdir. Burada ermənilərdən başqa, 1922-ci ildə 23, 1926-cı ildə isə 28 nəfər azərbaycanlı yaşamışdır (415, s. 40–41, 122–123). 1928–1929-cu illərdə azərbaycanlılar tamamilə kənddən köçürülmüşdür. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim oğuzların bozoklu tayfasının adından qalmadır. Erm. SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Haykavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 118).

Coğrafi koordinatları: 40°48′ şm. e., 43°45′ ş. u.

**Bağçacıq** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 38 km məsafədə, dəniz səviyyəsindən 1175 m hündürlükdə, Alagöz dağının cənub-qərb ətəyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 33) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 10, 1873-cü ildə 82, 1886-cı ildə 93, 1897-ci ildə 140, 1904-cü ildə 101, 1914-cü ildə 107, 1916-cı ildə 152 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 34–35, 116–117). 1918-ci ildə kəndin sakinləri olan azərbaycanlılar erməni təcavüzünə məruz qalaraq qırğınlarla tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Particak" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 166).

Coğrafi koordinatları: 40°17′ şm. e., 44°00′ ş. u.

**Bala Məzrə** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 92 km cənub-qərbdə, Məzrə çayının yanında, dəniz səviyyəsindən 1930 m hündürlükdə yerləşir. "İrə-

van əyalətinin icmal dəftəri"ndə "Məzrə" formasında (143, s. 62), Qafqazın 5 verstlik xəritəsində Bala Mazra kimi (348, s. 164) qeyd edilmişdir. Kəndin bir adı da Qulu ağalı olmuşdur (348, s. 164). Burada 1831-ci ildə 227, 1873-cü ildə 675, 1886-cı ildə 978, 1897-ci ildə 1200, 1908-ci ildə 1658, 1914-cü ildə 1731, 1916-cı ildə 1375 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan



*Bala Məzrə kəndi*

sonra azərbaycanlılardan sağ qalanları kəndə qayıda bilmişlər. 1922-ci ildə burada 359, 1926-cı ildə 653, 1931-ci ildə 912 (415, s. 27, 113), 1959-cu ildə 1092, 1970-ci ildə 1652, 1979-cu ildə 1831 (416, s. 203), 1987-ci ildə 2000 nəfər (85, s. 290) azərbaycanlı yaşamışdır. 1988-ci il noyabr ayının axırlarında Ermənistan dövləti tərəfindən azərbaycanlılar tarixi-etnik torpaqlarından qovulmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Kəndin ərazisində X–XII əsrlərə aid alban kilsəsi, IV–VII əsrlərə aid oğuz qəbiristanlığı vardır. Toponim ərəb dilində "əkilmiş yer, sürülüb toxum səpilmiş tarla" mənasında işlənən "məzrə" (məzru) sözü əsasında (104, s. 343) formalaşmışdır. "Bala" fərqləndirici əlamət bildirən sözdür. Erməni dilinə kalka edilərək "Pokr Mazra" kimi işlədilir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 203).

Coğrafi koordinatları: 40°15′ şm. e., 45°43′ ş. u.

**Balakənd** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayəti ərazisində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 50 km şimal-qərbdə, dəniz səviyyəsindən 720 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. 1930-cu ildən sonra azərbaycanlılar qovulmuş, kəndə ermənilər yerləşdirilmişdir. Toponim "kiçik" mənasını verən "bala" və "yaşayış məntəqəsi" mənasında işlənən "kənd" sözlərinin birləşməsindən əmələ gəlmişdir. Kəndin adı dəyişdirilərək "Doveğ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 69–70).

Coğrafi koordinatları: 41°11′ şm. e., 45°02′ ş. u.

**Balıqlı** – Qars vilayətinin Qars qəzasında, keçmiş Amasiya rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 42 km şimal-qərbdə, Arpa gölünün şimal-şərq sahilində, Arpaçayın qərb sahilində, dəniz səviyyəsindən 2030 m hündürlükdə yerləşir. Relyefi cənub və şimal hissədə düzənlik, qərb və şimal-qərb hissədə dərə-təpəlikdir. Kənd XVIII əsrin sonu, XIX əsrin əvvəllərində salınmışdır. Qafqazın 5 verstlik xəritəsində (348, s. 30) qeyd edilmişdir. Kənddə 1886-cı ildə 205, 1897-ci ildə 326, 1908-ci ildə 372, 1914-cü ildə 474 nəfər azərbaycanlı yaşamışdır (415, s. 18–19, 102–103). Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevralında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhalisi Qars vilayətinə köç etmişdir. 1921-ci il Qars müqaviləsindən sonra kəndin əhalisinin bir qismi kəndə qayıtmışdır. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra, 1921-ci il Qars müqaviləsinə əsasən, kənd Ağbaba nahiyəsinin tərkibində Aleksandropol qəzasına daxil edilmişdir. Burada 1922-ci ildə 107, 1926-cı ildə 178, 1931-ci ildə 205 (415, s. 19, 103), 1964-cü ildə 300, 1970-ci ildə 440, 1979-cu ildə 472 (427, s. 556), 1987-ci ildə 432

nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kənd sakinləri Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşdur. Hazırda kənddə əsasən Gürcüstanın Axılkələk və Boqdanovka (Ninosminda) rayonlarından köçüb gələn ermənilər məskunlaşmışlar. Toponim "balıq" sözünə "-lı" sözdüzəldici şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir.



*Balıqlı kəndi*

Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Zorakert" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 79).

Coğrafi koordinatları: 41°05′ şm. e., 43°39′ ş. u.

**Barana** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayətində şəhər. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 48 km şimal-qərbdə, dəniz səviyyəsindən 820 m hündürlükdə yerləşir. Azərbaycan və Gürcüstan respublikaları ilə həmsərhəddir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Toponim qoraqoyunlu tayfa ittifaqına daxil olan və "qoyun", "qoç" sözündən yaranan "baranilər" etnonimi (ASE, II c., B., 1978, s. 25; 271, s. 29) əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 4 yanvar 1938-ci il tarixli qərarı ilə yaşayış məntəqəsinin adı dəyişdirilərək, noyabr ayında Ermənistanda sovet hakimiyyətinin qurulması şərəfinə "Noyemberyan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 147).

Coğrafi koordinatları: 41°10′ şm. e., 44°59′ ş. u.

**Basarkeçər** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 74 km cənub-şərqdə, Göyçə gölünün yaxınlığında, dəniz səviyyəsindən 1940 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 61) qeyd edilmişdir. 1969-cu ildən şəhər tipli qəsəbə və eyniadlı rayonun mərkəzi olmuşdur. Kənddə tarixən azərbaycanlılar yaşamışdır. 1831-ci il əhalinin siyahıya alınmasında burada 178 nəfər yalnız azərbaycanlının yaşadığı göstərilir (386, s. 599–602; 415, s. 110). 1831-ci ildən sonra Türkiyədən köçürülən 1296 nəfər erməni burada yerləşdirilmiş, azərbaycanlılar sıxışdırılmağa başlanmışdır. 1897-ci ildə burada 85 nəfər azərbaycanlı, 2108 nəfər erməni yaşamışdır (415, s. 26–27). 1918-ci ildə azərbaycanlılar qırğınlarla qovulmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra buraya azərbaycanlılar qayıda bilmişlər. Erməni müəlliflərinin əsərlərində göstərilir ki, burada 1922-ci ildə 1 nəfər (2511 erməni), 1926-cı ildə 7 nəfər (3456 erməni), 1931-ci ildə 19 nəfər (3914 erməni) azərbaycanlı yaşamışdır (415, s. 27, 111). 1967-ci ildə 150 azərbaycanlı, 9150 erməni (ASE, 1975, I c., s. 485), 1970-ci ildə 9 nəfər azərbaycanlı, 8077 erməni yaşamışdır. 1988-ci ildə azərbaycanlılar tam surətdə qovulmuşlar. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim



*Basarkeçər şəhəri bu gün*

qıpçaq mənşəli "bazar/basar" etnoniminə (286, s. 60–61) qeyri-qəti gələcək zamanda işlənən "keçər" sözünün qoşulmasından əmələ gəlmişdir. "Bazar/basar tayfasının keçdiyi, getdiyi yer" mənasını bildirir. "...bazar sözü mürəkkəb toponimlərin tərkibində tayfa adı kimi işləndikdə toponimik adın I komponenti yerində işlənir" (93, s. 31). Erm. SSR AS RH-nin 2 may 1969-cu il tarixli qərarı ilə adı dəyişdirilərək "Vardenis" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 190–191).

Coğrafi koordinatları: 40°10′ şm. e., 45°43′ ş. u.

**Baş Gərni** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan şəhərindən 63 km cənubda, dəniz səviyyəsindən 1400 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 33). Kənd Gərni çayının mənbəyində salınmışdır. Toponim türk dilində "çayın mənbəyi" mənasında işlənən "baş" sözü ilə (339, s. 76–77) urartu dilində "qala" mənasında işlənən "gərini" (gərni) sözünün birləşməsi (332, s. 68) əsasında formalaşmışdır. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Qarni" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 51).

Coğrafi koordinatları: 40°07′ şm. e., 44°43′ ş. u.

**Başkənd** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 8 km cənubda, Kəvər çayının yanında, dəniz səviyyəsindən 2075 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 34). Ermənilər buraya 1828–1829-cu, 1914–1919-cu illərdə Türkiyənin Ələşkirt və Muş vilayətlərindən köçürülmüşdür (427, s. 827). Kənddə 1873-cü ildə 191 azərbaycanlı, 272 erməni, 1886-cı ildə 243 azərbaycanlı, 385 erməni, 1897-ci ildə 357 azərbaycanlı, 440 erməni, 1914-cü ildə 410 nəfər azərbaycanlı, 704 nəfər erməni yaşamışdır (415, s. 68–69, 144–145). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən vəhşicəsinə qırğınlarla qovulmuşdur. Sağ qalan azərbaycanlılar 1920-ci ildə indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz doğma kəndlərinə dönmüşdür. Burada 1922-ci ildə 96 azərbaycanlı, 763 erməni, 1926-cı ildə 112 azərbaycanlı, 928 erməni, 1931-ci ildə 194 nəfər azərbaycanlı, 1156 erməni yaşamışdır (415, s. 69, 145). Azərbaycanlılar 1930-cu illərin sonunda Ermənistanın Qarabağlar rayonuna, Qarabağlar rayonu ləğv edildikdən sonra SSRİ Nazirlər Sovetinin qərarı ilə tarixi-etnik torpaqlarından çıxarılaraq 1948–1950-ci illərdə Azərbaycana köçürülmüşdür. Hazırda orada yalnız ermənilər məskunlaşmışdır. Kəndin ilk adı Göyçə Başkəndi olmuşdur. Yəni Göyçə mahalında yerləşən Başkənd. Sonradan Göyçə sözü atılmış, kənd Başkənd adlandırılmışdır. Toponim Azərbaycan dilində "böyük", "əsas", "yuxarı" mənasında işlənən "baş" sözü ilə (339, s. 77) "kənd" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Geğarkunik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 55–56).

Coğrafi koordinatları: 40°15′ şm. e., 45°08′ ş. u.

**Başkənd** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 7 km şimal-şərqdə, Arpaçayın sağ axarında, Başkəndçayın sahilində, dəniz səviyyəsindən 1540 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 34) Ermənilər kəndə 1829–1830-cu illərdə İranın Xoy və Səlmas vilayətlərindən köçürülmüşdür (416, s. 194). Kənddə 1897-ci ildə 23, 1926-cı ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, s. 92–93). 1928–1929-cu illərdə azərbaycanlılar kənddən köçürülmüşdür. Hazırda burada yalnız er-



*Başkənd mənzərəsi*

mənilər yaşayır. Toponim Azərbaycan dilində "böyük, əsas" mənasında işlənən "baş" sözü ilə kənd coğrafi nomeninin birləşməsi əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 10 sentyabr 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Vernaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 194).

Coğrafi koordinatları: 39°47′ şm. e., 45°21′ ş. u.

**Başkənd** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, indiki Sisian rayonunda kənd. Vilayət mərkəzi Qapan şəhərindən 118 km şimal-qərbdə, dəniz səviyyəsindən 1760 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. 1828-ci ilə kimi azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra – 1828–1829-cu illərdə İranın Xoy və Səlmas vilayətlərindən ermənilər köçürülərək bu kənddə yerləşdirilmişdir (427, s. 630). Toponim Azərbaycan dilində "əsas, yuxarı" mənasında işlənən "baş" sözü ilə "kənd" coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir. Kəndin adı əvvəlcə dəyişdirilərək "Məzrə", sonra Erm. SSR AS RH-nin 10 sentyabr 1946-cı il tarixli qərarı ilə "Bartsravan", Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Mutsk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 142).

Coğrafi koordinatları: 39°31′ şm. e., 45°54′ ş. u.

**Başkənd** – İrəvan quberniyasının İrəvan qəzasında, Keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan şəhərindən 42 km cənub-qərbdə, dəniz səviyyəsindən 1450 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə Başköy formasında (143, s. 79), Qafqazın 5 verstlik xəritəsində "Başkənd" kimi (348, s. 34) qeyd edilmişdir. 1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. 1829-cu ildə İranın Səlmas və Xoy vilayətlərindən ermənilər köçürülüb burada yerləşdirilmişdir (427, s. 146). Kənddə ermənilərlə yanaşı, 1897-ci ildə 24 nəfər azərbaycanlı yaşamışdır (415, s. 44–45). XX əsrin əvvəllərində, 1905–1906-cı illərdə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən tarixi torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim türk dilində "baş", "çayın mənbəyi", "dağın zirvəsi", "yuxarı", "əsas", "böyük" mənalarında işlənən "baş" sözü ilə (339, s. 76–77) "kənd" coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Akunk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 13).

Coğrafi koordinatları: 40°16′ şm. e., 44°01′ ş. u.

**Başköy** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 34 km şimal-şərqdə, dəniz səviyyəsindən 2020 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 34). Kənddə əvvəlcə azərbaycanlılar yaşamışlar. 1830-cu ildə buraya Türkiyənin Muş vilayətindən ermənilər köçürülüb yerləşdirilmiş və kəndin əsas sakinləri olan azərbaycanlılar erməni silahlıları tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Toponim Azərbaycan dilində "böyük, əsas, yuxarı" mənasında işlənən "baş" sözü ilə türk dilində "kənd" mənasında işlənən "köy" sözünün birləşməsindən əmələ gəlmişdir. XX əsrin 20-ci illərində kəndin

adı erməni dilinə kalka edilərək "Başqyuğ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 43).

Coğrafi koordinatları: 40°57′ şm. e., 43°58′ ş. u.

**Başköy** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 25 km cənub-şərqdə, dəniz səviyyəsindən 1970 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə Başkənd kimi (143, s. 128), Qafqazın 5 verstlik xəritəsində "Baş kyoq" formasında (348, s. 34) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Toponim Azərbaycan dilində "əsas, böyük, dağın zirvəsi" mənalarında işlənən "baş" sözü ilə müasir türk dilində "kənd" mənasında işlənən "köy" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 31 may 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Saralanc" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 176).

Coğrafi koordinatları: 40°37′ şm. e., 44°01′ ş. u.

**Başnalı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 4 km şimal-qərbdə, dəniz səviyyəsindən 850 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 99), Qafqazın 5 verstlik xəritəsində (348, s. 34) qeyd edilmişdir. Kənddə tarixən yalnız azərbaycanlılar yaşamışdır. 1829–1832-ci illərdə İranın Xoy və Səlmas bölgələrindən ermənilər köçürülüb burada yerləşdirilmişdir (427, s. 578). Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 30, 1873-cü ildə 85, 1886-cı ildə 56, 1897-ci ildə 70, 1904-cü ildə 85 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). 1918-ci ilin martında azərbaycanlılar erməni bolşevik birləşmələrinin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndin sağ qalan sakinləri öz yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 14, 1926-cı ildə 10, 1931-ci ildə 7 nəfər azərbaycanlı yaşamışdır (415, s. 47, 127). 1940-cı illərdə azərbaycanlılar Ermənistandan tamamilə qovulmuşdur. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim türk mənşəli başnalı tayfasının adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 1 dekabr 1949-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Bağramyan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 42).

Coğrafi koordinatları: 39°58′ şm. e., 44°31′ ş. u.

**Bayandur** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 16 km cənub-qərbdə, dəniz səviyyəsindən 1480 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi keçmiş Leninakan rayonunun tərkibində olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə Bayandırlı formasında (143, s. 131) qeyd edilmişdir. 1828-ci ilə kimi burada azərbaycanlılar yaşamışdır. Ermənilər burada 1828–1830-cu illərdə Qars, Muş və Ərzurumdan köçürülüb yerləşdirilmişdir (415, s. 40; 416, s. 43). Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim bayandur qədim türk tayfasının adı (399, s. 56) əsasında əmələ gəlib, "bayandur tayfasının yaşadığı kənd" mənasını bildirir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 43).

**Bayandur** – İrəvan quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 87 km şimalda, dəniz səviyyəsindən 1550 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənis-

tanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 34) qeyd edilmişdir. Erməni müəlliflərinin əsərlərində kəndin adı həm də "I Bayandur", "II Bayandur" formalarında qeyd edilmişdir (415, s. 22). Kənddə 1831-ci ildə 101, 1873-cü ildə 514, 1886-cı ildə 869, 1897-ci ildə 363, 1904-cü ildə 830, 1914-cü ildə 409 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 28–29, 112–113). 1916-cı ildə kənd erməni təcavüzünə məruz qalmış və azərbaycanlılar tarixi-etnik torpaqlarından tamamilə deportasiya olunmuşdur. Kəndə xaricdən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. 1918-ci ildən burada ermənilər yaşayır. Toponim "bayandur" türk etnonimi (399, s. 56; 299, s. 79) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 7 may 1969-cu il tarixli qərarı ilə adı dəyişdirilərək "Vağatur" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 186).

Coğrafi koordinatları: 39°36′ şm. e., 46°22′ ş. u.

**Baysız (Başsız)** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 40 km şimal-qərbdə, Alagöz dağının cənubunda, İrəvan-Gümrü yolunun sağ tərəfində, dəniz səviyyəsindən 1800 m hündürlükdə yerləşir. Kəndin adı mənbələrdə həm də "Baysız" kimi göstərilir (415, s. 34; 427, s. 590). Kənddə 1831-ci ildə 12 nəfər yalnız azərbaycanlı yaşamışdır (427, s. 590). Sonralar XIX əsrin 40–50-ci illərində azərbaycanlılar tarixi torpaqlarından sıxışdırılıb çıxarılmış və kənddə Türkiyədən köçürülən yezidi kürdlər yerləşdirilmişdir (415, s. 116–117). Toponim türk dilində toponimiyada "dağ zirvəsi, irəli çıxan, görünən qaya, sıldırım qayalar", "təpə", "çayın yuxarı axarı", "çayın mənbəyi", "böyük", "əsas" mənasında işlənən "baş" sözünə (339, s. 76-77) Azərbaycan dilində işlənən "-sız" şəkilçisinin qoşulması ilə əmələ gəlmişdir. Hazırda kənddə yezidi kürdlər və ermənilər yaşayır. Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Otevan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 208–209).

Coğrafi koordinatları: 40°21′ şm. e., 44°03′ ş. u.

**Baytar** – Aleksandropol qəzasının Qızılqoç nahiyəsində, sonradan Amasiya rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 26 km şimal-qərbdə, Arpaçayın sol sahilində, dəniz səviyyəsindən 2000 m hündürlükdə yerləşir. Kənddə 1831-ci ildə 27, 1873-cü ildə 231, 1886-cı ildə 167, 1897-ci ildə 188, 1914-cü ildə 363 nəfər azərbaycanlı yaşamışdır (415, s. 18–19, 102–103). Azərbaycanlılar 1918-ci ildə erməni silahlı dəstələri tərəfindən qırğınlarla qovulmuşdur. Ermənilər buraya 1918–1920-ci illərdə Türkiyənin Qars vilayətinin Quleyban kəndindən köçürülüb yerləşdirilmişdir (427, s. 588; 416, s. 123–124). Toponim baytar (baydar) türk tayfasının adı (222, s. 42) əsasında formalaşmışdır. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Hovtun" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 123–124).

Coğrafi koordinatları: 40°58′ şm. e., 43°49′ ş. u.

**Bazarcıq** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 13,5 km şimalda, İrəvan-Abaran yolunun sol tərəfində, Abaran çayının sağ sahilində, dəniz səviyyəsindən 1850 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 113), Qafqazın 5 verstlik xəritəsində (348, s. 28) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Ermənilər buraya

1829–1830-cu illərdə Muş, Ələşkirt və Bitlisdən köçürülmüşdür (427, s. 389; 416, s. 28). Toponim kiçiltmə mənası bildirən "-cıq" şəkilçisinin "bazar (basar)" türk etnoniminə (286, s. 61) qoşulması yolu ilə əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 15 iyun 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Arayi" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 28).

Coğrafi koordinatları: 40°27′ şm. e., 44°22′ ş. u.

**Bazarçay** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayəti ərazisində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 131 km şimal-qəbdə, Bazarçayın yuxarı axarında, düzən-



*Bazarçay mənzərəsi*

likdə, dəniz səviyyəsindən 2100 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi  Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 28). Kənddə 1886-cı ildə 469, 1897-ci ildə 631, 1908-ci ildə 635 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1918-ci ildən sonra azərbaycanlılar deportasiya olunmuş, xaricdən köçürülüb gətirilən ermənilər bu kənddə yerləşdirilmişdir. 1926-cı ildə burada ermənilərdən başqa, 3 nəfər azərbaycanlı da yaşamışdır (415, s. 77). 1929-cu ildə onlar da qovulmuşdur. İndi yalnız ermənilər yaşayır. Toponim bazar türk tayfasının adı ilə (286, s. 61) "çay" sözünün birləşməsindən əmələ gəlib. 1991-ci ildən sonra kəndin adı dəyişdirilərək "Qorayk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 63).

Coğrafi koordinatları: 39°40′ şm. e., 45°48′ ş. u.

**Bcni** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 14 km cənub-qərbdə, Zəngi çayının sağ sahilində, Zincirli dağının ətəyində, dəniz səviyyəsindən 1610 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Beçni" formasında (143, s. 36), Qafqazın 5 verstlik xəritəsində "Bicni" kimi (348, s. 34) qeyd edilmişdir. Kəndin yerli əhalisi azərbaycanlılar olmuşdur. Ermənilər buraya 1828-ci il Türkmənçay müqaviləsindən sonra – 1829–1830-cu illərdə, eləcə də 1915–1927-ci illərdə Türkiyənin Bolis, Van bölgələrindən köçürülmüşdür (427, s. 737). Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 232, 1873-cü ildə 685, 1908-ci ildə 826, 1914-cü ildə 1176, 1916-cı ildə 1309 nəfər azərbaycanlı yaşamışdır (415, s. 16–17, 100–101). 1918–1920-ci illərdə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qovulmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulduqdan sonra, 1922-ci ildən azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. 1926-cı ildə kənddə 48, 1931-ci ildə 64 nəfər azərbaycanlı yaşamışdır (415, s. 17, 101). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, 1948-ci ildə azərbaycanlılar zorla Azərbaycana köçürülmüşdür. Kənddə indi yalnız ermənilər yaşayır. Toponim beçenek türk tayfasının (399, s. 488) adı əsasında yaranmışdır. Bjni "beçenək" etnoniminin ərəb dilində yazılış formasıdır. Kəndin ərazisi "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 49).

Coğrafi koordinatları: 40°27′ şm. e., 44°38′ ş. u.

**Becəyəzli (Bekciqazlı)** İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Artaşat şəhərindən 500 m şimal-şərqdə, dəniz səviyyəsindən 835 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində Bekciqazlı formasında (348, s. 36) qeyd edilmişdir. Kəndin adı Becazlı formasında sabitləşmişdir (266, s. 264). Tarixən burada yalnız azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1823–1830-cu illərdə İranın Xoy və Səlmas bölgələrindən köçürülmüşdür (386, s. 551–554). Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 102, 1873-cü ildə 22, 1886-cı ildə 19, 1897-ci ildə 10 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). 1905–1906-cı illərdə azərbaycanlılar erməni silahlı birləşmələrinin törətdikləri soyqırımına məruz qalaraq qırğınlarla deportasiya olunmuşdur. Sağ qalan azərbaycanlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra 1920–1924-cü illərdə öz kəndlərinə qayıda bilmişdir. Burada 1926-cı ildə 15 nəfər, 1931-ci ildə 11 nəfər azərbaycanlı yaşamışdır (415, s. 47 127). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar 1948-ci ildə zorla Azərbaycana köçürülmüşdür. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim qədim türk dilində "möhkəm", "bərk" mənasında işlənən "bek" sözü ilə (299, s. 92) "qaz" (kas) türk etnoniminin birləşməsindən əmələ gəlmişdir. Toponimin sonundakı "-lı" mənsubluq bildirən şəkilçidir. Erm. SSR AS RH-nin 20 iyul 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vostan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 163).

Coğrafi koordinatları: 39°57′ şm. e., 44°33′ ş. u.

**Bəbirli** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunda, indi Şirak vilayətində kənd. Ani şəhərindən 36 km məsafədə, dəniz səviyyəsindən 1700 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 130), Qafqazın 5 verstlik xəritəsində (348, s. 27) qeyd edilmişdir. Ədirnə müqaviləsinə (1829) əsasən, İrəvan xanlığının ərazisində ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişdir. Ermənilər buraya 1915–1920-ci illərdə Türkiyənin Muş və Bitlis vilayətlərindən köçürülüb yerləşdirilmişdir (427, s. 629). Toponim bəbirli türk tayfa adı əsasında formalaşmışdır. Erm. SSR AS RH-nin 3 noyabr 1947-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Bartsraşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 44).

Coğrafi koordinatları: 40°35′ şm. e., 43°44′ ş. u.

**Bələk (Balak)** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 116 km şimal-şərqdə, Bazarçay çayının sağ sahilində, dəniz səviyyəsindən 1680 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə qeyd edilmişdir (143, s. 182). Ermənilər buraya 1828–1829-cu illərdə İranın Xoy və Səlmas vilayətindən köçürülərək yerləşdirilmişdir (427, s. 554). Erməni silahlıları tərəfindən azərbaycanlılar öz tarixi torpaqlarından qovulmuşdur. Toponim qədim türk dilində "təpə" mənasında işlənən "bələk" sözündən (359, IV (2), s. 1609) əmələ gəlmişdir. Rəsmi sənədlərdə "balak" kimi qeyd edilir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 41–42).

Coğrafi koordinatları: 39°32′ şm. e., 45°56′ ş. u.

**Bəryabad (Bəyrabad)** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, Krasnoselsk



*Bəryabad kəndi*

rayonunda, indi Geğarkunik vilayətində kənd. İcevan-Krasnoselsk sərhədinin şimalında, Əmirxeyir (Kalavan) kəndindən 2 km şimalda, dəniz səviyyəsindən 1400 m hündürlükdə yerləşir. Kəndin adı erməni müəlliflərinin əsərlərində "Bayirabad", "Bayrabad", "Bayravat", "Bəriyabad" formalarında da qeyd edilir (427, s. 589, 592, 625). Kəndin ərazisi 1897-ci ilə kimi Gölkənd kəndinin tabeliyində olmuşdur. Kənddə 1897-ci ildə 111, 1919-cu ildə 96 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31, 114–115). 1919-cu ilin yazında azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qovulmuşdur. Kəndin sakinləri Azərbaycanın Qazax qəzasının kəndlərində sığınacaq tapmışlar. Sağ qalan kənd sakinləri indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz doğma ocaqlarına dönə bilmişlər. Burada 1922-ci ildə 85, 1926-cı ildə 91, 1931-ci ildə 109 (415, s. 31, 115), 1939-cu ildə 102, 1959-cu ildə 205 (427, s. 625), 1986-cı ildə 380 nəfər yalnız azərbaycanlılar yaşamışdır. 1988-ci il noyabrın 24–28-də kəndin sakinləri Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşdur. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim türk dilində "təpə, hündür yer, təpəlik" mənasında işlənən "bair/bayır" sözü ilə (366, s. 3738; 339, s. 64) "abad" sözünün birləşməsindən əmələ gəlmişdir. "Bayır/bair" sözü qədim türk dillərində "bayr" formasında "çöl, bayır" mənasında işlənir (2, s. 328). Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Barepat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 44).

Coğrafi koordinatları: 40°40′ şm. e., 45°07′ ş. u.

**Bəydağ (Baydaq)** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində kənd olmuşdur. Qafandan 5 km şərqdə, Oxçu çayının sol sahilində yerləşirdi. Kənddə 1831-ci ildə 13, 1873-cü ildə 51, 1886-cı ildə 68, 1897-ci ildə 118, 1904-cü ildə 193, 1914-cü ildə 58 nəfər azərbaycanlı yaşamışdır (415, s. 54–55, 134–135). 1918-ci ildə kənd sakinləri erməni təcavüzünə məruz qalaraq qırğınlarla qovulmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk edən azərbaycanlılar 1923–1924-cü illərdə doğma ocaqlarına qayıda bilmişdir. Burada 1926-cı ildə 28, 1931-ci ildə 32 (415, s. 55, 135), 1939-cu ildə 37 nəfər (427, s. 588) azərbaycanlı yaşamışdır. Ermənilər buraya 1929–1930-cu illərdə köçürülmüşdür. 1959-cu ildə Qafan şəhərinə birləşdirilmişdir. Sonralar kəndin keçmiş sakinləri Qafan şəhərinin sakinləri kimi siyahıya alınmışdır. Toponim Azərbaycan dilində "hündür, böyük" mənasında işlənən "bəy" (bək) sözü ilə (359, VI (1), s. 754; 278, s. 35) "dağ" sözünün birləşməsindən əmələ gəlib, "hündür, böyük dağ yaxınlığında kənd" mənasını ifadə edir. Onu da əlavə edək ki, "bəy" sözü qədim türk dilində "bək" formasında "təpə" mənasında işlənmişdir (287, s. 468). "Bəy" sözü toponimlərin əvvəlində işlənərkən "hündür, böyük", "təpə", sonunda işlənərkən "ağa", "varlı adam" mənasını ifadə edir. Kənd 1959-cu ildə Qafan şəhəri ilə birləşdirilmişdir.

Coğrafi koordinatları: 39°12′ şm. e., 46°24′ ş. u.

**Bəykənd** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində kənd. Erməni müəlliflərinin əsərlərində kəndin adı "Bekyand", "Kiçik Bekyand" kimi qeyd edilir (427, s. 287). Vilayət mərkəzi Gümrü şəhərindən 23 km cənub-şərqdə, Alagöz dağının şimal-qərbində, dəniz səviyyəsin-

dən 1720 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə Bəykənd kimi (143, s. 126), Qafqazın 5 verstlik xəritəsində Kiçik Bekand formasında (348, s. 36) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Ədirnə müqaviləsinə (1829) əsasən İrəvan xanlığının ərazisində ermənilərin Türkiyədən köçürülüb məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Toponim qədim türk dilində "təpə, yüksəklik" mənasında işlənən "bək (bak, bəy)" sözü ilə (278, s. 35) "kənd" sözünün birləşməsindən əmələ gəlib, "təpəlik, dağlıq yerdə yerləşən kənd" mənasını bildirir. Orotoponimdir. 1920-ci ildə adı dəyişdirilərək "Pokr Parni", Erm. SSR AS RH-nin 7 may 1969-cu il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Anuşavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 22).

Coğrafi koordinatları: 40°38' şm. e., 43°58' ş. u.

**Bəykənd** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 33 km şimal-qərbdə, Qaranqu çayının yanında, dəniz səviyyəsindən 1680 m hündürlükdə yerləşir. 1728-ci il Osmanlı mənbəsi olan "İrəvan əyalətinin icmal dəftəri"ndə "Bəykənd" kimi (143, s. 126) qeyd edilsə də, XIX əsr rus mənbələrində (348, s. 36, 364, №1125) və erməni müəlliflərinin əsərlərində (415, s. 42) "Bekant" formasında qeyd edilir. Bekant Bəykənd toponiminin erməni və rus dillərində təhrif edilmiş formasıdır. Ədirnə müqaviləsinə (1829) əsasən, İrəvan xanlığının ərazisində ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kəndin aborigen sakinləri olan azərbaycanlılar Türkiyəyə köç etmişdir. Ermənilər kəndə Türkiyənin Muş vilayətindən və İrandan köçürülüb yerləşdirilmişdir (416, s. 136). Toponim qədim türk dilində "təpə, yüksəklik, zirvə" mənasında işlənən "bəy" (bək) sözü ilə (278, s. 35) "kənd" sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Kəndin adı 1920-ci ildə dəyişdirilərək "Mets Parni" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 136).

Coğrafi koordinatları: 40°50' şm. e., 44°06' ş. u.

**Bəzirxana** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 37 km cənubda, Arpaçayın yaxınlığında, Qırxbulaq kanalının yanında, dəniz səviyyəsindən 1740 m hündürlükdə yerləşir. Toponim burada əkilən zəyərək bitkisindən çəkilən bitki yağı – "bəzir" sözünə (35, s. 159) "xana" sözünün qoşulmasından əmələ gəlmişdir. Kəndin adı 1924-cü ildə dəyişdirilərək "Dzitankov" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 125).

Coğrafi koordinatları: 40°30' şm. e., 43°48' ş. u.

**Birəli** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi rayonunda, indi Ararat vilayətində kənd. Kəndin başqa adı Pirli olmuşdur (415, s. 84). Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 43 km cənub-şərqdə, dəniz səviyyəsindən 1815 m hündürlükdə yerləşir. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Pirilər" formasında (143, s. 173), 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə "Yuxarı Pirli" (143, s. 107), Qafqazın 5 verstlik xəritəsində "Birəli" kimi (348, s. 39) qeyd edilmişdir. Birəli toponimi Pirilər/Pirli toponiminin dəyişdirilmiş formasıdır. Kəndin qədim adının Pirilər/Pirli olmasına istinad edərək bu qənaətə gəlmək olar ki, toponim "pirilər/pirli" etnonimi əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 iyul 1968-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lancar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 86).

Coğrafi koordinatları: 39°49' şm. e., 44°59' ş. u.

**Bitticə** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 20 km şimal-şərqdə, dəniz səviyyəsindən 1100 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 39) qeyd edilmişdir. Kənddə 1897-ci ildə 246, 1914-cü ildə 198, 1916-cı ildə 195 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kəndə xaricdən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulduqdan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdir. Burada ermənilərlə yanaşı, 1922-ci ildə 73, 1926-cı ildə 60, 1931-ci ildə 85 nəfər azərbaycanlı yaşamışdır (415, s. 45, 127). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar 1948–1950-ci illərdə tarixi-etnik torpaqlarından çıxarılaraq Azərbaycana köçürülmüşdür. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim türk mənşəli "bitli" etnoniminə (271, s. 33) "-cə" şəkilçisinin artırılması yolu ilə düzəlmişdir. Erm. SSR AS RH-nin 20 avqust 1954-cü il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Bartsraşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 44).

Coğrafi koordinatları: 40°05′ şm. e., 44°34′ ş. u.

**Boğazkəsən** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 28 km cənubda, Qaranqu çayının sol axarında, dəniz səviyyəsindən 1800 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 40). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Ədirnə müqaviləsinə (1829) əsasən, İrəvan xanlığının ərazisində ermənilərin Türkiyədən köçürülüb məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Türkiyənin Muş və Ələşkirt vilayətlərindən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir (416, s. 127). Toponim boğazkəsən tayfasının adı əsasında formalaşmışdır. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Dzorakap" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 127).

Coğrafi koordinatları: 40°34′ şm. e., 43°52′ ş. u.

**Boğutlu** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 63 km qərbdə, dəniz səviyyəsindən 1200 m hündürlükdə yerləşir. «Свод статических данных о населении Закавказского края» toplusunda "Buqıtı" (№1109), Qafqazın 5 verstlik xəritəsində "Buğutlu" kimi (348, s. 44) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Kəndə ermənilər Türkiyənin Qars vilayətindən köçürülüb yerləşdirilmişdir. Toponim türk dilində "dağ maralı" mənasında işlənən "buğut" sözünə (323, s. 73) "-lu" şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 31 iyul 1950-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Arteni" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 38).

Coğrafi koordinatları: 40°17′ şm. e., 43°45′ ş. u.

**Bozabdal** – Tiflis quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark (Qarakilsə) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 3 km şimal-şərqdə, Pəmbək çayının sol sahilində, Bozabdal dağının ətəyində, dəniz səviyyəsindən 1615 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində "Bzovdal" (415, s. 130;

427, s. 548), Qafqazın 5 verstlik xəritəsində "Bzobdal", "Bzovdərə" kimi (348, s. 35) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Toponim türkmənşəli "boz" (287, s. 254) və "abdal" etnonimlərinin (355, s. 16) birləşməsindən əmələ gəlmişdir. Erm SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Bazum" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 41).

Coğrafi koordinatları: 40°52' şm. e., 44°26' ş. u.

**Bozdoğan** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 35 km cənub-qərbdə, Arpaçaydan 8 verst aralıda, dəniz səviyyəsindən 1570 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 96), Qafqazın 5 verstlik xəritəsində (348, s. 41) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Ədirnə müqaviləsinə (1829) əsasən, İrəvan xanlığının ərazisində ermənilərin Türkiyədən köçürülüb məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Toponim oğuzlara məxsus bozdoğan adlı türk tayfasının adı əsasında (303 a. s. 11; 238, s. 188–189, 332) formalaşmışdır. Etnotoponimdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Sarakap" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 176).

Coğrafi koordinatları: 40°33' şm. e., 43°43' ş. u.

**Bozyoxuş** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 32 km şərqdə, dəniz səviyyəsindən 2045 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 41). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Ədirnə müqaviləsinə (1829) əsasən, ermənilərin Türkiyədən köçürülüb məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Toponim Azərbaycan dilində "otsuz, çılpaq, meşəsiz" mənasında işlənən "boz" sözü ilə (278, s. 38–39; 339, s. 87–88) "dik, dağa, təpəyə qalxan yol" mənasında işlənən "yoxuş" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Musaelyan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 142).

Coğrafi koordinatları: 40°59' şm. e., 43°56' ş. u.

**Böyük Arıxvəli** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 29 km cənub-şərqdə, dəniz səviyyəsindən 1960 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 128), Qafqazın 5 verstlik xəritəsində (348, s. 19) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Ədirnə müqaviləsinə (1829) əsasən ermənilərin Türkiyədən köçürülüb məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Toponim arıx tayfa adı və Vəli şəxs adının birləşməsindən yaranıb (35, s. 160). "Arıxlar tayfasından olan Vəliyə mənsub yaşayış yeri" deməkdir. Toponimin əvvəlindəki "böyük" fərqləndirici əlamət bildirir ki, bu da Azərbaycan toponimiyası üçün xarakterikdir. "Arıx" etnonimi mənbələrdə "arıxlı" formasında öz əksini tapır (142, s. 39). Erm. SSR AS RH-nin 3 noyabr 1935-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Mets Mantaş" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 136).

Coğrafi koordinatları: 40°38' şm. e., 44°03' ş. u.

**Böyük Armudlu** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hok-

temberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 11 km cənub-şərqdə, dəniz səviyyəsindən 855 m hündürlükdə yerləşir. Burada 1831-ci ildə 129 (386, s. 579–580), 1922-ci ildə 52 nəfər (415, s. 138–139) azərbaycanlı yaşamışdır. 1930-cu ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən kənddən çıxarılmışdır. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "armud" sözünə "-lu" şəkilçisinin artırılması ilə əmələ gəlib "armud olan yer" mənasını bildirir. Toponimin əvvəlindəki "böyük" sözü fərqləndirici əlamət bildirir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Tandzut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 195–196).

Coğrafi koordinatları: 40°04′ şm. e., 44°04′ ş. u.

**Böyük Ayrım** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Allahverdi (Tumanyan) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 69 km cənub-şərqdə, İrəvan-Tiflis dəmiryolunun sol tərəfində, dəniz səviyyəsindən 690 m hündürlükdə yerləşir. Kənddə 1886-cı ildə 171, 1897-ci ildə 223, 1908-ci ildə 390, 1914-cü ildə 381 nəfər azərbaycanlı yaşamışdır (415, 67, 98–99). 1918–1920-ci illərdə azərbaycanlılar erməni bolşevik birləşmələri tərəfindən qovulmuşlar. Sağ qalan azərbaycanlılar yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz doğma kəndlərinə qayıda bilmişlər. Burada 1922-ci ildə 454, 1926-cı ildə 282, 1931-ci ildə 391 (415, s. 7, 99), 1939-cu ildə 530, 1959-cu ildə 550, 1970-ci ildə 815 nəfər (427, s. 244) yalnız azərbaycanlı yaşamışdır. Müxtəlif illərdə (1873, 1886, 1908, 1897, 1922, 1926, 1931) əhalinin siyahıya alınmasında göstərilir ki, kənddə yalnız azərbaycanlılar yaşamışdır (415, s. 67, 98–99). Lakin bu tarixi fakt saxtalaşdırılaraq, "Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti"ndə həmin illərdə kənddə yaşayan azərbaycanlılar erməni əhali kimi göstərilir (427, s. 244). Kənd 1950-ci ildə Şnoğ meyvəçilik sovxozu ilə birləşdirilmişdir. 1988-ci ilin noyabr ayında kənddə yaşayan azərbaycanlılar Ermənistan dövləti tərəfindən qovulmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən "böyük" sözü ilə oğuzların eymur (eymir, imir) tayfa adının (238, s. 324; 178, s. 204) fonetik variantı olan ayrım etnoniminin əsasında əmələ gəlmişdir. M.Vəlili (Baharlı) ayrım tayfasını



*Böyük Ayrım kəndi*

səlcuqların bir qolu hesab edir (245, s. 43). Hazırda kənd Mets Ayrum adlanır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 136).

Coğrafi koordinatları: 41°10′ şm. e., 44°49′ ş. u.

**Böyük Camışlı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Araqats (Alagöz) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 44 km şimal-qərbdə, Abaran çayının sahilində, dəniz səviyyəsindən 2050 m hündürlükdə yerləşir. 1972-ci ilə kimi keçmiş Abaran rayonunun tərkibində olmuş, 15 mart 1972-ci ildə Araqats (Alagöz) rayonu yaradıldıqdan sonra onun tərkibinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 80). Kənddə əvvəllər azərbaycanlılar yaşamışlar. 1877–1878-ci illər rus-türk müharibəsindən sonra Türkiyədən köçürülüb gətirilən yezidi kürdlər kənddə məskunlaşmışdır. Bundan sonra azərbaycanlılar kəndi

tədricən tərk etmişlər. Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən "böyük" sözü ilə "camışlı" türk tayfa adı (142, s. 29) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 4 yanvar 1938-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Alaqyaz" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 9).

Coğrafi koordinatları: 40°40′ şm. e., 44°17′ ş. u.

**Böyük Dəlilər** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 24 km şimal-qərbdə, Gərni çayından axan arxın yanında, dəniz səviyyəsindən 835 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Dəlilər" formasında (143, s. 49), Qafqazın 5 verstlik xəritəsində "Böyük Dəlilər" kimi (348, s. 74) qeyd edilmişdir. Erməni müəlliflərinin əsərlərində "Dəlilər kəndi" kimi göstərilir (415, s. 48). Erməni ədəbiyyatında kəndin 1831-ci ildə salındığı qeyd edilir (416, s. 64). Əslində, tarixi həqiqət saxtalaşdırılıb. Çünki 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə Karni nahiyəsinə daxil olan kəndlərin tərkibində illik gəliri 20000 ağçadan ibarət olan (143, s. 49) Dəlilər kəndinin adı göstərilir. Burada tarixən yalnız azərbaycanlılar yaşamışdır (415, s. 48–49, 128–129). Kəndə ermənilər 1828–1829-cu illərdə İranın Xoy vilayətindən köçürülüb yerləşdirilmişdir. Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 46, 1873-cü ildə 115, 1886-cı ildə 124, 1897-ci ildə 134 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndə az sayda azərbaycanlı qayıda bilmişdir. Burada 1922-ci ildə 5, 1926-cı ildə 4, 1931-ci ildə 4 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). XX əsrin 30-cu illərinin ortalarında kənddə olan azərbaycanlılar Ermənistan dövlətinin göstərişi ilə tamamilə qovulmuşlar. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim qədim türk tayfası olan "tele (dəli)" etnoniminə (180, s. 21) cəmlik bildirən "-lər" şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Toponimdəki "böyük" sözü fərqləndirici əlamət bildirir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Dalar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 64).

Coğrafi koordinatları: 39°58′ şm. e., 44°32′ ş. u.

**Böyük Keyti** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 10 km şimalda, dəniz səviyyəsindən 1740 m hündürlükdə yerləşir. 1937-ci ilə qədər keçmiş Leninakan rayonunun tabeliyində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 128). Kəndin digər adı Keyti, yaxud Kaytı olmuşdur (415, s. 44). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Türkmənçay müqaviləsinə (1828) əsasən ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tədricən tərk etmişdir. Ermənilər kəndə 1828–1829-cu illərdə Türkiyənin Qars, Muş və Ərzurum vilayətlərindən köçürülmüşdür (416, s. 207–208). Toponim türk dilində "meşəsiz dağ yamacının gün düşən tərəfi" mənasında işlənən "kət" (339, s. 264) və fərqləndirici əlamət bildirən "böyük" sözlərindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Keti" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 207–208).

Coğrafi koordinatları: 40°53′ şm. e., 43°50′ ş. u.

**Böyük Kəpənək** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində

kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 32 km şərqdə, dəniz səviyyəsindən 2045 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi keçmiş Leninakan rayonunun tərkibində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 113). Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. 1877–1878-ci illərdə Türkiyənin Ərzurum vilayətindən ermənilərin köçürülüb kənddə yerləşdirilməsindən sonra azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən kənddən qovulmuşdur. Hazırda burada yalnız ermənilər yaşayır. Toponim qədim türk dilində "yapıncı" mənasında işlənən "kəpənək" sözündən düzələn "kəpənəkçi" etnonimi (195, s. 159) əsasında əmələ gəlmişdir. Kəpənək sözünə "yapınçı" mənasında "Kitabi-Dədə Qorqud" dastanında rast gəlinir. "Böyük" fərqləndirici əlamət bildirir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Musaelyan" qoyulmuşdur. Hazırda kənd "Erzurum" adlanır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 142).

Coğrafi koordinatları: 40°45′ şm. e., 43°59′ ş. u.

**Böyük Qarakilsə** – İrəvan quberniyasının Aleksandropol qəzasının Pəmbək bölgəsində kənd, hazırda Lori vilayətinin mərkəzi, şəhər. Keçmiş Quqark rayonunun ilk adıdır. İrəvan şəhərindən 104 km məsafədə, dəniz səviyyəsindən 1300 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Toponim alban məbədinin adı əsasında yaranmışdır. Həmin ərazidə yerləşən kilsə qara daşdan tikildiyi üçün Qarakilsə adlanmış və sonra da Qarakilsə toponimə çevrilmişdir. "Böyük" sözü fərqləndirici əlamət bildirir. Yaşayış məntəqəsinin adı əvvəlcə 1926-cı ildə dəyişdirilərək "Martunaşen", sonra Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Kirovakan", Ermənistan Respublikasının prezidentinin 25 iyun 1992-ci il tarixli fərmanı ilə üçüncü dəfə dəyişdirilərək "Vanadzor" adlandırılmışdır. Ermənilər 1988-ci ildə şəhərdə yaşayan azərbaycanlılara qarşı qətllər törətmişlər. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 187).

Coğrafi koordinatları: 40°48′ şm. e., 44°29′ ş. u.

**Böyük Qaraqoyunlu** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 86 km cənub-şərqdə, Zod kəndinə gedən yolun sağ tərəfindən, dəniz səviyyəsindən 2100 m hündürlükdə yerləşir. Kəndin bir adı da Yellicə olmuşdur (427, s. 46). Qafqazın 5 verstlik xəritəsində "Yellicə Qaraqoyunlu" kimi qeydə alınmışdır (348, s. 92). Kənddə 1831-ci ildə 379, 1873-cü ildə 408, 1886-cı ildə 591, 1897-ci ildə 447, 1908-ci ildə 505, 1914-cü ildə 655, 1916-cı ildə 516 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 26–27, 110–111). 1919-cu ildə kəndin sakinləri erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kəndi tərk etmişlər. Sağ qalan azərbaycanlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz kəndlərinə qayıda bilmişlər. Burada 1922-ci ildə 392, 1926-cı ildə 374, 1931-ci ildə 488 (415, s. 27, 111), 1939-cu ildə 562, 1959-cu ildə 746, 1970-ci ildə 1130, 1979-cu ildə 1407 (427, s. 46) nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabrında azərbaycanlılar Ermənistan dövləti tərəfindən qovulmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim qaraqoyunlu türk etnonimi əsasında əmələ gəlmişdir. "Böyük" fərqləndirici əlamət bildirən sözdür. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Əzizli", Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Norabak" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 150).

Coğrafi koordinatları: 40°09′ şm. e., 45°52′ ş. u.

**Böyük Məzrə** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 86 km cənub-şərqdə, Məzrə çayının sahilində, dəniz səviyyəsindən 1940 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 62), Qafqazın 5 verstlik xəritəsində (348, s. 164) adı qeyd edilmişdir. Kəndin bir adı da Kalıağalı olmuşdur (415, s. 26). Burada 1831-ci ildə 293, 1873-cü ildə 956, 1886-cı ildə 1379, 1897-ci ildə 1652, 1908-ci ildə 1842, 1914-cü ildə 1970, 1916-cı ildə 1792, 1919-cu ildə 220 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). Erməni silahlı dəstələri 1919-cu ilin mart ayında Böyük Məzrə kəndinə hücum edərək sakinləri qırğınlarla tarixi torpaqlarından deportasiya etdikdən sonra (309, s. 305) 1922-ci ildə burada 572 nəfər erməni yerləşdirilmişdir (415, s. 113). Kəndi tərk edən azərbaycanlılardan sağ qalanlar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra ata-baba torpaqlarına dönə bilmişlər. Burada ermənilərlə yanaşı, 1922-ci ildə 572, 1926-cı ildə 594, 1931-ci ildə 867 (415, s. 27, 113), 1988-ci ildə 2500 nəfər (85, s. 281–282) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında erməni sakinlərinin iştirakı ilə Ermənistan dövləti tərəfindən azərbaycanlılar öz doğma torpaqlarından qovulmuşdur. Hazırda orada yalnız ermənilər yaşayır. Kənddə albanlara məxsus IX əsrə aid tarixi abidə vardır. Bu tarixi abidənin üzərində "881-ci il" tarixi yazılmışdır. Eyni zamanda kəndin yaxınlığında oğuzlara məxsus qəbiristanlıq vardır. Bütün bunlar burada tarixən azərbaycanlıların yaşadığını sübut edir. Toponim Azərbaycan dilinə məxsus "böyük" sözü ilə ərəb dilində "əkilmiş yer, sürülüb toxum səpilmiş tarla" mənasında işlənən "məzrə" sözünün birləşməsi əsasında (104, s. 343) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Mets Masrik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 136).



*Böyük Məzrə kəndi*

Coğrafi koordinatları: 40°13′ şm. e., 45°46′ ş. u.

**Böyük Sarıyal** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 18 km şimal-şərqdə, dəniz səviyyəsindən 1880 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi keçmiş Leninakan rayonunun tərkibinə daxil idi. Kəndin başqa adı Saral olmuşdur (415, s. 44). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Ədirnə müqaviləsinə (1829) əsasən, ermənilərin Türkiyədən köçürülüb burada məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Toponim fərqləndirici əlamət bildirən "böyük" sözü ilə qədim türk dilində "düzənlik, düz, çöl, sahə" mənasında işlənən "sara" (sarı, 359, IV (1), s. 315) və "dağın döşü, dağın yamacı", "dağ keçidi, təpə" (339, s. 648), müasir Azərbaycan ədəbi dilində "hündür bir yerin təpəsi", "dikdir", "yoxuşun başı" (10, s. 479) mənasında işlənən "yal" sözlərinin birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 2 mart 1940-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Mets Sariar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 136).

Coğrafi koordinatları: 40°53′ şm. e., 43°57′ ş. u.

**Böyük Şəhriyar** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hok-

temberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 10 km cənub-qərbdə, Hrazdan axan arxın kənarında, dəniz səviyyəsindən 870 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 290). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Ermənilər kənddə 1915–1922-ci illərdə Türkiyənin Van, İğdır, Tuzluca və İranın Səlmas əyalətlərindən köçürülüb yerləşdirilmişdir (416, s. 143). Toponim fərqləndirici əlamət bildirən "böyük" sözü ilə Şəhriyar şəxs adının birləşməsi əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Erm. SSR AS RH-nin 19 aprel 1950-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Nalbandyan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 143).

Coğrafi koordinatları: 40°04′ şm. e., 43°59′ ş. u.

**Böyük Şiştəpə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, Arpaçayın sol tərəfində, Kiçik Şiştəpə kəndi ilə üzbəüz, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 40 km şimalda, dəniz səviyyəsindən 1990 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftərin"də Şörəyel (Şrüegel) livasında Şiştəpə kəndi gəliri 4000 ağça olan Osmanın adına timar kimi qeyd edilmişdir (143, s. 154). 1918-ci ilin may ayında Andranikin komandanlığı ilə erməni silahlı dəstələri Şiştəpə kəndində soyqırımı törətmişdir. Qırğınlardan bir neçə nəfər qaçıb canını qurtara bilmişdir (7, s. 75). 1920-ci ildən kənddə Türkiyədən gələn erməni ailələri məskunlaşdırılmışdır. Şiştəpə dağının ətəyində türk qəbiristanlığı son vaxtlaradək qalırdı. Toponim Azərbaycan dilində "dağın, təpənin zirvəsi, ən yüksək nöqtəsi" mənasında işlənən "şiş" sözü ilə (196, s. 42) "kiçik dağ" mənasında işlənən "təpə" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Mets Sepasar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 137).

Coğrafi koordinatları: 41°02′ şm. e., 43°49′ ş. u.

**Böyük Şöllü Dəmirçi** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 28 km şimal-qərbdə, dəniz səviyyəsindən 830 m hündürlükdə yerləşir. 1969-cu ildə keçmiş Zəngibasar rayonu təşkil edilənədək Vağarşabad (Eçmiədzin) rayonunun tərkibində olmuşdur. Kənddə 1831-ci ildə 338 (386, s. 547–548), 1886-cı ildə 1318 (Свод статических данных о населении Закавказского края, Тифлис, 1893, №101), 1922-ci ildə 238, 1926-cı ildə 417, 1931-ci ildə 453 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar 1948–1950-ci illərdə zorla Azərbaycana köçürülmüş, eyni zamanda xaricdən gətirilən ermənilər kənddə yerləşdirilmişdir. Burada yaşayan 3540 azərbaycanlı ailəsi isə 1988-ci ilin noyabr ayında Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim mənsubluq bildirən "-lu" şəkilçisinin qoşulduğu "çol" (şol – müəll.) etnonimindən (287, s. 112–114) və "dəmirçi" türk etnonimindən (271, s. 466) əmələ gəlmişdir. Toponimin əvvəlindəki "böyük" sözü fərqləndirici əlamət bildirir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Şorlu Dəmirçi", 25 yanvar 1978-ci tarixli qərarı ilə yenidən dəyişdirilərək "Daştavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 65).

Coğrafi koordinatları: 40°05′ şm. e., 44°23′ ş. u.

**Böyük Vedi** – İrəvan quberniyasının İrəvan qəzasının Vedibasar nahiyəsində kənd, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində şəhər. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 18 km cənub-şərqdə, Vedibasar çayının yanında, dəniz səviyyəsindən 880 m hündürlükdə yerləşir. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 172), 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 51), Qafqazın 5 verstlik xəritəsində (348, s. 50) qeyd edilmişdir. Burada 1831-ci ildə 799, 1873-cü ildə 1743, 1886-cı ildə 2110, 1897-ci ildə 2792,



*Böyük Vedi kəndi*

1914-cü ildə 2672 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 84–85, 154–155). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin törətdikləri qırğınlar nəticəsində kəndi tərk etmək məcburiyyətində qalmış, əhalisi bir müddət İran ərazisində sığınacaq tapmışdır. 1920-ci illərdə Türkiyədən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir. Kənddə 1922-ci ildə 1504 azərbaycanlı, 453 erməni, 1926-cı ildə 1545 azərbaycanlı, 261 erməni, 1931-ci ildə 1254 nəfər azərbaycanlı, 214 erməni yaşamışdır (415, s. 85, 155). 1972-ci ildə burada 5624 nəfər azərbaycanlı və erməni birlikdə yaşamışdır. 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövlət tərəfindən qırğınlarla qovulmuşdur. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim fərqləndirici əlamət bildirən "böyük" və ərəb dilində "iki dağ arasında olan uzun çuxur dərə", "bir çayın axdığı yer, çay yatağı", "çöl, səhra", "sahə", "məkan, yer" mənalarında işlənən "vadi" (104, s. 83) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Yaşayış məntəqəsinin adı erməni dilinə kalka edilərək "Mets Vedi" formasında işlədilir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Vedi" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 191–192).

Coğrafi koordinatları: 39°54′ şm. e., 44°43′ ş. u.

**Böyük Zeyvə** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Eçmiədzindən 5,5 km cənub-qərbdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 97). Kəndin aborigen sakinləri azərbaycanlılar olmuşdur. Türkmənçay müqaviləsindən sonra – 1828–1829-cu illərdə kəndə İranın Səlmas və Xoy vilayətlərindən və 1915–1916-cı illərdə Türkiyənin Ələşkirt vilayətindən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir (427, s. 320). Burada ermənilərlə yanaşı, 1897-ci ildə 29 nəfər azərbaycanlı yaşamışdır (415, s. 82–83). Azərbaycanlılar XX əsrin əvvəllərində, 1905–1906-cı illərdə erməni silahlı birləşmələri tərəfindən sıxışdırılıb tarixi-etnik torpaqlarından qovulmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində fərqləndirici əlamət bildirən "böyük" sözü ilə ərəb dilində "guşə, künc, bucaq" mənasında işlənən zaviyə sözünün (104, s. 207) birləşməsindən əmələ gəlmişdir. Bu söz (zaviyə) islamiyyətlə əlaqədar olub, fars dilindəki "xanəgah" sözü ilə sinonimdir və "bir şeyx və ya mürşidin rəyasəti altında olan dərvişlərin yaşadıqları və ibadət etdikləri yer" anlamını verir. Səfəvilərin hakimiyyəti dövründə imtiyazlı zümrələr içərisində feodallardan sonra ikinci yeri ruhanilər tuturdu. Ruhanilərə hər vilayətdə şeyxülislamlar, vaizlər və nəhayət, dərviş malikanələrindəki (xanəgah və zaviyələrdəki) şeyxlər daxil idi. Ömürlərini ibadətlə keçirən ruhanilər, tərki-dünyalar üçün bir küncdə, bucaqda, camaatdan kənarda tikilən evlər zaviyə adlanırdı və sonralar həmin yer yaşayış məntəqələrinə çevrilmişdi (93, s. 54). Deməli, Zeyvə kəndlərinin adı

"zaviyə" sözü əsasında formalaşmışdır. Digər tərəfdən bu bir daha göstərir ki, həmin ərazi Səfəvilərin hakimiyyəti altında olmuşdur. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Arataşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 24).

Coğrafi koordinatları: 40°07′ şm. e., 44°13′ ş. u.

**Buğdaşen** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 41 km cənub-qərbdə, Gümrü-Qurduqulu (Hoktemberyan) yolunun üstündə, Arpaçayın yaxınlığında, dəniz səviyyəsindən 1460 m hündürlükdə yerləşir. Burada XIX əsrin 30-cu illərinə qədər azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1828–1829-cu illərdə Türkiyənin Ələşkirt, Ərzurum, Bitlis və Muş vilayətlərindən köçürülmüşdür (427, s. 535). Toponim "buğda" sözü ilə qədim türk dilində "kənd", "yaşayış yeri" mənasında işlənən, şenlik mənasını ifadə edən "şen" sözünün birləşməsindən formalaşmışdır. Erm. SSR AS RH-nin 3 dekabr 1947-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Baqravan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 40).

Coğrafi koordinatları: 40°28′ şm. e., 43°43′ ş. u.

**Bulxeyir** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 14 km şimalda, Abaran çayının sağ qolu üstündə, Alagöz dağının ətəyində, dəniz səviyyəsindən 1875 m hündürlükdə yerləşir. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Bulxeyir" (143, s. 174), 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə "Əbülxeyir" (143, s. 54), Qafqazın 5 verstlik xəritəsində "Blxer" (348, s. 40) formalarında qeyd edilmişdir. Kəndin adı erməni müəlliflərinin əsərlərində "Plxer", "Bulxayır" kimi də göstərilir (415, s. 4). Bulxi etnoniminə türk dilində "igid, qoçaq" mənasında işlənən "ər" sözünün qoşulması əsasında bulxer etnonimi yaranmışdır. Bulxer bulqar etnoniminin fonetik variantıdır. Toponim bulxer etnonimindən əmələ gəlmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi Türkiyəyə köç etmişdir. Erm. SSR AS RH-nin 19 aprel 1950-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Şenavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 157).

Coğrafi koordinatları: 40°28′ şm. e., 44°22′ ş. u.

**Burun** – Gəncə quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 73 km şimalda, dəniz səviyyəsindən 1700 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. Toponim Azərbaycan dilində "irəliyə çıxan və ya suya doğru uzanan quru" (253, s. 99), "qurunun, dənizin içinə girən dağlıq, qayalıq hissəsi" (9, s. 330), "qurunun, dağın və ya qayanın sivri bucaq şəklində düzünə tərəf uzanmış hissəsi" (198, s. 151), başqa türk dillərində "dağ çıxıntısı, qum silsiləsi, cərgəsi, qum təpəsi", "sıra dağlardan ayrılan dağ qolu, dil" mənasında işlənən "burun" sözündən (339, s. 103–104) əmələ gəlmişdir. Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Akner" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 12).

Coğrafi koordinatları: 39°32′ şm. e., 46°18′ ş. u.

# C

**Calakənd** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 31 km şimal-qərbdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. Toponim Azərbaycan dilinin qərb qrupu dialektlərində "çay ətrafında kiçik ağaclıq, qalın meşə", "kiçik meşə" mənasında işlənən "cala" sözünə (8, s. 453) "yaşayış məntəqəsi" mənasında işlənən "kənd" sözünün qoşulması əsasında əmələ gəlmişdir. "Çala" sözü dialektlərdə həm də "daimi sulu, otlu yer" mənasını bildirir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Kəndin adı dəyişdirilərək "Liçkazor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 91).

Coğrafi koordinatları: 41°10' şm. e., 44°55' ş. u.

**Camışlı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Araqats (Alagöz) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 45 km şimal-qərbdə, dəniz səviyyəsindən 2050 m hündürlükdə yerləşir. 1877–1878-ci illər rus-türk müharibəsindən sonra Türkiyədən köçürülüb gətirilən yezidi kürdlər kənddə məskunlaşdırılmışdır. Bundan sonra azərbaycanlılar kəndi tədricən tərk etmişlər. Rayondakı Böyük Camışlı və Kiçik Camışlı kəndləri birləşdirilərək Camışlı kəndi yaradılmışdır. Keçmiş Araqats (Alagöz) rayonu təşkil edilənədək, yəni 15 mart 1972-ci ilə kimi Abaran rayonunun inzibati ərazi bölgüsünə daxil olmuşdur. Toponim camışlı türk tayfa adı (142, s. 29) əsasında formalaşmışdır. Erməni ədəbiyyatında "Camşlu" fonetik formasında əksini tapır. Hazırda kənddə yezidi kürdlərlə yanaşı, ermənilər də yaşayır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 168).

Coğrafi koordinatları: 41°41′ şm. e., 44°16′ ş. u.

**Canfəda (Canfida)** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 13 km cənubda, Araz çayının sol sahilində, dəniz səviyyəsindən 865 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Canfəda" kimi (143, s. 47), Qafqazın 5 verstlik xəritəsində "Canfida" formasında (348, s. 81) qeyd edilmişdir. XVIII əsrə aid mənbədə göstərilir ki, kənddə oğuzların reyhanlı tayfası (238, s. 187) yaşamışdır (143, s. 47). Kənddə 1831-ci ildə 283, 1873-cü ildə 999, 1886-cı ildə 1165, 1897-ci ildə 1071, 1908-ci ildə 1172, 1914-cü ildə 1244, 1916-cı ildə 1384 (415, s. 64–65, 140–141), 1918-ci ildə 1318 (309, s. 221), 1919-cu ildə 1815 nəfər (415, s. 140–141) yalnız azərbaycanlı yaşamışdır. 1919-cu ilin sonlarında kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmışdır. Kənd sakinləri – azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuşdur. Kənddə Türkiyənin Ələşkirt, Sasun, Muş, Malazgird vilayətlərindən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir (85, s. 120; 416, s. 168). Hazırda kənddə yalnız ermənilər yaşayır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 168).

Coğrafi koordinatları: 40°02′ şm. e., 44°01′ ş. u.

**Carcarçı (Carcaris)** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Araqats (Alagöz) rayonunda, indi Araqatsotn vilayətində kənd. Araqats (Alagöz) yaşayış məntəqəsindən 12 km məsafədə, dəniz səviyyəsindən 2180 m hündürlükdə yerləşir. 1972-ci ilə kimi keçmiş Abaran rayonunun tərkibində olmuşdur. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl

dəftəri"ndə "Cərceyis" adında qeyd edilmişdir (143, s. 175). 1877–1878-ci illər rus-türk müharibəsindən sonra Türkiyədən köçürülüb gətirilən yezidi kürdlər kənddə məskunlaşdırılmışdır. Bundan sonra azərbaycanlılar kəndi tədricən tərk etmişlər. 15 mart 1972-ci ildə yaradılan keçmiş Araqats (Alagöz) rayonunun tabeliyinə verilmişdir. Hazırda kənddə ermənilər yaşayır. Toponim Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələrində "vəl əvəzində xırmanda istifadə edilən dəmir dişli kənd təsərrüfatı aləti" mənasında işlənən "carcar" sözünə (8, s. 455) "-is" topoformantının artırılması ilə düzəlmişdir. Bu döyüm aləti, əsasən, düzən yerlər üçün xarakterik olmuş və iş prosesində vəldən əvvəl işlədilmişdir. Toponim "peşə, sənət" mənasında işlənən "carcaris" sözü əsasında formalaşmışdır. Erm. SSR AS RH-nin 19 aprel 1957-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Derek" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 128).

Coğrafi koordinatları: 40°42′ şm. e., 44°19′ ş. u.

**Cəbəcəli** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 18 km şimal-qərbdə, dəniz səviyyəsindən 830 m hündürlükdə yerləşir. Keçmiş Zəngibasar rayonu təşkil edilənədək keçmiş Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 160), Qafqazın 5 verstlik xəritəsində (348, s. 78) qeyd edilmişdir. Mənbələrdə kəndin adı "Cəbəçəlli" şəklində də göstərilir (415, s. 50). Kənddə 1831-ci ildə 275, 1873-cü ildə 252, 1886-cı ildə 254, 1897-ci ildə 264, 1904-cü ildə 355, 1914-cü ildə 575, 1918-ci ildə 355, 1919-cu ildə 240 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131; 309, s. 216). 1918–1919-cu illərdə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və sakinləri – azərbaycanlılar 1919-cu ildə tamamilə deportasiya olunmuş, Türkiyədən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar öz kəndlərinə qayıda bilmişdir. Burada ermənilərlə yanaşı, 1922-ci ildə 101, 1926-cı ildə 115, 1931-ci ildə 131 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). SSRİ hökumətinin xüsusi qərarı ilə azərbaycanlılar 1948–1949-cu illərdə tarixi-etnik torpaqlarından Azərbaycana deportasiya edilmiş və xaricdən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir. Hazırda orada ermənilər yaşayır. Toponim qapıqulu türk tayfasına mənsub olan "cəbəçi" nəsil adına (İslam Ensiklopedisi, İstanbul, 1993, cilt 7, s. 182) mənsubluq bildirən "-li" şəkilçisinin qoşulmasından əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 27 fevral 1960-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Crahovid" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 170).

Coğrafi koordinatları: 40°02′ şm. e., 44°28′ ş. u.

**Cəfərabad** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 13 km cənub-qərbdə, Araz çayının sol sahilində, dəniz səviyyəsindən 880 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 81). Tarixən burada azərbaycanlılar yaşamışdır. Kəndə ermənilər, əsasən, 1917–1918-ci illərdə İranın Xoy, Türkiyənin Sürməli və Muş vilayətlərindən köçürülmüşdür (427, s. 844). Toponim "Cəfər" şəxs adı ilə fars dilindən Azərbaycan dilinə keçən "müntəzəm və çoxlu tikintisi, yaşayış üçün hər cür şəraiti olan yer" mənasında işlənən "abad" sözünün birləşməsindən əmələ gəlmişdir. Toponimdir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Getaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 57).

Coğrafi koordinatları: 40°02′ şm. e., 43°56′ ş. u.

**Cəfərabad** – İrəvan quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 27 km şimal-qərbdə, dəniz səviyyəsindən 877 m hündürlükdə yerləşir. İrəvan şəhəri yaxınlığında yerləşən Cəfərabad kəndində Əmir Səəd məqbərəsi yerləşir. 1413-cü ildə inşa edilən məqbərə qırmızı tuf daşdan inşa edilmişdir. Məqbərədə Qaraqoyunlu əmirlərindən Çuxur Səədin ilk hakimi Əmir Səəd dəfn edilmişdir. 1937-ci ildə Zəngibasar rayonu təşkil edilənədək Vağarşabad (Eçmiədzin) rayonunun tərkibində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 81). Toponim "Cəfər" şəxs adı ilə fars dilində "müntəzəm və çoxlu tikintisi, yaşayış üçün hər cür şəraiti olan yer" mənasında işlənən "abad" sözünün birləşməsindən (9, s. 25) əmələ gəlmişdir. Antropotoponimdir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Arqavand" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 29).

Coğrafi koordinatları: 40°09' şm. e., 44°26' ş. u.

**Cəlaloğlu** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Cəlaloğlu (Stepanavan) rayonunda, indi Tavuş vilayətində şəhər. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 26 km məsafədə, dəniz səviyyəsindən 1400 m hündürlükdə yerləşir. 1801-ci ildə Gürcüstanın Rusiyanın tərkibinə daxil olması ilə əlaqədar rayonun ərazisi Tiflis quberniyasının tərkibində Rusiyanın tabeliyinə keçmişdir. 1919-cu ildən 1920-ci ilin noyabrınadək Loriyə daxil olmuş, indiki Ermənistan ərazisində 1920-ci il noyabrın 29-da sovet hakimiyyəti qurulduqdan sonra Lori-Pəmbək qəzasının tərkibində Ermənistanın tabeçiliyinə keçmişdir. 1930-cu il sentyabrın 9-da keçmiş Cəlaloğlu rayonu yaradılmışdır. Toponim qızılbaş tayfasından olan Əmir Məhəmməd bəy Cəlaloğlunun adı (176, s. 14) əsasında yaranmışdır. Həmin yaşayış məntəqəsi çəpni türk tayfasının əmiri Məhəmməd bəy Cəlaloğluna mənsub olduğu üçün Cəlaloğlu kəndi adlanmışdır. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Antropotoponimdir. İndiki Ermənistanın Torpaq Komitəsinin 1923-cü il qərarı ilə adı dəyişdirilərək azərbaycanlılara qarşı soyqırımı təşkil etmiş Stepan Şaumyanın şərəfinə "Stepanavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 183–184).

Coğrafi koordinatları: 41°00' şm. e., 44°23' ş. u.

**Cəngitəpə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Araqats (Alagöz) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 48 km şimal-qərbdə, Abaran çayının yanında, dəniz səviyyəsindən 2075 m hündürlükdə yerləşir.



*Cəngitəpə kəndi*

Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi Türkiyəyə köç etmişdir. 1972-ci ilə kimi keçmiş Abaran rayonunun tərkibində olmuşdur. 15 mart 1972-ci ildə keçmiş Araqats (Alagöz) rayonu yaradıldıqdan sonra Abaran rayonunun tərkibindən çıxarılıb Araqats (Alagöz) rayonunun inzibati-ərazi bölügüsünə daxil edilmişdir. Adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 81). Toponim "meşə örtüyü olmayan dağ", "meşəsiz dağ" mənasında işlənən "cəngi" sözü ilə (339, s. 178) "təpə" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 19 aprel 1950-ci il tarixli qərarı ilə kəndin adı dəyiş-

dirilərək "Vardablur" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 186).

Coğrafi koordinatları: 40°41' şm. e., 44°13' ş. u.

**Cənnətli** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayəti ərazisində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 16 km şimal-şərqdə, Qərni çayının sahilində, dəniz səviyyəsindən 965 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində kəndin adı "Cahadlu" formasında da qeyd edilmişdir (415, s. 50). Kənddə 1831-ci ildə 59, 1873-cü ildə 173, 1886-cı ildə 189, 1897-ci ildə 219, 1904-cü ildə 184, 1914-cü ildə 228, 1916-cı ildə 260 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. Xaricdən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir. Kənddə 1922-ci ildə 78 nəfər, 1926-cı ildə 100 nəfər, 1931-ci ildə 114 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə 1948–1949-cu illərdə kənddə yaşayan azərbaycanlılar zorla tarixi torpaqlarından Azərbaycana köçürülmüşdür. Hazırda burada ermənilər yaşayır. Toponim nəsil adı əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 2 mart 1940-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək əvvəlcə "Zovaşen", 21 oktyabr 1967-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Lancazat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 85).

Coğrafi koordinatları: 40°03' şm. e., 44°34' ş. u.

**Cıvıxlı** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, Krasnoselsk rayonunda kənd. Kəndin adı "Çivixli, Çibuxli, Çibixlı" formalarında da qeyd edilir (415, s. 32). Çəmbərəkdən 13 km şimal-qərbdə, dəniz səviyyəsindən 1720 m hündürlükdə yerləşir. Kölkənd kənd sovetliyinə tabe idi. Kənddə 1897-ci ildə 80 nəfər azərbaycanlı yaşamışdır (415, s. 32–33). 1919-cu ilin martında kənd sakinləri ermənilərin təcavüzünə məruz qalaraq qovulmuşdur. Sağ qalan kənd sakinləri indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra öz kəndlərinə qayıda bilmişdir. 1922-ci ildə burada 137, 1931-ci ildə 132 (415, s. 116–117), 1970-ci ildə 364, 1979-cu ildə 351 nəfər (85, s. 92) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kəndin sakinləri olan azərbaycanlılar Ermənistan dövləti tərəfindən deportasiya edilmişdir. Toponim çubuxlu türk tayfa adı (193, s. 160) əsasında əmələ gəlmişdir. Cıvıxlı çubuxlu etnoniminin dialekt variantıdır. Etnotoponimdir. Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Tsapkut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 169).

Coğrafi koordinatları: 40°40' şm. e., 45°14' ş. u.

**Cızıxlar** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayətində kənd. Aşosk yaşayış məntəqəsindən 15 km məsafədə yerləşir. "Kitabi-Dədə Qorqud" dastanında adı çəkilir (158, s. 166). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi Türkiyəyə köç etmişdir. 1828–1830-cu illərdə Türkiyənin Sebastiya bölgəsindən gələn ermənilər burada məskunlaşmışlar. 1937-ci ilə kimi keçmiş Ağbaba rayonunun tərkibində olmuşdur. Toponim türk dilində "sərhəd", "hüdud", "mərz" mənasında işlənən "cızıq" sözündən (359, III (2), s. 2096 ) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Tsoğamarq" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 199).

Coğrafi koordinatları: 40°56' şm. e., 43°51' ş. u.

**Cil** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 82 km şimal-şərqdə, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 2040 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 82). Türk tarixçisi Fahrettin Kırzıoğlu "Cilkəndi" formasında qeyd edir (160 a). Krasnoselsk rayonu yaradılana qədər (31.12.1937) keçmiş Basarkeçər rayonunun tərkibində olmuşdur. Tarixi mənbələrdə kəndin XII əsrdə salındığı göstərilir (Erməni Sovet Ensiklopediyası, IX c., İrəvan, 1983, s. 514). Kənddə 1831-ci ildə 265, 1873-cü ildə 287, 1886-cı ildə 587, 1897-ci ildə 736, 1904-cü ildə 975, 1914-cü ildə 1035, 1916-cı ildə 893, 1919-cu ildə 888 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1919-cu ilin yazında kənd sakinləri erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq qovulmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra onlar doğma yurdlarına qayıda bilmişlər. 1922-ci ildə burada 697, 1926-cı ildə 824, 1931-ci ildə 1041 (415, s. 26–27), 1939-cu ildə 1226, 1959-cu ildə 1170, 1970-ci ildə 1606, 1979-cu ildə 1519 nəfər (416, s. 169) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kəndin sakinləri Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. Hazırda orada ermənilər yaşayır. Toponim Azərbaycan dilində "torpağın üstünü basan süpürgəvari ot" mənasında işlənən "cil" sözü (12, s. 480, 484) əsasında əmələ gəlmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 169).



*Cil kəndi*

Coğrafi koordinatları: 40°27′ şm. e., 45°27′ ş. u.

**Coğaz** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayətində kənd. Kəndin qədim adı Cuğaz olmuşdur (415, s. 40). Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 22 km şimalda, dəniz səviyyəsindən 700 m hündürlükdə yerləşir. Toponim qədim türk dilində su sözünün fonetik forması olan "cu" (co) sözü ilə (339, s. 181; 210 a., s. 109) "ğas/qaz/xaz" qədim türk etnoniminin (78, s. 29–36) variantı olan "ğaz" (xaz, qaz, qas) etnoniminin birləşməsi əsasında əmələ gəlmişdir. Bu etnonim Qazax, Qafqaz toponimlərində öz izini aydın şəkildə qoruyub saxlamışdır. Su mənasında işlənən "cu" sözü cuvar sözündə, erməni dilində cur (su) sözündə "cu" formalarında öz əksini tapmışdır. Eyni zamanda Azərbaycan dilində gildən, saxsıdan, şüşədən düzəldilən darboğazlı suqabı mənasında işlənən "cürdək" sözünün (12, s. 492) ilk komponenti "cü" də "su" sözünün fonetik formasıdır. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Berkaber" qoyulmuşdur. Kənd "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 46–47).

Coğrafi koordinatları: 41°03′ şm. e., 45°08′ ş. u.

**Comərdli** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 118 km şimal-qərbdə, dəniz səviyyəsindən 1975 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 83).

Kənddə 1873-cü ildə 208, 1886-cı ildə 244, 1897-ci ildə 333, 1908-ci ildə 410, 1914-cü ildə 405 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1916–1918-ci illərdə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qırğınlarla deportasiya olunmuşdur. Sağ qalan kənd sakinləri indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz kəndlərinə qayıda bilmişdir. Burada 1922-ci ildə 87, 1926-cı ildə 87, 1931-ci ildə 149 (415, s. 76–77, 146–147), 1979-cu ildə 860 nəfər (85, s. 191) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında kənd sakinləri Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim kəndin əsasını qoyan Comərd şəxs adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Tanahat" qoyulmuşdur. Kənd "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 81).


*Comərdli kəndi bu gün*

Coğrafi koordinatları: 39°26′ şm. e., 45°58′ ş. u.

**Crvej** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Kotayk, Abovyan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 48 km şimal-qərbdə, dəniz səviyyəsindən 1100 m hündürlükdə yerləşir. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Cevriş formasında qeyd edilmişdir (143, s. 159). Erməni müəlliflərinin əsərlərində kəndin qədim adının Çivreş olduğu göstərilir (415, s. 46). Kənddə tarixən yalnız azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1828–1929-cu illərdə İranın Xoy və Səlmas vilayətlərindən köçürülüb yerləşdirilmişdir (416, s. 172). Burada ermənilərlə yanaşı, 1873-cü ildə 43, 1886-cı ildə 31, 1897-ci ildə 58 nəfər azərbaycanlı yaşamışdır (415, s. 147, 126–127). 1918-ci ildə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Hazırda orada ermənilər yaşayır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 172).

Coğrafi koordinatları: 40°11′ şm. e., 44°35′ ş. u.

**Cucevan** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 42 km şimal-qərbdə, dəniz səviyyəsindən 1100 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində kəndin 1873-cü ildə salındığı göstərilir (Erməni Sovet Ensiklopediyası, IX c., İrəvan, 1983, s. 551). Bu, həqiqətə uyğun deyil. Belə ki kənddə XII–XIII əsrlərə aid tarixi abidələr (türk qəbirləri, qala divarları) vardır. Toponim Çingiz xanın böyük oğlu Cucinin adı ilə bağlı yaranan ulusun adını (ASE, X c., B., 1987, s. 449; 66, s. 36) əks etdirən "cuce" sözü ilə urartu dilində "ölkə", "yer" mənasını bildirən "ebani" (ubani) sözü (332, s. 68) əsasında formalaşan "van" (ban) sözünün birləşməsindən əmələ gəlib, "cuci tayfasının ölkəsi, yaşadığı yer" mənasını ifadə edir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 172).

Coğrafi koordinatları: 41°07′ şm. e., 45°00′ ş. u.

**Cul** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 32 km cənub-şərqdə, Arpaçayın sağ qolu olan Culçayın yanında, dəniz səviyyəsindən 1880 m hündür-

lükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 60), Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 84). Tarixi mənbələrdə XIII əsrdən xatırlanır (422, s. 91). Kənddə 1831-ci ildə 117, 1873-cü ildə 708, 1886-cı ildə 899, 1897-ci ildə 1214, 1904-cü ildə 1222, 1914-cü ildə 1344, 1916-cı ildə 1607 nəfər



*Cul kəndi*

yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1918-ci ildə kəndin erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış əhalisi – azərbaycanlılar deportasiya olunmuşdur. Sağ qalan azərbaycanlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 717, 1926-cı ildə 431, 1931-ci ildə 950 nəfər azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). SSRİ hökumətinin xüsusi qərarı ilə kəndin sakinləri – azərbaycanlılar 1948–1949-cu illərdə zorla Azərbaycana köçürülmüşdür. 1950-ci ildən burada ermənilər yaşayır. Toponim "çul" türk etnonimi (287, s. 111–114; 211, s. 190–194) əsasında yaranmışdır. Etnotoponimdir. Erm. SSR AS RH-nin 19 aprel 1950-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Hartavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 38).

Coğrafi koordinatları: 39°39′ şm. e., 45°37′ ş. u.

**Cücəkənd** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayətində kənd. 1937-ci ilə kimi Cəlaloğlu (Stepanavan) rayonunun tərkibində olmuşdur. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 52 km məsafədə, dəniz səviyyəsindən 1590 m hündürlükdə yerləşir. İlməzli kəndinin yaxınlığında bir-birinə bitişik üç təpə üzərində, az bir hissəsi düzənlikdə, dəniz səviyyəsindən 1590 m hündürlükdə yerləşir. Monqol istilası zamanı bu kəndin adı Cüycikənd olmuş və sonradan toponim fonetik hadisəyə uğrayaraq "y" səsi düşmüş, Cüycikənd i~ə səsəvəzlənməsi nəticəsində Cücəkənd formasını almışdır. Kənddə 1886-cı ildə 205, 1897-ci ildə 237, 1904-cü ildə 210, 1914-cü ildə 468, 1916-cı ildə 399 nəfər azərbaycanlı yaşamışdır (415, s. 80–81, 150–151). 1918-ci ildə azərbaycanlılar deportasiyaya məruz qalmışdır. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndin sakinləri öz doğma yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 474, 1926-cı ildə 498, 1931-ci ildə 623 (415, s. 80–81, 150–151), 1939-cu ildə 746, 1959-cu ildə 873, 1979-cu ildə 1334 (416, s. 126), 1987-ci ildə 1500 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kəndin sakinləri Ermənistan dövləti tərəfindən qırğınlarla qovulmuşdur. Hazırda orada ermənilər yaşayır. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci



*Cücəkənd*

il tarixli qərarı ilə adı dəyişdirilərək "Qızıl Şəfəq", Erm. SSR AS RH-nin 8 avqust 1991-ci il tarixli qərarı ilə kəndin adı yenə dəyişdirilərək "Cyunaşoğ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 126).

Coğrafi koordinatları: 41°11′ şm. e., 44°11′ ş. u.

# Ç

**Çaxırlı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 76 km cənub-şərqdə, Göyçə gölünün cənub-şərq sahilində, dəniz səviyyəsindən 1950 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 281). Kənddə 1831-ci ildə 212, 1873-cü ildə 770, 1886-cı ildə 1020, 1897-ci ildə 1204, 1908-ci ildə 1349, 1914-cü ildə 1653, 1916-cı ildə 1501, 1919-cu ildə 85 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1918-ci ilin yazında azərbaycanlılar erməni silahlılarının təcavüzünə məruz qalaraq yaşayış yerlərini tərk etmişlər. 1919-cu ilin sentyabr-oktyabr aylarında kənddə yaşayan azərbaycanlılar son nəfərinə qədər ata-baba torpaqlarından deportasiya olunmuşdur. 1915–1918-ci illərdə Türkiyənin Muş, Van və Ərzurum vilayətlərindən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir (416, s. 95). Kəndi tərk edən azərbaycanlılardan sağ qalanları indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz doğma torpaqlarına qayıda bilmişdir. Burada ermənilərlə yanaşı, 1922-ci ildə 679, 1926-cı ildə 763, 1931-ci ildə 975 (415, s. 26–27, 112–113), 1987-ci ildə 1500 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kənddə yaşayan azərbaycanlılar Ermənistan dövlətinin yeritdiyi siyasət nəticəsində tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim "çaxırlı" türk etnonimi (272, s. 22) əsasında əmələ gəlmişdir. F.Sümər qaraqoyunlu türk tayfasının da əsas boylarından birinin çəkürlü olduğunu göstərir (238, s. 158). Deməli, Çaxırlı toponimi "çaxırlı/çəkürlü" etnonimi əsasında əmələ gəlmişdir və çaxırlı "çakırlı/çəkürlü" etnoniminin fonetik formasıdır. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Sovetakert", Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Xaçaxbyur" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 95).

Coğrafi koordinatları: 40°10′ şm. e., 45°41′ ş. u.

**Çaxmaq** – Qars vilayətinin Qars qəzasında, 1921-ci ildən keçmiş Amasiya (Ağbaba) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 14 km məsafədə, Türkiyə sərhədində, dəniz səviyyəsindən 1850 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində kəndin sakinləri qarapapaqlar kimi göstərilmişdir (415, s. 20, 105). Qarapapaqlar azərbaycanlıların etnoqrafik qrupu və türk tayfalarından biridir. Kənddə 1886-cı ildə 222, 1897-ci ildə 282, 1908-ci ildə 360, 1914-cü ildə 406 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–106). 1918–1920-ci illərdə azərbaycanlılar deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz torpaqlarına qayıda bilmişlər. 1922-ci ildə kənddə 82, 1926-cı ildə 111, 1931-ci ildə 89 (415, s. 20–21, 104–105), 1970-ci ildə 197, 1987-ci ildə 400 nəfər azərbaycanlı yaşamışdır. Kəndə erməni ailələri 1922-ci ildə köçürülmüşdür. 1988–1989-cu ilin yay-payız aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən qovulmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim şahsevən türk tayfasına mənsub olan "çaxmaq" etnonimi (95, s. 192; 93, s. 87–88) əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Kamxut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, 106).

Coğrafi koordinatları: 40°54′ şm. e., 43°42′ ş. u.

**Çatqıran** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hraz-

dan (Axta) şəhərindən 50 km cənubda, dəniz səviyyəsindən 1500 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "müsəlmanların yaşadığı Çatqıran" (143, s. 82), Qafqazın 5 verstlik xəritəsində "Cadqran" (348, s. 81), erməni müəlliflərinin əsərlərində həm də "Çatıqran" (415, s. 46) kimi qeyd edilmişdir. Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. 1828–1830-cu illərdə İranın Xoy, Türkiyənin Ələşkirt və Muş vilayətlərində ermənilər köçürülərək kənddə yerləşdirilmişdir (427, s. 824; 416, s. 54). Burada ermənilərlə yanaşı, 1831-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır (415, s. 126). 1840-cı illərdə azərbaycanlılar erməni silahlıları tərəfindən deportasiya olunmuşdur. Hazırda orada  ermənilər yaşayır. Toponim türk dilində "dağ beli, dağın çıxıntısı, qayalı yüksəklik, iki dərəni birləşdirən yer, yarğan, dərəli sıra dağlar", "iki çay arasında yer" mənasında işlənən "çat" sözü ilə (359, III (2), s. 1893; 339, s. 608) qədim türk dilində "çəpər, hasar", "düşərgə", "heyvanlar üçün ağıl", "yaşayış yeri", "alaçıq" mənasında işlənən "kuren" (quran, qıran, qran) sözünün birləşməsindən (339, s. 3 173 18) əmələ gəlib, "qayalıqda, iki dərənin, iki çayın arasında olan yaşayış yeri, kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Hrazdan", 21 oktyabr 1967-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Gexaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 54).

Coğrafi koordinatları: 40°14' şm. e., 44°43' ş. u.

**Çaykənd** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 97 km şimalda, Tərsa çayının sahilində, Krasnoselsk–Dilican–İcevan yolunun üstündə, dəniz səviyyəsindən 1240 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 278). Kəndin əsası 1778-ci ildə qoyulmuşdur. Burada 1897-ci ildə 754, 1904-cü ildə 660, 1914-cü ildə 677, 1916-cı ildə 772, 1919-cu ildə 847 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 32–33, 116–117). 1919-cu ilin yazında kəndin azərbaycanlı sakinləri erməni silahlı birləşmələri tərəfindən qovulmuşdur. Sağ qalan çaykəndlilər yalnız



*Çaykənd*

indiki Ermənistan ərazisində  sovet hakimiyyəti qurulandan sonra öz kəndlərinə qayıda bilmişdir. 1922-ci ildə burada 569, 1926-cı ildə 616, 1931-ci ildə 662 (415, s. 32–33, 116–117), 1939-cu ildə 893, 1959-cu ildə 809, 1970-ci ildə 1140, 1979-cu ildə 1112 (416, s. 70), 1987-ci ildə 1110 nəfər (85, s. 90–91) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kəndin sakinləri Ermənistan dövləti tərəfindən tarixi torpaqlarından deportasiya olunmuşdur. Hazırda orada  ermənilər yaşayır. Kənd çayın qırağında salındığı üçün "Çaykənd" adlandırılmışdır. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Dprabak" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 70).

Coğrafi koordinatları: 40°41′ şm. e., 45°07′ ş. u.

**Çəpni** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 13 km şimal-şərqdə, dəniz səviyyəsindən 1050 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur

qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 280). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. Toponim qədim oğuz tayfasından olan çəpni etnonimi (399, I, s. 59; 228, s. 40) əsasında əmələ gəlmişdir. Qızılbaş tayfalarından birinin də adı "çəpni"dir (175, s. 14). Rəsmi sənədlərdə "Çapni" şəklində yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 164).

Coğrafi koordinatları: 39°16′ şm. e., 46°27′ ş. u.

**Çıraqlı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 18 km cənub-qərbdə, dəniz səviyyəsindən 1820 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi keçmiş Leninakan rayonunun tərkibində olmuşdur. Ermənilər kəndə 1828–1829-cu illərdə Türkiyənin Ərzurum, Xnıs (Hnıs) və Muş vilayətlərindən köçürülmüşdür (416, s. 171). "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 125), Qafqazın 5 verstlik xəritəsində (348, s. 285) qeyd edilmişdir. Toponim "çiraq" (şirak, sirak) etnoniminə (235, s. 23–24, 38, 48–56; 287, s. 336–337, 350–351) "-lı" mənsubluq bildirən şəkilçinin artırılması ilə əmələ gəlib, "çiraq (şirak-sirak) tayfasına mənsub yaşayış yeri, kənd" deməkdir. Qızılbaş tayfalarından birinin adı da "çıraqlılar"dır (ASE, X c., B., 1987, s. 364). Erm. SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Crarat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 171).

Coğrafi koordinatları: 40°50′ şm. e., 43°55′ ş. u.

**Çırçır** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Sevan rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 35 km şimal-qərbdə, Göyçə gölünün sahilində, Zəngi çayının yanında, dəniz səviyyəsindən 1915 m hündürlükdə yerləşir. Keçmiş Sevan rayonu təşkil edilənədək, yəni 31 dekabr 1931-ci ilə kimi keçmiş Axta (Hrazdan) rayonunun tərkibində olmuşdur. Kəndin digər adı Sutökülən olmuşdur (143, s. 18). Erməni müəlliflərinin əsərlərində (419, s. 121), Qafqazın 5 verstlik xəritəsində (348, s. 285) "Çirçir" formasında qeyd edilmişdir. Toponim Azərbaycan dilində "kiçik şəlalə" mənasını ifadə edən "şırşır"ın (253, s. 134) dialekt variantı olan "çırçır" (çirçir) sözü əsasında əmələ gəlmişdir. Azərbaycan dilinin dialekt və şivələrində, türk dillərində ş~ç səs əvəzlənməsi qanunauyğun haldır. Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Varser" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 191).

Coğrafi koordinatları: 40°33′ şm. e., 44°54′ ş. u.

**Çırpılı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 32 km cənub-qərbdə, dəniz səviyyəsindən 1500 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində "Çirpili" kimi qeyd edilmişdir (348, s. 285). Toponim "quru budaq, kol qırıntısı" mənasında işlənən "çırpı" sözünə (12, s. 441) mənsubluq bildirən "-lı" şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 fevral 1947-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Crapi", sonra "Nerkin Crapi" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 171–172).

Coğrafi koordinatları: 40°33′ şm. e., 43°40′ ş. u.

**Çilovxanlı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vi-

layət mərkəzi Gümrü şəhərindən 12 km cənubda, İrəvan–Gümrü yolunun yanında, Gümrü şəhərindən 6,5 km qərbdə, dəniz səviyyəsindən 1540 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi Türkiyəyə köç etmişdir. Kəndin başqa adı mənbələrdə "Çilovxan, Çlovxanlı, Çlovxan, Celoxan" kimi də göstərilir (427, s. 654). Toponim muğanlı tayfasından olan çilovxanlı nəsil adı əsasında (286, s. 72) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Beniamin" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 45).

Coğrafi koordinatları: 40°41′ şm. e., 43°51′ ş. u.

**Çimənkənd** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 26 km cənub-şərqdə, dəniz səviyyəsindən 1075 m hündürlükdə yerləşir. Əvvəllər mövcud olmuş Qarabağlar rayonunun mərkəzi idi. 1948–1949-cu illərdə Qarabağlar rayonunun ləğvi ilə əlaqədar keçmiş Vedi rayonunun tabeliyinə verilmişdir. Qafqazın 5 verstlik xəritəsində "Cmankend" formasında qeyd edilmişdir (348, s. 286). Kənddə 1873-cü ildə 756, 1886-cı ildə 924, 1897-ci ildə 1260, 1904-cü ildə 1725, 1914-cü ildə 1879 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qırılmış və sağ qalanlar zorla qovulmuşdur. 1920-ci ildən sonra Türkiyədən köçürülüb gətirilən ermənilər bu kənddə yerləşdirilmişdir. Sağ qalan azərbaycanlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz kəndlərinə qayıda bilmişdir. Burada 1922-ci ildə 880 azərbaycanlı, 210 erməni, 1926-cı ildə 690 azərbaycanlı, 141 erməni, 1931-ci ildə 663 nəfər azərbaycanlı, 178 erməni yaşamışdır (415, s. 86–87, 156–157). Sonrakı illərdə kəndin əhalisi ümumi şəkildə (ermənilərlə azərbaycanlılar birlikdə göstərilmişdir) qeyd edilmişdir. 1972-ci ildə burada 1917 nəfər əhali olmuşdur. Onun 90%-i azərbaycanlılar idi. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən deportasiya edilmişdir. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim "çəmənlik", "otluq" mənası bildirən "çimən" ("çəmən" dialektlərimizdə "çimən" formasında işlənir) sözü ilə "yaşayış məntəqəsi" mənasında işlənən "kənd" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Urcadzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 200–201).

Coğrafi koordinatları: 39°54′ şm. e., 44°49′ ş. u.

**Çinarlı** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 78 km şərqdə, dəniz səviyyəsindən 750 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Burada ermənilərlə yanaşı, 1926-cı ildə 4 nəfər azərbaycanlı yaşamışdır (415, s. 74–75). Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "çinar" ağac adına "-lı" şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Erməni müəlliflərinin əsərlərində "Çinari" formasında qeyd edilir (415, s. 74; 266, s. 225). Hazırda erməni dilində rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Çinari" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 164).

Coğrafi koordinatları: 40°50′ şm. e., 45°34′ ş. u.

**Çinçin** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 48 km şimal-şərqdə, dəniz səviyyəsindən 1290 m hün-

dürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. Toponim türk dilində "dik dağ yarğanı", "əlçatmaz, sıldırım dağ" mənasında işlənən "çin" (çın) sözü (337, s. 239) əsasında əmələ gəlmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 164).

Coğrafi koordinatları: 40°54′ şm. e., 45°21′ ş. u.

**Çivə** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 20 km qərbdə, Arpaçayın sağ qolu olan Yelpin çayının hər iki sahilində, dəniz səviyyəsindən 1250 m hündürlükdə yerləşir. "İrəvan



*Çivə kəndi*

əyalətinin icmal dəftəri"ndə (143, s. 57), Qafqazın 5 verstlik xəritəsində (348, s. 284) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 29, 1873-cü ildə 294, 1886-cı ildə 431, 1897-ci ildə 689, 1904-cü ildə 562, 1914-cü ildə 612, 1916-cı ildə 758, 1919-cu ildə 1200 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 162–163). 1919-cu ilin axırlarında kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış, əhalisi – azərbaycanlılar deportasiya olunmuşdur. Kənd sakinlərindən sağ qalanlar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra ata-baba yurdlarına dönə bilmişlər. Burada 1922-ci ildə 391 azərbaycanlı, 1926-cı ildə 367 azərbaycanlı, 94 erməni, 1931-ci ildə 367 nəfər azərbaycanlı, 221 erməni yaşamışdır (415, s. 92–93, 162–163). Ermənilər burada kütləvi şəkildə 1926-cı ildən məskunlaşıblar. SSRİ hökumətinin qərarı ilə 1948–1950-ci illərdə bu kəndin əhalisi də zorla Azərbaycana köçürülmüşdür. 1953-cü ildən sonra onların bir hissəsi yenidən kəndə qayıtsa da, 1988-ci ilin noyabr ayında kənddə yaşayan azərbaycanlılar Ermənistan dövləti tərəfindən deportasiya edilmişdir (211, s. 203). Hazırda burada yalnız ermənilər yaşayır. Toponim yivə türk tayfa adının (399, I, s. 56) fonetik forması olan "çivə" etnonimi əsasında yaranmışdır. Türk dillərində y~ç paralelləri geniş şəkildə özünü göstərir (70, s. 529; 87, s. 170). "Yarğan", "hündür qaya", "dik sahil" mənalarında işlənən "yar", "çar" sözlərindəki (339, s. 607, 650) y~ç səsəvəzlənməsi buna aydın misaldır. Hazırda erməni dilində rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Çiva" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 164).

Coğrafi koordinatları: 39°46′ şm. e., 45°08′ ş. u.

**Çivinli** – Qars vilayətinin Qars qəzasında, keçmiş Amasiya (Ağbaba) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 37 km məsafədə, Türkiyə ilə Gürcüstanın sərhədində, dəniz səviyyəsindən 2125 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 284). Kənddə azərbaycanlıların etnoqrafik qruplarından olan qarapapaqlar yaşamışdır (415, s. 20). Tarixi ədəbiyyatda bu kəndin adı Gülüseyran kimi də keçir. Burada 1905-ci ildə 270, 1914-cü ildə 350 nəfər azərbaycanlı yaşamışdır (415, s. 104–105). Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevralında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdıl-

mış, əhalisi Qars vilayətinin kəndlərinə köç etmişdir. 1921-ci il Qars müqaviləsindən sonra kəndin əhalisinin bir qismi kəndə qayıtmışdır. 1922-ci ildə kənddə 234, 1926-cı ildə 294, 1931-ci ildə 324 (415, s. 20–21, 104–105), 1939-cu ildə 349, 1959-cu ildə 301, 1970-ci ildə 522, 1979-cu ildə 566 (416, s. 72–73), 1987-ci ildə 534 nəfər azərbaycanlı yaşamışdır. 1989-cu ilin qışında azərbaycanlılar Ermənistan hökuməti tərəfindən qovulmuşdur. İndi kənddə ermənilər yaşayır. Yaşayış məntəqəsinin adı kəngərli tayfasının bir qolunu təşkil edən cinli (qədim forması "cen"dir) türk etnonimi əsasında (286, s. 62–63) formalaşmışdır. Görünür, "cinli" etnoniminə "v" səs birləşməsi sonradan əlavə edilərək "çivinli" formasına düşmüşdür. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Yeğnacur" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 72–73).

Coğrafi koordinatları: 41°05' şm. e., 43°33' ş. u.

**Çiydəməl (Çikdamal)** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 20 km şimal-qərbdə, Pəmbək çayının yanında, Çubuxlu dağının ətəyində, dəniz səviyyəsindən 1930 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi keçmiş Quqark rayonunun tərkibində olmuşdur. 31 dekabr 1937-ci ildə yaradılan keçmiş Hamamlı (Spitak) rayonunun inzibati ərazi bölgüsünə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 284). Kənddə e.ə. I minilliyə dair qala divarlarının qalıqları vardır. Ermənilər buraya 1828–1829-cu illərdə İranın Maku vilayətindən köçürülmüşdür (427, s. 424). Burada 1897-ci ildə ermənilərdən başqa, 7 nəfər azərbaycanlı yaşamışdır. Onlar XX əsrin əvvəllərində sıxışdırılaraq kənddən çıxarılmışdır. Hazırda tamamilə ermənilər yaşayır. Toponim türk dilində "sərhəd, mərz" mənasında işlənən "çik" sözü ilə (339, s. 615) Azərbaycan dilində "ev, bina, tikili", "bir, ya iki tərəfi açıq, üstüörtülü yer, tikili", "pəyə, dəyə, qazma" mənasında işlənən "dam" sözünün (10, s. 26; 339, s. 170–171) birləşməsindən əmələ gəlmişdir. Toponimin sonundakı "al" topoformantdır. "Çik" sözü türk dilində "dar dərə" mənasında da işlənir (359, III (2), s. 2111). "Sərhəddə yerləşən ev, yaşayış məntəqəsi, kənd" mənasını bildirir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Arevaşoq" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 32).

Coğrafi koordinatları: 40°51′ şm. e., 44°16' ş. u.

**Çiydəmli (Ciğdamlı)** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 3 km şimal-qərbdə, dəniz səviyyəsindən 830 m hündürlükdə yerləşir. Kəndin başqa adı "Cilçay"dır (143, s. 99). Erməni müəlliflərinin əsərlərində kəndin adı "Çidəmli (415, s. 50), Cidamlı, Cifdamlı" (427, s. 41) formalarında da göstərilir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Ciğdəmli" (143, s. 99), Qafqazın 5 verstlik xəritəsində "Ciğdamlı" formasında (348, s. 284) qeyd edilmişdir. Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1828–1829-cu illərdə İranın Səlmas vilayətindən köçürülmüşdür (427, s. 41). Ermənilərlə yanaşı, kənddə 1831-ci ildə 166, 1873-cü ildə 155, 1886-cı ildə 161, 1897-ci ildə 135 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. Hazırda orada ermənilər yaşayır. Toponim qədim türk dilində "həsir toxunmasında istifadə olunan parlaq, gözəl çay bitkisi" mənasında işlənən "cıq" sözü ilə (299, s. 147) mənsubluq bildirən "-lı" şəkilçisinin qoşulduğu "ev, bina, tikili" mənasında işlənən "dam" sözünün (10, s. 26;

339, s. 170–171) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 20 avqust 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Azatavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 8).

Coğrafi koordinatları: 39°59′ şm. e., 44°30′ ş. u.

**Çobanlı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 15 km şimal-şərqdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə 1831-ci ildə 16, 1873-cü ildə 195, 1886-cı ildə 96, 1897-ci ildə 152, 1904-cü ildə 130, 1914-cü ildə 156 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur (309, s. 205). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk edənlər öz evlərinə qayıda bilmişdir. Burada 1926-cı ildə 42, 1931-ci ildə 49 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137). Kənd sonradan Qafan rayonunun Norşenik kəndinə birləşdirilmişdir. 1988-ci ildə kənddə 18 azərbaycanlı ailəsi yaşayırdı. 1988-ci il noyabrın axırlarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən deportasiya olunmuşlar (244 a, s. 96). Toponim oğuzların "çapanlu" (çobanlı – müəll.) etnonimi (238, s. 186) əsasında əmələ gəlmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 8).

Coğrafi koordinatları: 39°16′ şm. e., 46°22′ ş. u.

**Çobanmaz** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Araqats (Alagöz) rayonunda kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 49 km şimalda, Hədis dağının ətəyində, Göykilsə (Kaputan) kəndinin yaxınlığında, dəniz səviyyəsindən 2150 m hündürlükdə yerləşir. 15 mart 1972-ci ilə kimi, keçmiş Araqats (Alagöz) rayonu təşkil edilənə qədər keçmiş Abaran rayonunun inzibati-ərazi bölgüsünə daxil olmuşdur. Erməni müəlliflərinin əsərlərində kəndin adı "Çobangörməz, Çobangörükməz, Çobangərəkməz" formalarında da qeyd edilmişdir (415, s. 5). Qafqazın 5 verstlik xəritəsində "Çobangərəkməz" formasında əksini tapmışdır (348, s. 286). Kənddə 1873-cü ildə 24, 1886-cı ildə 36, 1897-ci ildə 77, 1905-ci ildə 88, 1914-cü ildə 97, 1916-cı ildə 96 nəfər azərbaycanlı yaşamışdır (415, s. 45, 96–97). 1850-ci ildə Qarsdan ermənilər, 1877–1878-ci il rus-türk müharibəsi zamanı Türkiyədən kürdlər köçürülərək bu kənddə yerləşdirilmişdir (427, s. 367). 1918-ci ilin yazında azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim "çoban" türk etnoniminə (ASE, X c., B., 1987, s. 369; 286, s. 41) "təpə" mənasında işlənən "mar" sözünün (237, s. 473) fonetik variantı olan "maz"ın qoşulması nəticəsində əmələ gəlmişdir. Türk dillərində, o cümlədən Azərbaycan dilində söz sonunda r~z səsəvəzlənməsi (gör~göz, yor (maq)~yoz (maq) qanunauyğun haldır (2, s. 234–248; 70, s. 116–122). Deyilənlərdən bir daha bu qənaətə gəlirik ki, "mar" və "maz" eyni mənalı sözlərdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Avşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 26).

Coğrafi koordinatları: 40°43′ şm. e., 44°17′ ş. u.

**Çorlu** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayətində kənd. Kəndin adı "Çırpılı", "Bostançı xaraba" formalarında da qeyd edilir (415, s. 20). Vilayət mərkəzi Gümrü şəhərindən 25 km şimalda, dəniz səviyyəsindən 1980 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi Ağbaba



*Çorlu kəndi*

rayonunun tabeliyində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 287). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi Türkiyəyə köç etmişdir. Toponim türk mənşəli "çor" etnoniminə (287, s. 106–107) mənsubluq bildirən "-lu" şəkilçisinin qoşulması əsasında əmələ gəlmişdir. "Çor tayfasının kəndi, yaşayış yeri" mənasını bildirir. Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lernatsk", 21 oktyabr 1967-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Lernagyuğ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 87).

Coğrafi koordinatları: 40°57′ şm. e., 43°55′ ş. u.

**Çotur** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 24 km şimal-qərbdə, dəniz səviyyəsindən 1770 m hündürlükdə yerləşir. Keçmiş Hamamlı (Spitak) rayonu təşkil edilənə kimi (1937) keçmiş Quqark (Qarakilsə) rayonunun tərkibində olmuşdur. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Ermənilər kəndə 1828–1829-cu illərdə Türkiyənin Xnıs (Hnıs) və Muş vilayətlərindən köçürülmüşdür (416, s. 176). Toponim türk dilində "uc, kənar" mənasında işlənən "çotur" sözü (359, III (2), s. 20–25) əsasında formalaşmışdır. Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Sarameç" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 176).

Coğrafi koordinatları: 40°46′ şm. e., 44°13′ ş. u.

**Çubuxlu** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Sevan rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 46 km şimal-qərbdə, Göyçə gölünün yanında, İrəvan-Dilican yolunun üstündə, dəniz səviyyəsindən 2000 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 53), Qafqazın 5 verstlik xəritəsində (348, s. 288) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. Toponim çubuqlu türk etnonimi (193, s. 160) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Tsovagyuğ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 102–103).

Coğrafi koordinatları: 40°37′ şm. e., 44°57′ ş. u.

**Çubuxlu** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Cəlaloğlu (Stepanavan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 27 km cənub-qərbdə, dəniz səviyyəsindən 1050 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 288). Kənddə tarixən azərbaycanlılar yaşamışdır. Yerləşdiyi ərazi Rusiya tərəfindən işğal edildikdən sonra buraya XIX əsrin əvvəllərində ruslar köçürülmüşdür. Toponim çubuqlu türk etnonimi (193, s. 160) əsa-

sında əmələ gəlmişdir. Faruk Sümər "Çubukun qəti olaraq türkmən olduqların"ı qeyd edir (238, s. 148). Çubuqlu türk tayfasıdır və indi Ermənistan adlanan ərazidə bu tayfa yaşamışdır. Tayfa öz izini indi Ermənistan adlanan ərazinin bir çox toponimlərində qoruyub saxlamışdır. Etnotoponimdir. Kəndə ruslar köçürüləndən sonra (1830–1840-cı illərdə), 1840-cı ildə adı dəyişdirilərək "Pakrovka" qoyulmuşdur. Erm SSR AS RH-nin 4 may 1939-cu il tarixli qərarı ilə kəndin adı yenidən dəyişdirilərək bolşevik V. Kuybışevin şərəfinə "Kuybışev", Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə təkrar dəyişdirilərək "Hağartsin" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 116).

Coğrafi koordinatları: 41°00′ şm. e., 44°17′ ş. u.

**Çubuxçu** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 18 km cənub-şərqdə, Araz çayının yaxınlığında, Böyük Qarasu çayının yanında, dəniz səviyyəsindən 840 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 288). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Ermənilər kəndə 1918–1920-ci illərdə Türkiyənin Sürməli vilayətinin kəndlərindən köçürülmüşdür (416, s. 189). Toponim "çubuxlu" türk etnoniminin (193, s. 160) fonetik forması olan "çubuxçu" tayfa adı əsasında əmələ gəlmişdir. "-lı" şəkilçisi ilə "-çı" şəkilçisi sinonim şəkilçilərdir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vardanaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 189).

Coğrafi koordinatları: 40°03′ şm. e., 44°11′ ş. u.

# D

**Daharlı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 9 km cənub-qərbdə, dəniz səviyyəsindən 1460 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi Türkiyəyə köç etmişdir. 1937-ci ilə kimi keçmiş Leninakan rayonunun tərkibində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348, s. 73) qeyd edilmişdir (348, s. 73). Toponim qaraqoyunlu türk tayfasının bir qolu olan "duharlı" etnonimi (238, s. 158) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Qetk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 59).

Coğrafi koordinatları: 40°44′ şm. e., 43°47′ ş. u.

**Damcılı** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 27 km şimal-şərqdə, Abaran çayının sağ sahilində, Alagöz dağının ətəyində, dəniz səviyyəsindən 2000 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 110) qeyd edilmişdir. XIX əsr rus mənbələrində kəndin adı Tamceli/Damcalu formasında qeyd olunmuşdur (Сборник сведений о Кавказе, т. V, Тифлис, 1879, №329). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. Ermənilər bu kəndə İrandan 1828-ci ildən sonra köçürülmüşdür (386, s. 587–590). Toponim "az sulu bulaq", "quyu tipli kiçik bir mənbənin müəyyən vaxtda verdiyi su" mənasında işlənən "damcı" sözünə (339, s. 171, 543) "-lı" şəkilçisinin qoşulması ilə əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar

1935-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Mravyan" qoyulmuşdur. Hazırda kənd "Yeğipatruş" adlandırılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 72).

Coğrafi koordinatları: 40°32' şm. e., 44°28' ş. u.

**Danagirməz** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Abaran rayonunda, Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 39 km şimal-qərbdə, Alagöz dağının ətəyində, dəniz səviyyəsindən 2025 m hündürlükdə yerləşir. Kəndin digər adı Damagirməz, Danadamagirməz olmuşdur (415, s. 4). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 74). Türkiyənin Ərzurum, Muş vilayətlərindən və İrandan ermənilər köçürülüb kənddə yerləşdirilmişdir (381, s. 587–590; 416, s. 146). Burada ermənilərlə yanaşı, 1905-ci ildə 387, 1914-cü ildə 474 nəfər azərbaycanlı yaşamışdır (415, s. 96–97). Kənddə yaşayan azərbaycanlılar 1918-ci ildə erməni təcavüzünə məruz qalaraq qırğınlarla deportasiya olunmuşdur. Hazırda burada ermənilər yaşayır. Toponim "dana" heyvan adı ilə feilin qeyri-qəti gələcək zamanında işlənən "girməz" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 15 iyul 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Hovit", 21 oktyabr 1967-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Niqavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 146).

Coğrafi koordinatları: 40°37' şm. e., 44°17' ş. u.

**Darğalı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 6,5 km şərqdə, Gərni çayından axan arxın yanında, Araz çayının yaxınlığında, Yuva kəndinin kənarında, dəniz səviyyəsindən 870 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 100), Qafqazın 5 verstlik xəritəsində (348, s. 75) qeyd edilmişdir. Burada tarixən, 1828-ci ilə kimi azərbaycanlılar yaşamışdır. Kəndə ermənilər 1828–1830-cu illərdə İranın Xoy və Səlmas vilayətlərindən köçürülmüşdür (427, s. 226). Erməni ədəbiyyatında kəndin 1831-ci ildə salındığı göstərilir (416, s. 17). Erməni tədqiqatçıları tarixi həqiqəti saxtalaşdırmışlar. Çünki 1728-ci il tarixində tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə Mustafanın adına olan timarda Gərni nahiyəsinə tabe olan Darğalı kəndinin adı qeyd edilmişdir. Darğalı kəndinin gəliri 6000 ağça təşkil etmişdir (143, s. 100). Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 125, 1873-cü ildə 22, 1886-cı ildə 36, 1897-ci ildə 11 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). 1918-ci ildə azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. Hazırda orada ermənilər yaşayır. Toponim qədim türk dillərində "şəhər, qəza, mahal, vilayət hakimi" mənasında işlənən "darğa" sözünə (10, s. 36) Azərbaycan dilində mənsubluq bildirən "-lı" şəkilçisinin artırılması əsasında əmələ gəlib, "şəhər, qəza, mahal, vilayət hakiminə mənsub kənd" mənasını bildirir. "Aşağı" fərqləndirici əlamət bildirir. Erm. SSR AS RH-nin 1 dekabr 1949-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Anastasavan", 30 dekabr 1957-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Aygezard" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 17).

Coğrafi koordinatları: 39°56' şm. e., 44°36' ş. u.

**Daşkənd** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 80 km cənub-şərqdə, dəniz səviyyəsindən 2155 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 120), Qafqazın 5 verstlik xəritəsində (348, s. 76) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 357, 1873-cü ildə 560, 1886-cı ildə 816, 1897-ci ildə 1004, 1908-ci ildə 816, 1914-cü ildə 1389, 1916-cı ildə 1054 nəfər yalnız azərbay-

canlı yaşamışdır (415, s. 26–27, 110–111). 1919-cu il yanvarın 20–23-də azərbaycanlılara qarşı erməni silahlı birləşmələri qırğınlar törətmişlər (309, s. 249). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə dönə bilmişlər. 1922-ci ildə burada 882, 1926-cı ildə 984, 1931-ci ildə 1230 (415, s. 26–27, 110–111), 1987-ci ildə 2100 nəfər (85, s. 284–285) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci il



*Daşkənd*

noyabr ayının axırlarında azərbaycanlılar yenidən Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşlar. Hazırda orada yalnız ermənilər yaşayır. Kənddə VI–VII əsrlərə aid oğuz qəbiristanlığı, IX–XII əsrlərə aid alban kilsəsinin xarabalığı vardır. Toponim qədim türk dilində "xarici, kənar" (299, s. 539), "uzaq" (359, III (2), s. 1642) mənasında işlənən "daş" və "kənd" sözlərinin birləşməsindən əmələ gəlib, "uzaqda, kənarda yerləşən kənd" mənasını verir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Ayrk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 20).

Coğrafi koordinatları: 40°07′ şm. e., 45°47′ ş. u.

**Daşkörpü** – Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, keçmiş Amasiya rayonunda, indi Şirak vilayətində kənd. Rayon mərkəzindən 2 km məsafədə, vilayət mərkəzi Gümrü şəhərindən 25 km şimal-qərbdə, dəniz səviyyəsindən 2100 m yüksəklikdə yerləşir. Kənddə ancaq azərbaycanlılar yaşamışlar. 1886-cı ildə kənddə 246, 1908-ci ildə 396, 1914-cü ildə 431 nəfər azərbaycanlı yaşamışdır. Coğrafi ərazi 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevral ayında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhali Qars vilayətinin kəndlərinə köç etmişdir. 1921-ci ildə imzalanan Qars müqaviləsi ilə kənd Ağbaba nahiyəsinin tərkibində sovet Ermənistanına daxil edilmişdir. Bundan sonra əhalinin bir qismi kəndə qayıtmışdır. Burada 1922-ci ildə 220, 1931-ci ildə 303 nəfər azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, Daşkörpünün əhalisi 1950-ci ildə Gümrüdə (keçmiş Leninakan) yük vaqonlarına doldurularaq Azərbaycana deportasiya edilmişdir. 1953-cü ildə İ.Stalinin vəfatından sonra əhalinin bir qismi kəndə qayıda bilmişdir. 1988-ci ildə burada 125 ailədə 680 nəfər azərbaycanlı yaşayırdı ki, onlar da 1988-ci il soyqırımı zamanı doğma yurdlarından qovulub çıxarıldılar. Toponim kəndin ərazisində daşdan salınan körpüyə əsasən formalaşmışdır. Hazırda Daşkörpü kəndi Amasiya kənd icmasına birləşdirilmişdir.

Coğrafi koordinatları: 40°56′ şm. e., 43°46′ ş. u.

**Daşqala** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 32 km məsafədə, dəniz səviyyəsindən 1900 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. Toponim Azərbaycan dilində "qaya, dağ" mənasında işlənən "daş" sözü ilə (278, s. 59–60; 339, s. 173) "möhkəm müdafiə tikilisi, istehkam" mənasında işlənən "qala" sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Erm. SSR AS RH-nin 3 fevral 1947-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Karaberd" qo-

yulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 206).

Coğrafi koordinatları: 40°54' şm. e., 43°82' ş. u.

**Daşlı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 19 km cənub-şərqdə, Vedi çayının yanında, dəniz səviyyəsindən 970 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s.100), Qafqazın 5 verstlik xəritəsində (348, s. 239) qeyd edilmişdir. "İrəvan əyalətinin icmal dəftəri"ndə kəndin adı Gərni (Karni) və Vedi nahiyələrinə daxil olan yaşayış məntəqələrinin siyahısında əksini tapır (143,



*Daşlı kəndi*

s. 98–100). Daşlı kəndində 1831-ci ildə 84, 1873-cü ildə 147, 1886-cı ildə 135, 1897-ci ildə 184, 1904-cü ildə 238, 1914-cü ildə 261, 1916-cı ildə 171 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 84–85, 154–155). 1918-ci ildə erməni silahlı birləşmələri tərəfindən azərbaycanlılar qovulmuş və xaricdən ermənilər köçürülərək burada yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənddən qovulmuş azərbaycanlıların bir qismi öz doğma ocaqlarına dönə bilmişlər. Burada ermənilərlə yanaşı, 1922-ci ildə 93, 1926-cı ildə 95, 1931-ci ildə 117 nəfər azərbaycanlı yaşamışdır (415, s. 85, 153). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya edilərək Azərbaycana köçürülmüşdür. İndi orada yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində işlənən "daş" sözünə çoxluq mənası ifadə edən "-lı" şəkilçisinin qoşulması əsasında yaranıb. Erm. SSR AS RH-nin 3 iyul 1968-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Daştakar" qoyulub. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 65).

Coğrafi koordinatları: 39°55' şm. e., 44°45' ş. u.

**Daylaxlı** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonu ərazisində, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 22 km cənub-şərqdə, dəniz səviyyəsindən 1630 m hündürlükdə yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Daylaqan" (143, s. 59), Qafqazın 5 verstlik xəritəsində "Daylaxlı" kimi (348, s. 73) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 87, 1886-cı ildə 184, 1897-ci ildə 60, 1904-cü ildə 218, 1914-cü ildə 240, 1916-cı ildə 209 nəfər azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158–159). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuş və kəndə ermənilər yerləşdirilmişdir. Yalnız 1926-cı ildə burada 6 nəfər azərbaycanlı yaşamış (415, s. 88–89), onlar da 1928–1929-cu illərdə sıxışdırılıb kənddən çıxarılmışdır. Toponim daylaxlı tayfa adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 may 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Arin" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 34).

Coğrafi koordinatları: 39°43' şm. e., 45°29' ş. u.

**Dədəqışlaq** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayo-

nunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 20 km şimal-qərbdə, Misxana çayının sahilində, dəniz səviyyəsindən 1850 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 73) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 23, 1873-cü ildə 196, 1886-cı ildə 278, 1897-ci ildə 341, 1908-ci ildə 428, 1914-cü ildə 541, 1916-cı ildə 442 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 16–17, 100–101). 1918-ci ildə azərbaycanlılar qırğınlarla erməni silahlı birləşmələri tərəfindən qovulmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndin sakinlərindən sağ qalanlar öz doğma evlərinə qayıda bilmişlər. 1922-ci ildə kənddə 186, 1926-cı ildə 237, 1931-ci 305 (415, s. 17, 101), 1939-cu ildə 401, 1959-cu ildə 455, 1970-ci ildə 814, 1979-cu ildə 925 nəfər (427, s. 124) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının axırlarında kəndin sakinləri – azərbaycanlılar Ermənistan dövləti tərəfindən zorla və qırğınlarla qovulmuşdur. İndi kənddə yalnız ermənilər yaşayır. Toponim təkə türk tayfasının bir tirəsi olan "dədə" etnonimi ilə (271, s. 65) "qışlaq" sözünün birləşməsindən əmələ gəlib, "dədə tayfasına məxsus qışlaq" deməkdir. Etnotoponimdir. Kəndin bir adı da Qayqocalı olmuşdur. Toponim "Qayqoca" şəxs adına mənsubluq bildirən "-lı" şəkilçisinin qoşulması əsasında əmələ gəlib, "Qayqocaya məxsus ərazi, yaşayış məntəqəsi" deməkdir. Qayqoca sözünün birinci tərəfi türklərdən bir bölük olan "qayı" etnonimindən (399, s. 158; 238, s. 228) və "Qoca" şəxs adının birləşməsindən ibarətdir. Qayqocalı toponimi bilavasitə "Kitabi-Dədə Qorqud" dastanı ilə bağlı yaranmışdır. Erm. SSR AS RH-nin 4 may 1939-cu il tarixli qərarı ilə Dədəqışlaq kəndinin adı dəyişdirilərək "Axundov", Ermənistan parlamentinin 4 may 2006-cı il tarixli qərarı ilə təkrar dəyişdirilərək "Pyunik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 202).

Coğrafi koordinatları: 40°36′ şm. e., 44°35′ ş. u.

**Dədəli** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 49 km şimal-şərqdə, Alagöz dağının qərb ətəyində, dəniz səviyyəsindən 1900 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1828-ci ildən sonra Türkiyədən köçürülüb yerləşdirilmişdir (386, s. 575–578). Toponim təkə türk tayfasının bir tirəsi olan "dədə" etnoniminə (271, s. 65) mənsubluq bildirən "-li" şəkilçisinin qoşulması əsasında əmələ gəlib. "Dədə tayfasının yaşadığı kənd" mənasını ifadə edir. Cavanşir tayfasının bir qolu da dədəli adlanırdı (119, s. 439). Bu tayfa Arasbar sancağında, Xan arxı kənarında qışlayıb, İrəvan əyalətinin sərhədində yaylayırdı (119, s. 439). Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Yexnik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 73).

Coğrafi koordinatları: 40°24′ şm. e., 43°56′ ş. u.

**Dəlikdaş** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 29 km cənub-şərqdə, Dəlikdaş çayının yanında, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 1960 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 56), Qafqazın 5 verstlik xəritəsində (348, s. 74) qeyd edilmişdir. Erməni ədəbiyyatında kəndin 1828-ci ildə salındığı göstərilir (416, s. 99). Əslində, erməni tədqiqatçıları tarixi həqiqəti saxtalaşdırmışlar. Çünki 1728-ci il tarixində tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə Göyçə nahiyəsinin kəndlərindən birinin – Dəlikdaş kəndinin olduğu qeyd edilir (143, s. 56). İrəvan xanlığının Rusiya qoşunları tərəfindən işğalından sonra ermənilər Türkiyənin Muş və Ələşkirt bölgələrindən gələrək kənddə yerləşmişlər. Toponim "dərin, dar çuxur" (10, s. 62, 53), "mağara" (278, s. 61)

mənalarında işlənən "dəlik" sözü ilə Azərbaycan dilində "dağ, qaya" mənasında işlənən "daş" sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Kəndin adı hərfi tərcümə edilərək 1920-ci ildə "Tsaxkar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 98–99).

Coğrafi koordinatları: 40°10' şm. e., 45°11' ş. u.

**Dəliqardaş** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 6 km cənubda, Kəvər çayının yanında, dəniz səviyyəsindən 1990 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 55), Qafqazın 5 verstlik xəritəsində (348, s. 74) qeyd edilmişdir. 1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. 1828–1830-cu və 1877–1878-ci illərdə Türkiyənin Bəyazid vilayətindən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir (386, s. 595–598; 416, s. 178). 1897-ci ildə kənddə ermənilərlə yanaşı, 15 nəfər azərbaycanlı yaşamışdır (415, s. 70–71). 1905–1906-cı illərdə kənddə yaşayan azərbaycanlılar tamamilə qovulmuşdur. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim qədim türk tayfalarından biri olan tele (dəli) etnoniminə (180, s. 21, 25) "qardaş" sözünün artırılması yolu ilə əmələ gəlmişdir. Kəndin adı 1920-ci ildə dəyişdirilərək "Saruxan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 178).

Coğrafi koordinatları: 40°17' şm. e., 45°08' ş. u.

**Dəlləkli** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 55 km cənub-şərqdə, dəniz səviyyəsindən 2100 m hündürlükdə yerləşir. Kənddə 1873-cü ildə 201, 1886-cı ildə 317, 1897-ci ildə 374, 1904-cü ildə 396, 1914-cü ildə 445, 1916-cı ildə 466 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 44–45, 124–125). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq deportasiya olunmuş və kəndə xaricdən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar öz yurdlarına qayıda bilmişdir. Burada ermənilərdən başqa, 1922-ci ildə 24, 1926-cı ildə 33, 1931-ci ildə 40 nəfər azərbaycanlı yaşamışdır (45, s. 44–45, 124–125). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında qərarından sonra – 1948–1950-ci illərdə azərbaycanlılar zorla tarixi-etnik torpaqlarından deportasiya edilərək Azərbaycana köçürülmüşdür. Toponim mərzili tayfasının bir qolunu təşkil edən "dəlləkli" nəsil adı əsasında (286, s. 74) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 21 iyun 1948-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Zovaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 28).

Coğrafi koordinatları: 40°18' şm. e., 44°44' ş. u.

**Dəmirçilər** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 4 km şimal-şərqdə, dəniz səviyyəsindən 1500 m hündürlükdə yerləşir. 1937-ci ilə qədər keçmiş Cəlaloğlu (Stepanavan) rayonunun tərkibində olmuşdur. Erməni müəlliflərinin əsərlərində "Demirçilar" kimi qeyd edilir (415, s. 78). Kənddə 1897-ci ildə 89, 1908-ci ildə 420, 1914-cü ildə 105 nəfər azərbaycanlı yaşamışdır (415, s. 78–79, 148–149). 1916–1918-ci illərdə kəndin sakinləri erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya edilmişlər. Sağ qalanlar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz kəndlərinə qayıda bilmişdir. Burada 1922-ci ildə 89, 1926-cı ildə 128, 1931-ci ildə 144 (415, s. 79–149), 1939-cu ildə 181, 1959-cu ildə 159,

1970-ci ildə 203, 1979-cu ildə 200 nəfər (416, s. 61) azərbaycanlı yaşamışdır. Kənd 1950-ci ilin axırlarında Evli heyvandarlıq sovxozuna birləşdirilmişdir. 1988-ci ildə azərbaycanlılar deportasiya olunmuşdur. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim şahsevən türk tayfasının bir qolunu təşkil edən dəmirçilər etnonimi (ASE, III c., s. 466; 245, s. 46) əsasında əmələ gəlmişdir. "Azərbaycanın coğrafi adları" kitabında dəmirçi tayfasının şahsevən qəbiləsinə mənsub nəsil olduğu göstərilir (254, s. 40). Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Qoqavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 61).

Coğrafi koordinatları: 41° şm. e., 44° ş. u.

**Dərbənd** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 32 km şimalda, dəniz səviyyəsindən 1990 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. Kənd 1937-ci ilə kimi keçmiş Leninakan rayonunun tabeliyində olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmişdir (143, s. 134). Toponim fars dilində "keçid, boğaz, sədd, sərhəd bölgələri, dağlar arasından çətinliklə keçilən yer" mənasında işlənən "dər" və "bənd" sözlərinin birləşməsindən (397, s. 162) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Karmrakar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 111).

Coğrafi koordinatları: 40°52′ şm. e., 43°53′ ş. u.

**Dərə** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 99 km şərqdə, dəniz səviyyəsindən 1980 m hündürlükdə yerləşir. Həmin ərazi vaxtilə Səməd ağaya mənsub olmuş və burada salınan kənd "Səmədağa Dərəsi" adlandırılmışdır. Sovet hakimiyyəti dövründə kəndin adındakı birinci komponent "Səmədağa" ixtisar edilmiş və kənd Dərə kəndi



*Dərə kəndi*

kimi rəsmi sənədlərdə sabitləşmişdir. 1918–1920-ci illər hadisəsi ilə bağlı Novo-Bəyazid qəzasına daxil olan Kəvər bölgəsindəki (sonralar Kamo rayonu) Ağzıbir, Hacı Muxan, Ağqala, Əyrivəng kəndlərinin aborigen sakinləri olan azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşlar. Qaçqın azərbaycanlılar Göyçə gölünü keçərək Basarkeçər rayonundakı Dərə kəndinə sığınmışlar. Kənddə 1939-cu ildə 235, 1959-cu ildə 320, 1970-ci ildə 364, 1979-cu ildə 411 nəfər azərbaycanlı əhali yaşamışdır (416, s. 66). 1988-ci ildə Ermənistan dövləti tərəfindən azərbaycanlılar tarixi-etnik torpaqlarından qovulmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim Azərbaycan dilində "iki dağ arasında, eləcə də düzənlikdə uzun dərin çuxur" mənasında işlənən "dərə" sözü (10, s. 74) əsasında yaranmışdır. Kənd dərədə yerləşdiyi üçün Dərə kəndi adlandırılmışdır. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Daranak" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 66).

Coğrafi koordinatları: 40°22′ şm. e., 45°34′ ş. u.

**Dərəbas** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 107 km şimal-qərbdə, dəniz səviyyəsindən 1500 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində "Dərəbaz" formasında qeyd edilmişdir (348, s. 74). Kənddə 1831-ci ildə 164, 1873-cü ildə 515, 1886-cı ildə 553, 1897-ci ildə 730, 1908-ci ildə 440 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). Ermənilər buraya 1828–1829-cu illərdə Türkiyədən köçürülərək yerləşdirilmişdir. 1918–1920-ci illərdə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qırğınlarla tarixi-etnik torpaqlarından qovulmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Toponim Azərbaycan dilində "iki dağ arasında çuxur" mənası bildirən "dərə" sözü ilə (10, s. 74) türk dillərində "dağın başı", "zirvə" mənasında işlənən "bas" sözünün (359, IV (2), s. 152) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 10 sentyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Darbas" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 66).

Coğrafi koordinatları: 39°26' şm. e., 46°07' ş. u.

**Dərəçiçək** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda, indi Kotayk vilayətində şəhər tipli qəsəbə. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 6 km şimal-qərbdə, dəniz səviyyəsindən 1710 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 53), Qafqazın 5 verstlik xəritəsində (348, s. 75) qeyd edilmişdir. Dərəçiçək İrəvan xanlarının yaylaq yerləri olmuşdur. Burada 1897-ci ildə rus və ermənilərlə yanaşı, 10 nəfər də azərbaycanlı yaşamışdır (415, s. 16–17). XX əsrin əvvəllərində azərbaycanlılar erməni silahlıları tərəfindən deportasiya olunmuş və burada yalnız



*Dərəçiçək qəsəbəsi*

ermənilər və ruslar yaşamağa başlamışdır. Sonralar ruslar da deportasiya olunmuşdur. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində "iki dağ arasında dərin çuxur" mənasında işlənən "dərə" sözü ilə Azərbaycan dilində "çiçəkləri olan bitki", "gül" mənasında işlənən "çiçək" sözünün (12, s. 438) birləşməsindən əmələ gəlmişdir. Yaşayış məntəqəsi güllü, çiçəkli, gözəl mənzərəli dərədə yerləşdiyi üçün Dərəçiçək adlandırılmışdır. Kəndin adı 1847-ci ildə dəyişdirilərək "Konstantinovka" adlandırılmışdır. 1920-ci illərdə yaşayış məntəqəsinin adı kalka edilərək "Tsaxqadzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 99).

Coğrafi koordinatları: 40°31' şm. e., 44°43' ş. u.

**Dərəkənd** – İrəvan quberniyasının Aleksandropol qəzasının Pəmbək bölgəsində, keçmiş Quqark (Qarakilsə) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 31 km şimal-şərqdə, Çaxçaxlı çayının sahilində, Çubuxlu dağının ətəyində, dəniz səviyyəsindən 1250 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmişdir (143, s. 135). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. Toponim "iki dağ və ya təpə arasında, düzənlikdə dərin çuxur" mənasında iş-

lənən "dərə" sözü ilə (278, s. 62; 10, s. 74) "kənd" coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir. Kənd dərədə yerləşdiyi üçün "Dərəkənd" adlandırılmışdır. Coğrafi ərazinin adı erməni dilinə kalka edilərək "Dzoragyuğ" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 126–127).

Coğrafi koordinatları: 40°57′ şm. e., 44°36′ ş. u.

**Dərəkənd** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunda, indi Şirak vilayəti ərazisində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 41 km cənub-qərbdə, Gümrü-Sərdarabad (Hoktemberyan) yolunun üstündə, dəniz səviyyəsindən 1460 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. Ermənilər buraya 1828–1829-cu illərdə Türkiyənin Ələşkirt, Bitlis və Muş vilayətlərindən köçürülmüşdür (427, s. 535). Toponim Azərbaycan dilində "iki dağ arasında dərin çuxur" mənasında işlənən "dərə" sözü ilə kənd coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Erm. SSR AS RH-nin 3 fevral 1947-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Baqravan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 40).

Coğrafi koordinatları: 40°28′ şm. e., 44°40′ ş. u.

**Dərəköy** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 49 km məsafədə, dəniz səviyyəsindən 2150 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, 1840-cı illərdən sonra ermənilər məskunlaşmışlar (415, s. 104). Toponim Azərbaycan dilində "iki dağ arasında dərin çuxur" mənasında işlənən "dərə" sözü ilə türk dilində "kənd" mənasında işlənən "köy" sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Saraqyuğ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 175).

Coğrafi koordinatları: 41°09′ şm. e., 43°53′ ş. u.

**Dəstəgird (Dəstəkert)** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 122 km şimal-qərbdə, Bərgüşad dağlarının ətəklərində, dəniz səviyyəsindən 1900 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 183) qeyd edilmişdir. Kəndin adı erməniləşdirilərək Dastakert formasında salınmışdır (419, s. 79; 416, s. 65). Ermənilər kənddə 1905–1906-cı illərdə qırğınlar törətmişlər. Burada 1908-ci ildə 555, 1914-cü ildə 400 nəfər azərbaycanlı yaşamışdır (415, s. 146–147). 1918-ci ildə erməni silahlı birləşmələri azərbaycanlıları qırğınlarla qovmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənd sakinləri öz



*Dəstəgird kəndi*

evlərinə qayıda bilmişdir. Burada 1922-ci ildə 358, 1926-cı ildə 338, 1931-ci ildə 434 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1950-ci illərdə mis-molibden kombinatının yaradılması ilə əlaqədar buraya ermənilər köçürülmüşdür. 1987-ci ildə burada 1700 nəfər əhali olmuşdur ki, bunun da 80%-ni azərbaycanlılar təşkil edirdi. 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya edilmişdir. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim qaraçorlu türk tayfasından olan bərgüşad tayfasına mənsub dəstəgird etnonimindən (286, s. 73) əmələ gəlmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 65).

Coğrafi koordinatları: 39°22′ şm. e., 46°02′ ş. u.

**Dəvəli** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 16 km cənub-şərqdə, Vedibasar çayından axan arxın yanında, dəniz səviyyəsindən 818 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 51), Qafqazın 5 verstlik xəritəsində (348, s. 72) qeyd edilmişdir. 1828-ci ilədək burada yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsinə əsasən, 1828–1829-cu illərdə İranın Maku və Səlmas mahallarından köçürülüb gətirilən ermənilər Dəvəlidə yerləşdirilmişdir (386, s. 555–558). Kənddə 1831-ci ildə 28 nəfər azərbaycanlı, 633 erməni, 1873-cü ildə 207 nəfər azərbaycanlı, 1760 erməni, 1886-cı ildə 263 nəfər azərbaycanlı, 1975 erməni, 1897-ci ildə 686 nəfər azərbaycanlı, 2650 erməni yaşamışdır (415, s. 86–87, 154–155). 1918–1919-cu illərdə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qırğınlarla tarixi-etnik torpaqlarından qovulmuşdur. 1922-ci ildə kənddə ermənilərlə yanaşı, 3 nəfər azərbaycanlı yaşamışdır (415, s. 154–155). Sonralar azərbaycanlılar kənddən çıxarılmış və burada yalnız ermənilər qalmışdır. Toponim qacarların bir boyu olan "dəvəli" etnonimi (394, s. 44–45) əsasında əmələ gəlmiş etnotoponimdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Ararat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 28).

Coğrafi koordinatları: 39°49′ şm. e., 44°42′ ş. u.

**Dəymədağlı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonu ərazisində, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 22 km şimalda, dəniz səviyyəsindən 1100 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. Toponim kəbirli türk tayfasına mənsub "dəymədağıldılar" etnonimi (286, s. 71) əsasında formalaşmışdır. 1920-ci ildə kəndin adı dəyişdirilərək "Şrvenants" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 160).

Coğrafi koordinatları: 39°17′ şm. e., 46°23′ ş. u.

**Dian** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 37 km şimal-qərbdə, Alagöz dağının cənub-qərb ətəyində, dəniz səviyyəsindən 1700 m hündürlükdə yerləşir. Kənddə 1831-ci ildə 32, 1873-cü ildə 216, 1886-cı ildə 242, 1897-ci ildə 304, 1904-cü ildə 272, 1914-cü ildə 290, 1916-cı ildə 380 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 34–35, 116–117). 1918-ci ildə erməni silahlı dəstələrinin törətdikləri qırğınlardan sonra kəndin sağ qalan azərbaycanlı əhalisi Türkiyəyə köç etmək məcburiyyətində qalmışdır (309, s. 221). Kəndə Türkiyənin Taron və Muş vilayətlərindən

köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir (85, s. 113). Hazırda burada yalnız ermənilər yaşayır. Dian toponimi "Diau" adlı sülalənin (402, s. 41, 51) adı əsasında yaranmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 68).

Coğrafi koordinatları: 40°21′ şm. e., 44°04′ ş. u.

**Dilican** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında kənd. İndiki Tavuş vilayətinin tabeliyində şəhər. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 36 km cənub-qərbdə, Ağstafa çayının sahilində, dəniz səviyyəsindən 1350 m hündürlükdə yerləşir. 1826-cı ildə Qazax mahalının 82 kəndindən biri olan Dilicanda 60 təsərrüfat olmuşdur (Erməni Sovet Ensiklopediyası, III c., İrəvan, 1977, s. 386). Dilican rayonu 1930-cu ildə ləğv edilərək şəhərə çevrilmişdir. 1958-ci ildən respublika tabeliyində şəhərdir. Yaşayış məntəqəsinin adı Dilican kimi sabitləşib rəsmiləşdirilmişdir. Bununla yanaşı, qaynaqlarda adı "Delican" (314, s. 64), "Yeni Delican", "Köhnə Delican" (Кавказский календарь, Тифлис, 1908, c. 30), "Delecan" (257, s. 26), "Delican dərəsi" (AKAK, т. V, Tiflis, 1873, c. 891), "Delican" (279, s. 389; 283, s. 49; 264, s. 347–348) formalarında da qeyd edilmişdir. XVII əsrin fransız səyyahı Jan Şardən indiki Ermənistan ərazisinə səyahət edərkən Dilican şəhərində də olmuşdur. O bu şəhərlə bağlı yazır: "Dilican şəhəri, onu altı lyölük əhatə edən bütün ərazi (şimaldan, cənubdan Dilicanı əhatə edən və şərqdən, qərbdən çox irəli çıxan ölkə) Qamçı xana aid olub Qazax ölkəsi adlanır. O da Gürcüstan kimi, Səfəvilərdən asılıdır, ona tabedir" (152, s. 20). Burada erməni və ruslarla yanaşı, 1886-cı ildə 54, 1897-ci ildə 119 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31, 114–115). 1918-ci ildə azərbaycanlılar ermənilərin təcavüzünə məruz qalmış və deportasiya olunmuşlar. Sağ qalan azərbaycanlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra evlərinə qayıda bilmişdir. Burada 1922-ci ildə 5, 1926-cı ildə 38, 1931-ci ildə 5 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31, 115). Sonrakı siyahıyaalmalarda azərbaycanlılar ayrıca göstərilməmişdir. 1988-ci ilə qədər burada azərbaycanlılar da yaşamışdır. 1988-ci ilin noyabr ayında onlar tamamilə deportasiya olunmuşdur. Burada indi yalnız ermənilər yaşayır. Dilican toponiminin "Delican", "Delecan" formalarına əsaslanıb, bu qənaətə gəlirik ki, toponim "tele" qədim türk tayfasının (180, s. 21) adı əsasında əmələ gəlmişdir. Toponimin sonundakı "can" "kan, qan, kaan, xan" sözünün fonetik forması olub, "yaranmış, yüksək, hörmətli, şöhrətli, şöhrət sahibi" mənasındadır (147, s. 4). M.Seyidov "can" sözünü "qan" sözünün fonetik dəyişmiş forması hesab edərək "ata, hakim" anlamında olduğunu qeyd edir (235, s. 18–19). Deməli, Dilican (Delican, Delecan) "tele" tayfasından olan hakimin, atanın (hörmətli, şöhrətli mənasında) yaşayış məskəni" mənasını ifadə edir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 68).

Coğrafi koordinatları: 40°44′ şm. e., 44°51′ ş. u.

**Dirəklər** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 10 km şimal-şərqdə, dəniz səviyyəsindən 1570 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tərkibində olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Dirəkli" (143, s. 135), Qafqazın 5 verstlik xəritəsində "Dirəklər" kimi (348, s. 86) qeyd edilmişdir. Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1828–1830-cu illərdə Türkiyənin Tercan və Qars vilayətlərindən köçürülmüşdür (416, s. 108). Toponim qədim tereklər (dirəklər) türk tayfasının adı əsasında əmələ gəlmişdir. Tereklər (direklər) XIII–XIV əsrlərdə Anadolu yarımadasında yaşamışlar (210, s. 53). Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdi-

rilərək "Karnut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 108).

Coğrafi koordinatları: 40°47' şm. e., 43°57' ş. u.

**Doğs** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 21 km məsafədə, Kasax (Qazax) çayının sahilində, dəniz səviyyəsindən 915 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində "Tos" kimi (348, s. 246) qeyd edilmişdir. 1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra – 1828–1829-cu illərdə kəndə İranın Xoy və Səlmas, 1915–1916-cı illərdə Türkiyənin Ələşkirt, Xnıs (Hnıs), Muş, Van vilayətlərindən ermənilər köçürülüb yerləşdirilmişdir (85, s. 99; 416, s. 69). Kənddə 1831-ci ildə 48 nəfər azərbaycanlı, 63 erməni, 1873-cü ildə 249 nəfər azərbaycanlı, 156 erməni, 1886-cı ildə 330 azərbaycanlı, 171 erməni, 1897-ci ildə 480 nəfər azərbaycanlı, 189 erməni yaşamışdır (415, s. 80–81, 150–151). 1918-ci ilə kimi burada azərbaycanlılar olmuşdur. 1918-ci ildə kənd erməni silahlılarının təcavüzünə məruz qalaraq sakinləri – azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 69).

Coğrafi koordinatları: 40°13' şm. e., 44°16' ş. u.

**Doqquz** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 49 km şimal-qərbdə, Gərni çayının yanında, dəniz səviyyəsindən 2070 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Doqquz" (143, s. 100), Qafqazın 5 verstlik xəritəsində isə "Dokkuz" formasında (348, s. 88) qeyd edilmişdir. Kənddə tarixən yalnız azərbaycanlılar yaşamışdır. 1828–1829-cu illərdə buraya İranın Xoy və Səlmas vilayətlərindən ermənilər köçürülmüşdür (386, s. 551–554). 1828-ci ilə qədər Doqquz kəndində cəmi 8 yerli erməni (коренных армян) olmuşdur (386, s. 551–553). Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 127, 1873-cü ildə 159, 1886-cı ildə 178, 1897-ci ildə 161 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). 1918-ci ilin fevral ayında azərbaycanlılar erməni silahlı birləşmələrinin törətdikləri soyqırımına məruz qalaraq deportasiya olunmuşdur (309, s. 216). Sağ qalan kənd sakinləri indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 75, 1926-cı ildə 78, 1931-ci ildə 97 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar 1948–1950-ci illərdə tarixi-etnik torpaqlarından Azərbaycana köçürülmüşdür. Hazırda orada ermənilər yaşayır. Toponim oğuzların dülqədirli tayfasından olan "doqquz" etnonimi (238, s. 301) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 20 avqust 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Kanaçut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 107).

Coğrafi koordinatları: 40°00' şm. e., 44°32' ş. u.

**Donuzyeyən (Donuzgirən)** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 21 km şimal-qərbdə, Zəngi çayının sol sahilində, dəniz səviyyəsindən 830 m hündürlükdə yerləşir. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Donuzyeyən" (143, s. 161), 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə "Donuzpayan" (143, s. 36), Qafqazın

5 verstlik xəritəsində "Donquzian" formalarında (348, s. 88) qeyd edilmişdir. Erməni müəlliflərinin əsərlərində kəndin 1712-ci ildə salındığı qeyd edilir (416, s. 78). Əslində, kəndin adı yaşayış məntəqəsi kimi 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə İrəvan əyalətinin İrəvan nahiyəsinin tabeliyində "Donuzyeyən" formasında qeydə alınmışdır (143, s. 161). Kənddə 1831-ci ildə 355, 1873-cü ildə 905, 1886-cı ildə 1012, 1897-ci ildə 1077, 1908-ci ildə 1131, 1914-cü ildə 1464, 1916-cı ildə 864 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). 1918-ci ildə erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalan kənd sakinləri deportasiya olunmuş, yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra onlar öz evlərinə qayıda bilmişdir. Burada 1922-ci ildə 399, 1926-cı ildə 493, 1931-ci ildə 518 nəfər azərbaycanlının yaşadığı qeydə alınmışdır (415, s. 48–49, 128–129). Kəndə 1939-cu ildə 738, 1959-cu ildə 868, 1970-ci ildə 1266, 1979-cu ildə 1472 nəfər əhali yaşamışdır ki (416, s. 78–79), onların da 90%-indən çoxunu azərbaycanlılar təşkil etmişdir. 1987-ci ildə 2050 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kənd sakinləri Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi orada ermənilər yaşayır. Toponim donuz heyvan adına "girən" (daxil olan mənasında) feili sifətinin artırılması ilə düzəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Zəngilər", Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Zorak" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 78–79).

Coğrafi koordinatları: 40°05′ şm. e., 44°23′ ş. u.

**Dordnu (Dornı)** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 27 km şimal-qərbdə, dəniz səviyyəsindən 1280 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 88). Kənddə 1831-ci ildə 16, 1897-ci ildə 181, 1904-cü ildə 363, 1914-cü ildə 327 nəfər azərbaycanlı yaşamışdır (415, s. 62–63, 136–137; 416, s. 22). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Xaricdən köçürülüb gətirilən ermənilər 1918–1919-cu illərdən burada yerləşdirilmişdir. Türk tarixçisi Fahrettin Kırzıoğluna görə, 1588-ci ildə qışı Gəncə sancağında, yayı Zəngəzurda keçirən bir el "Dördnu" adlanırdı (62, s. 240). Toponim qıpçaq mənşəli "durt" (dort – İ.B.) etnonimi (286, s. 50) əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 20 iyun 1949-cu il tarixli qərarı ilə adı dəyişdirilərək "Antaraşat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 22).

Coğrafi koordinatları: 39°18′ şm. e., 46°19′ ş. u.

**Dovrus** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 24 km şimal-şərqdə, dəniz səviyyəsindən 1300 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində "Dovruz" kimi qeyd edilmişdir (348, s. 87). Erməni müəlliflərinin əsərlərində kəndin adı həm də Tovruz kimi göstərilir (415, s. 56). Kənddə 1831-ci ildə 11, 1873-cü ildə 74, 1886-cı ildə 184, 1897-ci ildə 303, 1904-cü ildə 268, 1914-cü ildə 297 nəfər azərbaycanlı yaşamışdır (415 s. 56–57, 134–135). 1918-ci ildə kəndin sakinləri erməni silahlı birləşmələrinin törətdikləri

soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndin sakinləri öz evlərinə qayıda bilmişdir. Burada 1922-ci ildə 88, 1926-cı ildə 144, 1931-ci ildə 171 nəfər azərbaycanlı yaşamışdır (415, s. 57, 135). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, 1948-ci ildə kənddən iki ailə (9 nəfər) zorla Azərbaycana deportasiya edilmişdir. 1988-ci ilin noyabr ayında isə kəndin sakinləri Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Toponim türk mənşəli xəzər tayfasına mənsub "tavris" etnonimi (286, s. 44) əsasında əmələ gəlmişdir. Hazırda erməni dillində rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Davrus" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 196).

Coğrafi koordinatları: 39°17′ şm. e., 46°21′ ş. u.

**Dovşanqışlaq** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 20 km cənub-qərbdə, Arpaçayın yaxınlığında, dəniz səviyyəsindən 1510 m hündürlükdə yerləşir. 1828-ci ildən sonra İran və Türkiyədən köçürülüb gətirilən ermənilər bu kənddə yerləşdirilmişdir. Kəndin köklü sakinləri azərbaycanlılar mərhələ-mərhələ qovulmuşlar. 1918–1920-ci illərdə isə azərbaycanlılar erməni silahlıları tərəfində tam surətdə kənddən deportasiya olunmuşdur. 1926-cı ildə burada 1 nəfər azərbaycanlı yaşamışdır. Toponim "dovşan" və "qışlaq" sözlərinin birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 19 aprel 1950-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Şirakavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 159).

Coğrafi koordinatları: 40°41′ şm. e., 43°44′ ş. u.

**Düzkənd** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 21 km cənub-qərbdə, dəniz səviyyəsindən 1475 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 90) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi Türkiyəyə köç etmişdir. Toponim Azərbaycan dilində "düzən, çöl, düzənlik, düzəngah" mənasında işlənən "düz" sözü ilə (10, s. 168; 339, s. 195) türk dilində "şəhər, yaşayış məntəqəsi" mənasında işlənən "kənd" sözünün (359, II (2), s. 1079–1080; 299, s. 290; 339, s. 270–271) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Baroj", Ermənistan Respublikası parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Arevut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 33).

Coğrafi koordinatları: 40°22′ şm. e., 43°47′ ş. u.

**Düzkənd** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 5 km cənub-şərqdə, dəniz səviyyəsindən 1540 m hündürlükdə yerləşir. İndi Ermənistan adlanan ərazidə sovet hakimiyyəti qurulandan sonra 31 dekabr 1937-ci ildə yaradılan rayonun adı və mərkəzi olmuşdur. XVIII əsrə aid mənbədə – "İrəvan əyalətinin icmal dəftəri"ndə "Böyük Düzkənd", "Kiçik Düzkənd" adlı iki kəndin adı göstərilir (143, s. 132). Erməni müəlliflərinin əsərlərində Düzkənd kəndinin digər adı kimi Böyük Düzkənd göstərilir (415, s. 42). Görünür, sonralar Böyük Düzkənd

və Kiçik Düzkənd kəndləri birləşdirilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 90). 1828-ci ilə kimi azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1828–1829-cu illərdə Türkiyədən köçürülmüşdür. Hazırda kənddə ermənilər yaşayır. Toponim türk dilində "düzənlik, çöl, düzəngah" mənasında işlənən "düz" sözünə (253, s. 70; 339, s. 195) "kənd" coğrafi nomeninin artırılması yolu ilə yaranmışdır. Erm. SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Axuryan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 11).

Coğrafi koordinatları: 40°65′ şm. e., 43°54′ ş. u.

**Düzkənd** – Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, keçmiş Amasiya rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 44 km şimal-qərbdə, Arpaçayın sağ sahilində, dəniz səviyyəsindən 1980 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 132), Qafqazın 5 verstlik xəritəsində (348, s. 90) qeyd edilmişdir. Amasiya rayonunda tarixən Düzkənd adında iki kənd olmuşdur: Böyük Düzkənd, Kiçik Düzkənd (415, s. 20). XIX əsrin əvvəllərində Böyük Düzkənd və Kiçik Düzkənd kəndləri birləşdirilərək Düzkənd kəndi kimi rəsmiləşdirilmişdir. Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. Erməni müəlliflərinin əsərlərində kənddə qarapapaqların yaşadığı göstərilir (415, s. 20). Burada 1886-cı ildə 348, 1897-ci ildə 520, 1908-ci ildə 636, 1914-cü ildə 722 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). 1918-ci ilin mayında türk ordusunun önündən geri çəkilən Andranikin qoşunu Düzkənddə kütləvi qırğın törətmiş, sağ qalan əhalinin bir hissəsi Qars vilayətinə qaçmışdır. Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevralında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhalisinin bir qismi Qars vilayətinə, bir qismi də İranın Gümrüdəki konsulluğu vasitəsilə Urmiya və Səlmas əyalətlərinə köç etmişdir. 1921-ci il Qars müqaviləsindən sonra kəndin əhalisinin bir qismi kəndə qayıtmışdır. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra, 1921-ci il Qars müqaviləsinə əsasən, kənd Ağbaba nahiyəsinin tərkibində Aleksandropol qəzasına daxil edilmişdir. Burada 1922-ci ildə 359, 1926-cı ildə 402, 1931-ci ildə 468 (415, s. 20–21, 104–105), 1959-cu ildə 366, 1970-ci ildə 528, 1979-cu ildə 630 (416, s. 10), 1987-ci ildə 580 nəfər (35, s. 168) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr, 1989-cu ilin yanvar aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim Azərbaycan dilində "düzən, çöl, düzənlik", "enişi, yoxuşu, çuxuru olmayan yer" mənasında işlənən "düz" sözü ilə (253, s. 70; 278, s. 68; 10, s. 168; 339, s. 195) qədim türk dilində "yaşayış yeri, şəhər" mənasında işlənən "kənd" sözünün (359, II (2), s. 1079–1080; 299, s. 290; 339, s. 270–271) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Alvar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 10).



*Düzkənd*

Coğrafi koordinatları: 41°03′ şm. e., 43°44′ ş. u.

# E

**Ellər** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayətində Abovyan şəhəri. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 37 km məsafədə, İrəvan şəhərinin şimal-şərqində, dəniz səviyyəsindən 1360 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. 9 sentyabr 1930-cu ildə yaradılan Ellər rayonunun mərkəzi olmuşdur. 1961-ci ildə erməni yazıçısı Xaçatur Abovyanın şərəfinə "Abovyan" adlandırılmışdır. 1963-cü ildə şəhər statusu verilmişdir. Qafqazın 5 verstlik xəritəsində "Eylayar" (348, s. 320), erməni müəlliflərinin əsərlərində "Eylar" (415, s. 44), "Elar" (419, s. 107, 416, s. 6) formalarında qeyd edilmişdir. Toponim türk dilində "xalq, tayfa", "tayfa birləşməsi, tayfa ittifaqı" mənasında işlənən "el" sözünə (299, s. 168; 278, s. 163; 339, s. 638) Azərbaycan dilində cəmlik bildirən "-lər" şəkilçisinin qoşulması əsasında əmələ gəlmişdir. Bu söz eyni mənada türk dilində "il" formasında da işlənir (299, s. 207; 365, s. 339–343). Yaşayış məntəqəsinin adı Erm. SSR AS RH-nin 12 oktyabr 1961-ci il tarixli qərarı ilə dəyişdirilərək "Abovyan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 6).

Coğrafi koordinatları: 40°16′ şm. e., 44°37′ ş. u.

**Ellərkənd (Elləroyuğu)** – Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, sonralar Amasiya rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 43 km şimal-qərbdə, Türkiyə, Ermənistan və Gürcüstan dövlətlərinin sərhədlərinin kəsişdiyi yerdə, dəniz səviyyəsindən 2170 m hündürlükdə yerləşir. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində "Elyaroyuğu" (348, s. 301), erməni müəlliflərinin əsərlərində "Elləroğlu, Ellər, Elləroyuğu, Yelləryuğ, Elləryuğ" (415, s. 20) formalarında qeyd edilmişdir. Sonralar kəndin adı sənədlərdə "Ellərkənd" kimi rəsmiləşdirilmişdir. Kənddə azərbaycanlıların etnoqrafik qruplarından biri olan qarapapaqlar (ASE, III c., B., 1979, s. 64) yaşamışdır. Erməni müəlliflərinin əsərlərində kənddə yaşayan qarapapaq tayfası xüsusi bir xalq kimi qeyd edilir (415, s. 20). Burada 1886-cı ildə 232, 1897-ci ildə 361, 1908-ci ildə 363, 1914-cü ildə 437 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). 1918–1920-ci illərdə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba yurdlarına qayıda bilmişdir. Kənddə həmçinin Gümrü şəhərində ermənilərin törətdikləri qırğınlardan canını qurtaran azərbaycanlılar da məskunlaşmışlar. Burada 1922-ci ildə 222, 1926-cı ildə 284, 1931-ci ildə 294 (415, s. 20–21, 104–105), 1959-cu ildə 165, 1970-ci ildə 305 (416, s. 92), 1987-ci ildə 328 (35, s. 169) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr, 1989-cu ilin yanvar aylarında kəndin aborigen sakinləri azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə Gürcüstanın Axılkələk rayonundan gələn ermənilər məskunlaşıb. Toponim "-lər" cəm şəkilçisi qəbul etmiş qədim türk dilində "tayfa ittifaqı, tayfa təşkilatı", "xalq, tayfa" mənasında işlənən "el" (il) sözü ilə (299, s. 168–169, 207; 365, s. 339-343; 339, s. 638) qohumluq bildirən və III şəxsin təkində işlənən "oğlu" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 8 avqust 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lorasar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 92).

Coğrafi koordinatları: 41°05′ şm. e., 43°33′ ş. u.

**Evcilər** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan)

rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 15 km cənub-şərqdə, dəniz səviyyəsindən 845 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 300) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. Ermənilər burada İranın Xoy və Səlmas vilayətlərindən köçürülüb yerləşdirilmişdir (416, s. 27). Toponim dülqədirli türk tayfasından olan "avcı" (evci – müəll.) etnoniminə (238, s. 185) cəmlik bildirən "-lər" şəkilçisinin artırılması ilə əmələ gəlib, "evcilər tayfasına mənsub kənd" mənasını bildirir. "Evci" "avçı" etnoniminin fonetik variantıdır. Etnotoponimdir. Erm. SSR AS RH-nin 10 aprel 1947-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Arazap" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 27).

Coğrafi koordinatları: 40°02′ şm. e., 44°08′ ş. u.

# Ə

**Əfəndi** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Dərəçiçək mahalında, sonralar Sevan rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 20 km şimal-qərbdə, Göyçə gölünün şimal-şərq sahilində, dəniz səviyyəsindən 1940 m hündürlükdə yerləşir. Kəndin başqa adı erməni müəlliflərinin əsərlərində "Rəhmankənd" və "Noraşen" kimi də göstərilir (415, s. 70). Lakin kəndin qədim və ilkin adı Əfəndikənd olmuşdur (415, s. 70). 1930-cu illərdə keçmiş Kəvər (Kamo) rayonunun tərkibində olmuşdur. Burada XII əsrə aid azərbaycanlılara məxsus tarixi abidələr var. Kənddə 1831-ci ildə 28, 1873-cü ildə 224, 1886-cı ildə 314, 1897-ci ildə 422, 1904-cü ildə 479, 1914-cü ildə 654, 1916-cı ildə 650 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 70–71, 144–145). 1918-ci ildə kəndin sakinləri erməni silahlı birləşmələri tərəfindən vəhşicəsinə qovulmuşdur. Ermənilər buraya 1918–1920-ci illərdə Türkiyədən köçürülmüşdür. Sağ qalan azərbaycanlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz doğma kəndlərinə dönüb ermənilərlə bir yerdə yaşamağa məcbur olmuşlar. Burada 1922-ci ildə ermənilərlə yanaşı, 7, 1926-cı ildə 5, 1931-ci ildə 10 nəfər azərbaycanlı yaşamışdır (415, s. 70–71, 144–145). 1940-cı illərdə azərbaycanlılar tamamilə deportasiya olunmuşdur. Toponim Əfəndi şəxs adı əsasında əmələ gəlmişdir. Kəndin adı Erm. SSR AS RH-nin 4 yanvar 1938-ci il qərarı ilə dəyişdirilərək "Noraşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 152).

Coğrafi koordinatları: 40°30′ şm. e., 45°01′ ş. u.

**Əfəndi** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində kənd. Hamamlı (Spitak) 5-7 km cənub-şərqdə, Pəmbək çayının sağ qolu üzərində, Qursalı (Arcahovit) kəndi ilə Saral (Nor Xaçakap) kəndinin arasında yerləşir. Hamamlı rayonu təşkil edilənə qədər – 1937-ci ilə kimi keçmiş Quqark (Böyük Qarakilsə) rayonunun tərkibində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 303). Kənddə 1897-ci ildə 238 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 50–51). 1905–1906-cı illərdə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış, azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuşdur. 1915–1918-ci illərdə Türkiyədən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir (85, s. 333). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra – 1926-cı ildə burada 10 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51). 1930-cu ildə onlar kənddən sıxışdırılıb çıxarılmışdır. İndi burada yalnız ermənilər yaşayır. Toponim Əfəndi şəxs adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli

qərarı ilə kəndin adı dəyişdirilərək "Karadzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 30).

Coğrafi koordinatları: 40°50′ şm. e., 44°19′ ş. u.

**Əkərək** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 6 km şimal-qərbdə, dəniz səviyyəsindən 1100 m hündürlükdə yerləşir. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Əyrək" kimi (143, s. 163), "İrəvan əyalətinin icmal dəftəri"ndə "Əyərək" (143, s. 90), Qafqazın 5 verstlik xəritəsində "Əkərək" (Aqarak) kimi (348, s. 3) qeyd edilmişdir. Adı XVI əsrin əvvəllərindən çəkilir (427, s. 18). Kənddə 1831-ci ildə 318, 1873-cü ildə 388, 1886-cı ildə 536, 1897-ci ildə 603, 1908-ci ildə 629, 1914-cü ildə 720, 1916-cı ildə 653, 1919-cu ildə 425 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107). "Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti"ndə burada 1920-ci illərə kimi hansı xalqın yaşadığı göstərilmir. Yalnız 1897-ci ildə 603 nəfərin yaşadığı qeyd edilir ki, onların da azərbaycanlı və ya erməni olduğu qeyd edilmir (427, s. 18). 1919-cu ilin əvvəllərində kəndin sakinləri ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Ermənilər buraya 1918–1919-cu illərdə Türkiyənin Van, Qars, Bitlis bölgələrindən köçürülmüşdür. Azərbaycanlılar öz kəndlərinə indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra qayıda bilmişlər. Burada ermənilərdən başqa, 1922-ci ildə 72, 1926-cı ildə 74, 1931-ci ildə 32 nəfər azərbaycanlı yaşamışdır (415, s. 23, 107). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar tarixi-etnik torpaqlarından çıxarılıb zorla Azərbaycana köçürülmüşdür. Hazırda kənddə yalnız ermənilər yaşayır. XVI (143, s. 163) və XVIII (143, s. 90) əsrlərə aid tarixi mənbələrdə kəndin adının "Əyrək", "Əyərək" formalarında qeyd olunmasına istinad edib bu qənaətə gələ bilərik ki, toponim "Kitabi-Dədə Qorqud" dastanlarında (X boyda) adı çəkilən Əgrək şəxs adı əsasında əmələ gəlmişdir. Hazırda erməni dilində rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Aqarak" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 6).

Coğrafi koordinatları: 40°18′ şm. e., 44°16′ ş. u.

**Əkərək** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 6 km şimal-qərbdə, dəniz səviyyəsindən 1100 m hündürlükdə yerləşir. Kəndin digər adı Xaraba Əkərək olmuşdur (415, s. 34; 427). Burada 1831-ci ildə 70, 1873-cü ildə 301,1886-cı ildə 367, 1897-ci ildə 482, 1904-cü ildə 284, 1914-cü ildə 301, 1916-cı ildə 601 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, 34–35, 116–117). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış, köklü sakinləri olan azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş və 1920-ci ildə Türkiyənin Van, Muş, Bitlis, Sasun vilayətlərindən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir (416, s. 6–7). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulan-



*Əkərək kəndində qədim sərdabə qalıqları*

dan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına qayıda bilmişlər. Burada ermənilərdən başqa, 1922-ci ildə 12 nəfər azərbaycanlı yaşamışdır (415, s. 117). 1924-cü ildə onlar yenidən tarixi torpaqlarından qovulmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "əkər" türk etnonimi (359, I (1), s. 97) əsasında əmələ gəlmişdir. Hazırda erməni dilində rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Aqarak" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 6).

Coğrafi koordinatları: 40°20′ şm. e., 44°04′ ş. u.

**Əkərək** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Cəlaloğlu (Stepanavan) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 34 km şimalda, dəniz səviyyəsindən 1370 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. Toponim "əkər" türk etnoniminə (359, s. 97) "-ək" şəkilçisinin artırılması ilə düzəlmişdir. Hazırda erməni dilində rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Aqarak" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 6).

Coğrafi koordinatları: 41°00′ şm. e., 44°28′ ş. u.

**Əkərək** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 12 km şərqdə, dəniz səviyyəsindən 1025 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Erməni müəlliflərinin əsərlərində (415, s. 54; 419, s. 60), Qafqazın 5 verstlik xəritəsində (348, s. 3) "Aqarak" formasında qeyd edilmişdir. XII–XIII əsr mənbələrində adı çəkilir (416, 7). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. Yaşayış məntəqəsinin adı türk mənşəli "əkər" etnoniminə (359, I (1), s. 97) "-ək" şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Hazırda erməni dilində rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Aqarak" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 7).

Coğrafi koordinatları: 39°12′ şm. e., 46°32′ ş. u.

**Əkərək** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Mığrı (Meğri) rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 80 km cənub-qərbdə, Araz çayının sol tərəfində, dəniz səviyyəsindən 650 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Burada 1897-ci ildə 6, 1931-ci ildə 11 nəfər azərbaycanlı yaşamışdır (415, s. 66–67, 142–143). Kənddə yaşayan azərbaycanlılar SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, 1948-ci ildə Azərbaycana köçürülmüşdür. Hazırda kənddə ermənilər yaşayır. Toponim əkər (akar) türk tayfa adı (359, I (1),



*Əkərək kəndi*

s. 97) əsasında əmələ gəlmişdir. Hazırda erməni dilində rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Aqarak" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 6).

Coğrafi koordinatları: 39°12' şm. e., 46°32' ş. u.

**Ələyəz** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Yeğeqnadzordan 15 km şimal-şərqdə, Ələyəz çayının sağ qolu olan Yoğunsu çayının sahilində yerləşir. Kəndin adı 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə "Ələyəz" (143, s. 58), Qafqazın 5 verstlik xəritəsində "Alagöz" (348, s. 10), «Сборник сведений о Кавказе» toplusunda "Alagöz" və "Alayaz" (364, №770) formalarında qeyd edilmişdir. Erməni mənbələrində "Alayaz" (415, s. 160), "Alagəz", "Alagöz" (427, s. 62) kimi qeyd edilir. Kənddə XI–XIII əsrlərə aid azərbaycanlılarla bağlı tarixi abidələr var (427, s. 62). Burada 1831-ci ildə 32, 1873-cü ildə 223, 1886-cı ildə 356, 1897-ci ildə 412, 1904-cü ildə 524, 1914-cü ildə 576, 1916-cı ildə 322, 1919-cu ildə 97 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 160–161). 1918–1919-cu illərdə kənd erməni təcavüzünə məruz qalmış, azərbaycanlılar deportasiya olunmuş və kəndə ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinləri doğma evlərinə dönmüşlər. Burada 1922-ci ildə 180 azərbaycanlı, 91 erməni, 1926-cı ildə 267, 1931-ci ildə 353 (415, s. 91, 161), 1959-cu ildə 499, 1970-ci ildə 884, 1979-cu ildə 963 nəfər (85, s. 359) azərbaycanlı yaşamışdır. 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Toponim "alagöz" türk etnonimi (271, s. 204; 407, s. 120) əsasında əmələ gəlmişdir. Alagöz türk tayfası haqqında ilk məlumata Vamberinin 1863-cü ildə türk tayfaları ilə bağlı məlumatında rast gəlinir (407, s. 120). Ələyəz kəndindən 600–700 m aralıda XIV əsrə aid Əxi Təvəkkül Zaviyəsi yerləşir (210 a, s. 191). Kəndin ərazisində üzərində qədim yəhudi və arami dilində yazılar həkk edilən bir neçə qəbirdaşı mövcuddur. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kənd "Yeğeqis" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 71).

Coğrafi koordinatları: 39°51' şm. e., 45°21' ş. u.

**Ələyəz** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ələyəz (Araqats) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 16 km şimal-qərbdə, Alagöz (Ələyəz) dağının ətəyində, dəniz səviyyəsindən 1980 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi Türkiyəyə köç etmişdir. Yaşayış məntəqəsinin adı Azərbaycan dilində "Ələyəz" formasında qeyd edilir. "Ələyəz" "Alagöz"ün fonetik formasıdır. Toponim alagöz türk etnonimi (407, s. 120) əsasında əmələ gəlmişdir. Kəndin adı dəyişdirilərək "Araqats" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 26).

Coğrafi koordinatları: 40°29' şm. e., 44°21' ş. u.

**Əlibəyli** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Üçkilsə (Vağarşabad) yaşayış məntəqəsindən 2 km cənub-qərbdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 12). Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin 1830-cu ildə bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. Ermənilər buraya Türkiyənin Van vilayətindən köçürülmüşdür (427, s. 51). Toponim oğuzların ulu yörük tayfasından olan "əlibəyli" etnonimi (238, s. 186) əsasında

əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Atarbekyan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 111).

Coğrafi koordinatları: 40°09' şm. e., 44°15' ş. u.

**Əlixan** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 19 km şimal-şərqdə yerləşir. 1870-ci illərə qədər burada yalnız azərbaycanlılar yaşamışdır. 1878-ci ildə Türkiyənin Muş və Ərzurum vilayətlərindən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir (427, s. 848). Toponim Əli şəxs adı ilə türk dilində titul bildirən "xan" sözünün birləşməsi əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Atarbekyan" qoyulmuşdur. Daha sonra yenidən dəyişdirilərək "Getik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir. (416, s. 26).

Coğrafi koordinatları: 40°55' şm. e., 44°02' ş. u.

**Əlikiçik** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 18 km şimal-qərbdə, Abaran çayının sağ tərəfində, dəniz səviyyəsindən 1850 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Əli kiçik" (143, s. 111), Qafqazın 5 verstlik xəritəsində "Əli qoçaq" formasında (348, s. 12) qeyd edilmişdir. Kəndin adı erməni müəlliflərinin əsərlərində "Əli kuşak" formasında da göstərilir (427, s. 85). Ermənilər kəndə 1828–1829-cu illərdə Türkiyənin Muş, Ələşkirt, Bəyazid, Ərzurum və İranın Maku vilayətlərindən köçürülüb yerləşdirilmişdir (416, s. 208). Toponim Əli şəxs adı əsasında əmələ gəlmişdir. Faruk Sümər qeyd edir ki, Zəngilər dövlətinin türkmən əmirlərindən biri də Zeynəddin Əli Küçük (kiçik – İ.B) idi (238, s. 145). Belə qənaətə gəlirik ki, kəndin adı həmin şəxsin adına əsaslanır. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Kuçak" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 208).

Coğrafi koordinatları: 40°31' şm. e., 44°23' ş. u.

**Əliquluşen** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayətində kənd. Gorus şəhərindən 8 km şərqdə yerləşir. Kəndin başqa adı Əliqulukənd, Aşağı Əliqulu, Əliquluuşağı olmuşdur (427, s. 40, 86). 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, 1831-ci ildə ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Kənd Əliqulu adlı şəxs tərəfindən salındığı üçün "Əliquluşen/Əliqulukənd" adlanmışdır. Toponimin birinci komponenti Əliqulu şəxs adından, ikinci komponenti türk dilində "tikinti, kənd, oba, yurd" mənasında işlənən "şen" sözündən ibarətdir. Erm. SSR AS RH-nin 1 iyun 1940-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Azataşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 26).

Coğrafi koordinatları: 39°29' şm. e., 46°25' ş. u.

**Əlili** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 114 km şimal-qərbdə, dəniz səviyyəsindən 1950 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. "İrəvan əyalətinin icmal dəftəri"ndə

(143, s. 150), Qafqazın 5 verstlik xəritəsində (348, s. 12) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. Ermənilər kəndə 1828–1829-cu illərdə İranın Xoy vilayətinin Məhləzan və Üzümçü kəndlərindən köçürülmüşdür (416, s. 173). Toponim kəngərli türk tayfasına mənsub "əlili" etnonimindən (386, s. 538) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Salvard" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 173).

Coğrafi koordinatları: 39°27′ şm. e., 45°55′ ş. u.

**Əmirxeyir** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, Qaraqoyunlu dərəsində, sonralar Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi



*Əmirxeyir kəndi*

Qavar (Kəvər) şəhərindən 101 km şimalda, dağlıq, meşəlik ərazidə, dəniz səviyyəsindən 1600 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində kəndin adı "Əmirxer", "Əmirxeyir", "Əmirxir", "Əmirxer" formalarında da qeyd edilir (415, s. 30; 427, s. 427, s. 222; 419, s. 54). Kənddə 1897-ci ildə 161, 1919-cu ildə 151 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31, 114–115). 1919-cu ilin mart ayının axırlarında kəndin sakinləri erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq qırğınlarla qovulmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənddən qovulmuş azərbaycanlılar doğma ocaqlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 132, 1926-cı ildə 216, 1931-ci ildə 250 (415, s. 31, 115), 1939-cu ildə 295, 1970-ci ildə 715, 1979-cu ildə 720 (427, s. 222), 1987-ci ildə 500 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci il noyabrın 24–28-də Ermənistan dövləti kəndin sakinlərini tarixi-etnik torpaqlarından deportasiya etmişdir. Hazırda kənddə ermənilər yaşayır. Toponim Əmir şəxs adı ilə türk dilində "sıldırım, qaya", "sıldırımlı qaya" mənasında işlənən "kayır/kair", "xayr" sözünün (339, s. 241, 589) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Kalavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 105).

Coğrafi koordinatları: 40°39′ şm. e., 45°07′ ş. u.

**Ərəfsə** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Qarakilsə nahiyəsində, sonralar keçmiş Sisian rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 120 km şimal-qərbdə, Bazarçay çayının sağ sahilində, dağ ətəyində, dəniz səviyyəsindən 1900 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Ərəfsəcik" formasında (143, s. 183), Qafqazın 5 verstlik xəritəsində "Ərəvsə" kimi (348, s. 17) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 19, 1873-cü ildə 169, 1886-cı ildə 148, 1897-ci ildə 123, 1908-ci ildə 168, 1914-cü ildə 300 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1918-ci ilin sonlarında azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar doğma kəndlərinə

qayıda bilmişdir. Burada 1922-ci ildə 151, 1926-cı ildə 60, 1931-ci ildə 225 (415, s. 77, 147), 1959-cu ildə 478, 1970-ci ildə 551, 1979-cu ildə 476 nəfər (427, s. 426–427) azərbaycanlı yaşa-



*Ərəfsə kəndi*

mışdır. 2008-ci ildə erməni dilində çap olunmuş "Ermənistanın yaşayış məntəqələrinin lüğəti"ndə kəndin əhalisinin ümumi sayı göstərilsə də, etnik tərkibi göstərilməmişdir (416, s. 32). 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tamamilə deportasiya edilmişdir. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim kəngərli türk tayfasından olan "ərəfsəli" etnonimindən (386, s. 537) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 iyul 1968-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Arevis" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 32).

Coğrafi koordinatları: 39°24′ şm. e., 45°54′ ş. u.

**Ərqov** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 11 km şimal-qərbdə, Qalasız çayının sahilində, dəniz səviyyəsindən 1630 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Ərqov" kimi (143, s. 89), Qafqazın 5 verstlik xəritəsində "Erqov" formasında (348, s. 302) qeyd edilmişdir. Erməni ədəbiyyatında kəndin 1831-ci ildə salındığı göstərilir (416, s. 210). Əslində, bu, tarixi həqiqəti saxtalaşdırmaqdır. Çünki 1728-ci il tarixdə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə Karpi nahiyəsinin tərkibində Əhmədin adına olan timara aid "Ərqov kəndi" əksini tapmışdır. Kəndin illik gəlirinin 4500 ağça olduğu göstərilir (143, s. 89). Burada 1831-ci ildə 54, 1873-cü ildə 237, 1886-cı ildə 337, 1897-ci ildə 380, 1908-ci ildə 280, 1914-cü ildə 721, 1916-cı ildə 646, (415, s. 22–23, 108–109), 1918-ci ildə 280, 1919-cu ildə 218 nəfər yalnız (309, s. 221) azərbaycanlı yaşamışdır. 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq kənddən qovulmuşlar (309, s. 221). 1919–1920-ci illərdə buraya Türkiyədən ermənilər köçürülmüşdür. Sağ qalan azərbaycanlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra ata-baba torpaqlarına dönə bilmişlər. Burada ermənilərlə yanaşı, 1922-ci ildə 58, 1926-cı ildə 25 nəfər azərbaycanlı yaşamışdır (415, s. 22–23, 108–109). 1929–1930-cu illərdə azərbaycanlılar tamamilə deportasiya olunmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim türk dilində "igid, qoçaq" mənasında işlənən "ər" (or) sözü ilə qıpçaqlara məxsus "qov" (kov) etnoniminin birləşməsindən (287, s. 55, 108) əmələ gəlib, "igid, qoçaq, qov tayfasına məxsus kənd" mənasını ifadə edir. Hazırda erməni dilində rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Orqov" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 210).

Coğrafi koordinatları: 40°20′ şm. e., 44°15′ ş. u.

**Ərzəkənd** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 21 km şimal-qərbdə, Zəngi çayının sol qolu olan Dəllər çayının sağ tərəfində, Güllü dağının ətəyində, dəniz səviyyəsindən 1500 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Ərzqan" (143, s. 78), Qafqazın 5 verstlik xəritəsində "Ar-

zakənd" (348, s. 19), erməni müəlliflərinin əsərlərində "Arzakan" (427, s. 431) kimi qeyd edilmişdir. Kəndin əsas sakinləri azərbaycanlılar olmuşdur. Ermənilər buraya 1828–1830-cu illərdə İranın Maku, Xoy, Türkiyənin Bəyazid və Muş vilayətlərindən, habelə Tiflisdən köçürülmüşdür (427, s. 431). Kənddə 1831-ci ildə 33, 1873-cü ildə 239, 1886-cı ildə 312, 1897-ci ildə 255, 1908-ci ildə 528, 1914-cü ildə 786 nəfər azərbaycanlı, 1916-cı ildə 1633 nəfər azərbaycanlı və erməni yaşamışdır (415, s. 16–17, 106–107). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qırğınlarla qovulmuşdur. Sağ qalan azərbaycanlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulduqdan sonra doğma kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə 20, 1926-cı ildə 16 nəfər azərbaycanlı yaşamışdır (415, s. 17, 107). 1928–1930-cu illərdə azərbaycanlılar zorla öz doğma kəndlərindən qovulmuşlar. İndi kənddə yalnız ermənilər yaşayır. Toponim "ərz" və "kənd" sözlərinin birləşməsindən əmələ gəlmişdir. Hazırda erməni dilində rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Arzakan" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 33).

Coğrafi koordinatları: 40°26′ şm. e., 44°36′ ş. u.

**Ərzni** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 29 km cənub-qərbdə, Zəngi çayının sol sahilində, dəniz səviyyəsindən 1300 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 36), Qafqazın 5 verstlik xəritəsində (348, s. 19) qeyd edilmişdir. Kəndin başqa adı Sərçəli olmuşdur (427, s. 435). İlk dəfə XV əsrdən xatırlanır. Kənddə 1873-cü ildə 96, 1886-cı ildə 197, 1897-ci ildə 121, 1904-cü ildə 439 nəfər azərbaycanlı yaşamışdır (415, s. 44–45, 124–125). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq deportasiya olunmuşlar. Burada indi ermənilər və aysorlar yaşayır. Hazırda erməni dilində olan rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Arzni" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 33).

Coğrafi koordinatları: 40°17′ şm. e., 44°35′ ş. u.

**Əskipara** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 31 km şimal-qərbdə, dəniz səviyyəsindən 850 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Toponim türk dilində "qədim, köhnə" mənasında işlənən "əski" sözü ilə "torpaq sahəsi" (339, s. 428), "yarı hissə" (278, s. 120) mənasında işlənən "para" sözünün birləşməsindən əmələ gəlmişdir. Kəndin adı dəyişdirilərək "Voskepar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 162).

Coğrafi koordinatları: 41°03′ şm. e., 45°03′ ş. u.

**Əştərək** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda kənd. İndi



*Əştərək kəndi*

Araqatsotn vilayətində şəhər, vilayətin mərkəzi. İrəvan şəhərindən 20 km şimal-qərbdə, Kasaq çayının yanında yerləşir. IV əsrlərdə Arşakilərin, VIII–X əsrlərdə ərəblərin, XI–XVI əsrlərdə Səlcuq türklərinin tabeliyində, XVI–XIX əsrlərdə Karbibasar mahalının tərkibində olmuşdur. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. 1828-ci ildə rus işğalından sonra İrəvan quberniyasının İrəvan qəzasının, sonra Eçmiədzin qəzasının tabeliyinə keçmişdir. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Əştərək" (143, s. 162), 1728-ci il tarixdə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə Karbi nahiyəsinin tərkibində "Aştarak" (143, s. 75), Qafqazın 5 verstlik xəritəsində "Əştərək" (Aştarak) kimi (348, s. 24) qeyd edilmişdir. Danışıq dilində "Həştərək" formasında işlədilir. 9 sentyabr 1930-cu ildə Ermənistan SSR-də yaradılan rayonun adını daşımışdır. Erməni alimləri Əştərək (Aştarak) toponiminin erməni dilində "qüllə" mənasında işlənən "aştarak" sözündən əmələ gəldiyini göstərirlər (318, s. 81–82; 427, s. 297). Lakin bu toponim türk dilində "yüksək dağ keçidi" mənasında işlənən "aşu" (aş – müəll.) sözü ilə (339, s. 61; 23, s. 115) türk dilində "qırışıqlı dağ yüksəkliyi", "parçalanmış daş qırıntıları" (çınqıl), "uca, çoxdişli (daraq şəkilli) dağ" mənasında işlənən "tarak" sözündən (339, s. 543; 23, s. 116) əmələ gəlmişdir. Hazırda erməni dilində rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Aştarak" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 23).

Coğrafi koordinatları: 40°18′ şm. e., 44°24′ ş. u.

**Əyər** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Kəndin adı Əyər olsa da, mənbələrdə "Ağyar" kimi də qeyd edilir. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 3 km cənub-şərqdə, Arpaçayın sahilində yerləşir. XIII əsrdə Amağu məbədinin tabeliyində olmuşdur (364, №736). İlk dəfə XII–XIII əsrlərdə adı çəkilmişdir. 1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. Ermənilər kəndə 1828–1829-cu illərdə İranın Xoy, Səlmas və Maku vilayətlərindən köçürülmüşdür (427, s. 20; 416, s. 7). Burada 1831-ci ildə 30, 1887-ci ildə 23, 1926-cı ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, 90–91, 160–161). İndi yalnız ermənilər yaşayır. Toponim "öz təşkilatı olan və varlılar hesabına kasıblara kömək edən şəhər yoxsullarından ibarət təbəqə" mənasında işlənən "əyar" sözü (338, s. 574) əsasında formalaşmışdır. Erm. SSR AS RH-nin 10 sentyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Aqarakadzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 7).

Coğrafi koordinatları: 39°44′ şm. e., 45°20 ş. u.

**Əylənli** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 40 km şimal-qərbdə, Alagöz dağının cənub-qərb ətəyində, dəniz səviyyəsindən 1730 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 8). Kəndin digər adı həm də "Aynalı", "Ağlyanlı" kimi göstərilir (415, s. 34). Kənddə 1873-cü ildə 196, 1886-cı ildə 236, 1897-ci ildə 308, 1904-cü ildə 215, 1914-cü ildə 228, 1916-cı ildə 315 (415, s. 34–35, 116–117), 1918-ci ilin yanvarında 300 nəfər (309, s. 220) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevral ayında kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq sakinləri tarixi-etnik torpaqlarından tamamilə deportasiya olunmuşdur (309, s. 220) və kəndə 1916–1918-ci illərdə Türkiyənin Muş vilayətindən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir (415, s. 117). Hazırda burada ermənilər yaşayır. Toponim əylənli türk tayfa adı (143, s. 30, 92–93) əsasında yaranmışdır. Erm.

SSR AS RH-nin 19 aprel 1950-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Davtaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 66).

Coğrafi koordinatları: 40°22' şm. e., 43°58' ş. u.

**Əyrivəng** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 12 km şimal-qərbdə, Göyçə gölünün qərb sahilində, dəniz səviyyəsindən 1940 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeydə alınmışdır (348, s. 9). Kənddə 1831-ci ildə 65, 1873-cü ildə 326, 1886-cı ildə 451, 1897-ci ildə 545, 1904-cü ildə 708, 1914-cü ildə 896, 1916-cı ildə 735 (415, s. 68–69, 144–145), 1918-ci ilin yanvarında 706 nəfər (309, s. 220) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevral ayında azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən vəhşicəsinə kənddən qovulmuş (309, s. 220) və buraya xaricdən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. 1926-cı ildə burada cəmi 1 nəfər, 1931-ci ildə 17 nəfər azərbaycanlı yaşamışdır (415, s. 69, 145). 1931-ci ildən sonra kənddə yaşayan azərbaycanlılar ermənilər tərəfindən sıxışdırıldıqları üçün qonşu Ağqala (Berdunk) kəndinə köçmüşlər. Həmin vaxtdan kənddə yalnız ermənilər yaşayır. Kənddə IX–X əsrlərə məxsus alban abidəsi – qala vardır və kəndin adı həmin qalanın adından götürülmüşdür. Toponim qədim türk dilində "ayrılmış" mənasında işlənən "ayrı" sözü ilə (365, s. 114–115; 337, s. 238; 339, s. 42) məbəd mənasında işlənən "vəng" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 8 avqust 1991-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Hayravan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 118).

Coğrafi koordinatları: 40°26' şm. e., 45°05' ş. u.

# G

**Gabud** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Paşalı (Vayk) yaşayış məntəqəsindən 16 km cənub-şərqdə, Arpaçayın sol qolu olan Axtaçayın yaxınlığında, dəniz səviyyəsindən 1840 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmişdir (143, s. 60). Kəndin adı ilk dəfə XIII əsrdən xatırlansa da, ərazidəki tarixi abidələr onun daha da qədim olduğunu göstərir. Belə ki kəndin əsası X əsrdən əvvəl qoyulmuşdur (422, s. 88–89). Erməni müəlliflərinin əsərlərində kəndin adı "Gyabut", "Gyabud" formalarında verilir (415, s. 90; 427, s. 874). Burada 1831-ci ildə 35, 1873-cü ildə 116, 1886-cı ildə 113, 1897-ci ildə 159, 1904-cü ildə 140, 1914-cü ildə 154, 1916-cı ildə 107 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış, sakinləri deportasiya olunmuşdur. Yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk edən azərbaycanlılar doğma yurdlarına qayıda bilmişlər. Burada 1922-ci ildə 33, 1926-cı ildə 120, 1931-ci ildə 181 (415, s. 90–91, 158–159), 1987-ci ildə 468 nəfər (85, s. 344) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci il noyabrın sonunda Ermənistan dövləti tərəfindən kəndin sakinləri – azərbaycanlılar tamamilə öz ata-baba yurdlarından qovulmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Kəndin adı Azərbaycan dilində "qayalıqdan keçən yol", "uçurum", "daşlıq" mənasında işlənən "gab" sözünə (253, s. 126) "-ud" şəkilçisinin artırılması yolu ilə düzəlmişdir. Kəndin adı erməni dilinə uyğunlaşdırılaraq "Kapuyt" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 108).

Coğrafi koordinatları: 39°37' şm. e., 45°35' ş. u.

**Gədikvəng** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 4 km şimal-şərqdə, Erdəpin çayının sahilində, Ələyəz çayının yanında, dəniz səviyyəsindən 2210 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 138) qeyd edilmişdir. Kəndin adı "Qoturvəng", "Qoduxvəng", "Gedikvəng" kimi göstərilsə də (211, s. 212), əsl adı Gədikvəngdir. Kəndin adı X əsr mənbəsində çəkilir (422, s. 69). Burada 1873-cü ildə 142, 1886-cı ildə 201, 1897-ci ildə 206, 1904-cü ildə 126, 1914-cü ildə 138, 1916-cı ildə 273 nəfər yalnız azərbaycanlı yaşamışdır (415 s. 92–93, 162–163). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Sağ qalan azərbaycanlılar yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 71, 1926-cı ildə 139, 1931-ci ildə 171 (415, s. 93, 163), 1939-cu ildə 313, 1970-ci ildə 396, 1979-cu ildə 537 (427, s. 875; 416, s. 58), 1987-ci ildə 600 nəfər azərbaycanlı yaşamışdır. Azərbaycanlılar Ermənistan dövləti tərəfindən öz ata-baba torpaqlarından qovulmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim Azərbaycan dilində "dağın beli, aşırım" (11, s. 149), "dağın belində batıq yer, aşırım, dağ keçidi" mənasında işlənən "gədik" sözü ilə (198, s. 115), "dini məbəd, kilsə, abidə" mənasında işlənən "vəng" sözünün birləşməsindən əmələ gəlmişdir. Kəndin adı erməni dilinə uyğunlaşdırılaraq "Getikvank" adlandırılıb. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 58).

Coğrafi koordinatları: 39°55′ şm. e., 45°28′ ş. u.

**Gərd** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 33 km qərbdə, Gərd çayının sol sahilində, dəniz səviyyəsindən 1900 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Erməni müəlliflərinin əsərlərində kəndin adı "Gird", "Kart", "Karti" formalarında qeyd edilmişdir (415, s. 56; 427, s. 882). Kənddə XVI–XVII əsrlə bağlı türklərə aid tarixi abidələr vardır. 1918-ci ildə Andranikin qoşunu kənddə kütləvi qırğın törətmiş, sağ qalan əhali Ordubada qaçmışdır. Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra əhalinin bir hissəsi doğma yer-yurdlarına qayıtmışdır. Kənddə 1897-ci ildə 60, 1922-ci ildə 71, 1926-cı ildə 71, 1931-ci ildə 115 (415, s. 56–57, 134–135), 1939-cu ildə 170, 1959-cu ildə 250, 1970-ci ildə 195, 1979-cu ildə 61 nəfər (427, s. 882) azərbaycanlı yaşamışdır. 1988-ci ildə kəndin bütün sakinləri Ermənistan dövləti tərəfindən tarixi-etnik vətənlərindən deportasiya olunmuşdur. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim fars dilində "lək, gərdi", "əkilmiş tarla" mənasında işlənən "kərd" sözü (104, s. 284) əsasında yaranmışdır. 1968-ci ildə baş verən zəlzələdən sonra əhalisi Zeyvə kəndinə köçürülmüşdür. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Kard" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 58).

Coğrafi koordinatları: 39°13′ şm. e., 46°07′ ş. u.

**Gərgər** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Cəlaloğlu (Stepanavan) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 15 km məsafədə, dəniz səviyyəsindən 1450 m hündürlükdə yerləşir. Kəndin adı erməni müəlliflərinin əsərlərində Rus Gərgəri (Gərgər rus) formasında qeyd edilmişdir (415, s. 78). XIX əsrin əvvəllərində ruslar bura köçürüləndən sonra toponimə "rus" sözü (etnonim) əlavə edilərək rəsmi sənədlərdə "Rus Gərgəri" kimi öz əksini tapmış-

dır. Kənddə ruslarla yanaşı, 1897-ci ildə 6, 1926-cı ildə 7, 1931-ci ildə 16 nəfər azərbaycanlı yaşamışdır (415, s. 78–79, 148–149). 1940-cı illərdə azərbaycanlılar kənddən köçürülmüşdür. 1988-ci ildən sonra kənddə yaşayan ruslar da ermənilərin təzyiqi nəticəsində sıxışdırılıb çıxarılmışdır. İndi kənddə əsasən ermənilər yaşayır. Toponim qarqar qədim türk tayfasının (377, s. 479) fonetik forması olan gərgər türk tayfa adı (211, s. 184–186) əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 14 fevral 1937-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək rus şairi Puşkinin şərəfinə "Puşkino" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 168).

Coğrafi koordinatları: 40°57′ şm. e., 44°24′ ş. u.

**Gərgər** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Cəlaloğlu (Stepanavan) rayonunda, Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 14 km şimal-qərbdə, Gərgər çayının sahilində, 1400 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində kəndin adı "Gərgər", "Gyargyari hay", "Herher" formalarında qeyd edilir (415, s. 78; 427, s. 879). Kənddə 1897-ci ildə ermənilərlə yanaşı, 4 nəfər azərbaycanlı yaşamışdır (415, s. 78–79). XX əsrin əvvəllərində – 1905–1906-cı illərdə onlar sıxışdırılaraq kənddən çıxarılmışdır. İndi burada yalnız ermənilər yaşayır. Toponim yunan tarixçisi Strabonun "Coğrafiya" əsərində qeyd edilən qədim qarqar türk etnonimi (377, s. 479; 24, s. 19) əsasında əmələ gəlmişdir. "Gərgər" "qarqar" türk etnoniminin fonetik variantıdır. Qarqar etnoniminə həm də "herher, xerxer" fonetik variantlarında Azərbaycan toponimiyasında rast gəlinir (211, s. 184–186). İndi kənd sənədlərdə "Qarqar" adında əksini tapır (416, s. 52). "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 52).

Coğrafi koordinatları: 40°57′ şm. e., 44°26′ ş. u.

**Gığı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 26 km şimal-qərbdə, Gığı çayının sahilində, dəniz səviyyəsindən 1580 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Burada azərbaycanlılarla bağlı X əsrə aid Gığı qalası mövcuddur. Kənddə 1831-ci ildə 131, 1873-cü ildə 191, 1886-cı ildə 254, 1897-ci ildə 215, 1904-cu ildə 569, 1914-cü ildə 190 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57, 134–135). 1905-ci ildə və 1918-ci ilin payızında erməni silahlı birləşmələri Gığı dərəsində kütləvi qırğınlar törətmiş, əhalini didərgin salmışlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlıların bir qismi öz kəndlərinə qayıda bilmişdir. Burada 1922-ci ildə 335, 1926-cı ildə 265, 1931-ci ildə 380 (415, s. 56-57, 134-135), 1939-cu ildə 491, 1959-cu ildə 570, 1970-ci ildə 923, 1979-cu ildə 1115 nəfər azərbaycanlı yaşamışdır (427, s. 829). 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tamamilə tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim türk mənşəli "kiği/kiğili" etnonimi (305, s. 24) əsasında əmələ gəlmişdir. Kəndin adı erməni dilinə kalka edilərək "Geği" adlandırılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 56).

Coğrafi koordinatları: 39°13′ şm. e., 46°09′ ş. u.

**Gomaran** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Güdqum (Geğanuş) kəndindən 2 km şimal-qərbdə, Oxçu çayının sağ sahilində, dəniz səviyyəsindən 1000 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 71). 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış mən-

təqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə 1897-ci ildə 169, 1914-cü ildə 158 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57, 134–135). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşlar (309, s. 206). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra – 1922–1924-cü illərdə kəndin sakinləri öz evlərinə dönə bilmişlər. Burada 1926-cı ildə 52, 1931-ci ildə 68 (415, s. 56–57, 134–135), 1939-cu ildə 91, 1959-cu ildə 97, 1970-ci ildə 183, 1979-cu ildə 163 nəfər azərbaycanlı yaşamışdır (427, s. 937). Kəndin sakinləri 1988-ci ilin noyabr ayında Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından tamamilə qovulmuşdur. Hazırda orada ermənilər yaşayır. Toponim türk tayfası səlcuqların bir qolu olan "komar" (kumar) etnoniminə cəmlik bildirən "-an" şəkilçisinin qoşulması nəticəsində əmələ gəlib, "komarların kəndi, yaşayış yeri" mənasını ifadə edir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 61).

Coğrafi koordinatları: 39°10′ şm. e., 46°24′ ş. u.

**Gomur** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 32 km cənub-qərbdə, Arpaçayın sol qolu olan Axtaçayın sahilində, dəniz səviyyəsindən 1880 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə kəndin adı "Kömür" kimi (143, s. 60) qeyd edilmişdir. Qədim adı erməni müəlliflərinin əsərlərində "Gomer" fonetik formasında qeyd edilir və ilk dəfə XIII əsrdən xatırlanır (422, s. 89). Kəndin adı həm də "Gyumur", "Gomk" formalarında göstərilir (415, s. 88). Kənddə 1831-ci ildə 27, 1873-cü ildə 285, 1886-cı ildə 293, 1897-ci ildə 353, 1904-cü ildə 365, 1914-cü ildə 400, 1916-cı ildə 388 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158–159). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış, sakinləri deportasiya olunmuşdur. Sağ qalanlar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra doğma yurdlarına qayıda bilmişlər. Burada 1922-ci ildə 155, 1926-cı ildə 200, 1931-ci ildə 316 (415, s. 88–89, 158–159), 1939-cu ildə 386, 1959-cu ildə 381, 1970-ci ildə 590, 1979-cu ildə 745 nəfər (427, s. 942) yalnız azərbaycanlı yaşamışdır. Gomur kəndində ən qədim zamanlardan 1988-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. Azərbaycanlılar 1988-ci il noyabrın sonunda Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim qədim türk dilində "dağ başında dar, yarğanlı uçurum yer" mənasında işlənən "kömür" sözündən (359, II (2), s. 1321) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Komk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 62).

Coğrafi koordinatları: 39°37′ şm. e., 45°34′ ş. u.

**Goran** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 30 km şimal-qərbdə Çiçxan çayının yanında, Çubuxlu dağının ətəyində, dəniz səviyyəsindən 1850 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. 1937-ci ilə kimi keçmiş Quqark (Qarakilsə) rayonunun tərkibində olmuşdur. Kəndin digər adı "Gögəran", "Göyərçin" formalarında da göstərilir (415, s. 50). Toponim şahsevən türk tayfasından olan "goran" etnonimi (254, s. 41) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Qoqaran" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 61).

Coğrafi koordinatları: 40°53′ şm. e., 44°11′ ş. u.

**Goravan** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 19 km cənub-şərqdə, Vedi çayının sahilində, Vedi kəndinin cənubunda, dəniz səviyyəsindən 925 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə Kürəvan (143, s. 51), Qafqazın 5 verstlik xəritəsində "Goravan" kimi (348, s. 61) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 59, 1873-cü ildə 244, 1886-cı ildə 325, 1897-ci ildə 530, 1904-cü ildə 634, 1914-cü ildə 697, 1916-cı ildə 614 nəfər azərbaycanlı yaşamışdır (415, s. 84–85, 154–155). 1918-ci ilin fevral ayında azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qırğınlarla qovulmuş, buraya isə Türkiyənin Muş, Çatax və Van bölgələrindən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. Kənddə 1922-ci ildə 393 azərbaycanlı, 164 erməni, 1926-cı ildə 403 azərbaycanlı, 132 erməni, 1931-ci ildə 466 azərbaycanlı, 135 erməni (415, s. 84–85, 154–155), 1939-cu ildə 706 nəfər azərbaycanlı, 145 erməni yaşamışdır. SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin əhalisi Azərbaycana köçürülmüşdür. İndi kənddə yalnız ermənilər məskunlaşıb. Toponim qədim türk dilində "mal-qara üçün pəyə", "həyət" mənasında işlənən "kora" sözünə (359, II (1), s. 551), urartu dilində "ölkə, yer" mənasında işlənən "ebani", "abani" sözünün (332, s. 68; 258, s. 75) fonetik forması olan "avan" (van) sözünün qoşulması əsasında əmələ gəlmişdir. Toponimin "Kürəvan" formasının kökünü "kürə" sözü təşkil edir. Bu söz də qədim türk dilində "kura" formasında "mal-qara pəyəsi" mənasını ifadə edir (359, II (1), s. 920). "Kora" və "kura" eyni məna bildirən müxtəlif fonetik formaya malik sözlərdir. Kəndin adı Erm. SSR AS RH-nin 4 aprel 1944-cü il tarixli qərarı ilə dəyişdirilərək "Yenikənd" qoyulmuşdur. Sonra Erm. SSR AS RH-nin 3 iyul 1968-ci il tarixli qərarı ilə kəndin adı yenidən dəyişdirilərək "Goravan" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 62).

Coğrafi koordinatları: 39°54′ şm. e., 44°44′ ş. u.

**Gorus** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında kənd. Keçmiş Gorus rayonunda, indi Sünik vilayətində eyniadlı şəhər. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 69 km şimal-şərqdə, Bazarçay (Vorotan) çayının sol tərəfində, dəniz səviyyəsindən 1400 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Erməni müəlliflərinin əsərlərində Gorusun XIII əsrdən xatırlandığı göstərilir (427, s. 953). Erməni ədəbiyyatında "Qoris", "Gerusi", "Gorus" formalarında qeyd edilir (415, s. 28). Burada 1897-ci ildə 228, 1926-cı ildə 51, 1931-ci ildə 13 nəfər azərbaycanlı yaşamışdır (415, s. 28–29, 112–113). Zəngəzurda 1930-cu il sentyabrın 9-da Gorus rayonu yaradılmışdır. Gorus şəhərində yaşayan azərbaycanlılar XX əsrin 40-cı illərində tamamilə Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim "gorus" (qoros, xoros) türk etnonimi (168, s. 10–11) əsasında əmələ gəlmişdir. Hazırda erməni dilində rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Qoris" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haq-



*Gorus kəndi*

qında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 63).

Coğrafi koordinatları: 39°31' şm. e., 46°20' ş. u.

**Gödəkbulaq** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 60 km cənub-şərqdə, Göyçə gölünün cənub-şərq tərəfində, dəniz səviyyəsindən 1950 m hündürlükdə yerləşir. XIX əsrin əvvəllərinə kimi burada yalnız Azərbaycan türkləri yaşamışdır. Türkmənçay sülh müqaviləsindən sonra – 1828–1829-cu illərdə burada Türkiyədən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. Kənddə 1886-cı ildə 26 nəfər azərbaycanlı yaşamışdır (415, s. 110). 1890-cı illərdə azərbaycanlılar buradan tamamilə çıxarılmış, təkcə ermənilər qalmışdır. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində "qısa, uzun olmayan" mənasında işlənən "gödək" və bulaq hidroterminin birləşməsindən əmələ gəlmişdir. Hidrotoponimdir. Erm. SSR AS RH-nin 12 iyun 1946-cı il tarixli qərarı ilə kəndin adı hərfi tərcümə edilərək "Qarcaxpyur" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 109).

Coğrafi koordinatları: 40°09' şm. e., 45°34' ş. u.

**Gödəklər** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 83 km şimal-şərqdə, dəniz səviyyəsindən 1900 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi keçmiş Dilican rayonunun inzibati ərazi bölgüsünə daxil idi. 1937-ci il dekabrın 31-də Krasnoselsk rayonu təşkil edildikdən sonra Dilican rayonunun tərkibindən çıxarılıb Krasnoselsk rayonunun tərkibinə daxil edilmişdir. 1918-ci ilə kimi burada azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1919–1920-ci illərdə Türkiyədən köçürülmüşdür (415, s. 32, 117). Toponim – "gödəklər" türk etnonimi (386, s. 535) əsasında əmələ gəlmişdir. Ermənilər buraya köçürüldükdən sonra 1924-cü ildə kəndin adı dəyişdirilərək "Martuni" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 135).

Coğrafi koordinatları: 40°40' şm. e., 45°15' ş. u.

**Gödəkli** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Kəndin digər adı erməni müəlliflərinin əsərlərində Göydağlı, Kiçik Dəlilər formasında göstərilir (415, s. 48). Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 9 km şimal-qərbdə, dəniz səviyyəsindən 845 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 57). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. Ermənilər kəndə 1828–1829-cu illərdə İranın Xoy və Səlmas vilayətlərindən köçürülüb yerləşdirilmişdir (416, s. 141). Toponim qazaxlar türk tayfasına mənsub olan "gödəkli" etnonimi (386, s. 535) əsasında formalaşıb. Erm. SSR AS RH-nin 20 avqust 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Mrqavet" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 141).

Coğrafi koordinatları: 39°57' şm. e., 44°32' ş. u.

**Gölkənd** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 30 km cənub-şərqdə, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 1940 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 57), Qafqazın 5 verstlik xəritəsində (348, s. 59) qeyd edilmişdir. Erməni müəlliflərinin əsərlərində sonradan Gölkənd oykonimindəki "kənd" coğrafi nomeni ixtisar edilərək, "Göl" formasında qeyd edilmişdir (415, s. 66; 419, s. 113).

Kənddə tarixən azərbaycanlılar yaşamışdır. 1828-ci il Türkmənçay müqaviləsindən sonra – 1829–1830-cu illərdə Türkiyənin Ələşkirt və Muş



Gölkənd

vilayətlərindən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmiş (416, s. 90) və azərbaycanlılar sıxışdırılmışdır. Burada ermənilərlə yanaşı, 1897-ci ildə 23 nəfər azərbaycanlı yaşamışdır (415, s. 66–67). 1905–1906-cı illərdə baş verən erməni-azərbaycanlı münaqişəsi nəticəsində azərbaycanlılar erməni silahlıları tərəfindən deportasiya olunmuşdur. Hazırda burada ermənilər yaşayır. Toponim Azərbaycan dilində "dənizlə bilavasitə əlaqəsi olmayan təbii su hövzəsi" mənasında işlənən "göl" sözü ilə (11, s. 194) "kənd" sözünün birləşməsindən əmələ gəlmişdir. Kəndin adı Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə erməni dilinə kalka edilərək "Liçk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 41–42).

Coğrafi koordinatları: 40°09′ şm. e., 45°14′ ş. u.

**Gölkənd** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 93 km şimal-şərqdə, Tərsa çayının sağ sahilində, dəniz səviyyəsindən 1420 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 56), Qafqazın 5 verstlik xəritəsində (348, s. 59) qeyd edilmişdir. Kənddən şimalda 7 nohur (gölməçə) var. Ona görə də kənd Gölkənd adlandırılıb. Erməni müəlliflərinin əsərlərində kəndin bir adının da Qaraqoyunlu olduğu göstərilir (415, s. 30). Burada 1831-ci ildə 357, 1873-cü ildə 1567, 1886-cı ildə 2157, 1908-ci ildə 1555, 1914-cü ildə 1866, 1916-cı ildə 1486, 1919-cu ildə 1376 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31, 114–115). 1919-cu ilin yazında azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qovulmuşlar. Yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndin sakinləri tarixi yurdlarına qayıda bilmişdir. 1922-ci ildə kənddə 1015, 1926-cı ildə 1055, 1931-ci ildə 1279 (415, s. 30–31, 114–115), 1959-cu ildə 1123, 1970-ci ildə 1880, 1979-cu ildə 2022 (427, s. 892–893; 416, s. 20), 1987-ci ildə 2700 nəfər (85, s. 89) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kəndin sakinləri Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından tamamilə



Gölkənd

qovulmuşdur. İndi burada ermənilər yaşayır. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Ayqut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati- ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 20).

Coğrafi koordinatları: 40°41′ şm. e., 45°10′ ş. u.

**Göllü** – Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, sonradan Amasiya rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi

Gümrü şəhərindən 46 km şimal-qərbdə, Arpa gölündən 10-11 km şimalda, Sultanabad-Qazançı yolunun 6 km-də, dəniz səviyyəsindən 2050 m hündürlükdə yerləşir. Kəndin sakinləri azərbaycanlılar olmuşdur. Erməni müəlliflərinin əsərlərində kənddə yaşayanların qarapapaqlar olduğu göstərilir (415, s. 20) və onlar ayrıca xalq kimi təqdim edilir. Qarapapaqlar türk tayfaların-



*Göllü kəndi*

dan biridir və azərbaycanlıların etnogenizində iştirak edən etnoqrafik qrupdur. Kənddə 1886-cı ildə 204, 1897-ci ildə 284, 1908-ci ildə 313, 1914-cü ildə 403 nəfər azərbaycanlı yaşamışdır (415, s. 18–119, 104–105). 1920-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən kənddən qovulmuşdur. 1920-ci ildən sonra indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar doğma kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə kənddə 242, 1926-cı ildə 316, 1931-ci ildə 334 (415, s. 18–19, 104–105), 1939-cu ildə 416, 1959-cu ildə 470, 1970-ci ildə 698, 1979-cu ildə 757 (427, s. 891; 416, s. 30), 1987-ci ildə 760 nəfər azərbaycanlı yaşamışdır. 1989-cu ilin yanvar-fevral aylarında azərbaycanlılar ermənilər tərəfindən doğma torpaqlarından qovulmuşdur. Hazırda kənddə Gürcüstanın Axılkələk rayonundan köçüb gələn ermənilər yaşayır. Toponim "göl" sözünə "-lü" şəkilçisinin artırılması ilə düzəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Ardenis" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 30).

Coğrafi koordinatları: 41°04' şm. e., 43°43' ş. u.

**Göykilsə** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Kotayk, Abovyan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzindən 47 km cənub-şərqdə, dəniz səviyyəsindən 1700 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 80), Qafqazın 5 verstlik xəritəsində (348, s. 59) qeyd edilmişdir. Burada 1828-ci ilə kimi yalnız azərbaycanlı əhali yaşamışdır. Ermənilər buraya 1828–1829-cu illərdə Türkiyədən köçürülmüşdür. Kənddə 1873-cü ildə 293, 1886-cı ildə 333, 1897-ci ildə 424, 1914-cü ildə 890 nəfər azərbaycanlı yaşamışdır (415, s. 44–45, 124–125). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq deportasiya edilmişdir. Burada 1922-ci ildə 94, 1926-cı ildə 100, 1931-ci ildə 170 nəfər azərbaycanlı yaşamışdır (415, s. 44–45, 124–125). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, əhalisi Azərbaycana köçürülmüşdür. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim rəng bildirən "göy" sözü ilə "kilsə" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Kaputan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 108).

Coğrafi koordinatları: 40°19' şm. e., 44°41' ş. u.

**Göykümbət** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 27 km şimal-qərbdə, Zəngi çayının yanında, Zərincə dağı tərəfdə, dəniz səviyyəsindən 870 m hündürlükdə yerləşir. 1590-cı il tarixli "İrəvan əyalə-

tinin müfəssəl dəftəri"ndə "Göygünbəz" (143, s. 159), Qafqazın 5 verstlik xəritəsində "Göykümbət" formasında (348, s. 59) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 21, 1873-cü ildə 166, 1886-cı ildə 200, 1897-ci ildə 230, 1908-ci ildə 252, 1914-cü ildə 280, 1916-cı ildə 241 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 80–81, 150–151). 1918-ci ildə kəndin sakinləri erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş və xaricdən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir. Sağ qalan azərbaycanlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz yurdlarına qayıda bilmişdir. Burada ermənilərlə yanaşı, 1922-ci ildə 98, 1926-cı ildə 162, 1931-ci ildə 174 nəfər azərbaycanlı yaşamışdır (415, s. 80–81, 150–151). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin əhalisi zorla Azərbaycana köçürülmüşdür. 1950-ci illərdə deportasiya edilən ailələrin az bir qismi yenidən ata yurdlarına dönsələr də, 1970-ci ildə tamamilə deportasiya olunmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Toponim Azərbaycan dilində rəng mənasında işlənən "göy" sözü ilə fars dilində "yarımkürə şəklində bina damı, qübbə" mənasında işlənən "kümbəd" sözünün birləşməsindən (11, s. 127) əmələ gəlmişdir. Azərbaycan dilində d~z səs əvəzlənməsi qanunauyğun haldır. Erm. SSR AS RH-nin 1 dekabr 1949-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Geğanist" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 54).

Coğrafi koordinatları: 40°08′ şm. e., 44°26′ ş. u.

**Göysu** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 97 km şərqdə, dəniz səviyyəsindən 2075 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 59) qeyd edilmişdir. Kənddə 1897-ci ildə 187, 1908-ci ildə 233, 1914-cü ildə 360, 1916-cı ildə 284 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 110–111). 1919-cu ildə erməni silahlı birləşmələri tərəfindən azərbaycanlılar soyqırımına məruz qalaraq deportasiya olunmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra – 1922–1924-cü illərdə azərbaycanlılar ata-baba torpaqlarına qayıda bilmişlər. 1926-cı ildə burada 227, 1931-ci ildə 215 (415, s. 26–27, 110–111), 1939-cu ildə 314, 1959-cu ildə 264, 1970-ci ildə 396, 1979-cu ildə 531 nəfər (427, s. 896; 416, s. 25) azərbaycanlı yaşamışdır. 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən yenidən tarixi-etnik vətənlərindən qovulmuşlar. Hazırda orada ermənilər yaşayır. Toponim Azərbaycan dilində rəng bildirən "göy" sözü ilə qədim türk dilində "çay" mənasında işlənən "su" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Avazan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 25).

Coğrafi koordinatları: 40°18′ şm. e., 45°42′ ş. u.

**Göyyoxuş** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 35 km şimal-qərbdə, Bəykənd çayının qolunun üstündə, Ağbulaq və Nalbənd kəndləri arasındakı yolun yaxınlığında, dəniz səviyyəsindən 1800 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Toponim Azərbaycan dilində "yaşıllıq" mənasında işlənən "göy" sözü ilə "dik, çətin çıxılan yer" mənasında işlənən "yoxuş" sözünün (10, s. 561) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Saralanc" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-

ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 175).

Coğrafi koordinatları: 40°52' şm. e., 44°05' ş. u.

**Gözəldərə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Araqats (Ələyəz) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 55 km şimal-qərbdə, Qınxdəyirman kəndinin yaxınlığında, dəniz səviyyəsindən 2190 m hündürlükdə yerləşir. 15 mart 1972-ci ildə Araqats ra-



*Gözəldərə kəndi*

yonu təşkil edilənə kimi Abaran rayonunun tərkibində olmuşdur. Kənddə 1831-ci ildə 63, 1873-cü ildə 413, 1886-cı ildə 509, 1897-ci ildə 618, 1914-cü ildə 413 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 45, 96–97). Kəndin köklü sakinləri olan azərbaycanlılar 1918-ci ildə erməni silahlı birləşmələri tərəfindən soyqırımına məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuş və 1919–1920-ci illərdə Türkiyənin Muş, Bitlis, İranın Xoy və Səlmas vilayətlərindən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir. Hazırda kənddə ermənilər yaşayır. Toponim Azərbaycan toponimiyasında "axar-baxarlı, cəlbedici, füsunkar, gözəl təbii mənzərəsi olan" mənasında işlənən "gözəl" sözü ilə Azərbaycan dilində "iki dağ arasında, düzənlikdə dərin çuxur" mənasında işlənən "dərə" sözünün birləşməsindən formalaşmışdır. Erm. SSR AS RH-nin 15 iyul 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Gexadzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 53).

Coğrafi koordinatları: 40°37' şm. e., 44°10' ş. u.

**Gözlü** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 53 km şimal-qərbdə, Alagöz dağının ətəyində, dəniz səviyyəsindən 1850 m hündürlükdə yerləşir. Kənd XIX əsrin 30–40-cı illərində Eçmiədzin qəzasının tərkibində olmuşdur (427, s. 146). Qafqazın 5 verstlik xəritəsində (348, s. 59) qeyd edilmişdir. 1828-ci ilə kimi azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra – 1829–1832-ci illərdə Türkiyənin Muş, Ələşkirt, Qars, İranın Qəzvin və Xoy vilayətlərindən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmiş, azərbaycanlılar erməni silahlıları tərəfindən deportasiya olunmuşdur (427, s. 146). Toponim "gözlü" tayfa adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Akunk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 12).

Coğrafi koordinatları: 40°25' şm. e., 43°54' ş. u.

**Güdqum** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 4 km cənubda, dəniz səviyyəsindən 900 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tədricən tərk etmişdir. Burada 1897-ci ildə ermənilərlə yanaşı, 19 nəfər azərbaycanlı da yaşamışdır (415, s. 56–57). XX əsrin əvvəllərində – 1905–1906-cı

illərdə azərbaycanlılar kənddən qovulmuşdur. Erm. SSR AS RH-nin 29 iyun 1949-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Geğanuş" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 54).

Coğrafi koordinatları: 43°10' şm. e., 46°25' ş. u.

**Gülablı** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 39 km şimal-şərqdə, Ortülü dağının ətəyində, dəniz səviyyəsindən 2025 m hündürlükdə yerləşir. Erməni



*Gülablı kəndi*

müəlliflərinin əsərlərində kəndin adı "Gülaplı", "Gülab", "Gülabdı" formalarında da qeyd edilir (415, s. 4). "İrəvan əyalətinin icmal dəftəri"ndə "Güləbdi" formasında (143, s. 110), Qafqazın 5 verstlik xəritəsində "Gülablı" kimi (348, s. 70) qeydə alınmışdır. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. Toponim "gülablı" nəsil adı əsasında əmələ gəlmişdir. Patronim toponimdir. Erm. SSR AS RH-nin 15 iyun 1946-cı il tarixli qərarı ilə kəndin adı hərfi tərcümə edilərək "Dzoraqlux" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 126).

Coğrafi koordinatları: 40°34′49" şm. e., 44°29' 07" ş. u.

**Güləkərək** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Cəlaloğlu (Stepanavan) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 17 km şimal-qərbdə, dəniz səviyyəsindən 1400 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. Toponim "gül" sözü ilə "-ək" şəkilçisi qəbul etmiş "əkər" türk etnonimi (359, I (1), s. 97) əsasında əmələ gəlmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 59). Hazırda erməni dilində rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Qyulaqarak" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 59).

Coğrafi koordinatları: 40°57′ şm. e., 44°28′ ş. u.

**Güllübulaq** – Qars vilayətinin Qars qəzasının Şörəyel nahiyəsində, 1921-ci il Qars müqaviləsindən sonra Ermənistana qatılan, Amasiya (Ağbaba) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 13 km şimal-qərbdə, dəniz səviyyəsindən 1800 m hündürlükdə yerləşir. Əhalisi yalnız azərbaycanlılardan ibarət olmuşdur. Qızılqoç nahiyəsindəki Güllübulaqla Ağbaba nahiyəsindəki Güllübulağı fərqləndirmək üçün bu kənd rəsmi sənədlərdə "Türk Güllübulağı" və yaxud "Qarapapaq Güllü-



*Güllübulaq kəndi*

bulağı" kimi yazılırdı. Kənddə 1886-cı ildə 673, 1897-ci ildə 958, 1914-cü ildə 1137, 1926-cı ildə 1142, 1939-cu ildə 1388, 1970-ci ildə 2459, 1979-cu ildə 2580 nəfər azərbaycanlı yaşamışdır (415, s. 104–105, 416, s. 48). Kənddə 1987-ci ildə 2985 nəfər azərbaycanlı yaşamışdır. 1937-ci ilədək əhalisi qarapapaqlar kimi qeydə alınmışdır. Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevral ayında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhalisinin bir qismi Qars vilayətinə, bir qismi də İranın Gümrüdəki konsulluğu vasitəsilə Urmiya və Səlmas əyalətlərinə köç etmişdir. 1921-ci il Qars müqaviləsi ilə kənd Ağbaba nahiyəsinin tərkibində sovet Ermənistanına daxil edilmişdir. Bundan sonra kəndin əhalisinin bir qismi geri qayıtmışdır. Toponim "güllü" və "bulaq" sözlərinin birləşməsi əsasında əmələ gəlmişdir. Kəndin əhalisi 1988-ci ilin dekabr ayında Ermənistandan deportasiya edilmişdir. Hazırda kənddə əsasən Gürcüstanın Axılkələk və Boqdanovka (Ninosminda) rayonlarından köçüb gələn ermənilər məskunlaşmışlar. Ermənistan Respublikası prezidentinin 4 iyul 2006-cı il tarixli fərmanı ilə kəndin adı dəyişdirilərək "Byurakn" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 48).

Coğrafi koordinatları: 40°52′ şm. e., 43°42′ ş. u.

**Güllübulaq** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 27 km şimalda, dəniz səviyyəsindən 2040 m hündürlükdə yerləşir. Rəsmi sənədlərdə kənd "Türk Güllübulağı" və yaxud "Qarapapaq Güllübulağı" adlanmışdır. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 127) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tərk etmişdir. Ermənilər burada 1828–1829-cu illərdə Türkiyənin Ərzurum və Qars vilayətlərindən köçürülüb yerləşdirilmişdir (416, s. 189). Toponim "güllü, çiçəkli" mənasında işlənən "güllü" sözü ilə "bulaq" sözünün birləşməsindən əmələ gəlib, "güllü, çiçəkli bulaq yanında olan kənd" anlamını verir. Hidrotoponimdir. Kəndin adı Erm. SSR AS RH-nin 15 iyul 1946-cı il tarixli qərarı ilə hərfi tərcümə edilərək "Vardaxbyur" qoyulmuşdur. Həmin vaxtadək kəndin adı sənədlərdə "Erməni Güllübulağı" kimi qeyd edilirdi. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 189).

Coğrafi koordinatları: 40°57′ şm. e., 43°55′ ş. u.

**Güllücə** – Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, keçmiş Amasiya rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 45 km şimal-qərbdə, Arpa gölünün şimal sahilində, dəniz səviyyəsindən 2060 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 124), Qafqazın 5 verstlik xəritəsində (348, s. 70) qeyd edilmişdir. Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. Erməni müəlliflərinin əsərlərində kənddə qarapapaqların yaşadığı göstərilir. Qarapapaqlar azərbaycanlıların formalaşmasında iştirak edən türk tayfalarından biridir. Burada 1886-cı ildə 193, 1897-ci ildə 288, 1908-ci ildə 324, 1914-cü ildə 378 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 18–19, 104–105). Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevral ayında Ermənistan silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhalisi Qars vilayətinə köç etmişdir. 1921-ci il Qars müqaviləsindən sonra kəndin əhalisinin bir qismi kəndə qayıtmışdır. Burada 1922-ci ildə 517, 1926-cı ildə 553, 1931-ci ildə 576 (415, s. 18–19, 104–105), 1939-cu ildə 624, 1959-cu ildə 594, 1979-cu ildə 985 nəfər (427, s. 978) azərbaycanlı yaşamışdır. 1989-cu ilin yanvarında Ermənistan dövləti tərəfindən kəndin sakinləri – azərbay-

canlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə Gürcüstanın Axılkələk və Boqdanovka (Ninosminda) rayonlarından gələn ermənilər məskunlaşıb. Toponim "gül" sözünə sifət düzəldən "-lü" və sifətin çoxaltma dərəcəsini bildirən "-cə" şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Tsaxkut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 101–102).

Coğrafi koordinatları: 41°05' şm. e., 43°36' ş. u.

**Güllücə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 27 km şimal-qərbdə, Çiçxan çayının yaxınlığında, Çubuxlu dağının ətəyində, dəniz səviyyəsindən 1725 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 71). Kənd 1937-ci ilə, yəni keçmiş Hamamlı rayonu təşkil edilənə kimi keçmiş Quqark (Qarakilsə) rayonunun tərkibində olmuşdur. Ermənilərin bölgədə məskunlaşdırılmasından sonra kəndin azərbaycanlı əhalisi tədricən yer-yurdlarını tərk etmişdir. Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 2, 1897-ci ildə 8 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130). XX əsrin əvvəllərindən burada yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində işlənən "güllu" sözünə "-cə" şəkilçisinin artırılması əsasında əmələ gəlib, "güllü, çiçəkli yerdə salınan kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 19 aprel 1950-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Sarahart" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 176).

Coğrafi koordinatları: 40°52' şm. e., 44°12' ş. u.

**Güllücə** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 16 km şimalda, Abaran çayının sahilində, dəniz səviyyəsindən 1900 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 109), Qafqazın 5 verstlik xəritəsində (348, s. 71) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi Türkiyəyə köç etmişdir. Toponim "güllü" sözünə sifətin çoxaltma dərəcəsinin əlamətini bildirən "-cə" şəkilçisinin qoşulması nəticəsində əmələ gəlib, "güllü, çiçəkli ərazidə yerləşən kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 15 iyun 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vardenis" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 191).

Coğrafi koordinatları: 40°34' şm. e., 44°24' ş. u.

**Güllücə** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 50 km cənub-qərbdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 80), Qafqazın 5 verstlik xəritəsində (348, s. 71) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 273, 1886-cı ildə 397, 1897-ci ildə 524, 1904-cü ildə 516, 1914-cü ildə 846 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. Türkiyədən ermənilər köçürülərək burada yerləşdirilmişdir. Sonradan azərbaycanlıların az bir qismi öz evlərinə qayıda bilmişdir. Burada 1926-cı ildə ermənilərlə yanaşı, 21 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46–47). 1929–1930-cu illərdə azərbaycanlılar tarixi-etnik torpaqlarından tamamilə qovulmuşlar. Hazırda orada ermənilər yaşayır. Toponim "güllü, çiçəkli" mənasını bildirən "güllü" sözünə "-cə" şəkilçisinin artırılması ilə düzəlib. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı

dəyişdirilərək "Zovk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 175).

Coğrafi koordinatları: 40°12′ şm. e., 44°41′ ş. u.

**Gülüdüzü** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 31 km şimal-şərqdə, Erdəpin çayının sol sahilində, dəniz səviyyəsindən 2050 m hündürlükdə yerləşir. XIII əsrdən xatırlanır. Ərazidəki bir daşın üstündə kəndin 1291-ci ildə salındığı qeyd edilib (422, s. 70). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 70). Kənddə


*Gülüdüzü kəndi*

azərbaycanlılarla bağlı XIII–XIV əsrlərə aid tarixi abidələr mövcuddur. Buradan 4 km şərqdə Canı azərbaycanlı kəndinin xarabalığı yerləşir. Kənd vilayətin ərazisindəki Aşağı Güllüdüzü və Yuxarı Güllüdüzü kəndlərinin 1959-cu ildə birləşdirilməsi nəticəsində yaranmışdır. Coğrafi ərazidə 1959-cu ildə 256, 1970-ci ildə 362, 1979-cu ildə 369 nəfər azərbaycanlı yaşamışdır (427, s. 907). 1988-ci ilin noyabr-dekabr aylarında kəndin sakinləri olan azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Toponim "güllü, çiçəkli" mənasında işlənən "güllü" sözü ilə "çöl, düzən, düzəngah", "enişi, yoxuşu, çuxuru olmayan" mənasında işlənən "düz" sözünün (10, s. 168) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vardahovid" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 188).

Coğrafi koordinatları: 39°53′ şm. e., 45°29′ ş. u.

**Gümrü** – İrəvan quberniyasının Aleksandropol qəzasında kənd. İndi Ermənistan adlanan respublikada şəhər. Şörəyel bölgəsində, İrəvan şəhərindən 135 km məsafədə, dəniz səviyyəsindən 1550 m hündürlükdə yerləşir. İrəvan xanlığının Şörəyel sultanlığına daxil olan bu coğrafi ərazi 1804-cü ildə rus qoşunları tərəfindən işğal olunmuşdur. 20 oktyabr 1805-ci ildə general Sisianovla Şörəyel sultanı Budaq sultan arasında imzalanan müqaviləyə əsasən, çar Rusiyasına ilhaq olunmuş və Pəmbək-Şörəyel distansiyasına daxil edilmişdir. Gülüstan müqaviləsi (1813) ilə həmişəlik olaraq Rusiyanın tabeçiliyinə keçmişdir. Türkmənçay müqaviləsinin (1828) imzalanmasından sonra Türkiyədən kütləvi surətdə ermənilər köçürülüb gətirilmiş, yerli azərbaycanlılar deportasiya edilmiş və demoqrafik vəziyyət ermənilərin xeyrinə dəyişmişdir. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə "Şüregel livasında (sancağında) Gümrü kəndi" adında (143, s. 124), "Əkinçi" qəzetində "Gömrü" formasında (№2, 5 avqust 1875) qeyd edilmişdir. 1831-ci ildə 250, 1873-cü ildə 604, 1897-ci ildə 1263 nəfər azərbaycanlı yaşamışdır (415, s. 23, 94–95). 1918-ci ildə ermənilərin şəhərdə törətdikləri qırğınlar nəticəsində azərbaycanlılar tarixi torpaqlarından deportasiya olunmuşlar. Yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra şəhərin azərbaycanlı əhalisinin az bir qismi ata-baba torpaqlarına dönə bilmişlər. Burada 1922-ci ildə 47, 1926-cı ildə 54, 1931-ci ildə 116 nəfər azər-

baycanlı yaşamışdır (415, s. 23, 94–95). 1988-ci ildə azərbaycanlılar Gümrüdən tamamilə qovulmuşdur. Hazırda orada  yalnız ermənilər yaşayır. Toponim qədim türk mənşəli "kimmer" etnonimindən (377, s. 469; 245, s. 33–34; 287, s. 317–318) əmələ gəlmişdir. Oykonimin adı 1837-ci ildə dəyişdirilərək Rusiya çarı Aleksandrın şərəfinə Aleksandropol qoyulmuşdur. Yaşayış məntəqəsinin adı Erm. SSR Mərkəzi İcraiyyə Komitəsinin 1924-cü il tarixli qərarı ilə dəyişdirilərək "Leninakan" qoyulmuşdur. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək tarixi adı bərpa edilmiş və ilkin adına uyğun olaraq "Kumayri" ("Gümrü" sözünün erməni dilinin qaydalarına uyğunlaşdırılmış formasıdır), Ermənistan prezidentinin 13 mart 1992-ci il tarixli fərmanı ilə adı təkrar dəyişdirilərək "Gyümri" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 60).

Coğrafi koordinatları: 40°47′ şm. e., 43°50′ ş. u.

**Gümüş** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 16 km cənub-qərbdə, Zəngi çayının yanında, Alapars kəndinin yaxınlığında, dəniz səviyyəsindən 1480 m hündürlükdə yerləşmir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 79), Qafqazın 5 verstlik xəritəsində (348, s. 71) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 48, 1873-cü ildə 295, 1886-cı ildə 311, 1914-cü ildə 796 nəfər azərbaycanlı yaşamışdır (415, s. 16–17, 100–101). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qırğınlarla qovulmuşdur. Kənddə ermənilər məskunlaşdırılmışdır. Ərazidə gümüş, filiz yataqları olduğu üçün kənd "Gümüş" adlandırılmışdır. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Karenis" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 109).

Coğrafi koordinatları: 40°23′ şm. e., 44°36′ ş. u.

**Güney** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 24 km şimal-qərbdə, dəniz səviyyəsindən 720 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Toponim Azərbaycan dilində "cənub, gün düşən yer" mənasında işlənən "güney" sözü əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Getaşen", 25 may 1967-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Kirants" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 112).

Coğrafi koordinatları: 41°03′ şm. e., 45°06′ ş. u.

**Gürcüyolu** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayəti ərazisində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 21 km şimalda, dəniz səviyyəsindən 1950 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi Türkiyəyə köç etmişdir. 1937-ci ilə kimi keçmiş Ağbaba rayonunun tabeliyində olmuşdur. Erməni müəlliflərinin əsərlərində "Gürcüyel" (415, s. 20), Qafqazın 5 verstlik xəritəsində "Gürcüel" (348, s. 72) formasında qeyd edilmişdir. Toponim "gürcü" etnonimi ilə azərbaycanca "yol" sözünün birləşməsindən əmələ gəlmişdir. Kənd Gümrüdən Gürcüstana gedən yolun üzərində yerləşmişdir. Kəndin adı 30 iyul 1980-ci ildə dəyişdirilərək "Torosgyuğ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 83).

Coğrafi koordinatları: 40°56′ şm. e., 43°52′ ş. u.

# H

**Hacı Bayram** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 39 km cənub-qərbdə, Araz çayının yanında, dəniz səviyyəsindən 990 m hündürlükdə yerləşir. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə "Hacı Bayram qışlağı" formasında (143, s. 48), Qafqazın 5 verstlik xəritəsində "Hacı Bayram" kimi (348, s. 54) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 332, 1873-cü ildə 447, 1886-cı ildə 434, 1897-ci ildə 476, 1908-ci ildə 436, 1914-cü ildə 815, 1916-cı ildə 444 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 62-63, 138-139). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış, sakinləri – azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlarla deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılar ata-baba yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 325 nəfər azərbaycanlı, 1926-cı ildə 334 nəfər azərbaycanlı, 13 erməni, 1931-ci ildə 403 nəfər azərbaycanlı, 8 erməni yaşamışdır (415, s. 62–63, 138–139). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar 1948–1949-cu illərdə zorla tarixi-etnik torpaqlarından Azərbaycana deportasiya olunmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Kənd Hacı Bayram adlı şəxs tərəfindən salındığı üçün belə adlanmışdır. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Baxçalar", 3 iyul 1968-ci il tarixli qərarı il yenidən dəyişdirilərək "Baqaran" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 40).

Coğrafi koordinatları: 40°08′ şm. e., 43°39′ ş. u.

**Hacıdur** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Allahverdi (Tumanyan) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 60 km şimal-şərqdə, dəniz səviyyəsindən 1500 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tədricən tərk etmişdir. Toponim Hacı şəxs adı ilə "ev, yaşayış yeri" mənasında işlənən "tur" sözünün (359, III (2), s. 1446, 1787–1788) birləşməsindən düzəlmişdir. Antropotoponimdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Tsaxkaşat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 100).

Coğrafi koordinatları: 41°04′ şm. e., 44°44′ ş. u.

**Hacı Elyaz** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 23 km şimal-qərbdə, dəniz səviyyəsindən 840 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Hacı İlyas" formasında (143, s. 36), Qafqazın 5 verstlik xəritəsində "Hacı Elyaz" formasında (348, s. 55) qeyd edilmişdir. Erməni müəlliflərinin əsərlərində kəndin adı "Hacı Eylaz" (415, s. 48), "Eylas" (419, s. 129) formalarında göstərilmişdir. Kəndin adı xalq arasında "Hacı Elləz" formasında işlədilirdi. Burada 1831-ci ildə 445, 1873-cü ildə 1095, 1886-cı ildə 1073, 1897-ci ildə 1457, 1908-ci ildə 1097, 1914-cü ildə 1187, 1916-cı ildə 1467 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş, kəndə Türkiyədən köçürülmüş ermənilər yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar doğma yurdlarına qayıda bilmişdir. Kənddə 1922-ci ildə 582 nəfər azərbaycanlı, 71 erməni, 1926-cı ildə 586 nəfər azərbaycanlı, 50

erməni, 1931-ci ildə 680 nəfər azərbaycanlı, 9 erməni yaşamışdır (415, s. 48–49, 128–129). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar zorla Azərbaycana köçürülmüş, kənddə İran, Livan, Suriya, Türkiyədən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. Hazırda burada ermənilər yaşayır. Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Kəndin adı dəyişdirilərək "İpəkli" qoyulmuşdur. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Masis sovxozu" qəsəbəsi adlandırılmışdır. Hazırda "Darakert" adlanır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 66).

Coğrafi koordinatları: 40°06′ şm. e., 44°24′ ş. u.

**Hacı Xəlil** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Araqats (Alagöz) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 51 km şimal-qərbdə, Alagöz dağının ətəyində, Düzkənd kəndinin yaxınlığında, dəniz səviyyəsindən 2100 m hündürlükdə yerləşir. Keçmiş Araqats (Alagöz) rayonu təşkil edilənədək (15 mart 1972) keçmiş Abaran rayonunun inzibati-ərazi bölgüsünə daxil olmuşdur. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 109–111), Qafqazın 5 verstlik xəritəsində (348, s. 55) qeyd edilmişdir. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə bu kəndin Abaran nahiyəsində yerləşdiyi göstərilir. Kəndin sakinləri azərbaycanlılar olmuşdur. Türkmənçay müqaviləsindən sonra – 1830-cu illərdə xaricdən köçürülüb gətirilən ermənilər bu kənddə yerləşdirilmişdir (Erməni Sovet Ensiklopediyası, V c., İrəvan, 1976, s. 110). Toponim Hacı Xəlil şəxs adı əsasında formalaşmış antropotoponimdir. Erm. SSR AS RH-nin 15 iyul 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Tsaxkahovid" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 99).

Coğrafi koordinatları: 40°38′ şm. e., 44°13′ ş. u.

**Hacı Qara** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Quqark (Qarakilsə) rayonunda, Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 5 km şimal-qərbdə, Pəmbək çayının sağ sahilində, dəniz səviyyəsindən 1550 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 91), Qafqazın 5 verstlik xəritəsində (348, s. 54) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tədricən tərk etmişdir. Toponim Azərbaycan dilində nəsil adı bildirən "Hacı" sözü ilə Qara şəxs adının birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 1 mart 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Makaraşen", 26 oktyabr 1957-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Lernapat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 88).

Coğrafi koordinatları: 40°49′ şm. e., 44°23′ ş. u.

**Hacı Qara** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 32 km şimal-şərqdə, Abaran çayının sahilində, dəniz səviyyəsindən 950 m hündürlükdə yerləşir. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Hacı Qaralı" kimi (143, s. 162), Qafqazın 5 verstlik xəritəsində "Hacı Qara" formasında (348, s. 54) qeyd edilmişdir. Kənddə 1828-ci ilə kimi azərbaycanlılar yaşamışdır. Ermənilər buraya Türkmənçay müqaviləsindən sonra – 1829-cu ildə İranın Xoy vilayətindən köçürülmüşdür (427, s. 228). Burada ermənilərlə yanaşı, 1831-ci ildə 27, 1897-ci ildə 8 nəfər azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153).

Azərbaycanlılar XX əsrin əvvəllərindən erməni silahlı birləşmələri tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim "Qara Hacılı" türk etnonimi (238, s. 16) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Aygeşad" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 19).

Coğrafi koordinatları: 40°14′ şm. e., 44°17′ ş. u.

**Hacılar** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 28 km şimal-şərqdə, Kasax çayının sol sahilində, dəniz səviyyəsindən 900 m hündürlükdə yerləşir. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 162), Qafqazın 5 verstlik xəritəsində (348, s. 54) qeyd edilmişdir. Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra – 1828–1829-cu illərdə buraya İranın Maku, Xoy və Səlmas vilayətlərindən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir (416, s. 141). Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 61, 1873-cü ildə 112, 1886-cı ildə 144, 1897-ci ildə 180 nəfər azərbaycanlı yaşamışdır (386, s. 82–83, 152–153). 1904 və 1914-cü illərdə kənddə yaşayan azərbaycanlılar və ermənilər ümumi şəkildə göstərilmişdir. 1918-ci ildə kənddə 248 nəfər azərbaycanlı yaşamışdır (309, s. 221). Kənddə yaşayan azərbaycanlılar 1919-cu ildə erməni silahlı birləşmələrinin təcavüzünün qurbanı olaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur (309, s. 221). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra – 1922-ci ildə burada 7 nəfər azərbaycanlı yaşamışdır (415, s. 152–153). 1923-cü ildə onlar yenidən ata-baba torpaqlarından qovulmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Toponim kəngərli türk tayfasından olan "hacılar" etnonimindən (386, s. 537) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Mrqastan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 141).

Coğrafi koordinatları: 40°12′ şm. e., 44°16′ ş. u.

**Hacı Muxan** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 18 km şimal-qərbdə, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 1920 m hündürlükdə yerləşir. Kəndin ilk adı Hacı Mumuxan olmuşdur (415, s. 68). Toponimin ikinci komponentinin ilk hecası (mu) ixtisar edilmiş və mənbələrdə "Hacı Muxan" kimi qeyd edilmişdir (415, s. 68). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 54). Kənddə 1876-cı ildə 437, 1886-cı ildə 610, 1897-ci ildə 882, 1904-cü ildə 1034, 1914-cü ildə 1080, 1916-cı ildə 1255 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 70–71, 144–145). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qırğınlarla qovulmuşdur (309, s. 220). Sağ qalan azərbaycanlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz doğma kəndlərinə dönmüşlər. Kənddə Kəvər (Kamo) və Aşağı Qaranlıq (Martuni) rayonlarındakı kəndlərdən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. 1922-ci ildə burada 100 nəfər azərbaycanlı, 339 erməni, 1926-cı ildə 115 nəfər azərbaycanlı, 682 nəfər erməni, 1931-ci ildə 195 nəfər azərbaycanlı, 1064 erməni yaşamışdır (415, s. 70–71, 144–145). 1948–1953-cü illərdə azərbaycanlılar zorla kənddən köçürülmüşdür. Hazırda burada yalnız ermənilər yaşayır. Toponim Hacı Mumuxan (Hacı Muxan) şəxs adı əsasında əmələ gəlmişdir. Kəndin adı 1924-cü ildə dəyişdirilərək "Muxan" qoyulmuşdur. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Tsovazard" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci

il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 103).

Coğrafi koordinatları: 40°28′ şm. e., 45°02′ ş. u.

**Hacı Nəzər** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 9 km şimal-şərqdə, dəniz səviyyəsindən 1650 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tədricən tərk etmişdir. Kəndin adı erməni (415, s. 42) və rus (348, s. 54) mənbələrində "Hacı Nəzər qulu" kimi də göstərilir. Ermənilər kənddə XIX əsrdə Türkiyənin Muş vilayətindən köçürülüb yerləşdirilmişdir (416, s. 106). Toponim Hacı Nəzər şəxs adı əsasında əmələ gələn antropotoponimdir. Kənd Hacı Nəzər adlı şəxs tərəfindən salınmışdır. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Kamo" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 106).

Coğrafi koordinatları: 40°49′ şm. e., 43°56′ ş. u.

**Haçakilsə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 23 km cənub-şərqdə, dəniz səviyyəsindən 2020 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Xaçkilsə" kimi qeyd edilmişdir (143, s. 127). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. Toponim "cüt, qoşa", "bir-birinə yaxın sivri uclu, şiş təpəli iki fiziki-coğrafi obyekt" mənasında işlənən "haça" (xaça) sözü ilə (278, s. 147) "dini məbəd" mənasını bildirən "kilsə" sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında əmələ gələn mürəkkəb quruluşlu toponimdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Paros", 30 yanvar 1961-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Nahabetavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 143).

Coğrafi koordinatları: 40°36′ şm. e., 44°01′ ş. u.

**Haçaparaq** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 25 km şimal-qərbdə, Zəngi çayının sağ sahilində, dəniz səviyyəsindən 847 m hündürlükdə yerləşir. Zəngibasar rayonu təşkil edilənədək (14.01.1969) Vağarşabad rayonunun tərkibində olmuşdur. Erməni müəlliflərinin əsərlərində kəndin tarixi adı "Xacaparaq" (415, s. 82), Azərbaycan mənbələrində "Xocəparak" (243, s. 98) kimi yazılır 1728-ci il tarixində tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 36), Qafqazın 5 verstlik xəritəsində (348, s. 263) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 326, 1873-cü ildə 716, 1886-cı ildə 753, 1897-ci ildə 1059, 1904-cü ildə 992, 1914-cü ildə 1135, 1916-cı ildə 1113 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq kənddən deportasiya olunmuşdur. Sağ qalanlar yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz kəndlərinə qayıda bilmişdir. Burada 1922-ci ildə 492, 1926-cı ildə 670, 1931-ci ildə 759 (415, s. 82–83, 152–153), 1987-ci ildə 2893 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya edilmişdir. Hazırda orada ermənilər yaşayır. Toponim Azərbaycan dilində "haçalanmanın başlandığı yer" mənasında işlənən "haça" sözü ilə (12, s. 359), qədim türk dilində "gecələr heyvan salınan, hasarlanmış yer" mənasında işlənən "parax" sözünün (284 a, s. 10) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Zəhmət" qoyulmuş, 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Xaçpar" adlandı-

rılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 96).

Coğrafi koordinatları: 40°07′ şm. e., 44°24′ ş. u.

**Haçasu** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 14 km şimalda, dəniz səviyyəsindən 750 m hündürlükdə yerləşir. Toponim "haçalanmanın başlandığı yer" mənasında işlənən "haça" sözü ilə (12, s. 359) türk dilində "çay" mənasında işlənən "su" sözünün (359, IV (1), s. 745; 339, s. 528–529) birləşməsindən əmələ gəlmişdir. Əsas çayın bir neçə qola ayrıldığı yerdə salındığı üçün kənd "Haçasu" adlanmışdır. Burada əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tədricən tərk etmişdir. Kəndin adı 1920-ci ildə kalka üsulu ilə erməni dilinə tərcümə edilərək "Açacur" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 23).

Coğrafi koordinatları: 40°59′ şm. e., 45°08′ ş. u.

**Haxıs** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 7 km şimal-qərbdə, dəniz səviyyəsindən 1250 m hündürlükdə yerləşir. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Əxis" kimi (143, s. 162), Qafqazın 5 verstlik xəritəsində "Axis" formasında (348, s. 23) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 93, 1873-cü ildə 182, 1886-cı ildə 302, 1897-ci ildə 404, 1908-ci ildə 365, 1914-cü ildə 920, 1918-ci ildə 365, 1919-cu ildə 997 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107; 309, s. 219; 416, s. 15). 1919-cu ilin sonlarında azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş, kəndə Türkiyədən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. Sağ qalan azərbaycanlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar ata-baba torpaqlarına qayıda bilmişdir. Ermənilərlə yanaşı, burada 1922-ci ildə 20, 1926-cı ildə 18 nəfər azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107). 1928–1929-cu illərdə azərbaycanlılar qədim torpaqlarından tamamilə qovulmuşlar. Hazırda orada ermənilər yaşayır. Toponim "çay ağzı, mənsəbi", "keçid" mənasında işlənən "ağıs", "axız" (aqis, haxis, haxıs) sözü (299, s. 21; 339, s. 38) əsasında əmələ gəlmişdir. Toponimin əvvəlindəki "h" səsi səsartımı hadisəsi nəticəsində sözə əlavə edilmiş və toponim tələffüz formasına uyğun qeydə alınmışdır. Azərbaycan dilində saitlə başlanan bəzi sözlərə tələffüzdə "h" samitinin artırılması qanunauyğun haldır (araba-haraba, açar-haçar, elə-helə). Erm. SSR AS RH-nin 1 dekabr 1949-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Dzorab", 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Ağtsk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 15).

Coğrafi koordinatları: 40°18′ şm. e., 44°15′ ş. u.

**Haqqıxlı** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 11 km şimal-şərqdə, dəniz səviyyəsindən 1750 m hündürlükdə yerləşir. 1930-cu ilin axırlarına kimi Dilican rayonunun tərkibində olmuşdur. Kənddə 1873-cü ildə 188, 1897-ci ildə 372, 1904-cü ildə 347, 1916-cı ildə 450, 1919-cu ildə 121 nəfər azərbaycanlı yaşamışdır (415, s. 32–33, 114–115). 1919-cu ilin mart ayında kəndin köklü sakinləri olan azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və deportasiya olunmuşlar. Sağ qalan haqqıxlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulduqdan sonra öz kəndlərinə dönə bilmişlər. Burada 1922-ci ildə 306, 1926-cı ildə 331, 1931-ci

ildə 412 (415, s. 32–33, 114–115), 1939-cu ildə 578, 1959-cu ildə 707, 1970-ci ildə 869, 1979-cu ildə 748 nəfər (416, s. 124) azərbaycanlı yaşa-



*Haqqıxlı kəndi*

mışdır. 1988-ci ilin noyabr ayının axırlarında ermənilər kəndə hücum etmiş, sakinləri deportasiya olunmuşdur. Hazırda orada ermənilər yaşayır. Toponim türk mənşəli "haqqıxlı" etnonimi əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vurğun" (Azərbaycan şairi S.Vurğunun şərəfinə), 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Hovk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 124).

Coğrafi koordinatları: 40°47′ şm. e., 45°01′ ş. u.

**Hallavar** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Quqark (Qarakilsə) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 10 km cənub-qərbdə, Yuxarı Kilsə və Haydarlı (Heydərli) kəndləri arasında, Hallavar çayının yanında, Pəmbək çayının sağ sahilində, dəniz səviyyəsindən 1650 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 55). Kənddə 1831-ci ildə 111, 1873-cü ildə 625, 1886-cı ildə 664, 1897-ci ildə 913, 1908-ci ildə 1062, 1914-cü ildə 445, 1916-cı ildə 781, 1919-cu ildə 455 nəfər azərbaycanlı yaşamışdır (415, s. 52–53, 130–131). 1919-cu ilin martında kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və azərbaycanlılar qırğınlarla tamamilə deportasiya olunmuşdur. Azərbaycanlılardan sağ qalanlar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz ata-baba torpaqlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 644, 1926-cı ildə 709, 1931-ci ildə 902 nəfər (415, s. 52–53, 130–131), 1939-cu ildə 951, 1959-cu ildə 1020, 1970-ci ildə 1838, 1979-cu ildə 2181 nəfər (416, s. 116) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar qırğınlarla kənddən qovulmuşlar. Hazırda orada ermənilər yaşayır. Toponim türk dilində "müxtəlif rəngli bitki və torpaq olan düzənlik" mənasında işlənən "ala" sözünə (365, s. 129–130; 339, s. 44) "möhkəmləndirilmiş istehkamı olan kənd, qala, bənd" mənasında işlənən "var" sözünün (339, s. 113) birləşməsi yolu ilə əmələ gəlmişdir. Toponimin əvvəlinə "h" səsi artırılmışdır. Belə ki Azərbaycan dilində bəzi saitlə başlanan sözlərə tələffüzdə "h" səsi əlavə edilir: araba-haraba, açar-haçar, elə-helə və s. Erməni ədəbiyyatında kəndin adı "Halavar" fonetik formasında əksini tapır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 116).

Coğrafi koordinatları: 40°46′ şm. e., 44°23′ ş. u.

**Hamamlı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində hazırda Spitak adlanan şəhər. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 15 km qərbdə, Pəmbək çayının yuxarı axarında, dəniz səviyyəsindən 1530 m hündürlükdə yerləşir. 1801-ci ildə Rusiya tərəfindən işğal edilmiş Pəmbək-Şörəyel distansiyasına daxil edilmişdir. XIX əsrdə yeni yaradılan inzibati ərazi bölgüsünə əsasən, İrəvan quberniyasının Aleksandropol qəzasının tərkibinə verilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra Lori-Pəmbək qəzasına daxil olmuşdur (Erməni Sovet En-

siklopediyası, II c., İrəvan, 1985, s. 75; 85, s. 331). "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 132), Qafqazın 5 verstlik xəritəsində (348, s. 14) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tədricən tərk etmişdir. 1937-ci ilə kimi Qarakilsə (Quqark) rayonunun tərkibində olmuşdur. Hamamlı toponimi Hamam şəxs adına mənsubluq bildirən "-lı" şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. 1937-ci il dekabrın 31-də Hamamlı adlı rayon yaradılmışdır. Erm. SSR AS RH-nin 26 sentyabr 1949-cu il tarixli qərarı ilə şəhərin adı dəyişdirilərək "Spitak" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 183).

Coğrafi koordinatları: 40°50′ şm. e., 44°16′ ş. u.

**Haydarlı (Heydərli)** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Quqark (Qarakilsə) rayonunda, indi Lori vilayətində kənd. Vilayətdəki Hallavar kəndindən 2 km şimal-qərbdə, "Hallavar" və "Böyüksu" adlanan kiçik çayların sahilində, dəniz səviyyəsindən 1600 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 55). Kənddə 1831-ci ildə 26, 1873-cü ildə 158, 1886-cı ildə 175, 1897-ci ildə 265, 1908-ci ildə 357, 1914-cü ildə 461, 1916-cı ildə 343, 1919-cu ildə 1328 nəfər azərbaycanlı yaşamışdır (415, s. 52–53, 130–131). 1919-cu ildə erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalan kənd sakinləri – azərbaycanlılar deportasiya olunmuşlar. Azərbaycanlılardan sağ qalanlar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra tarixi torpaqlarına qayıda bilmişlər. Burada 1922-ci ildə 294, 1926-cı ildə 324, 1931-ci ildə 398 (415, s. 52–53, 130–131), 1939-cu ildə 496, 1959-cu ildə 448, 1970-ci ildə 994 (416, s. 117), 1987-ci ildə 1350 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya edilmişlər. Toponim heydərli tayfasının adı əsasında yaranmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 117).

Coğrafi koordinatları: 40°47′ şm. e., 44°23′ ş. u.

**Herher** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 32 km şərqdə, Arpaçayın sağ qolu olan Herherçayın yanında, dəniz səviyyəsindən 1680 m hündürlükdə yerləşir. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə "Hərhər" (143, s. 59), Qafqazın 5 verstlik xəritəsində "Qerqer" (Herher) formasında (348, s. 61) qeyd edilmişdir. Kənddə albanlara məxsus məbəd 1291-ci ildə tikilmişdir. Burada 1831-ci ildə 213 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 158). 1850–1870-ci illərdə kəndə İranın Səlmas vilayətindən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. Burada ermənilərlə yanaşı, 1873-cü ildə 647, 1886-cı ildə 656, 1897-ci ildə 1047, 1914-cü ildə 1220 nəfər azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış, azərbaycanlılar deportasiya olunmuşdur. Sağ qalanlar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra tarixi-etnik torpaqlarına qayıtmışlar. Burada 1922-ci ildə 156, 1926-cı ildə 220, 1931-ci ildə 278 nəfər azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). SSRİ hökumətinin xüsusi qərarı ilə kənddə yaşayan azərbaycanlılar 1948–1953-cü illərdə zorla Azərbaycana köçürülmüşdür. Hazırda kənddə ermənilər yaşayır. Toponim Strabonun "Coğrafiya" əsərində adı çəkilən qarqar tayfasının adı əsasında (377, s. 5) formalaşmışdır. Qarqar tayfası qədim türk tayfalarından biridir (287, s. 77–82; 172, s. 196; 211, s. 183–187). "Qarqar" etnonimindəki "q" səsi "h" səsinə keçərək "Herher" formasını almışdır. Q~h səs əvəzlənməsi Azərbaycan dilində qanunauyğun haldır: qamu-hamı, qansı-hansı sözlərində q~h səs əvəzlənməsi özünü aydın şəkildə göstərir. Toponim

qarqar türk tayfasının fonetik forması kimi Azərbaycan dilində işlənən "herher" etnonimindən əmələ gəlmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 121).

Coğrafi koordinatları: 39°46′ şm. e., 45°32′ ş. u.

**Heydərbəy** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Cəlaloğlu (Stepanavan) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 46 km şimal-qərbdə, dəniz səviyyəsindən 1500 m hündürlükdə yerləşir. Kənddə 1831-ci ildə 4, 1886-cı ildə 16, 1897-ci ildə 10 nəfər azərbaycanlı yaşamışdır (415, s. 78–79, 148–149). XX əsrin əvvəllərində – 1906-cı ildə azərbaycanlılar erməni silahlıları tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim Heydər bəy şəxs adı əsasında əmələ gəlmişdir. Yəni kənd Heydər bəy tərəfindən salındığı üçün "Heydərbəy" kəndi adlandırılmışdır. Erm. SSR AS RH-nin 1 iyun 1940-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Sverdlov" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 183).

Coğrafi koordinatları: 41°06′ şm. e., 44°24′ ş. u.

**Həbilkənd (Bulaqlı)** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Zəngibasar (Masis) yaşayış məntəqəsindən 8 km cənubda yerləşir. 1969-cu ilə kimi, keçmiş Zəngibasar (Masis) rayonu təşkil edilənədək keçmiş Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. Kənddə 1831-ci ildə 85, 1873-cü ildə 183, 1886-cı ildə 222, 1897-ci ildə 234, 1908-ci ildə 256, 1914-cü ildə 376, 1916-cı ildə 228 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). 1918-ci ildə azərbaycanlılar erməni silahlı dəstələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş, sağ qalan kənd sakinləri yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra 1922–1925-ci illərdə öz yurdlarına qayıda bilmişdir. Burada 1926-cı ildə 36, 1931-ci ildə 75 nəfər azərbaycanlı yaşamışdır (145, s. 48–49, 128–129). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar 1948–1949-cu illərdə zorla Azərbaycana köçürülmüşdür. 1950-ci illərdə onların bir hissəsi yenidən öz kəndlərinə qayıtmışdır. Kənddə bir neçə müsəlman kürd ailəsi də məskunlaşmışdı. 1988-ci ilin noyabr ayında Ermənistan dövləti bir daha onları zorla doğma yurdlarından deportasiya etmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim kəndin salındığı ərazidə bulaqların mövcud olması ilə bağlıdır. "Bulaqlı yer" mənasını ifadə edir. Kəndin adı 1920-ci illərdə dəyişdirilərək "Həbilkənd" adlandırılmışdır. Sonra kənd yeni yaradılan Kalinin qəsəbəsinə birləşdirilmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə qəsəbənin adı dəyişdirilərək "Noramarq" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 149).

Coğrafi koordinatları: 40°01′ şm. e., 44°25′ ş. u.

**Həçəti (Hacatı)** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Qafan şəhərindən 28 km şimal-qərbdə, Gığı çayının sağ sahilində, dəniz səviyyəsindən 2050 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Hacatı" (143, s. 149), Qafqazın 5 verstlik xəritəsində "Haçaatı" («Гачааты») (348, s. 57), Azərbaycan mənbələrində "Həcəti" (85, s. 155), erməni mənbələrində "Hacatin" formasında (419, s. 62) qeyd edilmişdir. 1918-ci ildə erməni silahlı dəstələri Həçəti kəndini dağıtmış, kənd əhalisi dağları aşaraq Naxçıvana pənah aparmışdır. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından



*Haçəti kəndi*

sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə 1897-ci ildə 30, 1922-ci ildə 41, 1926-cı ildə 51, 1931-ci ildə 71 (415, s. 56–57, 134–135), 1939-cu ildə 95, 1959-cu ildə 125, 1970-ci ildə 148, 1979-cu ildə 165 (416, s. 161), 1988-ci ildə 160 nəfər yalnız azərbaycanlı yaşamışdır. 1939-cu ildə kənd əhalisini Gığı kəndinə köçürmüşlər. Haçətililər 1946-cı ildə yenidən öz kəndlərini bərpa etmişlər (244 a, s. 148). Burada yaşayan azərbaycanlılar 1988-ci ilin noyabr ayında Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Toponim Azərbaycan dilində "bucaq şəklində ayrılan, haça" mənasında işlənən "haça" sözünə (12, s. 359) "-ti" şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Kəndin adı Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə dəyişdirilərək "Voçetin" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 161).

Coğrafi koordinatları: 39°12′ şm. e., 46°08′ ş. u.

**Həmzəçimən** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Quqark (Qarakilsə) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 15 km şimal-şərqdə, dəniz səviyyəsindən 1750 m hündürlükdə yerləşir. Sonralar kəndin adı dialektin təsirinə məruz qalaraq "Həmzəçimən" kimi ("çimən" Azərbaycan dilinin qərb qrupu dialektlərində "çəmən (otlaq)" mənasında işlənir) sabitləşmişdir. Quqark şəhərindən 19 km şərqdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tədricən tərk etmişdir. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Həmzəçəmən" (143, s. 181), Qafqazın 5 verstlik xəritəsində "Həmzəçimən" kimi qeyd edilmişdir (348, s. 56). Toponim Həmzə şəxs adı ilə "yaşıl otla örtülmüş sahə", "yaşıllıq" mənasında işlənən "çəmən" sözünün (12, s. 429) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Marqahovit" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 133).

Coğrafi koordinatları: 40°44′ şm. e., 44°41′ ş. u.

**Həsənkənd** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd)



*Həsənkənd*

şəhərindən 13 km şimal-qərbdə, Ələyəz çayının sahilində, dəniz səviyyəsindən 1270 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 57). Ermənilərin bölgədə məskunlaşdırılmasından sonra kəndin azərbaycanlı əhalisi tədricən yer-yurdlarını tərk etmişdir. Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdi-

rilərək "Şatin" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 156).

Coğrafi koordinatları: 39°50′ şm. e., 45°18′ ş. u.

**Horbadığ** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 20 km şimalda, Erdəpin kəndinin yaxınlığında, dəniz səviyyəsindən 1880 m hündürlükdə yerləşir. Kəndin adı erməni müəlliflərinin əsərlərində "Xorvadeğ" formasında da qeyd edilmişdir. (415, s. 92). Kənddə 1831-ci ildə 35, 1873-cü ildə 263, 1886-cı ildə 342, 1897-ci ildə 406, 1904-cü ildə 592, 1914-cü ildə 651, 1916-cı ildə 503 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin  təcavüzünə məruz qalmış, kəndin köklü sakinləri olan azərbaycanlılar deportasiya olunmuş, buraya xaricdən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. Sağ qalanlar indiki Ermənistan ərazisində  sovet hakimiyyəti qurulandan sonra öz yurdlarına qayıda bilmişdir. Burada ermənilərlə yanaşı, 1922-ci ildə 38, 1926-cı ildə 65, 1931-ci ildə 100 nəfər azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin əhalisi zorla Azərbaycana köçürülmüşdür. Hazırda orada  ermənilər yaşayır. Kəndin adı türk dilində "çuxur, xəndək, yarğan" mənalarında işlənən "or" sözü ilə (365, s. 466–467) fars dilində "kənd, qışlaq" mənasında işlənən "değ" (dex) sözünün (339, s. 177; 104, s. 139) birləşməsindən əmələ gəlmişdir. Türk dilində "yarğan, çuxur, xəndək" mənasında işlənən "or" (hor) sözü erməni dilində "xor, xorf" formalarında işlənir (339, s. 596). Toponimin əvvəlindəki "h" samiti əlavə edilmiş səsdir. "Or" (hor) və "değ" sözlərinin arasındakı "ba" isə bitişdiricidir. Hazırda erməni dilində rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Horbateğ" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 124).

Coğrafi koordinatları: 39°53′ şm. e., 45°20′ ş. u.

**Hors** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 24 km şimal-qərbdə, Hors dərəsindən axan çayın yanında, dəniz səviyyəsindən 1660 m hündürlükdə yerləşir. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə "Xors" kimi qeyd edilmişdir (143, s. 59). Kənddə 1831-ci ildə 26, 1873-cü ildə 649, 1886-cı ildə 904, 1897-ci ildə 1136, 1904-cü ildə 971, 1914-cü ildə 958, 1916-cı ildə 1337, 1919-cu ildə 664 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). Kənd sakinləri olan azərbaycanlılar 1919-cu ilin sonlarında erməni silahlı birləşmələrinin  təcavüzünə məruz qalaraq tamamilə qovulmuşlar. Burada İrandan köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. Kənd sakinlərindən sağ qalan azərbaycanlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz doğma yurdlarına qayıda bilmişdir. Burada ermənilərlə yanaşı, 1922-ci ildə 192, 1926-cı ildə 172, 1931-ci ildə 234 nəfər azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən qovulmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Bu qədim azərbaycanlı kəndində XII–XIV əsrlərə aid çoxlu tarixi abidələr, Alban kilsəsinin qalıqları, oğuz qəbiristanlığı, qədim Oral Malux və Quşxana kəndlərinin binalarının qalıqları (XIII–XIV əsrlər) vardır (422, s. 71). Toponim "xors" (hors) türk etnonimi (168, s. 103; 211, s. 189) əsasında əmələ gəlmişdir. Azərbaycan dilində q~x~h səs əvəzlənməsi qanunauyğun

haldır (216, s. 20, 117). "Xors" (hors) etnonimi "qors", "xoros", "xurs" formalarında da qeyd edilir (168, s. 10–11; 287, s. 129–132). "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 124).

Coğrafi koordinatları: 39°51′ şm. e., 45°13′ ş. u.

**Hunaberd** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Araqats (Alagöz) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 57 km şimal-qərbdə, dəniz səviyyəsindən 2150 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tədricən tərk etmişdir. "Ermənistan və ətraf vilayətlərinin toponimlər lüğəti"ndə "Hnaber" formasında göstərilir (427, s. 379). Toponim qədim türk tayfası olan "hun" etnoniminə türk dilində "qala, istehkam" (339, s. 81), "çətin keçilən yer", "əlçatmaz yer" (339, s. 83; 337, s. 239) mənasında işlənən "berd/bert" sözünün qoşulması ilə əmələ gəlmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 121).

Coğrafi koordinatları: 40°38′ şm. e., 44°08′ ş. u.

**Hünüt (Hunud)** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 15 km şimal-şərqdə yerləşir. Kəndin adı "Hunud" formasında da qeyd edilir. Burada əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi tədricən kəndi tərk etmişdir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Toponim qədim türk mənşəli "hun" etnoniminə (245, s. 37–38; 174, s. 49–66; 287, s. 124–126, 351–352) türk dilində cəmlik bildirən "-ud" şəkilçisinin artırılması əsasında əmələ gələn etnotoponimdir. Kənddə 1988-ci ildə 120 nəfərə yaxın azərbaycanlı yaşamışdı. Əhalisi 1988-ci ilin noyabr ayında ermənilər tərəfindən deportasiya edilmişdir (244 a, s. 152).

Coğrafi koordinatları: 39°15′ şm. e., 46°23′ ş. u.

**Hüseynquluağalı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 83 km cənub-şərqdə, Məzrə çayının yanında, dəniz səviyyəsindən 1980 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 70). Kənddə 1873-cü ildə 636, 1886-cı ildə 760, 1897-ci ildə 877, 1908-ci ildə 778, 1914-cü ildə 1207, 1916-cı ildə 1079 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1919-cu il aprelin 13–20-də kəndin azərbaycanlı əhalisi erməni silahlı birləşmələri tərəfindən qırğınlarla qovulmuşdur (309, s. 305). 1920-ci ildə indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndin sakinləri öz ata-baba yurdlarına dönə bilmişlər. 1922-ci ildə kənddə 527, 1926-cı ildə 605, 1931-ci ildə 719 (415, s. 26–27, 112–113), 1939-cu ildə 873, 1959-cu ildə 976, 1970-ci ildə 1577, 1979-cu ildə 1855 (416, s. 156), 1987-ci ildə 3000 nəfər (85, s. 292) azərbaycanlı yaşamışdır. Kəndin əhalisi 1988-ci ilin noyabr ayında ermənilər tərəfindən deportasiya edilmişdir. Hazırda orada ermənilər yaşayır. Kəndin adı "Hüseynqulu ağa" (ağa titul bildirir) şəxs adına mənsubluq bildirən "-lı" şəkilçisinin artırılması nəticəsində yaranmışdır. Ancaq bu ad 1924-cü ildə dəyişdirilərək Azərbaycan yazıçısı və ictimai xadimi N.Nərimanovun şərəfinə "Nərimanlı", Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Şatvan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 156).

Coğrafi koordinatları: 40°10′ şm. e., 45°49′ ş. u.

# X

**Xaçkənd** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Quqark (Qarakilsə) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 20 km şimal-şərqdə, dəniz səviyyəsindən 1100 m hündürlükdə yerləşir. Toponim Azərbaycan dilində işlənən "xaç" və "kənd" sözlərinin birləşməsindən əmələ gəlmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tədricən tərk etmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Debet" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 67).

Coğrafi koordinatları: 40°55′ şm. e., 44°38′ ş. u.

**Xalisa** – İrəvan quberniyasının İrəvan qəzasında, Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 13 km cənub-şərqdə, Vedi çayından ayrılan arxın yanında, dəniz səviyyəsindən 820 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 259). Mənbələrdə kəndin başqa adının "Xalisa Güleyyurd" olduğu göstərilir (415, s. 86). Burada 1831-ci ildə 149, 1873-cü ildə 864, 1886-cı ildə 960, 1897-ci ildə 1165, 1904-cü ildə 957, 1914-cü ildə 1053, 1916-cı ildə 1159 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 154–155). 1918-ci illərdə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qırğınlarla qovulmuşlar. Kənddə İran və Türkiyədən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişdir. 1922-ci ildə burada 311 nəfər azərbaycanlı, 290 erməni, 1926-cı ildə 331 nəfər azərbaycanlı, 240 nəfər erməni, 1931-ci ildə 588 nəfər azərbaycanlı, 276 erməni (415, s. 86–87, 154–155) yaşamışdır. SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin əhalisi Azərbaycana köçürülmüşdür. Sonradan kəndin əhalisinin bir qismi doğma kəndlərinə qayıtmışdır. Kənddə 1972-ci ildə 1500 nəfərdən artıq azərbaycanlı, 600-ə qədər erməni yaşamışdır. Azərbaycanlı əhali 1988-ci ilin noyabr ayında ermənilər tərəfindən deportasiya edilmişdir. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim "dövlət torpağı, dövlətə məxsus olan yer" mənasında işlənən ərəb mənşəli "xalisə" sözündən (104, s. 683) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Noyakert" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 147).

Coğrafi koordinatları: 39°49′ şm. e., 44°40′ ş. u.

**Xanazax** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayətində kənd. Gorus şəhərindən 37 km məsafədə yerləşir. 1921-ci il avqustun



*Xanazax kəndi*

31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 22, 1873-cü ildə 200 nəfər azərbaycanlı yaşamışdır (415, s. 112).

1877–1878-ci illərdə azərbaycanlılar kənddən sıxışdırılıb çıxarılmışdır. Hazırda orada ermənilər yaşayır. Toponim mənşəcə fars dilinə mənsub olan "ev" mənası bildirən, türk dillərində "kənd", "yaşayış yeri" mənasında işlənən "xana" (339, s. 590) sözü əsasında formalaşmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 6).

Coğrafi koordinatları: 39°36′ şm. e., 46°23′ ş. u.

**Xancığaz** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Quqark (Qarakilsə) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 4 km şimal-qərbdə, Bozabdal dağının ətəyində, Pəmbək çayının sol sahilində, dəniz səviyyəsindən 1675 m hündürlükdə yerləşir. Kəndin adı erməni müəlliflərinin əsərlərində "Xancuğaz" (415, s. 52), Qafqazın 5 verstlik xəritəsində "Xancuqaz" (348, s. 260) formasında qeyd edilmişdir. Kənd İbrahim adlı xana məxsus olmuşdur. Ona görə də "İbrahimli" də adlandırılmışdır (415, s. 52). Burada 1831-ci ildə 33, 1873-cü ildə 295, 1886-cı ildə 345, 1897-ci ildə 393, 1908-ci ildə 523, 1914-cü ildə 650, 1916-cı ildə 576, 1919-cu ildə 582 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 52–53, 130–131). 1919-cu ilin yazında azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndin sakinləri 1921-ci ilin axırlarında öz ata-baba yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 712, 1926-cı ildə 697, 1931-ci ildə 880 (415, s. 52–53, 130–131), 1939-cu ildə 822, 1959-cu ildə 624, 1970-ci ildə 1041, 1979-cu ildə 1091 (427, s. 837), 1987-ci ildə 1220 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci il noyabr ayının axırında Ermənistan dövləti kəndin sakinlərini qırğınlarla deportasiya etmiş və kəndə erməniləri yerləşdirmişdir. Hazırda burada ermənilər yaşayır. Toponim "varlı", "sahibkar", "ağa" mənasında işlənən "xan" sözünə kiçiltmə mənası bildirən "-cığaz" şəkilçisinin artırılması yolu ilə əmələ gəlib, "kiçik xana məxsus kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 1 iyun 1940-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Gözəldərə", sonra 3 aprel 1991-ci il tarixli qərarı ilə bir daha dəyişdirilərək "Aznavadzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 8).

Coğrafi koordinatları: 40°52′ şm. e., 44°25′ ş. u.

**Xarratlı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 16 km şimal-qərbdə, dəniz səviyyəsindən 830 m hündürlükdə yerləşir. Zəngibasar rayonu təşkil edilənə qədər (14.01.1969) Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 261). Kənddə 1831-ci ildə 183, 1873-cü ildə 303, 1886-cı ildə 245, 1897-ci ildə 202, 1908-ci ildə 373, 1914-cü ildə 571, 1916-cı ildə 192, (415, s. 48–49, 128–129), 1918-ci ildə 496 (309, s. 216), 1919-cu ildə 160 nəfər (415, s. 128–129) yalnız azərbaycanlı yaşamışdır. 1919-cu ilin payızında azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur (309, s. 216, 222). Azərbaycanlılardan sağ qalanlar yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz kəndlərinə qayıda bilmişdir. Burada 1922-ci ildə 61 nəfər azərbaycanlı, 1926-cı ildə 102 nəfər azərbaycanlı, 62 erməni, 1931-ci ildə 136 nəfər azərbaycanlı, 59 erməni yaşamışdır (415, s. 48–49, 128–129). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. İran, Türkiyə və Livandan köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir. Hazırda kənddə ermənilər yaşayır. Toponim türk tayfası olan və sənət bildirən "xarratlı" sözü əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli

qərarı ilə adı dəyişdirilərək "Arevabuyr" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 31).

Coğrafi koordinatları: 40°02' şm. e., 44°28' ş. u.

**Xeyirbəyli** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 43 km cənub-qərbdə, Araz çayının sol sahilində, dəniz səviyyəsindən 975 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 264). Kənddə 1831-ci ildə 301, 1873-cü ildə 342, 1886-cı ildə 379, 1897-ci ildə 466, 1908-ci ildə 414, 1914-cü ildə 438, 1916-cı ildə 416 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 62–63, 138–139). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq sakinləri deportasiya olunmuş və kəndə ermənilər köçürülmüşdür. Kəndi tərk etmiş sakinlərdən sağ qalanlar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 334 azərbaycanlı, 11 erməni, 1926-cı ildə 266 azərbaycanlı, 116 erməni, 1931-ci ildə 327 nəfər azərbaycanlı, 119 erməni yaşamışdır (415, s. 62–63, 138–139). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Hazırda kənddə ermənilər yaşayır. Toponim "xeyirbəyli" nəsil adı əsasında əmələ gəlib, "xeyirbəyli nəslinin yaşadığı kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 25 may 1967-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Yervandaşat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 75).

Coğrafi koordinatları: 40°06' şm. e., 43°40' ş. u.

**Xələc (Xalac)** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 8 km şimal-şərqdə, Xələc çayının sol sahilində, dəniz səviyyəsindən 910 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 258) qeyd edilmişdir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə 1831-ci ildə 23, 1873-cü ildə 34, 1886-cı ildə 308, 1897-ci ildə 329, 1904-cü ildə 319, 1914-cü ildə 300 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57, 134–135). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq deportasiya olunmuşlar (309, s. 205). Kəndi tərk edən azərbaycanlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz evlərinə qayıda bilmişdir. Burada 1922-ci ildə 132, 1926-cı ildə 94, 1931-ci ildə 114 (415, s. 56–57, 134–135), 1939-cu ildə 780 nəfər (85, s. 155) azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, 1948-ci ildə kənddən 11 ailə (48 nəfər) zorla Azərbaycana deportasiya edilmişdir (294 a, s. 244). Kəndin qalan sakinləri 1988-ci ilin noyabr ayının axırlarında Ermənistan dövləti tərəfindən deportasiya olunublar. Hazırda orada ermənilər yaşayır. Toponim "xalac" qədim türk tayfasının adı (228, s. 35; 299, s. 635) əsasında əmələ gəlmişdir. Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Acanan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 15–16).

Coğrafi koordinatları: 39°14' şm. e., 46°25' ş. u.

**Xəznəvar (Xoznavar)** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayəti ərazisində

kənd. Vilayət mərkəzi Qapan şəhərindən 90 km şimal-şərqdə, dəniz səviyyəsindən 1600 m hündürlükdə yerləşir. Kəndin qədim adı Xaznavar, Xandzaberd olmuşdur (415, s. 28). 1921-ci il avqustun 31-də Sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. 1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. 1828-ci il Türkmənçay müqaviləsindən sonra kəndə xaricdən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 28, 1873-cü ildə 86, 1897-ci ildə 180 nəfər azərbaycanlı yaşamışdır (415, s. 28–29, 112–113). 1918-ci ildə kənddə yaşayan azərbaycanlılar erməni silahlılarının təcavüzünə məruz qalaraq qırğınlarla qovulmuşdur. 1918-ci ildən sonra burada yalnız ermənilər yaşayır. Toponimin ilkin, qədim formasına (Xaznavar/Xandaberd) əsasən bu qənaətə gəlirik ki, kəndin adı qədim türk tayfalarından biri olan "gencək" (xazna, xandza) etnonimi ilə Azərbaycan dilində "möhkəmləndirilmiş istehkamı olan kənd", "qala" mənasında işlənən "var" sözünün (339, s. 113) birləşməsindən əmələ gəlmişdir. Etnotoponimdir. Mürəkkəb quruluşlu toponimdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 97).

Coğrafi koordinatları: 39°37′ şm. e., 46°21′ ş. u.

**Xıznauz** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 20 km şimal-şərqdə, dəniz səviyyəsindən 915 m hündürlükdə yerləşir. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Xəzaviz" (143, s.163), Qafqazın 5 verstlik xəritəsində "Xıznauz" formasında (348, s. 265) qeyd edilmişdir. Kəndin digər adları "Xenanız", "Xıznavuz", "Xznavuz", "Kiznauz" olmuşdur (427, s. 378). Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra azərbaycanlılar erməni silahlıları tərəfindən kənddən çıxarılmış, 1828–1829-cu illərdə İranın Xoy vilayətindən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir (427, s. 378). Hazırda kənddə ermənilər yaşayır. Toponim "xız" (ğız, ğuz) etnoniminə (ərəb mənbələrində oğuz etnonimi "ğız", "ğuz" formasında qeyd edilir (238, s. 138; 238, s. 50), cəmlik bildirən "-uz" (avuz, vuz) şəkilçisinin (399, II, s. 459) artırılması ilə əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 4 may 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Araqats" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 26).

Coğrafi koordinatları: 40°13′ şm. e., 44°13′ ş. u.

**Xoşkotan** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 31 km məsafədə, dəniz səviyyəsindən 850 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tədricən tərk etmişdir. Toponim qədim türk dilində "düşərgə", "yurd", "icma", "kiçik yurd" mənasında işlənən "koş" (xoş) sözü ilə (359, II (1), s. 636) "heyvanların salındığı yer", "şəhər, qala divarları" (339, s. 295, 296), "tövlə", "yaşayış məntəqəsinin (aulun) yaxınlığında axşamlar qoyunların salındığı yer" (359, II (1), s. 606–607) mənasında işlənən "kotan" sözünün birləşməsindən əmələ gəlib, "qoyunların saxlandığı yer, yurd yaxınlığında olan kənd" mənasını ifadə edir. "Kotan" sözü türk dillərində "kutan" formasında "xutor, köçəri çobanların dağdakı otlağı" mənasında işlənir (339, s. 323). Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Voskevan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 162).

Coğrafi koordinatları: 41°07′ şm. e., 45°03′ ş. u.

# İ

**İbiş** – Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, keçmiş Amasiya rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 40 km məsafədə, Türkiyə sərhədində, Arpa gölünün cənubunda, dəniz səviyyəsindən 2120 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 100) qeyd edilmişdir. Kəndin digər adı "Ayçınqılı" olmuşdur (415, s. 20). Kəndin sakinləri yalnız azərbaycanlılar olmuşdur. Erməni müəlliflərinin əsərlərində kənddə qarapapaqların yaşadığı göstərilir (415, s. 20). Qarapapaqlar azərbaycanlıların etnoqrafik qruplarından biridir. Burada 1897-ci ildə 118 nəfər, 1906-cı ildə 460 nəfər, 1914-cü ildə 568 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). Kənd 1918-1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevral ayında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhalisi qaçqın düşmüşdür. 1921-ci il Qars müqaviləsi ilə kənd Ağbaba nahiyəsinin tərkibində sovet Ermənistanına daxil edilmişdir. Bundan sonra kəndin əhalisinin bir qismi buraya qayıtmışdır. 1922-ci ildə kənddə 221, 1926-cı ildə 300, 1931-ci ildə 275 (415, s. 20–21, 104–105), 1939-cu ildə 278, 1959-cu ildə 219 (416, s. 75), 1970-ci ildə 382, 1987-ci ildə 580 nəfər (35, s. 171) azərbaycanlı yaşamışdır. 1989-cu ilin yanvarında azərbaycanlılar ermənilər tərəfindən öz doğma torpaqlarından qovulmuşdur. Hazırda kənddə əsasən Gürcüstanın Axılkələk və Boqdanovka (Ninosminda) rayonlarından köçüb gələn ermənilər məskunlaşmışlar. Toponim şəxs adı əsasında əmələ gəlmiş antropotoponimdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Yerizak" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 75).

Coğrafi koordinatları: 40°59′ şm. e., 43°39′ ş. u.

**İlançalan** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 8-9 km şimalda, dəniz səviyyəsindən 1611 m hündürlükdə, Abaran çayının sağ tərəfində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 101) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi kəndi tədricən tərk etmişdir. Toponim Azərbaycan dilində işlənən "ilan" ismi ilə "çalan" feili sifətinin birləşməsi nəticəsində formalaşmışdır. 1920-ci ildə kəndin adı dəyişdirilərək "Artaşavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 37-38).

Coğrafi koordinatları: 40°23′ şm. e., 44°22′ ş. u.

**İlanlı (Çaybasar)** – Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, keçmiş Amasiya rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 33 km şimal-şərqdə, Arpaçayın sağ sahilində, dəniz səviyyəsindən 1990 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 130), Qafqazın 5 verstlik xəritəsində (348, s. 101) qeyd edilmişdir. Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. Erməni müəlliflərinin əsərlərində kəndin sakinləri kimi qarapapaqlar göstərilir (415, s. 20). Amasiya rayonunda yaşayan qarapapaqlar Azərbaycan türklərinə bağlı bir tayfadır (ASE, III c., B., 1979, s. 64). Kənddə 1886-cı ildə 137, 1897-ci ildə 206, 1908-ci ildə 240, 1914-cü ildə 276 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105; 416, s. 28). 1918-ci ilin may ayında Andranikin komandanlığı ilə erməni silahlı dəstələri Təzəkənd kəndində soyqırımı törətmişdir. Qırğınlardan bir neçə nəfər qaçıb canını qurtara bilmişdir (7, s. 75). Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevralında erməni silahlı dəstələrinin hücumu nəticəsində dağıdılmış, əhalisinin bir qismi Qars

vilayətinə, bir qismi də İranın Gümrüdəki konsulluğu vasitəsilə Urmiya və Səlmas əyalətlərinə köç etmişdir. 1921-ci il Qars müqaviləsi ilə kənd Ağbaba nahiyəsinin tərkibində sovet Ermənistanına daxil edilmişdir. Bundan sonra kəndin əhalisinin bir qismi kəndə qayıtmışdır. Hazırda kənddə əsasən Gürcüstanın Axılkələk və Boqdanovka (Ninosminda) rayonlarından köçüb gələn ermənilər məskunlaşmışlar. Burada 1922-ci ildə 146, 1926-cı ildə 160, 1931-ci ildə 201, 1939-cu ildə 261, 1959-cu ildə 283, 1970-ci ildə 507, 1979-cu ildə 547 (415, s. 21, 105; 416, s. 28), 1987-ci ildə 505 nəfər (35, s. 171) azərbaycanlı yaşamışdır. 1988-ci ilin axırlarında və 1989-cu ilin əvvəllərində azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya edilmişlər. Hazırda orada ermənilər yaşayır. Toponim "ilanlı" etnonimi (92, s. 15) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Çaybasar", 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Aravet" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 28).

Coğrafi koordinatları: 41°02′ şm. e., 43°46′ ş. u.

**İlxıyabı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 10 km cənub-şərqdə, dəniz səviyyəsindən 1600 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi keçmiş Leninakan rayonunun tərkibində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348, s. 102), erməni müəlliflərinin əsərlərində (415, s. 122; 427, s. 226) "İlxıabi" formasında qeyd edilmişdir. Kəndin köklü sakinləri azərbaycanlılar olmuşdur. 1830-cu ildə Türkiyənin Ərzurum vilayətindən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir (416, s. 17). Ermənilərin bölgədə məskunlaşdırılmasından sonra kəndin azərbaycanlı əhalisi tədricən yer-yurdlarını tərk etmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "ilxı" sözü ilə Azərbaycan dilində "at" mənasında işlənən "yabı" sözünün birləşməsindən əmələ gəlmişdir. "At ilxısı olan yer" mənasını bildirir. Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Ayqabats" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 17).

Coğrafi koordinatları: 40°42′ şm. e., 43°54′ ş. u.

**İlli (İlli Qarakilsə)** – İrəvan quberniyasının Aleksandropol qəzasının Qızılqoç nahiyəsində, sonradan Amasiya rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 22 km şimal-qərbdə, dəniz səviyyəsindən 1800 m hündürlükdə, "Yelli dərə" adlanan dərədə yerləşir (35, s. 168). Erməni müəlliflərinin əsərlərində (415, s. 104) və rəsmi sənədlərdə (266, s. 263) "İlli Qarakilsə", yaxud "Qarakilsə İlli" kimi yazılır. Kənddə XIX əsrin 30-cu illərinə qədər azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhalisi Türkiyəyə köç etmişdir. Burada Türkiyədən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. Toponim "-li" şəkilçisi qəbul etmiş "bəyə tabe olan el, ərazi" mənasında işlənən "il" (299, s. 169; 399, s. 48) sözü ilə "Qarakilsə" toponiminin birləşməsindən əmələ gəlib, "Qarakilsə kəndində yaşayan el" mənasını ifadə edir. "İl" sözü qədim türk dilində "el" sözünün sinonimi kimi işlənmişdir (299, s. 207). Ümumiyyətlə, bu toponim üç komponentdən ibarətdir: il (el) +qara+kilsə. 1920-ci illərdə kənd "İlli" adlandırılmış və Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Hoğmik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 122).

Coğrafi koordinatları: 40°55′ şm. e., 43°49′ ş. u.

**İlməzli** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 53 km şimal-qərbdə, də-

niz səviyyəsindən 1660 m hündürlükdə yerləşir. Kalinino rayonu yaradılanadək keçmiş Cəlaloğlu (Stepanavan) rayonunun tərkibində olmuşdur. Kənddə 1831-ci ildə 75, 1886-cı ildə 212, 1897-ci ildə 301, 1908-ci ildə 195, 1914-cü ildə 188, 1916-cı ildə 479 nəfər azərbaycanlı yaşamışdır (415, s. 78–79, 148–149). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Sağ qalan kənd sakinləri indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz yerlərinə qayıda bilmişdir. Burada 1922-ci ildə 431, 1926-cı ildə 462, 1931-ci ildə 565 (415, s. 79, 149), 1939-cu ildə 653, 1959-cu ildə 852, 1965-ci ildə 1037, 1979-cu ildə 1213 (416, s. 65), 1987-ci ildə 3126 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ildə ilməzlilər tarixi-etnik torpaqlarından deportasiya edilmişlər. Hazırda orada ermənilər yaşayır. Toponim türk dilində "tayfa" mənasında işlənən "il/el" sözü ilə qədim türk dilində "təpə" mənasında işlənən "mar" sözünün (359, II (2), s. 2025) fonetik forması olan "maz"-ın birləşməsindən əmələ gəlmişdir. Azərbaycan dilində "r~z" səs əvəzlənməsi (yor~yoz, yar~yaz, gör~göz) qanunauyğun fonetik hadisədir. "Maz" "mar" sözünün fonetik formasıdır. Erm. SSR AS RH-nin 8 avqust 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Daştadem" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 65).

Coğrafi koordinatları: 41°08′ şm. e., 44°10′ ş. u.

**İmanşahlı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 7 km şimal-qərbdə, İrəvanın cənubunda, Gərni çayından axan arxın yanında, dəniz səviyyəsindən 845 m hündürlükdə yerləşir. Kəndin digər adı "İmanşalı" olmuşdur (415, s. 48). "İrəvan əyalətinin icmal dəftəri"ndə "İmanşahlı" (143, s. 49), Qafqazın 5 verstlik xəritəsində "İmanşalu" (348, s. 102) formasında qeyd edilmişdir. Burada tarixən yalnız azərbaycanlılar yaşamışdır. Erməni ədəbiyyatında İmanşahlı kəndinin 1831-ci ildə salındığı göstərilir (416, s. 139). Əslində, tarixi həqiqət saxtalaşdırılıb. Belə ki 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə Gərni nahiyəsinə daxil olan kəndlərin siyahısında "İmanşahlı kəndi" qeyd edilmişdir. 1828–1830-cu illərdə İranın Xoy, Səlmas vilayətlərindən ermənilər köçürülərək kənddə yerləşdirilmişdir (386, s. 551–554). Burada ermənilərlə yanaşı, 1831-ci ildə 31, 1873-cü ildə 17, 1886-cı ildə 12, 1897-ci ildə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). 1905–1906-cı illərdə azərbaycanlılar erməni silahlıları tərəfindən deportasiya edilmişdir. Hazırda orada ermənilər yaşayır. Toponim "şaha imanlı, şaha iman göstərənlər" mənasını verən "imanşalı/imanşahlı" nəsil adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Mxçyan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 139).

Coğrafi koordinatları: 40°01′ şm. e., 44°29′ ş. u.

**İmirxan** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 17 km qərbdə, dəniz səviyyəsindən 1560 m hündürlükdə yerləşir. Kəndin digər adı "Əmirxan",



*İmirxan kəndi*

"İmirxanlı" kimi göstərilir (415, s. 24). "İrəvan əyalətinin icmal dəftəri"ndə "İmirxanlı" kimi (s. 129), Qafqazın 5 verstlik xəritəsində "İmirxan" formasında (348, s. 102) qeyd edilmişdir. Burada əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali Türkiyəyə köç etmişdir. Toponim imir ("eymur" tayfa adının fonetik forması) türk tayfasının adına (238, s. 324) "xan" sözünün qoşulması nəticəsində əmələ gəlmişdir və "eymur/imir tayfasından olan xana məxsus kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 1 iyun 1940-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Saratak" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 177).

Coğrafi koordinatları: 40°40′ şm. e., 43°51′ ş. u.

**İmirli** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 37 km şimal-şərqdə, Abaran çayının sol tərəfində, dəniz səviyyəsindən 1910 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində kəndin adı "Əmirli" kimi göstərilir (415, s. 4). Mənbələrdə kəndin XVII əsrdə salındığı qeyd edilir (Erməni Sovet Ensiklopediyası, IV c., İrəvan, 1978, s. 186). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 102). Ermənilərin bölgədə məskunlaşdırılmasından sonra kəndin azərbaycanlı əhalisi tədricən yer-yurdlarını tərk etmişdir. Toponim oğuzların "eymur" etnoniminə (399, I, s. 167; 238, s. 324–325) mənsubluq bildirən "-li" şəkilçisinin qoşulması ilə əmələ gəlib, "eymurların (əmirlərin) yaşadığı kənd" mənasını ifadə edir. Oğuzların eymur tayfasının adı həm də "imir" formasında qeyd edilir (238, s. 324, 326). Etnotoponimdir. Erm. SSR AS RH-nin 19 aprel 1950-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Ttucur" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 82).

Coğrafi koordinatları: 40°34′ şm. e., 44°27′ ş. u.


*İmirli kəndi*

**İnəkdağ** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 90 km cənub-şərqdə, İnəkdağ dağının ətəyində, dəniz səviyyəsindən 2000 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 102). Kənddə 1873-cü ildə 317, 1886-cı ildə 469, 1897-ci ildə 517, 1908-ci ildə 520, 1914-cü ildə 674, 1916-cı ildə 423 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26, 27, 112–113). 1919-cu ilin fevralında azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən kənddən qırğınlarla qovulmuşlar (309, s. 249). 1920-ci ildə indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə kənddə 297, 1926-cı ildə 281, 1931-ci ildə 383, (415, s. 27, 113), 1939-cu ildə 379, 1959-cu ildə 444, 1970-ci ildə 633, 1979-cu ildə 738 nəfər (416, s. 198) azərbaycanlı yaşamışdır. 1988-ci ildə Ermənistan dövləti tərəfindən azərbaycanlılar bir daha öz doğma kəndlərindən qovulmuşlar. Hazırda orada ermənilər yaşayır. Toponim oğuz tayfalarından olan "inək" etnonimi ilə (321, s. 57) "dağ" sözünün birləşməsindən əmələ gəlmişdir. "İnək" (inak) qədim türk mənşəli söz olub, "etibarlı, inanılmış", "istəkli, se-

vimli" mənalarını ifadə edir. Bu söz qədim dövrlərdə "tayfa başçısı" mənasında işlənmişdir (321, s. 99). Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Yenikənd", 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Tretuk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 198).

Coğrafi koordinatları: 40°14' şm. e., 45°51' ş. u.

**İnəkli** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 12 km şimal-qərbdə, Abaran çayının sağ axarında, dəniz səviyyəsindən 1650 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "İnəkli məzrəsi" formasında (143, s. 88), Qafqazın 5 verstlik xəritəsində "İnəkli" şəklində (348, s. 102) qeyd edilmişdir. Erməni müəlliflərinin əsərlərində kəndin adı "Enakli", "İnoğlu" kimi də göstərilir (427, s. 284). 1828-ci ilə kimi burada azərbaycanlılar yaşamışdır. 1828–1830-cu illərdə azərbaycanlılar deportasiya olunmuş və bura İranın Xoy, Səlmas vilayətlərindən, Türkiyənin Van vilayətindən ermənilər köçürülərək yerləşdirilmişdir (427, s. 284). Toponim oğuz tayfalarından olan "inək" etnoniminə (321, s. 57) mənsubluq bildirən "-li" şəkilçisinin artırılması ilə düzəlmişdir və "inək tayfasına mənsub yaşayış yeri" mənasını verir. Əski türkcə "inək" (inak) sözü "inanılmış", "istəkli, sevimli" mənalarını ifadə edir. Xivə, Buxara şivəsində "atalıq" mənasında işlənən "inək" əvvəllər "tayfa başçısı", "xanın gizli məsləhətçisi", "əyalətin və ya şəhərin baş rəisi" mənalarını bildirmişdir (321, s. 99). Etnotoponimdir. Erm. SSR AS RH-nin 1 dekabr 1948-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Antarut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 22).

Coğrafi koordinatları: 40°21' şm. e., 44°16' ş. u.

**İpəkli** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 3 km şimal-qərbdə, dəniz səviyyəsindən 840 m hündürlükdə yerləşir. 1969-cu ildə Zəngibasar rayonu təşkil edilənədək Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (339, s. 103). Kənddə 1831-ci ildə 22, 1873-cü ildə 117, 1886-cı ildə 70, 1897-ci ildə 102, 1908-ci ildə 185, 1914-cü ildə 204, 1916-cı ildə 123 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Sağ qalan azərbaycanlılar indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz kəndlərinə qayıda bilmişdir. Burada 1922-ci ildə 19, 1926-cı ildə 14 nəfər azərbaycanlı yaşamışdır (415, s. 49, 129). 1930-cu ildə kəndin əhalisi Arpavar kəndinə köçürülmüş və burada ermənilər yerləşdirilmişdir. Toponim "ipəkli" nəsil adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Masis qəsəbəsi" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 132).

Coğrafi koordinatları: 40°06′ şm. e., 44°24′ ş. u.

**İrəvan** – İrəvan şəhərinin yerləşdiyi ərazi müxtəlif dövrlərdə Urartu, Sasani, Ərəb xilafəti, Sacilər, Şəddadilər, Səlcuqilər, Eldənizlər, İlxanilər, Teymurilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Əfşarlar, Qacarlar, Osmanlı və Çar Rusiyasının tərkibinə daxil olmuşdur. Yalnız 1918-ci ildə Cənubi Qafqazda ilk erməni dövləti yarandıqdan sonra İrəvan şəhəri Ermənistanın paytaxtına çevrilmişdir. İrəvan şəhəri 40°11′ şimal en dairəsi və 44°31′ şərq uzunluğunda Ağrı vadisinin şimal-şərq hissəsində, dəniz səviyyəsindən təqribən 850-1370 metr yüksəklikdə, Zəngi çayının sahilində yerləşir.

İrəvan şəhəri və onun ətrafındakı oykonimlərin (yaşayış məntəqələri), qodonimlərin (küçə

adları), aqoronimlərin (meydan adları), antrotoponimlərin (şəxs adlarından törəmiş coğrafi adlar), hidronimlərin (çay, göl, bulaq və s.), oronimlərin (dağ, dərə, aşırım, düzənlik və s.) mütləq əksəriyyətinin Azərbaycan türkcəsində olması bir daha onu göstərir ki, bu ərazi azərbaycanlıların qədim yaşayış məskənlərindən olmuşdur. İrəvan şəhəri ərazisində aparılan qazıntılar zamanı aşkara çıxan maddi mədəniyyət nümunələri içərisində indiyədək ermənilərə məxsus hər hansı nümunəyə rast gəlinməmişdir.

Ticarət yollarının üzərində yerləşən və şəhər kimi orta əsrlərdə formalaşan, yalnız Azərbaycan türklərinin yaşadığı bu qala-şəhər eyni zamanda Azərbaycanın zəngin mədəniyyət mərkəzlərindən biri olmuşdur. İrəvan şəhəri bir mərkəz kimi, Çuxur-Səəd bəylərbəyiliyi və İrəvan xanlığı dövrlərində sosial-iqtisadi cəhətdən sürətlə inkişaf etmişdir.

Qədimdən yalnız Azərbaycan türklərinin məskun olduqları bu şəhərin adı orta əsr yazılı mənbələrində "Rəvan", "İrəvan", "Ervan", "İrivan" kimi qeyd edilmişdir. XIX əsrin əvvəllərində rus qoşunları tərəfindən işğalından sonra şəhərin adı "Erivan" (Эривань) kimi yazılmışdır.

Erməni tarixçiləri şəhərin adının Urartu çarı I Argiştinin dövründə (e.ə. 782-ci ildə) salınmış Erebuni (İrpuni) qalasının adı ilə bağlamağa çalışmışlar. Erebuni qalası yalnız hərbi-istehkam məqsədilə inşa edilmiş və onun ətrafında heç vaxt şəhər infrastrukturu formalaşmamışdır. Urartuluların ermənilərə heç bir aidiyyəti olmadığı kimi, qədim Erebuni qalasının da indiki İrəvan şəhəri ilə nə məkan, nə də zaman baxımından əlaqəsi olmuşdur. İndi ermənilərin "Arinberd" (Qanlıqala) adlandırdıqları bu təpə İrəvan şəhərinin cənub-şərq istiqamətində yerləşir. 1879-cu ildə rus arxeoloqu A.İvanovski İrəvan ətrafındakı Çölməkçi kəndində üzərində mixi yazılar olan, Urartu çarı I Argiştinin hakimiyyəti dövrünə aid mətni əks etdirən bazalt daş aşkar etmişdir. Sonradan həmin ərazidə üzərində mixi yazıları olan daha bir neçə daş aşkar edilmişdi.

Qədim İrəvan yaşayış məntəqəsi ilə 1950-ci ildə arxeoloji qazıntılar zamanı üzə çıxan Erebunu qalası arasında xeyli məsafə olmuşdur. Yalnız XX əsrin ikinci yarısından Erebuni qalasının yerləşdiyi Qanlı təpə şəhərətrafı əraziyə daxil edilmişdir. Urartulular dövrünə aid tapılan mixi yazılardan aydın olmuşdur ki, e.ə. VIII əsrin birinci rübündə Ağrı vadisi (*Araz çayının sol sahili və Arpaçayın aşağı axarı*) urartulular tərəfindən



*İrəvan şəhərinin planı. Rəssam J.Tavernye. 1655-ci il*

işğal edilənədək həmin ərazi Aza xalqının ölkəsi olmuşdur (286 a, 423).

İrəvanın Urartu çarı I Argişti tərəfindən əsası qoyulan Erebuni (İrpuni) qalası ilə eyniləşdirilməsi ermənilər tərəfindən tarixin saxtalaşdırılmasının bariz nümunəsidir.

İlk mənbələr təsdiq edir ki, indi Ermənistan (Hayastan) adlandırılan əraziyə ermənilər (haylar) ilk dəfə xristianlığın dövlət dini səviyyəsinə yüksəlməsindən sonra missionerlər kimi gəlmişlər. Haylar ərəb xilafəti dövründə islam dinini qəbul edən aborigen türkmənşəli boyların tərk etdikləri dini məbədlərə sahib çıxmış, həmin məbədləri kilsəyə çevirmiş, elə oradaca saxta tarix əsərləri quraşdırmışlar.

Ərəb xilafətinin qoşunları ilk dəfə 642-ci ildə Cənubi Azərbaycan və Naxçıvan üzərindən indiki Ermənistan ərazisinə daxil olmuşdur. Xilafət dövründə Cənubi Qafqazdakı əmirliklərin idarəçiliyi, bir qayda olaraq, türklərə həvalə edilirdi. Erməni tarixçisi A.Ter-Qevondyan yazır: "Əgər Ərəb xilafəti dövründə Yerevan (İrəvan) şəhər kimi mövcud olmuş olsa idi, ticarət yolu da oradan keçərdi. Lakin Ərəb xilafəti dövründən bəhs edən erməni müəllifləri qeyd edirlər ki, həmin dövrdə



*İrəvan xanının qəbul otağı. Rəssam Q.Qaqarin*

karvan yolu İrandan Naxçıvan-Dvin (Dəbil) üzərindən kiçik Asiyaya yönəlirdi"(380 a, 63).

Ermənilərin İrəvan ətrafında məskunlaşması 1441-ci ildə Qaraqoyunlu hökmdarı Cahan şahın razılığı ilə erməni katolikosluğunun iqamətgahının Kilikiyadan Valarşabad kəndindəki Üçmüəzzin (Üçkilsə) kilsəsinə köçürülməsindən sonra başlamışdır.

Şəhər kimi orta əsrlərdə formalaşan bu qala-şəhər eyni zamanda Azərbaycanın zəngin mədəniyyət mərkəzlərindən biri olmuşdur. İrəvan şəhəri bir mərkəz kimi, Çuxur-Səəd bəylərbəyiliyi və İrəvan xanlığı dövrlərində sosial-iqtisadi cəhətdən sürətlə inkişaf etmişdir.

Türk səyyahı və coğrafiyaşünası Övliya Çələbi İrəvanı yaşayış məntəqəsi kimi XV əsrin əvvəllərinə aid edir. Onun yazdığına görə, hicri təqvimi ilə 810-cu ildə (1407–1408) Əmir Teymurun tacirlərindən Xacə xan Ləhicani çox münbit Rəvan torpağına qədəm qoymuş, öz ailə üzvləri ilə burada sakin olmuş və düyü əkini hesabına gündən-günə varlanaraq bu böyük kəndin əsasını qoymuşdur. Övliya Çələbi daha sonra əlavə edir ki, Səfəvilər dövlətinin başçısı Şah İsmayıl hicri 915-ci ildə (1509–1510) qala salınması barədə öz vəziri Rəvanqulu xana göstəriş vermiş, o da yeddi ilə qalanı tikdirərək adını "Rəvan" qoymuşdur (66, 50).

Səfəvilər dövründə Çuxur-Səəd bəylərbəyiliyini əsasən rumlu və ustaclı qızılbaş əmirləri idarə etmişlər. Osmanlı və Səfəvi imperiyaları arasında gedən müharibələr nəticəsində İrəvan şəhəri 14 dəfə əldən-ələ keçmişdir. Hər dəfə də müəyyən dağıntılara məruz qalmış, sonradan yenidən bərpa edilmişdir. 1554-cü ildə Osmanlı qoşunları İrəvanı darmadağın edərək onu ələ keçirmişdir. 1580-ci ildə Osmanlı vəziri Lələ Mustafa paşa yenidən İrəvanı işğal etmişdir. Bir çox səyyah və tarixçilərin təsvir etdikləri İrəvan qalası köhnə qalanın yerində, Osmanlı işğalı dövründə 1582–1583-cü illərdə Fərhad paşa tərəfindən inşa edilmişdir. Uzunluğu 850 m, eni 790 m olan qala təqribən kvadrat formasında olub, 7 ha ərazini əhatə edirdi. İkiqat qala divarlarının hündürlüyü 10,5–12 m idi. Qalanın birqat divarı Zəngi çayının divarlarını yuduğu qayalıq üstündən keçirdi. Qalanın üç qapısı var idi: cənubda Təbriz qapısı, şimalda Şirvan qapısı (yaxud Meydan qapısı) və Körpü qapısı. 1679-cu ildə Meydan qapısı ilə Köhnə şəhər arasında Zəngi çayının üzərində "Qırmızı körpü" adlanan körpü salınmışdı.

Avropadan və Rusiyadan gələn səyyah və tədqiqatçılardan Jan Tavernye, Jan Şarden, Ceyms Morier, İvan Şopen, Dübua da Monpere, qrafinya Praskovya Uvarova, Henri Linç, akademik Nikolay Marr, rəssam Qriqori Qaqarin və başqaları müxtəlif vaxtlarda İrəvanda olmuş, Xan sarayını,



*İrəvan xanlığı. Zal xan məscidi*

onun Güzgülü salonunu, Yay köşkünü, qaladakı və şəhərdəki məscidləri, karvansaraları, hovuz və hamamları öz əsərlərində təsvir etmişlər.

İrəvan şəhərinin yaşayış massivlərinin, tarixi-memarlıq abidələrinin, məhəllələrinin, küçə və meydanlarının, karvansaralarının, suvarma şəbəkələrinin, bağlarının adlarının hamısının Azərbaycan türkcəsində olması bu şəhərin əzəli sakinlərinin azərbaycanlılar olmasını sübut edir.

İrəvan şəhəri 4 massivdən ibarət olmuşdur: Qala, Şəhri (yaxud Köhnə şəhər), Təpəbaşı (hazırda Kond adlanır) və Dəmirbulaq (hazırda "Karanki tağ" adlanır) massivləri. Qala ilə digər yaşayış massivləri arasında Bazar meydanı və bağlar mövcud idi. Şəhri məhəlləsi Qırxbulaq çayının sağ sahili ilə İrəvan qalasına kimi uzanırdı. Şəhərin mərkəzi bazarı və bütün meydanları, bir çox karvansaraları və hamamları bu hissədə yerləşirdi. Təpəbaşı məhəlləsi Zəngi çayı ilə Şəhri məhəlləsinin arasındakı təpəlikdə yerləşirdi. Təpəbaşı məhəlləsini Şəhri məhəlləsindən İrəvanın adlı-sanlı adamlarının çoxsaylı bağları ayırırdı. Hüseynqulu xana məxsus məşhur Xan bağı və Yay köşkü Zəngi çayının sağ sahilində yerləşirdi. Dəmirbulaq məhəlləsi Şəhri məhəlləsindən cənub-şərqdə, İrəvan qalasının şərqində yerləşirdi.

Şəhərin qərbində yerləşən Təpəbaşı massivində Hindistandan gəlmiş 50-yə yaxın erməni qaraçı ailələri (*boşalar*) məskunlaşmışdılar. Şəhərin cənubunda yerləşən Dəmirbulaq massivində (*hazırda "Karanki Tağ" adlanır*) yalnız azərbaycanlılar yaşayırdılar. İrəvan qalasında isə, fransız səyyahı J.Şardenin qeyd etdiyi kimi, yalnız təmizqanlı səfəvilər (yəni azərbaycanlılar) yaşayırdılar (238 a, 21).

Zəngi və Gedər çaylarının arasında formalaşan, quru subtropik iqlim zonasında yerləşən İrəvan şəhəri olduqca münbit və bərəkətli torpaqlarla əhatə olunmuşdur. Məşhur İrəvan bağları və bostanları İrəvan xanlarının müxtəlif dövrlərdə Zəngi və Gedər çaylarından çəkdirdikləri kanallarla suvarılır. Şəhərdəki və ətrafdakı bağları suvarmaq üçün Toxmaq xanın vaxtında yaradılan və onun adını daşıyan Toxmaq gölündən çəkilən kanallar, Zəngi çayından çəkilən Mamrə, Abuhəyat, Dəlmə və Təzəkənd kanalları kifayət



*İrəvanda Göy məscid. Rəssam Dübua de Monpere*

edirdi (359 a, 183). Şəhərin cənubundakı bağlar isə Gedər çayından çəkilən kanal və arxlarla suvarılırdı. XX əsrin əvvəllərinədək İrəvan şəhəri 4 mənbədən – Zəngi çayı, Söyüdlük adlanan ərazidəki çoxsaylı bulaqlar, Gedər çayının şəhər bağlarından keçən hissəsində tikilən su anbarı və müxtəlif yerlərdə qazılan kəhrizlər vasitəsilə içməli su ilə təmin edilirdi (259 a, 269–273).

Müasir İrəvan şəhərində ermənilərə məxsus yaşı 250 ildən artıq olan bircə dənə də olsun maddi mədəniyyət nümunəsi mövcud deyil. Çünki İrəvan şəhərində ermənilər XIX əsrin əvvəllərində Rusiyanın İrəvan xanlığını işğal etməsindən sonra tədricən İran və Türkiyədən köçüb gətirilərək məskunlaşdırılmışdır.

İrəvandakı tarixi-memarlıq abidələri Şərq memarlığı üslubunda inşa edilmişdir. Səyyahlar və salnaməçilər öz əsərlərində İrəvanı tipik müsəlman şəhəri kimi təsvir etmişlər.

Orta əsrlərdən etibarən İrəvan şəhəri karvan yollarının kəsişdiyi məkanda yerləşdiyi üçün burada çoxlu karvansaralar və ticarət meydanları salınmışdı. Daşdan hörülmüş, ortasında kvadratşəkilli meydançaları, su hovuzları olan karvansaralar İrəvanın gözəl tikililərindən hesab olunurdu. XIX əsrin əvvəllərində İrəvanda 7 karvansara mövcud olmuşdur. Culfa, Gürcü, Zərrabi xan (Sərrafxana), Tahir, Sulu, Susuz, Hacı Əli karvansaralarında üst-üstə 851 köşk mövcud olmuşdur (386, 468–469).

Şəhərin mərkəzi hissəsində Böyük Meydan adlanan 400x400 m ölçüdə meydan yerləşirdi.

Ağır yükləri çəkmək üçün Qantar tərəzisi, yüngül yükləri çəkmək üçün Mizan tərəzisi bu meydanda yerləşirdi. Digər meydanlar Xan bağı, Zal xan, Hüseynəli xan, Fəhlə bazarı meydanı adlanırdı (386, 87). Pənah xan Makinskinin imarətinin yerləşdiyi ərazi isə son vaxtlaradək Pənah xan meydanı və yaxud Pənah xan bulvarı adlanırdı.



*İrəvan qalasının çar Rusiyası tərəfindən işğal edilməsi. Rəssam Frans Alekseyeviç Rubo*

İrəvanda Şərq memarlıq üslubunda 10 hamam – Şəhər, Zal xan, Şeyxülislam, Mehdi bəy, Hacı Bəyim (*sonuncu İrəvan xanının qardaşı Həsən xanın qızı*), Təpəbaşı, Hacı Əli, Hacı Fətəli, Kərim bəy, Həsənəli hamamları mövcud idi (143 a, 160). Hazırda İrəvanın mərkəzindəki Respublika meydanının yerləşdiyi yerdə vaxtilə mövcud olan Zal xan hamam kompleksində yeraltı çayxana ilə yanaşı, muğamat məclislərinin keçirilməsi üçün xüsusi otaq ayrılmışdı.

XIX əsrin sonu, XX əsrin əvvəllərində İrəvan şəhərində adları azərbaycanca səslənən onlarla küçə mövcud idi. Qədim İrəvanda bu küçələr məşhur idi: Şəriət, Karvansara, Qala, Sultan, Çölməkçi, Naxçıvan, Bazar, Daşlı, Paşa xan, Qəriblər ocağı, Dəyirmanlı, Məscid, Fəhlə bazarı, Təpəbaşı, Qəbiristan, Naib, Mir Cəfər, Rüstəm xan, İmamrə, Korbulaq, Bəy, Kətan, Dükanlı, Sallaxlar və s. (359 a, 356–357)

Bağlar diyarı İrəvanda və onun ətrafında 1473 bağ mövcud olmuşdur ki, onlardan 772-si şəhərin içərisində idi. Sərdar bağı, Dəlmə, Abbasdərəsi, Abuhəyat, Keşağlı, Qızılqala, Dərə bağı, Səvzikəri, Xosrovabad, Söyüdlü, Qul dərəsi, Kənkan, Kərpicxana bağlarının ad-sanı İrəvandan çox-çox uzaqlara yayılmışdı (386, 471).

Şəhərdə və onun ətrafında 45 dəyirman mövcud idi. Azərbaycanlılara məxsus Hacıbəyim, Məhəmməd xan, Sübhanqulu xan, Qala, Xan, Doqquz dəyirmanları şəhərin ən böyük dəyirmanları olmuşdur (386, 475).

Tarixi ədəbiyyatda İrəvan şəhərində 15-ə yaxın məscidin və iki erməni kilsəsinin adları keçir. Göy məscid (yaxud Hüseynəli xan), Təpəbaşı, Zal xan (yaxud Şəhər), Sərtib xan, Hacı Novruzəli bəy, Qala məscidi (Sərdar, yaxud Abbas Mirzə), Dəmirbulaq, Hacı Cəfər bəy, Rəcəb paşa, Məhəmməd Sərtib xan, Hacı İnam məscidlərinin minarələri uzaqdan İrəvanın müsəlman şəhəri olmasını nişan verirdi (143 a, 158–159). Şəhərin ətrafında mövcud olan Poğos-Petros və Katoğke kilsələri vaxtilə xristian missionerlərinin vəsaiti hesabına tikilmişdi və məqsəd ermənilərin şəhərə axınını təmin etməkdən ibarət idi.

İrəvan şəhəri 1827-ci il Rusiya işğalı ərəfəsində Zəngibasar, Gərnibasar (Qəmərli), Qırxbulaq və Karpibasar (Əştərək) mahalları ilə əhatə olunmuşdu.

Türkmənçay (1828) və Ədirnə (1829) sülh müqavilələrinin imzalanmasından sonra İrəvan azərbaycanlılarının qara günləri başlanmışdır. İrəvan və Naxçıvan xanlıqlarının işğalından sonra yaradılan yeni inzibati ərazidə – Erməni vilayətində 1829–1832-ci illərdə kameral siyahıyaalma keçirən İvan Şopenin İrəvan şəhərinin əhalisi haqqında verdiyi statistik məlumatlarda şəhərdə 2751 ailənin (11463 nəfər), o cümlədən 1807 müsəlman ailəsinin (7331 nəfər), 567 yerli erməni ailəsinin (2369 nəfər), İrandan köçürülən 366 erməni ailəsinin (1715 nəfər) və Türkiyədən köçürülən 11 erməni ailəsinin (48 nəfər), habelə 46 boşa (xristian qaraçıları) ailəsinin (195 nəfər) yaşadığı göstərilmişdir (386, 543–546).

Statistik məlumatlar göstərir ki, İrəvan şəhərində 1873-cü ildə 5805 nəfər azərbaycanlı, 5959 erməni, 1886-cı ildə 7228 nəfər azərbaycanlı, 7142 erməni, 1897-ci ildə 12516 nəfər azərbaycanlı, 12529 nəfər erməni yaşamışdır (415, s. 164–167).




*İrəvan şəhərinin panoramı. Fransız səyyahı Jan Batist Şarden, 1673-cü il.*





*İrəvan şəhəri*

Beləliklə, XIX əsrin sonlarında Türkiyədə baş qaldıran erməni üsyanlarının yatırılmasından sonra ermənilərin İrəvan quberniyasına axışıb gəlmələrindən və 1905–1906-cı illərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar həyata keçirilməsindən sonra İrəvan şəhərində ermənilər say üstünlüyünə nail olmuşdular.

1918-ci il mayın 28-də Cənubi Qafqazda üç müstəqil dövlət – Azərbaycan, Gürcüstan, Ermənistan dövlətləri yarananda Azərbaycan Milli Şurası 29 may tarixli qərarla İrəvan şəhərini ermənilərə paytaxt kimi güzəştə getmişdir. Azərbaycan Cümhuriyyətinin Baş naziri Fətəli xan Xoyski mayın 29-da öz hökumətinin xarici işlər naziri Məhəmmədhəsən Hacınskiyə yazırdı: "Biz ermənilərlə bütün mübahisələri həll etdik, onlar ultimatumu qəbul edəcək və müharibəni qurtaracaqlar. Biz İrəvanı onlara güzəştə getdik" (225, s. 6).

Ermənistan Respublikası yarananadək ötən müddət ərzində İrəvan quberniyasının ərazisində yalnız bir neçə azərbaycanlı yaşayış məntəqəsinin adları dəyişdirilmişdir. Şəhər Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 12 iyun 1936-cı il tarixli qərarı ilə "Yerevan" adlandırılmışdır.

İrəvanda 1922-ci ildə 5124 nəfər azərbaycanlı, 40396 nəfər erməni, 1926-cı ildə 4968 nəfər azərbaycanlı, 57295 nəfər erməni, 1931-ci ildə 5620 nəfər azərbaycanlı, 80327 nəfər erməni (415, s. 164–167), 1970-ci ildə 2721 nəfər azərbaycanlı, 738045 nəfər erməni yaşamışdır.

1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar qəbul etmişdir. Həmin qərarda göstərilirdi ki, 1948–1950-ci illərdə könüllülük prinsipi əsasında Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün. "Digər azərbaycanlı əhali" kateqoriyasına açıqlıq gətirilməsə də, aydın olurdu ki, bu kateqoriya adı altında Ermənistanın şəhərlərində, o cümlədən də İrəvan şəhərində yaşayan fəhlələr və kolxozçu olmayan azərbaycanlıların köçürülməsi nəzərdə tutulur. Ona görə də, ilk növbədə, İrəvan şəhərindən və onun ətrafındakı rayonlardan azərbaycanlı əhalinin deportasiya edilməsinə başlanılmışdı.

İrəvan şəhərində azərbaycanlı ali məktəb və texnikum müəllimlərinin öz ailələri ilə birlikdə şəhəri tərk etmək məcburiyyətində qalması ümumtəhsil prosesində ciddi problemlər yaratmışdı. Bir çox azərbaycanlı ailələri öz övladlarına normal təhsil vermək üçün Azərbaycanın ayrı-ayrı rayonlarına köçmək məcburiyyətində qalmışdı. Ümumiyyətlə, 1948–1953-cü illərdə İrəvan şəhərindən 541 ailə (2294 nəfər) Azərbaycana deportasiya edilmişdi.

Şəhərin adı "Ruan" (265, s. 6), 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Rəvan", "İrəvan" (143, s. 159), XVII əsrə aid mənbədə "Rəvan" (86, s. 50), XIX əsr rus və erməni müəlliflərinin əsərlərində (386, s. 260–261; 423, s. 662) "Ayravan", "Aravan", "Ervan", "Errevant", "Rəvant", "İrvan" (Erməni Sovet Ensiklopediyası, III c., 1977, s. 550), Avropa mənbələrində "İrivan" (152, s. 21) formalarında qeyd edilmişdir.

Tədqiqatçılar "İrəvan" toponiminin müxtəlif cür izahını vermişlər və bu barədə yekdil fikir yoxdur. XIX əsr rus arxeoloqu M.V.Nikolski İrəvan/Erivan toponiminin "eri" tayfa adı əsasında yarandığını göstərir və qeyd edir ki, burada eri tayfası yaşadığı üçün yaşayış məntəqəsi Erivan adlanmışdır (426, s. 30). B.Budaqov və Q.Qeybullayevin fikrincə, İrəvan toponimi türk dillərində "dağın gün düşən tərəfi", "dalğavari dağ zirvəsi" mənasında işlənən "ir" sözü ilə fars dilində "yer" mənasında işlənən "van" sözündən əmələ gəlmişdir (62, s. 270). "İrəvan" toponiminin "İrəvan, Erivan, Arevan, Ervan, İrvan, Errevant, İrivan" fonetik variantlarına nəzər salanda aydın olur ki, onların hamısının kökü "ar", "er", "ir" hissəciyindən ibarətdir. Türk dillərində "ar", "er", "ir", "kişi", "igid" mənasında işlənir (359, I (2), s. 1456; 235, s. 43, 45).

Urartu dilində "ölkə" mənasında işlənən "ebani" sözü vardır (332, s. 13). Hr. Kapansyanın fikrincə, "kənd, şəhər" mənasında işlənən "avan" (avvan/avan) urartu dilində "ölkə, yer" mənasında işlənən "abani/ebani" sözündən əmələ gəlmişdir (426, s. 30–31) və "avan" sözü fars dilinə mənsub deyildir (318, s. 89). Belə qənaət hasil olur ki, İrəvan toponiminin ikinci komponenti "əvan" urartu dilində "ölkə", "yer", "kənd", "şəhər" mənasında işlənən "abani/ebani" sözünün bir variantıdır. Daha doğrusu "abani" sözündəki "b" səsi "v" səsi ilə əvəzlənərək "abani" sözü "avan", "əvan" formasına çevrilmişdir. Deməli, İrəvan toponimi türk dilində "kişi", "igid" mənasında işlənən "ir" sözü ilə "ölkə", "yer", "kənd", "şəhər" mənasında işlənən "ebani" (avan) sözü əsasında əmələ gəlib, "igidlər ölkəsi" mənasını ifadə edir.

1988-ci ilin dekabr ayından azərbaycanlılar İrəvandan tamamilə deportasiya olunmuşlar.

Sovet hakimiyyəti illərində rayonlaşma bölgüsünə əsasən, İrəvan şəhərini Zəngibasar (Masis), Qəmərli (Artaşad), Eçmiədzin, Əştərək (Aştarak), Ellər (Abovyan) və Nairi rayonlarını əhatə edirdi. 1995-ci ildə Ermənistanda yeni inzibati-ərazi bölgüsü tətbiq edilmişdir. Bu dəfə İrəvan şəhərinin daxil olduğu İrəvan vilayətini (marzını) Ararat, Kotayk, Armavir və Araqatsotn vilayətləri əhatə edirdi (416, 74–75).

Coğrafi koordinatları: 40°10′ şm. e., 44°30′ ş. u.

**İstisu** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda kənd, indi Vayotsdzor vilayətində şəhər. Arpa çayının yanında, İrəvan şəhərindən 173 km məsafədə yerləşir. Kəndin adı tarixi mənbələrdə XIII əsrdə çəkilsə də, burada VII əsrə aid tikililərin qalıqları vardır (422, s. 94). 1961-ci ildə geniş tikinti işləri aparılaraq şəhər statusu almış və kurort şəhəri kimi fəaliyyət göstərməkdədir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 105). Burada 1831-ci ildə 114, 1886-cı ildə 117, 1897-ci ildə 163, 1904-cü ildə 214, 1914-cü ildə 235, 1916-cı ildə 200 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış, sakinləri deportasiya olunmuşdur. Yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra – 1920-ci ildə kəndi tərk edən azərbaycanlılardan sağ qalanlar doğma yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 118, 1926-cı ildə 60, 1931-ci ildə 215 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1940-cı illərdə İran və Türkiyədən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir. 1959-cu ildə 329, 1970-ci ildə 627 nəfər azərbaycanlı və erməni yaşamışdır. Şəhərdə yaşayan azərbaycanlılar 1988-ci ilin noyabr ayında tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda şəhərdə yalnız ermənilər yaşayır. Toponim yerdən təbii şəkildə, isti formada çıxan mineral su adından əmələ gəlib, "isti" və "su" komponentlərindən ibarətdir. Hidrotoponimdir. Yaşayış məntəqəsinin adı erməni dilinə kalka edilərək "Cermuk" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 169).

Coğrafi koordinatları: 39°51′ şm. e., 45°41′ ş. u.

**İtqıran (Gülüstan)** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 42 km cənub-şərqdə, dəniz səviyyəsindən

1580 m hündürlükdə yerləşir. Kənddə 1831-ci ildə 157, 1873-cü ildə 257, 1886-cı ildə 364, 1897-ci ildə 235, 1904-cü ildə 490, 1914-cü ildə 539, 1916-cı ildə 442 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və kənddə yaşayan azərbaycanlılar qırğınlarla qovulmuşdur. Yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar öz doğma yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 103, 1926-cı ildə 88, 1931-ci ildə 127 (415, s. 90–91, 158–159), 1939-cu ildə 202, 1959-cu ildə 148, 1979-cu ildə 253 nəfər yalnız azərbaycanlı yaşamışdır (427, s. 910). 1988-ci ilin noyabr ayında kəndin bütün sakinləri tarixi-etnik vətənlərindən deportasiya edilmişdir. Hazırda orada ermənilər yaşayır. Toponim tarixi mənbələrdə adı çəkilən "itbarak" tayfa adında (228, s. 16–18; 321, s. 43–45) öz əksini tapan və etnonim kimi işlənən "it" və qədim türk dilində "kənd, yaşayış yeri, meşədə yurd, dəyə, maldarların müvəqqəti dayanacaq yeri" mənasında işlənən "kuren/kuran" (qıran) sözündən (339, s. 317–318) əmələ gəlmişdir. Etnotoponimdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Gülüstan", 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Nor Aznaberd" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 147).

Coğrafi koordinatları: 39°32′ şm. e., 45°25′ ş. u.

**İydəli** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 14 km cənub-qərbdə, Araz çayının sol sahilində, dəniz səviyyəsindən 855 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 100). 1930-cu illərdə keçmiş Qurduqulu rayonunun tabeliyində olmuşdur (415, s. 62). Kənddə 1831-ci ildə 113, 1873-cü ildə 562, 1886-cı ildə 629, 1897-ci ildə 706, 1904-cü ildə 880, 1914-cü ildə 934, 1916-cı ildə 637 (415, s. 62–63, 138–139), 1918-ci ilin əvvəlində 880 nəfər (309, s. 219) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevral ayında azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq ata-baba torpaqlarından deportasiya olunmuşdur (309, s. 219). Kəndə Türkiyənin Ələşkirt, Bəyazid, Samsun, Ərzurum və Muş vilayətlərindən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir (416, s. 202). İndiki Ermənistan ərazisində sovet



*İydəli kəndi*

hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdir. Burada ermənilərlə yanaşı, 1922-ci ildə 87, 1926-cı ildə 55, 1931-ci ildə 80 nəfər azərbaycanlı yaşamışdır (415, s. 62–63, 138–139). SSRİ Nazirlər Sovetinin Ermənistan ərazisindən azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində işlənən "iydə" ağac adına "-li" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 10 aprel 1947-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Pşatavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 202).

Coğrafi koordinatları: 40°02′ şm. e., 44°04′ ş. u.

# K

**Kaftarlı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 16 km cənub-qərbdə, dəniz səviyyəsindən 1700 m hündürlükdə yerləşir. 1972-ci ilə kimi keçmiş Abaran rayonunun tərkibində olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 136), Qafqazın 5 verstlik xəritəsində (348, s. 124) qeyd edilmişdir. XIX əsrin əvvəllərinə kimi kənddə yalnız azərbaycanlılar yaşamışdır. 1828-ci ildə – Türkmənçay müqaviləsinin imzalanmasından sonra Türkiyənin Ələşkirt vilayətindən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir (Ermənistan Sovet Ensiklopediyası, XII c., İrəvan, 1986, s. 306; 416, s. 201–202). Toponim kaftarlı nəslinin adı əsasında əmələ gəlmişdir. Ermənistan Torpaq Komitəsinin 1924-cü il qərarı ilə kəndin adı dəyişdirilərək "Panik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 202).

Coğrafi koordinatları: 40°39′ şm. e., 43°56′ ş. u.

**Karpi** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 2 km şimal-şərqdə, dəniz səviyyəsindən 1310 m hündürlükdə yerləşir. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 162), 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 37) qeyd edilmişdir. Tarixən bu ərazidə Kiçik Karpi və Böyük Karpi kəndləri olmuş, sonradan bu iki kənd birləşdirilmiş və Karpi kəndi kimi rəsmiləşdirilmişdir (415, s. 22). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim türk dilində "şəhər", "qala", "möhkəmləndirilmiş yer" mənasında işlənən "kar" sözünə (339, s. 254) "-pi" şəkilçisinin qoşulması yolu ilə formalaşmışdır. "Pi" elam dilində cəm şəkilçisidir. Karpi toponimi "el", "tayfa", "qəbilə", "yurd", "ölkə" mənalarını ifadə edir (78, s. 29). "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 108–109).

Coğrafi koordinatları: 40°19′ şm. e., 44°22′ ş. u.

**Karvansara** – İndiki Ermənistanın şimal-şərqində, Tavuş vilayətinin inzibati ərazisində şəhər. İrəvan şəhərindən 142 km məsafədə, İrəvan–Tiflis şose yolunun üstündə, Ağstafa çayının hər iki sahilində, dəniz səviyyəsindən 700 m hündürlükdə yerləşir. Tavuş vilayətinin mərkəzidir. Qədim ticarət yollarından biri Ağstafa çayının vadisindən keçdiyi üçün yolun üstündə karvansara tikilmiş, bu səbəbdən də ərazi "Karvansara" adlanmışdır. Arxeoloji tədqiqatlar göstərir ki, adıçəkilən karvansara indiki İcevan şəhərindən 10 km cənubda – Ağstafa çayının sol sahilində yerləşirmiş. İndiyə qədər orada karvansara hamamının qalıqları saxlanılmışdır. 1801-ci ildə ərazi Rusiya qoşunları tərəfindən işğal edilmişdir. 1921-ci ilədək Yelizavetpol quberniyasının Qazax qəzasının tərkibində olmuşdur. 1920-ci illərdən "İcevan" adı ilə rəsmiləşdirilmişdir. 1930–1995-ci illərdə "İcevan" adlanan rayonun mərkəzi kimi fəaliyyət göstərmişdir. 1961-ci ildən şəhər statusundadır. Toponim "özgə yerlərdən gələn karvanların və yolçuların müvəqqəti qalması, qoşqu heyvanları və minik vəsaitinin saxlanılması üçün böyük həyati olan xüsusi bina" mənasında işlənən "karvansara" sözündən (11, s. 18) əmələ gəlmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, şəhərə Tavuş vilayətinin mərkəzi statusu verilmişdir (416, s. 84).

Coğrafi koordinatları: 40°52 şm. e., 45°08′ ş. u.

**Karvansara** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Araqats (Alagöz) rayonunda, indi Araqatsotn vilayəti ərazisində kənd. Əvvəllər gah keçmiş Artik, gah da Abaran rayonunun tərkibində olmuşdur. Erm. SSR AS RH-nin

15 mart 1972-ci il tarixli qərarı ilə Alagöz rayonuna verilmişdir. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 51 km şimal-qərbdə, Alagöz dağının cənub tərəfində, dəniz səviyyəsindən 2100 m hündürlükdə yerləşir. 1877–1878-ci illər rus-türk müharibəsindən sonra kənddə yaşayan azərbaycanlılar qovulmuş, yezidi kürdləri və ermənilər kənddə yerləşdirilmişdir. Toponim "karvan" sözü ilə türk dilində "ev", "təsərrüfat tikilisi" mənasında işlənən "saray" sözünün (339, s. 496–497) birləşməsindən əmələ gələn "karvansara" sözündən formalaşmışdır, "başqa yerlərdən gələn karvan və yolçuların müvəqqəti qalması, qoşqu heyvanları, minik vəsaitlərinin saxlanılması üçün böyük həyati olan bina yanında salınan kənd" mənasını bildirir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Amre Taza", Ermənistan Respublikası prezidentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Satunts" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 173).

Coğrafi koordinatları: 40°39 şm. e., 44°11' ş. u.

**Keçili** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 28 km şimal-şərqdə, Araz çayının yaxınlığında, dəniz səviyyəsindən 900 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 61). Toponim oğuz türk tayfasından olan "qayı" etnoniminin bir qolunu təşkil edən "keçili" etnonimi (ASE, V c., B., 1981, s. 331) əsasında əmələ gəlmişdir. Kəngərlərin bir qolu da "keçili" adlanır (286, s. 69). Araz çayının sağ sahilində yaşamış keçililər Səfəvilər dövründə Naxçıvana keçərək kəngərlilərə qarışmışlar (ASE, V c., B., 1981, s. 331). Eyni zamanda oğuzların qayı tayfasının bir qolu "qara keçili" adlanmışdır (238, s. 227). Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Mrqaşat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 141).

Coğrafi koordinatları: 40°07' şm. e., 44°04' ş. u.

**Kefli** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayətində kənd. 1937-ci ilə qədər keçmiş Ağbaba rayonunun tabeliyində olmuşdur. Vilayət mərkəzi Gümrü şəhərindən 32 km şimal-şərqdə, dəniz səviyyəsindən 1930 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.130). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali Türkiyəyə köç etmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Kakavasar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 111).

Coğrafi koordinatları: 49°55' şm. e., 44°02' ş. u.

**Keşişkənd** – İrəvan quberniyasının Şərur–Dərələyəz qəzasında kənd. 15 oktyabr 1931-ci ildə indi Ermənistan adlanan ərazidə yaradılan Keşişkənd rayonunun adı və rayon mərkəzi olmuşdur. Hazırda "Yeğeqnadzor" adlanır və Vayotsdzor vilayətinin mərkəzidir. İrəvandan 120 km şimal-şərqdə, Başkənd çayının yaxınlığında, Şordərə dərəsindən 2,5 km məsafədə, dəniz səviyyəsindən 1240 m hündürlükdə yerləşir. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 59), Qafqazın 5 verstlik xəritəsində (348, s. 131) qeyd edilmişdir. Kəndin adı ilk dəfə V əsrdə xatırlanır (422, s. 45). 1829–1830-cu illərdə İranın Xoy və Səlmas vilayətlərindən köçürülən ermənilər Keşişkənddə yerləşdirilib. Burada ermənilərlə yanaşı, 1897-ci ildə 3 nəfər, 1922-ci ildə 11 nəfər, 1926-cı ildə 21 nəfər, 1931-ci ildə 5 nəfər azərbaycanlı yaşamışdır (415, s. 92–93, 162–163). 1940-cı illərdə azərbaycanlılar erməni silahlı dəstələri tərəfindən qovulmuşlar. Hazırda kənddə yalnız ermənilər

yaşayır. Toponim qədim türk dilində "keçid, bərə, körpü" mənasında işlənən "keçiş" (Sözün birinci hecasındakı "ç" səsi "ş" səsi ilə əvəzlənərək söz keşiş formasını alıb. Azərbaycan dilində "ç~ş" səs əvəzlənməsi qanunauyğun haldır) sözü ilə (299, s. 291), türk dilində "şəhər", "yaşayış məntəqəsi" mənasında işlənən "kənd" sözünün (299, s. 290; 339, s. 270) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Mikoyan", 6 dekabr 1957-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Yeğeqnadzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin mərkəzi kimi təsdiq edilmişdir (416, s. 71-72).

Coğrafi koordinatları: 39°45′ şm. e., 45°20′ ş. u.

**Keşişkənd** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Araqats (Alagöz) rayonunda, indi Araqatsotn vilayətində kənd. Araqats (Alagöz) yaşayış məntəqəsindən 15 km cənubda yerləşir. 1972-ci ilə kimi keçmiş Abaran rayonunun tərkibində olmuşdur. 15 mart 1972-ci ildə Araqats (Alagöz) rayonunun yaradılması ilə əlaqədar Abaran rayonunun tərkibindən çıxarılıb Araqats (Alagöz) rayonunun tərkibinə daxil edilmişdir. Toponim qədim türk dilində "keçid, bərə, körpü" mənasında işlənən "keçiş/keşiş" (Azərbaycan dilində "ç~ş" əvəzlənməsi qanunauyğun haldır) sözünə (299, s. 291) "kənd" sözünün qoşulması əsasında əmələ gəlib "keçid, bərə yanında olan kənd" mənasını ifadə edir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Qexarot" qoyulmuşdur. 7 noyabr 1995-ci il tarixli "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 55–72).

Coğrafi koordinatları: 40°42′ şm. e., 44°13′ ş. u.

**Keşişviran** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 53 km cənub-şərqdə, dərədə, Çanaxçı çayının sağ axarında, dəniz səviyyəsindən 1850 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s.131). Toponim türk dilində "keşiş" sözü ilə qədim türk dilində "xarabalıq, uçulmuş divar" mənasında işlənən "örən" sözünün (359, I (2), s.12–19) sinonimi olan "viran" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Zovaşen", 21 oktyabr 1967-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Urtsalanc" qoyulmuşdur. 7 noyabr 1995-ci il tarixli "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 200).

Coğrafi koordinatları: 39°51′ şm. e., 44°59′ ş. u.

**Keypəşin** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində kənd. Qafandan 38 km şimal-şərqdə, Gığı çayının yuxarı axarında, Gərd çayı ilə Gığı çayının qovuşduğu yerdə yerləşir (85, s.146). 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. 1930-cu ildə kolxoz quruluşu yaradılanda Pəhyan təsərrüfatına, 1950-ci illərdə kolxozlar ləğv ediləndən sonra Gığı heyvandarlıq sovxozuna tabe edilmişdir. Kənddə 1897-ci ildə 68, 1922-ci ildə 85, 1926-cı ildə 45, 1931-ci ildə 136 (415,



*Keypəşin kəndi*

s. 62–63, 136–137), 1959-cu ildə 1372 nəfər (85, s.146) azərbaycanlı yaşamışdır. 1988-ci il noyabrın axırlarında azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Toponim Azərbaycan dilində "pilləli qaya" mənasında işlənən "kəp" sözü ilə (253, s.19, 125) türk dilində "yaşayış məntəqəsi" mənasını bildirən "şenlik" sözünün fonetik forması olan "şen" topoformantı əsasında əmələ gəlmişdir. Kənd hazırda Ermənistan Respublikası Sünik mərkəzi inzibati-ərazi vahidinin Nor Astğaberd kənd icması ərazisi daxilindədir. Bir neçə evi çıxmaq şərtilə kənd ərazisində yaşayış yoxdur, kənd dağıdılmışdır.

Coğrafi koordinatları: 39°14' şm. e., 46°06' ş. u.

**Kələkarx** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 17 km cənub-qərbdə, Araz çayından axan arxın yanında, dəniz səviyyəsindən 890 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali kəndi tədricən tərk etmişdir. Toponim Azərbaycan dilinin cənub dialektində "yan tərəfləri daşla hörülmüş ağıl, heyvan salınan yer" mənasında işlənən "kələk" sözü ilə (8, s. 256) "arx" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 1 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Şenavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 157).

Coğrafi koordinatları: 40°03' şm. e., 43°56' ş. u.

**Kələrə** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Zəngibasar (Masis) yaşayış məntəqəsindən 11 km məsafədə yerləşir. Kəndin qədim adı "Kalalı/Kalaley" olmuşdur (415, s. 50). 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Kelare" kimi qeyd edilib (143, s. 159). Kənddə ermənilərlə yanaşı, 1897-ci ildə 6 nəfər, 1926-cı ildə 5 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51). 1928–1929-cu illərdə azərbaycanlılar kənddən deportasiya olunmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Toponim türk dilində "dayaz dərə" mənasında işlənən "kol" (kal) sözü ilə (359, II (1), s. 582–583) "hüdud", "sərhəd" mənasında işlənən "ara" sözünün (9, s. 114) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 1 dekabr 1949-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Qukasavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 129).

Coğrafi koordinatları: 40°07' şm. e., 44°25' ş. u.

**Kənkan** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 53 km cənubda, dəniz səviyyəsindən 2025 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 155) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 548, 1886-cı ildə 772, 1897-ci ildə 740, 1904-cü ildə 939, 1914-cü ildə 1144, 1916-cı ildə 1231 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). 1918-ci ildə azərbaycanlılar erməni silahlı dəstələri tərəfindən soyqırımına məruz qalaraq deportasiya olunmuş və kəndə Türkiyədən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar öz yurdlarına dönə bilmişlər. Kənddə ermənilərdən başqa, 1922-ci ildə 72, 1926-cı ildə 98, 1931-ci ildə 147 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim fars dilində "quyu qazan, quyuçu" mənasında işlənən "kankan" sözü (104, s. 273) əsasında yaranmışdır.

Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Hatis" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 119).

Coğrafi koordinatları: 40°20′ şm. e., 44°43′ ş. u.

**Kərimarxı** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 7 km cənubda, dəniz səviyyəsindən 855 m hündürlükdə yerləşir. Kənddə 1831-ci ildə 311, 1873-cü ildə 1215, 1886-cı ildə 1357, 1897-ci ildə 1474, 1904-cü ildə 1700, 1914-cü ildə 1802 (415, s. 64–65, 140–141), 1919-cu ildə 1840 nəfər (309, s. 221) yalnız azərbaycanlı yaşamışdır. 1919-cu ilin sonunda azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və deportasiya olunmuşlar (309, s. 221). Kəndə xaricdən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişlər. Kənddə ermənilərlə yanaşı, 1922-ci ildə 239, 1926-cı ildə 303, 1931-ci ildə 268 nəfər azərbaycanlı yaşamışdır (415, s. 64–65, 140–141). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Hazırda kənddə ermənilər yaşayır. Toponim "Kərim" şəxs adı ilə "arx" sözünün birləşməsi əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Arpunk", 7 aprel 2006-cı il tarixli qərarı ilə bu ad da dəyişdirilərək "Alaşkert" qoyulmuşdur. Ermənistan Respublikası inzibati-ərazi bölgüsü haqqında 7 noyabr 1995-ci il tarixli yeni qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 9).

Coğrafi koordinatları: 40°06′ şm. e., 44°03′ ş. u.

**Kərimkənd** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 5 km cənub-qərbdə, dəniz səviyyəsindən 2160 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim "Kərim" şəxs adına "kənd" coğrafi nomenin qoşulması əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 2 mart 1940-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Tsaxkaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 157).

Coğrafi koordinatları: 40°18′ şm. e., 45°03′ ş. u.

**Kərkibaş** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 69 km cənub-qərbdə, Göyçə gölünün yaxınlığında, dəniz səviyyəsindən 1940 m hündürlükdə yerləşir. Kənddə 1873-cü ildə 183, 1886-cı ildə 255, 1897-ci ildə 301, 1908-ci ildə 306, 1916-cı ildə 369 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən törədilən qırğınlar nəticəsində kənddən qovulmuşlar (309, s. 249). 1920-ci ildə indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar doğma kəndlərinə dönə bilmişlər. Kənddə 1922-ci ildə 166, 1926-cı ildə 174, 1931-ci ildə 224 (415, s. 26–27, 112–113), 1939-cu ildə 315 nəfər azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Deportasiya edilənlərin bir qismi sonradan doğma kəndlərinə qayıda bilmişlər. 1959-cu ildə kənddə 431, 1970-ci ildə 635, 1979-cu ildə 725 nəfər (416, s. 187–188) azərbaycanlı yaşamışdır. 1988-ci ildə

azərbaycanlılar yenidən Ermənistan dövləti tərəfindən doğma kəndlərindən qovulmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim qazax tayfasına məxsus "kərkibaşlı" etnonimi əsasında (386, s. 535) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 may 1967-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Şəfəq", 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Vanevan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 187–188).

Coğrafi koordinatları: 40°12' şm. e., 45°41' ş. u.

**Kərpicli** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 54 km cənub-qərbdə, İrəvan şəhərindən 11 km şərqdə, dəniz səviyyəsindən 1880 m hündürlükdə yerləşir. Kənddə 1873-cü ildə 141, 1886-cı ildə 172, 1897-ci ildə 250, 1904-cü ildə 188, 1914-cü ildə 316, 1916-cı ildə 307 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq deportasiya olunmuş, 1928–1930-cu illərdə Türkiyədən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etməyə məcbur olan azərbaycanlılardan sağ qalanlar öz yurdlarına qayıda bilmişlər. Kənddə ermənilərlə yanaşı, 1922-ci ildə 36 nəfər azərbaycanlı yaşamışdır (415, s. 126–127). 1924–1925-ci illərdə kənd sakinləri yenidən doğma yurd-yuvalarından qovulmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Yaşayış məntəqəsinin adı kərpicli tayfasının adı əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Geğadir" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 52).

Coğrafi koordinatları: 40°09' şm. e., 44°39' ş. u.

**Kəsəmən** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 95 km cənub-şərqdə, dağ ətəyində, dəniz səviyyəsindən 2060 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 156) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 166, 1873-cü ildə 379, 1886-cı ildə 492, 1897-ci ildə 671, 1908-ci ildə 713, 1914-cü ildə 966, 1916-cı ildə 894 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1919-cu il fevralın 13–20-də azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən kənddən qovulmuşlar (309, s. 249, 305). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar geri qayıda bilmişlər. Kənddə 1922-ci ildə 249, 1926-cı ildə 414, 1931-ci ildə 569 (415, s. 26–27, 112–113), 1939-cu ildə 758, 1959-cu ildə 583, 1970-ci ildə 891, 1979-cu ildə 955 (427, s. 567), 1987-ci ildə 1200 nəfər (85, s. 280) azərbaycanlı yaşamışdır. 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Toponim qazax türk tayfasının tirələrindən biri olan "kəsəmən" etnonimi (281, s. 393) əsasında formalaşmışdır. Erm. SSR AS RH-nin 27 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Bahar", 3 aprel 1991-ci il tarixli qərarı ilə bir daha dəyişdirilərək "Arpunk" qoyulmuşdur. "Ermənistan Respublikası inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr



*Kəsəmən kəndi*

1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 39).

Coğrafi koordinatları: 40°17' şm. e., 45°44' ş. u.

**Kəsikbaş** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayətində kənd. Mədinə kəndinin yanında, Aşağı Qaranlıq kəndindən 4 km cənub-qərbdə, dəniz səviyyəsindən 2125 m hündürlükdə yerləşir. Kəndin azərbaycanlı əhalisi ermənilərin İran və Türkiyədən köçürülüb məskunlaşdırılmasından sonra yer-yurdlarını tədricən tərk etmişdir. Toponim kəsikbaş tayfasının adı əsasında əmələ gələn etnotoponimdir. Erm. SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lernakert" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 87).

Coğrafi koordinatları: 40°06' şm. e., 45°17'0" ş. u.

**Kəvər** – İrəvan xanlığının Göyçə mahalında, İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunda yaşayış məntəqəsi. İndiki Ermənistanın şimalında, Göyçə gölündən 8 km uzaqlıqda, dəniz səviyyəsindən 1985 m hündürlükdə yerləşir. 1828-ci il Türkmənçay müqaviləsindən sonra – 1830-cu ildə Türkiyənin Bəyazid vilayətindən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir (386, s. 596–598) və yaşayış məntəqəsinin adı dəyişdirilərək "Novo-Bəyazid" qoyulmuşdur. Erməni müəlliflərinin əsərlərində "Nor Bayazed" formasında işlənir. "Nor" yeni deməkdir. 1930-cu ildən keçmiş Kamo rayonunun mərkəzi olmuşdur. Burada ermənilərlə yanaşı, 1922-ci ildə 12, 1926-cı ildə 15, 1931-ci ildə 69 nəfər azərbaycanlı yaşamışdır (415, s. 70–71, 150–154). 1948-ci ildə azərbaycanlılar deportasiya olunmuşlar. Toponim xəzər türk tayfasının bir qolu kimi tanınan "kəbər" etnonimi (286, s. 44) əsasında formalaşmışdır. Erm. SSR AS RH-nin 13 aprel 1959-cu il tarixli qərarı ilə adı dəyişdirilərək "Kamo", Ermənistan Respublikası prezidentinin 4 dekabr 1995-ci il tarixli qərarı ilə "Kamo" adı dəyişdirilərək "Qavar" edilmişdir. "Qavar" "kəvər" sözünün erməni dilinə uyğunlaşdırılmış formasıdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, vilayət mərkəzi kimi Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 52).

Coğrafi koordinatları: 40°22' şm. e., 45°08' ş. u.

**Kiçik Arıxvəli** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 28 km cənub-şərqdə, dəniz səviyyəsindən 1960 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 128), Qafqazın 5 verstlik xəritəsində (348, s. 19) qeyd edilmişdir. Ermənilər kənddə 1828–1829-cu illərdə Türkiyənin Qars, Muş və Xnıs (Hnıs) vilayətlərindən köçürülərək yerləşdirilmişdir. Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən "kiçik" sözündən və arıxlı tayfasının adını (193, s. 159; 76, s. 34) əks etdirən "arıx" sözü ilə "Vəli" şəxs adının birləşməsindən əmələ gəlib, "arıxlı tayfasından olan Vəliyə məxsus kənd" mənasını verir. Zaman keçdikcə "arıxvəli"-nin özü etnonimə çevrilmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Pokr Mantaş" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 203).

Coğrafi koordinatları: 40°39' şm. e., 44°03' ş. u.

**Kiçik Ayrım (Bala Ayrım)** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Allahverdi (Tumanyan) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 4 km cənub-qərbdə, Borçalı (Debet) çayının sol sahilində, dəniz səviyyəsindən 700 m hündürlükdə yerləşir. Kənddə 1926-cı ildə 88, 1931-ci ildə 154, 1939-cu ildə 207, 1959-cu ildə 233, 1970-ci ildə 420, 1979-cu ildə 388 nəfər

azərbaycanlı yaşamışdır (427, s. 244; 416, s. 203). 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşlar. İndi kənddə yalnız ermənilər yaşayır. Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən "kiçik" sözündən və ayrım türk tayfasının adından (245, s. 43–44; ASE, I c., B., 1976, s. 97) yaranmışdır. Ayrımlar oğuz tayfalarından biri olan eymurların xələfləridir (178, s. 202). "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 203).

Coğrafi koordinatları: 41°10' şm. e., 44°49' ş. u.

**Kiçik Camışlı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Araqats (Alagöz) rayonunda, indi Araqatsotn vilayətində kənd. Qafqazın 5 verstlik xəritəsində (348, s. 80) qeyd edilmişdir. Abaran çayının sahilində yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamışlar. 1877–1878-ci illərdə – rus-türk müharibəsindən sonra Türkiyədən köçürülüb gətirilən yezidi kürdlər kənddə məskunlaşdırılmışdır. Bundan sonra azərbaycanlılar kəndi tədricən tərk etmişlər. 1972-ci ilə kimi keçmiş Abaran rayonunun tərkibində olmuşdur. 15 mart 1972-ci ildə keçmiş Araqats (Alagöz) rayonunun yaradılması ilə əlaqədar həmin rayonun inzibati-ərazi bölgüsünə daxil edilmişdir. Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən "kiçik" sözü ilə zülqədərlərin camışlı tayfasının adı (142, s. 29) əsasında əmələ gəlmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 168).

Coğrafi koordinatları: 40°41' şm. e., 44°16' ş. u.

**Kiçik Keyti** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 14 km şimalda, dəniz səviyyəsindən 1900 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi keçmiş Leninakan rayonunun tabeliyində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 128). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali Türkiyəyə köç etmişdir. Toponim fərqləndirici əlamət bildirən "kiçik" sözünün türk dilində "dağın gün düşməyən tərəfi" mənasında işlənən "kət" (kat) sözünə (339, s. 264) birləşməsi əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 26 oktyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lernantsk", 21 oktyabr 1967-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Pokraşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 204).

Coğrafi koordinatları: 40°54′ şm. e., 43°53′ ş. u.

**Kiçik Kəpənək** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 13 km cənub-şərqdə, dəniz səviyyəsindən 1670 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 113). 1937-ci ilə kimi keçmiş Leninakan rayonunun tərkibində olmuşdur. Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinə əsasən, ermənilərin burada köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Toponim qədim türk dilində "yapınçı" mənasında işlənən "kəpənək" sözündən (157, s. 34) əmələ gələn "kəpənəkçi" etnonimi (193, s. 159–160) əsasında əmələ gəlmişdir (etnonimin tərkibindəki "-çi" şəkilçisi toponim yaradıcılığında ixtisar edilib). "Kiçik" fərqləndirici əlamət bildirir. Erm. SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Hovit" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 122).

Coğrafi koordinatları: 40°46′ şm. e., 44°00' ş. u.

**Kiçik Qarakilsə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan)

rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 8 km cənubda, dəniz səviyyəsindən 1490 m hündürlükdə yerləşir. Kəndin adı "Xılqarakilsə", "Xli-Qarakilsə" (427, s. 39), Qafqazın 5 verstlik xəritəsində "Kiçik Qarakilsə" (348, s. 117) formalarında qeyd edilmişdir. Kənddə 1828-ci ilə kimi azərbaycanlılar yaşamışdır. 1829–1830-cu illərdə Türkiyənin Qars, Ələşkirt bölgələrindən köçürülən ermənilər kənddə yerləşdirilmişdir (427, s. 40). Hazırda burada yalnız ermənilər yaşayır. Toponim kəndin yaxınlığındakı qara rəngli kilsə-məbədin adı əsasında yaranmışdır. Toponimin əvvəlindəki "kiçik" sözü fərqləndirici əlamət bildirir. Erm. SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Azatan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 7–8).

Coğrafi koordinatları: 40°43′ şm. e., 43°49′ ş. u.

**Kiçik Sarıyal** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 30 km şimalda, dəniz səviyyəsindən 1970 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində "Sarıyar" kimi qeyd edilib (415, s. 20). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali Türkiyəyə köç etmişdir. Ermənilər kənddə 1828–1832-ci illərdə məskunlaşdırılmışlar. Toponim "iri, nəhəng, uca, hündür, yüksək, dik" mənasında işlənən "sarı" sözü ilə (94, s. 74) "hündür bir yerin təpəsi, dikdir, yoxuşun başı" mənasında işlənən "yal" sözünün (10, s. 479; 339, s. 648) birləşməsindən əmələ gəlmişdir. Toponimdəki "kiçik" sözü fərqləndirici əlamət bildirir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Pokr Sariar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 203).

Coğrafi koordinatları: 40°55′ şm. e., 44°01′ ş. u.

**Kiçik Şəhriyar** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 14 km cənub-qərbdə, Araz çayından axan arxın sahilində, dəniz səviyyəsindən 865 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 290). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Türkmənçay müqaviləsinə (1828) əsasən, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali kəndi tədricən tərk etmişdir. Toponim fərqləndirici əlamət bildirən "kiçik" sözü ilə "Şəhriyar" şəxs adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 iyul 1968-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Nor Artaqers" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 148).

Coğrafi koordinatları: 40°04′ şm. e., 44°00′ ş. u.

**Kiçik Şiştəpə** – Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 39 km şimalda, dəniz səviyyəsindən 1990 m hündürlükdə, Arpaçayın kənarında yerləşir. Kənddə 1897-ci ildə 177, 1908-ci ildə 189, 1914-cü ildə 253 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevral ayında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhali qaçqın düşmüşdür. 1921-ci il Qars müqaviləsi ilə kənd Ağbaba nahiyəsinin tərkibində sovet Ermənistanına daxil edilmişdir. Kənd Aleksandropol qəzasının Qızılqoç nahiyəsinə daxil olunmuş, Türkiyənin Ələşkirt, Ərzurum və Muş vilayətlərindən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir (416, 203–204). Kəndin başqa adı "Türk Şiştəpəsi" olmuşdur (415, s. 20). Toponim "balaca, xırda" mənasında işlənən "kiçik" sözündən və "dağın, təpənin zirvəsi, ən yüksək nöqtəsi, piki" mənasında işlənən "şiş" sözü ilə (339, s. 629; 196, s. 42) "ətəyi ilə zirvəsi arasındakı nisbi hün-

dürlüyü 200 metrdən artıq olmayan yüksəklik" mənasında işlənən "təpə" sözünün (196, s. 42) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Pokr Sepasar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 203–204).

Coğrafi koordinatları: 41°02' şm. e., 43°48' ş. u.

**Kiçik Şollu Dəmirçi** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Kəndin digər adı rəsmi sənədlərdə "Şorlu Dəmirçi" kimi qeyd edilib (415, s. 50; 419, s. 134). Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 23 km şimal-qərbdə, Zəngi çayının yanında, dəniz səviyyəsindən 830 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Dəmirçiliye-Şollu" (143, s. 36), Qafqazın 5 verstlik xəritəsində "Kiçik Şorlu Dəmirçi" kimi (348, s. 297) qeyd edilmişdir. Zəngibasar rayonu təşkil edilənədək – 1969-cu ilədək keçmiş Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. Kənddə 1831-ci ildə 338, 1873-cü ildə 1400, 1886-cı ildə 1318, 1897-ci ildə 1360, 1904-cü ildə 1432, 1914-cü ildə 2216, 1916-cı ildə 2263 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulduqdan sonra sağ qalanlar doğma yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 492, 1926-cı ildə 687, 1931-ci ildə 601 (415, s. 50–51, 130–131), 1939-cu ildə 626 nəfər azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Deportasiya edilənlərin bir qismi sonradan doğma kəndlərinə qayıda bilmişdilər. Kənddə 1959-cu ildə 654 nəfər, 1970-ci ildə 560 nəfər (416, s. 67) azərbaycanlı yaşamışdır. 1988-ci ilin oktyabr-noyabr aylarında kənd əhalisi Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim üç komponentdən – fərqləndirici əlamət bildirən "kiçik" sözündən, "şollu" və "dəmirçi" etnonimlərindən ibarətdir. Toponimdəki "şollu" "-lu" şəkilçisi qəbul etmiş türk mənşəli "çol" (şol – *müəl.*) etnonimini (287, s. 56, 112–114), "dəmirçi" isə şahsevən türk tayfasından olan "dəmirçi" etnonimini (245, s. 46; 254, s. 40) əks etdirir. Etnotoponimdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Dəmirçi", 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Darbink" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 67).

Coğrafi koordinatları: 40°06' şm. e., 44°22' ş. u.

**Kiçik Vedi** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 7 km cənub-şərqdə, dəniz səviyyəsindən 825 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 51), Qafqazın 5 verstlik xəritəsində (348, s. 50) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 166, 1873-cü ildə 639, 1886-cı ildə 599, 1897-ci ildə 971, 1904-cü ildə 960, 1914-cü ildə 1056, 1916-cı ildə 1034 nəfər azərbaycanlı yaşamışdır (415, s. 88–89, 156–157). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qovulmuş, 1918–1919-cu illərdə Türkiyənin Şatax və Bolu vilayətlərindən köçürülüb gətirilən ermənilər bu kənddə yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 286 nəfər azərbaycanlı, 193 erməni, 1926-cı ildə 256 nəfər azərbaycanlı, 256 erməni, 15 kürd, 1931-ci ildə 373 nəfər azərbaycanlı, 295 nəfər erməni yaşamışdır (415, s. 88–89, 156–157). Azərbaycanlılar mərhələ-mərhələ –

1948–1953-cü illərdə, həmçinin 1988-ci ilin noyabr ayında tarixi-etnik torpaqlarından qovulmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim fərqləndirici əlamət bildirən "kiçik" sözü ilə ərəb dilində "çöl, səhra", "məkan, yer" mənasında işlənən "vadi" sözünün (104, s. 83) birləşməsindən əmələ gəlmişdir. Kəndin adı erməni dilinə kalka edilərək "Pokr Vedi" formasında rəsmiləşdirilmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 204).

Coğrafi koordinatları: 39°53′ şm. e., 44°36′ ş. u.

**Kiçik Zeyvə** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Eçmiədzin (Vağarşapad) rayonunda, indi Armavir vilayətində kənd. Eçmiədzin yaşayış məntəqəsindən 5 km cənub-şərqdə yerləşir. Kəndin digər adı "Türk Zeyvəsi" (415, s. 82), "Tatar Zeyvəsi" (Сборник сведений о Кавказе, т. V, Тифлис, 1892, № 393) olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 97). Kənddə 1831-ci ildə 234, 1873-cü ildə 492, 1886-cı ildə 516, 1897-ci ildə 580, 1904-cü ildə 550, 1914-cü ildə 598, 1916-cı ildə 491 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 82–83, 150–151). 1920-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Toponim Azərbaycan dilində fərqləndirici əlamət bildirən "kiçik" sözü ilə ərəb dilində "guşə, künc, bucaq" mənasında işlənən "zaviyə" (104, s. 207) sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Arataşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 24).

Coğrafi koordinatları: 40°07′ şm. e., 44°11′ ş. u.

**Kilsəkənd** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 27 km cənub-qərbdə, dəniz səviyyəsindən 1025 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 133). 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali kəndi tədricən tərk etmişdir. Toponim Azərbaycan dilində "dini məbəd" mənasında işlənən "kilsə" sözü ilə "yaşayış məntəqəsi" mənasında işlənən "kənd" sözünün birləşməsindən əmələ gəlib, "kilsə yanında salınan kənd" mənasını bildirir. 1924-cü ildə kəndin adı dəyişdirilərək "Sraşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 184).

Coğrafi koordinatları: 39°04′ şm. e., 46°29′ ş. u.

**Kirs** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Kurud kəndindən 2 km məsafədə, dəniz səviyyəsindən 2100 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə 1886-cı ildə 130, 1897-ci ildə 56 nəfər azərbaycanlı yaşamışdır (415, s. 62–63, 136). 1905–1906-cı illərdə azərbaycanlılar ermənilər tərəfindən qırğınlara məruz qoyularaq deportasiya olunmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənd sakinləri öz evlərinə qayıda bilmişdir. Kənddə 1922-ci ildə 78, 1926-cı ildə 77, 1931-ci ildə 104 (415, s. 62–63, 136–137), 1939-cu ildə 131, 1959-cu ildə 220, 1970-ci ildə 299, 1979-cu ildə 314 nəfər azərbaycanlı yaşamışdır (416, s. 112). 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşlar. Hazırda kənddə yaşayış yoxdur (416, s. 112). Toponim türk dilində "çöl, sərhəd, yayla, dağ" mənasında işlənən "kır" (kir – *müəll.*) sözündən (339, s. 327)

əmələ gəlmişdir. Toponimin sonundakı "s" topoformantdır. Kəndin adı onun yerləşdiyi relyefə uyğundur. Belə ki kənd dağ ətəyində, çəmənlik yerdə yerləşir. Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Kisk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 112).

Coğrafi koordinatları: 39°17′ şm. e., 46°06′ ş. u.

**Kolagirən** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Quqark (Qarakilsə) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 27 km şimal-şərqdə, dəniz səviyyəsindən 1300 m hündürlükdə yerləşir. Erməni mənbələrinə görə, kəndin əsası 1870-ci ildə qoyulmuşdur (427, s. 283). Kənddə azərbaycanlılarla bağlı qədim qalanın divarları, qəbiristanlığın xarabalıqları indi də durur. Kənddə ermənilərin məskunlaşdırılmasından sonra azərbaycanlı əhali tədricən yer-yurdlarını tərk etmişdir. Toponim maldarlıqla məşğul olan "kolagirən" etnonimi (406, s. 216) əsasında əmələ gəlmişdir. Bu da onu göstərir ki, kənd 1870-ci ildə yox, çox-çox əvvəllər salınmışdır. Belə ki kolagirən tayfası XVI əsrdə Qarabağda yaşayan tayfalardandır. Etnotoponimdir. Erm. SSR AS RH-nin 10 sentyabr 1948-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Antaramut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 21).

Coğrafi koordinatları: 40°56′ şm. e., 44°33′ ş. u.

**Kolagirən** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 50 km cənub-şərqdə, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 1950 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində kəndin adı "Kolaqran", "Aşağı Kolagirən", "Kolanı qırılan" formalarında (415, s. 66), Qafqazın 5 verstlik xəritəsində "Kyolanı qran" formasında (348, s. 128) qeyd edilmişdir. Ermənilər kəndə 1828–1830-cu illərdə Türkiyədən köçürülmüşlər (386, s. 595–598). Kənddə 1897-ci ildə ermənilərlə yanaşı, 88 nəfər azərbaycanlı yaşamışdır (415, s. 66–67). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində azərbaycanlılar kənddən qovulmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Toponim "kolagirən" türk etnonimi (406, s. 216) əsasında formalaşmışdır. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Tsovinar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 104).

Coğrafi koordinatları: 40°09′ şm. e., 45°27′ ş. u.

**Korbulaq** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Araqats (Alagöz) rayonunda, indi Araqatsotn vilayətində kənd. 1972-ci ilə kimi keçmiş Abaran rayonunun tərkibində olmuşdur. 15 mart 1972-ci ildə Araqats (Alagöz) rayonu yaradıldıqdan sonra Abaran rayonunun inzibati-ərazi bölgüsündən çıxarılıb həmin rayonun tərkibinə daxil edilmişdir. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 44 km şimal-qərbdə, dəniz səviyyəsindən 2135 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali Türkiyəyə köç etmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 129). Toponim "çıxış yolu olmayan", "gözü olmayan (bulaq), yarıda quruyan" mənasında işlənən "kor" sözü ilə "bulaq" sözünün birləşməsindən əmələ gəlmişdir. "Kor" sözü "Kor çay" hidronimində "heç bir hövzəyə tökülməyib yarıda quruyan çay" mənasında işlənmişdir (11, s. 95). Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Şenkani" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 158).

Coğrafi koordinatları: 40°38′ şm. e., 44°16′ ş. u.

**Korbulaq** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 44 km şimalda, dəniz səviyyəsindən 2075 m hündürlükdə yerləşir. Ədirnə müqaviləsinə (1829) əsasən, ermənilər kəndə köçürülüb məskunlaşdırılandan sonra azərbaycanlılar Türkiyəyə köç etmişdir. Erməni müəlliflərinin əsərlərində kəndin adı "Korağbyur" (Korbulaq) formasında işlənmişdir (415, s. 20). Toponim Azərbaycan dilində "çıxış yolu olmayan", "gözü olmayan (bulaq), yarıda quruyan" mənasında işlənən "kor" sözü ilə "bulaq" sözünün birləşməsindən əmələ gəlmişdir. Kəndin adı ərazidəki eyniadlı bulağın adından götürülmüşdür. Hidrotoponimdir. Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Saxkaşen", 21 oktyabr 1967-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Sizavet" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 180).

Coğrafi koordinatları: 41°06′ şm. e., 43°50′ ş. u.

**Kosaməmməd** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 3 km cənub-şərqdə, Kəvər çayının sahilində, dəniz səviyyəsindən 1980 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 141) qeyd edilmişdir. Kəndin digər adı "Aşağı Qanzak" olmuşdur (415, s. 70). "İrəvan əyalətinin icmal dəftəri"ndə kəndin adı "Kənizək" formasında qeyd edilmişdir (143, s. 55). 1897-ci ildə kənddə ermənilərlə yanaşı, 16 azərbaycanlı yaşamışdır (415, s. 70–71). 1905–1906-cı illərdə azərbaycanlılar erməni silahlıları tərəfindən deportasiya edilmişdir. Kənddə indi yalnız ermənilər yaşayır. Toponim ləqəb bildirən "kosa" sözü ilə "Məmməd" şəxs adı əsasında əmələ gəlib. Kəndin adı 1924-cü ildə dəyişdirilərək "Batikyan" qoyulmuşdur. Erm. SSR AS RH-nin 8 avqust 1991-ci il tarixli qərarı ilə kənd "Qanzak" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 50).

Coğrafi koordinatları: 40°19′ şm. e., 45°06′ ş. u.

**Kotanlı** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 40 km şimal-şərqdə, Arpa çayının sağ qolu olan Kotanlıçayın sahilində, dəniz səviyyəsindən 2030 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Kotanı" kimi (143, s. 59), Qafqazın 5 verstlik xəritəsində "Kotanlı" (348, s. 142), erməni dilində "Kyotanlu" formasında (422, s. 101) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 256, 1886-cı ildə 392, 1897-ci ildə 456, 1904-cü ildə 611, 1914-cü ildə 672, 1916-cı ildə 532 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və sakinlər deportasiya olunmuş, Türkiyədən köçürülüb gətirilən ermənilər kəndə yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar ata-baba yurdlarına qayıda bilmişlər. Bundan sonra kənddə ermənilərlə yanaşı, 1922-ci ildə 61, 1926-cı ildə 193, 1931-ci ildə 351 (415, s. 90–91, 158–159), 1939-cu ildə 776, 1959-cu ildə 590, 1970-ci ildə 1157 nəfər azərbaycanlı yaşamışdır. Ermənistan dövləti 1988-ci il noyabrın 28-də kənddə yaşayan azərbaycanlıları zorla tarixi-etnik torpaqlarından qovmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim qıpçaq türk tayfasından olan "kotan" etnoniminə (286, s. 50) mənsubluq bildirən "-lı" şəkilçisinin artırılması ilə əmələ gəlib, "kotan tayfasına mənsub yaşayış yeri" mənasını bildirir. Etnotoponimdir. Quruluşca düzəltmə toponimdir. Kəndin adı 1924-cü ildə dəyişdirilərək "Karmraşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati- ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 111).

Coğrafi koordinatları: 39°48′ şm. e., 45°31′ ş. u.

**Köçbək** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində kənd. Cul çayının sağ qolu olan Köçbəkçayın sahilində, Paşalı (Vayk) – Sisian yolunun üstündə, dəniz səviyyəsindən 2025 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Qoçubəy" kimi qeyd edilmişdir (143, s. 59). Kənddə 1831-ci ildə 25, 1873-cü ildə 226, 1886-cı ildə 312, 1897-ci ildə 417, 1904-cü ildə 425, 1914-cü ildə 470, 1916-cı ildə 537 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 160–161). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış, qırğınlar nəticəsində azərbaycanlılar qovulmuşlar. Yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk edənlər ata-baba yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 103, 1926-cı ildə 179, 1931-ci ildə 365 (415, s. 90–91, 160–161), 1939-cu ildə 446 nəfər azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisinin bir qismi zorla Azərbaycana deportasiya edilmişdir. Deportasiya edilənlərin bir qismi sonradan doğma kəndlərinə qayıtmışlar. Kənddə 1959-cu ildə 281, 1970-ci ildə 575, 1979-cu ildə 579 nəfər (416, s. 199) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci il noyabrın 24–28-də Ermənistan dövlətinin bilavasitə göstərişi ilə kənddə yaşayan 1002 nəfər azərbaycanlı deportasiya olunmuşdur (244 a, s. 277). Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim türk dilində "düşərgə, çobanların müvəqqəti yaşayış yeri, yurd" mənasında işlənən "koş" (koç) sözü ilə (339, s. 298–299) qədim türk dilində "təpə" mənasında işlənən "bək" (bak) sözünün (359, IV (1), s. 754) birləşməsindən əmələ gəlib, "təpəlikdə yerləşən köç, düşərgə, çobanların yaşayış yeri" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Uğedzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 199).

Coğrafi koordinatları: 39°41′ şm. e., 45°40′ ş. u.

**Körpəli** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 14 km şimal-şərqdə, dəniz səviyyəsindən 860 m hündürlükdə yerləşir. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 163), Qafqazın 5 verstlik xəritəsində (348, s. 130) qeyd edilmişdir. Kənddə 1828-ci ilə kimi azərbaycanlılar yaşamışlar. Türkmənçay müqaviləsindən sonra – 1828–1829-cu illərdə İranın Xoy vilayətindən köçürülən ermənilər kəndə yerləşdirilmişlər (427, s. 476). Hazırda kənddə ermənilər yaşayır. Toponim körpəli tayfasının adı əsasında formalaşmışdır. Etnotoponimdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Arşaluys" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 36).

Coğrafi koordinatları: 40°10′ şm. e., 44°12′ ş. u.

**Kurud** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 36 km şimal-qərbdə, Şotalı çayının sahilində, dəniz səviyyəsindən 1950 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə 1897-ci ildə 145, 1922-ci ildə 172, 1926-cı ildə 185, 1931-ci ildə 220 (415, s. 62–63, 136–137), 1939-cu ildə 216, 1959-cu ildə 356, 1970-ci ildə 440, 1979-cu ildə 274 (416, s. 207), 1987-ci ildə 600 nəfər (85, s. 147) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında kəndin 500 nəfərə yaxın sakini Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur (244 a, s. 181). Hazırda kənddə yalnız ermənilər

yaşayır. Toponim Azərbaycan dilinin yazıyaqədərki dövründə "dağ" mənasında işlənən "kur" sözünə (123, s. 30) "-ud" şəkilçisinin artırılmasından düzəlib, "dağlıq, uca, yüksək yerdə yerləşən kənd, yaşayış yeri" mənasını verir. Kurud kəndi uca, dağlıq yerdə yerləşir. Kəndin adı ilə onun yerləşdiyi yer arasında bir uyğunluq var. Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Karut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 207).

Coğrafi koordinatları: 39°16′ şm. e., 46°07′ ş. u.

**Kutniqışlaq** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayəti ərazisində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 20 km cənub-şərqdə, dəniz səviyyəsindən 1600 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Qütbi qışlağı" formasında qeyd edilmişdir (143, s. 125). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, 1830-cu ildə Qars paşalığından ermənilərin köçürülüb kənddə yerləşdirilməsindən sonra əhali Türkiyəyə köç etmişdir. Toponim "dağ çıxıntısı, dağ qolu" mənasında işlənən "kut" sözünə (339, s. 320) Azərbaycan dilində "qoyun və başqa heyvanların gətirilib saxlandığı mötədil havalı və otlaqlı qışlama yeri" mənasında işlənən "qışlaq" sözünün (9, s. 531) birləşməsi ilə əmələ gəlib, "dağ çıxıntısı yanında yerləşən qışlaq" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 15 iyul 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Hovtaşe" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 123).

Coğrafi koordinatları: 40°40′ şm. e., 43°54′ ş. u.

**Küzəcik** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 7 km şimalda, Kəvər çayının yanında, dəniz səviyyəsindən 2000 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 153). Kənddə tarixən azərbaycanlılar yaşamışlar. 1828–1830-cu illərdə Türkiyənin Bəyazid vilayətinin kəndlərindən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişlər (386, s. 595–598; 416, s. 85). Erməni silahlı dəstələri 1905-ci ildə Küzəcik kəndində kütləvi qırğınlar törətmişlər. Kənddə 1918-ci ildə 119 nəfər (309, s. 216), 1926-cı ildə isə 1 nəfər azərbaycanlı olmuşdur. Toponim bayat boyundan olan "güzücəkli" etnonimi (238, s. 233) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 19 aprel 1950-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lancaxpyur" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 85).

Coğrafi koordinatları: 40°16′ şm. e., 45°08′ ş. u.

# Q

**Qabaxlı** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Yeğeqnadzor yaşayış məntəqəsindən 16 km şimal-şərqdə, Arpaçayın sol sahilində, dəniz səviyyəsindən 1850 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 106). Kənddə 1831-ci ildə 45, 1873-cü ildə 268, 1886-cı ildə 429, 1897-ci ildə 566, 1904-cü ildə 614, 1914-cü ildə 675, 1916-cı ildə 763 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). 1918-ci ildə erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalan kənd sakinləri deportasiya olunmuşlar. Yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlıların bir qismi öz kəndlərinə dönə bilmişlər. Kənddə 1922-ci ildə 59, 1926-cı ildə 217, 1931-ci ildə 330 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). 1988-ci il noyabrın axırlarında kənd sakinləri Ermənistan dövləti tərəfindən tarixi-etnik

torpaqlarından deportasiya olunmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Erm. SSR AS RH-nin 8 avqust 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Qoxtanik" qoyulmuşdur. Toponim qabaq türk tayfasının adına (407, s. 94–95), mənsubluq bildirən "-lı" şəkilçisinin artırılması ilə düzəlib, "qabaq tayfasına mənsub yer, kənd" mənasını bildirir. Ermənistanda yaşayan, qışı Qarabağda keçirən türk tayfalarından biri "qabaq" adlanırdı (62, s. 171). "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 61).

Coğrafi koordinatları: 39°52' şm. e., 45°28' ş. u.

**Qabaqtəpə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 61 km şimal-qərbdə, dəniz səviyyəsindən 1380 m hündürlükdə yerləşir. Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinə əsasən, ermənilərin kəndə köçürülüb məskunlaşdırılmasından sonra burada yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Toponim "ön hissə, ön tərəf" mənasında işlənən "qabaq" sözü ilə (9, s. 381; 339, s. 239) Azərbaycan dilində "kiçik, alçaq dağ" mənasında işlənən "təpə" sözünün birləşməsindən əmələ gəlib, "qabaq təpə yanında olan kənd" anlamını verir. Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Ddmasar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 67).

Coğrafi koordinatları: 40°21′ şm. e., 43°50′ ş. u.

**Qacaran (Gecalan, Gecanan)** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində şəhər. Vilayət mərkəzi Qapan şəhərindən 26 km cənub-qərbdə, Oxçu çayının sahilində, dəniz səviyyəsindən 1850 m hündürlükdə yerləşir. XVIII əsrdən etibarən burada mədən üsulu ilə mis-molibden çıxarılmışdır (244 a, s. 184). 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində "Kacaran" formasında (348, s. 107), erməni müəlliflərinin əsərlərində "Qacarans" (415, s. 62) kimi qeyd edilmişdir. Ermənilər bura 1946-cı ildə İrandan, Suriyadan və Kiprdən köçürülüb yerləşdirilmişdir



*Qacaran kəndi*

(416, s. 205). Ermənilərdən başqa, 1931-ci ildə burada 5 nəfər azərbaycanlı yaşamışdır (415, s. 136). Toponimin adı qayı türk tayfasından olan "qacar" etnoniminə (245, s. 48) cəmlik bildirən "-an" (Azərbaycan dilində cəmlik bildirən "-lar" şəkilçisinin sinonimidir) şəkilçisinin artırılması yolu ilə yaranmışdır. Qızılbaş tayfalarından biri də "qacar" adlanırdı (175, s. 36). "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 205). Erm. SSR AS RH-nin 4 iyul 1951-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Kacaran" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 205).

Coğrafi koordinatları: 39°09′ şm. e., 46°09′ ş. u.

**Qaçağan** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Allahverdi (Tumanyan) rayonun-

da, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 16 km cənub-qərbdə, Daşbulaq çayının yaxınlığında, Dəvədaşı dağının ətəyində, dəniz səviyyəsindən 1270 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 125). Kənddə ermənilərin məskunlaşdırılmasından sonra kəndin azərbaycanlı əhalisi tədricən yer-yurdlarını tərk etmişdir. Toponim qaçağan türk tayfasının adı əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Arevatsaq" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 31).

Coğrafi koordinatları: 40°58′ şm. e., 44°36′ ş. u.

**Qafan** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, Sünik vilayətində şəhər. Oxçu çayının sahilində, İrəvan şəhərindən 320 km məsafədə, dəniz səviyyəsindən 910 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. 1930-cu il sentyabrın 9-da Qafan rayonu təşkil edilmişdir. 1938-ci ildən respublika tabeliyində şəhər olmuşdur. 1990-cı ildən "Qafan rayonu" adlanır. Hazırda Sünik vilayətinin mərkəzidir. Orta əsrlərdən başlayaraq, Qafanda mis-molibden mədənləri tapılmış və mis istehsalı geniş vüsət almışdır. XIX əsrin ortalarında fransızlar Qafanda o dövr üçün müasir sayılan avadanlıqlarla təchiz edilmiş mis istehsalı zavodu qurmuşdular. Burada əridilən mis Avropanın bir çox ölkələrinə satılırdı. Qafanda 1873-cü ildə 132 azərbaycanlı, 388 erməni, 1886-cı ildə 270 azərbaycanlı, 785 erməni yaşamışdır. 1918–1920-ci illərdə erməni silahlı dəstələri kütləvi qırğınlar törətmiş, sağ qalan azərbaycanlılar kəndi tərk etmişlər. 1922-ci ildə Qafanda 70 azərbaycanlı, 1047 erməni, 1931-ci ildə 101 azərbaycanlı, 2895 erməni yaşamışdır. Qafana respublikatabeli şəhər statusu verilməsi üçün ətrafdakı 4 erməni kəndi, Şəhərcik və Açağu azərbaycanlı kəndləri Qafana birləşdirilmiş, nəticədə, şəhərin azərbaycanlı əhalisinin sayı təqribən 5000 nəfərə çatmışdı (85, s. 140). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, 1948-ci ildə Qafan şəhərindən 3 ailə (12 nəfər) zorla Azərbaycana deportasiya edilmişdir (294 a, s. 244). Şəhərin adı, keçmişdə mövcud olmuş indiki Qafan şəhərindən 10 km şimal-qərbə doğru, Oxçu çayının sağ sahilində yerləşmiş Qafan (Qapan) kəndinin adı ilə bağlıdır (85, s. 140). Erməni müəlliflərinin əsərlərində "Ğapan" formasında qeyd edilir (415, s. 134; 419, s. 60). Toponim peçeneq türk tayfasına mənsub "qapan" etnonimindən (286, s. 41–42) yaranmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati mərkəzi təsdiq edilmişdir.

Coğrafi koordinatları: 39°12′ şm. e., 46°24′ ş. u.

**Qalacıq** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayəti ərazisində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 115 km şimal-qərbdə, Bazarçay çayının sağ sahilində, Bazarçay kəndindən 4 km şimal-şərqdə, dəniz səviyyəsindən 1530 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 110). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Türkmənçay müqaviləsinə (1828) əsasən, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali kəndi tədricən tərk etmişdir. Toponim "qala" (qələ) sözünə kiçiltmə mənası bildirən "-cıq" şəkilçisinin artırılması əsasında yaranmışdır. Kəndin adı qeyri-rəsmi dəyişdirilərək "Spandaryan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 183).

Coğrafi koordinatları: 39°37′ şm. e., 45°54′ ş. u.

**Qalaça** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 54 km şimal-qərbdə, dəniz səviyyəsindən 650 m hündürlükdə yerləşir. Kənddə ermənilərin məskunlaşdırılmasından sonra azərbaycanlı əhali tədricən yer-yurdlarını tərk etmişdir. 1926-cı ildə kənddə 3 nəfər azərbaycanlı yaşamışdır (415, s. 10–11). Toponim "qala" sözünə kiçiltmə mənasını bildirən "-ça" şəkilçisi artırmaqla əmələ gəlib, "kiçik qala yanında olan kənd" mənasını verir. Kəndin cənub-şərqində azərbaycanlıların həyatı ilə bağlı olan XII–XIII əsrlərə aid qalanın xarabalıqları indi də qalır. Kənd adını məhz həmin qaladan götürmüşdür. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Berdavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 46).

Coğrafi koordinatları: 41°12' şm. e., 45°00' ş. u.

**Qaladərəsi** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayətində kənd. Gorusdan 21 km məsafədə, dəniz səviyyəsindən 1350 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 109). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Türkmənçay müqaviləsinə (1828) əsasən, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim ərəb dilində "möhkəmləndirilmiş yer, şəhər" mənasında işlənən "qala" sözü ilə (299, s. 410) Azərbaycan dilində "iki dağ və ya təpə arasında, düzənlikdə uzun, dərin çuxur" mənasında işlənən "dərə" sözünün (10, s. 74) birləşməsindən əmələ gəlib, "dərədə yerləşən qalanın yanında olan kənd" mənasını ifadə edir. Kəndin yerində salınan kənd hazırda "Halidzor" adlanır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s.116.)

Coğrafi koordinatları: 39°24′ şm. e., 46°17′ ş. u.

**Qalax** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayətində, dəniz səviyyəsindən 1550 m hündürlükdə yerləşən kənd. Vilayətin ərazisində tarixən mövcud olmuş II Bayandur kəndinin yaxınlığında yerləşmişdir (427, s. 770). 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Türkmənçay müqaviləsinə (1828) əsasən, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali kəndi tədricən tərk etmişdir. Erməni müəlliflərinin əsərlərində Qalax kəndi II Bayandur kəndinin qədim adı kimi qeyd edilir (415, s. 28). Toponim Azərbaycan dilində "topa, yığın" mənasında işlənən "qalax" sözündən əmələ gəlmişdir. Hazırda kənd "Vağatur" adlanır. Kənd "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s.186).

Coğrafi koordinatları: 39°36′ şm. e., 46°22′ ş. u.

**Qalaser** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Aysəsi dərəsinin qərbində, dəniz səviyyəsindən 1990 m hündürlükdə yerləşir. Kənddə 1873-cü ildə 108, 1886-cı ildə 154, 1897-ci ildə 184, 1904-cü ildə 154, 1914-cü ildə 170, 1916-cı ildə 248 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). 1918-ci ildə kənd əhalisi erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar doğma evlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 46, 1926-cı ildə 104, 1931-ci ildə 142 (415, s. 93, 161), 1939-cu ildə

195, 1959-cu ildə 140, 1970-ci ildə 222, 1979-cu ildə 252 nəfər (416, s. 105) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının sonlarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən kənddən deportasiya olunmuşlar. Toponim "qala" sözü ilə türk toponimiyasında "əsas, baş, yuxarı, böyük" mənasında işlənən "sar" sözünün (339, s. 496) birləşməsindən əmələ gəlmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 105).

Coğrafi koordinatları: 39°53′ şm. e., 45°25′ ş. u.

**Qaltaxçı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən



*Qaltaxçı kəndi*

34 km şimal-qərbdə, dəniz səviyyəsindən 1730 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 111). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali kəndi tədricən tərk etmişdir. Toponim "qaltax" (koltak) etnoniminə (303 a, s. 11) "-çı" şəkilçisinin qoşulmasından əmələ gəlmişdir. Etnotoponimdir. Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Hartagyuğ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 119).

Coğrafi koordinatları: 40°50′ şm. e., 44°02′ ş. u.

**Qamışqut** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Quqark (Qarakilsə) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 21 km şimal-şərqdə, Pəmbək çayının sağ sahilində, dəniz səviyyəsindən 1000 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali kəndi tədricən tərk etmişdir. Toponim "qamış" bitki adı ilə qədim türk dilində "kəndin, yaşayış məntəqəsinin yaxınlığında qoyunların salındığı yer" mənasında işlənən "kotan" (qut – *müəll.*) sözünün (359, II (1), s. 606–607) birləşməsindən əmələ gəlmişdir. "Qamışdan qoyunları saxlamaq üçün düzəldilən yer" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Yeğeqnut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 72).

Coğrafi koordinatları: 40°54′ şm. e., 44°37′ ş. u.

**Qamışlı** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 13 km cənub-şərqdə, Böyük Qarasu çayının yanında, dəniz səviyyəsindən 845 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Türkmənçay müqaviləsinə (1828) əsasən, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali kəndi tədricən tərk etmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 112). Toponim Azərbaycan dilində işlənən "qamış" bitki adına "-lı" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Zartonk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 76).

Coğrafi koordinatları: 40°06′ şm. e., 44°09′ ş. u.

**Qanlı (Qanlı Allahverdi)** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Kəndin ilk adı "Qanlı Allahverdi" olmuşdur (415, s. 26). Sonradan "Allahverdi" şəxs adı ixtisar olunmuş, kənd "Qanlı" adlandırılmışdır. Kənd Basarkeçərdən 3 km cənub-şərqdə, çay kənarında, Göyçə gölünün sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində "Qanlı Allahverdi" kimi göstərilmişdir (348, s. 113). Kəndin ərazisində VII–VIII əsrlərə aid oğuz qəbiristanlığının, XI–XII əsrlərlə bağlı alban kilsəsinin qalıqları indi də qalmaqdadır. (Ermənistan Sovet Ensiklopediyası, XI c., İrəvan, 1985, s. 7,). Kənddə 1831-ci ildə 99, 1873-cü ildə 244, 1886-cı ildə 317, 1897-ci ildə 397, 1908-ci ildə 445, 1914-cü ildə 476, 1916-cı ildə 403 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1919-cu ilin yanvarında azərbaycanlılar erməni silahlı dəstələri tərəfindən qırğınlar nəticəsində qovulmuş və kənd yandırılmışdır (309, s. 249). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 165, 1926-cı ildə 218, 1931-ci ildə 287 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Deportasiya edilənlərin bir qismi sonradan doğma kəndlərinə qayıda bilmişdir. Kənddə 1987-ci ildə 800 nəfər (85, s. 282) azərbaycanlı yaşamışdır. 1988-ci ildə sakinlər üçüncü dəfə zorla Ermənistan dövləti tərəfindən öz doğma yurd-yerlərindən qovulmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Toponim türk tayfalarından olan "qanlı" etnonimindən (245, s. 41; 393, s. 42–53) və "Allahverdi" şəxs adından yaranmışdır. "Qanlı tayfasından olan Allahverdiyə məxsus kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 12 avqust 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Qamışlı" qoyulmuşdur. Ermənistan SSR Ali Sovetinin 9 aprel 1991-ci il tarixli qərarı ilə "Qanlı" adlı türk yurdu qonşu Kərkibaş kəndi ilə bir inzibati vahiddə birləşdirilmiş və birləşmiş kənd "Vanevan" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 197).

Coğrafi koordinatları: 40°12′ şm. e., 45°41′ ş. u.

**Qapılı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 21 km cənub-qərbdə, Arpaçayın yaxınlığında, İrəvan–Gümrü yolunun üstündə, dəniz səviyyəsindən 1500 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 131), Qafqazın 5 verstlik xəritəsində (348, s. 114) qeyd edilmişdir. Ədirnə müqaviləsinə (1829) əsasən, İrəvan xanlığının ərazisinə ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Ermənilər kəndə 1829–1830-cu illərdə Türkiyənin Ələşkirt, Ərzurum və Muş vilayətlərindən köçürülüb gətirilmişlər (416, s. 64). Kəndin yaxınlığında Urartu dövründən qalma qalanın qalıqları və divarları indi də durur. Toponim türk dilində "dar dərənin yarıqlara bölünmüş yuxarı hissəsi", "dağ yamacında dərə" mənasında işlənən "qapı" sözünə (339, s. 253) "-lı" şəkilçisinin artırılması ilə yaranmışdır. Erm. SSR AS RH-nin 3 fevral 1947-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Qusanagyuğ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 64).

Coğrafi koordinatları: 40°40′ şm. e., 43°47′ ş. u.

**Qaraboya** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 32 km şimal-qərbdə, Bəykənd çayının yanında, dəniz səviyyəsindən 1800 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 114)

qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali Türkiyəyə köç etmişdir. Toponim "qaraboya" tayfa adı əsasında əmələ gəlib, "qaraboya tayfasına mənsub kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Xnkoyan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 97).

Coğrafi koordinatları: 40°50′ şm. e., 44°01′ ş. u.

**Qarabulaq** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 25 km cənub-qərbdə, Arpaçayın yaxınlığında, dəniz səviyyəsindən 1470 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 131), Qafqazın 5 verstlik xəritəsində (348, s. 114) qeyd edilmişdir. Ədirnə müqaviləsinə (1829) əsasən, ermənilərin İrəvan xanlığının ərazisinə köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Kəndin adı kənddəki bulağın adından götürülmüşdür. "Keyfiyyətsiz, içməyə yararlı olmayan" mənasını bildirən "qara" və "bulaq" sözlərindən əmələ gəlmişdir. Hidrotoponimdir. Erm. SSR AS RH-nin 30 iyun 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "İsahakyan" (erməni yazıçısı Avetik İsahakyanın familiyasıdır) qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 84).

Coğrafi koordinatları: 40°37′ şm. e., 43°43′ ş. u.

**Qarabulaq** – İrəvan quberniyasının Eçmiədzin qəzasında keçmiş Abaran rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 21 km şimal-şərqdə, Abaran çayının sol tərəfində, dəniz səviyyəsindən 1850 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 114), Qafqazın 5 verstlik xəritəsində (348, s. 114) qeyd edilmişdir. Kəndin digər adı "Yuxarı Qapılı" olmuşdur (143, s. 114). Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinə əsasən ermənilərin kəndə köçürülüb məskunlaşdırılmasından sonra orada yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Toponim Azərbaycan dilində "içməyə, istifadəyə az yararlı", "ağır, aşağı keyfiyyətli su", "çirkli, bulanıq su" mənasında işlənən "qara" sözü ilə "bulaq" sözünün birləşməsindən əmələ gəlib "Qarabulağın yanında salınan kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 15 iyul 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Yerincatap" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 75).

Coğrafi koordinatları: 40°27′ şm. e., 44°27′ ş. u.

**Qarabulaq** – Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, keçmiş Amasiya rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 41 km şimal-qərbdə, Arpa gölünün qərbində, dəniz səviyyəsindən 2050 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 131), Qafqazın 5 verstlik xəritəsində (348, s. 114) qeyd edilmişdir. Kənddə 1886-cı ildə 185, 1905-ci ildə 295, 1908-ci ildə 352, 1914-cü ildə 382 nəfər azərbaycanlı yaşamışdır (415, s. 102–103). Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevral ayında Ermənistan silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhali Qars vilayətinə köç etmişdir. 1921-ci il Qars müqaviləsindən sonra kənd əhalisinin bir qismi kəndə qayıtmışdır. 1931-ci ildə kənddə 179 (415, s. 103), 1970-ci ildə 215, 1987-ci ildə 293 nəfər (35, s. 162) azərbaycanlı yaşamışdır. 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən bir daha tarixi-etnik torpaqlarından qovulmuşlar. Hazırda kənddə Gürcüstanın Axılkələk və Boqdanovka (Ninosminda) rayonlarından gələn ermənilər məskunlaşıb. Toponim "keyfiyyətsiz, içməyə yararlı olmayan" mənasını verən "qara"

sözü ilə "bulaq" hidroterminindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Şağik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 155).

Coğrafi koordinatları: 41°02' şm. e., 43°35' ş. u.

**Qaraburun** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 56 km şimal-qərbdə, Alagöz dağının ətəyində, dəniz səviyyəsindən 2000 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 115). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali Türkiyəyə köç etmişdir. Toponim türk dilində "böyük, iri" mənasında işlənən "qara" sözü (94, s. 70) və "irəli çıxan və ya suya doğru uzanan" (253, s. 99), "dağ çıxıntısı, dağın qolu, sıldırımlı qaya" (339, s. 103) mənasında işlənən "burun" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 31 iyul 1950-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Karmraşen", 21 yanvar 1965-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Karakert" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 110).

Coğrafi koordinatları: 40°26' şm. e., 43°56' ş. u.

**Qaracoran** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Nairi rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan şəhərindən 30 km cənub-qərbdə, Gərni çayının yanında, Zəngi çayından axan arxın sağ tərəfində, dəniz səviyyəsindən 1630 m hündürlükdə yerləşir. 1972-ci il martın 15-də Nairi rayonu yaradılanadək Əştərək rayonunun tabeliyində olmuşdur. Erməni müəlliflərinin əsərlərində kəndin adı "Qaraceyranlı", "Qaracaviran", "Qaracaveran", "Qaraceyran" formalarında da əksini tapmışdır (427, s. 381). "İrəvan əyalətinin icmal dəftəri"ndə "Qaraca ərən" formasında (143, s. 77), Qafqazın 5 verstlik xəritəsində "Qaracaran" kimi (348, s. 116) qeyd edilmişdir. Kənddə 1878-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışlar. Ermənilər kənddə əvvəlcə 1878-ci ildə, daha sonra 1915–1921-ci illərdə Türkiyənin Bəyazid, Qars, İqdır bölgələrindən köçürülüb yerləşdirilmişdir (427, s. 381). Kənddə 1831-ci ildə 162, 1873-cü ildə 233 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107). Kəndə 1878-ci ildə ermənilər köçürüldükdən sonra – 1886-cı ildə 275 nəfər azərbaycanlı, 424 erməni, 1897-ci ildə 307 nəfər azərbaycanlı, 563 erməni yaşamışdır (415, s. 22–23, 106–107). Mənbələrdə 1908, 1914, 1916-cı illərdə azərbaycanlıların və ermənilərin birgə yaşadıqları göstərilir. Azərbaycanlılar 1918-ci ilin fevral ayında erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşlar (309, s. 219). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar 1922–1925-ci illərdə öz doğma ocaqlarına qayıda bilmişlər. Kənddə 1926–1931-ci illərdə 14 nəfər azərbaycanlı yaşamışdır (415, s. 23, 107). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi 1948–1949-cu illərdə zorla Azərbaycana köçürülmüşdür. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim xəzərlərin "qaraçor" (qaracor) türk etnoniminə (286, s. 46) cəmlik bildirən "-an" şəkilçisinin artırılması ilə əmələ gəlib, "qaraçor (qaracor) tayfasının yaşadığı yer" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 4 may 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Aragyuğ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 27).

Coğrafi koordinatları: 40°24' şm. e., 44°32' ş. u.

**Qaraçanta** – Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, keçmiş Amasiya rayonun-

da, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 22 km şimal-qərbdə, Gümrü–Amasiya yolunun sol tərəfində, dəniz səviyyəsindən 1850 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 121). Kənddə 1886-cı ildə 348, 1897-ci ildə 440, 1908-ci ildə 665, 1914-cü ildə 729 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). 1937-ci



*Qaraçanta kəndi*

ilədək kənd əhalisi "qarapapaqlar" kimi qeydə alınmışdır. Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevral ayında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhalinin bir qismi Qars vilayətinə, bir qismi isə İranın Gümrüdəki konsulluğu vasitəsilə İranın Urmiya və Səlmas əyalətlərinə köç etmişdir. 1921-ci il Qars müqaviləsi ilə kənd Ağbaba nahiyəsinin tərkibində sovet Ermənistanına daxil edilmişdir. Yalnız bundan sonra kənd əhalisinin bir qismi kəndə qayıtmışdır. Kənddə 1922-ci ildə 547, 1926-cı ildə 670, 1931-ci ildə 688 (415, s. 20–21, 104–105), 1939-cu ildə 774, 1959-cu ildə 803, 1970-ci ildə 1442, 1980-ci ildə 1490 (427, s. 45), 1987-ci ildə 1600 nəfər (35, s. 164) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. İndi kənddə, əsasən, Gürcüstanın Axılkələk və Boqdanovka (Ninosminda) rayonlarından gələn ermənilər məskunlaşıb. Toponim "qaraçanta" nəsil adı əsasında yaranmışdır. Ermənistan SSR AS RH-nin 4 may 1939-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Əzizbəyov", 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Areqnadem" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 30).

Coğrafi koordinatları: 40°55' şm. e., 43°45' ş. u.

**Qaradağlı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 116). Kənddə tarixən azərbaycanlılar yaşamışlar. Ermənilər buraya 1828–1830-cu illərdə İranın Xoy və Səlmas əyalətlərindən (386, s. 547–549; 415, s. 14), 1829-cu ildə Türkiyənin Ələşkirt, Diadin, 1870-ci ildə Muş və Sasun vilayətlərindən (416, s. 100) köçürülüb yerləşdirilmişdir. Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 128, 1873-cü ildə 331, 1886-cı ildə 286, 1897-ci ildə 364, 1919-cu ildə 360 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). 1919-cu ilin axırlarında azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlarla deportasiya olunmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 152, 1926-cı ildə 163, 1931-ci ildə 105 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim qızılbaşların qaradağlı tayfasının adı (354, s. 92) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 20 avqust 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Tsaxkaşen", 20 oktyabr 1967-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Mrqavet" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsa-

sən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 100).

Coğrafi koordinatları: 40°01' şm. e., 44°28' ş. u.

**Qaradaş** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 18 km şimalda, dəniz səviyyəsindən 800 m hündürlükdə yerləşir. Kəndin ərazisində azərbaycanlıların həyatı ilə bağlı XVII–XVIII əsrlərə aid tarixi abidələrin, eləcə də oğuz qəbiristanlığının qalıqları qalmaqdadır (Ermənistan Sovet Ensiklopediyası, X c., İrəvan, 1984, s. 329). Kənddə ermənilərin məskunlaşdırılmasından sonra azərbaycanlı əhali tədricən yer-yurdlarını tərk etmişdir. Toponim rəng bildirən "qara" sözü ilə Azərbaycan dilində "qaya" mənasında işlənən "daş" sözü əsasında əmələ gəlmişdir. Kəndin adı erməni dilinə kalka edilərək "Sevkar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 179).

Coğrafi koordinatları: 41°01' şm. e., 45°08' ş. u.

**Qaradığa** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 12 km şimal-şərqdə, dəniz səviyyəsindən 1225 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kəndin adı "Qaraunlu", "Qaranka", "Qardağa" formalarında da göstərilib (415, s. 56). Qafqazın 5 verstlik xəritəsində "Qaradıqya" formasında qeyd edilmişdir (348, s. 116). Kənddə IX–X əsrlərə aid alban abidələri var. Burada 1831-ci ildə 25, 1873-cü ildə 200, 1886-cı ildə 332, 1897-ci ildə 213, 1904-cü ildə 198, 1914-cü ildə 184 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57, 134–135). 1918-ci ildə kənd sakinləri erməni silahlı dəstələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş, yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra – 1923–1924-cü illərdə doğma evlərinə dönə bilmişlər. Kənddə 1926-cı ildə 95 nəfər, 1931-ci ildə 125 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 57, 135). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, 1948-ci ildə kənddən 5 azərbaycanlı ailəsi (28 nəfər) azərbaycanlı zorla Azərbaycana deportasiya edilmişdir (294 a, 244). 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından tamamilə qovulmuşlar. Hazırda kənddə ermənilər yaşayır və kənd "Vanek" adlanır. Toponim türk dilində "böyük, iri" mənasında işlənən "qara" sözü ilə türk dilində "təpə, zirvə" mənasında işlənən "tiqey" sözünün (339, s. 552) fonetik forması olan "dıqya" sözündən əmələ gəlmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 188).

Coğrafi koordinatları: 39°17' şm. e., 46°21' ş. u.

**Qarahəmzəli** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 4,5 km şimal-qərbdə, dəniz səviyyəsindən 830 m hündürlükdə yerləşir. Kəndin digər adı "Tamamlı" olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 115). Kənddə tarixən yalnız azərbaycanlılar yaşamışdır. Ermənilər kəndə 1828-ci ildən sonra İrandan köçürülmüşdür (386, s. 551–553). Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 55, 1873-cü ildə 192, 1886-cı ildə 247, 1897-ci ildə 269 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). 1918-ci ilin fevral ayında azərbaycanlılar erməni silahlı dəstələrinin törətdikləri soyqırımına məruz qalaraq deportasiya olunmuşdur (309, s. 216). Yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 143, 1926-cı ildə 157, 1931-ci ildə

167 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "qarahəmzəli" nəsil adı əsasında əmələ gəlmişdir. 1920-ci ildə kəndin adı dəyişdirilərək "Tamamlı", daha sonra yenidən dəyişdirilərək "Burastan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 50).

Coğrafi koordinatları: 39°59′ şm. e., 44°29′ ş. u.

**Qaraxaç** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzindən 48 km cənub-şərqdə, Dibəkli dağının ətəyində, Çapan çayının sahilində, Vedi çayının sol axarında, dəniz səviyyəsindən 2000 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 98), Qafqazın 5 verstlik xəritəsində (348, s. 119) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 94 nəfər yalnız azərbaycanlı yaşamışdır (386, s. 555–556; 415, s. 156). 1828-ci il Türkmənçay müqaviləsindən sonra İran və Türkiyədən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir. 1831-ci ildən sonra kənddə azərbaycanlılarla yanaşı, ermənilər də yaşamışdır. 1873-cü ildə kənddə 324 nəfər azərbaycanlı, 276 erməni, 1886-cı ildə 498 nəfər azərbaycanlı, 288 erməni, 1897-ci 589 nəfər azərbaycanlı, 416 erməni yaşamışdır (415, s. 86–87, 156–157). 2008-ci ildə erməni dilində çap olunmuş "Ermənistanın yaşayış məntəqələrinin lüğəti"ndə Qaraxaç kəndində yaşayanların etnik tərkibi göstərilmədən əhalinin ümumi sayı verilmişdir ki, (416, s. 94) bu da tarixi faktları saxtalaşdırmaqdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən kənddən qovulmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar geri qayıda bilmişlər. Qaraxaçda ermənilərlə yanaşı, 1922-ci ildə 22, 1926-cı ildə 31, 1931-ci ildə 13 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi 1948–1949-cu illərdə zorla Azərbaycana deportasiya edilmişdir. SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə azərbaycanlılar tarixi-etnik torpaqlarından çıxarılaraq zorla Azərbaycana köçürülmüşlər. Kənddə indi yalnız ermənilər yaşayır. Toponim türk dilində "böyük, hündür, uca" mənasında işlənən "qara" sözü ilə (278, s. 80–81) "arxac" sözünün təhrif olunmuş forması əsasında yaranmışdır. Toponim "böyük arxac" mənasını daşıyır. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lusaşoğ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 94).

Coğrafi koordinatları: 39°50′ şm. e., 44°58′ ş. u.

**Qaraiman** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 92 km cənub-şərqdə, dağ ətəyində, dəniz səviyyəsindən 2200 km hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 116). Kənddə 1831-ci ildə 207, 1873-cü ildə 418, 1886-cı ildə 569, 1897-ci ildə 775, 1908-ci ildə 1033, 1914-cü ildə 1079, 1916-cı ildə 650 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1919-cu ilin 13–20 aprelində azərbaycanlılar qırğınlarla erməni silahlı birləşmələri tərəfindən doğma kəndlərindən qovulmuşlar (309, s. 305). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulduqdan sonra azərbaycanlılardan sağ qalanlar yenidən Qaraiman kəndinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 478, 1926-cı ildə 527, 1931-ci ildə 652 (415, s. 26, 27, 112–113), 1939-cu ildə 819, 1959-cu ildə 564, 1979-cu

ildə 823 (416, s. 105), 1987-ci ildə 2000 nəfər (85, s. 282–283) azərbaycanlı yaşamışdır. 1988-ci ildə azərbaycanlılar yenidən Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Toponim qaraman türk tayfasının adı əsasında (31, s. 25) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Sovetkənd", 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Kaxakn" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 105).

Coğrafi koordinatları: 40°17′ şm. e., 45°47′ ş. u.

**Qaraisa** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 47 km şimal-qərbdə yerləşir. 1937-ci ilə kimi keçmiş Cəlaloğlu (Stepanavan) rayonunun tərkibində olmuşdur. 1937-ci il dekabrın 31-dən keçmiş Kalinino rayonunun tərkibinə daxil edilmişdir. Kənddə 1922-ci ildə 128, 1926-cı ildə 163, 1931-ci ildə 196 (415, s. 78–79, 148–149), 1939-cu ildə 197, 1959-cu ildə 107, 1970-ci ildə 228, 1979-cu ildə 173 nəfər (416, s. 137–138) azərbaycanlı yaşamışdır. 1950-ci ilin sonlarında kənd İlməzli sovetliyinə tabe edilmişdir. 1988-ci ilin axırlarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim oğuzların üçox qoluna mənsub qaraisalı türk tayfasının adı (238, s. 185) əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Meğvahovit" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 137–138).

Coğrafi koordinatları: 41°07′ şm. e., 44°09′ ş. u.

**Qarakilsə** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 14 km şimal-şərqdə, Alagöz dağının ətəyində, Abaran çayının sağ qolu üzərində, dəniz səviyyəsindən 1870 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 111), Qafqazın 5 verstlik xə-



*Qarakilsə kəndi*

ritəsində "Qarakilsə" formasında (348, s. 117) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra onlar Türkiyəyə köç etmişlər. Ermənilər kəndə Türkiyənin Ələşkirt vilayətindən köçürülüb gətirilmişlər (416, s. 120). Toponim kənddəki qara daşdan tikilmiş alban kilsəsinin adı əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 19 aprel 1950-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Hartavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 120).

Coğrafi koordinatları: 40°28′ şm. e., 44°24′ ş. u.

**Qarakilsə** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 50 km şimal-qərbdə, dəniz səviyyəsindən 1650 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində "Qarakilis" formasında qeyd edilmişdir (348, s. 117). Ərazidə "Qarakilsə" adlı iki kənd olmuşdur: Böyük Qarakilsə, Kiçik Qarakilsə (415, s. 148). Böyük

Qarakilsədə 1831-ci ildə ermənilərdən başqa, 8 nəfər azərbaycanlı yaşamışdır (415, s. 148–149). Kiçik Qarakilsədə 1886-cı ildə 106 nəfər azərbaycanlı yaşamışdır (415, s. 148). XIX əsrin 90-cı illərində azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən deportasiya edilmişlər. Hazırda kənddə yalnız ermənilər yaşayır. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lernhovit", Ermənistan Respublikası prezidentinin 4 dekabr 1995-ci il tarixli fərmanı ilə dəyişdirilərək yenidən "Lernhovit" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 87).

Coğrafi koordinatları: 41°09' şm. e., 44°26' ş. u.

**Qarakilsə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 8 km cənubda, dəniz səviyyəsindən 1490 m hündürlükdə yerləşir. Kəndin başqa adı "Kiçik Qarakilsə" olmuşdur (427, s. 40). Kənddə tarixən azərbaycanlılar yaşamışlar. Azərbaycanlılar 1826–1828-ci illər Rusiya-İran müharibəsi nəticəsində kənddən qovulmuş və 1829–1830-cu illərdə Türkiyənin Qars və Ələşkirt vilayətlərindən ermənilər köçürülüb kənddə yerləşdirilmişdir (427, s. 40). Yaşayış məntəqəsinin adı ərazidəki qıpçaq türklərinə məxsus qara rəngli kilsə adından götürülmüşdür. Kəndin adı dəyişdirilərək "Azatan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 7).

Coğrafi koordinatları: 40°43' şm. e.,. 43°49' ş. u.

**Qarakilsə** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində şəhər. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Keçmiş Sisian rayonunun mərkəzi idi. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 183), Qafqazın 5 verstlik xəritəsində (348, s. 117) qeyd edilmişdir. Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 63, 1873-cü ildə 197, 1886-cı ildə 297, 1897-ci ildə 481, 1914-cü ildə 866 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünün qurbanı olmuşlar. Çox az adam sağ qalaraq canını qurtara bilmişdir. Kənddə 1926-cı ildə 7 nəfər, 1931-ci ildə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s. 77, 147). XX əsrin 30-cu illərinin ortalarında azərbaycanlılar tamamilə deportasiya olunmuşdur. 1930–1935-ci illərdə Qarakilsə rayonunun, 1935–1940-cı illərdə Sisakan rayonunun mərkəzi, 1940–1995-ci illərdə Sisian rayonunun mərkəzi olmuşdur. Hazırda burada yalnız ermənilər yaşayır. Yaşayış məntəqəsinin adı ərazidəki albanlara məxsus qara rəngli kilsənin adı əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 2 mart 1940-cı il tarixli qərarı ilə bu ad dəyişdirilərək "Sisian" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 180).

Coğrafi koordinatları: 39°31' şm. e., 46°01' ş. u.

**Qaraqala** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 53 km cənub-şərqdə, dəniz səviyyəsindən 2050 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmişdir (143, s. 80). Kənddə 1873-cü ildə 403, 1886-cı ildə 510, 1897-ci ildə 599, 1904-cü ildə 759, 1914-cü ildə 860, 1916-cı ildə 899 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 44–45, 124–125). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində deportasiya olunmuşlar. Kənddə 1918–1920-ci illərdə Türkiyənin Muş və Van vilayətlərindən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir (416, s. 178). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti quru-

landan sonra azərbaycanlılardan sağ qalanlar öz kəndlərinə qayıda bilmişlər. Kənddə ermənilərlə yanaşı, 1922-ci ildə 20, 1926-cı ildə 45, 1931-ci ildə 60 nəfər azərbaycanlı yaşamışdır (415, 44–45, 124–125). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim rəng bildirən "qara" sözü ilə "qala" sözünün birləşməsindən əmələ gəlib, "qara daşdan tikilmiş qalanın yanında olan kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 21 iyun 1948-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Sevaberd" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 178)

Coğrafi koordinatları: 40°16′ şm. e., 44°47′ ş. u.

**Qaraqala** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayətində kənd. Dəniz səviyyəsindən 1710 m hündürlükdə yerləşir. Yuxarı Qaraqala və Aşağı Qaraqala kəndləri 1930-cu illərdə birləşdirilmiş və "Qaraqala" adlandırılmışdır. Kənddə orta əsrlərə aid azərbaycanlıların tarixi ilə bağlı abidələr, qalalar, qəbiristanlıqlar var. Kənddə 1886-cı ildə 183, 1897-ci ildə 273, 1916-cı ildə 244 nəfər azərbaycanlı yaşamışdır (415, s. 78–79, 148–149). 1918-ci ildə kəndin köklü sakinləri olan azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən deportasiya edilmişlər. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra deportasiya olunmuş azərbaycanlılar öz kəndlərinə dönə bilmişlər. Kənddə 1922-ci ildə 266, 1926-cı ildə 281, 1931-ci ildə 175 (415, s. 79, 149), 1939-cu ildə 127, 1959-cu ildə 192, 1970-ci ildə 281, 1979-cu ildə 240 nəfər (416, s. 151) azərbaycanlı yaşamışdır. Kəndin sakinləri 1988-ci ilin noyabr-dekabr aylarında tarixi-etnik torpaqlarından qovulmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim rəng bildirən "qara" sözü ilə "qala" sözünün birləşməsindən əmələ gəlib, "qara daşdan tikilmiş qalanın yanında olan kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Noramut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 151).

Coğrafi koordinatları: 41°06′ şm. e., 44°07′ ş. u.

**Qaraqaya** – İrəvan quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 99 km şimalda, Tərsa çayının sahilində, dəniz səviyyəsindən 1160 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 117). 1937-ci ilə kimi Dilican rayonunun inzibati-ərazi bölgü-



*Qaraqaya kəndi*

sünə daxil idi (415, s. 32). Kənddə 1897-ci ildə 215, 1904-cü ildə 248, 1914-cü ildə 265, 1916-cı ildə 516, 1919-cu ildə 425 nəfər azərbaycanlı yaşamışdır (415, s. 32–33, 116–117). 1919-cu ilin əvvəllərində kəndin sakinləri erməni silahlı birləşmələri tərəfindən qırğınlar nəticəsində qovulmuşdur. 1920-ci ildə indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan sakinlər öz yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 170, 1926-cı ildə 169, 1931-ci ildə 205, (415, s. 33, 117), 1939-cu ildə 242, 1959-cu ildə 365, 1970-ci ildə 425, 1979-cu ildə 335 (416, s. 128), 1987-ci ildə 350 nəfər (85,

s. 87) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən doğma yurdlarından qovulmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Toponim qədim türk dilində "uca, hündür, yüksək, şiş" mənasında işlənən "qara" sözünə (94, s. 71) "qaya" oroterminin qoşulması əsasında əmələ gəlmişdir və hündür, uca, yüksək qayalıqda yerləşən kənd deməkdir. Erm. SSR AS RH-nin 19 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Dzorvank" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 128).

Coğrafi koordinatları: 40°42′ şm. e., 45°06′ ş. u.

**Qaraqaya** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Erdəpin kəndinin yaxınlığında, Arpaçayın sağ tərəfində, dəniz səviyyəsindən 2200 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 117). Kənddə 1873-cü ildə 141, 1886-cı ildə 214, 1897-ci ildə 259, 1904-cü ildə 177, 1914-cü ildə 194, 1916-cı ildə 303 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). 1918-ci ildə kəndin sakinləri erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan sakinlər ata-baba yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 193, 1926-cı ildə 97, 1931-ci ildə 140 (415, s. 93, 161), 1939-cu ildə 161, 1959-cu ildə 152, 1970-ci ildə 133, 1979-cu ildə 208 (416, s. 178–179), 1987-ci ildə 400 nəfər (85, s. 355) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində rəng mənasında işlənən "qara" sözü ilə "dağ" mənasında işlənən "qaya" sözündən əmələ gəlmişdir. Kəndin adı dəyişdirilərək "Sevajayr" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 178–179).

Coğrafi koordinatları: 39°54′ şm. e., 45°28′ ş. u.

**Qaraqaya** – İrəvan quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzindən 99 km şimalda, Tərsa çayının sahilində, dəniz səviyyəsindən 1160 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 117). 1937-ci ilə kimi Dilican rayonunun inzibati-ərazi bölgüsünə daxil olmuşdur (415, s. 32). Kənddə 1897-ci ildə 215, 1904-cü ildə 248, 1914-cü ildə 265, 1916-cı ildə 516, 1919-cu ildə 425 nəfər azərbaycanlı yaşamışdır (415, s. 32–33, 116–117). 1919-cu ilin əvvəllərində kənd sakinləri erməni silahlı birləşmələri tərəfindən qovulmuşdur. 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sağ qalan sakinləri öz yurdlarına qayıda bilmişlər. Burada 1922-ci ildə 170, 1926-cı ildə 169, 1931-ci ildə 205, (415, s. 33, 117), 1939-cu ildə 242, 1959-cu ildə 365, 1970-ci ildə 425, 1979-cu ildə 335 (416, s. 128), 1987-ci ildə 350 nəfər (85, s. 87) azərbaycanlı yaşamışdır. 1988-ci il noyabrın axırında azərbaycanlılar Ermənistan dövləti tərəfindən doğma yurdlarından qovulmuşlar. Kənddə indi yalnız ermənilər yaşayır. Toponim qədim türk dilində "uca, hündür, yüksək, şiş" mənasında işlənən "qara" sözünə (94, s. 71) "qaya" oroterminin qoşulması əsasında əmələ gəlmişdir və "hündür, uca, yüksək qayalıqda yerləşən kənd" deməkdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Dzorvank" qoyulmuşdur.

"Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 128).

Coğrafi koordinatları: 40°42′10″ şm. e. 45°06′ 02″ ş. u.

**Qaraqışlaq** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonun-

da, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 24 km şimal-qərbdə, Zəngi çayının sağ sahilində, dəniz səviyyəsindən 835 m hündürlükdə yerləşir. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 161), Qafqazın 5 verstlik xəritəsində (348, s. 117) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 151, 1873-cü ildə 735, 1897-ci ildə 1007, 1904-cü ildə 832, 1914-cü ildə 1123, 1916-cı ildə 1052 nəfər azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində deportasiya olunmuşlar. Yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərinin bir qismi öz evlərinə dönə bilmişlər. Kənddə 1922-ci ildə 514, 1926-cı ildə 753, 1931-ci ildə 850 (415, s. 82–83, 152–153), 1959-cu ildə 1179, 1970-ci ildə 1843, 1979-cu ildə 1896 nəfər (416, s. 117) azərbaycanlı yaşamışdır. 1988-ci ilin oktyabr-noyabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim qədim türk dilində "böyük, geniş" mənasında işlənən "qara" sözü ilə (93, s. 42), "qış vaxtı heyvandarların yaşadığı yer, yaşayış yeri" mənasında işlənən "qışlaq" sözündən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Dostluq", 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Hayanist" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 117).

Coğrafi koordinatları: 40°07′ şm. e., 44°22′ ş. u.

**Qaraqula** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonu ərazisində, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 71 km şimal-qərbdə, Alagöz dağının 10 km şimal-qərbində, dəniz səviyyəsindən 1315 m hündürlükdə yerləşir. Toponim qədim türk dilində "böyük, geniş, hündür, uca" mənasında işlənən "qara" sözü ilə (94, s. 71) "dağın şimal, gün düşməyən yamacı" mənasında işlənən "qula" sözünün (339, s. 164) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Getap" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 57–58).

Coğrafi koordinatları: 40°23′ şm. e., 43°37′ ş. u.

**Qaral** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 31 km qərbdə, Bəykənd çayının yanında, dəniz səviyyəsindən 1720 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 118). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali Türkiyəyə köç etmişdir. Ermənilər 1828–1830-cu illərdə Türkiyənin Muş və Qars vilayətlərindən köçürülüb Qaral kəndində yerləşdirilmişdir. Toponim "qarael" (qaral) türk etnonimi əsasında əmələ gəlib, "böyük el, tayfa" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Katnacur" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 104–105).

Coğrafi koordinatları: 40°49′ şm. e., 44°08′ ş. u.

**Qaralar** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 10 km cənub-şərqdə, Vedi çayının yanında, dəniz səviyyəsindən 850 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 118). Kənddə 1873-cü ildə 443, 1886-cı ildə 387, 1897-ci ildə 570, 1904-cü ildə 252, 1914-cü ildə 256, 1916-cı ildə 546, azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). Lakin "Ermənistan və ətraf vilayətlərin

toponimlər lüğəti"ndə bu faktlar təhrif edilərək 1873–1916-cı illərdə kənddə azərbaycanlıların yox, ermənilərin yaşadığı göstərilir (427, s. 383). 1918–1919-cu illərdə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qırğınlar nəticəsində qovulmuş, 1920-ci ilin sonunda İrandan, 1920–1921-ci illərdə Türkiyənin Van, Şatax və Bəyazid vilayətlərindən, 1940–1950-ci illərdə indiki Ermənistanın Aşağı Qaranlıq (Martuni) və Sisian rayonlarından, 1946-cı ildə İran və Livandan ermənilər köçürülərək Qaralar kəndində yerləşdirilmişdir (427, s. 383). 1920-ci ildə indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar geri qayıda bilmişlər. Kənddə 1922-ci ildə 241 nəfər azərbaycanlı, 273 erməni, 1926-cı ildə 280 nəfər azərbaycanlı, 252 nəfər erməni, 1931-ci ildə 297 nəfər azərbaycanlı, 292 erməni (415, s. 87, 157), 1939-cu ildə 780 nəfər azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Deportasiya edilənlərin bir qismi sonradan doğma kəndlərinə qayıda bilmişdir. Kənddə 1955-ci ildə 1181, 1970-ci ildə 1794, 1979-cu ildə 1942 nəfər azərbaycanlı və erməni yaşamışdır (427, s. 383). 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim türk mənşəli "qaralar" etnonimi (245, s. 57) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Aralez" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 27).

Coğrafi koordinatları: 39°54′ şm. e., 44°39′ ş. u.

**Qaraməhəmməd** – Tiflis quberniyasının Borçalı (Lori-Pəmbək) qəzasında, keçmiş Cəlaloğlu (Stepanavan) rayonunda, indi Lori vilayətində kənd. Cəlaloğlu (Stepanavan) yaşayış məntəqəsinin mərkəzindən 6 km şimal-şərqdə yerləşir. Kəndin adı "Qaraməmməd" formasında da işlədilib. XIX əsrin əvvəllərinə qədər kənddə azərbaycanlılar yaşamışdır. Yaşayış məntəqəsinin ərazisi XIX əsrin əvvəllərində Rusiya tərəfindən işğal edildikdən sonra azərbaycanlılar sıxışdırılaraq kənddən çıxarılmış, Rusiyanın Saratov və Kursk qəzalarından köçürülən ruslar burada yerləşdirilmişdir (85, s. 335). Kənddə 1831-ci ildə 18 nəfər yalnız azərbaycanlı, 1926-cı və 1931-ci illərdə ruslarla yanaşı, 6 nəfər azərbaycanlı yaşamışdır (415, s. 78–79, 156–157). 1930-cu illərin axırlarında azərbaycanlılar kənddən çıxarılmışdır. 1988-ci ilə kimi kənddə yalnız ruslar yaşamışdır. 1988-ci ildən sonra ruslar da ermənilər tərəfindən sıxışdırılıb kənddən çıxarılmışdır. Toponim "Qaraməhəmməd" şəxs adı əsasında yaranıb. Kəndin adı 1801-ci ildə dəyişdirilərək Rusiya çarının şərəfinə "Aleksandrovka" qoyulmuşdur. Erm. SSR AS RH-nin 22 fevral 1939-cu il tarixli qərarı ilə kəndin adı yenidən dəyişdirilərək rus yazıçısı Maksim Qorkinin şərəfinə "Qorki" qoyulmuşdur. 8 avqust 1991-ci il tarixli qərarla bir daha dəyişdirilərək "Bovadzor" adlandırılıb. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 49).

Coğrafi koordinatları: 41°02′ şm. e., 44°24′ ş. u.

**Qaraməmməd** – Qars vilayətinin Qars qəzasının Şörəyel nahiyəsində, keçmiş Amasiya rayonunda, indi Şirak vilayəti ərazisində kənd. Vilayət



*Qaraməmməd kəndi*

mərkəzi Gümrü şəhərindən 14 km şimal-qərbdə, dəniz səviyyəsindən 1750 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 118). Ermənilər 1877–1878-ci illər rus-türk müharibəsindən sonra kənddə yerləşdirilmişdir. 1897-ci ildə kənddə 20 nəfər azərbaycanlı, 437 erməni yaşamışdır (415, s. 20–21). Azərbaycanlılar 1919-cu ildə erməni silahlı birləşmələri tərəfindən tarixi torpaqlarından deportasiya olunmuşdur. Toponim "Qaraməmməd" şəxs adı əsasında formalaşmışdır. Antropotoponimdir. Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Meğraşad" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 138).

Coğrafi koordinatları: 40°51' şm. e., 43°42' ş. u.

**Qaranamaz (Yeniyol)** – Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, keçmiş Amasiya rayonunda, indi Şirak vilayətində kənd. Rayon mərkəzindən 27 km şimal-şərqdə, dəniz səviyyəsindən 2027 m hündürlükdə yerləşir. Kənddə ancaq azərbaycanlılar yaşamışlar. 1886-cı ildə burada 285, 1897-ci ildə 406, 1908-ci ildə 559, 1914-cü ildə 541 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ilin may ayında türk ordusunun önündən geri çəkilən Andranikin komandanlıq etdiyi erməni silahlı dəstəsi Qaranamaz kəndində qırğın törətmişdir. Qırğınlardan canını qurtarıb (7, s. 75) sağ qalanlar Qars vilayətinə qaçmışdır. Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevralında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd yenidən dağıdılmış, əhalinin bir qismi Qars vilayətinə, bir qismi isə İranın Gümrüdəki konsulluğu vasitəsilə Urmiya və Səlmas əyalətlərinə köç etmişdir. 1921-ci il Qars müqaviləsindən sonra kənd əhalisinin bir qismi kəndə qayıtmışdır. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra – 1921-ci ildə imzalanan Qars müqaviləsinə əsasən, kənd Ağbaba nahiyəsinin tərkibində Aleksandropol qəzasına daxil edilmişdir. Kənddə 1922-ci ildə 476, 1926-cı ildə 451, 1931-ci ildə 471 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ildə kənddə 1272 nəfər azərbaycanlı yaşamışdır ki, onlar da həmin il təcavüzə məruz qalmış, erməni quldurları tərəfindən doğma kəndlərindən qovulub çıxarılmışlar. 1935-ci il yanvarın 3-də kəndin adı dəyişdirilərək "Yeniyol," 1991-ci il aprelin 19-da isə yenidən dəyişdirilərək "Ağvorik" qoyulmuşdur.

"Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 15).

Coğrafi koordinatları: 41°04' şm. e., 43°45' ş. u.

**Qaranlıq** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 37 km cənub-şərqdə, dəniz səviyyəsindən 2060 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 118). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Türkmənçay müqaviləsinə (1828) əsasən, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali kəndi tədricən tərk etmişdir. Toponim "dağ, təpə" mənasında işlənən "qara" sözünə (339, s. 256) məkan anlayışı bildirən "-lıq" şəkilçisinin birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca düzəltmə toponimdir. Erm. SSR AS RH-nin 5 iyul 1968-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Qeğhovit" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 53).

Coğrafi koordinatları: 40°06' şm. e., 45°17' ş. u.

**Qaranlıq** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 34 km şimalda, Abaran çayının sahilində, dəniz səviyyəsindən 1970 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 109), Qafqazın 5 verst-

lik xəritəsində (348, s. 118) qeyd edilmişdir. Ədirnə müqaviləsinə (1829) əsasən, İrəvan xanlığının ərazisinə ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Toponim türk dilində "dağ, təpə, zirvə" mənasında işlənən "qara" sözünə (339, s. 256) "-lıq" şəkilçisinin artırılması ilə yaranıb, "dağlıq yerdə olan kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 10 sentyabr 1948-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lusagyuğ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 92–93).

Coğrafi koordinatları: 40°36′ şm. e., 44°22′ ş. u.

**Qaranlıqdərə** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 6 km şimalda, dəniz səviyyəsindən 720 m hündürlükdə yerləşir. Kənddə ermənilərin məskunlaşdırılmasından sonra azərbaycanlı əhali tədricən yer-yurdlarını tərk etmişdir. Toponim Azərbaycan dilində "heç nə görünməyən", "işığı olmayan" mənasında işlənən "qaranlıq" sözü ilə (9, s. 432) "dərə" sözünün birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lusadzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 93).

Coğrafi koordinatları: 40°56′ şm. e., 45°08′ ş. u.

**Qaraşamb** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Nairi rayonunda, indi Kotayk vilayətində kənd. Nairi yaşayış məntəqəsindən 5 km məsafədə yerləşir. 1972-ci ildə Nairi rayonu yaradılanadək Əştərək rayonunun tərkibində olmuşdur. Kənddə 1831-ci ildə 28, 1873-cü ildə 207, 1886-cı ildə 192, 1897-ci ildə 306, 1908-ci ildə 363, 1914-cü ildə 417, 1916-cı ildə 381 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22–23, 108–109). 1918-ci ildə kəndin əhalisi erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş, Türkiyədən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim qədim türk dilində "böyük" mənasında işlənən "qara" sözü ilə türk dilində "çay kənarlarında, iki çayın qovuşacağında qamış, yulğun, biyan və s. göyərdiyi, həmçinin çöl heyvanlarının və quşların yurd-yuva saldığı sucaq yer" mənasında işlənən "şam" sözünün (129, s. 63) birləşməsindən əmələ gəlmişdir. "Şam" sözü erməni dilində "şamb" formasında "qamışlıq" mənasında işlənir (30, s. 413). Hazırda erməni dilində olan rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Karaşamb" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 207).

Coğrafi koordinatları: 40°24′ şm. e., 44°35′ ş. u.

**Qarğabazar** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 40 km cənub-şərqdə, Qarasu çayının kənarında, dəniz səviyyəsindən 830 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 121). Kənddə 1873-cü ildə 574, 1886-cı ildə 602, 1897-ci ildə 569, 1904-cü ildə 688, 1914-cü ildə 728, 1916-cı ildə 615, 1919-cu ildə 600 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). 1919-cu ilin sonlarında kənd əhalisi erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış, sakinlər qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 192, 1926-cı ildə 190, 1931-ci ildə 168 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz

ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Kənddə 1946–1947-ci illərdə xaricdən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. Hazırda kənddə ermənilər yaşayır. Toponim "qarğa" türk etnoniminə (286, s. 63) "alış-veriş yeri" mənasında işlənən "bazar" sözünün artırılması ilə yaranıb, "qarğa tayfasının alış-veriş yeri" mənasını ifadə edir (93, s. 31). Erm. SSR AS RH-nin 25 may 1965-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Haykaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 117–118).

Coğrafi koordinatları: 40°04' şm. e., 44°18' ş. u.

**Qarğavəng** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda, indi Kotayk vilayətində, dəniz səviyyəsindən 1583 m hündürlükdə yerləşən kənd. Qafqazın 5 verstlik xəritəsində (348, s. 121) qeyd edilmişdir. Kənddə 1897-ci ildə 182 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22–23). 1905–1906-cı illərdə erməni silahlı dəstələri kənddə kütləvi qırğınlar törətmişdir. Sonra İran və Türkiyədən köçürülən ermənilər kənddə yerləşdirilmişdir. Toponim "qarğa" türk etnoniminə (286, s. 63; 93, s. 43), "məbəd" mənasında işlənən "vəng" sözünün birləşməsindən yaranmışdır. Kəndin adı sonradan dəyişdirilərək "Zoravan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 79).

Coğrafi koordinatları: 40°21' şm. e., 44°31' ş. u.

**Qasıməli** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 24 km cənub-şərqdə, dəniz səviyyəsindən 1750 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Qasımkənd" (143, s. 134), Qafqazın 5 verstlik xəritəsində "Qasıməli kəndi" formasında (348, s. 123) qeyd edilmişdir. Ədirnə müqaviləsinə (1829) əsasən, İrəvan xanlığının ərazisinə ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Toponim "Qasıməli" şəxs adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 1 iyun 1940-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Getap" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 58).

Coğrafi koordinatları: 40°39′ şm. e., 44°00′ ş. u.

**Qaşqa** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 56 km cənub-şərqdə, Ağdərə dərəsində, Çalaxçı çayının yanında, dəniz səviyyəsindən 1800 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 125). Kənddə 1831-ci ildə 8 nəfər azərbaycanlı yaşamışdır (415, s. 156). Sonra İranın Xoy və Səlmas vilayətlərindən köçürülüb gətirilən ermənilər bu kənddə yerləşdirilmişdir (416, s. 189). Nəticədə, kənd bütünlüklə erməni yaşayış məntəqəsinə çevrilmişdir. Toponim qədim türk tayfalarından biri olan "qaşqay" etnonimi (142, s. 72–95; 235, s. 20–21; 17, s. 187–188) əsasında yaranmışdır. "Qaşqa" "qaşqay" etnoniminin fonetik formasıdır. Erm. SSR AS RH-nin 10 sentyabr 1948-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vardaşat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 189).

Coğrafi koordinatları: 39°49′ şm. e., 45°01′ ş. u.

**Qayabaşı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunda, Gegarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 83 km cənub-şərqdə, Məzrə çayının yanında, dəniz səviyyəsindən 2025 m hündürlükdə yerləşir. Qafqa-

zın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 125). Kəndin adı "Qaya Başı Hacı Qərib" formasında da qeyd edilir (309, s. 305). Kənddə 1873-cü ildə 131, 1886-cı ildə 181, 1897-ci ildə 219, 1908-ci ildə 219, 1914-cü ildə 240, 1916-cı ildə 234 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1919-cu il 13–20 apreldə azərbaycanlılar erməni silahlıları tərəfindən kənddən qovulmuşlar (309, s. 305). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlıların bir qismi geri qayıda bilmişdir. 1926-cı ildən burada müsəlman kürdlər də yaşamışdır. Kənddə 1922-ci ildə 149 nəfər, 1926-cı ildə 129 nəfər azərbaycanlı, 113 nəfər kürd , 1931-ci ildə 181 nəfər azərbaycanlı, 175 nəfər kürd (415, s. 26–27, 112–113), 1939-cu ildə 408, 1959-cu ildə 371, 1970-ci ildə 522, 1979-cu ildə 663 nəfər azərbaycanlı və kürd yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar və kürdlər Ermənistan dövləti tərəfindən kənddən qovulmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "qaya" oroterminindən və "dağın yuxarısı, zirvəsi" mənasında işlənən "baş" sözündən əmələ gəlmişdir. "Qayanın başında yerləşən kənd" mənasını bildirir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Keğamabak" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 53).

Coğrafi koordinatları: 40°09' şm. e., 45°48' ş. u.

**Qayqulu Ciftəli** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayətində kənd. Kəndin adı erməni müəlliflərinin əsərlərində "Ciftəli" kimi qeyd edilmişdir (415, s. 20). Vilayət mərkəzi Gümrü şəhərindən 36 km şimalda, dəniz səviyyəsindən 2010 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 125). Ədirnə müqaviləsinə (1829) əsasən, ermənilərin kəndə köçürülüb məskunlaşdırılmasından sonra azərbaycanlı əhali Türkiyəyə köç etmişdir. Toponim oğuzların "qayı" etnonimindən (399, s. 158), "Qulu" şəxs adından və mənsubluq bildirən "-lı" şəkilçisinin qoşulduğu "mal-qoyun bəslənən yer" mənasında işlənən "cift" sözündən (35, s. 187) əmələ gəlib, "qayı tayfasından olan Quluya mənsub mal-qoyun bəslənildiyi yer" mənasını bildirir. Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Zuyqaxpyur" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 79).

Coğrafi koordinatları: 41°01' şm. e., 43°54' ş. u.

**Qayqulu Düzkənd** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 34 km şimalda, dəniz səviyyəsindən 2030 m hündürlükdə yerləşir. Ədirnə müqaviləsinə (1829) əsasən, İrəvan xanlığının ərazisinə ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Kəndin adı ermənilər köçürüləndən sonra dəyişdirilərək "Düzxaraba" kimi qeyd edilmişdir (415, s. 18). Qafqazın 5 verstlik xəritəsində də "Düzxaraba" formasında göstərilmişdir (348, s. 90). Toponim oğuzların qədim tayfalarından olan "qayı" etnonimi ilə (399, s. 158; 238, s. 222–223) "Qulu" şəxs adından, relyef bildirən "düz" və "kənd" sözlərindən əmələ gəlib, "qayı tayfasından olan Qulunun düzdə saldığı kənd" mənasını bildirir. Etnotoponimdir. Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Hartaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 119).

Coğrafi koordinatları: 41°00' şm. e., 43°55' ş. u.

**Qazançı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayətində kənd. Erməni müəlliflərinin (415, s. 20, 104) və azərbaycanlı tədqiqatçıların əsərlərində "Qayı", "Qulu", "Qazançı"

kimi də qeyd edilmişdir. (35, s. 162). Vilayət mərkəzi Gümrü şəhərindən 41 km şimalda, dəniz səviyyəsindən 2030 m hündürlükdə yerləşir. Ədirnə müqaviləsinə (1829) əsasən, ermənilərin Türkiyədən köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 130), Qafqazın 5 verstlik xəritəsində (348, s. 107) qeyd edilmişdir. Toponim türk mənşəli bulqar tayfalarından biri olan "qazan" etnoniminə (273, s. 235) "-çı" mənsubluq anlamı bildirən şəkilçinin artırılmasından əmələ gələn "qazançı" etnonimindən düzəlmişdir. Hazırda erməni dilində olan rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Ğazançi" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 128).

Coğrafi koordinatları: 41°04′ şm. e., 43°49′ ş. u.

**Qazançı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 15 km cənub-şərqdə, dəniz səviyyəsindən 1650 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 130), Qafqazın 5 verstlik xəritəsində (348, s. 107) qeyd edilmişdir. Ədirnə müqaviləsinə (1829) əsasən, ermənilərin Türkiyənin Qars və Ərzurum vilayətlərindən köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Toponim qədim türk mənşəli bulqar tayfalarından olan qazan tayfasının adına (273, s. 235; 286, s. 35) "-çı" şəkilçisinin artırılması ilə düzəlmişdir. Erm. SSR AS RH-nin 31 may 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilib "Meğraşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 138).

Coğrafi koordinatları: 40°40′ şm. e., 43°56′ ş. u.

**Qədili** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 43 km cənub-şərqdə, Varsaq dağının ətəyində, Çapan çayının kənarında, dəniz səviyyəsindən 2000 m hündürlükdə yerləşir. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Qədli" kimi (143, s. 173), Qafqazın 5 verstlik xəritəsində "Qadılu" formasında (348, s. 107) qeyd edilmişdir. Kəndin adı erməni müəlliflərinin əsərlərində "Qədirli" (415, s. 154) kimi də göstərilir. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Vedi nahiyəsinə daxil olan yaşayış məntəqələrinin siyahısında "Qədli kəndi" kimi qeydə alınmışdır (143, s. 173). Kəndin tarixi adı "Qədili" olsa da, sovet hakimiyyəti illərində "Qədirli" kimi rəsmiləşdirilmişdir. Kənddə 1831-ci ildə 45, 1873-cü ildə 389, 1886-cı ildə 497, 1897-ci ildə 588, 1904-cü ildə 827, 1914-cü ildə 839, 1916-cı ildə 697 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 154–155). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən törədilən qırğınlar nəticəsində qovulmuşlar. 1926-cı ildən kənddə yalnız ermənilər yaşamağa başlamışdır. Toponim türk mənşəli qədili tayfasının adı əsasında yaranmışdır. Qədili tayfası qaşqayların bir tirəsi olmuşdur (90, s. 281). Erm. SSR AS RH-nin 3 iyul 1968-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lancanist" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 85).

Coğrafi koordinatları: 39°52′ şm. e., 44°57′ ş. u.

**Qəmərli** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində şəhər. 1930-cu ilə qədər kənd, sonra qəsəbə, 1961-ci ildən respublika tabeliyində şəhərdir. 1930-cu il sentyabrın 9-da yaradılan Qəmərli rayonunun adı və rayon mərkəzi olmuşdur. İrəvandan 28 km cənub-şərqdə, dəniz səviyyəsindən 830 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 111). Burada 1831-ci ildə 167, 1873-cü ildə 563, 1886-cı ildə 668, 1897-ci ildə 757, 1914-cü ildə 957, 1916-cı ildə 903 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). 1905-ci ildə və 1918-ci ildə azərbaycanlılar erməni silahlı bir-

ləşmələrinin soyqırımına məruz qalaraq deportasiya olunmuşlar (309, s. 219). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz evlərinə qayıda bilmişlər. Burada 1922-ci ildə 126, 1926-cı ildə 248, 1931-ci ildə 267 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Hazırda ərazidə yalnız ermənilər yaşayır. Toponim qədim kimmer tayfasının (377, s. 469; 71, s. 81–83) adı əsasında əmələ gələn "qəmərli" etnonimindən (143, s. 49) yaranıb, "kimmerlərin/qəmərli tayfasının yaşadığı yer" mənasını verir. Etnotoponimdir. Erm. SSR AS RH-nin 4 sentyabr 1945-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Artaşat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati mərkəzidir (416, s. 38).

Coğrafi koordinatları: 39°57′ şm. e., 44°33′ ş. u.

**Qəmərli** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 38 km cənub-şərqdə, Böyük Qarasu çayının yanında, dəniz səviyyəsindən 855 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 111). Kəndin digər adı "Gözlü Qəmərli" olmuşdur (415, s. 82). Kənddə 1831-ci ildə 127, 1873-cü ildə 295, 1886-cı ildə 347, 1897-ci ildə 408, 1904-cü ildə 411, 1914-cü ildə 436, 1916-cı ildə 425 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış, azərbaycanlı sakinlər tarixi-etnik torpaqlarından deportasiya edilmiş və Türkiyədən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir (415, s. 153). Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "qəmər" (antik mənbələrdə kimmer) türk tayfa adına (377, s. 469; 71, s. 81–83; 287, s. 317–321) mənsubluq bildirən "-li" şəkilçisinin artırılması ilə əmələ gəlib, "qəmər (kimmer) tayfasının yaşadığı kənd" mənasını bildirir. Erm. SSR AS RH-nin 15 iyul 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Metsamor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 137).

Coğrafi koordinatları: 40°04′ şm. e., 44°17′ ş. u.

**Qəzənfər** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 49 km şimalda, Alagöz dağının ətəyində, Abaran çayının sağ qolu üzərində, dəniz səviyyəsindən 1968 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 112), Qafqazın 5 verstlik xəritəsində (348, s. 107) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali Türkiyəyə köç etmişdir. 1828–1829-cu illərdə Türkiyənin Ələşkirt, Muş, Sasun vilayətlərindən köçürülən ermənilər kənddə yerləşdirilmişdir (427, s. 378). Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 10 sentyabr 1948-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Araqats" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 26).

Coğrafi koordinatları: 40°29′ şm. e., 44°21′ ş. u.

**Qılıcyataq (Birinci Qılıcyataq)** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 66 km şimal-qərbdə, dəniz səviyyəsindən 1575 m hündürlükdə yerləşir. Kəndin digər adı "Birinci Qılıncyataq" olmuşdur (415, s. 34). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 137). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasın-

dan sonra əhali Türkiyəyə köç etmişdir. Kəndin adı Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən "birinci" sözü ilə Azərbaycan dilində "hündür bir yerin təpəsi", "dikdir, yolun başı" mənasında işlənən "qılıc" sözünün (118, s. 18; 253, s. 16; 278, s. 53) "payızda, qışda qoyun-quzu, mal-qara saxlanılan yer" mənasında işlənən "yataq" sözünə (10, s. 510; 278, s. 168) qoşulması ilə əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Suser" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 184).

Coğrafi koordinatları: 40°28′ şm. e., 43°44′ ş. u.

**Qıpçaq** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 22 km cənub-şərqdə, dəniz səviyyəsindən 2020 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143. s. 124), Qafqazın 5 verstlik xəritəsində (348, s. 134) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Türkmənçay müqaviləsinə (1828) əsasən, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Ermənilər kəndə Türkiyənin Ərzurum, Bayburd və Muş vilayətlərindən köçürülüb yerləşdirilmişdir (416, s. 119). Toponim qədim türk tayfalarından olan "qıpçaq" etnonimi (228, s. 18; 286, s. 46–48; 66, s. 34–37) əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 31 may 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Haric" ("Xaricilər". İrandan köç etmiş



*Qıpçaq kəndi. Aruç kilsəsi*

ermənilərin şərəfinə) qoyulmuşdur. Kənddə orta əsrlərə aid bir neçə qıpçaq məbədi mövcuddur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 119).

Coğrafi koordinatları: 40°35′ şm. e., 44°00′ ş. u.

**Qırxbulaq** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 77 km cənub-şərqdə, Göyçə gölünün cənub-şərqində, dəniz səviyyəsindən 1960 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmişdir (143, s. 61). Kənddə 1831-ci ildə 247 nəfər yalnız azərbaycanlı, 1897-ci ildə ermənilərlə yanaşı, 23 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112). 1831-ci ildən sonra kəndə Türkiyənin Bəyazid bölgəsindən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir (427, s. 146). 1905–1906-cı illərdə azərbaycanlılar ermənilər tərəfindən sıxışdırılaraq kənddən tamamilə çıxarılmışdır. 1906-cı ildən sonra burada yalnız ermənilər yaşamışdır. Toponim Azərbaycan dilində "çoxlu" mənasında işlənən "qırx" və "bulaq" sözləri əsasında yaranmış, ərazidə çoxlu bulaq olduğu üçün kəndə "Qırxbulaq" adı verilmişdir. Qırxbulaq ərazisində İrəvan xanlarının yaylaq yerləri olmuşdur. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Akunk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 12).

Coğrafi koordinatları: 40°09′ şm. e., 45°43′ ş. u.

**Qırxdəyirman** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ələyəz (Araqats) rayonunda, Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 57 km şimal-qərbdə, Qarabulaq çayının yanında, Alagöz dağının ətəyində, 2150 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 153). 15 mart 1972-ci ildə Ələyəz

(Araqats) rayonu yarandıqdan sonra Abaran rayonunun inzibati-ərazi bölgüsündən çıxarılıb Ələyəz (Araqats) rayonunun tərkibinə daxil edilmişdir. Ədirnə müqaviləsinə (1829) əsasən, ermənilər İrəvan xanlığının ərazisində məskunlaşdırılandan sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Toponimin türk dilində söz birləşməsi daxilində "qırx" sözünün həm də "kiçik" mənasını ifadə etdiyini (kırk anbar, 359, I (1), s. 746) nəzərə alıb, bu qənaətə gəlmək olar ki, Qırxdəyirman "kiçik dəyirman" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 15 iyul 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Hnaberd" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 122).

Coğrafi koordinatları: 40°38′ şm. e., 44°08′ ş. u.

**Qızılcıq** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 99 km şimal-qərbdə, dəniz səviyyəsindən 1850 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 132). Kənddə 1873-cü ildə 165, 1886-cı ildə 287, 1897-ci ildə 407, 1908-ci ildə 450, 1914-cü ildə 441 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar öz yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 189, 1926-cı ildə 122, 1931-ci ildə 292 (415, s. 76–77, 146–147), 1939-cu ildə 441, 1959-cu ildə 587, 1979-cu ildə 651 (416, s. 84), 1987-ci ildə 466 nəfər (85, s. 184–185) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında kənd sakinləri Ermənistan dövləti tərəfindən yaşadıqları ərazidən qovulmuşlar. İndi kənddə ermənilər yaşayır. Toponim torpağın rəngini bildirən, "qırmızı" mənasında işlənən "qızıl" sözünə kiçiltmə mənası bildirən "-cıq" şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "İşxanasar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 84).

Coğrafi koordinatları: 39°33′ şm. e., 46°02′ ş. u.

**Qızıldəmir** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda, Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 5 km cənub-qərbdə, dəniz səviyyəsindən 1040 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində "Qızıltamur" kimi qeyd edilmişdir (415, s. 22, 106). Azərbaycan dilində olan mənbələrdə səhv olaraq "Qızıl Teymur" kimi göstərilir (85, s. 104). 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 162) və 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 88) "Qızıldəmir kəndi" formasında qeyd edilmişdir. Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır (386, s. 583–584). 1828–1830-cu illərdə kəndə İrandan köçürülən ermənilər yerləşdirilmişdir (386, s. 583–586). 1831-ci ildə kənddə ermənilərlə yanaşı, 120 nəfər azərbaycanlı yaşamışdır (415, s. 106). 1870-ci illərin əvvəllərində azərbaycanlılar erməni silahlıları tərəfindən deportasiya olunmuşdur. 1897-ci ildə kənddə 3 nəfər azərbaycanlı qalmışdır (415, s. 22–23). Onlar da XX əsrin əvvəllərində qovulmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "qırmızı" mənasında işlənən "qızıl" (torpağın süxurunun rəngini ifadə edir) sözü ilə qədim türk dilində "arx" mənasında işlənən "təmir" (dəmir) sözünün (299, s. 330) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Voskevaz" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 162).

Coğrafi koordinatları: 40°16′ şm. e., 44°17′ ş. u.

**Qızılkilsə** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayətində kənd. 1930-cu ildə keçmiş Stepanavan (Cəlaloğlu) rayonunun tabeliyində olmuşdur. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 55 km şimal-qərbdə, Dəmirçilər kəndinin yaxınlığında, dəniz səviyyəsindən 1700 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 132), Qafqazın 5 verstlik xəritəsində (348, s. 132) qeyd edilmişdir. Kəndin bir adı da "Dağ Qarakilsə" olmuşdur (415, s. 78). Kənddə 1886-cı ildə 106, 1897-ci ildə 202, 1908-ci ildə 215, 1916-cı ildə 490 nəfər azərbaycanlı yaşamışdır (415, s. 78–79, 148–149). 1918-ci ildə kənd sakinləri erməni silahlı birləşmələrinin hücumuna məruz qalaraq kəndi tərk etmişlər. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan sakinlər öz kəndlərinə dönmüşlər. Kənddə 1922-ci ildə 373, 1926-cı ildə 409, 1931-ci ildə 437 (415, s. 79, 149), 1939-cu ildə 548, 1959-cu ildə 577 (416, s. 34), 1987-ci ildə 1500 nəfər (85, s. 322) azərbaycanlı yaşamışdır. 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından tamamilə deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "qırmızı" mənasında işlənən "qızıl" sözü ilə "kilsə" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Qızıldaş", 3 aprel 1991-ci il tarixli qərarla yenidən dəyişdirilərək "Arçni" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 34).

Coğrafi koordinatları: 41°12′ şm. e., 44°22′ ş. u.

**Qızılkilsə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 32 km şimalda, dəniz səviyyəsindən 1990 m hündürlükdə yerləşir. Kəndin adı erməni müəlliflərinin əsərlərində "Qızılkilsə qarapapaq" (415, s. 20, 104), "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s.132), Qafqazın 5 verstlik xəritəsində (348, s. 132) "Qızılkilsə" formasında qeyd edilmişdir. Kənddə qarapapaq tayfası yaşadığı üçün yaşayış məntəqəsi həm də "Qarapapaq Qızılkilsəsi", "Türk Qızılkilsəsi" adlandırılmışdır (415, s. 20). Kənddə 1886-cı ildə 210, 1897-ci ildə 279, 1908-ci ildə 293, 1914-cü ildə 339 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). 1918-ci ilin may ayında kənd sakinləri erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kəndi tərk etmişlər. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 39, 1926-cı ildə 148, 1931-ci ildə 168 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20, 105). Sonradan azərbaycanlılar kəndi tamamilə tərk etmişlər. Hazırda burada yalnız ermənilər yaşayır. Toponim "qırmızı" mənasında işlənən "qızıl" sözü ilə dini məbəd mənasını bildirən "kilsə" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Karmravan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 111).

Coğrafi koordinatları: 41°00′ şm. e., 43°52′ ş. u.

**Qızılqoç** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayətində şəhərtipli qəsəbə. Vilayət mərkəzi Gümrü şəhərindən 35 km şimalda, Gümrü-Axılkələk yolunun kənarında, dəniz səviyyəsindən 1990 m hündürlükdə yerləşir. Ədirnə müqaviləsinə (1829) əsasən, ermənilər İrəvan xanlığının ərazisində məskunlaşdırılandan sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Toponim "qırmızı" mənasında işlənən "qızıl" sözü ilə (qırmızı rəngdə olan süxur nəzərdə tutulur), "düşərgə, qərargah", mənasında işlənən "koş" (qoç) sözünün (359, III (1), s. 636) birləşməsindən yaranmışdır. Relyeflə bağlı yaranan mürəkkəb quruluşlu toponimdir. Erm. SSR AS RH-nin 4 yanvar 1938-ci il tarixli

qərarı ilə adı dəyişdirilərək "Verin Qukasyan", 12 oktyabr 1956-cı il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Qukasyan" qoyulmuşdur. 14 noyabr 1990-cı ildən isə "Aşosk" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 15).

Coğrafi koordinatları: 40°02′ şm. e., 43°51′ ş. u.

**Qızılörən** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 21 km şimal-qərbdə, Çubuxlu dağ silsiləsinin cənub-qərb ətəyində, dəniz səviyyəsindən 1700 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 133) qeyd edilmişdir. 1937-ci ilə kimi keçmiş Quqark rayonunun tərkibində olmuşdur. Kənddə 1831-ci ildə 41, 1873-cü ildə 168, 1886-cı ildə 212, 1897-ci ildə 220, 1908-ci ildə 250, 1914-cü ildə 273, 1916-cı ildə 276 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 52–53, 132–133). Kənd 1918-ci ildə erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış, sakinlər qırğınlar nəticəsində deportasiya olunmuş, 1918–1920-ci illərdə xaricdən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 92 nəfər azərbaycanlı, 54 erməni, 1926-cı ildə 107 nəfər azərbaycanlı, 105 erməni, 1931-ci ildə 140 nəfər azərbaycanlı, 226 erməni yaşamışdır (415, s. 53, 133). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Deportasiya edilənlərin bir qismi sonradan doğma kəndlərinə qayıda bilmişdir. 1987-ci ildə kənddə 268 nəfər azərbaycanlı yaşamışdır (35, s. 165). 1988-ci ilin noyabrında onlar da Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində "qırmızı" (torpağın süxurunun rənginə görə) mənasında işlənən "qızıl" sözü ilə türk dilində "xarabalıq, uçulmuş divar" mənasında işlənən "örən" sözünün (359, I (2), s. 1299; 407, s. 105) birləşməsindən əmələ gəlmişdir. Qədimdən qalmış kənd və şəhər xarabalıqlarının yaxınlığında yerləşərkən bu xarabalara "örən" və ya "viran" adını verirmişlər. Bu adın əvvəlinə isə ya mənsub olduqları tayfa, oymaq və obanın adını, ya da torpağın rənginə görə "ağ", "qara", "qızıl" kimi söz əlavə edərək yeni adlar yaradırmışlar (407, s. 105). Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Şenavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 157).

Coğrafi koordinatları: 40°52′ şm. e., 44°14′ ş. u.

**Qızılvəng** – İrəvan quberniyasının Novo-Bayazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 67 km cənub-şərqdə, Alagöz çayının yanında, dəniz səviyyəsindən 2200 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 116), Qafqazın 5 verstlik xəritəsində (348, s. 131) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 429, 1886-cı ildə 469, 1897-ci ildə 563, 1908-ci ildə 733, 1914-cü ildə 812, 1916-cı ildə 807 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1828–1829-cu illərdə Türkiyənin Van, Muş, Qars vilayətlərindən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir (416, s. 135). 1918-ci ildə kənd sakinləri erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kəndi tərk etmişlər. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. Kənddə ermənilərlə yanaşı, 1922-ci ildə 168, 1926-cı ildə 241, 1931-ci ildə 282 nəfər azərbaycanlı yaşamışdır (415, s. 27, 113). SSRİ



*Qızılvəng kəndi*

Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Toponim "qırmızı" mənasında işlənən "qızıl" sözünün və "kilsə" sözünün sinonimi olan "vəng" sözünün birləşməsindən əmələ gəlmişdir. Kənddə albanlara məxsus qırmızı rəngdə kilsə olduğu üçün o, "Qızılvəng" (Qızılkilsə) adlandırılmışdır. Erm. SSR AS RH-nin 24 iyul 1940-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Çiçəkli", 25 yanvar 1978-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Makenis" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 135).

Coğrafi koordinatları: 40°07′ şm. e., 45°36′ ş. u.

**Qızqala** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 2 km cənub-şərqdə, dəniz səviyyəsindən 1470 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində "Qızqala" kimi qeyd edilir (415, s. 148). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali Türkiyəyə köç etmişdir. Toponim ərəb dilində "oğuz" etnonimini əks etdirən "qız" (ğuz, qız) etnonimi ilə (238, s. 48) "qala" sözünün birləşməsindən əmələ gəlib, "oğuz qalası yanında olan kənd" mənasını verir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Getavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 57).

Coğrafi koordinatları: 41°03′ şm. e., 44°20′ ş. u.

**Qolqat** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 27 km şimal-qərbdə, dəniz səviyyəsindən 870 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 64). Kəndin digər adı "Qovluqat"dır (415, s. 24). Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışlar. 1828–1829-cu illərdə Türkiyənin Muş, Xnıs (Hnıs), Ələşkirt vilayətlərindən köçürülən ermənilər kənddə yerləşdirilmişdir (416, s. 54). Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 17, 1873-cü ildə 13, 1897-ci ildə 18 nəfər azərbaycanlı yaşamışdır (415, s. 24–25, 110). XX əsrin əvvəllərində – 1905–1906-cı illərdə azərbaycanlılar erməni silahlıları tərəfindən kənddən deportasiya olunmuşlar. Toponim türk dilində "susuz dərə", "çay yeri", "axar", "çay" (2, s. 297), "dərə, vadi" (299, s. 453) mənalarında işlənən "qol" sözü ilə "bataqlıq" mənasında işlənən "qat" sözünün (339, s. 141) birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan toponimdir. Erm. SSR AS RH-nin 15 iyul 1948-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Geğanist" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 54).

Coğrafi koordinatları: 40°41′ şm. e., 44°01′ ş. u.

**Qonaqqıran** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 5 km şimal-şərqdə, dəniz səviyyəsindən 1650 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi keçmiş Leninakan rayonunun tabeliyində olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Qonaqqıran" kimi (143, s. 135), Qafqazın 5 verstlik xəritəsində "Qonax

Qran" formasında (348, s. 139) qeyd edilmişdir. Toponim qədim türk dilində "dayanacaq", "istirahət yeri" mənasında işlənən "qonaq" sözü ilə (299, s. 455), "düşərgə", "maldarların müvəqqəti dayanacaq yeri" mənasında işlənən "kuren/kran" sözünün (339, s. 317) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 2 mart 1940-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Şirak" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 158–159).

Coğrafi koordinatları: 40°50′ şm. e., 43°55′ ş. u.

**Qoncalı** – Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, keçmiş Amasiya rayonunda, Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 40 km şimalda, Arpa gölündən 7–8 km cənub-şərqdə, dəniz səviyyəsindən 2050 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində "Xancallı" kimi yer almışdır (415, s. 20). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 140). Kəndin köklü sakinləri azərbaycanlıların etnogenezində iştirak edən qarapapaq türk tayfaları olmuşdur. Siyahıyaalmalarda qarapapaqlar xalq kimi göstərilmişdir (415, s. 20–21). Kənddə 1886-cı ildə 178, 1897-ci ildə 253, 1908-ci ildə 303, 1914-cü ildə 392 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevral ayında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhali qaçqın düşmüşdür. 1921-ci il Qars müqaviləsi ilə kənd Ağbaba nahiyəsinin tərkibində sovet Ermənistanına daxil edilmişdir. Yalnız bundan sonra əhalinin bir qismi kəndə qayıtmışdır. Hazırda kənddə əsasən Gürcüstanın Axılkələk və Boqdanovka (Ninosminda) rayonlarından köçüb gələn ermənilər məskunlaşmışlar. 1988-ci il noyabr ayının axırlarında azərbaycanlılar yenidən Ermənistan dövləti tərəfindən kənddən qovulmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "gəncəli" (qoncalı) türk etnonimi (92, s. 12) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Zarişat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 77).

Coğrafi koordinatları: 41°00′ şm. e., 43°39′ ş. u.

**Qorçulu** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda, indi Kotayk vilayətində kənd. Misxana (Mərmərik) çayının sağ axarında, Zəngi çayının bir qolu olan Böyükçayın sağ və sol sahilində, dəniz səviyyəsindən 1800 m hündürlükdə yerləşir. Kənddə 1831-ci ildə 82, 1873-cü ildə 170, 1886-cı ildə 257, 1897-ci ildə 279, 1908-ci ildə 300, 1914-cü ildə 440, 1916-cı ildə 342 nəfər azərbaycanlı yaşamışdır (415, s. 16–17, 102–103). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalaraq kütləvi qırğınlar nəticəsində kənddən deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar doğma torpaqlarına dönə bilmişlər. 1918–1920-ci illərdə kənddə ermənilər yerləşdirilmişdir. Burada 1922-ci ildə 142, 1926-cı ildə 148, 1931-ci ildə 195 (415, s. 17, 103), 1987-ci ildə 250 nəfərə yaxın azərbaycanlı yaşamışdır. 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Səfəvilər dövründə yaranan şah qvardiyasını bildirən "qorçu" sözü ilə (ASE, III c., s. 215) mənsubluq anlamında "-lu" şəkilçisinin birləşməsindən əmələ gəlmişdir. "Qorçulara mənsub, qorçuların yaşadığı kənd" mənasını ifadə edir. "Qorçulu" həmçinin sonradan nəsil mənasını kəsb etmişdir. Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qanunu ilə kəndin adı dəyişdirilərək "Qorqoç" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 62).

Coğrafi koordinatları: 40°36′ şm. e., 44°37′ ş. u.

**Qoş** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 18 km cənub-şərqdə yerləşir. 1590-cı il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 162), Qafqazın 5 verstlik xəritəsində (348, s. 144) qeyd edilmişdir. Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. 1858–1870-ci illərdə Türkiyədən köçürülən ermənilər kəndə yerləşdirilmişdir. Kənddə ermənilərdən başqa, 1831-ci ildə 62, 1873-cü ildə 211, 1886-cı ildə 566, 1897-ci ildə 323, 1908-ci ildə 427 nəfər azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalaraq kəndi tərk etmişlər. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar doğma evlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 10, 1926-cı ildə 9 nəfər azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107). Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim qədim türk dilində "düşərgə, çobanların müvəqqəti yaşayış yeri, çadır" mənasında işlənən "qoş" sözü (359, II (1), s. 636; 339, s. 298–299) əsasında əmələ gəlmişdir. Hazırda erməni dilində olan rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Koş" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 113).

Coğrafi koordinatları: 40°18′ şm. e., 44°09′ ş. u.

**Qoş** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhərinin tabeliyində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 30 km cənub-qərbdə, Dilican şəhərindən 10 km şərqdə, dəniz səviyyəsindən 1080 m hündürlükdə yerləşir. İndi Tavuş vilayətinin tabeliyindədir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim türk dilində "düşərgə, çobanların müvəqqəti yaşayış yeri" mənasında işlənən "qoş" sözündən (359, II (1), s. 636; 339, s. 298–299) yaranmışdır. Hazırda erməni dilində olan rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Ğoş" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 62).

Coğrafi koordinatları: 40°43′ şm. e., 45°00′ ş. u.

**Qoşabulaq** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 82 km şimal-şərqdə, Məzrə çayının yanında, dəniz səviyyəsindən 2025 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 143). Kəndin ərazisində azərbaycanlılarla bağlı XV–XVI əsrlərə aid tarixi abidələr, qəbiristanlıqlar mövcuddur. Kənddə 1831-ci ildə 117, 1873-cü ildə 316, 1886-cı ildə 419, 1897-ci ildə 456, 1908-ci ildə 596, 1914-cü ildə 672, 1916-cı ildə 553 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1919-cu il aprelin 13–20-də azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qırğınlar nəticəsində öz doğma kəndlərindən qovulmuşdur (309, s. 305). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra onlar yaşayış yerlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 337, 1926-cı ildə 291, 1931-ci ildə 383 (415, s. 26–27, 112–113), 1939-cu ildə 629, 1959-cu ildə 638, 1979-cu ildə 1440 (416, s. 156), 1987-ci ildə 1800 nəfər (85, s. 283) azərbaycanlı yaşamışdır. 1988-ci il noyabr ayının axırlarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində "cüt, tək olmayan" mənasında işlənən "qoşa" sözü ilə "bulaq" sözünün birləşməsindən yaranmışdır. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Şadcrek" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 156).

Coğrafi koordinatları: 40°09′ şm. e., 45°48′ ş. u.

**Qoşavəng** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 37 km cənub-qərbdə, dəniz səviyyəsindən 1450 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 143). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Ermənilər kəndə 1829–1830-cu illərdə Türkiyənin Muş, Ərzurum və Malazgirt vilayətlərindən köçürülüb yerləşdirilmişdir (416, s. 117). Toponim Azərbaycan dilində "cüt, yanaşı" mənasını bildirən "qoşa" və "qala, istehkam, yaşayış yeri, kilsə" mənasını bildirən "vəng" söz-



*Qoşavəng kəndi*

lərinin birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1950-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Haykadzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 117).

Coğrafi koordinatları: 40°31′ şm. e., 43°39′ ş. u.

**Qoturbulaq** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Cəlaloğlu (Stepanavan) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 31 km qərbdə, dəniz səviyyəsindən 1720 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim Azərbaycan dilində işlənən "qotur" və "bulaq" sözlərindən əmələ gəlmişdir. Müalicəvi əhəmiyyətli bulağın yaxınlığında (həmin bulağın suyundan, əsasən, qoturluq xəstəliyində istifadə olunurmuş) salındığı üçün kənd "Qoturbulaq" adlandırılmışdır. Hidrotoponimdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Katnaxbuyr" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 104–105).

Coğrafi koordinatları: 41°02′ şm. e., 44°13′ ş. u.

**Qoturbulaq** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 79 km şimal-şərqdə, dəniz səviyyəsindən 1740 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Müalicəvi əhəmiyyətli bulağın yaxınlığında salındığı üçün kənd "Qoturbulaq" adlandırılmışdır. Xəstə olanlar həmin sudan istifadə edirmişlər. Hidrotoponimdir. Sonradan kəndin adı dəyişdirilərək "Ttucur" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 82).

Coğrafi koordinatları: 40°42′ şm. e., 45°18′ ş. u.

**Qovşud** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Kəndin başqa adları "Qovşuq", "Qovşutlu" olmuşdur (415, s. 56). Gığı və Oxçu çaylarının qovuşduğu Zeyvə qalasının yaxınlığında, dəniz səviyyəsindən 1525 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə 1897-ci ildə 163, 1914-cü ildə 320 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57,

134–135). 1918-ci ildə kənd sakinləri erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kəndi tərk etmişlər. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar doğma evlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 108, 1926-cı ildə 109, 1931-ci ildə 123 (415, s. 57, 135), 1939-cu ildə 208, 1987-ci ildə 200 nəfər (85, s. 140) azərbaycanlı yaşamışdır. 1988-ci ildə kənd sakinləri Ermənistan dövləti tərəfindən deportasiya edilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "qovşud" etnonimi (231, s. 71–72) əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Kavçut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 108).

Coğrafi koordinatları: 39°12' şm. e., 46°14' ş. u.

**Qovuşuq** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Keşişkənd (Yeğeqnadzor) yaşayış məntəqəsindən 10 km şimal-şərqdə, Ələyəz çayının sahilində yerləşir. Qafqazın 5 verstlik xəritəsində "Qovşuq" (348, s. 138), erməni müəlliflərinin əsərlərində "Qavuşuq", "Kavuşuq" formasında (415, s. 92) qeyd edilmişdir. Tarixi mənbələrdə X əsrdən adı çəkilir və XVII əsrdə yenidən bərpa edilmişdir (422, s. 64). Kənddə 1831-ci ildə 96, 1873-cü ildə 158, 1886-cı ildə 190, 1897-ci ildə 232, 1904-cü ildə 172, 1914-cü ildə 190, 1916-cı ildə 376 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və əhali deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 138, 1926-cı ildə 260, 1931-ci ildə 325 (415, s. 93, 161), 1987-ci ildə 800 nəfər (85, s. 356–357) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci il noyabr ayının axırlarında Qovuşuq kəndinin sakinləri Ermənistan dövləti tərəfindən zorla ata-baba torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim qıpçaq türk tayfasından olan "qov" etnoniminə (287, s. 55) "-uş" və "-uq" şəkilçilərinin artırılması ilə düzəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Hermon" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 121).

Coğrafi koordinatları: 39°52′ şm. e., 45°25′ ş. u.

**Qoytur (Qoytul)** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 4 km qərbdə, Arpaçayın sağ qolu olan Qoytul çayının yaxınlığında, dəniz səviyyəsindən 1170 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 58), Qafqazın 5 verstlik xəritəsində (348, s. 138) qeyd edilmişdir. Erməni müəlliflərinin əsərlərində kəndin adı "Qoytul", "Kotur" formalarında da göstərilir (415, s. 92). 1828–1830-cu illərdə İrandan köçürülən ermənilər kəndə yerləşdirilmişdir (386, s. 615–618). Kənddə ermənilərlə yanaşı, 1897-ci ildə 36 nəfər, 1926-cı ildə 8 nəfər azərbaycanlı yaşamışdır (415, s. 92–93). 1928–1930-cu illərdə azərbaycanlılar kənddən qovulmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim qədim türk dilində "dərənin dibi" mənasında işlənən "koy" (qoy) sözü ilə (399, s. 142) "möhkəmləndirilmiş yaşayış yeri, qala" (299, s. 587), "çəpərlənmiş təpə" (359, III (1), s. 1466) mənasında işlənən "tur" sözünün birləşməsindən əmələ gəlmişdir. Tarixi və coğrafi ədəbiyyatda "tur/tura" sözü "dur" formasında "dərə", "aşırım", "dağ keçidi" mənalarında (339, s. 194) işlənmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Getap" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 58).

Coğrafi koordinatları: 39°45′ şm. e., 45°18′ ş. u.

**Qrampa** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 21 km şimal-şərqdə, Kasax çayının sağ sahilində, dəniz səviyyəsindən 880 m hündürlükdə yerləşir. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Kəranpa kəndi" kimi qeyd edilmişdir (143, s. 162). Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra – 1828–1830-cu illərdə Türkiyədən köçürülən ermənilər kənddə yerləşdirilmişdir (386, s. 583–586). Burada 1831-ci ildə 90 nəfər azərbaycanlı, 25 erməni, 1873-cü ildə 120 nəfər azərbaycanlı, 273 erməni, 1886-cı ildə 112 nəfər azərbaycanlı, 337 erməni, 1897-ci ildə 129 nəfər azərbaycanlı, 401 erməni yaşamışdır (415, s. 80–81, 150–152). 1918-ci ilin fevralında kənddə yaşayan azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 14 nəfər azərbaycanlı yaşamışdır (145, s. 80–81). 1923–1924-cü illərdə onlar yenidən ata-baba yurdlarından qovulmuşlar. Hazırda burada yalnız ermənilər yaşayır. Toponim oğuzların uluyörük tayfasından olan "kərampa" etnonimi (238, s. 186) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Tsiatsan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 102).

Coğrafi koordinatları: 40°11′ şm. e., 44°16′ ş. u.

**Qulalı** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 75 km cənub-şərqdə, dəniz səviyyəsindən 910 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 147) qeyd edilmişdir. Kənddə ermənilərlə yanaşı, 1926-cı ildə 5 nəfər azərbaycanlı yaşamışdır (415, s. 72–73). 1930-cu ildə azərbaycanlılar ermənilər tərəfindən sıxışdırılaraq kənddən çıxarılmışdır. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim qıpçaq türk tayfasından olan "qul" etnonimi ilə (273, s. 235; 286, s. 50) "Alı" şəxs adından əmələ gəlib, "qul tayfasından olan Alının kəndi" mənasını verir. Erm. SSR AS RH-nin 4 may 1939-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Haykedzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 18).

Coğrafi koordinatları: 40°49′ şm. e., 45°32′ ş. u.

**Quldərviş** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 57 km şimal-qərbdə, Alagöz dağının cənub-şərq ətəyində, dəniz səviyyəsindən 2050 m hündürlükdə yerləşir. Kənddə 1873-cü ildə 190, 1886-cı ildə 243, 1897-ci ildə 261, 1904-cü ildə 327, 1914-cü ildə 346, 1916-cı ildə 368 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 36–37, 118–119). 1918-ci ilin yanvar-fevral aylarında kənd erməni silahlı dəstələrinin təcavüzünə məruz qalmış, azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş və Türkiyədən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim qıpçaq tayfasından olan "qul" etnonimi ilə (273, s. 235) "dərviş" sözünün birləşməsindən əmələ gəlmişdir. Etnotoponimdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vosketas" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 161).

Coğrafi koordinatları: 40°27′ şm. e., 43°57′ ş. u.

**Quləli** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunda,

Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 2 km cənub-şərqdə, Quləli dağının ətəyində, dəniz səviyyəsindən 1975 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 147). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Kəndə 1828–1830-cu illərdə Türkiyənin Bəyazid bölgəsindən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir (386, s. 595–598). Burada 1897-ci ildə 27 nəfər azərbaycanlı yaşamışdır (415, s. 70–71). 1905–1906-cı illərdə kənddə yaşayan azərbaycanlılar erməni silahlıları tərəfindən tamamilə qovulmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim qıpçaq türk tayfasından olan "qul" etnoniminin (273, s. 235) "Əli" şəxs adına birləşməsindən yaranıb və "qul tayfasından olan Əliyə məxsus kənd" anlamını ifadə edir. Erm. SSR AS RH-nin 1 iyun 1940-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Karmirgyuğ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 110).

Coğrafi koordinatları: 40°27′ şm. e., 43°57′ ş. u.

**Qulucan** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 22 km cənub-şərqdə, dəniz səviyyəsindən 1825 m hündürlükdə yerləşir. Urartu yazısında "Kuliaini" formasında göstərilib (269, s. 116). Qafqazın 5 verstlik xəritəsində (348, s. 147) qeyd edilmişdir. Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 22 nəfər, 1873-cü ildə 16 nəfər azərbaycanlı yaşamışdır (415, s. 110–111). 1878-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qırğınlara məruz qoyularaq deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim VI–VII əsrlərə aid Çin mənbələrində göstərilən "quliqan" etnonimi (286, s. 38) əsasında yaranmışdır. Azərbaycan dilində "q-c" (qan~can) səs əvəzlənməsi qanunauyğun haldır. "Azərbaycan" toponimində də "q-c" səsdəyişməsi (Adərbadqan–Adirbadqan–Adərbayqan–Azərbaycan) özünü göstərmişdir (235, s. 15–20; 23, s. 189). Erm. SSR AS RH-nin 31 may 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Spandaryan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 182).

Coğrafi koordinatları: 40°39′ şm. e., 44°01′ ş. u.

**Qulucan** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Araz və Zəngi çaylarının kəsişdiyi yerdə yerləşmişdir. Kənddə yalnız azərbaycanlılar yaşamışlar. 1894-cü ildə 75, 1905-ci ildə 63, 1914-cü ildə 81 nəfər azərbaycanlı yaşamışdır. 1917–1918-ci illərdə erməni təcavüzünə məruz qalan kəndin əhalisi qonşu azərbaycanlı kəndlərinin əhalisi ilə birgə Arazın o tayına – Türkiyəyə mühacirət etmiş, bölgədə sovet hakimiyyəti qurulduqdan sonra doğma kəndlərinə dönmüşlər. 1922-ci ildə geri dönənlərin sayı 67 nəfər olmuş, 1931-ci ildə kənd əhalisinin sayı 59 nəfərə qədər azalmışdır. Kənd Seyidkənd sovetliyinə tabe olmuşdur. 1950-ci ildə növbəti dəfə soyqırımına məruz qalmış kənd əhalisi bütünlüklə Azərbaycana deportasiya olunmuş, kənd isə ləğv edilərək ərazisi Həbilkənd kəndi bazasında yeni yaradılmış Kalinin sovxoz-qəsəbəsinə verilmişdir. Bir neçə il sonra geri dönmüş qulucanlılar doğma kəndlərində yaşasalar da, rəsmi sənədlərdə Kalinin qəsəbəsinin sakinləri hesab olunmuşlar. Toponim şəxs adı əsasında formalaşmışdır. Zəngibasarlıların müqəddəs ziyarətgahı olan Ağadədə piri Qulucan kəndinin yanında yerləşirdi.

Coğrafi koordinatları: 40°01′ şm. e., 44°25′ ş. u.

**Qundaxsaz** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Araqats (Alagöz) rayonunda, indi Araqatsotn vilayətində kənd. Rayon mərkəzindən 11 km məsafədə, Abaran çayının sahilində, dəniz səviyyəsindən 2050 m hündürlükdə yerləşir. 15 mart 1972-ci ilədək – Araqats (Alagöz) rayonu təşkil edilənədək Abaran

rayonunun tərkibində olmuşdur. 1877–1878-ci illər rus-türk müharibəsindən sonra Türkiyədən köçürülüb gətirilən yezidi kürdlər kənddə məskunlaşdırılmışdır. Bundan sonra azərbaycanlılar kəndi tədricən tərk etmişlər. Erməni müəlliflərinin əsərlərində "Qondaksaz" (415, s. 4), "Qondaxsaz" (419, s. 28) formalarında, Qafqazın 5 verstlik xəritəsində "Kondaxsaz" kimi (348, s. 140) qeyd edilmişdir. Toponim türk dilində "silah qundağı" mənasında işlənən "kundak" sözü ilə (277, II, s. 95; 359, II (1), s. 544) türk dilində "bataqlıq, torpaq (qrunt) suların çıxdığı yerin bataqlaşmış sahəsi, gil" mənalarında işlənən "saz" sözünün (359, IV (1), s. 397; 339, s. 491) birləşməsindən yaranmışdır. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Rya Taza" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 73).

Coğrafi koordinatları: 40°39′ şm. e., 44°18′ ş. u.

**Qurdqala** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayətində kənd. Kalinino yaşayış məntəqəsindən 11 km məsafədə yerləşir. Əvvəllər keçmiş Cəlaloğlu (Stepanavan) rayonunun tərkibində olmuşdur. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, XIX əsrin əvvəllərində rus ordusu hərbi hissəsinin ailəli zabitlərinin kənddə yerləşdirilməsindən sonra yerli əhali tədricən kəndi tərk etmişdir. Toponim türk mənşəli "qurd" etnoniminə (286, s. 61) "qala" sözünün birləşməsindən əmələ gəlib, "qurd tayfasına mənsub qala yanında salınan kənd" mənasını bildirir. Kəndin adı XIX əsrin 60-cı illərində dəyişdirilərək "Petrovka" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 166–167).

Coğrafi koordinatları: 41°09′ şm. e., 44°19′ ş. u.

**Qurdqalaq** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayətində kənd. Gorus şəhərindən 26 km cənub-şərqdə, Gorus–Qafan avtomobil yolunun sağ tərəfində yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə 1897-ci ildə 30, 1904-cü ildə 54, 1914-cü ildə 44 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 28–29, 144–145). 1918-ci ildə kənd sakinləri erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kəndi tərk etmişlər. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılar 1922-ci ildən sonra tarixi-etnik torpaqlarına dönmüşlər. Kənddə 1926-cı ildə 37, 1931-ci ildə 49 (415, s. 29, 145), 1979-cu ildə 248 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının axırlarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tamamilə deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "qurd" türk etnonimi ilə (286, s. 61) türk dilində "dərə, çuxur, çökəklik" mənasında işlənən "kulak" (qulaq) sözü (339, s. 310–311) əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Ğurdqullaq", Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə təkrar dəyişdirilərək "Vanand" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 187).

Coğrafi koordinatları: 39°20′ şm. e., 46°26′ ş. u.

**Qurdlubulaq** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayətində kənd. Kəndin digər adı "Qurdbulaq"dır (415, s. 20). Vilayət mərkəzi Gümrü şəhərindən 34 km şimalda, dəniz səviyyəsindən 1995 m hündürlükdə yerləşir. Kənddə 1880-ci ilə qədər azərbaycanlılar yaşamışlar. 1879–1880-ci illərdə Türkiyədən köçürülüb gətirilən ermənilər kəndə yerləşdirilmişdir. Toponim mənsubluq bildirən "-lu" şəkilçisi qəbul etmiş "yumşaq bədənli, uzunsov, ayaqsız, sürünərək hərəkət edən heyvan" mənasında iş-

lənən "qurd" sözü ilə "bulaq" sözünün birləşməsindən əmələ gəlib, "Qurdlu bulaq yanında salınan kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 12 yanvar 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Krasar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 114).

Coğrafi koordinatları: 41°01′ şm. e., 43°49′ ş. u.

**Qurduqulu** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 9 km cənubda, Alagöz dağının ətəyində, rayon mərkəzindən 6–8 km cənubda, dəniz səviyyəsindən 855 m hündürlükdə yerləşir. Əvvəllər Qurduqulu rayonunun, sonra Hoktemberyan rayonunun, hazırda Arnavir vilayətinin mərkəzidir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra yerli əhali tədricən kəndi tərk etmişdir. Toponim "qurd" türk etnonimi ilə (286, s. 61) "Qulu" şəxs adı əsasında əmələ gəlib, "qurd tayfasından olan Qulunun saldığı, inşa etdiyi kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Armavir" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 36).

Coğrafi koordinatları: 40°05′ şm. e., 44°02′ ş. u.

**Qursalı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 15 km şimal-qərbdə, Pəmbək çayının yaxınlığında, Kəmərli dağının ətəyində, dəniz səviyyəsindən 1580 m hündürlükdə yerləşir. Hamamlı (Spitak) rayonu yaradılana kimi (1937-ci ilə kimi) Quqark (Qarakilsə) rayonunun tərkibində olmuşdur. Kənddə 1831-ci ildə 73, 1873-cü ildə 445, 1886-cı ildə 545, 1897-ci ildə 713, 1904-cü ildə 824, 1914-cü ildə 999, 1916-cı ildə 877 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 52–53, 132–133). 1918-ci ildə kənd sakinləri erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kəndi tərk etmişlər. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılar ata-baba yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 839, 1926-cı ildə 954, 1931-ci ildə 1033 (415, s. 52–53, 132–133), 1939-cu ildə 1215, 1959-cu ildə 1271, 1970-ci ildə 1998, 1978-ci ildə 2002 (416, s. 129), 1987-ci ildə 2700 nəfər (25, s. 167) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci il noyabr ayının axırlarında azərbaycanlılar Ermənistan hökuməti tərəfindən tarixi-etnik torpaqlarından qırğınlar nəticəsində deportasiya edilmişlər. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim kəngər türk tayfasından olan "xurs" etnonimi ilə (168, s. 101–104) "Alı" şəxs adı əsasında yaranmışdır. "Xurs (qurs) tayfasından olan Alıya məxsus kənd" mənasını ifadə edir. Hazırda kənd "Arcahovit" adlanır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 129).

Coğrafi koordinatları: 40°49′ şm. e., 44°20′ ş. u.

**Quru Araz** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 14 km cənub-şərqdə, dəniz səviyyəsindən 840 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra yerli əhali tədricən kəndi tərk etmişdir. Toponim Azərbaycan dilində işlənən "quru" sözü ilə Araz çayının adı əsasında əmələ gəlmişdir. Hidrotoponimdir. Erm. SSR AS RH-nin 19 aprel 1950-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Yerasxaun" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 74).

Coğrafi koordinatları: 40°04′ şm. e., 44°12′ ş. u.

**Quruboğaz** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Araqats (Alagöz) rayonunda, indi Araqatsotn vilayətində kənd. Araqats (Alagöz) yaşayış məntəqəsindən 15 km məsafədə, dəniz səviyyəsindən 2100 m hündürlükdə yerləşir. 1972-ci ilə kimi Abaran rayonunun tərkibində olmuş, 1972-ci ildə Araqats rayonu yaradıldıqdan sonra Abaran rayonunun inzibati-ərazi bölgüsündən çıxarılıb, Araqats rayonunun inzibati-ərazi bölgüsünə daxil edilmişdir. 1877–1878-ci illər rus-türk müharibəsindən sonra Türkiyədən köçürülüb gətirilən yezidi kürdlər kənddə məskunlaşdırılmışdır. Bundan sonra azərbaycanlılar kəndi tədricən tərk etmişlər. Toponim türk dilində "bitkisiz, çılpaq, yaşıllıqsız" (9, s. 582), "quru, daşlı düzənlik" (339, s. 320) mənasında işlənən "quru" sözü ilə Azərbaycan dilində "dərələrin, çayların baş tərəfi, çay ağzı", "iki dağ arasındakı dar keçid" mənasında işlənən "boğaz" sözünün (9, s. 295; 253, s. 99; 339, s. 86–87) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Ortaçya", Ermənistan parlamentinin 4 iyul 2006-cı il qərarı ilə təkrar dəyişdirilərək "Micnatun" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 139).

Coğrafi koordinatları: 40°41′ şm. e., 44°21′ ş. u.

**Qurumsulu** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 48 km şimalda, dəniz səviyyəsindən 720 m hündürlükdə yerləşir. Kənd Azərbaycanın Qazax rayonundakı Qaymaqlı kəndi ilə həmsərhəddir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim türk dilində "yamacda və yaylanın yastı zirvəsində daş qırıqları, qaya parçası" mənasında işlənən "qurum" sözü ilə (339, s. 320) "-lu" şəkilçisi qəbul etmiş "su" sözünün birləşməsindən əmələ gəlmişdir. "Qurum" sözü qədim türk dilində "qaya parçası" mənasında "qorum" (qorum) formasında işlənmişdir (299, s. 46). Kəndin adı ilə relyefi uyğun gəlir. Belə ki kənd daşlı, çınqıllı, dağlı ərazidə yerləşir. Kəndin adı dəyişdirilərək "Bareqamavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 44).

Coğrafi koordinatları: 41°10′ şm. e., 45°06′ ş. u.

**Quşçu** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, Vayotsdzor vilayətində kənd. Cermuk şəhərindən 3 km cənubda, Arpaçayın sol sahilində, dəniz səviyyəsindən 1970 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Quşçu xarabası" kimi (143, s. 60), Qafqazın 5 verstlik xəritəsində "Quşi" formasında (348, s. 152) qeyd edilmişdir. Kənddə 1897-ci ildə 631 nəfər, 1926-cı ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, s. 90–91). 1905–1906-cı illərdə azərbaycanlılar kənddən kütləvi surətdə deportasiya olunmuşdur. Toponim qədim "quşçu" türk etnonimi (245, s. 39) əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Keçud" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 112).

Coğrafi koordinatları: 39°47′ şm. e., 45°39′ ş. u.

**Quzugüdən** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 10 km cənub-şərqdə, Araz çayının yaxınlığında, dəniz səviyyəsindən 950 m hündürlükdə yerləşir. Kəndin ilkin, qədim adı "Quzukutan" olmuşdur (427, s. 228). 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə kəndin adı "Quzugüdənli" formasında qeyd edilir və göstərilir ki, "kəndin əhalisi mürsəlli camaatındandır" (143, s. 70). Erməni müəlliflərinin əsərlərində kəndin adı "Ğuzigeden", "Ğuzigedan", "Kuzikutan" formalarında (427, s. 228), Qafqa-

zın 5 verstlik xəritəsində "Kuzikuden" formasında (348, s. 146) qeyd edilmişdir. Kənddə tarixən azərbaycanlılar yaşamışdır. 1828-ci il Türkmənçay müqaviləsindən sonra azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuş və 1828–1830-cu illərdə Türkiyənin Ələşkirt, Sürməli və Muş vilayətlərindən köçürülən ermənilər kənddə yerləşdirilmişdir (427, s. 228). Toponim əfşar türk tayfasından olan "quzugüdənli" etnonimi (238, s. 275) əsasında yaranmışdır. Etnotoponimdir. Erm. SSR AS RH-nin 19 aprel 1950-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Ayqeşad" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 18–19).

Coğrafi koordinatları: 40°04′ şm. e., 44°04′ ş. u.

**Quzukənd** – Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, keçmiş Amasiya rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 37 km şimal-qərbdə, Arpagölünün şimal-qərbində, dəniz səviyyəsindən 2050 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində adı "Kuzikənd", "Xozikənd", "Xozulu" formalarında qeyd edilir (415, s. 20). Erməni müəlliflərinin əsərlərində kəndin sakinləri azərbaycanlıların etnik qruplarından olan qarapapaqlar kimi göstərilir (415, s. 20). Kənddə 1886-cı ildə 222, 1897-ci ildə 382, 1908-ci ildə 379, 1914-cü ildə 455 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevral ayında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhali qaçqın düşmüşdür. 1921-ci il Qars müqaviləsi ilə kənd Ağbaba nahiyəsinin tərkibində sovet Ermənistanına daxil edilmişdir. Bundan sonra kənd əhalisinin bir qismi geri qayıtmışdır. Kənddə 1922-ci ildə 439, 1926-cı ildə 463, 1931-ci ildə 497 (415, s. 20–21, 104–105), 1939-cu ildə 577, 1959-cu ildə 546, 1970-ci ildə 856, 1979-cu ildə 996 (416, s. 51), 1987-ci ildə 984 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında, 1989-cu ilin yanvarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə əsasən Gürcüstanın Axılkələk və Boqdanovka (Ninosminda) rayonlarından köçüb gələn ermənilər məskunlaşmışlar. Toponim "quz" (Oğuz etnoniminin ərəb dilində işlənən formasıdır. (359, II (2), s. 1631; 238, s. 50) türk etnoniminə türk dilində "yaşayış məntəqəsi, şəhər" mənasında işlənən "kənd" sözünün birləşməsi əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 8 avqust 1991-ci il tarixli qərarı ilə kənd "Qarnariç" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 51).

Coğrafi koordinatları: 41°04′ şm. e., 43°36′ ş. u.

# L

**Lehvaz** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Mığrı (Meğri) rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 61 km cənub-qərbdə, Mığrı (Meğri) çayının sol sahilində, dəniz səviyyəsindən 930 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd olunmuşdur (348, s. 158). Mığrı (Meğri) rayonunda Lehvaz adlanan iki kənd olmuşdur: Birinci Lehvaz, İkinci Lehvaz (415, s. 68). Sonralar bu kəndlər "Lehvaz" adında birləşdirilmişdir. Kənddə 1831-ci ildə 15, 1873-cü ildə 172, 1886-cı ildə 375, 1897-ci ildə 346, 1904-cü ildə 525, 1914-cü ildə 836 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 68–69, 142–143). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış, qırğınlar nəticəsində sakinləri deportasiya olunmuşdur (309, s. 206). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra

kəndi tərk edən azərbaycanlılar tarixi-etnik torpaqlarına qayıda bilmişlər. Burada 1922-ci ildə 189, 1926-cı ildə 145, 1931-ci ildə 171 (415, s. 68–69, 142–143), 1987-ci ildə 1002 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında kənddə yaşayan azərbaycanlılar Ermənistan



*Lehvaz kəndində qədim sərdaba qalıqları*

dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Hazırda burada ermənilər yaşayır. Toponim Strabonun "Coğrafiya" əsərində göstərilən skif tayfalarından olan "leh" etnonimi ilə (24, s. 18) türk dilində "sıldırım qaya, şiş qaya ətəyindəki dar dərədə axan çay yanında dağ" mənasında işlənən "bayz/bays" (vaz) sözündən (339, s. 65) əmələ gəlmişdir. Bu söz Azərbaycan toponimiyasında "düzən yerdə tirə, təpəcik, hündür yer" mənasında da (253, s. 120) işlənir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 86).

Coğrafi koordinatları: 38°56′ şm. e., 46°12′ ş. u.

**Lələkənd** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 20 km şimal-şərqdə, dəniz səviyyəsindən 750 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim "böyük tərbiyəçi" mənasında işlənən "lələ" sözünə qədim türk dilində "yaşayış məntəqəsi" mənasında işlənən "kənd" sözünün (339, s. 270–271) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vazaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 184).

Coğrafi koordinatları: 40°59′ şm. e., 45°17′ ş. u.

**Ləmbəli** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 73 km şimal-qərbdə, Tona (Debed) çayının sağ tərəfində, dəniz səviyyəsindən 450 m hündürlükdə yerləşir. Kənddə 1831-ci ildə 11, 1886-cı ildə 292, 1897-ci ildə 376, 1908-ci ildə 400, 1914-cü ildə 493 nəfər azərbaycanlı yaşamışdır (415, s. 89, 98–99). 1918-ci ildə erməni silahlı birləşmələrinin təcavüzü nəticəsində azərbaycanlılar tarixi-etnik torpaqlarından qovulmuşlar. Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar geri qayıda bilmişlər. Kənddə 1922-ci ildə 783, 1926-cı ildə 857, 1931-ci ildə 1034 (415, s. 89, 98–99), 1939-cu ildə 1289 (427, s. 535) nəfər azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, 1949-cu ilin yayında əhali zorla deportasiya edilmişdir. Kənddə zeytun sovxozu yaradılmış və xaricdən köçürülüb gətirilən ermənilər Ləmbəlidə yerləşdirilmişdir. Uzun mübarizədən sonra deportasiya edilən ləmbəlilərin əksəriyyəti doğma kəndlərinə qayıtmışdır. 1959-cu ildə burada 1151, 1970-ci ildə 2000 (427, s. 535), 1987-ci ildə 1500-dən çox (85, s. 331) azərbaycanlı yaşamışdır. 1988-ci ildə azərbaycanlılar qovulmuş, kənddə ermənilər yerləşdirilmişdir. Toponim "rütubətli və bürkülü zonalar üçün səciyyəvi olan tikili" mənasında işlənən "ləm" (109, s. 16) və "düzənlik, açıqlıq, açıq yer", "geniş düzənlik" mənasında işlənən "pila/pala" (bəli) sözlərinin (359, IV (2), s. 1 162) birləşməsindən əmələ gəlmişdir.

Erm. SSR AS RH-nin 23 fevral 1972-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Baqrataşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 40–41).

Coğrafi koordinatları: 41°14′ şm. e., 44°49′ ş. u.

**Lök** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri (Mığrı) rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzindən 56 km şimal-şərqdə, Mığrı çayının orta axınının sol sahilində, dəniz səviyyəsindən 1814 metr hündürlükdə yerləşir. Bəzi mənbələrdə Lök kəndinin Aşağı Lök və Yuxarı Lökdən ibarət olduğu qeyd edilir. 1831-ci ildə kənddə 136, 1873-cü ildə 316, 1886-cı ildə 480, 1897-ci ildə 506, 1914-cü ildə 1053 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə Andranikin dəstəsi Aşağı Lök kəndində 100, Yuxarı Lök kəndində 60 evi dağıtmış və 200 nəfəri qətlə yetirmişdir (244 a, s. 229). Bundan sonra Lök kəndi bir neçə il sahibsiz qalmış, xarabalığa çevrilmişdir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra tədricən rayonun azərbaycanlılar yaşayan kəndlərinin əhalisi öz doğma yurdlarına qayıtmağa başlamışdır. 1922-ci ildə Lök kəndinin 1053 nəfər əhalisindən cəmi 177 nəfəri qayıtmışdır. 1926-cı ildə onların sayı 187, 1931-ci ildə 243 nəfərə çatmışdır. 1988-ci ildə kənddə 90 ev var idi. Burada 600 nəfər azərbaycanlı yaşayırdı. 1988-ci ilin noyabrında ermənilər rayonun inzibati orqanlarının zorakılıqla həyata keçirdikləri cəza tədbirləri ilə uşaqlara, qadınlara, qocalara məhəl qoymadan kənd əhalisini bir həftə ərzində qaçmağa məcbur etmişlər. Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 18 iyun 1960-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vartanidzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 189).

Coğrafi koordinatları: 38°58′ şm. e., 46°12′ ş. u.

# M

**Maqauz (Novruzlu)** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 28 km şimal-şərqdə, dəniz səviyyəsindən 1530 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Erməni müəlliflərinin əsərlərində "Moqes" formasında qeyd edilib (415, s. 136). Kəndin başqa adı "Novruzlu" olmuşdur (415, s. 60). Ermənilər Maqauz kəndinə 1828–1830-cu illərdə İranın Qaradağ vilayətindən köçürülmüşdür (416, s. 105). Toponim "muq" (muğ) türk etnoniminin fars dilində forması olan "maq" etnonimi ilə (333, s. 91–92) türk dilində "mənsəb", "dərə", "dağ keçidi" mənasında işlənən "auz" sözünün (339, s. 59) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 29 iyun 1949-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Kaxnut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 105).

Coğrafi koordinatları: 39°16′ şm. e., 46°30′ ş. u.

**Maqda** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 27 km şimal-qərbdə, dəniz səviyyəsindən 1725 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 90), Qafqazın 5 verstlik xəritəsində (348, s. 163) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 38, 1873-cü ildə 195, 1886-cı ildə 226, 1897-ci ildə 296, 1908-ci ildə 268, 1914-cü ildə 284, 1916-cı ildə 399 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107). 1918-ci ildə kəndin azərbay-

canlı əhalisi erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş, kəndə Türkiyənin Muş və Sasun vilayətlərindən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. Toponim "muq" etnoniminin fars dilində forması olan "maq" etnonimi (333, s. 91–92) və "-da" topoformantı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 1 dekabr 1949-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lernarot" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 89).

Coğrafi koordinatları: 40°21′ şm. e., 44°07′ ş. u.

**Mağaracıq** – Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, keçmiş Amasiya rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 23 km şimal-qərbdə, dəniz səviyyəsindən 1860 m hündürlükdə yerləşir. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 163). Erməni müəlliflərinin əsərlərində kəndin sakinlərinin azərbaycanlıların



*Mağaracıq kəndi*

etnoqrafik qruplarından biri olan qarapapaqlar olduğu göstərilir (415, s. 20). Kənddə 1886-cı ildə 309, 1897-ci ildə 375, 1908-ci ildə 480, 1914-cü ildə 539 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevralında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhalinin bir qismi Qars vilayətinə, bir qismi isə İranın Gümrüdəki konsulluğu vasitəsilə həmin ölkənin Urmiya və Səlmas əyalətlərinə köç etmişdir. 1921-ci il Qars müqaviləsindən sonra əhalinin bir qismi kəndə qayıtmışdır. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənd Ağbaba nahiyəsinin tərkibində Aleksandropol qəzasına daxil edilmişdir. Kənddə 1922-ci ildə 304, 1926-cı ildə 430, 1931-ci ildə 490 (415, s. 20–21, 104–105), 1959-cu ildə 557, 1970-ci ildə 983, 1979-cu ildə 925 (416, s. 63), 1987-ci ildə 1109 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin sonu – 1989-cu ilin əvvəllərində azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşlar. Hazırda orada ermənilər yaşayır. Toponim "dağ və qayanın içinə doğru uzanan, yaxud yer altında olan geniş oyuq, zağa, kaha" mənasında işlənən "mağara" sözünə (11, s. 252) kiçiltmə mənası bildirən "-cıq" şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Qtaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 63).

Coğrafi koordinatları: 40°55′ şm. e., 43°43′ ş. u.

**Mahmudcuq** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində kənd. Artik yaşayış məntəqəsindən 7 km məsafədə, dəniz səviyyəsindən 1790 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Mahmudkənd" kimi qeyd edilmişdir (143, s. 124). Ədirnə müqaviləsinə (1829) əsasən, ermənilərin İrəvan xanlığının ərazisinə köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Kənddə Türkiyənin Ələşkert, Ərzurum və Muş vilayətlərindən köçüb gələn ermənilər yerləşmişdir. Toponim "Mahmud" şəxs adına kiçiltmə mənası verən "-cuq" şəkilçisinin qoşulmasından əmələ gəlib və "Kiçik Mahmud kəndi" mənasını bildirir. Erm. SSR AS RH-nin 2 mart 1940-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Pemzaşen" adlandırılmışdır. "Ermənistan Respublikasının in-

zibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 166).

Coğrafi koordinatları: 40°35' şm. e., 43°56' ş. u.

**Mahmudlu** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Pəyhan kəndindən 2 km cənub-şərqdə, Gığı çayının sol sahilində, dəniz səviyyəsindən 1625 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə 1831-ci ildə 42, 1873-cü ildə 301, 1886-cı ildə 416, 1897-ci ildə 134, 1904-cü ildə 596, 1914-cü ildə 263 nəfər azərbaycanlı yaşamışdır (415, s. 58–59, 136–137). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk edən azərbaycanlıların bir qismi geri qayıda bilmişdir. Burada 1922-ci ildə 126, 1926-cı ildə 147, 1931-ci ildə 170 nəfər azərbaycanlı yaşamışdır (415, s. 58–59, 136–137). 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən öz doğma kəndlərindən tamamilə qovulmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Toponim qızılbaş tayfalarının bir qolunu təşkil edən mahmudlu tayfasının adı (91, s. 193) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 1 iyun 1940-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Çaykənd", Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Geğişen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 59).

Coğrafi koordinatları: 39°13' şm. e., 46°07' ş. u.

**Maldaş** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 43 km şimalda, dəniz səviyyəsindən 1850 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Toponim Azərbaycan dilində "iri buynuzlu ev heyvanı, mal-qara, qaramal" mənasında işlənən "mal" sözü ilə (11, s. 256) dilimizdə "dağ, qaya" mənasında işlənən "daş" sözünün (339, s. 173) birləşməsindən əmələ gəlmişdir. Ermənistan Respublikası prezidentinin 12 iyun 1992-ci il tarixli fərmanı ilə kəndin adı dəyişdirilərək "Kaşuni" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 205).

Coğrafi koordinatları: 39°19' şm. e., 46°15' ş. u.

**Maralzəmi** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Mığrı (Meğri) rayonunda, indi Sünik vilayətində kənd. Vartanizor kəndindən 1 km şimalda, Mığrı çayının sol sahilində, dəniz səviyyəsindən 1200 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə 1831-ci ildə 18, 1873-cü ildə 123, 1886-cı ildə 174, 1897-ci ildə 193, 1904-cü ildə 951 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 68–69, 142–143). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış, qırğınlar nəticəsində sakinləri deportasiya olunmuş, kəndə ermənilər yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənddən qovulmuş azərbaycanlılar tarixi-etnik torpaqlarına qayıda bilmişlər. Burada 1922-ci ildə 28, 1926-cı ildə 72, 1931-ci ildə 98 (415, s. 68–69, 142–143), 1939-cu ildə 134, 1959-cu ildə 161, 1970-ci ildə 179, 1979-cu ildə 178 (416, s. 83), 1987-ci ildə 800 nəfər (85, s. 174) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti

tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Toponim "maral" heyvan adı ilə fars dilində "əkin yeri, tarla" mənasında işlənən "zəmi" sözünün birləşməsindən əmələ gəlmişdir. Kəndin adı dəyişdirilərək əvvəlcə "Verin Vardanazor", daha sonra Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə "Txkut" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 83).

Coğrafi koordinatları: 38°59′ şm. e., 46°14′ ş. u.

**Mastara** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 58 km şimal-qərbdə, dəniz səviyyəsindən 1750 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 169) qeyd edilmişdir. Kəndə 1828–1830-cu illərdə Türkiyədən 138 erməni köçürülmüşdür (386, s. 575–578). Burada ermənilərlə yanaşı, 1831-ci ildə 7, 1897-ci ildə 18 nəfər azərbaycanlı yaşamışdır (415, s. 36–37, 118). 1905–1906-cı illərdə azərbaycanlılar erməni silahlıları tərəfindən deportasiya olunmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Toponim türk dilində "meşəsiz dağ", "dağın cənub tərəfi" mənasında işlənən "mes" (mas) sözü ilə (277, II, s. 275; 337, s. 238; 339, s. 369) "dərə" ("tara") sözünün birləşməsindən əmələ gəlmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 132–133).

Coğrafi koordinatları: 40°26′ şm. e., 43°52′ ş. u.

**Meçitli (Məscidli)** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indiki Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 6 km şimal-qərbdə, dəniz səviyyəsindən 840 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 129) qeyd edilmişdir. Erməni müəlliflərinin əsərlərində "Məcitli" formasında göstərilmişdir (415, s. 24). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Ermənilər kəndə 1828–1829-cu illərdə İranın Xoy və Səlmas vilayətlərindən köçürülərək yerləşdirilmişlər (416, s. 149). Toponim islam dinində müsəlmanların Allaha ibadət evi – "məscid" adı əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 1 iyun 1940-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Nor Kyank" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 150).

Coğrafi koordinatları: 40°39′ şm. e., 43°58′ ş. u.

**Mehrablı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 16 km şimal-qərbdə, dəniz səviyyəsindən 900 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmişdir (143, s. 100). Kənddə 1897-ci ildə 14 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49). Əsrin əvvəllərində azərbaycanlılar erməni silahlıları tərəfindən qovulmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim türk mənşəli qaradolaq tayfasından olan mehrablı nəslinin adından (286, s. 69) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 20 avqust 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vardaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 189–190).

Coğrafi koordinatları: 40°02′ şm. e., 44°33′ ş. u.

**Mehribanlı** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 42 km şimal-qərbdə, Alagöz dağının cənub-qərbində, dəniz səviyyəsindən 1720 m hündürlükdə yerləşir. Kəndin adı "Mehriban" kimi rəsmiləşdirilmişdir (415, s. 34; 419, s.133). Kənddə 1831-ci ildə 75, 1873-cü ildə 410, 1886-cı ildə 598, 1897-ci ildə 681, 1908-ci

ildə 493, 1914-cü ildə 523, 1916-cı ildə 748 (415, s. 36–37, 118–119), 1918-ci ilin əvvəllərində 533 nəfər (309, s. 219) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalmış, yerli sakinlər olan azərbaycanlılar tarixi-etnik torpaqlarından qırğınlar nəticəsində deportasiya edilmiş, Türkiyənin Sasun, Xnıs (Hnıs) və Muş vilayətlərindən köçürülüb gətirilən ermənilər kəndə yerləşdirilmişlər (416, s. 104). Hazırda kənddə ermənilər yaşayır. Toponim "mehribanlı" nəsil adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1950-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Katnaxpyur" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 104).

Coğrafi koordinatları: 40°22′ şm. e., 43°56′ ş. u.

**Mədinə** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 42 km cənub-şərqdə, Əyriçayın yanında, dəniz səviyyəsindən 2175 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 164). Kənddə 1873-cü ildə 208, 1886-cı ildə 296, 1897-ci ildə 346, 1908-ci ildə 429, 1914-cü ildə 752, 1916-cı ildə 736 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 66–67, 140–141). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və qırğınlar nəticəsində qovulmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri geri qayıda bilmişlər. Burada 1922-ci ildə 85 nəfər azərbaycanlı yaşamış (415, s. 140–141), 1923–1924-cü illərdə kəndə ermənilər köçürülmüşdür. 1926-cı ildə ermənilərdən başqa, kənddə 61 nəfər azərbaycanlı yaşamışdır (415, s. 140–141). Kəndin yerli sakinləri olan azərbaycanlılar 1930-cu illərdə sıxışdırılaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuş və Türkiyə və İrandan gələn ermənilər kəndə yerləşdirilmişdir. Hazırda burada ermənilər yaşayır. Toponim ərəb dilində "şəhər" mənasında işlənən "mədinə" sözü (104, s. 340; 361, s. 141) əsasında əmələ gəlmişdir. Hazırda erməni dilində olan rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Madina" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 131).



*Mədinə kəndi*

Coğrafi koordinatları: 40°04′ şm. e., 45°15′ ş. u.

**Məlikkənd** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Araqats (Alagöz) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 40 km məsafədə, Abaran çayının qolu üstündə, Dəvədaş və Dəvəboynu dağlarının ətəyində, dəniz səviyyəsindən 2184 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmişdir (143, s. 109). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim "hökmdar, padşah" mənasında işlənən "məlik" sözünə (11, s. 290) "kənd" sözünün qoşulması ilə əmələ gəlib, "hökmdara, məlikə məxsus kənd" mənasını bildirir. Erm. SSR AS RH-nin 15 iyul 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Melikgyuğ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s.135).

Coğrafi koordinatları: 40°40′ şm. e., 44°21′ ş. u.

**Məliklər** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 115 km şimal-qərbdə, dəniz səviyyəsindən 2000 m hündürlükdə yerləşir. Kəndin digər adı "Məlikli", həmçinin "Qalacıq" olmuşdur. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə 1831-ci ildə 22, 1873-cü ildə 112, 1886-cı ildə 209, 1897-ci ildə 230, 1908-ci ildə 318, 1914-cü ildə 249 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən kənddən qovulmuşlar (309, s. 205). 1923-cü ildən sonra kəndə ermənilər yerləşdirilmişdir. Hazırda burada yalnız ermənilər yaşayır. Toponim "məliklər" (məlikli) etnonimindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 4 may 1939-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Spandaryan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s.183).

Coğrafi koordinatları: 39°37′ şm. e., 45°54′ ş. u.

**Məsimli** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 6 km şərqdə, dəniz səviyyəsindən 850 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Məsumlu" formasında (143, s. 49) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 62, 1873-cü ildə 360, 1886-cı ildə 357, 1897-ci ildə 507, 1908-ci ildə 448, 1914-cü ildə 594, 1916-cı ildə 558 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq deportasiya olunmuş, xaricdən köçürülüb gətirilən ermənilər kəndə yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz evlərinə qayıda bilmişlər. Burada 1922-ci ildə 269, 1926-cı ildə 260, 1931-ci ildə 269 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). SSRİ Nazirlər Sovetinin «Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "məsimli" nəsil adı əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 1 dekabr 1949-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Aygepat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 19).

Coğrafi koordinatları: 39°57′ şm. e., 44°36′ ş. u.

**Məzrə** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 57 km şimalda, dəniz səviyyəsindən 1500 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 183), Qafqazın 5 verstlik xəritəsində (348, s. 164) qeyd edilmişdir. 1828-ci ilə kimi burada azərbaycanlılar yaşamışdır. Ermənilər buraya 1828–1829-cu illərdə İranın Xoy və Səlmas vilayətlərindən köçürülmüşlər (427, s. 630; 416, s. 142). Toponim fars dilində "əkin sahəsi" mənasını bildirən "məzrə" sözündən (104, s. 343) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 10 sentyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Barsravan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 45).

Coğrafi koordinatları: 39°31′ şm. e., 45°54′ ş. u.

**Misxana** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mər-

kəzindən 33 km şimal-qərbdə, dəniz səviyyəsindən 2000 m hündürlükdə yerləşir. Kəndin ərazisində mis mədəni mövcud olmuşdur. Burada əvvəlcə azərbaycanlılar yaşamış, sonradan yunanlar da məskunlaşdırılmışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, 1950-ci ildə bu kənddən 14 azərbaycanlı ailə (60 nəfər) Azərbaycana deportasiya edilmişdir (294 a, s. 214). Toponim "mis" və "xana" sözlərinin birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 1 noyabr 1949-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Hankavan" qoyulmuşdur. 1991-ci ildə Ermənistan müstəqillik əldə etdikdən sonra yunanlar kəndi tərk edərək Yunanıstana köçmüşlər. Hazırda kənddə yalnız ermənilər yaşayır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 118–119).

Coğrafi koordinatları: 40°38′ şm. e., 44°28′ ş. u.

**Molla Bədəl** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 11 km cənub-şərqdə, dəniz səviyyəsindən 845 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 176). Kənddə 1873-cü ildə 300, 1886-cı ildə 313, 1897-ci ildə 360, 1904-cü ildə 335, 1914-cü ildə 355, 1916-cı ildə 252 (415, s. 64–65, 138–139), 1918-ci ilin əvvəlində 335 nəfər (309, s. 219) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış, sakinlər tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Kənddə ermənilər və kürdlər yerləşdirilmişdir. Hazırda burada yalnız ermənilər yaşayır. Toponim dini anlayış bildirən "molla" sözü ilə "Bədəl" şəxs adı əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Yexeknut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 72).

Coğrafi koordinatları: 40°05′ şm. e., 44°09′ ş. u.

**Molla Bəyazid** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 4 km cənub-qərbdə, Alagöz dağının cənub ətəyində, dəniz səviyyəsindən 865 m hündürlükdə yerləşir. Ermənilər kəndə 1842-ci ildə Bitlis və Sürməli vilayətlərindən köçürülüb yerləşdirilmiş, azərbaycanlılar isə kənddən tədricən sıxışdırılıb çıxarılmışlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim dini anlayış bildirən "molla" sözü ilə "Bəyazid" oykoniminin birləşməsi əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Bambakaşat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 42).

Coğrafi koordinatları: 40°06′ şm. e., 44°00′ ş. u.

**Molla Dursun** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 28 km şimal-şərqdə, Abaran çayının yanında, dəniz səviyyəsindən 940 m hündürlükdə yerləşir. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 162), Qafqazın 5 verstlik xəritəsində (348, s. 177) qeyd edilmişdir. Burada 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışlar. Türkmənçay müqaviləsindən sonra – 1828–1829-cu illərdə kəndə İranın Səlmas və Türkiyənin Muş vilayətlərindən ermənilər köçürülüb yerləşdirilmişdir (416, s. 154). Kənddə 1831-ci ildə 75 nəfər azərbaycanlı, 45 erməni, 1873-cü ildə 124 nəfər azərbaycanlı, 114 erməni, 1886-cı ildə 134 nəfər azərbaycanlı, 146 erməni, 1897-ci ildə 147 nəfər azərbaycanlı, 150 erməni yaşamışdır (415, s. 82–83, 152–153). 1918-ci

ilin əvvəlində burada 320 nəfər azərbaycanlı yaşamışdır (309, s. 218). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və azərbaycanlılar qırğınlar nəticəsində deportasiya olunmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına dönə bilmişlər. Burada ermənilərlə yanaşı, 1922-ci ildə 14, 1926-cı ildə 14, 1931-ci ildə 18 nəfər azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). 1940-cı illərdə kənddə yaşayan azərbaycanlılar sıxışdırılaraq deportasiya olunmuşlar. Axırıncı azərbaycanlı ailəsi kəndi 1954-cü ildə tərk etmişdir (227, s. 180). Hazırda burada ermənilər yaşayırlar. Kənd Molla Dursun adlı şəxs tərəfindən salındığından onun adı ilə adlandırılmışdır. Kəndin adı 1920-ci ildən sonra dəyişdirilərək "Şaumyan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 154).

Coğrafi koordinatları: 40°12′ şm. e., 44°17′ ş. u.

**Molla Eyyublu (Evli)** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 52 km şimal-qərbdə, dəniz səviyyəsindən 1550 m hündürlükdə yerləşir. 31 dekabr 1937-ci ilə kimi – Kalinino rayonu təşkil edilənə qədər keçmiş Cəlaloğlu (Stepanavan) rayonunun tərkibində olmuşdur. Mənbələrdə kəndin digər adının "Novruz xaraba" olduğu da göstərilir (415, s. 78). Kənddə 1886-cı ildə 58, 1897-ci ildə 241, 1908-ci ildə 100, 1914-cü ildə 127 nəfər azərbaycanlı yaşamışdır (415, s. 78–79, 148–149). 1918-ci ilin martında azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən deportasiya olunmuş, yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra öz kəndlərinə qayıda bilmişlər. Burada 1922-ci ildə 271, 1926-cı ildə 334, 1931-ci ildə 382 (415, s. 78–79, 148–149), 1939-cu ildə 440, 1959-cu ildə 577, 1970-ci ildə 738, 1979-cu ildə 851 nəfər (416, s. 127) azərbaycanlı yaşamışdır. 1988-ci ilin sonu – 1989-cu ilin əvvəllərində kənd sakinləri Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından tamamilə deportasiya edilmişlər. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "eyyublu" etnonimi əsasında əmələ gəlib, "eyyublu tayfasından olan mollaya məxsus kənd" anlamını verir. Etnotoponimdir. Kəndin adı əvvəlcə dəyişdirilərək "Evli" qoyulmuş, sonra Erm. SSR Ali Sovetinin 3 aprel 1991-ci il tarixli qərarı ilə bu ad da dəyişdirilərək kənd "Dzoramut" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, kənd Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 127).

Coğrafi koordinatları: 40°11′ şm. e., 44°17′ ş. u.

**Molla Göyçə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunda, indi Şirak vilayətində şəhər. Vilayət mərkəzi Gümrü şəhərindən 27 km cənubda, Gümrü–İrəvan yolunun 10 km-də, Qaranqu çayının sol sahilində, dəniz səviyyəsindən 1750 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 127), Qafqazın 5 verstlik xəritəsində (348, s. 177) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. 1828–1829-cu illərdə Türkiyənin Qars, Ərzurum, Ələşkert və Muş vilayətlərindən köçürülən ermənilər kənddə yerləşdirilmişlər. Toponim dini məna bildirən "molla" və "göyçə" türk etnoniminin (271, s. 42) birləş-



*Molla Göyçə kəndi*

məsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Maralik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 133).

Coğrafi koordinatları: 40°34′ şm. e., 43°52′ ş. u.

**Mollaqışlaq** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Quqark (Qarakilsə) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 4 km cənub-qərbdə, indiki Vanadzor (keçmiş Kirovakan) şəhərindən 78 km cənub-şərqdə, Pəmbək çayının sahilində yerləşir. Kənddə 1916-cı ildə 167 nəfər azərbaycanlı yaşamışdır (415, s. 132–133). 1918-ci ildə erməni silahlı birləşmələri tərəfindən törədilən qırğınlar nəticəsində azərbaycanlılar kənddən qovulmuşlar. 1920-ci ildə indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. Burada 1922-ci ildə 130, 1926-cı ildə 156, 1931-ci ildə 163 (415, s. 52–53, 132–133), 1939-cu ildə 201 nəfər azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən,1949-cu ildə kənddən 31 ailə – 128 nəfər zorla Azərbaycana deportasiya edilmişdir. Deportasiya edilənlərin bir qismi sonradan doğma kəndlərinə qayıda bilmişdir. Kənddə 1959-cu ildə 118, 1970-ci ildə 188, 1979-cu ildə 190 (427, s. 909; 416, s. 60), 1987-ci ildə 550 nəfər azərbaycanlı yaşamışdır. 2008-ci ildə erməni dilində çap olunmuş "Ermənistanın yaşayış məntəqələrinin lüğəti"ndə kənddə hansı xalqın nümayəndələrinin yaşadığı deyil, yalnız sakinlərin ümumi sayı göstərilib (416, s. 60). Bu da məqsədli şəkildə – kəndin aborigen sakinlərinin azərbaycanlılar olduğunu gizlətmək üçün edilmişdir. 1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan dövləti tərəfindən törədilən qırğınlar nəticəsində azərbaycanlılar son nəfərə kimi tarixi-etnik vətənlərindən qovulmuşlar. Toponim dini məna bildirən "molla" sözü ilə "qış vaxtı heyvanların saxlanıldığı yer, otlaqlı qışlama yeri (9, s. 531), qış yaşayış yeri, kənd əhalisinin daimi yaşayış yeri" (339, s. 276) mənasında işlənən "qışlaq" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Güllüdərə" qoyulmuşdur. Hazırda erməni dilində olan rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Qyulludara" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 60).

Coğrafi koordinatları: 40°44′ şm. e., 44°25′ ş. u.

**Molla Musa** – Qars vilayətinin Şörəyel nahiyəsində, sonradan sovet Ermənistanının keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 5 km cənub-qərbdə, Arpaçayın sağ sahilində, dəniz səviyyəsindən 1500 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tabeliyində olmuşdur. Kənddə 1886-cı ildə 462, 1897-ci ildə 591, 1904-cü ildə 671, 1914-cü ildə 762 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 42–43, 122–123). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq deportasiya olunmuşlar. 1921-ci il Qars müqaviləsinə əsasən, kənd Düzkənd nahiyəsinin tərkibində Aleksandropol qəzasına daxil edilmişdir. Türkiyədən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə qayıda bilmişlər. Burada 1922-ci ildə 16 nəfər azərbaycanlı yaşamışdır (415, s. 122–123). 1923–1924-cü illərdə azərbaycanlılar kənddən çıxarılmışlar. Hazırda burada yalnız ermənilər yaşayır. Toponim "Molla Musa" şəxs adı əsasında formalaşmışdır. Kəndin adı dəyişdirilərək əvvəlcə "Musakan", daha sonra Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə "Voskehask" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü

haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, kənd Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 161).

Coğrafi koordinatları: 40°44′ şm. e., 43°46′ ş. u.

**Muğamlı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Erməni müəlliflərinin əsərlərində kəndin adı "Muğamlı" kimi də göstərilir (415, s. 128). İ.Şopenin əsərində kəndin adı "Boqamli" kimi verilmişdir (386, s. 547). Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 11 km şimal-qərbdə, dəniz səviyyəsindən 825 m hündürlükdə yerləşir. Kənddə 1831-ci ildə 243, 1873-cü ildə 388, 1886-cı ildə 371, 1897-ci ildə 392, 1908-ci ildə 513, 1914-cü ildə 811, 1919-cu ildə 350 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq qırğınlar nəticəsində deportasiya olunmuş (309, s. 222), xaricdən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişlər. Burada 1922-ci ildə 58, 1926-cı ildə 64, 1931-ci ildə 28 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). SSRİ Nazirlər Sovetinin «Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim türk mənşəli "muğanlı" etnonimi (386, s. 535–537) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Erm. SSR AS RH-nin 20 avqust 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Muğam", 25 yanvar 1978-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Hovtaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 123).

Coğrafi koordinatları: 40°01′ şm. e., 44°27′ ş. u.

**Muncuqlu** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Araqats (Alagöz) rayonunda, indi Araqatsotn vilayətində kənd. Araqats (Alagöz) yaşayış məntəqəsindən 17 km məsafədə, Kəmərdağ silsiləsinin ətəyində yerləşir. 1972-ci ilə kimi keçmiş Abaran rayonunun tərkibində olmuşdur. 15 mart 1972-ci ildə keçmiş Araqats (Alagöz) rayonu yaradıldıqdan sonra həmin rayonun inzibati-ərazi bölgüsünə daxil edilmişdir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 111), Qafqazın 5 verstlik xəritəsində (348, s. 179) "Muncuqlu" formasında qeyd edilmişdir (Сборник сведений о Кавказе, т. V, Тифлис, 1879, №1180; 415, s. 4). Ədirnə müqaviləsinə (1829) əsasən, ermənilərin İrəvan xanlığının ərazisinə köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Toponim "muncuqlu" nəsil adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 15 iyul 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Tsilkar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 133).

Coğrafi koordinatları: 40°43′ şm. e., 44°12′ ş. u.

**Murğuz** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində kənd. Sisian şəhərindən 31 km cənubda, Sofulu kəndinin yaxınlığında yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Muxris" (143, s. 183), 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə "Mahrus" (143, s. 150), Qafqazın 5 verstlik xəritəsində "Murqus" (348, s. 179), erməni müəlliflərinin əsərlərində "Murxuz" formasında (415, s. 76) qeyd edilmişdir. Kənddə 1886-cı ildə 138, 1897-ci ildə 60, 1908-ci ildə 170, 1914-cü ildə 190 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin soyqırımına məruz

qalaraq deportasiya edilmişlər. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar öz evlərinə qayıda bilmişlər. Burada 1922-ci ildə 101, 1926-cı ildə 164, 1931-ci ildə 177 (415, s. 76–77, 146–147), 1987-ci ildə 826 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin sonlarında kənd sakinləri Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim türk dilində "təpə" mənasında işlənən "mar" sözünün (287, s. 473) fonetik variantı olan "mur" sözü ilə "ğuz" ("oğuz" etnoniminin ərəb mənbələrində adı) etnonimi (238, s. 48; 89, s. 138) əsasında əmələ gəlmişdir. Hazırda kənd "Cğuni" adlandırılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 198).

Coğrafi koordinatları: 39°21′ şm. e., 45°59′ ş. u.

**Murteyl** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 2 km cənub-qərbdə, dəniz səviyyəsindən 1700 m hündürlükdə yerləşir. Polad kənd sovetliyinə, 1930-cu ilin axırlarına kimi Dilican rayonuna daxil olub. Kənddə 1897-ci ildə 43, 1904-cü ildə 86, 1919-cu ildə 187 nəfər azərbaycanlı yaşamışdır (415, s. 32–33, 116–117). 1919-cu ilin əvvəlində erməni silahlı dəstələri kəndi dağıtmış və azərbaycanlıları deportasiya etmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz kəndlərinə qayıda bilmişlər. Burada 1922-ci ildə 86, 1926-cı ildə 103, 1931-ci ildə 16 (415, s. 32–33, 116–117), 1939-cu ildə 190, 1959-cu ildə 129, 1970-ci ildə 175, 1979-cu ildə 174 (416, s. 55), 1987-ci ildə 85 nəfər azərbaycanlı yaşamışdır. Murteyl kəndində yalnız azərbaycanlıların yaşamasına baxmayaraq, 2008-ci ildə çap olunmuş "Ermənistanın yaşayış məntəqələrinin lüğəti"ndə kənddə yaşayanların etnik tərkibi deyil, ümumi sayı göstərilmişdir (416, s. 55). 1988-ci ilin noyabr ayının 24–28-də kənd sakinləri tamamilə Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Toponim "təklə" türk tayfasına mənsub olan "murtulu" etnonimi (286, s. 91) əsasında əmələ gələn etnotoponimdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Çiçəkbulaq", Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Geğatap" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 55).

Coğrafi koordinatları: 40°41′ şm. e., 45°00′ ş. u.

**Musluqlu** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 35 km cənubda, Arpaçayın yaxınlığında, dəniz səviyyəsindən 1960 m hündürlükdə yerləşir. 1930-cu ildə keçmiş Talın (Talin) rayonunun tərkibində olmuşdur. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. 1829–1830-cu illərdə Türkiyənin Ələşkirt, Ərzurum və Muş vilayətlərindən köçürülüb gətirilən ermənilər Musluqlu kəndinə yerləşdirilmişdir (416, s. 86). Toponim qədim türk dilində "kran, kiçik turba kranı" mənasında işlənən "musluk" sözünə (277, II, s. 264) "-lu" şəkilçisinin qoşulması əsasında yaranmışdır. Relyef əsasında yaranan düzəltmə toponimdir. Erm. SSR AS RH-nin 30 fevral 1947-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lancik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 86).

Coğrafi koordinatları: 40°30′ şm. e., 43°51′ ş. u.

**Mülki** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 29 km şimalda, Abaran ça-

yının sahilində, dəniz səviyyəsindən 1850 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 181). Kəndin digər adı "Mülkünkənd", yaxud "Mülkümkənd" olmuşdur (364, № 321; 415, s. 4). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Ermənilər burada 1829-cu ildə İranın Xoy və Səlmas əyalətlərindən, Türkiyənin Ələşkirt və Muş vilayətlərindən (416, s. 107) köçürülüb yerləşdirilmişlər. Toponim ərəb dilində "dövlətə aid", "qeyri-hərbi, qeyri-əsgəri" mənasında işlənən "mülki" sözündən (104, s. 416) əmələ gəlmişdir. Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Kayk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 107).

Coğrafi koordinatları: 40°35′ şm. e., 44°22′ ş. u.

**Müsəlləm** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Sisiandan 17 km şimal-qərbdə, Oxçu çayının sağ sahilində, dəniz səviyyəsindən 1300 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə 1897-ci ildə 34, 1922-ci ildə 36, 1926-cı ildə 44, 1931-ci ildə 104 (415, s. 60–61, 136–137), 1939-cu ildə 114, 1959-cu ildə 154, 1970-ci ildə 449, 1979-cu ildə 390 nəfər (416, s. 142) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabrında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tamamilə öz yurd-yuvalarından deportasiya olunmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Erməni dilində olan rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Musallam" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s.142).

Coğrafi koordinatları: 39°11′ şm. e., 46°15′ ş. u.

# N

**Nalbənd** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 26 km şimal-şərqdə, Bəykənd çayının yanında, dəniz səviyyəsindən 1650 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 184). 1930-cu illərdə Leninakan rayonunun tabeliyində olmuşdur. Kənddə ermənilərlə yanaşı, 1897-ci ildə 25 nəfər azərbaycanlı yaşamışdır (415, s. 42–43). XX əsrin əvvəllərində – 1905–1906-cı illərdə baş verən erməni–azərbaycanlı münaqişəsi nəticəsində onlar ermənilər tərəfindən sıxışdırılaraq deportasiya olunmuşlar. İndi kənddə yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində peşə mənasında işlənən "nalbənd" (nalçı – heyvanların ayağına nal vuran adam) sözü əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Şirakamut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 159).

Coğrafi koordinatları: 40°51′ şm. e., 44°09′ ş. u.

**Nərədüzü** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 4 km şimal-şərqdə, Kəvər çayının yaxınlığında, dəniz səviyyəsindən 1920 m hündürlükdə yerləşir. Kəndin adı "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 55) qeyd edilmişdir. Kəndin qərbində 1988-ci ilə qədər toxunulmamış qalan qədim məzarlıqdakı kurqanlar – oğuz qəbirləri öz heyrətamiz ölçüləri ilə diqqət çəkir. Yerli əhali – azərbaycanlılar kəndin adını "Nərədüz" kimi tələffüz edirdilər. Erməni ədəbiyyatında bu ad "Nuratus" formasında əksini tapır. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskun-

laşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Kəndə ermənilər 1828-ci ildən sonra Türkiyədən köçürülmüşdür (386, s. 595–598). Toponim türk dillərində "sıldırım qayalıq, dərin dərə, uçurum" mənasında işlənən "nori" sözü ilə (1, s. 79) "düz" sözünün birləşməsindən əmələ gələn orotoponimdir. Hazırda erməni dilində olan rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Noradus" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 153).

Coğrafi koordinatları: 40°22′ şm. e., 45°10′ ş. u.

**Nəzirəvan** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 7 km şimal-qərbdə, Alagöz dağının cənub-qərb ətəyində, dəniz səviyyəsindən 1200 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Nəzərocaq qışlağı" kimi (143, s. 87), Qafqazın 5 verstlik xəritəsində "Nəzravan" formasında (348, s. 183) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 194, 1873-cü ildə 331, 1886-cı ildə 448, 1897-ci ildə 467, 1908-ci ildə 553, 1914-cü ildə 613, 1916-cı ildə 573, 1918-ci ildə 553, 1919-cu ildə 322 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22–23, 108–109). 1919-cu ildə kəndin azərbaycanlı əhalisi erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur (309, s. 221). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri ata-baba yurdlarına qayıda bilmişdir. Burada 1922-ci ildə 94, 1926-cı ildə 114, 1931-ci ildə 152 nəfər azərbaycanlı yaşamışdır (415, s. 22–23, 108–109). Ermənilər kəndə 1923–1925-ci illərdə Türkiyədən köçürülmüşdür. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Hazırda kənddə ermənilər yaşayır. Toponim "Nəzər" şəxs adına urartu dilində olan "yer, ölkə" mənasındakı "ebani" sözündən əmələ gələn "van/avan" topoformantının qoşulması yolu ilə formalaşmışdır. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı yenidən dəyişdirilərək "Kazaravan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 128).

Coğrafi koordinatları: 40°20′ şm. e., 44°20′ ş. u.

**Noraşenik** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 10 km şimal-şərqdə, Xalac çayının sol sahilində, dəniz səviyyəsindən 1080 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 8, 1873-cü ildə 55, 1886-cı ildə 60, 1897-ci ildə 179 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136). 1918-ci ildə azərbaycanlılar erməni silahlılarının təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim türk dilində "sıldırım qayalıq, dərin dərə, uçurum" mənasında işlənən "nori" sözünün (1, s. 79) fonetik forması olan "nora" sözünə türk dilində "kənd, yaşayış yeri, yaşayış məntəqəsi" mənasında işlənən "şenik" (əsli "şenlik"dir) sözünün qoşulması yolu ilə əmələ gəlmişdir. "Şenik" (şenlik) sözü Azərbaycan aşığı "Aşıq Şenlik" şəxs adında özünü qoruyub saxlamışdır. "Noraşenik" relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Hazırda erməni dilində olan rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Noraşenik" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 152).

Coğrafi koordinatları: 39°16′ şm. e., 46°23′ ş. u.

**Novur** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 43 km cənub-qərbdə, dəniz səviyyəsindən 1490 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Kəndin adı mənbələrdə "Navur", "Novçali" (415, s. 74), "Nəvur" (97, s. 182) formalarında qeyd edilir. Toponim Azərbaycan dilində "gölməçə" mənasında işlənən "nohur" sözü əsasında əmələ gəlmişdir. Hazırda erməni dilində olan rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Navur" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 143).

Coğrafi koordinatları: 40°51′ şm. e., 45°19′ ş. u.

**Nurnus** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 20 km şimal-qərbdə, dəniz səviyyəsindən 1450 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 191). Kəndin adı erməni müəlliflərinin əsərlərində "Nornus" formasında da qeyd edilib (415, s. 46). Kənddə 1873-cü ildə 372, 1886-cı ildə 416, 1897-ci ildə 550, 1904-cü ildə 457, 1914-cü ildə 512, 1916-cı ildə 642 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş və Türkiyədən köçürülən ermənilər kənddə yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar ata-baba yurdlarına qayıda bilmişlər. Burada ermənilərdən başqa, 1922-ci ildə 52, 1926-cı ildə 61, 1931-ci ildə 96 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim qədim türk dillərində "göl" mənasında işlənən "nur/nor" sözündən (339, s. 397; 2, 308) və ərəb dilində "ucu şiş minarəli tikinti" mənasında işlənən "naus" (nus) sözündən əmələ gəlib, "göl, arx kənarında tikinti" mənasını bildirir. Toponimin tərkibindəki "nur/nor" sözü Azərbaycan dilində "nohur" (arx, gölməçə) formasında işlənir. Hazırda erməni dilində olan rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı eynilə "Nurnus" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s.153–154).



*Nurnus kəndi*

Coğrafi koordinatları: 40°21′ şm. e., 44°36′ ş. u.

**Nüvədi** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Mığrı (Meğri) rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 99 km cənubda, dəniz səviyyəsindən 625 m hündürlükdə yerləşir. 1929-cu ilədək Nüvədi kəndi Azərbaycanın Zəngilan rayonunun tərkibinə daxil olmuşdur. 1929-cu ildə Nüvədi kəndinin Ermənistanın keçmiş Mığrı (Meğri) rayonuna verilməsi ilə bağlı Azərbaycan hökumətinin rəsmi qərarı 1969-cu ilin may ayında Azərbaycan SSR Ali Soveti tərəfindən təsdiq edilmişdir. Kəndin adı 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Nüyədə" (143, s. 179) formasında qeyd edilir. Yerli əhali isə kəndə "Nüyədi", yaxud "Nüədi" deyirdi. Kənddə

1831-ci ildə 291, 1873-cü ildə 705, 1886-cı ildə 1083, 1897-ci ildə 952, 1904-cü ildə 771, 1914-cü ildə 1072 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 68–69, 142–143). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və sakinlər qırğınlar nəticəsində ata-baba torpaqlarından deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar öz evlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 662, 1926-cı ildə 480, 1931-ci ildə 590 (415, s. 68–69, 142–143), 1939-cu ildə 618, 1959-cu ildə 761, 1970-ci ildə 1277, 1979-cu ildə 1539, 1989-cu ildə 1344 nəfər (416, s. 153) yalnız azərbaycanlı yaşamışdır.



*Nüvədi kəndi*

Ermənistan dövlətinin xüsusi göstərişi ilə indiki Ermənistan ərazisində sonuncu azərbaycanlı kəndi olan Nüvədinin sakinləri 1991-ci il avqustun 8-də tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "dağ ətəyində ovuq, çökək yer" mənasında işlənən "nüyək, nüək, nüyəx" (253, s. 23, 128) sözünün "iki tərəfi qaya olan sahə" mənasında işlənən "nüy" (8, s. 344) sözünə fars dilində "kənd mənasında işlənən "deh" sözünün variantı olan "di" (də) sözünün (339, s. 177; 104, s. 139) qoşulması yolu ilə əmələ gəlmişdir. Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Nrnadzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 153).

Coğrafi koordinatları: 38°53' şm. e., 46°28' ş. u.

# O

**Ocaqqulu** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 3 km cənub-qərbdə, dəniz səviyyəsindən 1500 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tabeliyində olmuşdur. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Ədirnə müqaviləsinə (1829) əsasən, ermənilərin Türkiyədən köçürülüb məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. 1897-ci ildə kənddə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s. 42–43). XX əsrin əvvəllərində azərbaycanlılar deportasiya olunmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Arapi" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 24).

Coğrafi koordinatları: 40°46′ şm. e., 43°48′ ş. u.

**Oğurbəyli** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 2 km şimal-qərbdə, Gərni çayından ayrılan arxın kənarında, dəniz səviyyəsindən 835 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Uğurbəyli" (143, s. 49), Qafqazın 5 verstlik xəritəsində "Oğuzbəyli" (348, s. 192) formasında qeyd edilmişdir. Erməni müəlliflərinin əsərlərində kəndin adı "Oğurbəyli" kimi göstərilir (415, s. 130; 427, s. 678–679). Buranın aborigen sakinləri azərbaycanlılar olmuşdur. Ermənilər kəndə 1829-cu ildə İranın Xoy və Səlmas bölgələrindən köçürülmüşdür (427, s. 679). Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 87, 1873-cü ildə 104, 1886-cı ildə 113, 1897-ci ildə 110 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). 1918-ci ildə azərbaycanlılar

erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 23, 1926-cı ildə 27, 1931-ci ildə 26 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Hazırda orada yalnız ermənilər yaşayır. Toponim oğuz türk tayfasının adını əks etdirən "oğur" və "bəyli" sözlərindən əmələ gəlmişdir. Toponimin əvvəlindəki "oğur" sözü "oğuz" etnonimini əks etdirir. "Oğuz" və "oğur" sözləri eyni mənalıdır. "Oğur (oğuz) bəylərinin yaşadığı yer" mənasını bildirir. Erm. SSR AS RH-nin 20 avqust 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Berkanuş" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 47).

Coğrafi koordinatları: 39°59' şm. e., 44°31' ş. u.

**Oxçoğlu** – Qars vilayətinin Qars qəzasının Şörəyel nahiyəsində, keçmiş Amasiya rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Arpaçayın sağ sahilində, Gümrü şəhərindən 10 km şimal-qərbdə, dəniz səviyyəsindən 1630 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 197). Erməni müəlliflərinin əsərlərində kənd sakinlərinin qarapapaqlar olduğu göstərilir (415, s. 20). Qarapapaqlar müstəqil xalq yox, azərbaycanlıların etnoqrafik qrupu, türk tayfalarından biridir. Kənddə 1886-cı ildə 551, 1897-ci ildə 747, 1908-ci ildə 935, 1914-cü ildə 980 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevralında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhalisinin bir qismi Qars vilayətinə, bir qismi isə İranın Gümrüdəki konsulluğu vasitəsilə bu ölkənin Urmiya və Səlmas əyalətlərinə köç etmişdir. 1921-ci il Qars müqaviləsindən sonra kənd əhalisinin bir qismi kəndə qayıtmışdır. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra, həmin müqaviləyə əsasən, kənd Ağbaba nahiyəsinin tərkibində Aleksandropol qəzasına daxil edilmişdir. Kənddə 1922-ci ildə 453, 1926-cı ildə 704, 1931-ci ildə 893 (415, s. 20–21, 104–105), 1939-cu ildə 1093, 1959-cu ildə 1032, 1970-ci ildə 1412, 1979-cu ildə 1504 (416, s. 161), 1987-ci ildə 1670 nəfər (85, s. 381) azərbaycanlı yaşamışdır. 1988-ci ilin sonu – 1989-cu ilin əvvəllərində azərbaycanlılar ermənilər tərəfindən qovulmuşlar. Hazırda kənddə, əsasən, Gürcüstanın Axılkələk, Boqdanovka (Ninosminda) rayonlarından, Gümrü şəhərinin ətraf kəndlərindən köçüb gələn ermənilər məskunlaşmışlar. Toponim "Kitabi-Dədə Qorqud" dastanında (XII boy) adı çəkilən "Ənsə Qoca oğlu Oxçu" adının əsasında formalaşan "oxçuoğlu" etnonimindən əmələ gəlmişdir. "Oxçu" şəxs adı sonralar etnonimə çevrilmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Voxçi" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 161).



*Oxçoğlu kəndi*

Coğrafi koordinatları: 40°48' şm. e., 43°45' ş. u.

**Oxçuberd** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 52 km cənub-qərbdə, dəniz səviyyəsindən 1700 m hündürlükdə yerləşir. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə İrəvan qəzasının İrəvan nahiyəsində "Oxçaberd" kəndi olduğu göstərilir (143, s. 159). "Oxçubert" kəndin ilkin və qədim adıdır (415, s. 46, 348, s. 53, 197). Kənddə 1831-ci ildə 73, 1873-cü ildə 180, 1886-cı ildə 143, 1897-ci ildə 171, 1904-cü ildə 156, 1914-cü ildə 298 (415, s. 46–47, 126–127), 1918-ci ilin yanvarında 493 nəfər (309, s. 216) azərbaycanlı yaşamışdır. 1918-ci ildə kənd sakinləri erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur (309, s. 216). Kəndə Türkiyədən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar ata-baba yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 38, 1926-cı ildə 38, 1931-ci ildə 28 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Hazırda kənddə ermənilər yaşayır. Toponim "Kitabi-Dədə Qorqud"da adı çəkilən "Ənsə Qoca oğlu Oxçu" adının əsasında yaranan "oxçu" türk etnoniminə türk dilində "çətin keçilən yer, əlçatmaz yer" mənasında işlənən "bert" (berd) sözünün (337, s. 239; 339, s. 83) qoşulması ilə əmələ gəlmişdir. "Oxçu tayfasına məxsus yaşayış yeri" mənasını bildirir. "Bert" sözü urartu dilində "şəhər" mənasında "patar" formasında işlənmişdir (339, s. 81). Hazırda erməni dilində rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Voğçaberd" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 161).

Coğrafi koordinatları: 40°09' şm. e., 44°38' ş. u.

**Oxtar** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 22 km şimal-qərbdə, Oxtar çayının sol sahilində, dəniz səviyyəsindən 1070 m hündürlükdə yerləşir. Kəndin adı mənbələrdə "Oxdar" kimi də qeyd edilir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzası-



*Oxtar kəndi*

nın yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində Zəngəzurda Yuxarı Oxtar və Aşağı Oxtar kəndlərinin olduğu göstərilir (348, s. 197). Görünür, sonralar bu iki kənd "Oxtar" adı ilə birləşdirilmişdir. Kənddə 1831-ci ildə 28, 1873-cü ildə 195, 1886-cı ildə 338, 1897-ci ildə 508, 1904-cü ildə 454, 1914-cü ildə 353 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra – 1922–1924-cü illərdə kəndin sakinləri doğma yurd-yuvalarına qayıda bilmişlər. Burada 1926-cı ildə 85, 1931-ci ildə 164 (415, s. 60–61, 136–137), 1939-cu ildə 162, 1959-cu ildə 156 nəfər (416, s. 209) azərbaycanlı yaşamışdır. 1988-ci il noyabr ayının axırlarında kənd sakinləri Ermənistan dövləti tərəfindən tamamilə tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim qədim türk dilində "boy, qəbilə" mənasını verən "ox" (ok) sözünə (365, s. 437; 238, s. 25) dialekt və şivələrimizdə cəm şəkilçisi kimi

işlənən "-tar / -dar" (Azərbaycan ədəbi dilində "-lar, -lər") şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Hazırda erməni dilində olan rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Oxtar" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 209).

Coğrafi koordinatları: 39°16′ şm. e., 46°45′ ş. u.

**Ortakənd** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd)



*Ortakənd*

şəhərindən 4 km şimal-şərqdə, Arpa çayının sağ qolu olan Başkəndçayın sahilində, dəniz səviyyəsindən 1350 m hündürlükdə yerləşir. 1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. 1828–1830-cu illərdə İranın Xoy və Səlmas vilayətlərindən köçürülən ermənilər burada yerləşdirilmişdir (427, s. 871). Kənddə ermənilərlə yanaşı, 1897-ci ildə 17, 1926-cı ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, s. 92–93). 1929-cu ildə azərbaycanlılar sıxışdırılaraq kənddən çıxarılmışdır. İndi kənddə yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində "iki obyektin arası" mənasında işlənən "orta" sözü ilə "yaşayış məntəqəsi" mənasında işlənən "kənd" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 10 sentyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Qladzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 59).

Coğrafi koordinatları: 39°46′ şm. e., 45°20′ ş. u.

**Ortakilsə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 6 km şimal-qərbdə, dəniz səviyyəsindən 1660 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. 1937-ci ilə kimi Leninakan rayonunun tabeliyində olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 135), Qafqazın 5 verstlik xəritəsində (348, s. 195) qeyd edilmişdir. Toponim kəndin ərazisindəki dini məbəd – kilsə adı əsasında əmələ gəlmişdir. Həmin ərazidə bir neçə kilsə olduğu üçün toponimə fərqləndirici söz kimi "orta" leksik vahidi əlavə edilmiş və "Ortakilsə" adlı kənd yaranmışdır. Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Mayisyan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 132).

Coğrafi koordinatları: 40°51′ şm. e., 43°49′ ş. u.

**Oşakan (Üşəyən)** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 5 km cənub-qərbdə, dəniz səviyyəsindən 1020 m hün-



*Oşakan kəndi*

dürlükdə yerləşir. Kəndin ilk adı "Uşakan" olmuşdur (415, s. 22). 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə "Uşakan" (143, s. 86), Qafqazın 5 verstlik xəritəsində "Uşakan" və "Oşaqan" formasında (348, s. 197) qeyd edilmişdir. Yerli əhali – azərbaycanlılar kəndin adını "Üşəyən" formasında işlədirdilər. Erməni silahlı dəstələri ilk dəfə 1905-ci ildə kəndə hücum edərək kütləvi qırğınlar törətmiş, vəziyyət sabitləşəndən sonra kəndin sağ qalan əhalisi geri qayıda bilmişdir. 1918-ci ildə erməni silahlı birləşmələri azərbaycanlılara qarşı yenidən qırğınlar törətmiş, əhalini kənddən didərgin salmışdır. Toponim türk dilində "düz, hamar" mənasında işlənən "üşəg" sözünə "-ən" şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir (299, s. 628). Hazırda erməni dilində olan rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Oşakan" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 209–210).

Coğrafi koordinatları: 40°15' şm. e., 44°18' ş. u.

**Ovandərə** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Cəlaloğlu (Stepanavan) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 39 km şimal-qərbdə, Ovandərə çayının yanında, dəniz səviyyəsindən 1440 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim Azərbaycan dilində "düzənlik, düzəngah, düzən yer" mənasında işlənən "ova" sözü ilə (11, s. 432; 339, s. 404), "çay yatağı, çayın axdığı yer" mənasında işlənən "dərə" sözünün (10, s. 74; 196, s. 44) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Erm. SSR AS RH-nin 19 aprel 1950-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Hovanandzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 123).

Coğrafi koordinatları: 41°01' şm. e., 44°31' ş. u.

# Ö

**Öksüz** – Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, keçmiş Amasiya rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 40 km məsafədə, Arpa gölünün şimalında, Gürcüstanın Boqdanovka (Ninosminda) rayonu ilə həmsərhəd, dəniz səviyyəsindən 2200 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində kənd sakinlərinin qarapapaqlar olduğu göstərilir (415, s. 20). Kənddə 1886-cı ildə 62, 1897-ci ildə 96, 1908-ci ildə 153, 1914-cü ildə 176 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevral ayında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhalisi qaçqın düşmüşdür. 1921-ci il Qars müqaviləsi ilə kənd Ağbaba nahiyəsinin tərkibində sovet Ermənistanına daxil edilmişdir. Bundan sonra kənd əhalisinin bir qismi kəndə qayıtmışdır. Kənddə 1922-ci ildə 202, 1926-cı ildə 243, 1931-ci ildə 270 (415, s. 20–21, 104–105), 1939-cu ildə 311, 1959-cu ildə 147, 1970-ci ildə 241, 1979-cu ildə 264 (416, s. 67), 1987-ci ildə 291 nəfər (85, s. 381–382) azərbaycanlı yaşamışdır. 1989-cu ilin qışında azərbaycanlılar ermənilər tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşdur. Hazırda kənddə, əsasən, Gürcüstanın Axılkələk və Boqdanovka (Ninosminda) rayonlarından köçüb gələn ermənilər məskunlaşmışdır. Toponim qədim türk dilində "çay" mənasını bildirən "öküz" sözü (399, I, s. 59, 299, s. 382) əsasında formalaşmışdır. Bu söz həm də "oquz, okus, oqus" formasında qeyd edilir (339, s. 405; 337, s. 237). Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Darik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 67).

Coğrafi koordinatları: 41°07' şm. e., 43°40' ş. u.

**Ördəkli** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Sevan rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 31 km şimal-qərbdə, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 1925 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmişdir (143, s. 81). Kənddə tarixən azərbaycanlılar yaşamışdır. Zaman-zaman onlar qovulmuş, xaricdən (İran və Türkiyədən) köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir (386, s. 595–598). 1897-ci ildə kənddə ermənilərlə yanaşı, 22 nəfər azərbaycanlı yaşamışdır (415, s. 18–19). 1905–1906-cı illərdə erməni-azərbaycanlı münaqişəsi nəticəsində azərbaycanlılar erməni silahlıları tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşlar. İndi kənddə yalnız ermənilər yaşayır. Toponim türk tayfalarından olan qızılbaşlara məxsus "ördəkli" (175, s. 6) etnonimi əsasında formalaşmışdır. Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lçaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 90).

Coğrafi koordinatları: 40°31′ şm. e., 44°55′ ş. u.

# P

**Pamb** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Alagöz (Araqats) rayonunda, indi Araqatsotn vilayətində kənd. Alagöz (Araqats) yaşayış məntəqəsindən 17 km məsafədə, dəniz səviyyəsindən 2100 m hündürlükdə yerləşir. Kəndin digər adı "Pəmbək Qarakilsə Yayla" olmuşdur (415, s. 4). Kənddə əvvəlcə azərbaycanlılar yaşamışdır. 1877–1878-ci illər rus-türk müharibəsindən sonra Türkiyədən köçürülüb gətirilən yezidi kürdlər kənddə məskunlaşdırılmışlar. Bundan sonra azərbaycanlılar kəndi tədricən tərk etmişlər. Hazırda kənddə yezidi kürdlərlə ermənilər birgə yaşayırlar. Toponim türk dilində "yüksək dağ burnu" (339, s. 91), "yol keçən dağ və çay arasında nazik yer", "qayalıq, yarğan, uçurum", "sıldırım qayaların sahili, kənarı" (337, s. 238) mənasında işlənən "bom/boom" sözü əsasında əmələ gəlmişdir. Kənd hazırda "Sipan" adlanır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 181).

Coğrafi koordinatları: 40°43′ şm. e., 44°16′ ş. u.

**Palıdlı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayətin mərkəzi Gümrü şəhərindən 24 km şimalda, Gürcüyolu (Torosgyuğ) kəndindən 4 km şərqdə, dəniz səviyyəsindən 1920 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmişdir (143, s. 104). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim "palıd" ağac adına "-lı" şəkilçisinin qoşulması əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Arpeni" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 39).

Coğrafi koordinatları: 40°54′ şm. e., 43°53′ ş. u.

**Parpı** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 5 km şimal-qərbdə, Alagöz dağının cənub-şərq ətəyində, dəniz səviyyəsindən 1100 m hündürlükdə yerləşir. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Parpi" (143, s. 162), 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə "Parbi" (143, s. 85) formasında qeyd edilmişdir. Kənddə 1826-cı ilə kimi yalnız azərbaycanlılar yaşamışlar. 1828–1830-cu illərdə kəndə Türkiyədən ermənilər köçürülmüşdür. Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 145, 1886-cı ildə 140,

1897-ci ildə 199 nəfər azərbaycanlı yaşamışdır (415, s. 22–23, 108–109). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar ata-baba torpaqlarına dönə bilmişlər. Burada 1922-ci ildə 69, 1926-cı ildə 89, 1931-ci ildə 93 nəfər azərbaycanlı yaşamışdır (415, s. 22–23, 108–109). SSRİ Nazirlər Sovetinin «Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "açıq çöl, bozqır" (359, IV (2), c. 1144), "dağ silsiləsi" (339, s. 429) mənasında işlənən "par" sözünə "-pı" şəkilçisinin qoşulması yolu ilə əmələ gəlmişdir. Həmin şəkilçi "p", "ap", "pe", "pi" şəkillərində tayfa və ölkə bildirən adların sonuna bitişdirilərək işlənmiş və belə sözlər həmin şəkilçi ilə birlikdə "el", "tayfa", "qəbilə", "yurd", "ölkə" mənalarını ifadə etmişdir (78, s. 29). "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 202).

Coğrafi koordinatları: 40°19′ şm. e., 44°18′ ş. u.

**Patrinc** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 7 km cənub-qərbdə, dəniz səviyyəsindən 1025 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Batrınc" formasında qeyd edilmişdir (143, s. 37). Kənddə 1831-ci ildə 51, 1873-cü ildə 327, 1886-cı ildə 449, 1897-ci ildə 463, 1908-ci ildə 526, 1914-cü ildə 640, 1916-cı ildə 599 (415, 22–23, 108–109), 1918-ci ildə 526 (309, s. 218), 1919-cu ildə 310 nəfər (415, s. 108–109) yalnız azərbaycanlı yaşamışdır. 1919-cu ilin yazında kəndin köklü sakinləri olan azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən törədilən qırğınlar nəticəsində deportasiya edilmiş (309, s.221), sonra kənddə ermənilər yerləşdirilmişdir (415, s. 108–109). Toponim urartu dilində "şəhər" mənasında işlənən "patar" sözü (317, s. 71) əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 1 dekabr 1949-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Voskehat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 162).

Coğrafi koordinatları: 40°16′ şm. e., 44°16′ ş. u.

**Paşakənd** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 15 km şimal-qərbdə, Pəmbək dağının ətəyində, Kəvər çayının yanında, dəniz səviyyəsindən 1750 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 200). Erməni müəlliflərinin əsərlərində kəndin adı erməni dilinə kalka edilərək "Paşagyuğ" formasında verilmişdir (415, s. 18). Kənddə 1831-ci ildə 76, 1873-cü ildə 268, 1886-cı ildə 436, 1897-ci ildə 490, 1908-ci ildə 673, 1914-cü ildə 908, 1916-cı ildə 712 nəfər azərbaycanlı yaşamışdır (415, s. 18–19, 102–103). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən törədilən qırğınlar nəticəsində qovulmuş və kəndə 380 nəfər erməni yerləşdirilmişdir (415, s. 102–103). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. Kənddə ermənilərlə yanaşı, 1922-ci ildə 69, 1926-cı ildə 98, 1931-ci ildə 126 nəfər azərbaycanlı yaşamışdır (415, s. 18–19, 102–103). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar 1948-ci ildə Azərbaycana köçürülmüşdür. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "Paşa" şəxs adı ilə "kənd" sözünün birləşməsindən əmələ gəlib. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Marmarik"

qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 134).

Coğrafi koordinatları: 40°34′ şm. e., 44°40′ ş. u.

**Paşalı** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 27 km cənub-şərqdə, Arpa çayının sol qolları olan Paşalı və Yazıyurd çaylarının yanında, dəniz səviyyəsindən 1570 m hündürlükdə yerləşir. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 60), Qafqazın 5 verstlik xəritəsində (348, s. 200) qeyd edilmişdir. Kənddə ermənilərlə yanaşı, 1897-ci ildə 39 nəfər, 1926-cı ildə isə 5 nəfər azərbaycanlı yaşamışdır (415, s. 90–91). 1930-cu illərdə azərbaycanlılar kənddən çıxarılmışdır. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "paşalı" nəsil adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Əzizbəyov", 8 iyul 1957-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Zaritap" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 76).

Coğrafi koordinatları: 39°38′ şm. e., 45°30′ ş. u.

**Pəmbək** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayəti ərazisində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 95 km şərqdə, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 1975 m hündürlükdə yerləşir. Kənddə albanlara məxsus dini məbədin (kilsənin) və oğuzların qəbiristanlıqlarının xarabalığı müasir dövrümüzə kimi gəlib çatmışdır. Burada 1873-cü ildə 166, 1886-cı ildə 237, 1897-ci ildə 283, 1908-ci ildə 352, 1914-cü ildə 392, 1916-cı ildə 331, 1919-cu ildə 398 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1919-cu ilin yazında kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və qırğınlar nəticəsində əhali deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar tarixi-etnik torpaqlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 390, 1926-cı ildə 349, 1931-ci ildə 512 (415, s. 27, 113), 1987-ci ildə 2000 nəfər (85, s. 292–293) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının axırları – dekabr ayının əvvəllərində kənd əhalisi Ermənistan dövləti tərəfindən tarixi-etnik



*Pəmbək kəndi*

torpaqlarından deportasiya edilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "quşçu" türk etnonimi ilə (245, s. 38–39; 292, s. 91–95; 182, s. 313) "iki dağ və ya təpə arasında, eləcə də düzənlikdə uzun, dərin çuxur" mənasında işlənən "dərə" sözünün (10, s. 74) birləşməsindən əmələ gəlmişdir. "Dərədə quşçu tayfasının yaşadığı kənd" mənasını ifadə edir. Hazırda erməni dilində rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Pambak" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 201).

Coğrafi koordinatları: 40°23′ şm. e., 45°31′ ş. u.

**Pəmbək** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Quqark (Qarakilsə) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 7 km şimal-şərqdə, Qarakilsə–Allahverdi yolunun 25 kilometrliyində, dəniz səviyyəsindən 1200 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritə-

sində qeyd edilmişdir (348, s. 30). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. 1920-ci ildən sonra xaricdən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir (415, s. 133). Toponim iki komponentdən ibarətdir. Birinci komponent qədim türk dilində "dar keçid" mənasında işlənən "paam/baam, bom/boom" (337, s. 238; 339, s. 91), ikinci komponent "təpəlik", "yüksəklik, zirvə, başlanğıc, hündürlük" mənasında işlənən "bak" (bək) sözündən (339, s. 66) ibarətdir. "Dar keçid yanındakı təpəlik, yüksəklikdə, zirvədə olan kənd" mənasını ifadə edir. "Bak" (bək) türk dilində "təpə tirələri" mənasında işlənən "baku" sözündə özünü göstərir (299, s. 83). Hazırda erməni dilində olan rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Pambak" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 201).

Coğrafi koordinatları: 40°50′ şm. e., 44°33′ ş. u.

**Pəyhan** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 31 km şimal-qərbdə, Gığı çayının sol sahilində, dəniz səviyyəsindən 1850 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də



*Pəyhan kəndi*

sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. "İrəvan əyalətinin icmal dəftəri"ndə Sisian nahiyəsində "Pexin" kəndi kimi qeyd edilmişdir (143, s. 150). Erməni müəlliflərinin əsərlərində "Payahan", "Payhan", "Behan" kimi göstərilmişdir (415, s. 62). Rus dilində "Payaqan" ("Паяган") formasında işlənmişdir (266, s. 193). Kənddə 1897-ci ildə 55, 1922-ci ildə 70, 1926-cı ildə 71, 1931-ci ildə 96 nəfər azərbaycanlı yaşamışdır (415, s. 62–63, 136–137). 1988-ci il noyabr ayının axırlarında azərbaycanlılar tarixi-etnik torpaqlarından tamamilə deportasiya olunmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim qədim türk dilində "təpə" mənasında işlənən "bek" sözünün (359, IV (1), s. 754) fonetik forması kimi işlənən "pəy" sözü ilə türk dilində "daxma, kaha, mağara" mənasında işlənən "in" sözünün (299, s. 209) birləşməsi əsasında əmələ gəlmişdir. Toponimin ikinci komponenti – "han/an", "in" sözünün dəyişmiş formasıdır. Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Nor Astğaberd" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 147–148).

Coğrafi koordinatları: 39°14′ şm. e., 46°06′ ş. u.

**Pirmələk** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 54 km cənub-qərbdə, dəniz səviyyəsindən 1540 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 202). Kənddə 1873-cü ildə 91, 1897-ci ildə 329, 1908-ci ildə 164, 1914-cü ildə 176, 1916-cı ildə 404 (415, s. 36–37, 118–119), 1918-ci ilin yanvarında 261 nəfər (309, s. 219) azərbaycanlı yaşamışdır. 1918-ci ildə erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalan azərbaycanlılar qırğınlar nəticəsində tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar (309, s. 219). 1918-ci ildən sonra burada yalnız ermənilər yaşayır. Toponim dini məna ifadə edən "pir" sözü ilə "Mələk" şəxs adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək

"Areq", Ermənistan Parlamentinin 4 aprel 2006-cı il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Tatul" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 80).

Coğrafi koordinatları: 40°23′ şm. e., 43°48′ ş. u.

**Polad Ayrım** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 30 km cənub-qərbdə, dəniz səviyyəsindən 1050 m hündürlükdə yerləşir. 1930-cu ilin axırlarına kimi keçmiş Dilican rayonunun tərkibində olmuşdur. Kənddə 1873-cü ildə 290, 1886-cı ildə 390, 1897-ci ildə 220, 1904-cü ildə 263, 1914-cü ildə 347, 1916-cı ildə 685 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 32–33, 116–117). 1919-cu ilin mart ayında kəndin sakinləri erməni silahlı birləşmələrinin təcavüzünün qurbanı olmuş, qırğınlar nəticəsində qovulmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə qayıda bilmişlər. Burada 1922-ci ildə 302, 1926-cı ildə 319, 1931-ci ildə 452 (415, s. 32–33, 116–117), 1939-cu ildə 565, 1959-cu ildə 543, 1970-ci ildə 755, 1979-cu ildə 750 nəfər (416, s. 95) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayının axırlarında Ermənistan dövləti tərəfindən azərbaycanlılar deportasiya edilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "polad" sözü ilə ayrım türk tayfasının adı (245, s. 43–44; 178, s. 201–210) əsasında əmələ gəlmişdir. Sonralar kəndin adında ixtisar edilərək, oykonimin ikinci komponenti – "ayrım" türk etnonimi atılaraq "Polad" kimi rəsmiləşdirilmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Xaçardzap" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 95).



*Polad Ayrım kəndi*

Coğrafi koordinatları: 40°43′ şm. e., 45°03′ ş. u.

**Pürülü** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 26 km şimal-qərbdə, Gığı çayının sol sahilində, dəniz səviyyəsindən 1900 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə 1831-ci ildə 41, 1873-cü ildə 138, 1886-cı ildə 257, 1897-ci ildə 140, 1904-cü ildə 467, 1914-cü ildə 52 nəfər azərbaycanlı yaşamışdır (415, s. 62–63, 136–137). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin törətdikləri soyqırımına məruz qalaraq deportasiya olunmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənd əhalisinin bir qismi öz evlərinə qayıda bilmişdir. Kənddə 1922-ci ildə 126, 1931-ci ildə 254 nəfər azərbaycanlı yaşamışdır (415, s. 62–63, 136–137). 1980-ci illərdə kənddə 25–30 azərbaycanlı ailəsi var idi (244 a, s. 277). 1988-ci il noyabrın axırlarında kənd sakinləri Ermənistan dövləti tərəfindən törədilən qırğınlar nəticəsində qovulub. Hazırda burada yalnız ermənilər yaşayır. Toponim ayrım türk tayfasına aid olan "pürülü" etnonimindən əmələ gəlmişdir. Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Verin Geğavank" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 192).

Coğrafi koordinatları: 39°13′ şm. e., 46°11′ ş. u.

# R

**Reyhanlı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Kənddə ancaq azərbaycanlılar yaşamışlar. 1832-ci ildə kənddə 80, 1873-cü ildə 277, 1886-cı ildə 308, 1905-ci ildə 405, 1914-cü ildə 599 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə Zəngibasar mahalının başqa kəndləri kimi, Reyhanlı kəndi də ermənilərin təcavüzünə məruz qalmış, kənd dağıdılmış, talan edilmiş, yandırılmış, əhalisinin bir qismi ermənilər tərəfindən qətlə yetirilmiş, sağ qalanlar didərgin salınmışdır. Sovet hakimiyyətinin ilk illərində kəndə qayıtmaq imkanı qazanmış reyhanlılar oranı yenidən bərpa etmişlər. 1931-ci ildə kənddə 133 nəfər azərbaycanlı yaşamışdır (99 a, s. 71). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, Reyhanlının əhalisi 1950-ci ildə Uluxanlı stansiyasında yük vaqonlarına doldurularaq Azərbaycana deportasiya edilmişdir. 1953-cü ildə İ.Stalinin vəfatından sonra əhalinin bir qismi kəndə qayıtmışdır. Lakin bu vaxt Reyhanlı bir kənd kimi ləğv edildiyindən onlar öz kəndlərində yaşasalar da, Həbilkənd (Kalinin) qəsəbəsinin sakinləri sayılmışlar. Kənd əhalisinin sonrakı taleyi isə 1988-ci il soyqırımı ilə nəticələnmiş, onlar öz ata-baba yurdlarından növbəti dəfə zorakılıqla qovulmuşlar.

Coğrafi koordinatları: 40°01′ şm. e., 44°25′ ş. u.

**Reyhanlı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində kənd. Vedi (Ararat) yaşayış məntəqəsindən 8 km məsafədə yerləşir. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 52), Qafqazın 5 verstlik xəritəsində (348, s. 207) qeyd edilmişdir. Kəndin digər adı "Sarıbaş yurdu" olmuşdur. Erməni müəlliflərinin əsərlərində kəndin adı "Rehanlı", "Rikanlı", "Reyqanlu" formalarında da göstərilir (415, s. 88, 427, s. 226). Kənddə əvvəlcə yalnız azərbaycanlılar yaşamış, Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinə əsasən, ermənilərin Türkiyədən köçürülüb məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. 1897-ci ildə kənddə 23 nəfər azərbaycanlı, 320 nəfər erməni yaşamışdır (415, s. 88). Azərbaycanlılar 1919-cu ildə erməni silahlı birləşmələri tərəfindən qırğınlara məruz qoyularaq deportasiya olunmuş, bir müddət Cənubi Azərbaycan ərazisinə sığınmışlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulduqdan sonra azərbaycanlılar doğma yer-yurdlarına qayıtmışlar. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. 1988-ci ildə kənddə yaşayan bir neçə azərbaycanlı ailəsi deportasiya olunmuşdur. Hazırda kənddə yanız ermənilər yaşayır. Toponim "reyhanlı" türk etnonimi (143, s. 30) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Ayqavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 17).

Coğrafi koordinatları: 39°51′ şm. e., 44°40′ ş. u.

**Rəhimabad** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Zəngibasar (Masis) yaşayış məntəqəsindən 9 km məsafədə yerləşir. Zəngibasar (Masis) rayonu təşkil edilənədək (14 yanvar 1969-cu il) Vağarşabad (Eçmiədzin) rayonunun tərkibində olmuşdur. Kənddə 1886-cı ildə 113, 1897-ci ildə 183, 1904-cü ildə 131, 1914-cü ildə 223, 1916-cı ildə 246, 1919-cu ildə 601 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). 1919-cu ilin sonlarında erməni silahlı dəstələrinin törətdikləri qırğınlardan sonra kəndin sağ qalan azərbaycanlı əhalisi Türkiyəyə köç etmək məcburiyyətində qalmışdır.

Sonra kənddə ermənilər məskunlaşdırılmışdır. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar ata-baba yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 152, 1926-cı ildə 242, 1931-ci ildə 188 (415, s. 82–83, 152–153), 1987-ci ildə 500 nəfərdən artıq azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi 1949-cu ildə zorla Azərbaycana deportasiya edilmişdir. Deportasiya edilənlərin bir qismi sonradan doğma kəndlərinə qayıda bilmişdir. 1988-ci ilin noyabr-dekabr aylarında kənddə yaşayan 500 nəfərə yaxın azərbaycanlı Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. Hazırda burada yalnız ermənilər yaşayır. Toponim "Rəhim" şəxs adı ilə fars dilində "çoxlu tikinti, yaşayış üçün hər cür şəraiti olan" mənasında işlənən "abad" sözünün (9, s. 25) birləşməsindən əmələ gəlmişdir. Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 5 fevral 1978-ci il tarixli qərarı ilə Rəhimabad kəndi yaşayış məntəqələrinin siyahısından çıxarılmış, Qaraqışlaq kənd sovetliyinə tabe edilmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, hazırda bu kəndin ərazisinin də daxil olduğu Hayanist kəndi Ararat vilayətinin inzibati ərazisinə aid edilmişdir (416, s. 117).

Coğrafi koordinatları: 40°06′ şm. e., 44°22′ ş. u.

**Rəncbər** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 20 km şimal-qərbdə, Araz çayının sahilində, dəniz səviyyəsindən 830 m hündürlükdə yerləşir. Keçmiş Zəngibasar (Masis) rayonu təşkil edilənə kimi keçmiş Üçkilsə (Vağarşabad, Eçmiədzin) rayonunun tabeliyində olmuşdur. Kəndin digər adı "Şor Kolanı" olmuşdur. Kənd Cəfərxan adlı bəyə mənsub olduğuna görə həm də "Rəşbəri Cəfərxan" (415, s. 82) adlandırılmışdır. Rəsmi sənədlərdə kənd "Rəncbər" kimi qeyd edilmişdir (415, s. 82; 419, s. 66). Kənddə 1873-cü ildə 197, 1886-cı ildə 230, 1897-ci ildə 405, 1904-cü ildə 229, 1914-cü ildə 431, 1916-cı ildə 300 nəfər azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). 1918-ci ilin yazında azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar ata-baba yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 136, 1926-cı ildə 204, 1931-ci ildə 389 nəfər (415, s. 82–86, 152–153) yalnız azərbaycanlı yaşamışdır. 1959-cu ildə 418, 1979-cu ildə 1024 nəfər əhali yaşamışdır (416, s. 172). Kənddə bir neçə müsəlman kürd ailəsi də məskunlaşmışdır. Rəncbərlilər 1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində "şoran, duzlu" mənasında işlənən "şor" ilə "kolani/kolanı" (kolanlı tayfa adının fars dilində yazılış forması) türk etnonimi (212, s. 92; 1, s. 73) əsasında formalaşmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 172).

Coğrafi koordinatları: 40°01′ şm. e., 44°22′ ş. u.

# S

**Sabunçu** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 57 km məsafədə, dəniz səviyyəsindən 1570 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 213) qeyd edilmişdir. Kəndin adı "Sabunçular" formasında da göstərilir (415, s. 36). 1897-ci ildə kənddə 182 nəfər azərbaycanlı yaşamışdır (415, s. 36–37). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən deportasiya olun-

muşlar. Toponim türk dilində "kotan" mənasında işlənən "saban" sözünə (299, s. 478) "-çu" şəkilçisinin qoşulması əsasında əmələ gələn "sabunçu" etnonimindən (133, s. 45) əmələ gəlmişdir. Səfəvi padşahlarından olan Sultan Hüseynin 1704-cü ildə verdiyi fərmanda Aranda, Muğanda və İrəvan ətrafında yaşayan 36 türk tayfasından birinin sabunçu olduğu göstərilir (133, s. 45). Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Hatsaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 120).

Coğrafi koordinatları: 40°26′ şm. e., 43°46′ ş. u.

**Sabunçu** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, Ararat vilayətində kənd. Kəndin başqa adı "Şeyxzadə Əli Sabunçu" olmuşdur (415, s. 50). Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 8–9 km şimal-qərbdə, Gərni çayından axan arxın yanında, dəniz səviyyəsindən 827 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Saatlı Sabunçu" formasında (143, s. 49), Qafqazın 5 verstlik xəritəsində "Sabunçu" kimi (348, s. 213) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 474, 1873-cü ildə 951, 1886-cı ildə 1050, 1897-ci ildə 1000, 1904-cü ildə 1397, 1914-cü ildə 1537 (415, s. 50–51, 130–131), 1918-ci ilin yanvarında 202 nəfər (309, s. 216) azərbaycanlı yaşamışdır. 1918-ci ilin martında azərbaycanlılar erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq deportasiya olunmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 219, 1926-cı ildə 285, 1931-ci ildə 319 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar 1948-ci ildə Azərbaycana deportasiya edilmişdir. Toponim türk mənşəli "sabunçu" tayfasının adı (133, s. 45) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Araksavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 29).

Coğrafi koordinatları: 40°00′ şm. e., 44°28′ ş. u.

**Saçlı** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 61 km şimal-qərbdə, Abaran çayının sol qolu üstündə, dəniz səviyyəsindən 1950 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 113), Qafqazın 5 verstlik xəritəsində (348, s. 22) adı qeyd edilmişdir. Kəndin digər adı "Sacılı" olmuşdur (415, s. 4). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Ədirnə müqaviləsinə (1829) əsasən, ermənilərin Türkiyədən köçürülüb məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim "sacilər" (saclı, saçlı) tayfa adı əsasında formalaşmışdır (63, s. 196). Erm. SSR AS RH-nin 15 iyul 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Noraşen", Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Şoğakn" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s.160).

Coğrafi koordinatları: 40°28′ şm. e., 44°28′ ş. u.

**Sağmosavəng** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 8 km şimal-şərqdə, dəniz səviyyəsindən 1620 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Savmosavəng" formasında qeyd edilmişdir (143, s. 112). Kənddə 1831-ci ildə 131 nəfər yalnız azərbaycanlı, ermənilərlə yanaşı, 1873-cü ildə 100, 1886-cı ildə 141, 1897-ci ildə 185, 1914-cü ildə 404 nəfər azərbaycanlı yaşamışdır (415, s. 22–

23, 108–109). Ermənilər kəndə 1850-ci illərdən sonra köçürülmüşdür. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş, yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar ata-baba yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 36, 1926-cı ildə 53, 1931-ci ildə 65 nəfər azərbaycanlı yaşamışdır (415, s. 22–23, 108–109). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar 1948–1953-cü illərdə zorla tarixi-etnik torpaqlarından çıxarılaraq Azərbaycana köçürülmüşdür. Toponim türk dilində "cığır", "bataqlıqdan keçən çay keçidi" mənalarında işlənən "sakma/sokma" (339, s. 493) və türk dilində "qala" mənasında işlənən "vəng" (211, s. 208–209) sözlərindən əmələ gəlmişdir. "Sakma/sokma" sözü fonetik dəyişikliyə uğrayıb "sağma/soğma" formasına düşmüşdür. Toponim "cığır kənarında yerləşən qala yanında kənd, yaşayış yeri" mənasını ifadə edir. Erməni ədəbiyyatında kəndin adı "Sağmosavan" fonetik formasında əksini tapır (416, s. 174). "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 174).

Coğrafi koordinatları: 40°23′ şm. e., 44°23′ ş. u.

**Salah** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, Qaraqoyunlu dərəsində, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 32 km cənub-qərbdə, Tərsa çayının sahilində, dəniz səviyyəsindən 1100 m hündürlükdə yerləşir. 1930-cu illərdə keçmiş Dilican rayonunun inzibati-ərazi bölgüsünə daxil olmuşdur. XI–XII əsrlərə aid tarixi abidələr yerləşən kənddə 1897-ci ildə 184, 1904-cü ildə 56, 1914-cü ildə 64, 1916-cı ildə 72 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 32–33, 116–117). 1919-cu ilin martında kəndin köklü sakinləri olan azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulduqdan sonra sağ qalan salahlılar öz yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 80, 1926-cı ildə 90, 1931-ci ildə 112 nəfər azərbaycanlı yaşamışdır (415, s. 32–33, 116–117). Kənd əhalisinin bir hissəsi 1950-ci ildə qonşu Göyərçin kəndindən köçüb gələnlərdir. 1988-ci ilin noyabrında azərbaycanlılar Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim qazax türk tayfasına mənsub olan "salahlı" etnonimi (245, s. 37) əsasında formalaşmışdır. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Ağavnavank" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 13).

Coğrafi koordinatları: 40°43′ şm. e., 45°05′ ş. u.

**Sallı** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 18 km şimal-qərbdə, "Dərələyəzdən Göyçəyə gedən magistral yolun üstündə" (211, s. 239), dəniz səviyyəsindən 1550 m hündürlükdə yerləşir. 1828-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə "Salçı" kimi (143, s. 60), Qafqazın 5 verstlik xəritəsində "Sallı" formasında (348, s. 216) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 77, 1873-cü ildə 422, 1886-cı ildə 560, 1897-ci ildə 668, 1904-cü ildə 624, 1914-cü ildə 675, 1916-cı ildə 678, 1919-cu ildə 65 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 162–163). Kəndin aborigen əhalisi olan azərbaycanlılar 1918–1919-cu illərdə erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşlar. Kəndə İranın Xoy və Səlmas vilayətlərindən ermənilər köçürülmüşdür. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar

öz yurdlarına qayıda bilmişlər. Burada 1922-ci ildə 147 nəfər azərbaycanlı, 64 erməni, 1926-cı ildə 204 nəfər azərbaycanlı, 81 erməni, 1931-ci ildə 242 nəfər azərbaycanlı, 102 erməni yaşamışdır (415, s. 92–93, 162–163). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, 1948-ci ildə kəndin azərbaycanlı sakinləri zorla Azərbaycanın Salyan rayonuna köçürülmüşlər. Əhalinin bir hissəsi sonradan ata-baba yurdlarına qayıda bilmişlər. 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən yenidən deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "sal" qədim türk etnoniminə (287, s. 351) mənsubluq bildirən "-lı" şəkilçisinin artırılması ilə düzəlib, "sal tayfasının yaşadığı yer" mənasını bildirir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 173).

Coğrafi koordinatları: 39°52′ şm. e., 45°16′ ş. u.

**Salut** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 30 km şimal-şərqdə, dəniz səviyyəsindən 2100 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində adı qeyd edilmişdir (348, s. 216). Kənddə əvvəlcə azərbaycanlılar yaşamışdır. Ədirnə müqaviləsinə (1829) əsasən, İrəvan xanlığının ərazisində ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Toponim qədim türk mənşəli hun tayfasından olan "sal" etnoniminə (286, s. 40), türk dilində cəmlik bildirən "-ut" şəkilçisinin artırılması ilə düzəlib, "sallar tayfasına mənsub yaşayış yeri, kənd" mənasını verir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 173).

Coğrafi koordinatları: 40°58′ şm. e., 43°56′ ş. u.

**Samurlu** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 38 km şimal-şərqdə, dəniz səviyyəsindən 1970 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamışlar. Ədirnə müqaviləsinə (1829) əsasən, İrəvan xanlığının ərazisinə ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Ermənilər kəndə 1828–1829-cu illərdə Türkiyənin Ərzurum vilayətindən köçürülmüşlər (416, s. 176). Toponim qədim türk mənşəli "samur" etnoniminə (287, s. 56) mənsubluq bildirən "-lu" şəkilçisinin artırılması ilə düzəlib, "samur tayfasına mənsub yer" deməkdir. Etnotoponimdir. Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Sarapat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 176).

Coğrafi koordinatları: 40°56′ şm. e., 44°02′ ş. u.

**Saral** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 16 km qərbdə, Pəmbək çayının sağ sahilində, dəniz səviyyəsindən 1460 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 219). Kəndin ilk adı "Sarallı" olmuşdur (415, s. 54). Hamamlı (Spitak) rayonu təşkil edilənədək (1937) Quqark (Qarakilsə) rayonunun tərkibində ol-


*Saral kənd qəbiristanlığı*

muşdur. Mənbələrdə kəndin X–XII əsrlərdə salındığı göstərilir. Kənddə 1831-ci ildə 54, 1873-cü ildə 539, 1886-cı ildə 654, 1897-ci ildə 754, 1908-ci ildə 951, 1914-cü ildə 1111, 1916-cı ildə 982 nəfər azərbaycanlı yaşamışdır (415, s. 54–55, 132–133). 1918-ci ildə kənd sakinləri erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kəndi tərk etmişlər. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılar tarixi-etnik torpaqlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 808, 1926-cı ildə 851, 1931-ci ildə 975 (415, s. 54–55, 132–133), 1987-ci ildə 1856 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci il noyabrın 28-də azərbaycanlılar Ermənistan dövləti tərəfindən törədilən qırğınlardan sonra deportasiya olunmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim sarallı türk tayfasının adı (329, s. 11, 24, 164; 286, s. 68) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 8 avqust 1991-ci tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Nor Xaçakap" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 149).

Coğrafi koordinatları: 40°50′ şm. e., 44°21′ ş. u.

**Saratı** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 10 km məsafədə, dəniz səviyyəsindən 750 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim türk dilində "düz, çöl, yurd" mənasında işlənən "sara" sözünə (359, IV (1), s. 314) "-tı" şəkilçisinin (124, s. 132) birləşdirilməsi nəticəsində əmələ gəlmişdir. Kəndin adı dəyişdirilərək əvvəlcə "Xaçdarak", sonra isə "Xaştarak" qoyulmuşdur (244 b, s. 57). "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 95).

Coğrafi koordinatları: 40°56′ şm. e., 45°10′ ş. u.

**Sarıbaş** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 22 km cənubda, dəniz səviyyəsindən 1640 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 219). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Ermənilər kəndə 1829–1831-ci illərdə Türkiyənin Ələşkirt və Muş vilayətlərindən köçürülmüşlər (416, s. 118). Toponim "sarıbaş" türk etnonimi əsasında əmələ gəlmişdir. XIII əsrdə qırğız çöllərinin şimal-şərq hissəsinə gəlmiş türk tayfaları içərisində sarıbaş tayfası da olmuşdur (222, s. 43). Deməli, Sarıbaş kəndinin adı da Cənubi Qafqaza, o cümlədən indiki Ermənistan ərazisinə gəlmiş "sarıbaş" etnonimi ilə bağlıdır. Erm. SSR AS RH-nin 15 iyul 1948-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Haykasar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 118).

Coğrafi koordinatları: 40°36′ şm. e., 43°53′ ş. u.

**Sarıgah** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 19 km şimalda, dəniz səviyyəsindən 800 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim qədim türk dilində "iri, nəhəng, uca, hündür, yüksək, dik" mənasında işlənən "sarı" sözü ilə (95, s. 275) "qayalıqda, dağda təbii və ya süni oyuq, mağara" mənasında işlənən "kah/kaha" sözünün (11, s. 26) birləşməsindən əmələ gəlib, "böyük mağara yanında salınan kənd" mənasını ifadə edir. Deməli, toponimin ikinci komponenti "gah", "kah" sözünün fonetik variantıdır və sözdə "k~g" səs əvəzlənməsi baş vermişdir. Bu hadisə Azərbaycan dili üçün qanunauyğun haldır. Erm. SSR AS RH-nin 10 may 1951-ci il tarixli

qanunu ilə kəndin adı dəyişdirilərək "Sarıgyuğ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 177).

Coğrafi koordinatları: 41°03′ şm. e., 45°08′ ş. u.

**Sarımsaxlı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Quqark (Qarakilsə) rayonunda, indi Lori vilayətində kənd. Quqark şəhərindən 13 km məsafədə, Pəmbək çayının sol sahilində, dəniz səviyyəsindən 1675 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində "Sarmusaxlı" formasında qeyd edilmişdir (348, s. 219). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim yabanı bitki adı olan "sarımsaq" sözünə "-lı" şəkilçisinin artırılması əsasında yaranmışdır. Fitotoponimdir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Karaberd" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 206).

Coğrafi koordinatları: 40°50′ şm. e., 44°31′ ş. u.

**Sarıyaqub** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 83 km şimal-şərqdə, Məzrə çayının yaxınlığında, dəniz səviyyəsindən 2100 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 221) . Kənddə 1873-cü ildə 294, 1886-cı ildə 416, 1897-ci ildə 436, 1908-ci ildə 385, 1914-cü ildə 675, 1916-cı ildə 651 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1919-cu ilin aprel ayında azərbaycanlılar erməni silahlı birləşmələrinin törətdikləri qırğınlar nəticəsində kənddən qovulmuşlar (309, s. 305). 1920-ci ildə Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. Sarıyaqubda 1922-ci ildə 343, 1926-cı ildə 377, 1931-ci ildə 471 (415, s. 26–27, 112–113), 1939-cu ildə 568, 1959-cu ildə 594, 1970-ci ildə 834, 1979-cu ildə 1049 (416, s. 168), 1987-ci ildə 1780 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kənd əhalisi ermənilər tərəfin-



*Sarıyaqub kəndi*

dən zorakılıqla deportasiya edilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Kənd Miskin Abdalın babası Sarı Yaqub tərəfindən salındığı üçün onun adı ilə adlandırılmışdır. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Cağazadzor" qoyulmuşdur. 7 noyabr 1995-ci il tarixli "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 168).

Coğrafi koordinatları: 40°08′ şm. e., 45°48′ ş. u.

**Sarıyar** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda kənd. İndi Lori vilayətində şəhər. Taşir (Kalinino) şəhərindən 12 km şimal-şərqdə, dəniz səviyyəsindən 1700 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində kəndin adı "Sarılar" kimi göstərilir (419, s. 51). Əvvəlcə Qızıldaş sovetliyinin tərkibində, 1937-ci ilə kimi isə keçmiş Cəlaloğlu (Stepanavan) rayonunun tabeliyində olub. Kənddə 1886-cı ildə 78, 1897-ci ildə 92, 1904-cü ildə 105, 1914-cü ildə 97 nəfər azərbaycanlı yaşamışdır (415, s. 80–81, 150–151). 1916–1918-ci illərdə kəndin köklü sakinləri olan azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qırğınlara məruz qala-

raq deportasiya olunmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 149, 1926-cı ildə 162, 1931-ci ildə 181 nəfər azərbaycanlı yaşamışdır (415, s. 80–81, 150–151). 1988-ci ilin sonlarında Ermənistan dövləti kəndin köklü sakinləri olan azərbaycanlıları tarixi-etnik torpaqlarından deportasiya etmişdir. Hazırda kənddə yalnız ermənilər məskunlaşıb. Toponim rəng bildirən "sarı" sözü ilə qədim türk dilində "yarğan" mənasında işlənən "yar" (299, s. 238) sözünün birləşməsindən əmələ gəlmişdir. Kəndin ərazisindəki torpaq sarı rəngli süxurlardan ibarətdir. Ona görə də kənd Sarıyar adlandırılıb. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Apavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 23).

Coğrafi koordinatları: 41°12 şm. e., 44°21′ ş. u.

**Sarvanlar** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 20 km şimal-qərbdə, Araz çayının yaxınlığında, dəniz səviyyəsindən 828 m hündürlükdə yerləşir. Zəngibasar (Masis) rayonu təşkil edilənədək keçmiş Vağarşabad (Eçmiədzin) rayonunun tərkibində olmuşdur. Kəndin ilk adı "Ulya Sarvanlar" (yəni ərəbcə "Yuxarı Sarvanlar" – *müəl.*) olmuşdur (415, s. 82). Qafqazın 5 verstlik xəritəsində kəndin adı "Sarvanlar Ulya" kimi göstərilir (415, s. 219). Kənddə 1831-ci ildə 153, 1873-cü ildə 970, 1886-cı ildə 1024, 1897-ci ildə 953, 1904-cü ildə 1465, 1914-cü ildə 1910, 1916-cı ildə 801 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşlar. Yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 372, 1926-cı ildə 418, 1931-ci ildə 404 (415, s. 82–83, 152–153), 1939-cu ildə 580, 1959-cu ildə 816, 1970-ci ildə 1253, 1979-cu ildə 1552 nəfər (416, s. 180) yalnız azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin sakinləri 1948-ci ildə zorla Azərbaycana köçürülmüşlər. 1950-ci illərdə onların bir qismi yenidən öz kəndlərinə qayıda bilmişdir. 1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan dövləti tərəfindən törədilən qırğınlar nəticəsində azərbaycanlılar kənddən deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim kəngərli qədim türk tayfasından olan "sarvanlar" etnonimi (386, s. 537) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Sis" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 180).

Coğrafi koordinatları: 40°03′ şm. e., 44°23′ ş. u.

**Saybalı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonu ərazisində, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 119 km şimal-qərbdə, dəniz səviyyəsindən 2100 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. 1918-ci ildə kənd sakinləri erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kəndi tərk etmişlər. 1924–1925-ci illərdə İran və Türkiyədən köçürülən ermənilər kəndə yerləşdirilmişdir (415, s. 77, 146–147). Toponim qədim türk dilində "vulkan mənşəli daşlıq", "düzənlik, düzəngah, səhra" mənasında işlənən "say" sözü ilə (299, s. 481) "sığınacaq, şəhər, qala" mənasında işlənən "balıq (balık, baluq)" sözü (399, s. 379; 299, s. 81) əsasında

formalaşmışdır. "Saybalı" toponiminin ikinci komponenti olan "balı" sözünün sonunda "q" samiti düşmüşdür. M.Kaşğari arqu tayfasının yaşadığı şəhərin adının da Balu olduğunu qeyd etmişdir (299, s. 81). M.Kaşğarinin adını çəkdiyi "Balu" toponimi "balıq" sözündən əmələ gəlmişdir. "Saybalı" toponimi relyef əsasında yaranan toponimdir. Erm. SSR AS RH-nin 10 sentyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Sarnakunk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 174).

Coğrafi koordinatları: 39°38' şm. e., 45°53' ş. u.

**Seyidkənd** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Keçmiş Zəngibasar rayonu təşkil edilənədək Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. Digər adı "Qarapapaq kəndi" olmuşdur (415, s. 50). Qafqazın 5 verstlik xəritəsində (348, s. 223) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 130, 1873-cü ildə 345, 1886-cı ildə 346, 1897-ci ildə 483, 1904-cü ildə 410, 1914-cü ildə 705 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). 1918-ci ildə kəndin köklü sakinləri olan azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar ata-baba yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 99, 1926-cı ildə 131, 1931-ci ildə 118 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Deportasiya edilənlərin bir qismi 1952-ci ildə doğma kəndlərinə qayıda bilmişdir. Kənd sonradan ləğv edilərək ərazisi yeni yaradılan Kalinin qəsəbəsinə daxil edilmişdir. Azərbaycanlılar 1988-ci ildə Ermənistan dövləti tərəfindən tamamilə deportasiya olunmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Toponim "seyid" etnonimi ilə (245, s. 55) "kənd" coğrafi nomeninin birləşməsindən əmələ gəlib, mənası "seyid tayfasının yaşadığı kənd" deməkdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə Kalinin qəsəbəsinin adı dəyişdirilərək "Noramarq" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 151).

Coğrafi koordinatları: 40°01′ şm. e., 44°25′ ş. u.

**Səmadərviş** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Araqats (Alagöz) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 34 km şimal-şərqdə, Abaran çayının sol axarında, dəniz səviyyəsindən 1945 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Samdərviş" (143, s. 110), Qafqazın 5 verstlik xəritəsində "Samadərviş" kimi (348, s. 217) qeyd edilmişdir. Ədirnə müqaviləsinə (1829) əsasən, İrəvan xanlığının ərazisinə ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Ermənilər kəndə 1829–1830-cu illərdə Türkiyədən köçürülüb yerləşdirilmişlər (416, s. 165). Toponim "səma" və "dərviş" sözlərinin birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 1 iyun 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Çknax" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 165).

Coğrafi koordinatları: 40°35′ şm. e., 44°26′ ş. u.

**Səngər** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Araqats (Alagöz) rayonunda, indi Araqatsotn vilayətində kənd. Araqats (Alagöz) yaşayış məntəqəsindən 3 km məsafədə, dəniz səviyyəsindən 2070 m hündürlükdə yerləşir. 1877–1878-ci illər rus-türk müharibəsindən sonra Türkiyədən köçürülüb gətirilən yezidi kürd-

lər kənddə məskunlaşdırılmışdır. Bundan sonra azərbaycanlılar kəndi tədricən tərk etmişlər. 1972-ci ilə kimi kənd keçmiş Abaran rayonunun tabeliyində olmuşdur. 1972-ci ildə Araqats (Alagöz) rayonu yaradıldıqdan sonra Abaran rayonunun tabeliyindən Araqats rayonunun tabeliyinə keçirilmişdir. Toponim qədim türk dilində "dağ burnu" mənasında işlənən "səngər" (sengir) sözü (299, s. 495) əsasında əmələ gəlmişdir. Hazırda kənddə yezidi kürdlərlə yanaşı, ermənilər də yaşayır. Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Kaniaşir" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 107).

Coğrafi koordinatları: 40°39′ şm. e., 44°14′ ş. u.

**Sərdarabad** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda, indi Armavir vilayətində şəhər. İrəvan şəhərindən 43 km qərbdə, dəniz səviyyəsindən 860 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 219). 1897-ci ildə kənddə 44 nəfər azərbaycanlı yaşamışdır (415, s. 64–65). Azərbaycanlılar 1905–1906-cı illərdə erməni silahlı birləşmələrinin törətdiyi qırğınlar nəticəsində deportasiya olunmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "bir vilayəti idarə edən və dövlət başçısı adından sərəncam vermək hüququna malik olan hakim" mənasında işlənən "sərdar" sözü ilə (12, s. 59) "abad" sözünün birləşməsindən əmələ gəlib, "Sərdarın abad etdiyi, saldığı kənd" mənasını verir. Toponimin tərkibindəki "sərdar" və "abad" ifadəsi kəndin İrəvan xanı tərəfindən inşa edildiyini göstərir. Ərazi İrəvan xanlarının mülkü olmuşdur. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Hoktember" (1917-ci il Oktyabr inqilabının şərəfinə), Ermənistan Respublikası prezidentinin 7 noyabr 1995-ci il tarixli fərmanı ilə yenidən dəyişdirilərək "Armavir" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin mərkəzidir (416, s. 36).



*Sərdarabad şəhəri*

Coğrafi koordinatları: 40°09′ şm. e., 44°02′ ş. u.

**Sətənağac** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 100 km şərqdə, Göyçə gölünün şərqində, dəniz səviyyəsindən 2000 m hündürlükdə yerləşir. Kəndə "Satanaxaç" da deyilir. Kəndin digər adı "Hacı Qərib" olmuşdur (415, s. 26). Kənddə 1873-cü ildə 132, 1886-cı ildə 214, 1897-ci ildə 299, 1908-ci ildə 343, 1914-cü ildə 659, 1916-cı ildə 430, 1919-cu ildə 360 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1919-cu ilin aprelində azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və qırğınlar nəticəsində deportasiya olunmuşlar (309, s. 305). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 300, 1926-cı ildə 327, 1931-ci ildə 411 (415, s. 26–27, 112–113), 1939-cu ildə 481, 1959-cu ildə 562, 1979-cu ildə 1223 (427, s. 919), 1987-ci ildə 1890 nəfər (85, s. 291) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci il noyabrın axırlarında və dekabrın əvvəllərində Ermənistan dövləti kəndin köklü sakinləri olan azərbaycanlıları tarixi-etnik torpaqlarından deportasiya etmişdir. Hazırda kənddə ermənilər yaşayır. Toponim türk dilində "çəpər", "hasar"



*Sətənağac kəndi*

mənasında işlənən "sadan" sözünə (359, IV (1), s. 484), "tir, dirək, taxta" mənasını ifadə edən "ağac" sözünün (9, s. 37) qoşulması əsasında formalaşmışdır. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Güney", Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Arequni" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 31).

Coğrafi koordinatları: 40°20′ şm. e., 45°36′ ş. u.

**Siçanlı** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 51 km şimal-qərbdə, Talin şəhərindən 25 km şərqdə, Alagöz dağının cənub-qərbində, dəniz səviyyəsindən 2050 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 225). Kənddə əvvəlcə azərbaycanlılar yaşamışlar. Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinə əsasən, ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar tədricən kəndi tərk etmişlər. Toponim oğuzların beydilli tayfasından olan "sincan" (sıçan) etnoniminə (238, s. 290) mənsubluq bildirən "-lı" şəkilçisinin qoşulması yolu ilə əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Avtona", Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Metsazor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 137).

Coğrafi koordinatları: 40°23′ şm. e., 44°03′ ş. u.

**Sirkətas** – Yelizavetpol (Gəncə) quberniyasının Zənəgəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 9 km şimal-şərqdə, dəniz səviyyəsindən 1050 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə ermənilərdən başqa, 1926-cı ildə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60). 1929-cu ildə azərbaycanlılar kənddən sıxışdırılıb çıxarılmışlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim türk dilində "dərə", "təpə", "yarğan" mənasında işlənən "sir" (sır) sözü ilə (337, s. 240; 339, s. 505) türk dilində "daş, qaya" mənasında işlənən "tas" sözünün (339, s. 546) birləşməsindən əmələ gəlmişdir. Kəndin adı 1920-ci ildə dəyişdirilərək "Xdrans" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 96).

Coğrafi koordinatları: 39°13′ şm. e., 46°31′ ş. u.

**Siznək** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonu ərazisində, indi Sünik vilayətində kənd. Oxçu çayının sol sahilində, dəniz səviyyəsindən 760 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə 1897-ci ildə 179, 1904-cü ildə 180 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137).

1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qırğınlara məruz qoyularaq deportasiya olunmuşdur (309, s. 205). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərinin bir qismi geri qayıtmışdır. Kənddə 1922-ci ildə 76, 1931-ci ildə 121 (415, s. 60–61, 136–137), 1959-cu ildə 409, 1979-cu ildə 432 nəfər (85, s. 154) azərbaycanlı yaşamışdır. 1988-ci il noyabrın sonlarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tamamilə deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində "duman, çən" mənasında işlənən "sis" sözünə "-nək" şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. "Sis" sözü "siznək" toponimində "siz" formasına düşmüşdür. Hazırda erməni dilində olan rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Sznak" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 180).

Coğrafi koordinatları: 39°13′ şm. e., 46°28′ ş. u.

**Sofulu** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 126 km şimal-qərbdə, dəniz səviyyəsindən 1900 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə 1886-cı ildə 330, 1905-ci ildə 970, 1959-cu ildə 1816 (85, s. 190), 1986-cı ildə isə 1124 nəfər azərbaycanlı yaşamışdır (244 a, s. 295). 1988-ci ilin noyabr ayında azərbaycanlılar qırğınlara məruz qalaraq kənddən qovulmuşlar. Hazırda burada yalnız ermənilər yaşayır. Toponim sofulu türk tayfasının adı əsasında əmələ gəlmişdir. Hazırda erməni dilində olan rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Soflu" kimi yazılır. Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Njdeh" (faşist ideologiyasının təbliğatçısı) qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 146).

Coğrafi koordinatları: 39°22′ şm. e., 45°59′ ş. u.

**Solak** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 9 km cənub-qərbdə, Zincirli dağının ətəyində, dəniz səviyyəsindən 1600 m hündürlükdə yerləşir. Adı "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmişdir (143, s. 53). 1828-ci ilə kimi kənddə yalnız azərbaycanlılar yaşamışlar. Türkmənçay müqaviləsindən sonra – 1828–1830-cu illərdə kəndə Türkiyənin Ələşkirt və Van vilayətlərindən ermənilər köçürülmüşdür (386, s. 591–594). Kənddə 1831-ci ildə 94 nəfər azərbaycanlı yaşamışdır (386, s. 591). Azərbaycanlılar 1850-ci illərdə erməni silahlıları tərəfindən qovulmuşlar. Kənddə indi yalnız ermənilər yaşayır. Toponim "solak" türk tayfasının adı əsasında (271, s. 106) əmələ gəlmişdir. Türk dilində "solak" "qulağı uzununa kəsik" mənasını bildirir (359, IV (2), s. 550). Hazırda erməni dilində olan rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı eynilə "Solak" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 181).

Coğrafi koordinatları: 40°27′ şm. e., 44°42′ ş. u.

**Sonqurlu** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 20 km cənubda, dəniz səviyyəsindən 1590 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmişdir (143, s. 128). Ədirnə müqaviləsinə (1829) əsasən, İrəvan xanlığının ərazisində ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Toponim oğuzların bayandır, beçənə, çavuldur, çəpni tayfalarının onqonu olan "sunqur" quş adı (238, s. 217) əsasında yaranan "sonqurlu" tayfa

adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 31 may 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Hayrenyans" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 177).

Coğrafi koordinatları: 40°37' şm. e., 43°52' ş. u.

**Soylan** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd. Keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayətində şəhər. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 17 km cənub-şərqdə, Arpa çayının sol tərəfində, Keşişkənd (Yeğeqnadzor)–İstisu (Cermuk) yolunun üzərində, İrəvan şəhərindən 139 km məsafədə, dəniz səviyyəsindən 1300 m hündürlükdə yerləşir. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə "Soyulan" (143, s. 59), Qafqazın 5 verstlik xəritəsində "Soylan" kimi (348, s. 227) qeyd edilmişdir. Erməni və XIX əsr rus mənbələrində kəndin qədim adının "Soylanlı" olduğu göstərilib (415, s. 90; 386, s. 619). Burada 1831-ci ildə 58, 1897-ci ildə 14 nəfər azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158). XX əsrin əvvəllərində azərbaycanlılar sıxışdırılaraq qovulmuş və ermənilər yerləşdirilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "söklən" (soylan) türk tayfasının adından (238, s. 180, 187) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 12 oktyabr 1956-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək əvvəlcə "Əzizbəyov", 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Vayk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 186).

Coğrafi koordinatları: 39°41' şm. e., 45°28' ş. u.

**Soyuqbulaq** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 57 km şimal-qərbdə, Qaraarxac (Qaraxaç) dağının ətəklərində, dəniz səviyyəsindən 1750 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi keçmiş Cəlaloğlu (Stepanavan) rayonunun tərkibində olmuşdur. Kənddə 1886-cı ildə 159, 1897-ci ildə 154, 1904-cü ildə 230, 1914-cü ildə 125, 1916-cı ildə 375 nəfər azərbaycanlı yaşamışdır (415, s. 80–81, 150–151). 1918-ci ildə erməni silahlı birləşmələrinin soyqırımına məruz qalan azərbaycanlılar deportasiya olunmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar yenidən öz kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 402, 1926-cı ildə 405, 1931-ci ildə 420 (415, s. 80–81, 150–151), 1938-ci ildə 382, 1959-cu ildə 419, 1979-cu ildə 695 nəfər (416, s. 166) azərbaycanlı yaşamışdır. 1988-ci ilin sonlarında azərbaycanlılar erməni terrorçu dəstələrinin təcavüzünə məruz qalaraq kənddən deportasiya olunmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində "sərin" mənasında işlənən "soyuq" sözü ilə "bulaq" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Pağağbyur" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 166).

Coğrafi koordinatları: 41°10' şm. e., 44°07' ş. u.

**Söyüdlü** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 34 km cənubda, Qaranqu çayının sol tərəfində, dəniz səviyyəsindən 1900 m hündürlükdə yerləşir. Ədirnə müqaviləsinə (1829) əsasən, İrəvan xanlığının ərazisinə ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Toponim oğuz tayfalarına aid olan "söyüdlü" etnonimi (238, s. 326; 407, s. 26, 103) əsasında formalaşmışdır. Erm. SSR AS RH-nin 2 mart 1940-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Sarnaxpyur" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü

haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 174).

Coğrafi koordinatları: 40°31′ şm. e., 43°54′ ş. u.

**Subatan** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 81 km cənub-şərqdə, Qızılbulaq çayının yanında, dəniz səviyyəsindən 2150 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 228) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 180, 1886-cı ildə 263, 1897-ci ildə 306, 1908-ci ildə 368, 1914-cü ildə 429, 1916-cı ildə 301 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1919-cu ilin aprel ayında azərbaycanlılar erməni silahlı dəstələrinin törətdiyi qırğınlar nəticəsində kənddən didərgin salınmışlar. 1920-ci ildə indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar geri qayıda bilmişlər. 1922-ci ildə kənddə 206, 1926-cı ildə 349, 1931-ci ildə 259 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). Azərbaycanlılar 1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim qədim türk dilində "çay" mənasında işlənən "su" (359, IV (1), s. 746) və "batan" feili sifətinin birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Geğakar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 56).

Coğrafi koordinatları: 40°07′ şm. e., 45°41′ ş. u.

**Sultanabad** – Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, keçmiş Amasiya rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 35 km məsafədə, Arpa gölünün sahilində, dəniz səviyyəsindən 2040 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 231). Kəndin sakinləri azərbaycanlılar olmuşlar. Erməni müəlliflərinin əsərlərində kənddə yaşayanların qarapapaqlar olduğu göstərilir (415, s. 20). Qarapapaqlar isə türk tayfalarından biridir. Kənddə 1886-cı ildə 171, 1897-ci ildə 249, 1908-ci ildə 286, 1914-cü ildə 384 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20–21, 106–107). Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevral ayında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhalisi qaçqın düşmüşdür. 1921-ci il Qars müqaviləsi ilə kənd Ağbaba nahiyəsinin tərkibində sovet Ermənistanına daxil edilmişdir. Bundan sonra əhalinin bir qismi kəndə qayıtmışdır. Kənddə 1922-ci ildə 144, 1926-cı ildə 198, 1931-ci ildə 224 (415, s. 20–21, 106–107), 1970-ci ildə 219, 1979-cu ildə 260 (416, s. 165–166), 1987-ci ildə 319 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin sonu – 1989-cu ilin əvvəllərində azərbaycanlılar Ermənistan dövləti tərəfindən kənddən qovulmuş, burada Gürcüstanın Axılkələk və Boqdanovka (Ninosminda) rayonlarından köçüb gələn ermənilər məskunlaşmışlar. Toponim iki sözün – şəxs adı bildirən "Sultan" və "çoxlu tikintisi, yaşayış üçün hər cür şəraiti olan; şen" (9, s. 25) mənasında işlənən "abad" sözlərinin birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 12 noyabr 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Şurabad", 8 avqust 1991-ci il tarixli qərarı ilə təkrar dəyişdirilərək "Pağakn" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 165–166).

Coğrafi koordinatları: 41°03′ şm. e., 43°40′ ş. u.

**Sultanbəy** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 41 km cənub-şərqdə, dəniz səviyyəsindən 1950 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbay-

canlılar yaşamış, Türkmənçay müqaviləsinə (1828) əsasən, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali kəndi tədricən tərk etmişdir. 1829-cu ildə İranın Səlmas əyalətindən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir (427, s. 932). Kənd Sultan adlı bəy tərəfindən salındığı üçün "Sultanbəy" kəndi adlanmışdır. Toponim şəxs adı əsasında əmələ gələn antropotoponimdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Bartsiruni" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 174).

Coğrafi koordinatları: 39°31′ şm. e., 45°28′ ş. u.

**Sultanəli qışlağı (Canəhməd)** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Kəndin başqa adları "Əhmədli" və "Canəhməd" olmuşdur (415, s. 26). Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 97 km cənub-şərqdə, Ağyoxuş aşırımının ətəyində, dəniz səviyyəsindən 2100 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 231). Erməni müəlliflərinin əsərlərində "Canəhməd kəndi" kimi öz əksini tapmışdır (415, s. 26). Kənddə 1873-cü ildə 245, 1886-cı ildə 348, 1897-ci ildə 442, 1908-ci ildə 422, 1914-cü ildə 523, 1916-cı ildə 475 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən törədilən qırğınlar nəticəsində kənddən qovulmuşlar. 1920-ci ildə indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar öz kəndlərinə qayıtmışlar. Kənddə 1922-ci ildə 194, 1926-cı ildə 335, 1931-ci ildə 383 (415, s. 26–27, 112–113), 1939-cu ildə 339, 1959-cu ildə 337, 1979-cu ildə 589 (427, s. 918), 1987-ci ildə 1500 nəfər (85, s. 291–292) azərbaycanlı yaşamışdır. 1988-ci il noyabr ayının axırlarında kənd əhalisi ermənilər tərəfindən törədilən qırğınlar nəticəsində öz doğma kəndlərindən qovulmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim şəxs adı əsasında formalaşmışdır. Coğrafi ərazi Sultanəli adlı şəxs tərəfindən salındığı və qışlaq yeri olduğu üçün "Sultanəli qışlağı" adlanmışdır. Kəndin adı əvvəlcə dəyişdirilərək "Canəhməd" qoyulmuşdur. Erm. SSR AS RH-nin 3 iyul 1969-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Günəşli", 3 aprel 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Kutakan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 115).

Coğrafi koordinatları: 40°16′ şm. e., 45°50′ ş. u.

**Susuz** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 63 km şimal-qərbdə, dəniz səviyyəsindən 1610 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Ermənilər kəndə 1828–1830-cu illərdə Türkiyənin Muş və Malazgirt vilayətlərindən köçürülüb yerləşdirilmişlər (416, s. 198). 1918-ci ilin əvvəlində kənddə 90 nəfər azərbaycanlı yaşamışdır (309, s. 220). Kəndin azərbaycanlı əhalisi 1918-ci ilin fevral-mart aylarında ermənilərin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur (309, s. 220). Toponim türk dilində "çay, kiçik çay, gölməçə" mənasında işlənən "su" sözü ilə (339, s. 528–529; 299, s. 512) "-suz" şəkilçisinin birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Tsamakasar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 198).

Coğrafi koordinatları: 40°27′ şm. e., 43°45′ ş. u.

**Suvaranats** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayətində kənd. Gorus

şəhərindən 35 km məsafədə yerləşir. Kəndin adı Azərbaycan mənbələrində "Suvarı" kimi qeyd edilmişdir (231, s. 53). 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim "suvar" türk etnonimi (287, s. 127–128) əsasında yaranmışdır. Toponimin sonundakı "-ants" erməni dilində mənsubluq anlayışını ifadə edir və Azərbaycan dilində mənsubluq bildirən "-lı" şəkilçisinin vəzifəsini yerinə yetirir. Deməli, Suvarants "suvar tayfasına mənsub olan yer" anlamını verir. Hazırda erməni dilində olan rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Svarants" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 183).

Coğrafi koordinatları: 39°21′ şm. e., 46°12′ ş. u.

**Sübhanverdi** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 22 km cənub-qərbdə, Arpaçayın yaxınlığında, dəniz səviyyəsindən 1470 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Sübhanverdi" (143, s. 130), Qafqazın 5 verstlik xəritəsində "Suvanverdi" kimi (348, s. 230) qeyd edilmişdir. Ədirnə müqaviləsinə (1829) əsasən, İrəvan xanlığının ərazisinə ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Toponim "Sübhanverdi" şəxs adı əsasında formalaşmışdır. Erm. SSR AS RH-nin 3 fevral 1947-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lyusaxpyur" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 94).

Coğrafi koordinatları: 40°38′ şm. e., 43°44′ ş. u.

# Ş

**Şabadin** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 19 km şimalda, dəniz səviyyəsindən 1350 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 289). Kənddə 1831-ci ildə 51, 1873-cü ildə 198, 1886-cı ildə 261, 1897-ci ildə 316, 1904-cü ildə 317, 1914-cü ildə 375 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış, kənd yandırılmış, əhalinin bir qismi qətlə yetirilimiş, bir qismi isə didərgin salınmışdır (309, s. 205; 244 a, s. 300). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlıların bir qismi öz evlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 151, 1926-cı ildə 175, 1931-ci ildə 213 nəfər (415, s. 60–61, 136–137) azərbaycanlı yaşamışdır. 1988-ci il noyabrın axırlarında azərbaycanlılar tamamilə öz doğma ocaqlarından qovulmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim türk dilində "bitkisiz, qumlu, daşlı dağ yamacı", "yastı, sıldırım sahil" (287, s. 477), "uçurum, sıldırım", "yamac", "dərin dağarası çuxurda yüksəklik" (339, s. 607) mənasında işlənən "çap" (şab) sözü ilə türk dilində "dincəlmək üçün dayanmaq", "istirahət", "dincəlmək" mənasında işlənən "din" (dın) sözünün (367, s. 341–343) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Yeğek" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 71).

Coğrafi koordinatları: 39°17′ şm. e., 46°25′ ş. u.

**Şahab** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 40 km cənub-qərbdə, dəniz səviyyəsindən 1400 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 77), Qafqazın 5 verstlik xəritəsində (348, s. 240) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim "şahablı" nəsil adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 11 aprel 1940-cı il tarixli qərarı ilə adı dəyişdirilərək "Mayakovski" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 131–132).

Coğrafi koordinatları: 40°15' şm. e., 44°38' ş. u.

**Şahablı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 35 km cənub-şərqdə, Qırxbulaq çayının yanında, dəniz səviyyəsindən 1300 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 106), Qafqazın 5 verstlik xəritəsində (348, s. 290) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 437, 1886-cı ildə 606, 1897-ci ildə 853, 1904-cü ildə 827, 1914-cü ildə 910, 1916-cı ildə 966 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən kənddən qovulmuşlar. Türkiyənin Van və Şatax vilayətlərindən köçürülüb gətirilən ermənilər bu kəndə yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə dönmüşlər. Kənddə 1922-ci ildə 64, 1926-cı ildə 41, 1931-ci ildə 79 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Hazırda burada yalnız ermənilər yaşayır. Toponim "şahablı" nəsil adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 iyul 1968-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Şağap" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 155).

Coğrafi koordinatları: 39°52′ şm. e., 44°54′ ş. u.

**Şahəli** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Quqark (Qarakilsə) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 21 km şimal-şərqdə, dəniz səviyyəsindən 1030 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Adı şəxs adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 10 aprel 1947-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vahaqni" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 185).

Coğrafi koordinatları: 40°54′ şm. e., 44°36′ ş. u.

**Şahnəzər** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 39 km şimal-qərbdə, dəniz səviyyəsindən 1575 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Kənddə 1831-ci ildə 6, 1897-ci ildə 3, 1926-cı ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, s. 80–81, 150–151). 1930-cu illərdə azərbaycanlılar kənddən qovulmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim şəxs adı əsasında əmələ gəlib. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Metsavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci

il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 137).

Coğrafi koordinatları: 41°12′ şm. e., 44°13′ ş. u.

**Şahvarid** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 11 km cənub-qərbdə, Araz çayının sol sahilində, dəniz səviyyəsindən 900 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 293). Kənddə 1831-ci ildə 59, 1873-cü ildə 72, 1886-cı ildə 116, 1897-ci ildə 153, 1908-ci ildə 96, 1914-cü ildə 128, 1916-cı ildə 132 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 64–65, 138–139). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və azərbaycanlılar qırğınlar nəticəsində deportasiya olunmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar ata-baba yurdlarına qayıtmışlar. Kənddə 1922-ci ildə 108, 1926-cı ildə 106, 1931-ci ildə 96 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 64–65, 138–139). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kənd sakinləri olan azərbaycanlılar 1948–1949-cu illərdə zorla tarixi-etnik torpaqlarından Azərbaycana deportasiya olunmuşlar. Kəndə xaricdən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim fars dilində "qaya, möhkəm, bərk" mənasında işlənən "şah" sözü ilə (339, s. 625) Azərbaycan dilində "möhkəmləndirilmiş kənd, qala" mənasında işlənən "var" sözünə (339, s.113) "-ud" şəkilçisinin qoşulması nəticəsində əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 iyul 1968-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Huşakert" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 125).

Coğrafi koordinatları: 40°04′ şm. e., 43°55′ ş. u.

**Şahverdilər** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayəti ərazisində kənd. Gorus rayon mərkəzindən 14 km cənubda, Gorus–Qafan şose yolunun kənarında, Bazarçayın (Bərgüşad) üzərində yerləşmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 293). Kəndin digər adı "Şahverdiuşağı" olmuşdur (415, s. 28). Kənddə 1886-cı ildə 238, 1897-ci ildə 217, 1904-cü ildə 111, 1914-cü ildə 147 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 28–29, 114–115). Erməni silahlı dəstələri 1918-ci ilin avqust-sentyabr aylarında Şahverdilər kəndini yandırmış, kənd sakinlərindən 87 nəfəri qətlə yetirmiş, qalan camaat isə Qubadlı bölgəsinə qaçmışdır. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Sovet hökuməti qurulduqdan sonra cəmi 40 ailə yenidən geriyə dönərək Şahverdilər kəndini bərpa etmişdir. Kəndin adı bu yaşayış məntəqəsinin əsasını qoymuş nəslin adı ilə bağlıdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kənd əhalisi 1951-ci ildə tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur. 1953-cü ildə İ.Stalinin vəfatından sonra əhalinin bir qismi kəndə qayıda bilmişdir. 1961-ci ildə Tatev su elektrik stansiyası tikilərkən kənd "Vorotan qəsəbəsi" adlandırılmışdır. Həmin vaxtdan 8 erməni ailəsi Şahverdilər kəndinə köçərək orada məskunlaşmışdır. 1988-ci ildə kənddə 80 nəfər azərbaycanlı yaşayırdı. Həmin ilin noyabrında Şahverdilər kəndi boşaldılmış, əhalinin var-dövləti, ev-eşiyi əvəzsiz olaraq ermənilərə qalmışdır (244 a, s. 301–302).

Coğrafi koordinatları: 39°26′ şm. e., 46°20′ ş. u.

**Şam** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 8 km şimal-şərqdə, dəniz səviyyəsindən 1375 m hündürlükdə yerləşir. 1921-ci

il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə 1886-cı ildə 234, 1905-ci ildə 405, 1914-cü ildə 404 nəfər azərbaycanlı yaşamışdır (244 a, s. 302). Qafqazın 5 verstlik xəritəsində "Şamkəndi" kimi qeyd edilmişdir (348, s. 291). Erməni mənbələrində kəndin adı "Şamb" kimi verilir. Toponimin ilkin forması "Şam"dır. Toponimin sonundakı "b" samiti sonradan artırılaraq erməni dilində "qarğı, qamış" mənasını verən şamb formasına uyğunlaşdırılmışdır. Toponim qızılbaşların şamlı tayfasının adından qalmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 154).

Coğrafi koordinatları: 39°28′ şm. e., 46°09′ ş. u.

**Şamlıq** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Allahverdi (Tumanyan) rayonunda, indi Lori vilayətində kənd. Hazırda şəhərtipli qəsəbədir. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 96 km şimal-şərqdə, dəniz səviyyəsindən 1175 m hündürlükdə yerləşir.



*Şamlıq kəndi*

Kənddə filiz (mis) yataqları olduğuna görə burada mis mədənləri tikilmişdir. Kənddə 1886-cı ildə 7, 1897-ci ildə 49 nəfər azərbaycanlı yaşamışdır (415, s. 12–13, 100–101). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və qırğınlar nəticəsində deportasiya olunmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar ata-baba torpaqlarına qayıtmışlar. Kənddə 1922-ci ildə 62, 1926-cı ildə 65, 1931-ci ildə 166 (415, s. 12–13, 100–101), 1959-cu ildə 260, 1970-ci ildə 266 nəfər azərbaycanlı yaşamışdır. Qəsəbədə azərbaycanlılarla yanaşı, yunanlar, ermənilər və ruslar da yaşamışlar. Azərbaycanlılar 1988-ci ilin noyabr ayında Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. Hazırda burada yunanlar və ermənilər yaşayır. Toponim "şam" ağac adına "-lıq" şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 155).

Coğrafi koordinatları: 41°10′ şm. e., 44°43′ ş. u.

**Şeyx Hacı** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 46 km şimal-qərbdə, Alagöz dağının qərb ətəyində, dəniz səviyyəsindən 2000 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 296). Kənddə 1831-ci ildə 19, 1873-cü ildə 233, 1886-cı ildə 245, 1897-ci ildə 338, 1908-ci ildə 337, 1914-cü ildə 337, 1916-cı ildə 311 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 36–37, 118–119). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış, azərbaycanlılara qarşı qırğınlar törədilmişdir. Kənddə Türkiyədən köçürülən ermənilər məskunlaşdırılmışdır. Hazırda burada yalnız ermənilər yaşayır. Toponim "Şeyx Hacı" şəxs adı əsasında əmələ gəlib "Şeyx Hacıya mənsub kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Şğarşik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 159).

Coğrafi koordinatları: 40°25′ şm. e., 43°58′ ş. u.

**Şəhərcik** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonu ərazisində, indi Sünik vilayətində kənd. Vilayət

mərkəzi Qapan şəhərindən 7 km şimalda, Oxçu çayının sol sahilində yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd olunmuşdur (348, s. 290). Kənddə 1831-ci ildə 37, 1873-cü ildə 162, 1886-cı ildə 371, 1897-ci ildə 341, 1904-cü ildə 395, 1914-cü ildə 180 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərinin bir qismi öz yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 262, 1926-cı ildə 316, 1931-ci ildə 425 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137). 1960-cı ildə Şəhərcik kəndi inzibati-ərazi vahidi kimi ləğv edilmiş, Qafan şəhərinin qəsəbəsinə çevrilmişdir. 1988-ci il noyabrın axırlarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən kənddən qovulmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim cavanşir türk tayfasına mənsub olan "şəhərcik" etnonimi (286, s. 73) əsasında əmələ gəlmişdir.

Coğrafi koordinatları: 39°12′ şm. e., 46°24′ ş. u.

**Şəhriz** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, Dərəçiçək mahalında, keçmiş Sevan rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 37 km şimal-qərbdə, Göyçə gölünün yaxınlığında, İrəvan–Sevan yolunun üstündə, Zəngi çayının yanında, dəniz səviyyəsindən 1850 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə illik gəlirinin 11.000 ağça təşkil etdiyi göstərilmişdir (143, s. 53). Kəndin digər adı "Kərimkənd" olmuşdur (415, s. 18). Ermənilər kəndə 1828–1829-cu illərdə Türkiyənin Ələşkirt, İranın Maku vilayətlərindən köçürülmüşlər (427, s. 828; 416, s. 54). 1831-ci ildə kənddə 441 azərbaycanlı, 86 erməni yaşamışdır (249 a, s. 343). Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Geğamavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 54).

Coğrafi koordinatları: 40°33′ şm. e., 44°53′ ş. u.

**Şəki** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 103 km şimal-qərbdə, dəniz səviyyəsindən 1710 m hündürlükdə yerləşir. Məşhur Şəki şəlaləsi kəndin ərazisindədir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil



*Şəki kəndi*

edilmişdir. 1728-ci il tarixində tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə Sisian nahiyəsinə daxil olan kəndlər siyahısında "Şəki kəndi" adı ilə qeyd edilmiş və illik gəlirinin 5959 ağça təşkil etdiyi göstərilmişdir (143, s. 150). Kənddə 1831-ci ildə 48, 1873-cü ildə 445, 1886-cı ildə 657, 1897-ci ildə 1191, 1908-ci ildə 1605, 1914-cü ildə 1584 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1918-ci ilin avqust ayında azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən soyqırımına məruz qalaraq deportasiya edilmişlər (309, s. 205). Xaricdən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişlər. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar öz kəndlərinə qayıtmışlar. Kənddə 1922-ci ildə 282 nəfər azərbaycanlı, 12 erməni, 1926-cı ildə 385 nəfər azərbaycanlı, 407 nəfər erməni, 1931-ci ildə 557

nəfər azərbaycanlı, 510 nəfər erməni yaşamışdır (415, s. 76–77, 146–147). 1988-ci ilin əvvəllərində Şəkidə 1930 nəfər (190 ailə) azərbaycanlı yaşamışdır (244 a, s. 310). 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tamamilə deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim kimmerlərə mənsub olan "sak" etnonimi (402, s. 66–80; 23, s. 102–104) əsasında əmələ gəlmişdir. Şəki "sak/saka" etnoniminin fonetik variantıdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 157).

Coğrafi koordinatları: 39°33' şm. e., 45°59' ş. u.

**Şıxlar** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 117 km şimal-qərbdə, dəniz səviyyəsindən 1800 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Şeyxler" (143, s. 150), Qafqazın 5 verstlik xəritəsində "Şıxlar" formasında (348, s. 296) qeyd olunmuşdur. Kənddə 1831-ci ildə 44, 1873-cü ildə 312, 1886-cı ildə 306, 1897-ci ildə 544, 1908-ci ildə 590, 1914-cü ildə 585 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin törətdiyi qırğınlar nəticəsində kənddən deportasiya edilmişlər. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə qayıtmışlar. Kənddə 1922-ci ildə 326, 1926-cı ildə 391, 1931-ci ildə 411 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1988-ci ilin sonlarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim qazax türk tayfasından olan "şeyxlər" (şıxlar) etnonimindən (386, s. 535) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 2 mart 1940-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Qızıl Şəfəq", 8 avqust 1991-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Torunik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s.197).


*Şıxlar kəndi*

Coğrafi koordinatları: 39°33' şm. e., 46°02' ş. u.

**Şıxlar** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 10 km cənub-şərqdə, Vedi çayından axan arxın yanında, dəniz səviyyəsindən 815 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 296). Kənddə 1831-ci ildə 141, 1873-cü ildə 649, 1886-cı ildə 714, 1897-ci ildə 790, 1904-cü ildə 802, 1914-cü ildə 882, 1916-cı ildə 723 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). 1919-cu ildə kəndin sakinləri erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kəndi tərk etmişlər. İran və Türkiyədən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişlər. 1922-ci ildə kənddə 102 nəfər azərbaycanlı, 110 erməni, 1926-cı ildə 115 nəfər azərbaycanlı, 48 erməni, 1931-ci ildə 167 nəfər azərbaycanlı, 94 erməni (415, s. 86–87, 156–157), 1972-ci ildə 1500 nəfər azərbaycanlı, 220 erməni yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən zorla kənddən qovulmuşlar. Hazırda kənddə

yalnız ermənilər məskunlaşıb. Toponim qazaxlar türk tayfasının bir qolunu təşkil edən "şıxlar" etnonimi (386, s. 535) əsasında formalaşmışdır. Erm. SSR AS RH-nin 26 dekabr 1968-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lusarat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 94–95).

Coğrafi koordinatları: 39°52′ şm. e., 44°35′ ş. u.

**Şıxovuz** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 23 km cənub-şərqdə, dəniz səviyyəsindən 980 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində "Şixauz" (348, s. 296), erməni müəlliflərinin əsərlərində "Şikahoğ", "Şxavuz" (415, s. 60) kimi qeyd edilmişdir. Kənddə 1926-cı ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61). Toponim "şeyx" sözünün xalq danışıq dilində işlənən "şıx" forması ilə oğuz türk tayfasının adını əks etdirən "ovuz" etnonimi ("oğuz" etnoniminin dialekt formasıdır) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Kəndin adı erməni dilinə uyğunlaşdırılaraq "Şikahox" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 158).

Coğrafi koordinatları: 39°05′ şm. e., 46°28′ ş. u.

**Şınıx** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Allahverdi (Tumanyan) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 67 km şimal-şərqdə, dəniz səviyyəsindən 725 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Kənddə 1897-ci ildə 5, 1926-cı ildə 2 nəfər azərbaycanlı yaşamışdır (415, s. 14–15). Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim türk dilində "sıldırım dağ yamacı, əlçatmaz", "dərin çuxur, xəndək" mənasında işlənən "şın" sözünə (337, s. 239) "-ıx" şəkilçisinin artırılması yolu ilə düzəlmişdir. Orotoponimdir. Quruluşca düzəltmə toponimdir. Kəndin adı erməni dilinə uyğunlaşdırılaraq "Şnoğ" kimi rəsmiləşdirilmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 159).

Coğrafi koordinatları: 41°08′ şm. e., 44°50′ ş. u.

**Şidli** – İrəvan quberniyasının İrəvan qəzasının Vedibasar mahalında, keçmiş Vedi rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 12 km cənub-şərqdə, Araz çayının sol sahilində, dəniz səviyyəsindən 810 m hündürlükdə yerləşir. Kəndin adı Qafqazın 5 verstlik xəritəsində (348, s. 295) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 263, 1873-cü ildə 806, 1886-cı ildə 823, 1897-ci ildə 992, 1914-cü ildə 855, 1916-cı ildə 842 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin törətdiyi qırğınlar nəticəsində kənddən qovulmuşlar. Qovulan əhali bir müddət İran ərazisində sığınacaq tapmışdır. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənd sakinləri doğma yurdlarına dönmüşlər. Kənddə 1922-ci ildə 571, 1931-ci ildə 470 (415, s. 86–87, 156–157), 1972-ci ildə 1357, 1987-ci ildə 2000 nəfər (85, s. 238–239) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən öz kəndlərindən tamamilə qovulmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. "Şad" sözü qədim türk dilində "hərbi rütbə" mənasında işlənmişdir (299, s. 519). "Şidli" toponimi xəzərlərdə "hərbi titul" mənasında işlənən "şad" sözünə (299, s. 519) mənsubluq bildirən "-lı" şəkilçisinin artırılması yolu ilə əmələ gələn "şadlı" sözü əsasında formalaşıb. "Şidli" kimi sabitləşmiş və etnonimə çevrilmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il

tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Yexeqnavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 72).

Coğrafi koordinatları: 39°49' şm. e., 44°38' ş. u.

**Şinatağ** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 112 km şimal-qərbdə, dəniz səviyyəsindən 1750 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim qədim türk dilində "tikinti, tikili, qəsəbə, kənd, oba, yurd" mənasında işlənən "şen" sözünün (196, s. 63–69) qədim forması olan "şin" sözü ilə (278, s. 160; 196, s. 67) Azərbaycan dilində "yerin hündür, dik yamaclı və zirvəli hissəsi" mənasında işlənən "dağ" sözünün (10, s. 11) qədim fonetik forması olan "tağ" sözü (299, s. 526) əsasında əmələ gəlmişdir. "Kənd, oba, yurd, tikili, yaşayış məntəqəsi" mənasında işlənən "şen" sözü öz izini Azərbaycan dilində "abad yaşayış yeri, məntəqə", "qəsəbə" mənasında işlənən "şenlik" sözündə (253, s. 133; 12, s. 506) saxlamışdır. Erm. SSR AS RH-nin 2 fevral 1940-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lernaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 157).

Coğrafi koordinatları: 39°22' şm. e., 46°07' ş. u.

**Şirazlı** – İrəvan quberniyasının İrəvan qəzasının Vedibasar mahalında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 7 km cənub-qərbdə, Vedi çayından axan arxın yanında, dəniz səviyyəsindən 840 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 51), Qafqazın 5 verstlik xəritəsində (348, s. 295) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 150, 1886-cı ildə 235, 1897-ci ildə 451, 1904-cü ildə 229, 1914-cü ildə 251, 1916-cı ildə 480 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən törədilən qırğınlar nəticəsində kənddən qovulmuş, əhali bir müddət İranda sığınacaq tapmışdır. İran və Türkiyədən köçürülən ermənilər kənddə yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıtmışlar. Kənddə 1922-ci ildə 216 nəfər azərbaycanlı, 114 erməni, 1926-cı ildə 243 nəfər azərbaycanlı, 140 erməni, 15 nəfər kürd, 1931-ci ildə 250 nəfər azərbaycanlı, 182 erməni, 2 nəfər kürd (415, s. 86–87, 156–157), 1972-ci ildə 2616 nəfər azərbaycanlı, 873 erməni, 1987-ci ildə 3000 nəfər azərbaycanlı (427, s. 239–240) yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən kənddən zorla qovulmuşlar. İndi kənddə yalnız ermənilər yaşayır. Toponim oğuzların "şirazlı" etnonimi əsasında yaranmışdır (160 a). Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vosgetap" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 163).

Coğrafi koordinatları: 39°52' şm. e., 44°39' ş. u.

**Şirək** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 5 km şimal-şərqdə, dəniz səviyyəsindən 1650 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Ermənilər kəndə 1828–1829-cu illərdə Türkiyənin Qars vilayətinin Yeniköy, Zayim Məzrə və Qaraxan kəndlərindən köçürülüb yerləşdirilmişdir (416, s. 158–159). Toponim "siraq" türk etnonimi (235, s. 47–59) əsa-

sında formalaşmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 158–159).

Coğrafi koordinatları: 40°50' şm. e., 43°55' ş. u.

**Şirəqala** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 16 km şimalda, Abaran çayının sağ qolu üstündə, Duluçay çayının sahilində, dəniz səviyyəsindən 1900 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Abaran nahiyəsində Şirəqala" kimi qeyd edilmişdir (143, s. 112). Erməni müəlliflərinin əsərlərində 1914-cü ildə kənddə 1172 nəfər azərbaycanlının yaşadığı göstərilir (415, s. 97). 1918-ci ildə kənddə yaşayan azərbaycanlılar qırğınlar nəticəsində tarixi-etnik torpaqlarından deportasiya olunmuş, İran və Türkiyədən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir. Hazırda kənddə ermənilər yaşayır. Toponim "gil növü, mavi gil" mənasında işlənən "şirə" sözünə (253, s. 133), "istehkam, müdafiə tikilisi", "həbsxana, zindan" mənasında işlənən "qala" sözünün qoşulması nəticəsində əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 15 iyul 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vardenut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 191).

Coğrafi koordinatları: 40°28' şm. e., 44°21' ş. u.

**Şirvancıq** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 28 km cənub-qərbdə, dəniz səviyyəsindən 1980 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə gəliri 4.000 ağça olan Mustafa Ömər oğlunun adına olan timar kimi qeyd edilmişdir (143, s. 127). Qafqazın 5 verstlik xəritəsində (348, s. 295) qeyd edilmişdir. Ədirnə müqaviləsinə (1829) əsasən, İrəvan xanlığının ərazisinə ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Toponim türk mənşəli "şirvan" etnoniminə (286, s. 70) "-cıq" şəkilçisinin artırılması ilə yaranmışdır. Erm. SSR AS RH-nin 15 iyul 1948-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lernakert" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 87).

Coğrafi koordinatları: 40°34' şm. e., 43°56' ş. u.

**Şişqaya** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasının Göyçə nahiyəsində, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 101 km cənub-şərqdə, dağ ətəyində, dəniz səviyyəsindən 2050 m hündürlükdə yerləşir. XIII–XVI əsrlərə aid Azərbaycan türklərinin həyatı, tarixi, məişəti ilə bağlı tarixi abidələrin qaldığı kənddə 1831-ci ildə 251, 1873-cü ildə 592, 1886-cı ildə 905, 1897-ci ildə 1132, 1908-ci ildə 1041, 1914-cü ildə 1088, 1916-cı ildə 1232, 1919-cu ildə 632 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1919-cu ilin əvvəlindən başlayaraq azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və qırğınlar nəticəsində deportasiya olunmuşlar (309, s. 305). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulduqdan sonra – 1920-ci ilin payızında kəndin sakinləri ata-baba yurdlarına qayıtmışlar. Kənddə 1922-ci ildə 461, 1926-cı ildə 612, 1931-ci ildə 863 (415, s. 26–27, 112–113), 1939-cu ildə 1076, 1959-cu ildə 1426, 1970-ci ildə 2187, 1979-cu ildə 2291 (416, s. 53), 1987-ci ildə 4000 nəfər (85, s. 294–295) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci il noyabr ayının 24–30-da Şişqaya kəndinin aborigen sakinləri olan azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində "dağın, təpənin zirvəsi, ən yüksək nöqtəsi" mənasında işlənən "şiş" sözü ilə (196, s. 42), "sıra dağlardan ayrılmış qol",

"dağların müəyyən hissəsində daş süxurlardan olan çətin keçilən yer" (196, s. 36), "dağ, sıldırım" mənasında işlənən "qaya" sözünün birləşməsindən əmələ gəlib, "hündür, uca, dağın yanında salınan, yerləşən kənd" mənasını ifadə edir. Kəndin adı Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə dəyişdirilərək "Quqariç", 8 avqust 1991-ci il tarixli qərarı ilə təkrar dəyişdirilərək "Qeğamasar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 53).

Coğrafi koordinatları: 40°18′ şm. e., 45°40′ ş. u.

**Şorbulaq** – İrəvan quberniyasının İrəvan qəzasında, indi İrəvan şəhərinə daxil olan keçmiş Orconikidze rayonunun tabeliyində kənd. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 297). 1931-ci ilə kimi keçmiş Qəmərli (Artaşat) rayonunun inzibati ərazi bölgüsünə daxil olmuşdur. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, Şorbulaq kəndinin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Toponim Azərbaycan dilində "duzlu", "şoran" mənasında işlənən "şor" sözünə (12, s. 532) "təbii su qaynağı" mənasında işlənən "bulaq" sözünün birləşməsi əsasında əmələ gəlmişdir. Hazırda İrəvan şəhərinin "Tsornatap" qəsəbəsi adlanır.

Coğrafi koordinatları: 40°08′ şm. e., 44°33′ ş. u.

**Şorca** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 66 km şimal-şərqdə, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 1930 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 297). XIX əsrin 40-cı illərində kəndə ruslar (malakanlar) köçürüləndən sonra həm də "Nadejdino" adlandırılmışdır (415, s. 32). Kəndin adı erməni müəlliflərinin əsərlərində "Şor Əli", yaxud "Şorjalı" (415, s. 32), rus mənbələrində "Şorcalı" (Şordjalu) formalarında (Сборник сведений о Кавказе. т. V, Тифлис, 1879, №1368) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 140 nəfər azərbaycanlı, 1873-cü ildə 311 nəfər, 1886-cı ildə 226 nəfər azərbaycanlı və rus (molokan), 1897-ci ildə 21 nəfər azərbaycanlı, 7 erməni, 280 rus (molokan), 1922-ci ildə



*Şorca kəndi*

6 nəfər azərbaycanlı, 494 rus (molokan), 1926-cı ildə 31 nəfər azərbaycanlı, 432 rus (molokan), 1931-ci ildə 42 nəfər azərbaycanlı, 396 rus yaşamışdır (415, s. 32–33, 116–117). 1939-cu ildə 799, 1959-cu ildə 762, 1970-ci ildə 894, 1979-cu ildə 956 nəfər əhali yaşamışdır ki (416, s. 160), onların da 80%-dən çoxunu azərbaycanlılar təşkil etmişdir. Toponim şorcalı tayfa adının əsasında yaranmışdır. Toponimin sonundakı "-lı" şəkilçisi sonralar ixtisar edilmiş və sənədlərdə "Şorca" kimi rəsmiləşdirilmişdir. Azərbaycanlılar 1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 160).

Coğrafi koordinatları: 40°30′ şm. e., 45°16′ ş. u.

**Şöllü Mehmandar** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 22 km şimal-qərbdə, Zəngi çayının yanında, dəniz sə-

viyyəsindən 830 m hündürlükdə yerləşir. Keçmiş Zəngibasar rayonu təşkil edilənədək keçmiş Vağarşabad (Eçmiədzin) rayonunun tərkibində olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Mehmandari-Şollu" (143, s. 36), Qafqazın 5 verstlik xəritəsində "Şorlu Mehmandar" kimi (348, s. 297) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 406, 1873-cü ildə 1573, 1886-cı ildə 1432, 1897-ci ildə 1824, 1904-cü ildə 1455, 1914-cü ildə 1632, 1916-cı ildə 2969, 1919-cu ildə 900 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). 1919-cu ilin sonlarında azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya edilmişlər. Yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 788, 1926-cı ildə 1010, 1931-ci ildə 778 nəfər azərbaycanlı (415, s. 82–83, 152–153), 1959-cu ildə 1419, 1970-ci ildə 1843, 1979-cu ildə 2995 nəfər azərbaycanlı və erməni (416, s. 123) yaşamışdır. Kənd sakinləri SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, 1948–1949-cu illərdə zorla Azərbaycana deportasiya edilmişdir. 1950-ci illərdə köçürülən ailələrin bir hissəsi yenidən öz yurdlarına qayıda bilmişlər. 1988-ci ilə kimi kənddə azərbaycanlılar yaşamışlar. 1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan dövləti azərbaycanlıları deportasiya etmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "-lı" mənsubluq şəkilçisi qəbul etmiş "çol" (şol) etnonimindən (287, s. 112–114) və "Mehmandar" şəxs adından əmələ gəlib "çol/şol tayfasından olan Mehmandara məxsus kənd" mənasını bildirir. Etnotoponimdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı "Mehmandar", 25 yanvar 1978-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Hovtaşad" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 123).

Coğrafi koordinatları: 40°05′ şm. e., 44°20′ ş. u.

**Şurnuxu** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 45 km şimal-şərqdə, Şurauxu çayının sol sahilində, Gorus–Qafan avtomobil yolunun sağ tərəfində, dəniz səviyyəsindən 1550 m hündürlükdə yerləşir. Erməni ədəbiyyatında kəndin adı "Şurnuxi" (415, s. 28), "Şurnux" (416, 2008, s. 160) kimi qeyd edilib. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə 1897-ci ildə 84, 1904-cü ildə 117, 1914-cü ildə 104 nəfər azərbaycanlı yaşamışdır (415, s. 28–29, 114–115). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və sakinlər deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar öz tarixi-etnik torpaqlarına qayıda bilmişlər. Kənddə 1926-cı ildə 101, 1931-ci ildə 123 (415, s. 28–29, 114–115), 1939-cu ildə 351, 1959-cu ildə 363, 1970-ci ildə 363, 1979-cu ildə 324 nəfər (416, s. 160) azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisinin bir qismi zorla Azərbaycana deportasiya edilmişdir. 1988-ci ildə Ermənistan dövləti kəndin digər azərbaycanlı sakinlərini də deportasiya etmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində "kiçik şəlalə" mənasında işlənən "çırnox" sözünün (253, s. 133) fonetik forması olan "şurnux/şırnıx" sözü əsasında əmələ gəlmişdir. Azərbaycan dilinin Qazax dialektində "sürətlə axın" mənasını verən "şırnoy" sözü kimi də işlənir (253, s. 134). "Çırnox, şırnoy, şurnux" yaxınmənalı sözlərdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Şurnux" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 160).

Coğrafi koordinatları: 39°22′ şm. e., 46°23′ ş. u.

# T

**Tacirabaq** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan şəhərindən 46 km cənub-qərbdə, dəniz səviyyəsindən 1550 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə gəliri 4500 ağça olan Hacı Hüseynin adına olan timar – "Tecirdink" kəndi kimi (143, s. 80), Qafqazın 5 verstlik xəritəsində "Tacirabaq" formasında (348, s. 240) qeyd edilmişdir. Kəndin digər adı "Təcirabad", "Tacarabaq" olmuşdur (415, s. 44). Ermənilərin bölgədə məskunlaşdırılmasından sonra kəndin azərbaycanlı əhalisi tədricən kəndi tərk etmişdir. Toponim oğuzların dülqədirli tayfasından olan "təcirli" etnonimi (238, s. 186) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Dzoraxpyur" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 127).

Coğrafi koordinatları: 40°12′ şm. e., 44°38′ ş. u.

**Talakənd** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 3 km şimal-qərbdə, dəniz səviyyəsindən 700 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində "Tala" kimi qeyd edilir (415, s. 38; Ermənistan Sovet Ensiklopediyası, III c., İrəvan, 1977, s. 129). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim "meşədə ağacsız yer, sahə, açıqlıq" mənasında işlənən "tala" sözü ilə (12, s. 130) "yaşayış məntəqəsi" mənasında işlənən "kənd" sözünün birləşməsindən əmələ gəlmişdir. Relyeflə bağlı yaranan toponimdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Getahovit" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 57).

Coğrafi koordinatları: 40°53′ şm. e., 45°07′ ş. u.

**Talıboğlu** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 16 km cənubda, dəniz səviyyəsindən 1540 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 236). Ədirnə müqaviləsinə (1829) əsasən, ermənilərin İrəvan xanlığının ərazisinə köçürülüb məskunlaşdırılmasından sonra kəndin aborigen sakinləri olan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Toponim "Talıboğlu" nəsil adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 15 iyul 1948-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lusakert" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 93).

Coğrafi koordinatları: 40°40′ şm. e., 43°52′ ş. u.

**Talın (Talin)** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində şəhər. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 48 km şimal-qərbdə, dəniz səviyyəsindən 1585 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində



*Talın qalası*

qeyd edilmişdir (348, s. 236). 1930-cu ilə kimi rayon ərazisinin bir hissəsi İrəvan quberniyasının Eçmiədzin qəzasının, digər hissəsi isə İrəvan quberniyasının Aleksandropol qəzasının tərkibinə daxil olmuşdur. Orta əsrlərdə inşa edilən və günümüzədək gəlib çatan məşhur Talın qalası burada yerləşir. Şəhərdə əvvəlcə azərbaycanlılar yaşamış, Ədirnə müqaviləsinə (1829) əsasən, Türkiyədən köçürülən ermənilərin məskunlaşdırılmasından sonra əhali tədricən şəhəri tərk etmişdir. Türkiyənin Muş və Sasun vilayətlərindən köçürülüb gətirilən ermənilər şəhərdə yerləşdirilmişlər (416, s. 81). Toponim "söyüd ağacı", "söyüd kolu" mənasında işlənən "tal" (341, s. 180–182; 337, s. 235) və qədim türk dilində "daxma, mağara, kaha" mənasında işlənən "in" sözünün (299, s. 209) birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Erməni dilində olan rəsmi sənədlərdə şəhərin adı "Verin Talin" formasında əksini tapmışdır. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Talin" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 81).

Coğrafi koordinatları: 40°22′ şm. e., 43°52′ ş. u.

**Talış** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək (Aştarak) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 29 km cənub-qərbdə, dəniz səviyyəsindən 1220 m hündürlükdə yerləşir. Məşhur Talış karvansarası bu kəndin ərazisindədir. Kənddə 1828-ci ilə qədər yalnız azərbaycanlılar yaşamışlar. 1828–1829-cu illərdə Türkiyənin Bəyazid vilayətindən köçürülən ermənilər kənddə yerləşdirilmişdir (427, s. 509). Kəndin ərazisində XIII–XIV əsrlərə aid azərbaycanlıların tikdikləri qədim qalanın xarabalıqları indi də durur. Toponim qızılbaş türk tayfasından olan "talış" etnonimi (91, s. 195) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 11 noyabr 1970-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Aruç" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 39).

Coğrafi koordinatları: 40°17′ şm. e., 44°04′ ş. u.

**Tapanlı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 26 km şimal-qərbdə, Bəykənd çayının sağ qolu üstündə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 237) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Ədirnə müqaviləsinə (1829) əsasən, ermənilərin Türkiyədən köçürülüb məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim qədim ağqoyunlu elinin qalığı olan, Diyarbakirdə yaşayan türk mənşəli "tabanlı" (tapanlı) etnonimi (238, s. 185) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Geğasar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 55).

Coğrafi koordinatları: 40°50′ şm. e., 44°11′ ş. u.

**Tayçarıq** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 16 km şimal-qərbdə, Misxana çayının yaxınlığında, dəniz səviyyəsindən 1950 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 236). Kənddə tarixən azərbaycanlılar yaşamışlar. Ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Kənddə 1829–1830-cu illərdə Türkiyənin Bəyazid paşalığından köçürülüb gətirilən ermənilər məskunlaşdırılmışdır (416, s. 138). 1926-cı ildə kənddə cəmi 2 nəfər azərbaycanlı qalmışdı. 1930-cu illərdə onlar da qovulmuşlar. Toponim türk dilində "təpə" mənasında işlənən "tay" (tey) sözü ilə (339, s. 548) oğuzların "çarık" etnonimi (399, I, s. 58) əsasında əmələ gəlmişdir. Türkmən



*Tayçarıq kəndi*

tayfalarından birinin də adı "çarık" olub (271, s. 128). Etnotoponimdir. Erm. SSR AS RH-nin 31 may 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Meğradzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 138).

Coğrafi koordinatları: 40°36′ şm. e., 44°38′ ş. u.

**Taytan** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 16 km cənub-qərbdə, Vedibasar çayının sahilində, dəniz səviyyəsindən 870 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 236). Kənddə 1873-cü ildə 166, 1886-cı ildə 177, 1897-ci ildə 316, 1904-cü ildə 262, 1914-cü ildə 288, 1916-cı ildə 366 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 154–155). 1919-cu ildə erməni silahlı birləşmələri azərbaycanlıları doğma ocaqlarından qovmuşlar. Kənddə İran və Türkiyədən gələn ermənilər yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə kənddə 183 nəfər azərbaycanlı, 81 erməni, 1926-cı ildə 175 nəfər azərbaycanlı, 114 erməni, 1931-ci ildə 217 nəfər azərbaycanlı, 224 erməni yaşamışdır (415, s. 86–87, 154–55). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Deportasiya edilənlərin bir qismi sonradan doğma kəndlərinə qayıda bilmişdir. 1946–1948-ci illərdə xaricdən köçürülüb gətirilən ermənilərin bir qismi Taytanda yerləşdirilmişdir. 1988-ci ildə kənddə 24 azərbaycanlı ailəsi qalmışdı. Həmin ilin dekabr ayında Ermənistan dövləti azərbaycanlıları tarixi torpaqlarından qovmuşdur (99 a, s. 43). Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim türk dilində "kiçik dağ", "təpə" mənasında işlənən "tay" (tey) sözü ilə (339, s. 539, 548) türk dilində "dərə, dar dərin dərə", "təpə" mənasında işlənən "tan (q)/ton (q)" sözünün (367, 279–280; 339, s. 543, 557) birləşməsindən əmələ gəlmişdir. "Tay" coğrafi termin kimi "tərəf, sahil" mənasında da işlənir (253, s. 130). Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vanaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 187).

Coğrafi koordinatları: 39°54′ şm. e., 44°41′ ş. u.

**Terp** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 35 km cənubda, Cul çayının sağ qolu olan Köçbəkçayın yanında, dəniz səviyyəsindən 1720 m hündürlükdə yerləşir. Kəndin adı ilk dəfə XIII əsrdə xatırlanır (422, s. 93). Erməni ədəbiyyatında "Derbi" formasında rast gəlinib (416, s. 177). Kənddə 1831-ci ildə 96, 1873-cü ildə 243, 1886-cı ildə 215, 1897-ci ildə 376, 1904-cü ildə 384, 1914-cü ildə 422, 1916-cı ildə 504 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və azərbaycanlılar deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar tarixi-etnik torpaqlarına qayıtmışlar.

Kənddə 1922-ci ildə 80, 1926-cı ildə 222, 1931-ci ildə 408 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. 1950-ci ildən sonra deportasiya edilənlərin bir qismi sonradan doğma kəndlərinə qayıda bilmişdir. 1988-ci ilin noyabr ayında kənddə yaşayan azərbaycanlılar Ermənistan dövləti tərəfindən yenidən deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində "kiçik təpə" mənasında işlənən "tarp/terp" sözü (253, s. 130) əsasında formalaşmışdır. Bu söz ərəb dilində "dağ keçidi, aşırım" mənasında "dərb" formasında işlənir (361, s. 69). Erm. SSR AS RH-nin 27 fevral 1956-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Saravan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 177).

Coğrafi koordinatları: 39°43′ şm. e., 45°38′ ş. u.

**Təkəli** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan şəhərindən 20 km cənub-şərqdə, Misxana çayının sol axarında, Maymaq dağının ətəyində, dəniz səviyyəsindən 1850 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmişdir (143, s. 236). Erməni müəlliflərinin əsərlərində "Təkərli" kimi də göstərilir (415, s. 16). Kənddə 1831-ci ildə 41, 1873-cü ildə 335, 1886-cı ildə 469, 1897-ci ildə 534, 1908-ci ildə 641, 1914-cü ildə 807, 1916-cı ildə 730 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 16–17, 100–101). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən törədilən qırğınlar nəticəsində kənddən qovulmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulduqdan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 248, 1926-cı ildə 303, 1931-ci ildə 416 (415, s. 16–17, 100–101), 1939-cu ildə 509, 1959-cu ildə 944, 1970-ci ildə 951, 1979-cu ildə 878 (416, s. 38), 1987-ci ildə 1000 nəfərə yaxın azərbaycanlı yaşamışdır. 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən zorla və qırğınlar nəticəsində tarixi torpaqlarından qovulmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim qızılbaşlar türk tayfasına mənsub olan "təkəli" etnonimi (175, s. 16) əsasında yaranmışdır. Tayfanın adı "təkə" formasında da qeyd edilir (238, s. 214). Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Artavaz" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 38).

Coğrafi koordinatları: 40°37′ şm. e., 44°34′ ş. u.

**Təkərli** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 16 km şimal-qərbdə, Alagöz dağının ətəyində, Abaran çayının sağ qolu üzərində, dəniz səviyyəsindən 1950 m hündürlükdə yerləşir. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 174), Qafqazın 5 verstlik xəritəsində (348, s. 236) qeyd edilmişdir. Ədirnə müqaviləsinə (1829) əsasən ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kənddə yaşayan azərbaycanlılar tədricən kəndi tərk etmişlər. 1829-cu ildə kənddə Türkiyənin Ələşkirt və Diadin şəhərlərindən, 1877-ci ildə isə Muş və Sasun bölgələrindən gələn ermənilər məskunlaşdırılmışlar (416, s. 100). Toponim "təkəli" türk etnonimi (erməni müəlliflərinin əsərlərində təkəli tayfasının adı həm də "təkərli" kimi qeyd edilir, 415, s. 16) əsasında (175, s. 16; 238, s. 185) əmələ gəlmişdir. Təkəli qızılbaş tayfalarından birinin adıdır (175, s. 16). F.Sümər təkəli tayfasının oğuzların dülqədirli elindən olduğunu göstərir (238, s. 184–185). Etnotoponimdir. Erm. SSR AS RH-nin 19 aprel 1950-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Tsağkaşen" qoyulmuşdur. "Ermənistan Respublikası-

nın inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 100).

Coğrafi koordinatları: 40°30' şm. e., 44°20' ş. u.

**Təkiyə** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 6 km cənub-qərbdə, Kasax çayının sağ sahilində, dəniz səviyyəsindən 1420 m hündürlükdə yerləşir. Kəndin digər adı "Təkyə təkkə"dir (427, s. 546). 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Pirtəkiyəsi" kəndi (143, s. 162), 1728-ci il tarixli "İrə-



*Təkiyə kəndi*

van əyalətinin icmal dəftəri"ndə "Təkkə" kəndi (143, s. 88), Qafqazın 5 verstlik xəritəsində "Təkiyə" kimi (348, s. 236) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 155, 1873-cü ildə 398, 1886-cı ildə 582, 1897-ci ildə 635, 1908-ci ildə 725, 1914-cü ildə 768, 1916-cı ildə 587, 1919-cu ildə 428 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən deportasiya edilmişlər. 1919–1920-ci illərdə kəndə Türkiyənin Muş, Bitlis və Ahlat vilayətlərindən ermənilər köçürülmüşdür (427, s. 546). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar kəndə qayıda bilmişlər. Kənddə ermənilərlə yanaşı, 1922-ci ildə 179, 1926-cı ildə 175, 1931-ci ildə 227 nəfər azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar 1948–1950-ci illərdə tarixi-etnik torpaqlarından deportasiya edilərək Azərbaycana köçürülmüşdür. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim türk mənşəli "təkə" etnonimi (321, s. 74; 271, s. 112) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Erm. SSR AS RH-nin 1 dekabr 1949-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Bazmaxpyur" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 41).

Coğrafi koordinatları: 40°20' şm. e., 44°18' ş. u.

**Təknəli** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 24 km şimalda, Ellər dərəsində, dəniz səviyyəsindən 1840 m hündürlükdə yerləşir. 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə Təknəli kəndi gəliri 4000 ağça olan "Osman Mustafa oğlunun adına timar" kimi qeyd edilmişdir (143, s. 116). Qafqazın 5 verstlik xəritəsində adı verilib (348, s. 236). Toponim dulusçuluqla, daşyonma ilə məşğul olan türk mənşəli "təknəli" etnonimindən (35, s. 183) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Qoqhovit" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 61).

Coğrafi koordinatları: 40°56' şm. e., 43°50' ş. u.

**Təpədibi** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 9 km cənubda, Araz çayının yaxınlığında, dəniz səviyyəsindən 860 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində "Təpədib" kimi qeyd edilmişdir (348, s. 237). Ermənilər kəndə 1831-ci ildə Türkiyənin Sürməli və İğdır vilayətlərindən köçürülmüşdür (416, s. 118). Kənddə

ermənilərlə yanaşı, 1897-ci ildə 17 nəfər azərbaycanlı yaşamışdır (415, s. 62–63). XX əsrin əvvəllərində azərbaycanlılar erməni silahlıları tərəfindən kənddən sıxışdırılıb çıxarılmışlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində "təpə" sözü ilə "dağın ətəyi" mənasında işlənən "dib" sözündən əmələ gəlmişdir və "təpə dibində olan kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Haykavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 118).

Coğrafi koordinatları: 40°05′ şm. e., 44°03′ ş. u.

**Təpədölək** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 5 km cənub-şərqdə, dəniz səviyyəsindən 1530 m hündürlükdə yerləşir. Kəndin adı erməni müəlliflərinin əsərlərində "Təpədöllək" (415, s. 42), "Təpədəlik" (427, s. 426) kimi də göstərilib. Kənddə 1809-cu ilə kimi azərbaycanlılar yaşamışdır. 1810–1815-ci illərdə Türkiyənin Ələşkirt və Ərzurum vilayətlərindən köçürülən ermənilər kəndə yerləşdirilmişdir (427, s. 426). Toponim Azərbaycan dilində "qayalıq, dağlıq yer" mənasında işlənən "təpə" sözü ilə "Kitabi-Dədə Qorqud" dastanında adı çəkilən "Dönə bilməz Dölək Uran" şəxs adındakı "dölək" sözü əsasında əmələ gəlib, "Döləyə məxsus təpə" anlamını verir. Antropotoponimdir. Erm. SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Arevik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 32).

Coğrafi koordinatları: 40°44′ şm. e., 43°53′ ş. u.

**Təpəköy** – Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, sonradan keçmiş Amasiya rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 37 km şimal-qərbdə, Arpa gölünün şərq tərəfində, dəniz səviyyəsindən 2027 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 237). Kəndin sakinləri qarapapaqlar kimi qeydə alınmışdır. Erməni müəlliflərinin əsərlərində kəndin sakinləri azərbaycanlıların etnik qruplarından biri olan qarapapaqlar kimi göstərilir (415, s. 20, 105). Kənddə 1886-cı ildə 199, 1897-ci ildə 303, 1908-ci ildə 296, 1914-cü ildə 357 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevralında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhalisi Qars vilayətinin kəndlərinə qaçmışdır. 1921-ci il Qars müqaviləsindən sonra kəndin əhalisinin bir qismi kəndə qayıtmışdır. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra, 1921-ci il Qars müqaviləsinə əsasən, kənd Ağbaba nahiyəsinin tərkibində Aleksandropol qəzasına daxil edilmişdir. Kənddə İrəvan və Gümrü ətafında ermənilərin törətdikləri qırğınlardan canlarını qurtaran azərbaycanlı qaçqın ailələri də məskunlaşmışdır. 1922-ci ildə 71, 1926-cı ildə 138, 1931-ci ildə 174 (415, s. 21, 105), 1970-ci ildə 772, 1987-ci ildə 757 nəfər (35, s. 161) azərbaycanlı yaşamışdır. 1988-ci ilin oktyabr ayında azərbaycanlılar yenidən Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşdur. Hazırda kənddə, əsasən, Gürcüstanın Axılkələk və Boqdanovka (Ninosminda) rayonlarından köçüb gələn ermənilər məskunlaşmışlar. Toponim Azərbaycan dilində "kiçik dağ, dağ" mənasında işlənən "təpə" sözü ilə müasir türk dilində "kənd" mənasında işlənən "köy" sözlərinin birləşməsindən əmələ gəlmişdir. "Böyük" fərqləndirici əlamət bildirir. Sonralar Böyük Təpəköylə yaxınlığındakı Kiçik Təpəköy kəndləri birləşdirilmiş və Təpəkənd adlandırılmışdır. Ermənistan SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilib "Berdaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 46).

Coğrafi koordinatları: 41°03′ şm. e., 43°40′ ş. u.

**Tiğit** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Nairi rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan şəhərindən 26 km cənub-qərbdə, dəniz səviyyəsindən 1600 m hündürlükdə yerləşir. 1972-ci ilə kimi keçmiş Əştərək rayonunun tərkibində olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Teqit" kimi (143, s. 54), Qafqazın 5 verstlik xəritəsində "Tiğit" formasında (348, s. 240) qeyd edilmişdir. Erməni müəlliflərinin əsərlərində "Tğit" formasında verilir (419, s. 72). Kənddə 1831-ci ildə 92, 1873-cü ildə 217, 1886-cı ildə 241, 1897-ci ildə 333, 1908-ci ildə 410, 1914-cü ildə 488, 1916-cı ildə 512 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq deportasiya olunmuş və Türkiyədən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişlər. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim qıpçaq türk tayfasından olan "tuq" etnoniminə ("tiğ" – "tuq" etnoniminin formasıdır) (286, s. 48) cəmlik bildirən "-ut" şəkilçisinin "-it" fonetik formasının artırılması ilə əmələ gəlib, "tuğların yaşadığı kənd", "tuğlara məxsus kənd, yaşayış yeri" mənasını bildirir. Erm. SSR AS RH-nin 30 iyul 1980-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Teğenik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 82).

Coğrafi koordinatları: 40°25′ şm. e., 44°34′ ş. u.

**Təzəkənd** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 25 km şimal-qərbdə, İrəvan şəhərinin cənub-şərqində, Buğutu dağının ətəyində, dəniz səviyyəsindən 865 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində "Təzəkənd" kimi qeyd edilmişdir (348, s. 235). Rusdilli ədəbiyyatda "Tatar Təzəkəndi" formasında göstərilmişdir. Zəngibasar rayonu təşkil edilənədək – 14 yanvar 1969-cu ilə kimi Eçmiədzin rayonunun tabeliyində olmuşdur. Kənddə 1897-ci ildə 224, 1914-cü ildə 75 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 62–63, 138–139). 1919-cu ildə kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və azərbaycanlılar deportasiya olunmuşdur. 1919–1920-ci illərdə Türkiyədən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "Təzəkənd" ("təzə" – yeni, "kənd" – yaşayış məntəqəsi mənası ifadə edir) oykonimi əsasında yaranmışdır. 1920-ci ildə kəndin adı erməni dilinə kalka edilərək "Tazagyuğ" qoyulmuşdur. Erm. SSR AS RH-nin 10 noyabr 1970-ci il tarixli qərarı ilə adı yenidən dəyişdirilərək "Ayntap" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 20).

Coğrafi koordinatları: 40°05′ şm. e., 44°28′ ş. u.

**Təzəkənd** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 39 km cənub-qərbdə, dəniz səviyyəsindən 1430 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim Azərbaycan dilində işlənən "təzə" və "kənd" sözlərindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Nor Gyuğ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 148–149).

Coğrafi koordinatları: 40°16′ şm. e., 44°39′ ş. u.

**Təzəkənd** – Qars vilayətindəki Qars qəzasının Ağbaba nahiyəsində, sonralar Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 44 km şimalda, dəniz səviyyəsindən 2050 m hündürlükdə yerləşir. Kəndin digər adı "Türk Təzəkəndi" olmuşdur (415, s. 20). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir

(348, s. 235). Kənddə 1886-cı ildə 129, 1897-ci ildə 166, 1908-ci ildə 40, 1914-cü ildə 193 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). Erməni müəlliflərinin əsərlərində kəndin əhalisi azərbaycanlıların etnik qruplarından olan qarapapaqlar kimi göstərilir (415, s. 20). 1918-ci ilin may ayında Andranikin komandanlıq etdiyi erməni silahlı dəstələri Təzəkənd kəndində soyqırımı törətmişdir. Qırğınlardan bir neçə nəfər qaçıb canını qurtara bilmişdir (7, s. 75). 1920-ci ildə kəndə Türkiyədən gələn erməni ailələri məskunlaşdırılmışdır. Hazırda burada yalnız ermənilər yaşayır. Toponim "təzə" və "kənd" sözlərindən əmələ gəlmişdir. Kəndin adı dəyşdirilərək əvvəlcə "Tazaqyuğ", Erm. SSR AS RH-nin 21 oktyabr 1967-cı il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Tavşut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 81).

Coğrafi koordinatları: 40°05′ şm. e., 43°48′ ş. u.

**Toxanşalı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 3 km şimal-qərbdə, dəniz səviyyəsindən 840 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Toğanşahlı" (143, s. 99), erməni müəlliflərinin əsərlərində "Toxanşahlı" (415, s. 48) kimi qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Ermənilər kəndə İranın Xoy və Səlmas vilayətlərindən köçürülüb yerləşdirilmişlər. Toponim türk dilində "böyük arx", "dəhnə, bənd" mənasında işlənən "toqan" sözü ilə (339, s. 555) "şahılı" (şahlı) etnonimi (142, s. 73) əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Erm. SSR AS RH-nin 20 avqust 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Masis" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 132).

Coğrafi koordinatları: 40°04′ şm. e., 44°26′ ş. u.

**Toxluca** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 61 km şimal-şərqdə, Göyçə gölünün sahilində, dörd tərəfi dağlarla əhatə olunmuş bir ərazidə, dəniz səviyyəsindən 1980 m hündürlükdə yerləşir. 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 115), Qafqazın 5 verstlik xəritəsində (348, s. 246) adı qeyd edilmişdir. Kənddə XV–XIX əsrlərə aid tarixi abidələrin xarabalıqları indi də qalmaqdadır. Kəndin ərazisində oğuzlara aid qəbirlər var. Kənddə 1831-ci ildə 296, 1873-cü ildə 466, 1886-cı ildə 681, 1897-ci ildə 935, 1914-cü ildə 1373, 1916-cı ildə 1330, 1919-cu ildə 1199 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31, 114–115). 1919-cu ilin mart ayının ortalarında azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən kənddən vəhşicəsinə qovulmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndin keçmiş sakinləri doğma evlərinə dönə bilmişlər. Kənddə 1922-ci ildə 1176, 1926-cı ildə 1403, 1931-ci ildə 1723 (415, s. 30–31, 114–115), 1939-cu ildə 1840, 1959-cu ildə 1528, 1970-ci ildə 2469, 1979-cu ildə 2664 (416, s. 70–71), 1987-ci ildə 2985 nəfər (85, s. 90) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kənd sakinləri bir daha ermənilərin təcavüzünə məruz qalmış və Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində "dağlıq yer" mənasını ifadə edən "dağ-



*Toxluca kəndi*

lıca" sözünün fonetik forması əsasında əmələ gəlmişdir. Toponimin birinci komponenti olan "tox" sözü türk dillərində "dağ" mənasında işlənən "to", "toğ" sözlərinin fonetik formasıdır. Eyni zamanda qədim türk dilində "toğ (tuğ)" sözü "bənd", "sədd", "çəpər" mənalarında da işlənir (299, s. 570, 584) və "dağlıq ərazi" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Draxtik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 70–71).

Coğrafi koordinatları: 40°34' şm. e., 45°13' ş. u.

**Tomardaş** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 15 km cənub-qərbdə, Qotur çayının sağ sahilində, dəniz səviyyəsindən 1600 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Tumardaş" kimi qeyd edilmişdir (143, s. 129). Ədirnə müqaviləsinə (1829) əsasən, İrəvan xanlığının ərazisinə ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kəndin aborigen sakinləri olan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Toponim türk dilində "yamyaşıl bitkilər və yeraltı (qrunt) sularla dopdolu bataqlıq, təpəcik, daşlıq, kəsəkli yer", "dağda, meşəsiz yerdə bataqlıq" mənasında işlənən "tomar" sözündən (339, s. 556) və "dağ, qaya" mənasında işlənən "daş" sözündən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 31 may 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vardakar" ("Güllüdaş") qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 190).

Coğrafi koordinatları: 40°40' şm. e., 43°55' ş. u.

**Toparlı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 16 km şimalda, dəniz səviyyəsindən 1650 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində "Taparlı" kimi də qeyd edilib (415, s. 42). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Ədirnə müqaviləsinə (1829) əsasən ermənilərin Türkiyədən köçürülüb məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Kənd 31 dekabr 1937-ci ilə qədər Leninakan rayonunun inzibati ərazi bölgüsünə daxil olmuşdur. Toponim "yığcam", "toplu" mənasında işlənən "toparlı" sözü əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Hatsik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 121).

Coğrafi koordinatları: 40°50′ şm. e., 43°52′ ş. u.

**Torpaqqala** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 8 km məsafədə, dəniz səviyyəsindən 875 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində kəndin adı "Topraxqala" kimi qeyd edilib (415, s. 48). Kənddə 1831-ci ildə 40, 1873-cü ildə 246, 1886-cı ildə 268, 1897-ci ildə 303, 1908-ci ildə 415, 1914-cü ildə 456, 1916-cı ildə 372 (415, s. 48–49, 128–129), 1918-ci ilin yanvarında 415 nəfər (309, s. 216) azərbaycanlı yaşamışdır. 1918-ci ilin martında azərbaycanlılar erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq deportasiya olunmuşdur (309, s. 216). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 98, 1926-cı ildə 163, 1931-ci ildə 197 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Hazırda kənddə yalnız ermanilər ya-

şayır. Toponim Azərbaycan dilində "ölkə", "ərazi" mənasında işlənən "torpaq" sözü ilə (253, s. 131) "qala" sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Erm. SSR AS RH-nin 1 dekabr 1949-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Hnaberd" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 122).

Coğrafi koordinatları: 40°00′ şm. e., 44°34′ ş. u.

**Tovuz** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayətində kənd. XIX əsrin əvvəllərinədək Şəmşəddil sultanlığının tərkibində olmuşdur. Kəndin digər adı "Tovuzkənd" olmuşdur. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 64 km şimal-şərqdə, dəniz səviyyəsindən 1000 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim türk dilində "dağ" mənasında işlənən "tov" sözü ilə oğuzların bir qismi kimi tanınan "uz" türk etnonimi (238, s. 78; 226, s. 163; 66, s. 33) əsasında əmələ gəlib, "dağ uzların (oğuzların) yaşadığı yer" mənasını ifadə edir. Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Tavuş" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 196).

Coğrafi koordinatları: 40°54′ şm. e., 45°24′ ş. u.

**Tovuzqala** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayətində şəhər. XIX əsrin əvvəllərinədək Şəmşəddil sultanlığının tərkibində olmuşdur. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 54 km şərqdə, dəniz səviyyəsindən 930 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim türk dilində "dağ" mənasında işlənən "tov" ("to, tu, tav, tou, tau" formalarında da işlənir; 337, s. 238; 339, s. 554) sözü ilə "uz" (oğuz) etnonimindən (238, s. 78) və "qala" sözündən əmələ gəlib, "dağ uzların (oğuzların) qalası" mənasını ifadə edir. Kəndin adı 1920-ci ildə dəyişdirilərək "Berd" (qala) qoyulmuşdur. Şəhərin qədim adının birinci komponenti (Tovuz) ixtisar edilmiş, ikinci komponenti olan "qala" sözü erməni dilinə tərcümə edilərək yaşayış məntəqəsi "Berd" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 45–46).



*Tovuzqala*

Coğrafi koordinatları: 40°52′ şm. e., 45°23′ ş. u.

**Tulnəbi** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Nairi rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan şəhərindən 31 km cənub-qərbdə, dəniz səviyyəsindən 1700 m hündürlükdə yerləşir. 1972-ci ildə keçmiş Nairi rayonu yaradılanadək Əştərək rayonunun tərkibində olmuşdur. Kənddə 1873-cü ildə 227, 1886-cı ildə 321, 1897-ci ildə 261, 1908-ci ildə 219, 1914-cü ildə 406, 1916-cı ildə 353 (415, s. 22–23, 106–107), 1918-ci ilin yanvarında 379 nəfər (309, s. 219) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə kəndin köklü sakinləri olan azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş (309, s. 219), Türkiyədən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişlər. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim qədim türk dilində "hasarlanmış, çəpərlənmiş yer" mə-

nasında işlənən "tul" sözü ilə (359, III (2), s. 1466) "Nəbi" şəxs adının birləşməsi əsasında əmələ gəlib, "Nəbinin hasarlanmış, çəpərlənmiş yeri" mənasını bildirir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Saralanc" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 175).

Coğrafi koordinatları: 40°23' şm. e., 44°31' ş. u.

**Tulus (Dulus)** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 109 km şimal-qərbdə, dəniz səviyyəsindən 1660 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 183) adı qeyd olunmuşdur. Kəndin adı təhrif edilərək erməni müəlliflərinin əsərlərində "Tolors" kimi verilib (419, s. 80). Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 24, 1873-cü ildə 142, 1886-cı ildə 176, 1897-ci ildə 263, 1914-cü ildə 390 nəfər azərbaycanlı yaşamışdır (415, s. 78–79, 148–149). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən törədilən qırğınlar nəticəsində qovulmuşlar. 1926-cı ildə ermənilərdən başqa, cəmi 2 nəfər azərbaycanlı yaşamışdır (415, s. 78–79). Hazırda kənddə yalnız Türkiyədən gələn ermənilər yaşayır. Toponim qədim türk tayfalarına aid olan "tolos" (359, III (2), s. 1261), "teles" (180, s. 21) etnonimi əsasında əmələ gəlmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 197).

Coğrafi koordinatları: 39°27' şm. e., 46°02' ş. u.

**Türk Gözəldərəsi** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Araqats (Alagöz) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 55 km şimal-qərbdə, Alagöz dağının şimal ətəyində, Qarabulaq çayının yanında, dəniz səviyyəsindən 2190 m hündürlükdə yerləşir. Kənd bəzi mənbələrdə "Yuxarı Gözəldərə", "Tatar Gözəldərəsi" kimi (415, s. 4), Qafqazın 5 verstlik xəritəsində "Tatar Gözəldərəsi" formasında (348, s. 58) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 63, 1873-cü ildə 413, 1886-cı ildə 509, 1897-ci ildə 618, 1904-cü ildə 732, 1914-cü ildə 894, 1916-cı ildə 716 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 45, 96–97). 1918-ci ildə azərbaycanlılara qarşı erməni silahlı birləşmələri yenidən qırğınlar törətmiş, əhalini kənddən didərgin salmışdır. Kənddə 1918–1920-ci illərdə Türkiyənin Muş və Bitlis, İranın Xoy və Səlmas vilayətlərindən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir (415, s. 97; 85, s. 95). Toponim "türk" etnonimi ilə "güllü, çiçəkli" mənasını bildirən "Gözəldərə" sözünün birləşməsindən əmələ gəlib, "türklərin (azərbaycanlıların) yaşadığı Gözəldərə kəndi" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 15 iyul 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Geğadzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 53).

Coğrafi koordinatları: 40°37' şm. e., 44°10' ş. u.

**Türk Qarakilsəsi** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 5 km cənub-qərbdə, dəniz səviyyəsindən 1462 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi keçmiş Leninakan rayonunun tərkibində olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 133), Qafqazın 5 verstlik xəritəsində (348, s. 17) qeyd edilmişdir. Kənddə 1886-cı ildə 410, 1897-ci ildə 484, 1904-cü ildə 554, 1914-cü ildə 911 nəfər azərbaycanlı yaşamışdır (415, s. 42–43, 122–123). 1918-ci ildə azərbaycanlılara qarşı erməni silahlı birləşmələri qırğınlar törətmiş, əhalini kənddən didərgin salmışdır. Türkiyənin Muş, Sasun, Xnıs

(Hnıs), Qars vilayətlərindən ermənilər köçürülərək kənddə yerləşdirilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Kənd xristian türklərə (qıpçaqlara) aid qara daşdan tikilən kilsənin yaxınlığında salındığı üçün Qarakilsə adlandırılmışdır. Toponimin əvvəlindəki "türk" etnonimi fərqləndirici əlamət bildirir və sakinlərinin türklər (azərbaycanlılar) olduğunu göstərir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Axurik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 11).

Coğrafi koordinatları: 40°45′ şm. e., 43°47′ ş. u.

**Tüskülü (Tüstülü)** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 76 km cənub-şərqdə, çay kənarında, dəniz səviyyəsindən 1940 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 249). Kənddə əvvəlcə yalnız azərbaycanlılar yaşamışdır. İrəvan xanlığının Rusiya qoşunları tərəfindən işğalından sonra ermənilər bu kənddə də yerləşmişlər. 1873-cü il məlumatına görə, kənddə 241 nəfər azərbaycanlı, 123 erməni, 1898-ci ildə 196 nəfər azərbaycanlı, 144 erməni, 1914-cü ildə 237 nəfər azərbaycanlı, 217 erməni yaşamışdır (249 a, s. 357). 1918-ci ildə erməni silahlı birləşmələrinin kəndə hücumu nəticəsində azərbaycanlılar kütləvi qırğınlara məruz qoyulmuş və kənddən deportasiya olunmuşdur. 1922-ci ildə cəmi 42 azərbaycanlı kəndə qayıtmış, 1979-cu ildə kənddə 34 azərbaycanlı yaşamışdır. Toponim tüstülü tayfasının adı əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lusakunk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 93).

Coğrafi koordinatları: 40°10′ şm. e., 45°41′ ş. u.

# U

**Ucan** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 13 km şimal-qərbdə, dəniz səviyyəsindən 1150 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Uçan" kimi əksini tapmış (143, s. 90), Qafqazın 5 verstlik xəritəsində (348, s. 251) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 62, 1873-cü ildə 235, 1886-cı ildə 364, 1897-ci ildə 444, 1908-ci ildə 300, 1914-cü ildə 318, 1916-cı ildə 480 (415, s. 22–23, 108–109), 1918-ci ildə 300 nəfər (309, s. 220) yalnız azərbaycanlı yaşamışdır. 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş (309,



*Ucan kəndi*

s. 221), Türkiyənin Bitlis, Ərciş və Van vilayətlərindən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir (85, s. 108–109; 416, s. 200). Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim türk mənşəli "uc" etnoniminə (238, s. 147, 172, 184) "-an" şəkilçisinin artırılması ilə düzəlib, "ucların yaşadığı yer, uclara məxsus kənd" deməkdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 200).

Coğrafi koordinatları: 40°17′ şm. e., 44°12′ ş. u.

**Uluxanlı** – İrəvan quberniyasının İrəvan qəzasında kənd. Keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində şəhərtipli qəsəbə. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 18 km şimal-qərbdə, Zəngi çayının yaxınlığında, dəniz səviyyəsindən 830 m hündürlükdə yerləşir. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 75), Qafqazın 5 verstlik



*Uluxanlı kəndi*

xəritəsində (348, s. 252) qeyd edilmişdir. Zəngibasar rayonu təşkil edilənədək Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. Burada 1831-ci ildə 1737, 1873-cü ildə 2968, 1886-cı ildə 3062, 1897-ci ildə 2757, 1908-ci ildə 3171, 1914-cü ildə 3488, 1918-ci ildə 3173, 1919-cu ildə 8000 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129; 309, s. 216). 1918-ci ildə erməni təcavüzünün qarşısının alınması məqsədilə yaradılan Zəngibasar Milli Şurası Uluxanlıda fəaliyyət göstərmişdir. 1919-cu ilin sonunda azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar doğma evlərinə qayıda bilmişlər. Burada 1922-ci ildə 1882 nəfər azərbaycanlı, 1926-cı ildə 1948 nəfər azərbaycanlı, 72 kürd, 9 erməni, 1931-ci ildə 1781 nəfər azərbaycanlı, 5 erməni, 25 kürd yaşamışdır (415, s. 48–49, 128–129). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlı əhali zorla Azərbaycana deportasiya edilmişdir. Deportasiya edilənlərin bir qismi sonradan doğma yurdlarına qayıda bilmişlər. Uluxanlıda 1939-cu ildə 1195, 1959-cu ildə 3138, 1970-ci ildə 4961, 1975-ci ildə 8142, 1980-ci ildə 13248 nəfər əhali yaşamışdır ki (416, s. 132), onların da əksəriyyətini azərbaycanlılar təşkil etmişdir. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar son nəfərə kimi Ermənistan dövləti tərəfindən deportasiya olunmuşlar. Hazırda şəhərtipli qəsəbədə yalnız ermənilər yaşayır. Toponim uluxanlı tayfa adı (7, s. 21) əsasında əmələ gəlmişdir. Kəndin adı 1924-cü ildə dəyişdirilərək "Nərimanlı" qoyulmuşdur. Erm. SSR AS RH-nin 31 dekabr 1937-ci il tarixli qərarı ilə dəyişdirilərək "Zəngibasar", 31 iyul 1950-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Masis" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 132 ).

Coğrafi koordinatları: 40°00′ şm. e., 44°29′ ş. u.

**Urud** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Cəlaloğlu (Stepanavan) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 45 km şimal-şərqdə, dəniz səviyyəsindən 1450 m hündürlükdə, Urud çayının yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 252). Erməni müəlliflərinin əsərlərində kəndin digər adının "Söyüdlü" olduğu göstərilir (415, s. 80). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Kənddə ermənilərlə yanaşı, 1897-ci ildə 17, 1926-cı ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, s. 80–81). XX əsrin 30-cu illərində onlar da deportasiya olunmuşlar. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim türk dilində "çuxur, istehkam, qala təpəsi", "təpə" mənasında işlənən "ur" sözünə (339, s. 415) "-ud" şəkilçisinin artırılması ilə düzəlmişdir. "Ur" sözü türk dilində "or" formasında da işlənir (277, II, s. 119; 365, s. 466–467; 339, s. 415–416). "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci

il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 200).

Coğrafi koordinatları: 41°04′ şm. e., 44°23′ ş. u.

**Urud** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 97 km şimal-qərbdə, Bazarçay çayının sol sahilində, dəniz səviyyəsindən 1420 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd olunmuşdur (348, s. 252). Erməni müəlliflərinin əsərlərində kəndin digər adının "Orod" olduğu göstərilir (415, s. 76). Kənddə 1831-ci ildə 111, 1873-cü ildə 222, 1886-cı ildə 270, 1897-ci ildə 359, 1905-ci ildə 435, 1914-cü ildə 408 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1918-ci ildə kəndin sakinləri erməni silahlı birləşmələri tərəfindən deportasiya olunmuşdur (309, s. 205). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan urudlular öz evlərinə dönə bilmişlər. Kənddə 1922-ci ildə 173, 1926-cı ildə 263, 1931-ci ildə 340 (415, s. 76–77, 146–147), 1959-cu ildə 623, 1970-ci ildə 609, 1979-cu ildə 663 (416, s. 163), 1986-cı ildə 1000 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında 125 evdən ibarət kəndin azərbaycanlı sakinləri Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur (244 a, s. 334). Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim türk dilində "dağ, təpə" mənasında işlənən "ur" sözünə (339, s. 415) türk dillərində yer məzmunu əmələ gətirən "-ud" şəkilçisinin birləşməsindən əmələ gəlib, "dağlı, təpəli yerdə salınan kənd" mənasını verir. Erm. SSR AS RH-nin 3 iyul 1968-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vorotan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 163).



*Urud daş sərdabələr*



*Urud kəndi*

Coğrafi koordinatları: 39°29′ şm. e., 46°08′ ş. u.

**Uşi (Üşü, Üşəyən)** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 3 km şimalda, dəniz səviyyəsindən 1400 m hündürlükdə yerləşir. Azərbaycanlıların həyatı ilə bağlı IX–XI əsrlərə aid tarixi abidələr kənddə indi də durur. Kəndin adı 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 162), 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 89), Qafqazın 5 verstlik xəritəsində (348, s. 256) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 167, 1873-cü ildə 909, 1886-cı ildə 1105, 1897-ci ildə 1249, 1908-ci ildə 1360, 1914-cü ildə 1444, 1916-cı ildə 1486 (415, s. 22–23, 108–109), 1918-ci ildə 1380 (309, s. 219), 1919-cu ildə 500 nəfər (415, s. 108–109) yalnız azərbaycanlı yaşamışdır. Erməni silahlı dəstələri ilk dəfə 1905-ci ildə kəndə hücum edərək kütləvi qırğınlar törətmiş və sakinləri qovmuş, vəziyyət sabitləşəndən sonra kəndin sağ qalan əhalisi geri



*Uşi kəndi*

qayıda bilmişdir. 1918-ci ildə azərbaycanlılara qarşı erməni silahlı birləşmələri yenidən qırğınlar törətmiş, əhali kənddən didərgin salınmışdır (309, s. 219). 1920-ci ildə Türkiyənin Bitlis, Muş, Ahlat və Van vilayətlərindən köçürülüb gətirilən ermənilər kəndə yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar ata yurdlarına qayıda bilmişlər. Burada ermənilərlə yanaşı, 1922-ci ildə 291, 1926-cı ildə 296, 1931-ci ildə 33 nəfər azərbaycanlı yaşamışdır (415, s. 22–23, 108–109). SSRİ hökumətinin xüsusi qərarı ilə 1948–1949-cu illərdə azərbaycanlılar tarixi-etnik torpaqlarından çıxarılıb zorla Azərbaycana köçürülmüşdür. Hazırda kənddə ermənilər yaşayır. Toponim türk dilində "yüksəklik, dağın zirvəsi" mənasında işlənən "uç" (uş) sözü (339, s. 585) əsasında əmələ gəlmişdir. Türk dilində "uş/uç" sözü "son", "başlanğıc" (359, I (2), s. 1719, 1771), "yuxarı", "zirvə", "qıraq, kənar" (339, s. 585) mənalarında işlənir. Eyni zamanda qaraqalpaq dilində "dağın zirvəsi" mənasını "uşa" sözü ifadə edir (339, s. 585). Toponimin sonundakı "i" topoformant kimi çıxış edir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 199).

Coğrafi koordinatları: 40°20' şm. e., 44°22' ş. u.

**Uz** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 109 km şimal-qərbdə, dəniz səviyyəsindən 1610 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 183), 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 150), Qafqazın 5 verstlik xəritəsində (348, s. 251) qeyd edilmişdir. Ermənilər kəndə 1828–1829-cu illərdə İranın Xoy və Səlmas əyalətlərindən köçürülüb yerləşdirilmişdir (416, s. 199). Kənddə ermənilərdən başqa, 1886-cı ildə 8 nəfər azərbaycanlı yaşamışdır (415, s. 146). Sonradan azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qovulmuşdur. Toponim qədim türk tayfası olan "uz" adı (238, s. 78) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Uyts" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 199).

Coğrafi koordinatları: 39°31′ şm. e., 46°03' ş. u.

**Uzunlar** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Allahverdi (Tumanyan) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 47 km şimal-şərqdə, dəniz səviyyəsindən 1125 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim eyniadlı tayfa adı əsasında formalaşmışdır. Erm. SSR AS RH-nin 30 sentyabr 1967-ci il tarixli qərarı ilə kəndin adı dəyişdi-



*Uzunlar kəndi*

rilərək "Odzun" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 209).

Coğrafi koordinatları: 41°03′ şm. e., 44°36′ ş. u.

**Uzunoba** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 13 km cənub-şərqdə, Araz çayının sol sahilində, dəniz səviyyəsindən 877 m hündürlükdə yerləşir. 1728-ci il tarixdə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 93), Qafqazın 5 verstlik xəritəsində (348, s. 251) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim Azərbaycan dilində "geniş, böyük" mənasında işlənən "uzun" sözü ilə "kənd, yaşayış məntəqəsi, yurd", "köçərilərin, heyvandarların müvəqqəti sakin olduqları bir neçə alaçıq və ya çadırdan ibarət yer, köç yeri" (11, s. 431) mənasında işlənən "oba" sözünün birləşməsindən əmələ gəlib, "böyük, geniş kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Arqavand" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 29).

Coğrafi koordinatları: 40°03′ şm. e., 44°05′ ş. u.

**Uzuntala** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 17 km şimal-şərqdə, dəniz səviyyəsindən 500 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim Azərbaycan dilində "böyük, geniş" mənasında işlənən "uzun" sözü ilə "meşə ortasında açıqlıq yer" mənasında işlənən



*Uzuntala kəndi*

"tala" sözünün birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 may 1967-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Onut", 12 fevral 1969-cu il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Aygehovit" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 18).

Coğrafi koordinatları: 40°58′ şm. e., 45°15′ ş. u.

# Ü

**Üçüncü Qarakilsə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 39 km şimal-şərqdə, dəniz səviyyəsindən 1970 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Sıra bildirən "üçüncü" sözü ilə "Qarakilsə" oykonimi əsasında əmələ gəlmişdir. "Üçüncü" fərqləndirici əlamət bildirən sözdür. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Dzoraşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 127).

Coğrafi koordinatları: 40°55′ şm. e., 44°04′ ş. u.

# V

**Vağudi** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 95 km şimal-qərbdə, Bazarçayın sol sahilində, Ağudi kəndindən 3 km məsafədə, dəniz səviyyəsindən 1575 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd olunmuşdur (348, s. 47). Vağudi adlı 3 kənd olmuşdur: I Vağudi, II Vağudi, III Vağudi (415, s. 76). Vağudi kəndi həmin üç Vağudi adlı kəndlərin birləşməsindən yaranmışdır. Kənddə 1831-ci



*Vağudi kəndi*

ildə 44, 1873-cü ildə 653, 1886-cı ildə 926, 1897-ci ildə 1286, 1908-ci ildə 1395 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). Erməni silahlı dəstələri ilk dəfə 1905-ci ildə kəndə hücum edərək kütləvi qırğınlar törətmiş və sakinləri qovmuş, vəziyyət sabitləşəndən sonra kəndin sağ qalan əhalisi geri qayıda bilmişdir. 1918-ci ildə erməni silahlı birləşmələri azərbaycanlılara qarşı yenidən qırğınlar törətmiş, əhalini kənddən didərgin salmışdır. Bundan sonra xaricdən köçürülüb gətirilən ermənilər kəndə yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə dönə bilmişlər. Kənddə ermənilərlə yanaşı, 1922-ci ildə 131, 1926-cı ildə 226, 1931-ci ildə 336 (415, s. 76–77, 146–147), 1987-ci ildə 700 nəfər (85, s. 182–183) azərbaycanlı yaşamışdır. 1988-ci ilin sonlarında kənddə yaşayan 2000-ə yaxın azərbaycanlı əhali qırğınlar törədən Ermənistan dövləti tərəfindən qovulmuşdur. İndi kənddə yalnız ermənilər yaşayır. Kəndin adı "Ağudi" toponiminin əvvəlinə "v" samitinin artırılması əsasında yaranmışdır. "Ağudi" toponimi ilə "Vağudi" toponimi eyni semantik xüsusiyyətə malikdir (Bax: *Ağudi*). Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vağatin" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 186).

Coğrafi koordinatları: 39°30′ şm. e., 46°07′ ş. u.

**Varmaziar (Verməzyar)** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 36 km şərqdə, dəniz səviyyəsindən 853 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 49). Kənddə 1831-ci ildə 61 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 152). 1828–1829-cu illərdə İranın Xoy və Salmas əyalətlərindən köçürülüb gətirilən ermənilər kəndə yerləşdirilmiş və azərbaycanlılar tədricən kənddən çıxarılmışdır (427, s. 424; 416, s. 31). Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim türk dilində "dərə, vadi, dərin yarğan" mənasında işlənən "var" (339, s. 113) və ərəb dilində "ziyarət yeri, ziyarət olunan yer, qəbir" mənasında işlənən "məzar" sözlərindən (104, s. 341) əmələ gəlib, "dərədə, vadidə olan kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Arevaşat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 31).

Coğrafi koordinatları: 40°08′ şm. e., 42°22′ ş. u.

**Vartanlı** – İrəvan quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark rayonunda, indi Lori vilayətində qəsəbə. Vilayət mərkəzi Vanadzordan (Böyük Qarakilsə, Kirovakan) 1 km məsafədə olan Pəmbək çayının sol qolunda, dəniz səviyyəsindən 1500 m hündürlükdə yerləşir. Kənddə əvvəllər yalnız azərbaycanlılar, sonralar isə azərbaycanlılarla birgə ermənilər yaşamışlar. 1873-cü ilin statistik məlumatlarında kənddə cəmi 88 təsərrüfatda 600 nəfərin (330 kişi, 270 qadın) yaşadığı, onlardan 58 təsərrüfatda 343 nəfərin azərbaycanlılar, 30 təsərrüfatda 257 nəfərin erməni olduğu göstərilmişdir. 1886-cı ildə kənddə cəmi 108 təsərrüfatda 849 nəfər əhali yaşamışdır ki, onların da 72 təsərrüfatda 550 nəfərini azərbaycanlılar, 36 təsərrüfatda 299 nəfərini ermənilər təşkil etmişdir (99 a, s. 149). 1918-ci ildə Andranikin göstərişi ilə Vartanlı kəndinin sakinləri böyük qoyun komuna doldurulmuş və od vurularaq yandırılmışdır. 1988-ci il noyabrın 26–27-də Vartanlı kəndi dəhşətli bir tale yaşamış, kəndin 180 təsərrüfatında 600 nəfər azərbaycanlı ermənilər tərəfindən törədilən qırğına məruz qalmışdır. Kirovakan şəhərindən gələn silahlı dəstə yerli ermənilərlə birləşərək 14 azərbaycanlını vəhşicəsinə qətlə yetirmiş, onlarla azərbaycanlıya bədən xəsarəti yetirmişdir. Sağ qalanlar meşələrə çəkilərək gündüzlər gizlənmiş, gecələr isə yol gedərək 13–14 gün ərzində Qazax rayonuna çatmışlar. Ümumiyyətlə, həmin günlərdə Quqark rayonunda 30-a yaxın azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdir (7, s. 138). Toponim şəxs adı əsasında formalaşmışdır. Vartanlı kəndinin adı ilk dəfə 1953-cü ildə dəyişdirilərək "Xndzorut", 1955-ci ildə isə yenidən dəyişdirilərək "Şaumyan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 154).

Coğrafi koordinatları: 40°47′ şm. e. 44°31′ ş. u.

**Vəliağalı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 28 km cənub-şərqdə, Göyçə gölünün yaxınlığında, dəniz səviyyəsindən 2000 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 48). 1828-ci ilə kimi kənddə yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsi ilə bağlı 1828–1829-cu illərdə Türkiyədən köçürülən ermənilər kənddə yerləşdirilib (386, s. 595–598). Burada 1897-ci ildə ermənilərlə yanaşı, 41 azərbaycanlı yaşamışdır (415, s. 66–67). 1905–1906-cı illərdə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən tarixi-etnik torpaqlarından deportasiya edilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "Vəliağa" şəxs adına mənsubluq bildirən "-lı" şəkilçisinin artırılması əsasında formalaşan "vəliağalı" nəsil adından əmələ gəlmişdir. Kəndin adı 1920-ci ildə dəyişdirilərək "Dzoragyuğ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 126).

Coğrafi koordinatları: 40°10′ şm. e., 45°11′ ş. u.

**Vəli (Vəlikənd)** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 41 km şimal-şərqdə, dəniz səviyyəsindən 750 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim "Vəli" şəxs adı əsasında əmələ gəlmişdir. Antropotoponimdir. Erm. SSR AS RH-nin 4 may 1939-cu il tarixli qərarı ilə adı dəyişdirilərək "Tsaxkavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 101).

Coğrafi koordinatları: 40°01′ şm. e., 45°07′ ş. u.

# Y

**Yağdan** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Cəlaloğlu (Stepanavan) rayonunda, indi Lori vilayətində kənd. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 37 km şimal-qərbdə, dəniz səviyyəsindən 1350 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 104). Kənddə əvvəlcə azərbaycanlılar yaşamışdır. 1818–1821-ci illərdə Türkiyədən köçürülən yunanlar kənddə yerləşdirilmişdir. Bundan sonra azərbaycanlılar tədricən kəndi tərk etmişlər. Toponim türk dilində "yurd, el" mənasında işlənən "yaq" sözünə (299, s. 237) türk dilində "təpə" mənasını bildirən "don" (dan) sözünün (399, s. 188) birləşməsindən əmələ gəlib, "təpədə olan el, yurd" mənasını verir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 143).

Coğrafi koordinatları: 41°30' şm. e., 44°30' ş. u.

**Yaqublu** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Quqark rayonunda, indi Lori vilayətində kənd. 1964-cü ildə yaradılan və 1995-ci ildə ləğv edilən Quqark rayonunun mərkəzi olmuşdur. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 2 km şimal-şərqdə, Pəmbək çayının yanında, dəniz səviyyəsindən 1325 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 305) qeyd edilmişdir. Kənddə 1897-ci ildə ermənilərlə yanaşı, 43 nəfər azərbaycanlı yaşamışdır (415, s. 43–52). 1905–1906-cı illərdə azərbaycanlılar erməni silahlıları tərəfindən kənddən qovulmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "yaqublu" etnonimindən (92, s. 23) əmələ gəlmişdir. Etnotoponimdir. Erm. SSR AS RH-nin 1 aprel 1945-ci il tarixli qərarı ilə yaşayış məntəqəsinin adı dəyişdirilərək "Meğrud", 25 may 1983-cü il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Quqark" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 63).

Coğrafi koordinatları: 40°48′ şm. e., 44°32′ ş. u.

**Yamancalı** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 10 km şimalda, İnəkli kəndinin yanında, dəniz səviyyəsindən 895 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Yamanclı" kimi qeyd edilmişdir (143, s. 101). Erməni ədəbiyyatında kəndin 1897-ci ildə salındığı göstərilmiş və əhalinin sayı da 1897-ci ildən hesablanmışdır (416, s. 68). Lakin bu, həqiqəti əks etdirmir. 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə kəndin adı "Karni" və Vedi nahiyələrinə daxil olan kəndlərin tərkibində "Yamanclı" formasında əksini tapmış, kəndin gəlirinin 5000 ağçadan ibarət olduğu göstərilmişdir (143, s. 101). 1932-ci ildə İrəvanda erməni dilində çap olunmuş Z.Qorqodyanın "1831–1931-ci illərdə sovet Ermənistanının əhalisi" kitabında 1831-ci, 1873-cü, 1886-cı illərdə kənddə azərbaycanlıların yaşadığı aydın şəkildə qeyd edilmişdir (415, s. 128–129). Kənddə 1831-ci ildə 137, 1873-cü ildə 214, 1886-cı ildə 199, 1897-ci ildə 257, 1908-ci ildə 272, 1914-cü ildə 300, 1916-cı ildə 280 (415, s. 48–49, 128–129), 1918-ci ilin yanvarında 763 nəfər (309, s. 216) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevral ayında azərbaycanlılar erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq deportasiya olunmuş (309, s. 216), Türkiyədən köçürülüb gətirilən ermənilər kəndə yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 53, 1926-cı ildə 67, 1931-ci ildə 66 nəfər azərbaycanlı (415, s. 48–49, 128–129) yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azər-

baycanlılar 1948–1953-cü illərdə Azərbaycana köçürülmüşdür. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "yamancalı" türk mənşəli tayfa adı əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Erm. SSR AS RH-nin 25 may 1967-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Değçut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 68).

Coğrafi koordinatları: 40°01′ şm. e., 44°32′ ş. u.

**Yanıqpəyə** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 102 km şimalda, dəniz səviyyəsindən 1575 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində "Yanıxqaya" kimi qeyd edilmişdir (348, s. 306). Kənddə 1897-ci ildə 133, 1919-cu ildə 226 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 32–33, 116–117). 1919-cu il mart ayının axırlarında kənd sakinləri erməni silahlı birləşmələri tərəfindən törədilən qırğınlar nəticəsində qovulmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kəndin sağ qalan sakinləri doğma torpaqlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 150, 1926-cı ildə 171, 1931-ci ildə 197, 1939-cu ildə 254, 1959-cu ildə 3876, 1970-ci ildə 524, 1979-cu ildə 536 (415, s. 32–33, 116–117; 416, s. 21), 1987-ci ildə 450 nəfər (85, s. 88) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kənd sakinləri doğma ocaqlarından Ermənistan dövləti tərəfindən qovulmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində işlənən "yanıq" və "pəyə" sözlərinin birləşməsindən əmələ gəlib. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Meşəkənd", 3 aprel 1991-ci il tarixli qərarla yenidən dəyişdirilərək "Antarameç" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 21).

Coğrafi koordinatları: 40°41′ şm. e., 45°08′ ş. u.

**Yanıx** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayətində kənd. Martuni yaşayış məntəqəsindən 13 km şimal-şərqdə, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 2275 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 306). Kənddə 1873-cü ildə 194, 1886-cı ildə 245, 1897-ci ildə 303, 1908-ci ildə 360, 1914-cü ildə 730, 1916-cı ildə 423 nəfər azərbaycanlı yaşamışdır (415, s. 66–67, 140–141). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən törədilən qırğınlar nəticəsində kənddən qovulmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 66 nəfər azərbaycanlı, 1926-cı ildə 37 nəfər azərbaycanlı, 163 erməni yaşamışdır (415, s. 67, 141). Ermənilər kəndə 1922–1925-ci illərdə köçürülmüşdür. 1929–1930-cu illərdə azərbaycanlılar deportasiya olunmuş, kənddə yalnız ermənilər qalmışdır. Toponim Azərbaycan dilində "yanmış, susuz, quru yer" mənasında işlənən "yanıq" sözü (278, s. 166) əsasında əmələ gəlmişdir. Ermənistan parlamentinin 4 iyul 2006-cı il qərarı ilə kəndin adı dəyişdirilərək "Nşxark" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 146–147).

Coğrafi koordinatları: 40°00′ şm. e., 45°14′ ş. u.

**Yarpızlı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 65 km cənub-şərqdə, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 2040 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 306). Kənddə 1831-ci ildə 121, 1873-cü ildə 398, 1886-cı ildə 465, 1897-ci ildə 584, 1908-ci ildə 719, 1914-cü ildə 815, 1916-cı ildə 771 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1919-cu ilin yanvarında azərbaycanlı-

lar erməni silahlı birləşmələri tərəfindən qırğınlar nəticəsində qovulmuş, kənd yandırılmışdır (309, s. 249). Kənddə 1828–1829-cu illərdə İrandan, 1918–1920-ci illərdə Türkiyənin Qars və Muş vilayətlərindən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir (416, s. 91). 1920-ci ildə indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar kəndlərinə dönə bilmişlər. Köçürülən az sayda ermənilərlə yanaşı, burada 1922-ci ildə 336, 1926-cı ildə 419, 1931-ci ildə 547 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, 1948–1950-ci illərdə kəndin azərbaycanlı əhalisi Azərbaycana köçürülmüşdür. Lakin sonradan azərbaycanlıların bir qismi geriyə – Yarpızlıya qayıtmışdır. Yarpızlılar üçüncü dəfə 1988-ci ildə Ermənistan dövləti tərəfindən tamamilə kənddən qovulmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim yabanı bitki olan "yarpız" sözünə "-lı" şəkilçisi artırmaqla düzəlmişdir. Fitotoponimdir. Erm. SSR AS RH-nin 25 may 1967-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lçavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 91).

Coğrafi koordinatları: 40°09′ şm. e., 45°36′ ş. u.

**Yasovul** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 11 km şimal-şərqdə, dəniz səviyyəsindən 1750 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tərkibində olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmişdir (143, s. 132). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Ədirnə müqaviləsinə (1829) əsasən, ermənilərin Türkiyədən köçürülüb məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim "şah fərmanını yerinə yetirən şəxs" mənasında işlənən "yasavul" sözündən əmələ gəlib, "yasavula məxsus kənd" mənasını bildirir. Erm. SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Hovuni" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 124).

Coğrafi koordinatları: 40°52′ şm. e., 43°48′ ş. u.

**Yaşıl** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 38 km şimal-qərbdə, Alagöz dağının qərbində, dəniz səviyyəsindən 1675 m hündürlükdə yerləşir. Kəndin digər adı "Yeşil" olmuşdur (415, s. 34). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 307). Kənddə 1831-ci ildə 18, 1873-cü ildə 235, 1886-cı ildə 227, 1897-ci ildə 410, 1908-ci ildə 255, 1914-cü ildə 273, 1916-cı ildə 377 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 36–37, 118–119). 1919-cu ildə kənd ermənilərin təcavüzünə məruz qalmış, sakinlər tarixi-etnik torpaqlarından deportasiya olunmuş (309, s. 221), Türkiyədən köçürülüb gətirilən ermənilər və kürdlər kənddə yerləşdirilmişdir (415, s. 119). Hazırda kənddə ermənilər yaşayır. Toponim "rəng" mənasında işlənən "yaşıl" sözü əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə adı dəyişdirilib "Kakavadzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 111).

Coğrafi koordinatları: 40°20′ şm. e., 44°00′ ş. u.

**Yaycı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 79 km şimalda, dəniz səviyyəsindən 1730 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış

məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd olunmuşdur (348, s. 305). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim "yaycı" türk tayfasının adı (321, s. 74) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 iyul 1968-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Harjis" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 130).

Coğrafi koordinatları: 39°26′ şm. e., 46°13′ ş. u.

**Yayıcı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Sevan rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 48 km şimal-qərbdə, Zəngi çayının yanında, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 1750 m hündürlükdə yerləşir. Kəndin adı "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 115), Qafqazın 5 verstlik xəritəsində (348, s. 305) qeyd edilmişdir. 1829–1830-cu, 1915–1920-ci illərdə İranın Maku vilayətindən ermənilər köçürülərək Yaycı kəndində yerləşdirilmişdir (416, s. 77). Kənddə ermənilərlə yanaşı, 1897-ci ildə 10 nəfər azərbaycanlı yaşamışdır (415, s. 16–17). XX əsrin əvvəllərində, yəni 1905–1906-cı illərdə azərbaycanlılar erməni silahlıları tərəfindən deportasiya olunmuşdur. Yaşayış məntəqəsinin adı oğuz tayfalarından olan "yayıcı" etnonimi (321, s. 74; ASE, V c., s. 51) əsasında əmələ gəlmişdir.



*Yayıcı kəndi*

Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Dzovaber" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 77).

Coğrafi koordinatları: 40°34′ şm. e., 44°47′ ş. u.

**Yekanlar** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 23 km cənub-şərqdə, dəniz səviyyəsindən 1900 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində kəndin adı "Yeğanlar" və "Yeginlər" formalarında da göstərilmişdir (415, s. 24; 427, s. 430). Qafqazın 5 verstlik xəritəsində (348, s. 91) qeyd edilmişdir. Kənddə 1828-ci ilə qədər yalnız azərbaycanlılar yaşamışlar. Buraya ermənilər 1828–1830-cu illərdə Qars vilayətinin Camışlı kəndindən, qismən də Sarıqamış və Ərzurum bölgələrindən köçürülüb yerləşdirilmişdir (427, s. 430). Ermənilərin kənddə məskunlaşdırılmasından sonra əhali tədricən yurdlarını tərk etmişdir. Toponim "yeqanlar" tayfa adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 15 iyul 1969-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Arevşad" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 33).

Coğrafi koordinatları: 40°38′ şm. e., 44°02′ ş. u.

**Yelqovan** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 40 km cənub-qərbdə, dəniz səviyyəsindən 1450 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 36), Qafqazın 5 verstlik xəritəsində (348, s. 92) qeyd edilmişdir. Kənddə 1828-ci ilə qədər yalnız azərbaycanlılar yaşamışlar. 1829-cu ildə kəndə Türkiyənin Bəyazid vilayətindən köçürülən ermənilər yerləşdirilmişdir (85, s. 266). 1897-ci ildə kənddə 15 nəfər azərbaycanlı yaşamışdır (415,

s. 46–47). Azərbaycanlılar 1905–1906-cı illərdə erməni silahlıları tərəfindən kənddən didərgin salınmışdır. Toponim Azərbaycan dilində "toxumu külək vasitəsilə uzaqlara aparılıb, orada tökülən bir bitki və onun dəni", "süpürüm" mənasında işlənən "yelqovan" bitki adı (10, s. 528) əsasında əmələ gəlmişdir. Fitotoponimdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 114).

Coğrafi koordinatları: 40°16′ şm. e., 44°39′ ş. u.

**Yengicə** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 13 km cənub-şərqdə, Vedi çayının qolu üzərində, dəniz səviyyəsindən 860 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 50), Qafqazın 5 verstlik xəritəsində (348, s. 92) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 37, 1873-cü ildə 189, 1886-cı ildə 199, 1897-ci ildə 313, 1904-cü ildə 470, 1914-cü ildə 517 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). Azərbaycanlılar 1919-cu ildə erməni silahlıları tərəfindən soyqırımına məruz qoyularaq qovulmuş, xaricdən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə dönə bilmişlər. 1922-ci ildə kənddə 162 nəfər azərbaycanlı, 187 erməni, 1926-cı ildə 194 nəfər azərbaycanlı, 160 erməni və kürd, 1931-ci ildə 182 nəfər azərbaycanlı, 195 erməni yaşamışdır (415, s. 86–87, 156–157). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar 1948–1949-cu illərdə zorla tarixi-etnik torpaqlarından Azərbaycana köçürülmüşdür. Kənddə yalnız ermənilər qalmışdır. Toponim "təzə" mənasında işlənən "yengi" sözü ilə "-cə" şəkilçisinin birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Sisavan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s.180).

Coğrafi koordinatları: 39°54′ şm. e., 44°40′ ş. u.

**Yengicə** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 25 km şimal-qərbdə, dəniz səviyyəsindən 855 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin dəftəri"ndə "Yenicə" kimi (143, s. 75), Qafqazın 5 verstlik xəritəsində "Yengicə" formasında (348, s. 92) qeyd edilmişdir. Zəngibasar rayonu təşkil edilənədək Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. Kənddə 1897-ci ildə 27, 1908-ci ildə 75, 1914-cü ildə 90, 1916-cı ildə 46 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 48–49. 128–129). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuş və kəndə Türkiyədən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. Yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz yurdlarına qayıda bilmişlər. Kənddə ermənilərlə yanaşı, 1922-ci ildə 20 nəfər azərbaycanlı yaşamışdır (415, s. 128–129). 1924–1925-ci illərdə azərbaycanlılar yenidən kənddən qovulmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "təzə" mənasında işlənən "yengi" sözünə çoxaltma dərəcəsini əmələ gətirən "-cə" şəkilçisinin artırılması ilə düzəldilmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Norabats" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 150).

Coğrafi koordinatları: 40°06′ şm. e., 44°25′ ş. u.

**Yeniköy** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunda, indi Şirak vilayətində kənd. Vilayət mərkəzi Gümrü şəhərindən 7 km cənub-qərbdə, Arpaçayın sol

sahilində, dəniz səviyyəsindən 1450 m hündürlükdə yerləşir. 1897-ci ilədək kənddə azərbaycanlılar yaşamışlar. Həmin il xaricdən köçürülən 285 erməni bu kənddə yerləşdirilmiş, azərbaycanlılar qovulmuş, kənddə cəmi 3 nəfər azərbaycanlı qalmışdır. Toponim "təzə" mənasında işlənən "yeni" sözü ilə türk dilində "kənd" mənasında işlənən "köy" sözünün birləşməsindən əmələ gəlmişdir. Kəndin adı dəyişdirilərək əvvəlcə "Xarkov", daha sonra Ermənistan Respublikası prezidentinin 4 iyul 2006-cı il tarixli fərmanı ilə "Norşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 153).

Coğrafi koordinatları: 40°31′ şm. e., 43°36′ ş. u.

**Yuxarı Ağbaş** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Kəndin digər adı "Xaraba Ağbaş"dır (415, s. 46). Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 13 km şimalda, dəniz səviyyəsindən 960 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 3). Kənddə 1873-cü ildə 91, 1886-cı ildə 89, 1897-ci ildə 183, 1904-cü ildə 132, 1914-cü ildə 172, 1916-cı ildə 200 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin törətdikləri təcavüzə məruz qalaraq deportasiya olunmuş və xaricdən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar kəndə qayıda bilmişlər. Kənddə ermənilərlə yanaşı, 1922-ci ildə 113, 1926-cı ildə 117, 1931-ci ildə 89 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, 1948–1949-cu illərdə azərbaycanlılar deportasiya olunaraq Azərbaycana köçürülmüşdür. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim fərqləndirici əlamət bildirən "yuxarı" sözü ilə türk mənşəli "ağbaş" etnonimi (238, s. 323; 92, s. 24) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 1 dekabr 1949-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Abovyan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 6).

Coğrafi koordinatları: 40°02′ şm. e., 44°32′ ş. u.

**Yuxarı Ağdan** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayəti ərazisində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 5 km cənub-şərqdə, Ağdan çayının sahilində, dəniz səviyyəsindən 850 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim fərqləndirici əlamət bildirən "yuxarı" sözündən və "kiçik, alçaq, çox da hündür olmayan" mənasında işlənən "ağ" (94, s. 68) və "çöl, səhra, açıq yer" mənasında işlənən "dan" (287, s. 470) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 may 1967-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Ağdan", 25 yanvar 1978-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Qandzakar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 51).

Coğrafi koordinatları: 40°50′ şm. e., 45°09′ ş. u.

**Yuxarı Ağcaqala** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 40 km şimal-qərbdə, Alagöz dağının cənub-qərb tərəfində, dəniz səviyyəsindən 1600 m hündürlükdə yerləşir. Kəndin adı "Yuxarı Hacıqala" kimi də qeyd edilib (415, s. 34; 427, s. 545). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 4). Kənddə 1831-ci ildə 70, 1873-cü ildə 354, 1886-cı

ildə 405, 1897-ci ildə 489, 1904-cü ildə 306, 1914-cü ildə 406, 1916-cı ildə 500 (415, s. 34–35, 116–117), 1918-ci ilin yanvarında 308 nəfər (415, s. 220; 309, s. 220) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevralında erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalan kəndin aborigen sakinləri – azərbaycanlılar törədilən qırğınlar nəticəsində deportasiya olunmuş (309, s. 220), 1915–1918-ci illərdə Türkiyənin Sasun, Muş və Bəyazid vilayətlərinin kəndlərindən, İraqın Mosul vilayətindən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir (427, s. 545, s. 192). Erməni müəlliflərinin əsərlərində tarixi faktlar saxtalaşdırılaraq 1831-ci və 1897-ci illərdə kənddə ermənilərin yaşadığı göstərilir, orada yaşayan azərbaycanlılar da erməni kimi qələmə verilir (427, s. 545). Yaşayış məntəqəsinin adı Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən "yuxarı" sözü ilə türk dilində "ağımtıl, bozumtul çöl, yer" mənasında işlənən "ağca" sözünə (93, s. 22–23) "qala" sözünün qoşulması əsasında əmələ gəlib, "bozumtul torpaqda tikilən qalanın yanındakı yaşayış məntəqəsi" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Verin Bazmaberd" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 192).

Coğrafi koordinatları: 40°22′ şm. e., 44°01′ ş. u.

**Yuxarı Adyaman** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 35 km cənub-şərqdə, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 1980 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 61), Qafqazın 5 verstlik xəritəsində (348, s. 7) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali kəndi tədricən tərk etmişdir. Kənddə 1897-ci ildə ermənilərdən başqa, 12 nəfər azərbaycanlı yaşamışdır (415, s. 64–65). XX



*Yuxarı Adyaman kəndi*

əsrin əvvəllərində azərbaycanlılar erməni silahlıları tərəfindən deportasiya edilmişdir. Kənddə hazırda yalnız ermənilər yaşayır. Ermənilər kəndə 1828–1829-cu illərdə Türkiyənin Ələşkirt bölgəsindən köçürülmüşdür (427, s. 849). Erm. SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Verin Getaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 192).

Coğrafi koordinatları: 40°07′ şm. e., 45°14′ ş. u.

**Yuxarı Axta** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda, indi Kotayk vilayətində kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 5 km cənub-şərqdə, İnəkdağ dağının ətəyində, dəniz səviyyəsindən 1900 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 23). Kəndin əsas sakinləri azərbaycanlılar olmuşlar. Zaman-zaman onlar erməni silahlı dəstələri tərəfindən qırğınlara məruz qalmış, doğma torpaqlarından didərgin düşmüşlər. 1828–1829-cu illərdə İranın Xoy, Maku, Səlmas vilayətlərindən və Türkiyədən köçürülən ermənilər kənddə yerləşdirilmişdir (386, s. 591–594; 416, s. 88). Nəticədə, azərbaycanlıların sayı azalmışdır. 1897-ci ildə kənddə 30 nəfər azərbaycanlı yaşamışdır (415, s. 16–17). XX əsrin əvvəllərində azərbaycanlılar doğma torpaqlarından tamamilə qovulmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim fərqləndirici əlamət bildirən



*Yuxarı Axta kəndi*

"yuxarı" sözündən və oğuz tayfalarından olan padarların bir qoluna aid "axtaçı" (axta) etnonimindən (93, s. 28; 286, s. 57; 211, s. 235) formalaşmışdır. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Lernanist" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 88).

Coğrafi koordinatları: 40°28′ şm. e., 44°47′ ş. u.

**Yuxarı Axtala** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Allahverdi (Tumanyan) rayonunda, Ləlvər dağının ətəyində, indi Lori vilayətində şəhər. Vilayət mərkəzi Vanadzor (Böyük Qarakilsə) şəhərindən 4 km şərqdə, Axtala–Şamlıq yolunun üstündə, dəniz səviyyəsindən 1375 m hündürlükdə yerləşir. 1886-cı ildə kənd Lori-Pəmbək qəzasına tabe idi. Kənddə 1886-cı ildə 76, 1897-ci ildə 30, 1916-cı ildə 161 nəfər azərbaycanlı yaşamışdır (415, s. 67, 98–99). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən deportasiya olunmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə kənddə 77 nəfər azərbaycanlı, 27 nəfər yunan, 1926-cı ildə 82 nəfər azərbaycanlı, 1931-ci ildə 119 nəfər azərbaycanlı, 30 nəfər yunan yaşamışdır (415, s. 67, 98–99). Yunanlar kəndə XVIII əsrin 70-ci illərində mis mədənlərində işləmək üçün köçürülmüşdür. 1988-ci ilin noyabrında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından tamamilə qovulmuşdur. İndi kənddə ermənilərlə yanaşı, az sayda yunanlar da yaşayır. Toponim fərqləndirici əlamət bildirən "yuxarı" sözü ilə "axta" türk etnonimi (93, s. 28; 286, s. 57) əsasında əmələ gəlmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Lori vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 10).

Coğrafi koordinatları: 41°10′ şm. e., 44°46′ ş. u.

**Yuxarı Alçalı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 53 km cənub-şərqdə, Göyçə gölünün sahilində, Alçalı çayının yanında, dəniz səviyyəsindən 1950 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 14). Kənddə 1831-ci ildə 99, 1873-cü ildə 371, 1886-cı ildə 505, 1897-ci ildə 701, 1908-ci ildə 838, 1914-cü ildə 921, 1916-cı ildə 815 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 66–67, 140–141). 1918-ci ildə kəndin sakinləri erməni silahlıları tərəfindən törədilən qırğınlar nəticəsində qovulmuş, İran və Türkiyədən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar öz doğma kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə kənddə 134 nəfər azərbaycanlı, 88 erməni, 1926-cı ildə 142 nəfər azərbaycanlı, 252 erməni, 1931-ci ildə 205 nəfər azərbaycanlı, 511 erməni yaşamışdır (415 s. 66–67, 140–141). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "alça" bitki adına "-lı" şəkilçisinin qoşulması əsasında əmələ gəlmişdir. "Yuxarı" sözü fərqləndirici əlamət bildirir. Fitotoponimdir. 1950-ci ildə Aşa-

ğı Alçalı ilə Yuxarı Alçalı kəndləri birləşdirilərək "Alçalı" kəndi adlandırılmışdır. Erm. SSR AS RH-nin 27 sentyabr 1968-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Ardzvanist" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 35).

Coğrafi koordinatları: 40°09′ şm. e., 45°30′ ş. u.

**Yuxarı Çanaxçı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 56 km cənub-şərqdə, Ördundərədə, Ördun çayının yuxarısında, İrəvanın 90 verstliyində, dəniz səviyyəsindən 1730 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 279). Kənddə 1831-ci ildə 30 nəfər azərbaycanlı yaşamışdır (415, s. 156). 1828–1829-cu illərdə İran və Türkiyədən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir. Onlar azərbaycanlıları sıxışdırıb tədricən kənddən çıxarmışlar. Toponim fərqləndirici əlamət bildirən "yuxarı" sözü ilə çanaxçı türk tayfasının adı (407, s. 88) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 10 sentyabr 1948-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Sovetaşen", 3 aprel 1991-ci tarixli qərarı ilə yenidən dəyişdirilərək "Dzanqakatun" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 76).

Coğrafi koordinatları: 39°48′ şm. e., 45°03′ ş. u.

**Yuxarı Çarbax** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Kəndin başqa adı "Çaharbağ"dır (415, s. 50). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 280). Kənddə 1831-ci ildə 31, 1873-cü ildə 201, 1886-cı ildə 241, 1897-ci ildə 242, 1904-cü ildə 347, 1914-cü ildə 386 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq deportasiya olunmuş, İran və Türkiyədən köçürülən ermənilər kənddə yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 177, 1926-cı ildə 201, 1931-ci ildə 264 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, 1948-ci ildə azərbaycanlılar Azərbaycana köçürülmüşdür. Toponim fərqləndirici əlamət bildirən "yuxarı" sözü ilə türk dilində "yarğan, sıldırım sahil" mənasında işlənən "çar" (359. III (2), s. 1859) və "bağ" sözlərinin birləşməsindən yaranmışdır. Yuxarı Çarbax və Aşağı Çarbax kəndləri "Çarbax" adı altında birləşdirildikdən sonra – 1933-cü ildə İrəvan şəhərinin Şenqavit rayonunun tərkibinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°08′ şm. e., 44°29′ ş. u.

**Yuxarı Əylənli** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən



*Yuxarı Əylənli kəndi*

21 km şimal-şərqdə, Alagöz dağının cənub-qərbində, dəniz səviyyəsindən 875 m hündürlükdə yerləşir. Kəndin digər adı "Əylənli–Əbdülrəhman" olmuşdur (415, s. 80). Qafqazın 5 verstlik xəritə-

sində qeyd edilmişdir (348, s. 8). Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışlar. Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinə əsasən, İran və Türkiyədən köçürülən ermənilər kənddə məskunlaşdırılmışdır. Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 50 nəfər azərbaycanlı yaşamışdır (415, s. 150). Onlar 1840-cı illərdə ermənilər tərəfindən sıxışdırılıb kənddən qovulmuşdur. Hazırda burada yalnız ermənilər yaşayır. Toponim fərqləndirici əlamət bildirən "yuxarı" sözü ilə əylənli türk tayfasının adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Tsaxkunk" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 101).

Coğrafi koordinatları: 40°08′ şm. e., 44°14′ ş. u.

**Yuxarı Girətağ** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 19 km şimal-qərbdə, Oxçu çayının sol qollarından biri olan Girətağ çayının sol sahilində, dəniz səviyyəsindən 1700 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 134). Kənddə 1886-cı ildə 537, 1897-ci ildə 328, 1904-cü ildə 666, 1914-cü ildə 289 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57, 134–135). 1905-ci ildə erməni silahlı dəstələri ilk dəfə kəndə hücum edərək kütləvi qırğınlar törətmiş və azərbaycanlıları qovmuş, vəziyyət sabitləşəndən sonra kəndin sağ qalan əhalisi geri qayıda bilmişdir. 1918-ci ildə erməni silahlı birləşmələri azərbaycanlılara qarşı yenidən qırğınlar törətmiş, əhalini kənddən didərgin salmışdır. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə dönə bilmişlər. Kənddə 1922-ci ildə 71, 1926-cı ildə 223, 1931-ci ildə 396 (415, s. 56–57, 134–135), 1939-cu ildə 139, 1959-cu ildə 310, 1979-cu ildə 120 (427, s. 868), 1986-cı ildə 130 nəfər azərbaycanlı yaşamışdır (24 a, s. 352). 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən kənddən qovulmuşdur. Toponim qədim türk dilində "kənar, çöl, düzənlik" mənasında işlənən "kır" (kir) sözü ilə (359, II (1), s. 733) "tağ" (dağ) sözünün (339, s. 537) birləşməsindən əmələ gəlmişdir. Toponimin əvvəlindəki "yuxarı" sözü fərqləndirici əlamət bildirir. Kənd 1991-ci ildən "Verin Qirataǧ" adlanır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 193).

Coğrafi koordinatları: 39°14′ şm. e., 46°16′ ş. u.

**Yuxarı Gödəkli** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 11 km şimal-şərqdə, dəniz səviyyəsindən 1025 m hündürlükdə yerləşir. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 127). Kənddə 1897-ci ildə 201, 1914-cü ildə 79 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57, 134–135). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qırğınlara məruz qoyularaq deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz evlərinə dönə bilmişlər. Kənddə 1922-ci ildə 132, 1926-cı ildə 118, 1931-ci ildə 163 (415, s. 56–57, 134–135), 1939-cu ildə 221, 1959-cu ildə 180, 1970-ci ildə 275, 1979-cu ildə 381 nəfər azərbaycanlı yaşamışdır (427, s. 86). 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən tamamilə deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim türk mənşəli qazaxlar tayfası ilə bağlı olan "gödəkli" etnonimindən (386, s. 535) əmələ gəlmişdir. "Yuxarı" fərqləndirici sözdür. Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Vardavank" qoyulmuş-

dur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 190).

Coğrafi koordinatları: 39°14′ şm. e., 46°30′ ş. u.

**Yuxarı Xatunarx** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 34 km cənub-şərqdə, Böyük Qarasu çayının yanında, dəniz səviyyəsindən 835 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 262) qeyd edilmişdir. Kənddə 1828-ci ilə kimi azərbaycanlılar yaşamışlar. Türkmənçay müqaviləsindən sonra – 1828–1829-cu illərdə İranın Xoy vilayətindən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmiş (427, s. 138) və azərbaycanlılar erməni silahlıları tərəfindən deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Kənd İrəvan xanı Səfiqulu xanın (1655–1680) arvadı Xatun tərəfindən Böyük Qarasu çayından çəkilən arxın kənarında salınmışdır. Ona görə də "Xatunarx" adlandırılmışdır (427, s. 138). Toponimin əvvəlindəki "yuxarı" sözü fərqləndirici əlamət bildirir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Aknaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 11–12).

Coğrafi koordinatları: 40°05′ şm. e., 44°17′ ş. u.

**Yuxarı Kilsə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Quqark (Qarakilsə) rayonunda, indi Lori vilayətində kənd. Quqark şəhərindən 14 km cənub-şərqdə, Pəmbək çayının sağ tərəfində, dəniz səviyyəsindən 1800 m hündürlükdə yerləşir. Kənddə 1918-ci ildə 154 (415, s. 54–55, 132–133), 1922-ci ildə 96, 1926-cı ildə 130, 1987-ci ildə 575 nəfər (85, s. 317) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kənd əhalisi Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından zorla qovulmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Toponim cəhət, fərqləndirici əlamət bildirən "yuxarı" sözü ilə dini mərkəz bildirən "kilsə" sözündən əmələ gəlmişdir. Kəndin "Kilsə" (sonradan "Yuxarı Kilsə") adlandırılması XV yüzillikdə Yuxarı Kilsə kəndində tikilmiş alban kilsəsi ilə bağlıdır (85, s. 317). Alban kilsəsi 1935-ci ildə dağıdılıb. Kənd hazırda "Kilisa" adlanır.

Coğrafi koordinatları: 40°45′ şm. e., 44°25′ ş. u.

**Yuxarı Körpülü** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayətində kənd. Vilayət mərkəzi İcevan (Karvansara) şəhərindən 60 km şimal-qərbdə, Quruçay vadisində, dəniz səviyyəsindən 600 m hündürlükdə yerləşir. Kənddə 1831-ci ildə 43, 1886-cı ildə 361, 1897-ci ildə 402, 1908-ci ildə 440, 1914-cü ildə 427, 1916-cı ildə 792 nəfər azərbaycanlı yaşamışdır (415, s. 16–17; 100–101). 1918-ci ildə kənd sakinləri erməni silahlı birləşmələrinin törətdikləri qırğınlar nəticəsində qovulmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulduqdan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 523, 1926-cı ildə 530, 1931-ci ildə 630 (415, s. 16–17, 100–101), 1987-ci ildə 2000 nəfər (85, s. 329) azərbaycanlı yaşamışdır. 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən yenidən öz doğma kəndlərindən qovulmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Kənd XII əsr tarixi abidəsi olan Sınıq körpünün (Qırmızı körpü) yanında salındığı üçün "Körpülü" adlandırılmışdır. "Yuxarı" fərqləndirici əlamət bildirir. Kəndin adı Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə dəyişdirilərək "Zorakap" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Tavuş vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 79).

Coğrafi koordinatları: 41°13′ şm. e., 44°55′ ş. u.

**Yuxarı Qanlıca** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində kənd.

Vilayət mərkəzi Gümrü şəhərindən 7 km şimal-qərbdə, dəniz səviyyəsindən 1620 m hündürlükdə yerləşir. 1937-ci ilə kimi Leninakan rayonunun tərkibində olmuşdur. Kəndin köklü sakinləri olan azərbaycanlılar 1828-ci ildə deportasiya olunmuş, 1828–1830-cu illərdə Türkiyədən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim fərqləndirici əlamət bildirən "yuxarı" sözü ilə qanlı qədim türk tayfasının adına (228, s. 13, 64; 321, s. 43, 86; 393, s. 42) "-ca" şəkilçisinin qoşulması əsasında əmələ gəlmişdir. Etnotoponimdir. Erm. SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Marmaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Şirak vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 133–134).

Coğrafi koordinatları: 40°50′ şm. e., 43°46′ ş. u.

**Yuxarı Qaraqoymaz** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 41 km şimal-qərbdə, Alagöz dağının cənub-qərb ətəyində, dəniz səviyyəsindən 1850 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 117), «Сборник сведений о Кавказе» əsərində "Qarakovmaz" formasında (т. V, Тифлис, 1879, №277) qeyd edilmişdir. Kənddə 1897-ci ildə 142, 1916-cı ildə 224 (415, s. 34–35, 118–119), 1918-ci ilin yanvarında 394 nəfər (309, s. 219) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin mart ayında erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalan kənd sakinləri deportasiya olunmuş (309, s. 219), Türkiyənin Sasun və Muş vilayətlərindən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Kəndin adı Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən "yuxarı" sözü ilə türk dilində "uca, hündür, yüksək, şiş", "dağ, zirvə" mənasında işlənən "qara" sözü ilə (94, s. 71, 339, s. 256) türk dilində "kənd" mənasında işlənən "köy" sözü ilə (339, s. 282) "dağın cənub yamacı", "yüksəklikdə meşəsiz tərəfi" mənasında işlənən "mas" (maz) sözünün (339, s. 369) birləşməsindən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 12 noyabr 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Verin Sasunaşen" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 194).

Coğrafi koordinatları: 40°22′ şm. e., 43°59′ ş. u.

**Yuxarı Qarxın** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Eçmiədzin) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 37 km cənub-şərqdə, Araz çayının sol sahilində, dəniz səviyyəsindən 835 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 123). Kənddə 1831-ci ildə 885, 1873-cü ildə 967, 1886-cı ildə 991, 1897-ci ildə 1186, 1904-cü ildə 1153, 1914-cü ildə 1304, 1916-cı ildə 893 (415, s. 82–83, 152–153), 1918-ci ilin yanvarında 1153 nəfər (309, s. 219) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevral ayının axırları, mart ayının əvvəllərində kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və sakinlər tarixi-etnik torpaqlarından deportasiya olunmuşdur (309, s. 219). 1918–1920-ci illərdə Türkiyənin Sürməli vilayətindən köçürülüb gətirilən ermənilər və yezidi kürdlər kəndə yerləşdirilmişdir (416, s. 171). Hazırda kənddə ermənilər yaşayır. Toponim Azərbaycan dilində fərqləndirici əlamət bildirən "yuxarı" sözü ilə oğuzların "qarxın" (mənbələrdə "qarqın", "karkın" kimi göstərilir) türk etnonimi (238, s. 300) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 4 aprel 1946-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Crarat" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 171).

Coğrafi koordinatları: 40°44′ şm. e., 44°05′ ş. u.

**Yuxarı Qoylasar** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) ra-

yonunda, indi Ararat vilayətində kənd. Kəndin digər adı "Ulya Qoylasar" olmuşdur (415, s. 48). Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 8 km şimal-qərbdə, dəniz səviyyəsindən 865 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Yuxarı Quyuluhasar" formasında (143, s. 49) qeyd edilmişdir. Kəndin əsas sakinləri azərbaycanlılar olmuşlar. Ermənilər kəndə 1828–1830-cu illərdə İranın Xoy və Səlmas vilayətlərindən köçürülmüşdür (427, s. 771). Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 121, 1873-cü ildə 157, 1886-cı ildə 8, 1897-ci ildə 5 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). Azərbaycanlılar 1870-ci illərin sonundan başlayaraq sıxışdırılmış, 1905–1906-cı illərdə erməni silahlıları tərəfindən kənddən tamamilə qovulmuşdur. Hazırda kənddə ermənilər yaşayır. Kəndin ortasındakı böyük meydanda tikilən qala uca, qalın divarla hasarlanmış, küncləri isə 20 qülllədən ibarət olmuşdur. Kəndin adı məhz həmin qalanın adından götürülmüşdür. Qoylasar "qala-hasar" sözünün təhrif edilmiş formasıdır, "qala" və "hasar" sözlərinin birləşməsindən əmələ gəlib və "hasarlanmış qala" mənasını bildirir (371, s. 284). Toponimin əvvəlində işlənən "yuxarı" sözü fərqləndirici əlamət bildirir. Erm. SSR AS RH-nin 20 avqust 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Bambakavan", 25 yanvar 1978-ci il tarixli qərarı ilə yenidən dəyişdirilərək "Byuravan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 48).

Coğrafi koordinatları: 40°00′ şm. e., 44°31′ ş. u.

**Yuxarı Necili** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 20 km şimalda, dəniz səviyyəsindən 835 m hündürlükdə yerləşir. 1969-cu ildə – Zəngibasar (Masis) rayonu təşkil edilənədək keçmiş Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 186). Kənddə 1831-ci ildə 155, 1873-cü ildə 540, 1886-cı ildə 654, 1897-ci ildə 791, 1908-ci ildə 933, 1914-cü ildə 945, 1916-cı ildə 732 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). 1918-ci ilin sonu – 1919-cu ilin əvvəllərində kənd əhalisi erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur (309, s. 220). Yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar ata-baba yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 319, 1926-cı ildə 365, 1931-ci ildə 627 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Toponim fərqləndirici əlamət bildirən "yuxarı" sözü ilə nəcli (necili) türk tayfasının adı (143, s. 30) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Nizami" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 146).

Coğrafi koordinatları: 40°05′ şm. e., 44°24′ ş. u.

**Yuxarı Pirtikan** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 61 km şimal-qərbdə, dəniz səviyyəsindən 1990 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritə-



*Yuxarı Pirtikan kəndi*

sində (348, s. 202) qeyd edilmişdir. 1831-ci ildə Türkiyənin Muş və Ələşkirt vilayətlərindən köçürülən ermənilər Yuxarı Pirtikan kəndində yerləşdirilib. Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən "yuxarı" sözü ilə "dini məbəd" mənasında işlənən "pir" sözünün qıpçaqların "tikan" etnoniminə (286, s. 66) yanaşması əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 2 mart 1940-cı il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Tsaxkasar" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 100).

Coğrafi koordinatları: 40°27' şm. e., 43°53' ş. u.

**Yuxarı Türkmənli** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunda, indi Armavir vilayətində kənd. Vilayət mərkəzi Armavir (Sərdarabad) şəhərindən 15 km cənub-şərqdə, Böyük Qarasu çayının yanında, dəniz səviyyəsindən 837 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 248) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 64, 1873-cü ildə 262, 1886-cı ildə 360, 1897-ci ildə 438, 1904-cü ildə 510, 1914-cü ildə 540, 1916-cı ildə 460, 1919-cu ildə 460 nəfər azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). Kənd 1919-cu ilin yazında erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış, sakinlər qırğınlar nəticəsində tarixi-etnik torpaqlarından qovulmuş, 1915–1918-ci illərdə Türkiyənin Sasun vilayətindən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir (427, s. 304). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənddə ermənilərlə yanaşı, 1926-cı ildə 11, 1931-ci ildə 8 nəfər azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). Kənddə yaşayan azərbaycanlılar 1930-cu illərin ortalarında sıxışdırılaraq kənddən çıxarılmışdır. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim fərqləndirici əlamət bildirən "yuxarı" sözü ilə qızılbaşların "türkmən" etnoniminə (175, s. 18) "-li" şəkilçisinin qoşulmasından əmələ gəlmiş "türkmənli" etnonimi əsasında formalaşmışdır. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Apaqa" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Armavir vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 23).

Coğrafi koordinatları: 40°05' şm. e., 44°15' ş. u.

**Yuxarı Şorca** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən



*Yuxarı Şorca kəndi*

84 km cənub-şərqdə, dəniz səviyyəsindən 2340 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 297). Kəndin digər adları "Tatar Şorcası", "Başkeyti", "Şorcalı Keyti" olmuşdur (415, s. 26). Kənddə 1831-ci ildə 75, 1873-cü ildə 123, 1886-cı ildə 158, 1897-ci ildə 218, 1908-ci ildə 248, 1914-cü ildə 283, 1916-cı ildə 269 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1919-cu ilin aprelində azərbaycanlılar ermənilər tərəfindən törədilən qırğınlar nəticəsində öz doğma kəndlərindən qovulmuşdur (309, s. 305). 1920-ci ildə indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulduqdan sonra müəyyən sakitlik yaranmış və sağ qalan azərbaycanlılar kəndlərinə dönə bilmişlər. Kənddə 1922-ci ildə 204, 1926-cı ildə 253, 1931-ci ildə 295 (415, s. 26–27, 112–113), 1939-cu ildə 402, 1959-cu ildə 390, 1970-ci ildə 592, 1979-cu ildə 710 (416, s. 193), 1987-ci ildə 1440 nəfər (85, s. 288–289) azərbaycanlı yaşamışdır. 1988-ci

ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən bir daha tarixi-etnik torpaqlarından zorla qovulmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim fərqləndirici əlamət bildirən "yuxarı" sözü və "duzluq, şoranlıq" mənasında işlənən "şor" sözünə sifətin çoxaltma dərəcəsinin əlamətini bildirən "-ca" şəkilçisinin artırılması ilə düzəlib. Erməni ədəbiyyatında kəndin adı "Verin Şorja" formasında əksini tapıb. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 193).

Coğrafi koordinatları: 40°06′ şm. e., 45°48′ ş. u.

**Yuxarı Zağalı** – İrəvan quberniyasının Göyçə qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 70 km cənub-şərqdə, Göyçə gölünün yaxınlığındakı Dik Pilləkən dağının ətəyində yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 94) qeyd edilmişdir. Kənd həm də "Tatar Zağalısı" adlandırılmışdır (415, s. 26). Kənddən 1 km şərqdə qədim bir kəndin xarabalıqları, eyni zamanda oğuz qəbiristanlığının qalıqları vardır. Kənddə 1831-ci ildə 98, 1873-cü ildə 515, 1886-cı ildə 717, 1897-ci ildə 774, 1908-ci ildə 917, 1914-cü ildə 1018, 1916-cı ildə 922 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 110–111). 1918-ci ilin sonu – 1919-cu ilin əvvəllərində azərbaycanlılar erməni silahlı birləşmələrinin törətdikləri qırğınlar nəticəsində kənddən qovulmuşdur (309, s. 249). 1920-ci ildə indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişlər. 1922-ci ildən sonra Türkiyənin Muş bölgəsindən köçürülüb gətirilən ermənilər Yuxarı Zağalı kəndində yerləşdirilmişdir (415, s. 26–27). Ermənilərlə yanaşı, kənddə 1926-cı ildə 185, 1931-ci ildə 206 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 110–111). Yuxarı Zağalı kəndində 1970-ci ildə 629, 1979-cu ildə 534 nəfər əhali birgə yaşamışdır ki, (427, s. 121) bu əhalinin də 30 faizdən çoxunu azərbaycanlılar təşkil etmişdir. 1988-ci ildə azərbaycanlılar Ermənistan dövləti tərəfindən doğma kəndlərindən qovulmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim Azərbaycan dilində "mağara" mənasında işlənən "zağa" sözünə "-lı" şəkilçisinin əlavəsi ilə düzəldilmişdir. Toponimin əvvəlində işlənən "yuxarı" sözü fərqləndirici əlamət bildirir. Erm. SSR AS RH-nin 25 yanvar 1978-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Axpadzor" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 10).

Coğrafi koordinatları: 40°06′ şm. e., 45°39′ ş. u.

**Yuva** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 2–3 km cənub-şərqdə, Gərni və Vedi çaylarından axan arxın yanında, dəniz səviyyəsindən 830 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 49), Qafqazın 5 verstlik xəritəsində (348, s. 303) qeyd edilmişdir. Kənddə 1828-ci ilə kimi yalnız azərbaycanlılar yaşamışlar. 1828–1830-cu illərdə İranın Xoy və Səlmas əyalətlərindən köçürülən ermənilər kənddə yerləşdirilmişdir. Ermənilərlə yanaşı, kənddə 1831-ci ildə 33, 1873-cü ildə 186, 1886-cı ildə 161, 1897-ci ildə 60 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). 1905–1906-cı illərdə azərbaycanlılar erməni silahlılarının soyqırımına məruz qalaraq deportasiya olunmuşdur. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim ivə/yıva (yuva) oğuz tayfasının (399, I, s. 96; 299, s. 269; 238, s. 334) adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 19 aprel 1950-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Şaumyan" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 154).

Coğrafi koordinatları: 40°12′ şm. e., 44°17′ ş. u.

# Z

**Zar** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayəti ərazisində kənd. Vilayət mərkəzi Hrazdan (Axta) şəhərindən 47 km cənubda, dəniz səviyyəsindən 1650 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 81), Qafqazın 5 verstlik xəritəsində (348, s. 96) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 89 nəfər yalnız azərbaycanlı, ermənilərlə yanaşı, 1873-cü ildə 490, 1886-cı ildə 634, 1897-ci ildə 757, 1914-cü ildə 1250 (415, s. 44–45, 124–125), 1918-ci ilin yanvarında 706 nəfər (309, s. 216) azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevral ayında azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalaraq deportasiya olunmuşdur (309, s. 216). Türkiyənin Van və Malazgird vilayətlərindən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir (416, s. 76). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma ocaqlarına dönə bilmişlər. Kənddə ermənilərdən başqa, 1922-ci ildə 52, 1926-cı ildə 51, 1931-ci ildə 93 nəfər azərbaycanlı yaşamışdır (415, s. 44–45, 24–25). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar 1948–1949-cu illərdə zorla Azərbaycana köçürülmüşdür. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim türk dilində "yarğan" mənasında işlənən "car" (zar) sözü (339, s. 178–179) əsasında əmələ gəlmişdir. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Kotayk vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 76).

Coğrafi koordinatları: 40°15′ şm. e., 44°44′ ş. u.

**Zeynalağalı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Sevan rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 25 km şimal-qərbdə, dəniz səviyyəsindən 1925 m hündürlükdə yerləşir. Kənddə 1831-ci ildə 45, 1897-ci ildə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s. 16–17, 100–101). 1840-cı illərdə kəndə ruslar, 1918-ci ildə ermənilər yerləşdirilmişdir. XX əsrin əvvəllərində azərbaycanlılar erməni silahlıları tərəfindən kənddən qovulmuşdur. Toponim "Zeynalağa" şəxs adına mənsubluq bildirən "-lı" şəkilçisinin artırılması ilə düzəlib, "Zeynalağaya mənsub yer, kənd" deməkdir. 1850-ci illərdə kəndin adı dəyişdirilərək "Aleksandrovka" qoyulmuşdur. Erm. SSR AS RH-nin 22 fevral 1939-cu il tarixli qərarı ilə kəndin adı ikinci dəfə dəyişdirilərək "Çkalovka" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 165).

Coğrafi koordinatları: 40°30′ şm. e., 44°57′ ş. u.

**Zeytə** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, Vayotsdzor vilayətində kənd. Vilayət mərkəzi Yeğeqnadzor (Keşişkənd) şəhərindən 17 km cənub-şərqdə, Arpa çayının bir qolu olan Zeytədərəsi çayının sahilində, dəniz səviyyəsindən 1650 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində kəndin adı həm də "Çopma", "Çomap", "Zeta", "Çapma", "Zeyvə" kimi göstərilib (415, s. 88). "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 59) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 67, 1873-cü ildə 224, 1886-cı ildə 261, 1897-ci ildə 324, 1916-cı ildə 403 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158–159). 1918-ci ildə kənd erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və sakinlər deportasiya olunmuşdur. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar ata-baba yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 34, 1926-cı ildə 147, 1931-ci ildə 228 (415, s. 88–89, 158–159), 1939-cu ildə 311, 1959-cu ildə 188, 1970-ci ildə 239, 1979-cu ildə 263 nəfər (416, s. 77) azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr ayında Ermənistan dövləti kəndin sakinlərini deportasiya etmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Erm. SSR AS

RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Zedea" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Vayotsdzor vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 77).

Coğrafi koordinatları: 39°40' şm. e., 45°23' ş. u.

**Zeyvə** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində kənd. Vilayət mərkəzi Qapan şəhərindən 28 km şimal-şərqdə, Oxçu çayı ilə Gığı çayının qovuşduğu yerdə, dəniz səviyyəsindən 1150 m hündürlükdə yerləşir. 1921-ci



*Zeyvə kəndi*

il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd olunmuşdur (348, s. 97). Kənddə 1926-cı ildə 14, 1931-ci ildə 49 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57, 134–135). Toponim ərəb dilində "hücrə, guşə, künc, bucaq" mənasında işlənən "zaviyə" sözü (104, s. 207) əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 29 iyun 1949-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "David bek" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Sünik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 66).

Coğrafi koordinatları: 39°19' şm. e., 46°29' ş. u.

**Zəngilər (Donuzyeən)** – indiki Ermənistanın keçmiş Zəngibasar (Masis) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 21 km şimal-qərbdə, Zəngi çayının sahilində, dəniz səviyyəsindən 830 m hündürlükdə yerləşir. 3 yanvar 1935-ci ilə kimi kəndin adı "Donuzyeən" ("Donuzgirən") olmuşdur. Kənddə 1832-ci ildə 335, 1873-cü ildə 905, 1886-cı ildə 1012, 1897-ci ildə 1077, 1914-cü ildə 1064 nəfər yalnız azərbaycanlı yaşamışdır. 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin törətdikləri qırğınlar nəticəsində kəndi tərk etmək məcburiyyətində qalmışlar. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra kənd əhalisinin bir qismi geri qayıda bilmişdir. Kənddə 1922-ci ildə 399, 1926-cı ildə 493, 1931-ci ildə 518 nəfər azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Deportasiya edilənlərin bir qismi sonradan doğma kəndlərinə qayıda bilmişdir. 1988-ci ilin noyabr-dekabr aylarında kənd əhalisi yenidən deportasiya edilmişdir. "Zəngilər" toponimi türk əsilli zəngilər nəslinin adı ilə bağlıdır. F.Sümər yazıb: "Əlcəzair və Suriya hakimləri olan zəngilər də türk məmlük ailəsindən idilər" (238, s. 123). Ərəb ölkələrindəki məmlük türkləri – zəngilər də qıpçaq tayfalarından biridir (256, s. 26). Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Zorak" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 78).

Coğrafi koordinatları: 40°05' şm. e., 44°23' ş. u.

**Zərzibil (Zərkənd)** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 87 km cənub-şərqdə, Məzrə çayının yaxınlığında, dəniz səviyyəsindən 2100 m hündürlükdə yerləşir. XVI əsrdə İrəvan əyalətinin Göyçə mahalında Zar nahiyəsi və Zebil nahiyəsi, o cümlədən Zar kəndi və Baş Zebil kəndi olmuşdur (143, s. 180–181). Sonralar bu nahiyələr ləğv edilmiş,

Basarkeçər rayonu da daxil olmaqla Göyçə mahalında Göyçə nahiyəsi, Məzrə nahiyəsi yaradılmışdır. XVIII əsrdə Basarkeçər rayonunda yalnız Zar kəndi qeydə alınmışdır (143, s. 55–62). Qafqazın 5 verstlik xəritəsində Zərzibil kəndinin adı qeyd edilmişdir (348, s. 96). Zərzibil kəndi Zar və Zebil kənd adlarının birləşməsindən əmələ gəlmişdir. Kənddə 1831-ci ildə 202, 1873-cü ildə 462, 1886-cı ildə 653, 1897-ci ildə 754, 1908-ci ildə 963, 1914-cü ildə 1005, 1916-cı ildə



*Zərzibil kəndi*

968 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 110–111). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən kənddən qovulmuş, indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra öz doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 581, 1926-cı ildə 631, 1931-ci ildə 808 (415, s. 26–27, 110–111), 1939-cu ildə 803, 1959-cu ildə 770, 1970-ci ildə 1202, 1979-cu ildə 1533 (416, s. 114–115), 1987-ci ildə 2000 nəfər azərbaycanlı yaşamışdır. 1988-ci il noyabr ayının axırlarında Ermənistan dövləti azərbaycanlıları tarixi-etnik torpaqlarından deportasiya etmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim türk dilində "yarğan", "dərə" mənasında işlənən "zar" (car) sözü (339, s. 178–179) əsasında yaranmışdır. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Zərkənd", 3 aprel 1991-ci il tarixli qərarı ilə ikinci dəfə dəyişdirilərək "Kut" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 114–115).

Coğrafi koordinatları: 40°10′ şm. e., 45°53′ ş. u.

**Zod** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 85 km cənub-şərqdə, Zod çayının yanında, dəniz səviyyəsindən 2020 m hündürlükdə yerləşir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 62), Qafqazın 5 verstlik xəritəsində (348, s. 98) qeyd edilmişdir. Erməni müəlliflərinin əsərlərində kəndin adı həm də "Zot" və "Sot" formalarında qeyd olunub (415, s. 26). Kəndin ərazisində azərbaycanlılarla bağlı IX–XII əsrlərə aid tarixi abidələr (alban kilsəsinin və oğuz qəbiristanlığının xarabalıqları) vardır. Kənddə 1831-ci ildə 245, 1873-cü ildə 905, 1886-cı ildə 1088, 1897-ci ildə 1584, 1908-ci ildə 1717, 1914-cü ildə 1988, 1916-cı ildə 1717 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 110–111). 1919-cu ilin aprelində azərbaycanlılar erməni silahlı birləşmələrinin törətdikləri qırğınlar nəticəsində kənddən qovulmuşdur (309, s. 305). İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 1046, 1926-cı ildə 1325, 1931-ci ildə 1599 (415, s. 27, 111), 1939-cu ildə 1946, 1959-cu ildə 1290, 1979-cu ildə 2984 nəfər (416, s. 181) yalnız azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Deportasiya edilənlərin bir qismi sonradan doğma kəndlərinə qayıda bilmiş, 1988-ci ilin noyabrında isə Ermənistan dövləti tərəfindən azərbaycanlılar yenidən öz doğma kəndlərindən qovulmuşdur. İndi kənddə ermənilər məskunlaşıb. Toponim türk mənşəli "sotk/sodk" etnonimi (168, s. 106–107) əsasında formalaşmışdır. Toponim "Sotk–Södk–Zod" formasında inkişaf prosesi keçmişdir. Azərbaycan dilində "s~z" və "t~d" səs əvəzlənməsi qanunauyğun haldır. Etnonimin tərkibindəki "k" səsi qədim türk dilində "cəmlik, çoxluq" mənalarını bildirmiş, lakin sonralar etnonimdəki fonetik də-

yişmələr nəticəsində "k" samiti düşmüşdür. Erm. SSR AS RH-nin 3 aprel 1991-ci il tarixli qərarı ilə Zod kəndinin adı dəyişdirilərək "Sotk" adlandırılmışdır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Geğarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 181).

Coğrafi koordinatları: 40°12′ şm. e., 45°51′ ş. u.

**Zorba** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Talın (Talin) rayonunda, indi Araqatsotn vilayətində kənd. Vilayət mərkəzi Aştarak (Əştərək) şəhərindən 62 km şimal-qərbdə, dəniz səviyyəsindən 1500 m hündürlükdə yerləşir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Ədirnə müqaviləsinə (1829) əsasən, ermənilərin Türkiyədən köçürülüb məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Azərbaycan dilində "güclü" mənasında işlənən "zorba" sözündən əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Sorik" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Araqatsotn vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 182).

Coğrafi koordinatları: 40°24′ şm. e., 43°43′ ş. u.

**Zöhrablı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətində kənd. Vilayət mərkəzi Artaşat (Qəmərli) şəhərindən 11 km şimal-şərqdə, dəniz səviyyəsindən 905 m hündürlükdə yerləşir. Kəndin digər adı "Zorbalı" olmuşdur (415, s. 48). "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 75) qeyd edilmişdir. Kənddə tarixən azərbaycanlılar yaşamışdır. 1828–1830-cu illərdə kəndə İrandan köçürülüb gətirilən ermənilər yerləşdirilmiş və azərbaycanlılar deportasiya olunmuşdur. Toponim qaşqay türk tayfasından olan zöhrablı nəsil adı əsasında (142, s. 39) əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 20 avqust 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Mrqanuş" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Ararat vilayətinin inzibati ərazisinə daxil edilmişdir (416, s. 140).

Coğrafi koordinatları: 40°01′ şm. e., 44°33′ ş. u.

# Ləğv edilmiş və ya dağıdılmış kəndlər

## A

**Abana** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Ağavnadzor kəndindən 14 km şərqdə yerləşirdi. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 58) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 25 nəfər azərbaycanlı yaşamışdır (415, s. 160). 1840–1850-ci illərdə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim e.ə. qarqarlarla birlikdə Qafqaza – Albaniyaya gələn "abant" ("t" samiti sonradan ixtisar edilmişdir) etnonimi (287, s. 78) əsasında əmələ gəlmişdir.

**Abbas dərəsi** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Gorus şəhərindən 16 km şimal-şərqdə yerləşirdi (85, s. 163). XX əsrin əvvəllərində xarabalığa çevrilmişdir. Hazırda xarabalıqdır. Toponim şəxs adı ilə relyef bildirən "dərə" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Abbas dərəsi** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunun, indiki Tavuş vilayətinin ərazisində mövcud olmuşdur. Azərbaycanlılar yaşayan bu kəndin ilk dəfə adı XIII əsrdə Kirakos Gəncəli tərəfindən çəkilib. Hazırda xarabalıqdır. Toponim şəxs adına relyef bildirən "dərə" sözünün birləşməsi əsasında əmələ gəlmişdir.

**Abbasgölü** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Göyçə gölünün şimal-qərbində, indiki Sevan şəhərindən 12–13 kilometr cənub-şərqdə, üç tərəfdən yamaclarla əhatə olunmuş kiçik dağ gölünün ətrafında yerləşmişdir. 1728-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"ndə "Camalgöl" adı ilə təqdim olunub. 1826–1828-ci illər Rusiya-İran müharibəsi zamanı Abbasgölü kəndi dağıdılmışdır. XIX əsrin ortalarında kəndin əzəli sahibləri doğma ocaqlarını yenidən bərpa etmişlər. 1897-ci ildə Abbasgölü kəndində 670 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Qırğınlardan sağ çıxmış çox az əhali kompakt şəkildə Qars vilayətinin Meydancıq köyünə köç etmişdir (249 a, s. 117). Hazırda kənd xarabalıqdır.

**Abbaslar** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. XX əsrin əvvəllərində xarabalığa çevrilmişdir (85, s. 163). Hazırda xarabalıqdır. Toponim "abbaslar" etnonimi əsasında əmələ gəlmişdir.

**Abdulabad** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. Araz çayının sol sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində "Abdulavad" kimi (348, s. 1) qeyd edilmişdir. Kənd XX əsrin əvvəllərində ləğv edilmişdir (415, s. 62–63). Toponim "Abdul" şəxs adı ilə "yaşayış məntəqəsi" mənasında işlənən "abad" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Abdulkənd** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qurduqulu (Hoktem-

beryan) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. XX əsrin əvvəllərində ləğv edilmişdir. Şəxs adı əsasında əmələ gələn mürəkkəb toponimdir.

**Abdullar** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Vilayətdəki Noradüz kəndindən 4–5 km şimal-qərbdə, Göyçə (Sevan) gölünün sahilində yerləşirdi (427, s. 14). Hazırda xarabalıqdır. Toponim abdullar nəsil adı əsasında əmələ gəlmişdir.

**Abgəz** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Vilayətdəki Aldərə (Əldərə) kəndindən 14 km şimalda yerləşirdi. 1930-cu illərdə əhali rayon mərkəzinə və rayonun Hamravar kəndinə köçürülərək kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır (427, s. 5, 10). Toponim fars dilində "su" mənasında işlənən "ab" sözü ilə Azərbaycan dilində "aşırım", "dağ qılıcında nazik yer", "gəzdək, dağ çökəyi, dağın təpəsindəki çökək" mənasında işlənən "gəz" sözünün (339, s. 167) birləşməsindən əmələ gəlmişdir.

**Açıxlı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafan şəhərindən 5–6 km şimal-qərbdə, Qır qalası dağının ətəyində yerləşirdi. X–XIII əsrlərdə "Açağuvəng" formasında xatırlanır (427, s. 303). Erməni mənbələrində kəndin adı "Açağu", "Açaxlu", "Acıllu" formalarında da qeyd olunmuşdur (415, s. 54; 427, s. 303). Kənddə 1897-ci ildə 126 nəfər azərbaycanlı yaşamışdır (427, s. 303). 1918-ci ildə azərbaycanlılar erməni silahlı dəstələrinin təcavüzünə məruz qalaraq deportasiya edilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənd sakinləri öz doğma yerlərinə qayıda bilmişlər. Kənddə 1926-cı ildə 98, 1931-ci ildə 120 (415, s. 55, 133), 1939-cu ildə 165, 1959-cu ildə 186, 1963-cü ildə 300 nəfər (427, s. 303) azərbaycanlı yaşamışdır. 1968–1969-cu illərdə azərbaycanlılar kənddən çıxarılmış və kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "açıq yer, düzəngah, açıq sahə, meydan" mənasında işlənən "açıqlıq" (9, s. 156) sözünün dialekt forması olan "açıxlı" sözü əsasında düzəldilmişdir.

**Adatəpə** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Vilayətdəki Ardanış kəndinin yaxınlığında, Ardanış və Şorca kəndləri arasında, Şorca kəndindən 3–4 km şimal-şərqdə yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 6). Kənddə azərbaycanlılar yaşamışdır. XIX əsrin əvvəllərində kənd ləğv edilmişdir. Bəzən səhv olaraq indiki Ardanış kəndi ilə eyniləşdirilir (427, s. 28). Erməni mənbələrində Adatəpənin "Adavəngin" adı əsasında yarandığı göstərilir (427, s. 28). Toponim Azərbaycan dilində "hər tərəfi su ilə əhatə olunmuş quru sahə" mənasında işlənən "ada" sözü ilə "alçaq dağ" mənasında işlənən "təpə" sözünün (254, s. 18) birləşməsindən əmələ gəlmişdir.

**Ağağa** – Kənd Yelezavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Şıxlar kəndinin yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində "Aqay", Naxçıvan sancağının müfəssəl dəftərində "Ağayi" kimi qeyd edilmişdir. (244 a, s. 30). Kənddə 1897-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xaraba kənddir. Toponim "nüfuzlu, ağsaqqal" mənasında işlənən "ağa" sözü ilə "Ağa" şəxs adının birləşməsindən əmələ gəlmişdir.

**Ağaplı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunun, indiki Sünik vilayətinin ərazi-

sində mövcud olmuşdur. Kənd Gorusdan 23 km şimal-şərqdə yerləşirdi (427, s. 160). Qafqazın 5 verstlik xəritəsində (348, s. 3) qeyd edilmişdir. Hazırda xarabalığa çevrilib. Toponim nəsil adı əsasında əmələ gəlmişdir.

**Ağasıbəyli** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Vedi yaşayış məntəqəsindən 15 km cənub-şərqdə, Vedi çayının sağ qolu olan Xosrov çayının orta axarında yerləşmişdir (85, s. 219). Kənddə 1873-cü ildə 100, 1886-cı ildə 112, 1897-ci ildə 142, 1904-cü ildə 208, 1914-cü ildə 228, 1926-cı ildə 13, 1931-ci ildə 2 nəfər azərbaycanlı, 11 nəfər kürd yaşamışdır (415, s. 84–85, 154–155). Hazırda xarabalığa çevrilib. Nəsil adı əsasında əmələ gələn patronim toponimdir.

**Ağbaba** – Kənd Qars vilayətinin Qars qəzasında, keçmiş Amasiya rayonunda, indiki Şirak vilayətinin ərazisində mövcud olmuşdur. Arpa gölünün sahilində, Ağbaba dağının ətəyində, Qarabulaq kəndindən 1 km cənubda yerləşirdi. XIX əsrin sonlarında ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "ağbaba" quş adı əsasında formalaşmışdır.

**Ağbulaq** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Kənd Vedi çayının sahilində yerləşmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 4). Kənddə 1897-ci ildə 95 nəfər azərbaycanlı yaşamışdır (415, s. 84–85). XX əsrin əvvəllərində – 1905–1906-cı illərdə azərbaycanlılar qovulmuş və kənd ləğv edilmişdir. Toponim "keyfiyyətli" mənasında işlənən "ağ" və "bulaq" sözlərinin birləşməsindən əmələ gəlmişdir.

**Ağcakənd** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Göydağ dağının şərq tərəfində, Ardıclı selavının yaxınlığında yerləşib. Kənddə 1873-cü ildə 106, 1886-cı ildə 139, 1897-ci ildə 192, 1904-cü ildə 214, 1914-cü ildə 234, 1916-cı ildə 258 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158–159). 1918-ci ildə erməni silahlı dəstələrinin təcavüzünə məruz qalan kəndin aborigen sakinləri – azərbaycanlılar didərgin salınmışdır. 1920-ci ildə kənd ləğv edilmişdir. Hazırda xaraba kənddir. Toponim türk dilində "ağımtıl, quru, şumlanmamış bozumtul torpaq" mənasında işlənən (93, s. 22) "ağca" sözünə "kənd" coğrafi nomeninin qoşulması ilə düzəlmişdir.

**Ağcaquş** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Göyçə (Sevan) gölünün şərqində yerləşirdi. Hazırda xaraba kənddir.

**Ağdaban** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Bazarçayın sağ sahilində yerləşirdi (427, s. 168). Toponim türk dilində "hündür, uca, yüksək" mənasında işlənən "ağ" sözü ilə türk dilində "yüksək dağ aşırımı, dağ aşırımı, aşırım, təpə" mənasında işlənən "daban" sözündən (339, s. 168) əmələ gəlmişdir. Hazırda xaraba kənddir.

**Ağdamlar** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 4). 1897-ci ildə kənddə 39 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46–47). 1905–1906-cı illərdə ermənilərin təcavüzü nəticəsində azərbaycanlılar deportasiya olunmuş və kənd ləğv edilmişdir. Toponim rəng bildirən "ağ" sözü ilə "-lar" cəm şəkilçisi qəbul etmiş, türk dilində "ev, divar" mənasında işlənən "dam" sözünün (339, s. 170–171) birləşməsindən əmələ gəlmişdir.

**Ağdaş** – Kənd Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Allahverdi (Tumanyan) rayonunun, indiki Lori vilayətinin ərazisində mövcud

olmuşdur. Axtala və Şamlıq kəndlərinin yaxınlığında yerləşirdi. Kənd XIX əsrdə dağıdılmış, əhalisi Axtala və Şamlıq kəndlərinə köçürülmüşdür. Hazırda xaraba kənddir. Toponim "kiçik, xırda" mənasını ifadə edən "ağ" sözü ilə (359, I (1), s. 96) qədim türk dilində "çöl, səhra, açıq yer" mənasında işlənən "daş" (339, s. 539) sözünün birləşməsindən əmələ gəlmişdir və "kiçik, açıq yerdə, səhrada olan kənd" mənasını ifadə edir.

**Ağdərə** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Vilayətin ərazisindəki Dərətumb kəndinin yaxınlığında, Səlim çayının sağ tərəfində yerləşirdi. Kənddə 1831-ci ildə 78, 1897-ci ildə 3 nəfər azərbaycanlı yaşamışdır (415, 90–91,160). XIX əsrin sonlarında kənd ləğv edilmişdir. Toponim qədim türk dilində "kiçik, balaca" mənasında işlənən "ağ" sözü ilə (359, 1(1), s. 96) Azərbaycan dilində "iki dağ və ya təpə arasında çuxur", "uzun, dərin çuxur" mənasında işlənən "dərə" sözünün birləşməsindən əmələ gəlib, "kiçik, balaca dərə yaxınlığındakı kənd" mənasını ifadə edir.

**Ağgöl** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qaradığa kəndindən şimal-qərbdə yerləşirdi. Hazırda xarabalıqdır. Kəndin adı ərazidəki eyniadlı göldən götürülmüşdür.

**Ağxaç** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Rayon mərkəzindən 12 km cənub-şərqdə, Horadiz (Qaradüz) kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1831-ci ildə 37 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 158). 1828–1829-cu illərdə kəndə Xoy və Səlmasdan ermənilər köçürülüb yerləşdirilmiş, bundan sonra qarışıq əhali yaşayan kəndə çevrilmişdir. Kənddə ermənilərlə yanaşı, 1873-cü ildə 140, 1886-cı ildə 195, 1897-ci ildə 242 nəfər azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158). 1904, 1914, 1916-cı illərdəki siyahıyaalmada azərbaycanlı və erməni əhali qarışıq şəkildə göstərilmişdir. 1918–1919-cu illərdə azərbaycanlılar erməni silahlı dəstələrinin təcavüzünə məruz qalaraq didərgin salınmışlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra azərbaycanlıların müəyyən qismi doğma torpaqlarına qayıda bilmişdi. Kənddə 1926-cı ildə 12 nəfər azərbaycanlı yaşamışdır (415, s. 89). 1928–1929-cu illərdə azərbaycanlılar kənddən sıxışdırılıb çıxarılmışdır. Toponim türk dilində "kiçik, balaca" mənasında işlənən "ağ" sözü ilə (359, I (1), s. 96) Azərbaycan dilində "qoyun, mal yatağı" mənasında işlənən "arxac" sözünün (9, s. 129) təhrifi əsasında yaranan "xaç" sözündən əmələ gəlmişdir. Kəndin qədim adı Ağarxac olmuş, zaman keçdikcə Ağxaç formasını almışdır. Hazırda kənd ləğv edilmişdir.

**Ağkənd** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 5). XX əsrin əvvəllərində kənd ləğv edilmişdir. Toponim qədim türk dilində "kiçik" mənasında işlənən "ağ" sözünə (94, s. 68) "kənd" coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir.

**Ağkilsə** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Yeğeqnadzordan 14 km qərbdə, Yelpin çayının sol qolu olan Heşin çayının sahilində yerləşirdi. Kənddə 1873-cü ildə 65, 1886-cı ildə 89, 1897-ci ildə 102, 1904-cü ildə 110, 1914-cü ildə 121, 1916-cı ildə 155 nəfər azərbaycanlı yaşamışdır (415, s. 90–91, 160–161). 1918-ci ildə kəndin əhalisi erməni silahlı dəstələrinin təcavüzünə məruz qalaraq qırğınlar nəticəsində didərgin salınmışdır. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar ata-baba yurdlarına dönmüş və 1922-ci

ildə kənddə 8 nəfər azərbaycanlı yaşamışdır (415, s. 161). 1923–1925-ci illərdə onlar da kənddən qovulmuş və kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində rəng mənasında işlənən "ağ" sözü ilə dini məbəd mənasında işlənən "kilsə" sözündən əmələ gəlmişdir. Kəndin adı ərazidə albanlara məxsus kilsə adından yaranmışdır. "Ağ rəngdə olan kilsə yaxınlığında kənd" mənasını ifadə edir.

**Ağkilsə** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Vedidən şərqdə, Sığnax dağının ətəyində, Zimmi dərəsində, Vedi çayının sahilində yerləşirdi. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Ağcakilsə" (143, s. 172), 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə (s. 106) və Qafqazın 5 verstlik xəritəsində (348, s. 5) "Ağkilsə" kimi qeyd edilmişdir. Kənddə 1873-cü ildə 111, 1886-cı ildə 152, 1897-ci ildə 165, 1904-cü ildə 563, 1914-cü ildə 574, 1916-cı ildə 259 nəfər azərbaycanlı yaşamışdır (415, s. 84–85, 154–155). 1918–1920-ci illərdə kəndin əhalisi qırğınlar nəticəsində tamamilə qovulmuş və kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim alban məbədinin adı əsasında, rəng bildirən "ağ" sözü ilə "kilsə" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Ağsu** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1829-cu ildə 41, 1879-cu ildə 71 nəfər azərbaycanlı yaşamışdır (85, s. 352). XIX əsrin axırlarında kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "keyfiyyətli, içməyə yararlı" mənasında işlənən "ağ" sözü ilə (93, s. 22) qədim türk dilində "çay" mənasında işlənən "su" sözündən (299, s. 512) əmələ gəlmişdir.

**Ağsu** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayətində meşə məntəqəsi. 1959-cu ildə 70 nəfər azərbaycanlı yaşamışdır (427, s. 121). 1960-cı ildə əhalisi köçürülərək yaşayış məntəqəsi kimi ləğv edilmişdir. Binaların uçuqları indi də durur. Xarabalıq kənddir. Toponim türk dilində "kiçik, balaca" mənasında işlənən "ağ" sözü ilə (359, I (1), s. 96) türk dilində "çay, kiçik çay, kiçik göl" mənasını bildirən "su" sözündən (299, s. 512; 339, s. 528–529) əmələ gəlib. "Kiçik çay yanında yerləşən kənd" mənasını ifadə edir.

**Ağtala** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Dilican rayonunun, indiki Tavuş vilayətinin ərazisində mövcud olmuşdur. XIX əsrin 40-cı illərinin axırlarında kənd ləğv edilmişdir. Toponim qədim türk dilində "kiçik, kiçicik, xırda, balaca" mənasında işlənən "ağ" sözü ilə (359, s. 96) "meşə ortasında açıqlıq" mənasında işlənən "tala" sözünün birləşməsindən əmələ gəlib, "çox da böyük olmayan, ərazicə kiçik tala" mənasını bildirir.

**Ağtala** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. 1926-cı ildə kənddə 26 nəfər azərbaycanlı yaşamışdır (85, s. 85). 1930-cu illərdə Ermənistan hökumətinin qərarı ilə kənd ləğv edilmişdir. Toponim qədim türk dilində "kiçik", "balaca" mənasında işlənən "ağ" sözü ilə "meşə ortasında açıqlıq" mənasında işlənən "tala" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Ağtəpə** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Şorça kəndinin yaxınlığında yerləşirdi. 1831-ci ildə kənddə 129, 1926-cı ildə 16 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 30–31, 114–115). XX əsrin ortalarında azərbaycanlılar deportasiya edilmiş və kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "alçaq, kiçik" mənasında işlənən "ağ" sözü ilə "alçaq dağ" mənası bildirən "təpə" oronimi əsasında yaran-

mışdır. Yaşayış məntəqəsi alçaq, kiçik təpədə yerləşdiyi üçün Ağtəpə adlanmışdır.

**Axtacul** – Kənd İrəvan quberniyasının Şərur–Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur (427, s. 123). Gomur kəndinin yaxınlığında yerləşirdi. Hazırda ləğv edilib. Toponim padar türk tayfasının bir qolu olan "axta" etnonimi ilə (286, s. 57) çul (çol/sul) qədim türk tayfa adının (287, s. 111–114; 211, s. 190–194) birləşməsindən əmələ gəlmişdir.

**Alacan** – Kənd Tiflis quberniyasının Lori–Pəmbək qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunun, indiki Lori vilayətinin ərazisində mövcud olmuşdur. Qaraçor kəndindən 6 km şimalda yerləşirdi. Hazırda xarabalıqları qalır.

**Alapapaq** – Kənd İrəvan əyalətinin Dərəçiçək mahalında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. XVIII əsrin axırlarında xarabalığa çevrilmişdir (427, s. 91). Alapapaq türk tayfasının adı əsasında əmələ gəlmişdir.

**Alçalı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Vilayətdəki Ağbulaq kəndinin 1 km-də yerləşirdi (427, s. 166). Toponim "alça" bitki adına Azərbaycan dilində işlənən "-lı" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Hazırda xarabalıqları qalır.

**Alxanpəyəsi (Alıxanpəyəsi)** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indiki Vayotsdzor vilayəti ərazisində mövcud olmuşdur. Keşişkənd (Yeğeqnadzor) yaşayış məntəqəsinin Həsənkəndlə Qoytul kəndləri arasında, Şərur və Keşişkənddən Göyçəyə gedən şosse yolunun üstündə (211, s. 236), Arpaçayın bir qolu olan Səlim çayının yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 13). Kənddə 1831-ci ildə 18, 1873-cü ildə 54, 1886-cı ildə 66, 1897-ci ildə 100, 1904-cü ildə 175, 1914-cü ildə 192, 1916-cı ildə 112 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 160–161). 1918-ci ildə kənd erməni silahlı dəstələrinin təcavüzünə məruz qalmış, əhalisi didərgin salınmışdır. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar ata-baba yurdlarına qayıtmışlar. Kənddə 1922-ci ildə 37 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 161). 1923–1925-ci illərdə onlar yenidən qədim yurdlarından qovulmuş və kənd xarabalığa çevrilmişdir. Bu kəndi görkəmli şair Səməd Vurğunun da mənsub olduğu Vəkilovlar nəslindən olan Alı xan inşa etmişdir. Alı xan qış, payız, yaz aylarında mal-qarasını, qoyunlarını bu kənddə saxlayırmış (211, s. 236). Ona görə də kənd Alıxanpəyəsi adlandırılmışdır. Toponim "Alı xan" şəxs adından və Azərbaycan dilində "tövlə, mal-qara saxlanılan yer" mənasında işlənən "pəyə" sözündən əmələ gəlmişdir.

**Alırzalar** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur (427, s. 83). Eyniadlı nəsil adı əsasında əmələ gəlmişdir. Kənd ləğv olunmuşdur.

**Alişar** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Vilayətdəki Dəstəgird kəndindən 23 km şimal-qərbdə yerləşirdi. Kənddə 1886-cı ildə 138, 1897-ci ildə 48, 1914-cü ildə 214 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1918-ci ildə kənd erməni silahlı dəstələrinin təcavüzünə məruz qalmışdır. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar tarixi torpaqlarına dönmüşlər. Kənddə 1922-ci ildə 105, 1926-cı ildə 104, 1931-ci ildə 135 (415, s. 77, 147), 1939-cu ildə 108 nəfər (427, s. 88) azərbaycanlı yaşamışdır. Sakinlər Sofulu və Şıxlar (Qızıl Şəfəq) kəndlərinə köçürülmüş və 1930–1940-cı illərdə kənd ləğv edilmişdir (427, s. 88).

**Allahverdibəyli** – Kənd İrəvan xanlığının Göyçə mahalında, indiki Geğarkunik vilayəti ərazisində mövcud olmuşdur. Hazırda xarabalığı qalır. "Allahverdi bəy" şəxs adı əsasında əmələ gəlmişdir.

**Allar** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonu, indiki Sünik vilayəti ərazisində mövcud olmuşdur. Bazarçayın sol sahilində, Tatev kəndindən 5 km şimal-şərqdə yerləşirdi. Kənddə yalnız azərbaycanlılar yaşamışdır. 1914-cü ildə kənd ləğv edilmişdir (427, s. 94). Toponim alar türk tayfasının adı (287, s. 54) əsasında əmələ gəlmişdir.

**Almalı** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indiki Vayotsdzor vilayətində mövcud olmuşdur. Keşişkənd (Yeğeqnadzor) yaşayış məntəqəsi mərkəzindən 14-16 km qərbdə, Yelpin kəndinin şimalında yerləşirdi. Kənddə 1873-cü ildə 172, 1886-cı ildə 231, 1897-ci ildə 277, 1904-cü ildə 313, 1914-cü ildə 345, 1916-cı ildə 360 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 160–161). 1918-ci ildə azərbaycanlılar erməni silahlı dəstələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar kəndə dönə bilmişlər. Kənddə 1922-ci ildə 100, 1926-cı ildə 94, 1931-ci ildə 145 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 91, 161). 1938–1939-cu illərdə azərbaycanlılar kənddən köçürülmüş, 1939-cu ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "almalı" türk etnonimi (407, s. 90) əsasında formalaşmışdır.

**Almalıq** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonu, indiki Sünik vilayəti ərazisində mövcud olmuşdur. Kənddə 1897-ci ildə 81, 1914-cü ildə 465 nəfər azərbaycanlı yaşamışdır (415, s. 54–55, 132–133). 1916–1918-ci illərdə azərbaycanlılar erməni soyqırımına məruz qalaraq deportasiya olunmuş, 1926-cı ilə qədər kənd xaraba qalmışdır. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənd sakinləri öz evlərinə qayıda bilmişlər. Kənddə 1926-cı ildə 49, 1931-ci ildə 61 nəfər azərbaycanlı yaşamışdır (415, s. 55, 133). 1930-cu illərin ortalarında kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "almalı" sözünə Azərbaycan dilində məkan mənası bildirən "-lıq" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir.

**Altuntaxt** – Kənd İrəvan xanlığının Göyçə mahalında, indiki Geğarkunik vilayəti ərazisində mövcud olmuşdur. XIX əsrdə yeni yaradılan inzibati-ərazi bölgüsünə əsasən, İrəvan quberniyasının Novo-Bəyazid qəzasına, keçmiş Kəvər (Kamo) rayonu ərazisinə daxil olmuşdur. "Kitabi-Dədə Qorqud" dastanında adı çəkilir: "Qazan bəy ordusunu, oğlanını, uşağını, xəzinəsini aldı, geri döndü. Altun taxtında yenə evini dikdi" (157, s. 44). 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 55), 1763–1780-ci illərdə Eçmiədzin katolikosu olmuş Simeon Erivantsinin "Cambr" əsərində qeyd edilmişdir (303, s. 361). Kənd XVIII əsrin axırları – XIX əsrin əvvəllərində ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim qədim türk dilində "qızıl" (qırmızı) mənasında işlənən "altun" sözünə "dağın zirvəsində hamar, düzən yer" mənasında işlənən" taxt" sözünün (210, s. 5) artırılması yolu ilə yaradılmışdır.

**And (Hand)** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indiki Ararat vilayətində mövcud olmuşdur. Kənd Vedi çayının sağ qolu olan Xosrov çayının yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 16). 1937–1948-ci illərdə keçmiş Qarabağlar rayonunun tərkibində olmuşdur. Kəndin adı erməni mənbələrində "Hand" kimi qeyd edilir (415, s. 86). Kənddə 1873-cü ildə 106, 1886-cı ildə 158, 1897-ci ildə 201, 1904-cü ildə 173, 1914-cü ildə 297, 1916-cı ildə 241 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 154–155). 1918–1919-cu illərdə azərbaycanlılar erməni si-

lahlı dəstələri tərəfindən kənddən vəhşicəsinə qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə dönə bilmişlər. Kənddə 1922-ci ildə 47, 1926-cı ildə 63, 1931-ci ildə 73 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 154–155). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmiş və kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "çöl, tarla", "həndəvər, ətraf" mənasında işlənən "hənd" sözü (253, s. 132) əsasında yaranmışdır.

**Angersak (Əngirsək)** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda, indiki Araqatsotn vilayətində mövcud olmuşdur. Kənd Əştərək kəndindən 6–7 km şimal-qərbdə yerləşirdi. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Ənqurik" formasında (143, s. 163), Qafqazın 5 verstlik xəritəsində "Angersak" kimi (348, s. 15) qeyd edilmişdir. Kəndin köklü sakinləri olan azərbaycanlılar kəndin adını "Ənirsək" formasında tələffüz edirdilər. Kənddə 1873-cü ildə 133, 1886-cı ildə 140, 1897-ci ildə 162, 1908-ci ildə 209, 1914-cü ildə 221, 1916-cı ildə 188, 1919-cu ildə 202 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107). 1920-ci ildə kənd sakinləri ermənilərin törətdikləri soyqırımına məruz qalmış və tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. 1925–1959-cu illərdə kənddə yezdi kürdlər yaşamışlar. 1959-cu ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim qədim türk dillərində "xəndək, səngər", "çatlamış yer", "dərə, dar dərə, vadi", "uzaq sahil" mənalarında işlənən "anqar" sözü ilə (339, s. 50–51) türk dilində "dağın ətəyi, dağın dibi", "çay ağzı, mənsəb", "uzunsov əyri, dayaz dərə", "arxın başlanğıcı" mənasında işlənən "saqa/saxa" sözünün (339, s. 490–493) birləşməsindən əmələ gəlmişdir.

**Aralıq** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talın (Talin) rayonu, indiki Araqatsotn vilayəti ərazisində mövcud olmuşdur. Alagöz dağının qərb ətəyində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 18). Kənddə 1831-ci ildə 16, 1873-cü ildə 172, 1886-cı ildə 162, 1897-ci ildə 214, 1904-cü ildə 193, 1914-cü ildə 205, 1916-cı ildə 194 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 34–35, 116–117). 1918-ci ildə kənd erməni silahlı dəstələrinin təcavüzünə məruz qalmış, azərbaycanlılar qırğınlar nəticəsində tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Toponim Azərbaycan dilində "iki obyektin arası, ortalıq" mənasında işlənən "aralıq" sözü əsasında əmələ gəlib, "aralıqda yerləşən kənd" mənasını ifadə edir. Kənd ləğv edilmişdir.

**Aralıq Oxçu** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indiki Sünik vilayətində mövcud olmuşdur. Oxçu çayı ilə Pirdavdan (Pircavidan) çayının qovuşduğu yerdə, Oxçu kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1897-ci ildə 148 nəfər azərbaycanlı yaşamışdır (415, s. 54–55). 1905–1906-cı illərdə azərbaycanlılar erməni silahlı dəstələrinin təcavüzü nəticəsində didərgin salınmışlar. Sonra kənd ləğv edilmişdir. Kənd iki çayın (Oxçu və Pirdavdan) arasında salındığı üçün Aralıq Oxçu adlandırılmışdır. "Oxçu çayının arasında yerləşən kənd" deməkdir. Toponimin I tərəfi "iki yerin arası" mənasında işlənən "aralıq" sözündən, II tərəfi türk mənşəli "oxçu" etnonimindən ibarətdir.

**Arazdəyən** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indiki Ararat vilayəti ərazisində xutor. Burada 1897-ci ildə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s. 84–85). XX əsrin əvvəllərində yaşayış məntəqəsi ləğv edilmişdir.

**Ardaraz** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indiki Vayotsdzor vi-

layətində mövcud olmuşdur. Yelpin kəndindən qərbdə, Qozluca kəndinin yaxınlığında yerləşirdi. Mənbələrdə kəndin adı "Artaras", "Artaraz", "Artarax", "Artaraq" (427, s. 501), "Ardalas" (364, 1979, № 791) formalarında qeyd edilmişdir. Kənddə 1831-ci ildə 30, 1873-cu ildə 219, 1886-cı ildə 304, 1897-ci ildə 332, 1904-cü ildə 353, 1914-cü ildə 388, 1916-cı ildə 507 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 160–161). 1918-ci ildə azərbaycanlılar erməni silahlı dəstələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz doğma yurdlarına dönə bilmişlər. Kənddə 1922-ci ildə 114, 1926-cı ildə 120, 1931-ci ildə 151 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 91, 161). Kənd 1939–1940-cı illərdə ləğv edilmişdir. Toponim türk dilində "dağlıq, dağ keçidi, təpə" mənasında işlənən "art" sözü ilə (299, s. 55) türk dilində "açıq yer, tala" mənasında işlənən "alas" (əsli alan) sözünün (339, s. 44–46) birləşməsindən əmələ gəlmişdir.

**Arxac** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonu, indiki Vayotsdzor vilayəti ərazisində mövcud olmuşdur. Kənddə 1897-ci ildə 587, 1926-cı ildə 80 nəfər azərbaycanlı yaşamışdır (85, s. 353). 1940-cı illərdə kənd ləğv edilmişdir. Toponim "qoyun, mal yatağı" mənasında işlənən "arxac" sözündən (9, s. 129) əmələ gəlmişdir.

**Arxüstü** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonu, indiki Sünik vilayəti ərazisində mövcud olmuşdur. Yuxarı Girətaq kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1897-ci ildə 24 nəfər azərbaycanlı yaşamışdır (415, s. 54–55). 1905–1906-cı illərdə azərbaycanlılar deportasiya olunmuş və kənd ləğv edilmişdir. Hazırda kənd xarabalıqdır. Kənd arxın üstündə salındığı üçün Arxüstü adlandırılmışdır.

**Arıqlı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonu, indiki Sünik vilayəti ərazisində mövcud olmuşdur. Erməni mənbələrində "Ariklu" formasında qeyd edilmişdir (415, s. 146). Kənddə 1873-cü ildə 60, 1886-cı ildə 106, 1897-ci ildə 88, 1908-ci ildə 126, 1914-cü ildə 214 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1918-ci ildə azərbaycanlılar ermənilərin törətdikləri soyqırımına məruz qalaraq deportasiya edilmiş və kənd dağılıb xarabalığa çevrilmişdir. Toponim türk mənşəli "arıqlı" etnonimi (271, s. 24) əsasında yaranmışdır.

**Arqel** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Nairi rayonunda, indiki Kotayk vilayətində mövcud olmuşdur. Vilayət mərkəzindən 29 km cənub-qərbdə, Ərzini yaşayış məntəqəsindən 10 km şimalda, Zəngi (Hrazdan) çayının sağ tərəfində, dəniz səviyyəsindən 1400 m hündürlükdə yerləşirdi. 1972-ci ilə kimi keçmiş Əştərək rayonunun tərkibində olmuşdur. Kəndin digər adı "Arkel"dir (415, s. 22). Kənddə 1873-cü ildə 330, 1897-ci ildə 11 nəfər azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107). XX əsrin əvvəllərində azərbaycanlılar deportasiya olunmuş və kənddə ermənilər yerləşdirilmişdir. 1922-ci ildə kənddə 3 nəfər azərbaycanlı yaşamışdır (415, s. 107). 1953-cü ildə Lusakert kəndi ilə birləşdirildikdən sonra kənd ləğv edilmişdir. Toponim qədim türk dillərində "şimal", "arxa", "dal, tərəf", "dağın gün düşməyən tərəfi" mənasında işlənən "ar" sözü ilə (339, s. 52), türk dilində "göl" mənasında işlənən "qel" sözünün (339, s. 52) birləşməsindən əmələ gəlmişdir. "Qel" (göl) sözünün fonetik variantıdır.

**Armudlu** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Dəstəgird kəndindən 1 km aralı, dağın ətəyində yerləşirdi. 1918-ci ildə xarabalığa çevrilib. Toponim "armud" meyvə adına Azərbaycan dilinə mənsub "-lı" şəkilçisinin artırılması ilə düzəlib.

**Armudlu** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan

rayonunda, indiki Sünik vilayəti ərazisində mövcud olmuşdur. Toponim "armud" meyvə adına Azərbaycan dilinə mənsub "-lu" şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir. Hazırda xarabalıqdır.

**Arpa** – Kənd İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indiki Şirak vilayəti ərazisində mövcud olmuşdur. Kənddə qarapapaq türk tayfası yaşamışdır. Kənd 1940-cı illərdə ləğv edilmişdir. Toponim tarixdə yaşamış Elxanilər (İlhanilər) tayfasından olan Arpanın (əsli Arpaqaun) adı (238, s. 156) əsasında əmələ gəlmişdir.

**Artdaş** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indiki Geğarkunik ərazisində mövcud olmuşdur. Kənd 1950-ci ildə ləğv edilmişdir. Toponim türk dilində "dağlıq, dağ keçidi" mənasında işlənən "art" sözü ilə (299, s. 55) "dağ, qaya" mənasında işlənən "daş" sözü əsasında yaranmışdır.

**Aslan xaraba** – Kənd İrəvan quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark rayonunda, indiki Lori vilayəti ərazisində mövcud olmuşdur. Şahalı dəmiryolu stansiyasının yaxınlığında yerləşirdi. Azərbaycanlılara məxsus qəbiristanlığın xarabalıqları indi də durur. Toponim şəxs adı əsasında əmələ gəlmişdir.

**Asnı (Əsni)** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indiki Ararat vilayəti ərazisində mövcud olmuşdur. Saraybulaq dağ silsiləsinin cənubunda, Asnı dərəsində, Daşbulağın yaxınlığında yerləşirdi. Kənddə 1831-ci ildə 41, 1873-cü ildə 79, 1886-cı ildə 72, 1897-ci ildə 208, 1904-cü ildə 165, 1914-cü ildə 292, 1916-cı ildə 138 nəfər azərbaycanlı yaşamışdır (415, s. 84–85, 154–155). 1918-ci ildə azərbaycanlılar qırğınlara məruz qoyularaq qovulmuş, kənd 1920-ci ildə ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim iki komponentdən ibarətdir. Birinci komponent türk mənşəli "az/as" etnonimindən, ikinci komponent mənsubluq, aidlik bildirən "-nı" şəkilçisindən ibarətdir. Sonralar bu iki komponentin "as+nı" əsasında "asnı" türk tayfa adı yaranmışdır. Asnı tayfasının nümayəndələri hazırda Naxçıvanın Sədərək qəsəbəsində yaşayırlar (69, s. 31, 36).

**Aşağı Ağkörpü** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indiki Sünik vilayəti ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 5). Qarakilsə kəndinin 95 km-liyində yerləşirdi. Hazırda xarabalığa çevrilib. Toponim fərqləndirici əlamət bildirən "aşağı" sözü ilə "ağ" və "körpü" sözlərindən əmələ gəlmişdir.

**Aşağı Altuntaxt** – Kənd İrəvan xanlığının Göyçə mahalında, keçmiş Kəvər (Kamo) rayonunda, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Kənd ləğv edilmişdir (427, s. 79). Hazırda xarabalıqdır. Toponim vulkan mənşəli qaya adlarında "qırmızı" mənasında işlənən "altun" sözü ilə "dağın zirvəsində hamar, düzən yer" mənasında işlənən "taxt" sözünün (339, s. 547; 210, s. 5) birləşməsindən əmələ gəlmişdir. Toponimin əvvəlindəki "aşağı" sözü fərqləndirici əlamət bildirir.

**Aşağı Bəydili** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Talin (Talın) rayonunda, indiki Araqatsotn vilayəti ərazisində mövcud olmuşdur. 1918-ci ildə kənd sakinləri erməni silahlı dəstələrinin təcavüzü nəticəsində deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. Kənd 1920-ci ildə ləğv edilmişdir. Toponim fərqləndirici əlamət bildirən "aşağı" sözü ilə oğuzların "bəydili" (bəkdili) etnonimi (399, s. 56; 238, s. 288–300) əsasında əmələ gəlmişdir.

**Aşağı Çanaxçı** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indiki Ararat vilayətində mövcud olmuşdur. Ordun çayının yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir

(348, s. 279). XX əsrin əvvəllərində ləğv edilmişdir. Toponim çanaxçı türk tayfasının (407, s. 88) adı əsasında əmələ gəlmişdir.

**Aşağı Çəmbərək** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, indiki Geğarkunik vilayəti ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 279). Kəndi XIX əsrdə Çəmbərək kəndindən köçənlər salmışdır. Toponim fərqləndirici əlamət bildirən "aşağı" sözündən və Azərbaycan dilində şam ağacının adını ifadə edən "çam" (çəm) sözü ilə (238, s. 154) "baraq" (bərək) türk etnonimindən (321, s. 43–45; 228, s. 16–17; 238, s. 201) əmələ gəlmişdir. Kənd indiki Çəmbərək kəndi ilə birləşdirilərək yaşayış məntəqələri siyahısından silinmişdir.

**Aşağı Əliqrıx** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indiki Geğarkunik vilayəti ərazisində mövcud olmuşdur. Ğevond Alişanın "Sisakan" əsərində (427, s. 85) adı çəkilir. Sonradan xaraba qalıb.

**Aşağı Ərmik** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indiki Ararat vilayəti ərazisində mövcud olmuşdur. Vedi çayının aşağı axarında yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Ərmük" formasında (143, s. 105), Qafqazın 5 verstlik xəritəsində "Ərmik" kimi (348, s. 19) qeyd edilmişdir. Kənddə 1877-ci ildə 312, 1897-ci ildə 192, 1906-cı ildə 156 nəfər azərbaycanlı yaşamışdır (415, s. 84–85; 427, s. 220). 1918-ci ildə azərbaycanlılar erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənddən didərgin salınmışlar. İndi Ermənistan adlanan ərazidə sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə dönə bilmişlər. Kənddə 1926-cı ildə 21 nəfər azərbaycanlı yaşamışdır (415, s. 84–85). Kəndin əhalisi SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, zorla Azərbaycana deportasiya edilmişdir. Kənd 1949-cu ildə ləğv edilmişdir. Hazırda xarabalıqdır.

**Aşağı Gəzbin** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talin (Talın) rayonunda, indiki Araqatsotn vilayəti ərazisində mövcud olmuşdur. Toponim fərqləndirici əlamət bildirən "aşağı" sözündən, Azərbaycan dilində "gədiyin ən alçaq yeri" (253, s. 126), "keçid, dağın təpəsindəki çökək, dağ çökəyi" mənasında işlənən "gəz" sözü ilə (339, s. 167), "yaşayış yeri, kənd, köç yeri, dayanacaq, heyvan saxlanan yer" mənasında işlənən "binə" sözünün (278, s. 37) birləşməsindən əmələ gəlib, "gəzdəkdə olan yaşayış məntəqəsi" mənasını ifadə edir. Kənd 1926-cı ildə ləğv edilmişdir.

**Aşağı Kəhriz** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indiki Ararat vilayəti ərazisində mövcud olmuşdur. 1897-ci ildə kənddə 40 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51). XX əsrin əvvəllərində ləğv edilmişdir. Toponim fərqləndirici əlamət bildirən "aşağı" sözü ilə "yeraltı su yolu, su kəməri" mənasında işlənən "kəhriz" sözündən (11, s. 62) əmələ gəlmişdir. Hazırda xarabalığa çevrilib.

**Aşağı Körpülü** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indiki Tavuş vilayəti ərazisində mövcud olmuşdur. Barana (Noyemberyan) yaşayış məntəqəsindən 15 km şimal-şərqdə yerləşirdi. 1920-ci ildən sonra kərimlilər və dəmirçililər tayfası Körpülü kəndindən 1,5 km aralıda yeni yurd salmışlar. Həmin ildən Körpülü kəndi Yuxarı Körpülü və Aşağı Körpülü kəndlərinə bölünmüşdür. Aşağı Körpülü kəndi 1920-ci ildən sonra salınmışdır. Kənddə 1922-ci ildə 253, 1931-ci ildə 319 nəfər azərbaycanlı yaşamışdır (415, s. 100–101). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən

Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmiş və kənd ləğv olunmuşdur. Toponim fərqləndirici əlamət bildirən "aşağı" və "çay, dəmiryolu və s. üzərindən keçmək, daşdan, taxtadan, dəmirdən qurulan tikili keçid" mənasında işlənən "körpü" sözlərindən əmələ gəlmişdir (11, s. 112).

**Aşağı Qaraqala** – Kənd Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indiki Lori vilayəti ərazisində mövcud olmuşdur. 1930-cu ildən sonra rayonun Yuxarı Qaraqala kəndi ilə birləşdirildikdən sonra Qaraqala adlandırılmışdır. 1937-ci ilədək Cəlaloğlu (Stepanavan) rayonunun tərkibində olmuşdur. Kənddə 1926-cı ildə 135, 1931-ci ildə 71 nəfər azərbaycanlı yaşamışdır (415, s. 78–79, 148–149). Toponim türk dilində rəng mənasında işlənən "qara" sözü ilə "qala" sözündən əmələ gəlmişdir. Toponimin əvvəlindəki "aşağı" fərqləndirici əlamət bildirir.

**Aşağı Qulubəyli** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Eçmiədzin) rayonunda, indiki Armavir vilayəti ərazisində mövcud olmuşdur. Böyük Qarasu çayının yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 147). Kənddə 1873-cü ildə 298, 1886-cı ildə 421, 1897-ci ildə 501, 1904-cü ildə 718, 1916-cı ildə 550 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). 1918-ci ildə azərbaycanlılar erməni silahlı dəstələrinin təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından qırğınlar nəticəsində didərgin salınmış və kənddə Türkiyədən köçüb gələn yezdi kürdlər yerləşdirilmişlər. 1940-cı ildə kənd ləğv edilmişdir. Toponim fərqləndirici əlamət bildirən "aşağı" sözü ilə Azərbaycan dilinə mənsub "-li" şəkilçisi qəbul etmiş "Qulubəy" şəxs adı əsasında əmələ gəlmişdir. "Qulubəyə mənsub kənd" mənasını ifadə edir.

**Aşağı Novruzlu** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indiki Ararat vilayətində mövcud olmuşdur. Kənddə ermənilərdən başqa, 1922-ci ildə 139, 1926-cı ildə 231, 1931-ci ildə 205 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Toponim Novruzlu nəsil adı əsasında əmələ gəlmişdir. Hazırda kənd xarabalığa çevrilib.

**Aşağı Şipirxan** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indiki Tavuş vilayəti ərazisində yaşayış məskəni. Ayrım kəndinin yaxınlığında yerləşirdi. 1926-cı ildə kənddə 31 nəfər azərbaycanlı yaşamışdır. 1930-cu illərdə azərbaycanlılar köçürülmüş və kənd ləğv edilmişdir. İndi xarabalıqdır. Toponim şəxs adı əsasında əmələ gəlmişdir.

**Aşağı Şəhərcik** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indiki Sünik vilayəti ərazisində mövcud olmuşdur. 1897-ci ildə kənddə 155 nəfər azərbaycanlı yaşamışdır (415, s. 59–60). XX əsrin əvvəllərində azərbaycanlılar deportasiya olunmuş və kənd Yuxarı Şəhərcik kəndi ilə birləşdirilərək ləğv edilmişdir.

**Atqız** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Oxçu çayının sol sahilində, Oxçu kəndindən 2 km şimalda, Pirhəmzə dağının cənub-qərbində, Qafan–Gecalan avtomobil yolundan 2 km şimalda, dağ döşündə yerləşirdi (85, s. 133). 1959-cu ildə Qacaran şəhəri ilə birləşdirilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 22). Kənddə 1831-ci ildə 37, 1873-cü ildə 105, 1886-cı ildə 120, 1897-ci ildə 242, 1908-ci ildə 198, 1914-cü ildə 36 nəfər azərbaycanlı yaşamışdır (415, s. 54–55, 132–133). 1916–1918-ci illərdə azərbaycanlılar

kənddən deportasiya edilmişlər. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə dönə bilmişlər. Kənddə 1926-cı ildə 74, 1931-ci ildə 101 nəfər azərbaycanlı yaşamışdır (415, s. 55, 133). 1980-ci ildə kənd ləğv edilmişdir. Toponim oğuz türk tayfa adının fonetik forması olan "qız" etnonimi əsasında yaranmışdır.

**Atqoç** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indiki Geğarkunik vilayəti ərazisində mövcud olmuşdur. XIX əsrin əvvəllərində ləğv edilmişdir. Toponim türk dilində "ad" mənasında işlənən "at" sözü ilə (299, s. 64), "düşərgə" mənasında işlənən "koç/koş" sözünün (299, s. 311) birləşməsindən əmələ gəlmişdir.

**Avşarlı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafandan 17 km məsafədə, Oxçu çayının sahilində, dağlıq ərazidə yerləşirdi. Kəndin digər adı "Əfsərli"dir. Kənddə 1897-ci ildə 92, 1926-cı ildə 76 (415, s. 54–55), 1959-cu ildə 101 nəfər azərbaycanlı yaşamışdır. 1960-cı ildə kənd ləğv edilmişdir. Toponim avşar (avsar, Azərbaycan dilində "ş~s" səs əvəzlənməsi qanunauyğundur) türk tayfasının adına mənsubluq bildirən "-lı" şəkilçisinin artırılması ilə düzəlmişdir. "Əfşar" (avşar) tayfasına mənsub olan "yer" mənasını bildirir.

**Avuş** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonu, indiki Vayotsdzor vilayəti ərazisində mövcud olmuşdur. Arpa çayın sol qolu ilə Qabaqlı çayının yuxarı axarı arasında (85, s. 352), Gəlinqaya selavının yaxınlığında yerləşirdi. XIII əsrdə Amağu məbədinə tabe idi. Kəndin adı "Ayuş" (85, s. 352) və "Aveş" kimi də (Сборник сведений о Кавказе, т. V, Тифлис, 1879, №802) göstərilir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 22) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 28, XX əsrin əvvəllərində 50 azərbaycanlı evi olmuşdur (85, s. 352). Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim qədim "avşar/afşar" etnonimi (399, s. 56) əsasında əmələ gəlmişdir. "Avşar" etnonimi qədim qaynaqlarda "aveş/auş" formalarında da verilmişdir (92, s. 16).

**Ayıbasan** – Kənd İrəvan quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark rayonunda, indiki Lori vilayətinin ərazisində mövcud olmuşdur. Həmzəçimən kəndindən 3 km cənub-qərbdə yerləşirdi. Kənddə tarixən azərbaycanlılar yaşamışlar. Hazırda xarabalıqdır. Toponim "ayı" sözü ilə "basan" feili sifətinin birləşməsindən əmələ gəlmişdir.

**Ayılı xaraba** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunda, indiki Araqatsotn vilayəti ərazisində mövcud olmuşdur. Kənddə 1914-cü ildə 100, 1916-cı ildə 201 nəfər azərbaycanlı yaşamışdır (415, s. 106–107). 1918-ci ildə azərbaycanlılar erməni silahlı dəstələrinin təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində mənsubluq bildirən "-lı" şəkilçisi qoşulmuş "ayı" sözü ilə Azərbaycan dilində "dağıdılmış, viran edilmiş" mənasında işlənən "xaraba" sözündən əmələ gəlmişdir.

**Aytaq** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talin (Talın) rayonunda, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Talindən 10 km məsafədə, Buğut dağının ətəyində yerləşirdi. Erməni mənbələrində "Aysataq" (415, s. 34; 427, s. 230), Qafqazın 5 verstlik xəritəsində "Aytaq" formasında (348, s. 9) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 37, 1886-cı ildə 32, 1897-ci ildə 59, 1914-cü ildə 58 nəfər azərbaycanlı yaşamışdır (415, s. 34–35, 116–117). 1918-ci ildə azərbaycanlılar erməni silahlı dəstələrinin təcavüzünə məruz qalaraq kənddən qovulmuşdur. 1920-ci ildə kənd ləğv edilmişdir. Toponim qədim türk dilində "ağ, işıqlı, aydın" mənasında işlənən "ay" sözü ilə (365, s. 99) türk dilində "dağ" sözünün fonetik

forması olan "tağ" sözündən (299, s. 526; 339, s. 537) əmələ gəlmişdir.

**Aytaq** – Kənd Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Allahverdi (Tumanyan) rayonunda, indiki Lori vilayəti ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 9). 1897-ci ildə kənddə 43 nəfər azərbaycanlı yaşamışdır (415, s. 67). XX əsrin əvvəllərində azərbaycanlılar qovulmuş və kənd ləğv edilmişdir. Hazırda xarabalığa çevrilib. Toponim qədim türk dilində "ağ, işıqlı, aydın" mənasını bildirən "ay" sözü ilə (365, s. 99) "dağ" sözünün qədim fonetik forması olan "tağ" sözünün (299, s. 526) birləşməsindən əmələ gəlmişdir.

**Azadbəy** – Kənd İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Quqark rayonunun, indiki Lori vilayətinin ərazisində mövcud olmuşdur. Gümrü şəhərindən 25 km şimal-şərqdə yerləşirdi. XIX əsrin ortalarında ləğv edilmişdir. Xarabalığa çevrilib.

**Azadxaraba** – Kənd Göyçə (Sevan) gölünün ətrafında, Novo-Bəyazid qəzasında, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. XIX əsrin əvvəllərində ləğv edilmişdir. Xarabalığa çevrilib.

**Azqala** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. XIX əsrin əvvəllərində ləğv edilmişdir. Xarabalığa çevrilib.

# B

**Bağçacıq** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Horbadağ kəndinin şimal-qərbində yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmişdir (143, s. 57). Hazırda xarabalığa çevrilib. Toponim "bağça" sözünə Azərbaycan dilində kiçiltmə mənası bildirən "-cıq" şəkilçisinin qoşulması ilə əmələ gəlmişdir.

**Bağçacıq** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indi Ararat vilayətində mövcud olmuşdur. Vedidən 22–23 km şimal-şərqdə, Vedi çayının yaxınlığında yerləşirdi. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 179), Qafqazın 5 verstlik xəritəsində (348, s. 33) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 236, 1886-cı ildə 361, 1897-ci ildə 373, 1904-cü ildə 618, 1914-cü ildə 680, 1916-cı ildə 455 nəfər azərbaycanlı yaşamışdır (415, s. 84–85, 154–155). 1918–1919-cu illərdə azərbaycanlılar erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənddən didərgin salınmışdır. Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndi məcburi tərk etmiş azərbaycanlıların bir qismi geri dönə bilmişdir. Kənddə 1922-ci ildə 88, 1926-cı ildə 130, 1931-ci ildə 162 (415, s. 85, 155), 1939-cu ildə 270 nəfər (85, s. 221) azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Kənd 1959-cu ildə ləğv edilmişdir (427, s. 577). Hazırda xarabalıqdır. Toponim "bağça" sözünə "-cıq" şəkilçisinin birləşməsindən əmələ gəlmişdir.

**Bağçalı** – Kənd Qars vilayətinin Ağbaba nahiyəsində, sonra Ermənistanın keçmiş Amasiya rayonunun, indiki Şirak vilayəti ərazisində mövcud olmuşdur. Kənddə 1886-cı ildə 162, 1897-ci ildə 240, 1905-ci ildə 277, 1914-cü ildə 236 nəfər azərbaycanlı yaşamışdır (415, s. 18–19, 102–103). 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevral ayında erməni silahlı

dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhali qaçqın düşmüşdür. 1921-ci ildə Qars müqaviləsi ilə kənd Ağbaba nahiyəsinin tərkibində sovet Ermənistanına daxil edilmişdir. Bundan sonra kənd əhalisi elliklə Türkiyəyə köç etmişdir. Azərbaycanlılar qovulduqdan sonra kənd ləğv edilmişdir. Kənd Amasiya rayonunun Güllübulaq kəndində yaşayan əhalinin yaylaq yeri idi. Hazırda xarabalıqdır. Toponim "bağça" sözünə "-lı" şəkilçisi artırmaqla yaranmışdır.

**Bağırbəyli** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Gorusdan 21 km cənub-şərqdə yerləşirdi (427, s. 574). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 27). Kənddə 1907-ci ildə 836 nəfər azərbaycanlı yaşamışdır (427, s. 574). 1918-ci ildə kənd erməni silahlı dəstələrinin təcavüzünə məruz qalmış, azərbaycanlılar tarixi-etnik torpaqlarından qovulmuşdur. 1920-ci ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "Bağırbəy" şəxs adına Azərbaycan dilində mənsubluq bildirən "-li" şəkilçisinin artırılması ilə əmələ gəlib, "Bağırbəyə mənsub kənd" mənasını bildirir.

**Bahar bəyin bağları** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. XIX əsrin əvvəllərində kənd ləğv edilmişdir. Toponim şəxs adı əsasında əmələ gəlmişdir.

**Baharlı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafan şəhərindən 24 km şimal-şərqdə, Gığı çayının sol sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 27). Kənddə 1831-ci ildə 28, 1873-cü ildə 59, 1886-cı ildə 61, 1897-ci ildə 74, 1904-cü ildə 132, 1914-cü ildə 133 nəfər azərbaycanlı yaşamışdır (415, s. 54–55, 134–135). 1918-ci ildə azərbaycanlılar ermənilər tərəfindən qırğınlara məruz qoyularaq deportasiya olunmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə dönmüşlər. Kənddə 1922-ci ildə 88, 1926-cı ildə 93, 1931-ci ildə 122 (45, s. 55, 135), 1939-cu ildə 176, 1959-cu ildə 249, 1970-ci ildə 380, 1979-cu ildə 358 nəfər (427, s. 566) azərbaycanlı yaşamışdır. Kənd 1950-ci illərin sonunda Gığı kəndi ilə birləşdirilmiş, daha sonra kəndin yerində Qacaran mis-molibden kombinatı üçün su anbarı tikilərək kənd ləğv edilmişdir. Qafan rayonunda digər bir Baharlı kəndi də mövcud olmuşdur (427, s. 567). Toponim baharlı türk tayfasının adı (329, s. 24) əsasında formalaşmışdır.

**Baharlı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Basut çayının sağ sahilində yerləşirdi. Kənddə 1886-cı ildə 432, 1907-ci ildə 455 nəfər azərbaycanlı yaşamışdır (427, s. 567). 1918-ci ildə azərbaycanlılar erməni silahlı dəstələri tərəfindən qırğınlara məruz qoyularaq kənddən qovulmuşdur. Kənd sonradan ləğv edilmişdir. Qafan rayonunda digər bir Baharlı kəndi də mövcud olmuşdur (427, s. 567). Toponim Zəngəzurda yaşayan baharlı türk etnonimi (329, s.24) əsasında formalaşmışdır.

**Baharlı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qarakilsə kəndindən şərqdə, Vağudi kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1831-ci ildə 9, 1873-cü ildə 41, 1886-cı ildə 55, 1897-ci ildə 124, 1908-ci ildə 171, 1914-cü ildə 49 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1918-ci ildə azərbaycanlılar erməni silahlı dəstələri tərəfindən qırğınlara məruz qoyularaq kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalığa çevrilmişdir. Toponim qədim qayı türk tayfasına mənsub olan "baharlı" etnonimi (245, s. 48, 329, s. 24) əsasında əmələ gəlmişdir. XVI əsrdə qızılbaşların

tərkibində indiki Ermənistanın ərazisinə gəlmiş (354, s. 92) bu tayfa əsasən Zəngəzurda yaşamışdır (329, s. 24).

**Bakər** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunun, indiki Geğarkunik vilayəti ərazisində mövcud olmuşdur. Aşağı Çəmbərək kəndindən 2 km cənub-qərbdə yerləşirdi. Hazırda xarabalıqdır. Evlərin və qəbiristanlığın uçuq divarları indi də durur.

**Bala zağa** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində Zağa formasında qeyd edilmişdir (348, s. 94). Kənddə 1897-ci ildə 178 nəfər azərbaycanlı yaşamışdır (415, s. 84–85). XX əsrin əvvəllərində azərbaycanlılar kənddən qovulmuş, daha sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "kiçik" mənasında işlənən "bala" və "mağara, kaha" mənasında işlənən "zağa" sözlərinin birləşməsindən əmələ gəlmişdir.

**Baltaçay** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Dilican şəhəri yaxınlığında mövcud olmuşdur. 1959-cu ildə kəndin ərazisi Dilican şəhərinə birləşdirilərək ləğv edilmişdir. Toponim türk mənşəli "balta" etnoniminə (286, s. 60) "çay" sözünün birləşməsi nəticəsində əmələ gəlmişdir.

**Baş Abdallar** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Kotayk, Abovyan) rayonunun, indiki Kotayk vilayəti ərazisində mövcud olmuşdur. Erməni mənbələrində kəndin adı "Tazagyuğ" kimi də göstərilir (415, s. 44). Kənddə 1897-ci ildə 143 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 44–45). XX əsrin əvvəllərində azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "-lar" cəm şəkilçisi qəbul etmiş qədim türk mənşəli "abdal" etnonimi (286, s. 59) əsasında əmələ gəlmişdir. "Baş" fərqləndirici əlamət bildirir.

**Baş Gözəldərə** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Kənd Göyçə gölünün yaxınlığında, Gözəldərə çayının yanında, Gözəldərə dağının ətəyində yerləşirdi. Kəndə həm də "Yuxarı Gözəldərə" deyilirdi. Ermənilər kəndə 1828-ci ildən sonra Türkiyədən köçürülüb yerləşdirilmişdir (386, s. 595–598). Kənddə 1897-ci ildə ermənilərlə yanaşı, 108 nəfər azərbaycanlı yaşamışdır (415, s. 66–67). Toponim fərqləndirici əlamət bildirən "baş" (yuxarı) sözü ilə "gözəl" və "dərə" sözlərinin birləşməsindən əmələ gəlmişdir. Sonralar Baş Gözəldərə kəndi ləğv edilmiş, əhalisi Aşağı Gözəldərə kəndinə köçürülmüşdür.

**Batar** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Kənd dağlıq yerdə – Min çayının sağ sahilində yerləşirdi. Toponim qayı türklərinə mənsub olan padar (batar) türk tayfasının (245, s. 48) adı əsasında əmələ gəlmişdir.

**Bayburd** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, sonra Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Qəmərlidən 24 km cənub-şərqdə, Azad çayının Milli qolunun sahilində yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 28) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 96, 1873-cü ildə 143, 1886-cı ildə 183, 1897-ci ildə 224, 1904-cü ildə 201, 1914-cü ildə 284, 1916-cı ildə 465 nəfər azərbaycanlı (415, s. 84–85, 154–155) yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. Kənddə

1922-ci ildə 55, 1926-cı ildə 49, 1931-ci ildə 140 (415, s. 85, 155), 1959-cu ildə 151, 1979-cu ildə 150 nəfər (427, s. 587) azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlılar 1948–1949-cu illərdə tarixi-etnik torpaqlarından Azərbaycana deportasiya edilmişdir. Toponim oğuz soyundan olan "bayburt" etnonimi (238, s. 188) əsasında əmələ gəlmişdir. Hazırda kənd xarabalığa çevrilmişdir.

**Bayraməli qışlağı** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunun indiki Araqatsotn vilayəti ərazisində mövcud olmuşdur. Alagöz dağının cənubunda yerləşirdi. Erməni mənbələrində "Bayraməli", "Bayraməli kəndi" formalarında da qeyd edilir (415, s. 106; 427, s. 591). Kənddə 1873-cü ildə 53, 1886-cı ildə 87, 1897-ci ildə 132, 1908-ci ildə 82, 1916-cı ildə 100 nəfər yalnız azərbaycanlı və müsəlman kürd yaşamışdır (415, s. 22–23, 106–107). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. 1920-ci illərin sonunda kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "Bayraməli" şəxs adı ilə "yaşayış məntəqəsi, kənd" mənasında işlənən "qışlaq" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Bazarkənd** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Vilayət ərazisindəki Bazarçay kəndinin yaxınlığında, Bazarçayın yuxarı axarında yerləşirdi. XIX əsrin II yarısında ləğv edilmişdir. Toponim türk mənşəli "bazar" etnoniminə (286, s. 61) kənd coğrafi nomeninin birləşməsindən əmələ gəlib, "bazar tayfasına mənsub kənd" deməkdir.

**Berd qalacıq** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Məliklər (Spandaryan) kəndinin yaxınlığında yerləşirdi. Hazırda xarabalıqdır. Toponim türk dilində "çətin keçilən yer" mənasında işlənən "bert" sözü ilə (337, s. 239) kiçiltmə mənasını bildirən "-cıq" şəkilçisi qoşulmuş "qala" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Berdi xaraba** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunun indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Kənd hazırda xarabalığa çevrilib. XIX əsrin axırlarına qədər kənddə dini məbədin qalıqları dururdu. Toponim türk dilində "çətin keçilən yer" mənasında işlənən "berd" (bert) sözü ilə (337, s. 239) "xaraba" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Beybudabad** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Vilayətdəki Təzəkənd (Ayntap) kəndinin yaxınlığında yerləşirdi (427, s. 235). Kənd haqqında ilk məlumat 1465–1466-cı illərdə verilmişdir (427, s. 235). Kənd XIX əsrin əvvəllərində ləğv edilmişdir. Hazırda xarabalığa çevrilmişdir. Toponim "Beybud" şəxs adı ilə fars dilindən Azərbaycan dilinə keçən "yaşayış məntəqəsi, kənd" mənasında işlənən "abad" sözünün (9, s. 25; 339, s. 36) birləşməsindən əmələ gəlmişdir.

**Bəxtiyar** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indiki Tavuş vilayətinin ərazisində mövcud olmuşdur. Dilican şəhərinin yaxınlığında, Ağstafa çayının sağ sahilində yerləşirdi. Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Hazırda xarabalığa çevrilmişdir.

**Bəkdaş** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Vilayət mərkəzindən 4 km şimal-qərbdə, dəniz səviyyəsindən 750 m hündürlükdə yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində "Beyxtaş"

kimi qeyd edilmişdir (348, s. 35). Kənddə 1897-ci ildə 87, 1907-ci ildə 100 (427, s. 648) 1914-cü ildə 230 nəfər azərbaycanlı yaşamışdır (415, s. 54–55, 134–135). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənd sakinləri öz evlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 28, 1926-cı ildə 25, 1931-ci ildə 40 (415, s. 55, 135), 1959-cu ildə 60 nəfər (427, s. 588) azərbaycanlı yaşamışdır. 1973-cü ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim türk dilində "təpəlik, yüksəklik, zirvə, başlanğıc, hündürlük", "təpə", "hündür, böyük" mənasını bildirən "bək/bəy" sözü ilə "dağ, qaya" mənasında işlənən "daş" sözündən əmələ gəlmişdir.

**Bənövşəpuşt** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Meğridən 15–16 km şimalda yerləşirdi. Kənddə 1914-cü ildə 28 nəfər azərbaycanlı yaşamışdır (415, s. 142–143). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Hazırda xarabalıqdır. Toponim "bənövşə" bitki adı ilə fars dilində "kiçik təpə" mənasında işlənən "puştə" sözündən (104, s. 507) əmələ gəlib, "bənövşə təpəsi" mənasını bildirir.

**Bəybalı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Sofulu kəndinin şimalında yerləşirdi. XIX əsrin əvvəllərində ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim şəxs adı əsasında əmələ gəlmişdir.

**Bığlı Hüseyn Saraclı** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Sevan rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Kəndin adı erməni mənbələrində "Beqli Hüseyn", "Bexlu" formalarında da göstərilir (427, s. 639, 647). Kənd Kəvər yaşayış məntəqəsindən 22 km şimal-qərbdə, Göyçə gölünün şimal-qərbində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 34). 1930-cu ildə keçmiş Axta (Hrazdan) rayonunun ərazisinə daxil idi. Kənddə 1831-ci ildə 26, 1873-cü ildə 356, 1886-cı ildə 505, 1897-ci ildə 645, 1908-ci ildə 658, 1914-cü ildə 846, 1916-cı ildə 768 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 16–17, 100–101). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sağ qalan sakinləri geri dönmüşlər. Kənddə 1922-ci ildə 53 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 101). 1923–1925-ci illərdə kənddə olan azərbaycanlılar sıxışdırılaraq çıxarılmış və kənd ləğv edilmişdir. Hazırda kənd xarabalığa çevrilmişdir. Toponim "Bığlı Hüseyn" antroponimi ilə qazax tayfalarından biri olan "saraclı" etnonimi (386, s. 535) əsasında əmələ gəlib, "Saraclı tayfasından olan Bığlı Hüseynə mənsub kənd" mənasını bildirir.

**Bilək** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Kənd su anbarından 3–4 km şimal-şərqdə, çayın sahilində, düzənlik vadidə yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Birək" kimi (143, s. 60) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 244, 1886-cı ildə 334, 1897-ci ildə 357, 1904-cü ildə 536, 1914-cü ildə 590, 1916-cı ildə 459 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. 1920-ci ildə kənd ləğv edilmişdir. Hazırda xarabalığa çevrilib. Toponim qədim türk dilində "çayın qolu" mənasında işlənən "bilək" sözü (299, s. 99; 366, s. 146) əsasında yaranmışdır.

**Birinci Alyanlı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş

Gorus rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1886-cı ildə 714 nəfər azərbaycanlı yaşamışdır (85, s. 163). 1905–1906-cı illərdə kənd xarabalığa çevrilmişdir. Hazırda xarabalıqdır. Toponim fərqləndirici əlamət bildirən "birinci" sözü ilə əklənli tayfa adı (406, s. 206) əsasında əmələ gəlmişdir.

**Birinci Bəhlul** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talin rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Mastara kəndindən 8–9 km cənub-qərbdə yerləşirdi. Kənd 1940-cı ildə ləğv edilmişdir. Hazırda xarabalığa çevrilmişdir. Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən "birinci" sözü ilə "Bəhlul" şəxs adı əsasında əmələ gəlmişdir.

**Birinci Qayaxaraba** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Kəndin başqa adı "Sultanağıl"dır. Kənddə 1897-ci ildə 119, 1904-cü ildə 106, 1914-cü ildə 174 nəfər azərbaycanlı yaşamışdır (415, s. 44–45, 124–125). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Hazırda xarabalığa çevrilmişdir. Toponim Azərbaycan dilində "təpə, dağ, sıldırım" mənasında işlənən "qaya" sözü ilə "dağıdılmış yer" mənasında işlənən "xaraba" sözündən əmələ gəlib, "qayalıqda, təpədə xarabalığa çevrilmiş kənd" mənasını ifadə edir.

**Bozburun** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talin rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Alagöz kəndindən 5 km şimal-qərbdə yerləşirdi. Kəndin adı "Bozbur" formasında da qeyd edilib (364, №217; 427, s. 716). Kənddə 1873-cü ildə 81, 1897-ci ildə 162, 1904-cü ildə 100 nəfər müsəlman kürdü yaşamışdır (427, s. 716). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Kənd 1920-ci ildə ləğv edilmişdir (427, s. 716). Toponim Azərbaycan dilində "otsuz, meşəsiz" mənasında işlənən "boz" sözü ilə (339, s. 87–88), "irəliyə çıxan və ya quruya uzanan quru" (253, s. 99), "dağ çıxıntısı, dağın qolu, qumlu təpə, sıldırım qaya", "qurunun, dağın sivri bucaq şəklində düzünə tərəf uzanmış hissəsi" (198, s. 151; 339, s. 103) mənasında işlənən "burun" sözünün birləşməsindən əmələ gəlib, "otsuz dağ çıxıntısı, dağın qolu yaxınlığında, quruya uzanan yerdə olan kənd" mənasını bildirir.

**Boz kaha** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Vilayətin ərazisindəki Qarnidzor kəndindən 3 km şimal-şərqdə yerləşirdi. Hazırda xarabalığa çevrilmişdir. Toponim rəng mənasında işlənən "boz" sözü ilə "mağara, zağa, qayalıqda, dağda təbii və ya süni oyuq" mənasında işlənən "kaha" sözünün (11, s. 26) birləşməsindən əmələ gəlmişdir.

**Bozkosa** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1873-cü ildə 99, 1886-cı ildə 141, 1897-ci ildə 161, 1904-cü ildə 154, 1914-cü ildə 225, 1916-cı ildə 221 nəfər azərbaycanlı yaşamışdır (415, s. 44–45, 124–125). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Hazırda xarabalıqdır. Toponim bozkosa tayfa adından əmələ gələn etnotoponimdir. Oğuzlarda "boz" sözü ilə əmələ gələn tayfalar çoxdur: bozcalu, boz oxlar, bozdoğan, boz ulus və s. (238, s. 164, 175, 186, 188, 198).

**Bozqala** – Kənd Qars vilayətinin Qars qəzasında, sonradan Amasiya rayonunun, indiki Şirak vilayətinin ərazisində mövcud olmuşdur. İlanlı (Çaybasar) kəndinin cənub-şərqində, Arpaçayın sağ sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 41).

Kənddə 1908-ci ildə 139, 1914-cü ildə 159 nəfər azərbaycanlı yaşamışdır (415, s. 104–105). Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevralında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhalinin bir qismi Qars vilayətinə, bir qismi İranın Gümrüdəki konsulluğu vasitəsilə İranın Urmiya və Səlmas əyalətlərinə köç etmişdir. 1921-ci il Qars müqaviləsindən sonra onların bir qismi kəndə qayıtmışdır. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra Qars müqaviləsinə əsasən, kənd 1921-ci ildə Ağbaba nahiyəsinin tərkibində Aleksandropol qəzasına daxil edilmişdir. Azərbaycanlıların bir qismi 1922-ci ildən başlayaraq kəndə qayıda bilmişdilər. Kənddə 1926-cı ildə 55, 1931-ci ildə 94 (415, s. 18–19, 104–105), 1939-cu ildə 104 nəfər (427, s. 718) azərbaycanlı yaşamışdır. 1940-cı ildə kənd ləğv edilmiş, əhali Çaybasar kəndinə köçürülmüşdür. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "çılpaq, otsuz, meşəsiz" mənasında işlənən boz sözü ilə (278, s. 38–39; 339, s. 87–88) "qala" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Boznəli** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində "Bozlu" formasında qeyd edilmişdir (348, s. 41). "Boznəli", "Bozlu" adlarının təhrif edilmiş formasıdır. XIX əsrin əvvəllərində ləğv edilmişdir. Toponim bəydili türk tayfalarından olan "bozlu" etnonimindən (238, s. 289) əmələ gəlmişdir. Kənd xarabalığa çevrilib.

**Böyük Ağa** – Kənd İrəvan xanlığının Göyçə mahalında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Qanlı Ağalı kəndinin yaxınlığında yerləşirdi. Kənd XIX əsrin əvvəllərindən xaraba qalmışdır (415, s. 17). Toponim Azərbaycan dilində "hörmətli, nüfuzlu" mənasında işlənən "böyük" sözü ilə şəxs adı bildirən "Ağa" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Böyük Çobankərə** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Qarasu və Zəngi çayları arasında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 286). Kənddə 1831-ci ildə 951, 1873-cü ildə 2337, 1886-cı ildə 2487, 1897-ci ildə 2631, 1904-cü ildə 2411, 1914-cü ildə 3089, 1918-ci ildə 2417, 1919-cu ildə 4600 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). 1919-cu ilin sonlarında azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz doğma yurdlarına qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 66, 1926-cı ildə 279 nəfər azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). Əhali 1930-cu illərdə qonşu Mehmandar kəndinə köçürüldükdən sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim qazaxlar türk tayfasından olan "böyük çobankərə" etnonimindən (386, s. 535, 631) əmələ gəlmişdir.

**Böyük Gilanlar** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Qəmərlidən 28 km şimal-şərqdə, Yelincə çayının sahilində yerləşirdi. 1930-cu ildən Vedi (Ararat) rayonunun inzibati ərazi bölgüsünə daxil idi (415, s. 154). "İrəvan əyalətinin icmal dəftəri"ndə "Böyük Gilan" (143, s. 102), Qafqazın 5 verstlik xəritəsində "Böyük Gilyanar" (348, s. 62) formalarında qeyd edilmişdir. Kənddə 1831-ci ildə 143, 1873-cü ildə 146, 1886-cı ildə 194, 1897-ci ildə 310, 1914-cü ildə 389, 1916-cı ildə 272 nəfər azərbaycanlı yaşamışdır (415, s. 84–85, 154–155). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan gilanlarlılar öz kəndlərinə dönə bilmişlər. Kənddə 1922-ci ildə 120, 1926-cı ildə 178, 1931-ci ildə 230 (415, s. 85, 155), 1939-cu ildə

339 nəfər (427, s. 862) azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Kənd sonradan ləğv olunmuşdur.

**Buğacıq** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Meşənin içində yerləşirdi. Kənddə 1897-ci ildə 125, 1922-ci ildə 21, 1926-cı ildə 1 nəfər azərbaycanlı yaşamışdır (415, s. 54–55, 134–135). 1929–1930-cu illərdə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim buğacıq türk mənşəli etnonimin əsasında yaranmışdır. Bu tayfanın adına "Kitabi-Dədə Qorqud"da da rast gəlinir (158, s. 77).

**Buğakar** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Meğridən 12 km şimal-qərbdə, Mığrı çayının sahilində yerləşirdi. Kənddə 1897-ci ildə 139, 1904-cü ildə 194, 1914-cü ildə 96 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 66–67, 142–143). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 44, 1926-cı ildə 30, 1931-ci ildə 41 nəfər azərbaycanlı yaşamışdır (415, s. 67, 143). 1940-cı illərdə kənd ləğv edilmişdir. Əhali ermənilər yaşayan Lehvaz kəndinə köçürülmüşdür. Hazırda xarabalığa çevrilmişdir. Buğakar piri bu kəndin məşhur ziyarət yeri idi. Toponim türk dilində "dağ keçidi", "dar, ensiz, vadi, yarğan", "dağ ətəyində, çay sahilində düzənlik yer" mənasında işlənən "buk" sözü ilə (339, s. 99–100) türk dilində "sıldırım qaya" mənasında işlənən "kar" sözünün (323, s. 107) birləşməsindən əmələ gəlmişdir.

**Buğda təpə** – Kənd İrəvan xanlığının Göyçə mahalında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. XVIII əsrdə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə "Buğdayitəpə" formasında qeydə alınmışdır (143, s. 55). Z.Qorqodyan Göyçə mahalında ləğv edilmiş kəndlər sırasında Buğdatəpə kəndinin də adını çəkir (415, s. 16). Toponim bitki adı bildirən "buğda" və kiçik dağ mənasında işlənən "təpə" sözlərinin birləşməsindən əmələ gəlmişdir.

**Bulaqlar** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Vilayətin ərazisindəki Herher kəndindən 4 km cənubda, Herher çayının sahilində yerləşirdi. Kənddə 1873-cü ildə 68, 1886-cı ildə 92, 1897-ci ildə 149, 1904-cü ildə 132, 1914-cü ildə 145, 1916-cı ildə 151 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Yalnız Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri ata-baba yurdlarına qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 29, 1926-cı ildə 40, 1931-ci ildə 63 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 89, 159). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. 1949-cu ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Kənd çoxlu bulaq olan yerdə salındığı üçün Bulaqlar adlandırılmışdır.

**Bunud (Bunut Qaratorpaq)** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. İrəvandan 85 verst məsafədə, Cığın dərəsində, Cığınsu çayı-

nın yaxınlığında, Topdağ dağının ətəyində yerləşirdi. Kənddə 1873-cü ildə 178, 1886-cı ildə 173, 1897-ci ildə 161, 1904-cü ildə 397, 1914-cü ildə 437, 1916-cı ildə 215 nəfər azərbaycanlı yaşamışdır (415, s. 84–85, 154–155). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra 1923–1925-ci illərdə azərbaycanlılar öz kəndlərinə dönə bilmişlər. 1926-cı ildə kənddə 35 nəfər azərbaycanlı yaşamışdır (415, s. 85). 1930-cu illərdə azərbaycanlılar qovulduqdan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "soy, nəsil" mənasında işlənən "bun" sözünə (359, IV (2), s. 1813) "-ud" şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir.

**Burçulu** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qacaran kəndindən 2–3 km cənub-qərbdə yerləşirdi. Hazırda xarabalıqdır. Toponim qıpçaq mənşəli "burçoğlu" etnoniminin (286, s. 48) fonetik variantı olan "burçulu" etnonimi əsasında formalaşmışdır.

**Burma** – Kənd Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indiki Tavuş vilayətinin ərazisində mövcud olmuşdur. Barana (Noyemberyan) yaşayış məntəqəsindən 10–12 km cənub-qərbdə, Tona (Debed) çayının sol sahilində yerləşirdi. Kənddə tarixən yalnız azərbaycanlılar yaşayıb. 1922-ci ildə kənddə 59 nəfər azərbaycanlı məskunlaşmışdır (415, s. 98–99). 1930-cu illərdə kənd ləğv edilmişdir. Hazırda xarabalığa çevrilmişdir.

**Bülbülölən** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Ortakənddən 3–4 km qərbdə, Həsənkəndlə Qoytul kəndləri arasında (85, s. 354), Təkədonduran dağının yaxınlığında yerləşirdi. Kəndin digər adları Bülbüloğlu və Kaha olmuşdur (427, s. 751). Kənddə 1831-ci ildə 67, 1873-cü ildə 163, 1886-cı ildə 205, 1897-ci ildə 252, 1904-cü ildə 398, 1914-cü ildə 437, 1916-cı ildə 223 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənd əhalisindən sağ qalanlar ata-baba yurdlarına qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 53 nəfər azərbaycanlı yaşamışdır (415, s. 160–161). Onlar 1923–1925-ci illərdə qovulmuş və kənd ləğv edilmişdir. Hazırda kənd xarabalığa çevrilmişdir.

# C

**Cağatay** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Arpaçayın yaxınlığında yerləşirdi. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 59), Qafqazın 5 verstlik xəritəsində (348, s. 79) qeyd edilmişdir. Erməni mənbələrində kəndin adı "Cağata" kimi də qeyd edilir (415, s. 90, 158). Kənddə 1831-ci ildə 30, 1873-cü ildə 70, 1886-cı ildə 86, 1897-ci ildə 98, 1904-cü ildə 94, 1914-cü ildə 103, 1916-cı ildə 135 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1918-ci ildə kənd erməni daşnak silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və azərbaycanlılar didərgin salınmışlar. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 15 nəfər azərbaycanlı yaşamışdır (415, s. 158–159). Onlar 1923-cü ildə sıxışdırılaraq kənddən çıxarılmışlar. 1925-ci ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim kəngərli türk tayfasının bir qolunu təşkil edən "cığatay" etnonimi (386, s. 537) əsasında yaranmışdır.

**Camışbasan** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Vedi (Ararat) şəhərindən 22 km şimal-şərqdə, Ciğinsu çayının yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 80). Kənddə 1828-ci ildə 51 (386, s. 555–556), 1897-ci ildə 65 nəfər azərbaycanlı yaşamışdır (415, s. 88–89). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponim qızılbaşların camış közəkli tayfasının adında (91, s. 192) əksini tapan "camış" etnoniminə "basan" feili sifətinin qoşulması yolu ilə əmələ gəlmişdir.

**Canı** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Alagöz çayının yaxınlığında yerləşirdi. Kəndin adı erməni mənbələrində "Cani", "Cani Yuxarı" kimi də qeyd edilir (415, s. 92). Kənddə 1873-cü ildə 86, 1886-cı ildə 169, 1897-ci ildə 221, 1904-cü ildə 160, 1914-cü ildə 176, 1916-cı ildə 282 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 162–163). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar ata-baba yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 77, 1926-cı ildə 78, 1931-ci ildə 111 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 162–163). 1940-cı illərdə kənd sakinləri – azərbaycanlılar SSRİ hökumətinin xüsusi qərarı ilə kənddən çıxarılmış və kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "Canı" şəxs adı əsasında yaranmışdır (142, s. 74–75).

**Ceyranlı** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Arpaçayın sağ qolu olan Muradtəpəsu çayının yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 81). Kənddə 1873-cü ildə 91, 1886-cı ildə 84, 1897-ci ildə 92, 1904-cü ildə 123, 1914-cü ildə 135, 1916-cı ildə 150 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. 1920-ci ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində heyvan anlayışı bildirən "ceyran" sözünə "-lı" şəkilçisi artırmaqla əmələ gəlmişdir.

**Cəfərli (Cəfərli Günnüt)** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Erməni mənbələrində kəndin digər adlarının "Günnüt", "Günnüt Cəfərli", "Günnüt Kalavan" olduğu göstərilir (415, s. 84). Çanaxçı (Sovetaşen) kəndinin yaxınlığında, Boz Hunnu dağının ətəyində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində "Günnüt Cəfərli" kimi qeyd edilmişdir (348, s. 71). Kənddə 1873-cü ildə 178, 1886-cı ildə 209, 1897-ci ildə 333, 1904-cü ildə 406, 1914-cü ildə 409, 1916-cı ildə 383 nəfər azərbaycanlı yaşamışdır (415, s. 84–85, 154–155). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri doğma ocaqlarına qayıda bilmişdilər. 1926-cı ildə kənddə 25 nəfər azərbaycanlı yaşamışdır (415, 84–85). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmiş və kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim türk tayfasından olan "Cəfərli" etnonimi (386, s. 535) əsasında əmələ gəlmişdir.

**Cıbıllı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində

mövcud olmuşdur. Qafan şəhərindən 67 km cənub-şərqdə yerləşirdi. Kəndin digər adı "Cibikli" olmuşdur (415, s. 60). Kənddə 1897-ci ildə 82, 1904-cü ildə 80, 1914-cü ildə 160 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar öz evlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 52, 1926-cı ildə 53, 1931-ci ildə 77 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137). 1930-cu illərin axırlarında kənd ləğv edilərək azərbaycanlılar başqa kəndlərə köçürülmüşlər. Hazırda xarabalıqdır. Toponim "cibikli" tayfa etnonimi əsasında yaranmışdır.

**Cığın** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Cığın dərəsində, Cığınsu çayının yaxınlığında yerləşirdi. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Ciqin" kimi (143, s. 172), 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə "Ceqin", "Caqin" formasında (143, s. 105), Qafqazın 5 verstlik xəritəsində "Ciğin Qaraqoyunlu" şəklində (348, s. 82), Z.Qorqodyanın əsərində "Göl Ciğin" kimi (415, s. 84) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 178, 1873-cü ildə 160, 1886-cı ildə 210, 1897-ci ildə 238, 1904-cü ildə 559, 1914-cü ildə 561 nəfər azərbaycanlı yaşamışdır (415, s. 84–85, 154–155). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar ata-baba yurdlarına qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 54, 1926-cı ildə 92, 1931-ci ildə 135 nəfər azərbaycanlı yaşamışdır (415, s. 84–85, 154–155). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Kənd 1950-ci ildə ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim qaşqayların cigini tayfasının adı (142, s. 40) əsasında formalaşmışdır.

**Cıvıxlı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Kəndin adı "Çivixli", "Çibuxli", "Çibixlı" formalarında da qeyd edilir (415, s. 32). Krasnoselsk yaşayış məntəqəsindən 13 km şimal-qərbdə, meşəlik yerdə yerləşirdi. Kölkənd sovetliyinə tabe idi. Kənddə 1897-ci ildə 80 nəfər azərbaycanlı yaşamışdır (415, s. 32–33). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 137, 1931-ci ildə 132 (415, s. 116–117), 1970-ci ildə 364, 1979-cu ildə 351 nəfər (85, s. 92) yalnız azərbaycanlı yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında kənd sakinləri olan azərbaycanlılar Ermənistan dövləti tərəfindən deportasiya edilmişlər. Hazırda kənd xarabalığa çevrilib. Toponim çubuxlu türk tayfa adı (193, s. 160) əsasında əmələ gəlmişdir.

# Ç

**Çaldaş** – Kənd Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, keçmiş Amasiya rayonunun, indiki Şirak vilayətinin ərazisində mövcud olmuşdur. Təpəköy (Berdaşen) kəndinin sol tərəfində yerləşirdi. Kənd XIX əsrin sonlarında xarabalığa çevrilmişdir. Toponim Azərbaycan dilində "bitkisi az olan və ya heç olmayan" boz yer mənasında (278, s. 152; 12, s. 412), həmçinin "təpə, daşlıq yer" (339, s. 606) mənasında

işlənən "çal" sözü ilə "qaya, dağ" mənasında işlənən "daş" sözünün (339, s. 173) birləşməsindən əmələ gəlmişdir.

**Çamırlı** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Abaran rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 279). Erməni mənbələrində kənddə 1914-cü ildə 1952 nəfər azərbaycanlı yaşadığı göstərilir (415, s. 96–97). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Toponim "çamurlu" türk etnonimi (407, s. 88) əsasında əmələ gəlib, "çamurlu tayfasının yaşadığı kənd" mənasını ifadə edir. Hazırda xarabalıqdır.

**Çamırlı** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Qızılvəng kəndinin yaxınlığında, Alagöl çayının yanında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 279). Kənddə 1873-cü ildə 244, 1886-cı ildə 329, 1897-ci ildə 374, 1908-ci ildə 491, 1914-cü ildə 632, 1916-cı ildə 541 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 42 nəfər azərbaycanlı yaşamışdır (415, s. 112–113). Kənd sonradan ləğv edilmişdir. Hazırda xarabalıqdır.

**Çanaxçı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 279). Kənddə 1897-ci ildə 50 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61). 1905–1906-cı illərdə ermənilər kənddə qırğınlar törətmişlər. Sonra kənddə ermənilər yerləşdirilmişdir. XX əsrin 30-cu illərində kənd ləğv edilmişdir. Toponim "çanaxçı" türk etnonimi (92, s. 20) əsasında əmələ gəlmişdir.

**Çarbağ** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında yerləşmiş, 1930-cu ilin sonlarına kimi keçmiş Qəmərli (Artaşat) rayonunun ərazisinə daxil olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə kəndin adı "Xürrəmabad" kimi (143, s. 82), Qafqazın 5 verstlik xəritəsində "Çarbax" formasında qeyd edilmişdir (348, s. 280). Kənddə 1831-ci ildə 31, 1873-cü ildə 201, 1886-cı ildə 241, 1897-ci ildə 242, 1904-cü ildə 347, 1914-cü ildə 386 nəfər təkcə azərbaycanlılar yaşamışdır (415, s. 50–51, 130–131). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. 1918–1919-cu illərdə Türkiyədən köçürülən ermənilər kənddə yerləşdirilmişlər. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar kəndlərinə qayıda bilmişdilər. Kənddə ermənilərlə yanaşı, 1922-ci ildə 177, 1926-cı ildə 201, 1931-ci ildə 264 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). İrəvan şəhərinin genişləndirilməsi ilə əlaqədar kənd 1950-ci ildə ləğv edilmiş və azərbaycanlılar qovulmuşdur. Hazırda İrəvan şəhərinin inzibati ərazisinə daxildir. Toponim türk dilində "yarğan, sıldırım sahil", "hündür sahil" (359, III (2), s. 1859), "sıldırım dərə, uçurum", "yarğan", "bataqlıqdan çəkilmiş arx" (339, s. 178–179; 278, s. 64) mənasında işlənən "çar" və "bağ" sözlərindən əmələ gəlmişdir.

**Çatılı düz** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Oxdar kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1897-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponim mənsubluq bildirən "-lı" şəkilçisi qəbul etmiş türk dilində "dağ çıxıntısı, yarğan" mənasında işlənən "çat" sözü ilə (339, s. 608) Azər-

baycan dilində "enişi, yoxuşu olmayan, hamar relyef səthi" mənasında işlənən "düz" sözünün (10, s. 168; 196, s. 44) birləşməsindən əmələ gəlib, "dağ çıxıntısı, yarğan yaxınlığındakı düzdə salınan kənd" mənasını ifadə edir.

**Çatqran** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Zəngi çayının yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 81). Kənddə 1873-cü ildə 368, 1886-cı ildə 413, 1897-ci ildə 630, 1908-ci ildə 667, 1914-cü ildə 807 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107). 1918-ci ildə kəndin azərbaycanlı əhalisi erməni daşnak silahlı birləşmələrinin soyqırımına məruz qalaraq didərgin salınmışdır. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar ata-baba yurdlarına dönə bilmişlər. Kənddə 1922-ci ildə 53, 1926-cı ildə 46, 1931-ci ildə 88 nəfər azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107). SSRİ hökumətinin xüsusi qərarı ilə 1948–1949-cu illərdə azərbaycanlılar tarixi-etnik torpaqlarından çıxarılaraq Azərbaycana köçürülmüşdür. Kənd 1953-cü ildə ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim türk dilində "iki çayarası yer" (359, III (2), s. 1893), "yarğanın kənarı" (299, s. 431), "dağın beli, dağ çıxıntısı, iki dərəni birləşdirən yer, yarğanları və dərələri olan alçaq sıra dağ, tirə" (339, s. 608–609) mənasında işlənən "çat" sözü ilə "hərbi düşərgə", "həyət", "hasarlanmış, çəpərlənmiş yer", "hasar", "düşərgə", "hərbi düşərgə", "mənzil, ev", "karvansara" mənasında işlənən "kuran" (qran) sözünün (339, s. 317–318) birləşməsindən əmələ gəlmişdir.

**Çatmadağ** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Kəndin bir adı da "Çatmadaş" olmuşdur (415, s. 50). Qafqazın 5 verstlik xəritəsində "Çatma" formasında qeyd edilmişdir (348, s. 281). Kəndin adının ikinci komponenti olan "dağ/daş" sözləri sonralar ixtisar edilərək rəsmi sənədlərdə "Çatma" formasında işlədilmişdir. Kənddə 1873-cü ildə 41, 1886-cı ildə 57, 1897-ci ildə 162, 1904-cü ildə 51, 1914-cü ildə 178, 1916-cı ildə 190 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 29, 1926-cı ildə 18, 1931-ci ildə 37 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmiş, sonra kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır.

Toponim Azərbaycan dilində "bir istiqamətdə yanaşı" mənasında işlənən "çatma" sözünə (253, s. 132) "dağ" sözünün qoşulması yolu ilə əmələ gəlib, "bir istiqamətdə yanaşı dağ yaxınlığında salınan kənd" mənasını ifadə edir.

**Çaykənd** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Paşalı (Vayk) yaşayış məntəqəsindən 12 km şimal-şərqdə, Arpaçayın yaxınlığında yerləşmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 278). Kənddə 1831-ci ildə 78, 1873-cü ildə 110, 1886-cı ildə 78, 1897-ci ildə 166, 1904-cü ildə 129, 1914-cü ildə 141, 1916-cı ildə 143 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar doğma yerlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 35, 1926-cı ildə 104, 1931-ci ildə 151 nəfər yalnız azərbaycanlı ya-

şamışdır (415, s. 90–91, 158–159). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmiş, sonra kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində işlənən "çay" və "kənd" sözlərinin birləşməsindən əmələ gəlib, "çayın sahilində olan yaşayış məntəqəsi" mənasını ifadə edir.

**Çıraxor** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafandan 12 km şimal-qərbdə, Oxçu çayının sağ sahilində yerləşmişdir. Kəndin başqa adı Şamlar olmuşdur (415, s. 60). Kənddə 1897-ci ildə 18, 1922-ci ildə 20, 1926-cı ildə 26, 1931-ci ildə 34 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Toponim türk dilində "su mənbəyi", "bulaq", "qaynaq, çeşmə" mənasında işlənən "çerak" sözünün (287, s. 478) fonetik forması olan "çırax" sözü ilə türk dilində "xəndək, çuxur", "təpə", "qala istehkamı", "qala səddi, bəndi" mənasında işlənən "or" sözünün (339, s. 415–416) birləşməsindən əmələ gəlmişdir. Hazırda xarabalıqdır.

**Çiləxanlı** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Kəndin adı erməni mənbələrində "Çilixanlı", "Çinaxanlı" (415, s. 50), "İrəvan əyalətinin icmal dəftəri"ndə "Çinəxan" formasında (143, s. 99) qeyd edilmişdir. Kənddə qazaxlar türk tayfasından olan qafarlılar (386, s. 535) yaşamışdır (415, s. 50). Kənddə 1831-ci ildə 237, 1873-cü ildə 535, 1886-cı ildə 569, 1897-ci ildə 698, 1904-cü ildə 752, 1914-cü ildə 827, 1916-cı ildə 866 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 131, 1926-cı ildə 220, 1931-ci ildə 246 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). SSRİ hökumətinin xüsusi qərarı ilə SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmiş, sonra kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim muğanlı türk tayfasından olan çilovxanlı ("çilovxanlı" nəsil adı danışıq dilinin qanunlarına uyğunlaşdırılaraq "çiləxanlı" formasına düşmüşdür) nəsil adı (286, s. 72) əsasında əmələ gəlmişdir.

**Çiraxlı** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Çıraxlı selavının yaxınlığında, Terp kəndinin yanında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində "Çiraxlu" formasında qeyd edilmişdir (348, s. 285). Kənddə 1873-cü ildə 21, 1886-cı ildə 20, 1897-ci ildə 31, 1904-cü ildə 41, 1914-cü ildə 45, 1916-cı ildə 97 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra kəndi məcburi tərk edənlər öz doğma torpaqlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 40, 1926-cı ildə 15 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1920–1930-cu illərdə onlar sıxışdırılaraq kənddən çıxarılmışdır. 1930-cu ildə kənd ləğv edilmişdir. Hazırda kənd xarabalıqdır. Toponim qədim sirak türk etnoniminin (235, s. 23–24) bir variantı olan "çırak" (çirax) etnoniminə mənsubluq bildirən "-lı" şəkilçisinin artırılması ilə düzəlmişdir.

**Çiriş** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafandan 43 km şimal-şərqdə yerləşirdi. Kənddə 1897-ci ildə 27 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 73, 1926-cı ildə 79, 1931-ci ildə 95 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137). 1950-ci ildə Çiriş sovxozu ləğv edilərək Gığı sovxozuna birləşdirilmişdir. Kəndin əhalisi Kurud və Kirs kəndlərinə köçürülmüşdür. Hazırda xarabalıqdır. Toponim "zanbaq fəsiləsinə mənsub yabanı bəzək bitkisi" mənasında işlənən "çiriş" sözü (12, s. 437) əsasında əmələ gəlmişdir.

**Çivandərə** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Çanaxçı kəndinin yaxınlığında, Bazhunnu dağının ətəyində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 284). Kənddə 1873-cü ildə 113, 1886-cı ildə 154, 1897-ci ildə 157, 1914-cü ildə 172, 1916-cı ildə 389 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 88–89, 156–157). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim oğuzların "yiva/yıva" etnoniminin (238, s. 334; 228, s. 40) fonetik variantı olan "çiva" etnoniminə Azərbaycan dilində "dar və uzunsov əyri-üyrü çökək" mənasında işlənən "dərə" sözünün qoşulması ilə əmələ gəlmişdir.

**Çopur Əli** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Rayonun Qorçulu (Mrqaşad), Dədəqışlaq (Axundov, Pyunik) kəndlərinin arasında yerləşirdi. 1831-ci ildə kənddə 28 nəfər azərbaycanlı yaşamışdır (415, s. 102). XIX əsrin ortalarında kənd ləğv edilmişdir. Toponim şəxs adı əsasında əmələ gəlmişdir.

**Çullu** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1897-ci ildə 109, 1904-cü ildə 85, 1914-cü ildə 110 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur (309, s. 205). İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 39, 1926-cı ildə 56, 1931-ci ildə 69 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137). XX əsrin 40-cı illərində kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim qədim türk mənşəli "çul" (çol) türk etnoniminə (286, s. 31) mənsubluq bildirən "-lu" şəkilçisinin artırılması əsasında əmələ gəlib, "çul tayfasına mənsub yer" mənasını bildirir.

# D

**Damagirməz** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Ellər (Abovyan) yaşayış məntəqəsindən 12–14 km cənub-şərqdə yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 74). Kənddə 1873-cü ildə 254, 1886-cı ildə 353, 1897-ci ildə 380, 1904-cü ildə 387, 1914-cü ildə 474, 1916-cı ildə 549 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuş-

dur (309, s. 216). Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "ev, dəyə, qazma" mənasında işlənən "dam" sözü ilə "girməz" sözlərinin birləşməsindən əmələ gəlmişdir.

**Darbaz** – Kənd İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Quqark rayonunun, indiki Lori vilayətinin ərazisində mövcud olmuşdur. Quqark şəhərindən 6 km məsafədə, Pəmbək çayının yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s. 75) qeyd edilmişdir (348, s. 75). XX əsrin əvvəllərində ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "ensiz" mənasında işlənən "dar" sözü ilə türk dilində "dağ çökəkliyi" mənasında işlənən "baz" sözünün (359, IV (2), s. 1541) birləşməsindən əmələ gəlmişdir.

**Daşaltı** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Paşalı yaşayış məntəqəsindən 6–7 km cənubda, Arpaçayın sahilində yerləşirdi. Kənddə 1873-cü ildə 32, 1886-cı ildə 37, 1897-ci ildə 73, 1904-cü ildə 28, 1914-cü ildə 30, 1916-cı ildə 24 nəfər azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 15 nəfər azərbaycanlı yaşamışdır (15, s. 159). 1924–1925-ci illərdə azərbaycanlılar yenidən erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq deportasiya olunmuşdur. 1926-cı ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "dağ, qaya" mənasında işlənən "daş" sözü ilə mənsubiyyət şəkilçisi qəbul etmiş "alt" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Daşbaşı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafan şəhərindən 23 km şimal-qərbdə, Gığı çayının sol sahilində yerləşirdi. Kənddə 1897-ci ildə 53, 1922-ci ildə 42, 1926-cı ildə 37, 1931-ci ildə 65 (415, s. 56–57, 134–135), 1986-cı ildə 170 nəfər azərbaycanlı yaşamışdır. 1950-ci ildə Gığı kəndi ilə birləşdirilmişdir. 1988-ci ilin noyabrında kənd sakinləri ermənilərin təcavüzünə məruz qalaraq Ermənistan dövləti tərəfindən didərgin salınmışlar. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "dağ, qaya" mənasında işlənən "daş" sözü ilə "yuxarı", "zirvə", "yüksəklik" mənasında işlənən "baş" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Daşxırman (Daşxərmən)** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1897-ci ildə 23, 1904-cü ildə 82, 1914-cü ildə 90 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim qədim türk dilində "kənar, uzaq" mənasında (299, s. 539) işlənən "daş" sözü ilə türk dilində "qala, şəhər" mənasında işlənən "xırman" (əsli "kerman/kermen") sözündən (339, s. 271) əmələ gəlmişdir.

**Daş Keyti** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Daşkənd kəndindən 3 kilometr cənubda yerləşirdi. 1831-ci ildə kənddə 124 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 110). 1850–1860-cı illərdə azərbaycanlılar kənddən qovulmuş və yaşayış məntəqəsi kimi kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "dağ, qaya" mənasında işlənən "daş" sözü ilə türk dilində "axır, arxa hissə" mənasında işlənən "ket" sözü (299, s. 303) əsasında əmələ gəlmişdir.

**Daşkənd** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1831-ci ildə 62 nəfər azərbaycanlı yaşamışdır (415, s. 158). 1840-cı illərdə azərbaycanlılar ermənilər tərəfindən sıxışdırılaraq kənddən çıxarılmış və kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "qaya, dağ" mənasında işlənən "daş" sözü ilə türk dilində "yaşayış məntəqəsi" mənasında işlənən "kənd" sözünün (299, s. 290) birləşməsindən əmələ gəlmişdir. "Dağlıq, qayalıq yerdə olan yaşayış yeri, kənd" mənasını ifadə edir.

**Daşnov** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Vedibasar mahalının Cığındərə bölgəsində, Böyük Vedi kəndinin şərqində yerləşirdi. Kənddə 1931-ci ildə 72 nəfər azərbaycanlı yaşamışdır (415, s. 155). 1937–1948-ci illərdə Qarabağlar rayonunun tərkibində olmuşdur. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Deportasiya edilənlərin bir qismi sonradan doğma kəndlərinə qayıda bilmişlər. Sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "bərk cisim, süxur" mənasında işlənən "daş" sözü ilə "su axıtmaq üçün dəmirdən, ağacdan, daşdan yarımdairə şəklində düzəldilmiş su yolu, arx, kanal" mənasında işlənən "nov" sözünün (11, s. 114; 278, s. 422, 339, 395) birləşməsindən əmələ gəlmişdir.

**Daşnov** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Kəndin digər adı Daşnav olmuşdur (415, s. 56). Qafan şəhərindən 18 km şimal-şərqdə yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 76). Kənddə 1831-ci ildə 18, 1873-cü ildə 30, 1886-cı ildə 31, 1897-ci ildə 30, 1904-cü ildə 39 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57, 134–135). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "bərk cisim, süxur" mənasında işlənən "daş" sözü ilə "su axıtmaq üçün dəmirdən, ağacdan, daşdan yarımdairə şəklində düzəldilmiş su yolu, arx, kanal" mənasında işlənən "nov" sözünün (11, s. 114; 278, s. 339, 395, 422) birləşməsindən əmələ gəlmişdir.

**Dəlləkli** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Tsav kəndindən 2 km qərbdə yerləşirdi. Kənddə 1886-cı ildə 118, 1905-ci ildə 336, 1914-cü ildə 276 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur (244 a, s. 102). Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Kəndin adı "Dəlləkli" nəsil adı əsasında yaranmışdır.

**Dəllər** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Axta (Hrazdan) yaşayış məntəqəsindən 13 km şimal-qərbdə, Zəngi çayının qolu olan Dəllər çayının sahilində, Zincirli dağının ətəyində yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 78), Qafqazın 5 verstlik xəritəsində (348, s. 74) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 181, 1873-cü ildə 227, 1886-cı ildə 267, 1897-ci ildə 303, 1908-ci ildə 385, 1914-cü ildə 597, 1916-cı ildə 337 nəfər azərbaycanlı yaşamışdır (415, s. 16–17, 100–101). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan

kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Hun tayfa birliyinə daxil olan "tele" (dəli) türk etnoniminə (180, s. 21) cəm bildirən "-lər" şəkilçi əlavə etməklə formalaşmışdır.

**Dəmirçilər** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Buxxana dağının yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s. 78) qeyd edilmişdir (348, s. 78). Kənddə 1873-cü ildə 82, 1886-cı ildə 68, 1897-ci ildə 90, 1904-cü ildə 96, 1914-cü ildə 96, 1916-cı ildə 133 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim dəmirçilər türk tayfasının adı (ASE, III c., s. 466) əsasında əmələ gəlmişdir.

**Dərəkənd** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Bazarçay çayının sol sahilində, Ağudi kəndindən 2 km qərbdə yerləşirdi. Kənddə 1831-ci ildə 164, 1873-cü ildə 515, 1886-cı ildə 553, 1897-ci ildə 200, 1908-ci ildə 120, 1914-cü ildə 155 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1918-ci ildə kənd sakinləri erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar öz evlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 101, 1926-cı ildə 91, 1931-ci ildə 100 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1930-cu illərdə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "iki dağ arasında dərin çuxur" mənasında işlənən "dərə" sözü ilə "kənd" sözünün birləşməsindən əmələ gəlib, "dərədə yerləşən, salınan kənd" deməkdir.

**Dərəkənd** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Arpaçayın yaxınlığında, Kəlləqaya dağının ətəyində yerləşirdi. Kəndin digər adları "Dərələr", "Daraxkənd" olmuşdur (415, s. 88). Kənddə 1873-cü ildə 59, 1886-cı ildə 62, 1897-ci ildə 77, 1904-cü ildə 105, 1914-cü ildə 105, 1916-cı ildə 112 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz evlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 44, 1926-cı ildə 27 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 89, 159). 1928–1929-cu illərdə azərbaycanlılar sıxışdırılaraq kənddən çıxarılmış və kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "iki dağ və ya təpə arasında, eləcə də düzənlikdə dərin çuxur" mənasında işlənən "dərə" sözü ilə (278, s. 62; 10, s. 74; 339, s. 171) türk dilində "yaşayış yeri" mənasında işlənən "kənd" sözünün (339, s. 270–271) birləşməsindən əmələ gəlmişdir.

**Dəvəxaraba** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Kotayk, Abovyan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1873-cü ildə 161, 1886-cı ildə 305, 1897-ci ildə 356, 1914-cü ildə 475 nəfər azərbaycanlı yaşamışdır (415, s. 44–45, 124–125). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonra kənddə kürdlər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kürdlərlə yanaşı, 1931-ci ildə kənddə 4 nəfər azərbaycanlı yaşamışdır (415, s. 125). Kənd 1967-ci ildə ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "dağ aşırımı, hündür dağ keçidi", "təpə", mənasında işlənən "dəvə" sözü ilə (253, s. 100–101; 339, s. 168–169), "dağıdılmış" mənasında işlənən "xaraba" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Dığır** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Alagöz dağının ətəyində yerləşirdi. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 163), Qafqazın 5 verstlik xəritəsində "Dıqir", "Dqir" formalarında (348, s. 90) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 35 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 106). 1840–1850-ci illərdə azərbaycanlılar erməni silahlıları tərəfindən qovulmuş və Türkiyədən köçürülən ermənilər kənddə yerləşdirilmişlər. 1950-ci ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim türk dilində "geniş, böyük gillikli düzənlik yer", "otsuz boş sahə", "otsuz", "keçəl" mənasında işlənən "takır" (359, III (1), s. 783; 339, s. 540–541) sözü əsasında əmələ gəlmişdir.

**Dövri** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Qarnıyarıq dağının ətəyində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s. 87), Z.Qorqodyanın əsərində (415, s. 22) kəndin adı "Dövra xaraba" formasında qeyd edilib. Kənddə 1831-ci ildə 35 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 106). 1840-cı ildən sonra Türkiyədən ermənilər köçürülüb kənddə yerləşdirilmiş, azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən tarixi-etnik torpaqlarından tamamilə deportasiya olunmuşlar. Toponim qədim türk dilində "dağ" mənasında işlənən" tau" sözünə (359, III (1), s. 983) "-ri" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Hazırda xarabalıqdır.

**Düzkənd** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. XX əsrin əvvəllərində kənd ləğv edilmişdir (415, s. 62–63). Toponim "düzən çöl, düzənlik" mənasında işlənən "düz" sözünə, "yaşayış yeri, şəhər" mənasında işlənən "kənd" sözünün artırılması əsasında əmələ gəlmişdir.

# E

**Eynəzir (Əyənzir)** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri (Mığrı) rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Mığrıdan 16–18 km şimal-şərqdə, Nüvədi kəndinin yaxınlığında yerləşirdi. Kəndin başqa adı "Eynazor"dur (415, s. 66). Kənddə 1873-cü ildə 153, 1886-cı ildə 204, 1897-ci ildə 163, 1904-cü ildə 238, 1914-cü ildə 562 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 66–67, 142–143). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 207, 1926-cı ildə 219, 1931-ci ildə 219 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 66–67, 142–143). Kənd sonradan Nüvədi kəndi ilə birləşdirilərək ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim qaraqoyunluların əyənzur tayfasının məskunlaşması nəticəsində yaranmışdır (244 a, s. 115).

**Ertiş** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Keşişkənd yaşayış məntəqəsinin Qoytul kəndinin yaxınlığında, Arpaçayın sahilində yerləşirdi. Kəndin cənubunda qədim qala və qəbiristanlığın qalıqları var. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Ərdiş" formasında qeyd edilmişdir(143, s. 38). Kənddə 1831-ci ildə 70, 1873-cü ildə 167, 1886-cı ildə 234, 1897-ci ildə 382, 1904-cü ildə 298, 1914-cü ildə 327, 1916-cı ildə 403, 1919-cu ildə 127 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Kənddə Türkiyədən gələn ermənilər məskun-

laşdırılmışdır. Azərbaycanlılar yurdlarına indiki Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra – 1924-cü ildə qayıda bilmişlər. Kənddə ermənilərlə yanaşı, 1926-cı ildə 94, 1931-ci ildə 53 nəfər azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). Kənd 1939-cu ildə ləğv edilmişdir. Hazırda xarabalıqdır.

# Ə

**Əbdüləlilər** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1907-ci ildə 145 nəfər azərbaycanlı yaşamışdır (85, s. 166). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "Əbdüləlilər" nəsil adı əsasında əmələ gəlmişdir.

**Əcili (Acılu)** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafan şəhərindən 14 km şimal-qərbdə, Oxçu çayının sağ qolu olan Əfsərli çayının sağ sahilində yerləşirdi. Erməni mənbələrində "Acılu", "Acrlu", "Acrli", "Tunis Acilu" formalarında qeyd edilib (427, s. 316). Kənddə 1831-ci ildə 79, 1873-cü ildə 134, 1886-cı ildə 153, 1897-ci ildə 126, 1908-ci ildə 335, 1914-cü ildə 100 nəfər azərbaycanlı yaşamışdır (415, s. 54–55, 132–133). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz evlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 124, 1926-cı ildə 94, 1931-ci ildə 78 (415, s. 55, 133), 1959-cu ildə 69 nəfər (427, s. 316) azərbaycanlı yaşamışdır. Sakinlər qonşu Müsəlləm kəndinə köçürülmüş və 1960-cı ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "acurlu" (acılu) türk etnonimi (238, s. 184; 142, s. 92) əsasında əmələ gəlmişdir.

**Əhmədağa** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Vilayətdəki Qarnidzor kəndindən 3–3,5 km şimal-şərqdə, dağ ətəyində yerləşirdi. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim şəxs adı əsasında əmələ gəlmişdir (244 a, s. 118).

**Əhmədli** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Əyricə çayının sahilində yerləşirdi. 1826–1828-ci illərdə – Rusiya-İran müharibəsi zamanı törədilən qırğınlardan və ermənilərin bölgədə məskunlaşdırılmasından sonra azərbaycanlılar tədricən kəndi tərk etmişlər. 1897-ci ilin rəsmi statistikasına görə, kənddə 35 azərbaycanlı ailəsi (141 nəfər) yaşamışdır. 1905-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınlar nəticəsində kənd təkrar dağıdılmış və nəticədə, xaraba kəndə çevrilmişdir (249 a, s. 227–228). Toponim səlcuq türklərindən olan "əhmədli" etnonimi (245, s. 43) əsasında əmələ gəlmişdir.

**Əxili (Axılı)** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Paşalı (Vayk) yaşayış məntəqəsindən 7 km cənub-qərbdə, Arpaçayın sahilində yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmişdir (143, s. 59). Azərbaycan dilində olan mənbələrdə kəndin adı "Ağıllı" (85, s. 340), "Əxili" (62, s. 258) formalarında qeyd edilib. Kənddə 1831-ci ildə 11, 1873-cü ildə 23, 1886-cı ildə 39, 1897-ci ildə 38, 1914-cü ildə 36, 1916-cı ildə 50 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158–159). 1918-ci ildə kənd

erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış, sakinlər deportasiya olunmuş və kənd xarabalığa çevrilmişdir. Toponim "dərviş icmasının adı" mənasında işlənən "əxi" sözünə (359, I (1), s. 132) "-li" şəkilçisi qoşularaq əmələ gəlmişdir.

**Əkərək** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1873-cü ildə 114, 1886-cı ildə 155, 1897-ci ildə 204, 1904-cü ildə 170, 1914-cü ildə 211, 1916-cı ildə 225 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 44–45, 124–125). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "əkər" türk etnonimi (359, I (1), s. 97) əsasında formalaşmışdır.

**Əkərli (Həkərli)** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1886-cı ildə 170, 1905-ci ildə 253 nəfər azərbaycanlı yaşamışdır (85, s. 166). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "əkər" türk tayfa adına (359, I (1), s. 97) "-li" mənsubluq bildirən şəkilçinin artırılması ilə əmələ gəlmişdir. "Əkər tayfasına mənsub olan kənd" anlamını bildirir.

**Əlikənd** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəfləri"ndə bu qədim türk yurdu "Bəd Əlinin kəndi" kimi təsniflənir (143, s. 12). 1826–1828-ci illərdə – Rusiya-İran müharibəsi zamanı törədilən qırğınlardan və ermənilərin bölgədə məskunlaşdırılmasından sonra azərbaycanlılar kəndi tərk etmişlər. Hazırda xarabalıqdır. Toponim "Əli" şəxs adı ilə "kənd" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Əliqırıq** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Qəmərli rayonuna daxil olan Böyük Gilanlar kəndindən 10 km cənub-qərbdə, Əliqırıq bulağının yaxınlığında, Pirdağı dağının ətəyində yerləşirdi. 1930-cu ilin əvvəllərində keçmiş Vedi (Ararat) rayonunun tabeliyində olmuşdur (415, s. 84). Adı 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə qeyd edilmişdir (143, s. 171). Erməni mənbələrində "Əliqrağı", "Əlikrık" formalarında qeyd edilib (427, s. 84). Kənddə 1873-cü ildə 110, 1886-cı ildə 175, 1897-ci ildə 251, 1904-cü ildə 202, 1914-cü ildə 253, 1916-cı ildə 355 (415, s. 84–85, 154–155), 1918-ci ilin yanvarında 202 nəfər (309, s. 216) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur (309, s. 216). İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 46, 1926-cı ildə 55 nəfər azərbaycanlı yaşamışdır (415, s. 84, 155). 1929–1930-cu illərdə xaricdən köçürülən ermənilər bu kənddə yerləşdirilmişdir. Kənddə 1931-ci ildə 46 nəfər azərbaycanlı, 79 erməni (415, s. 155), 1959-cu ildə 90, 1962-ci ildə 62 nəfər əhali (əksəriyyətini azərbaycanlılar təşkil etmişdir) yaşamışdır (427, s. 703). 1962-ci ildən sonra azərbaycanlılar kənddən köçürülmüş və kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim əfşar türk tayfasına məxsus "qırıqlı" etnonimi (93, s. 46) əsasında formalaşıb, "qırıqlı tayfasından olan Əliyə məxsus kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 10 sentyabr 1948-ci il qərarı ilə kəndin adı dəyişdirilərək "Blaraşen" qoyulmuşdur.

**Əliqışlağı** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Həsənkənd (Şatin) kəndinin yaxınlığında yerləşirdi. 1826–1828-ci illərdə Rusiya-İran müha-

ribəsi zamanı törədilən qırğınlardan və ermənilərin bölgədə məskunlaşdırılmasından sonra azərbaycanlılar tədricən kəndi tərk etmişlər. Kənddə 1831-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır (415, s. 160). Sonrakı illərdə kənddə yaşayanlar haqqında əlavə məlumat yoxdur. Hazırda xarabalıqdır. Toponim "Əli" şəxs adı ilə "qışlaq" sözünün birləşməsindən əmələ gəlib "Əliyə məxsus qışlaq" mənasını ifadə edir.

**Əliməmməd qışlağı** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Avşar kəndindən cənubda, Araz çayının sol sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 12). Kənddə 1831-ci ildə 102, 1873-cü ildə 607, 1886-cı ildə 691, 1897-ci ildə 965, 1904-cü ildə 990, 1914-cü ildə 1089, 1916-cı ildə 850 nəfər azərbaycanlı yaşamışdır (415, s. 84–85, 154–155). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin törətdikləri qırğınlar nəticəsində kəndi tərk etmək məcburiyyətində qalmış, əhali bir müddət İran ərazisində sığınacaq tapmışdır. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma torpaqlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 293, 1926-cı ildə 267, 1931-ci ildə 373 nəfər azərbaycanlı yaşamışdır (415, s. 85, 155). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Deportasiya edilənlərin bir qismi sonradan doğma kəndlərinə qayıda bilsə də, az sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "Əliməmməd" şəxs adı ilə türk dilində "qış vaxtı yaşayış məntəqəsi", "daimi yaşayış məntəqəsi", "kənd" (339, s. 276), Azərbaycan dilində "qoyun və başqa ev heyvanlarının gətirilib saxlandığı mötədil havalı və otlaqlı qışlama yeri" (9, s. 531) mənasında işlənən "qışlaq" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Əlimərdan** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. 1940-cı ilə kimi Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. Qəmərli (Artaşat) rayonundan 25 km şimal-şərqdə, Gərni çayının mənbəyində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 12). Kənddə 1873-cü ildə 52, 1886-cı ildə 57, 1897-ci ildə 153, 1904-cü ildə 63, 1914-cü ildə 221, 1916-cı ildə 206 nəfər azərbaycanlı yaşamışdır (415, s. 84–85, 154–155). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 52, 1926-cı ildə 41, 1931-ci ildə 65 (415, s. 85, 155), 1939-cu ildə 115 nəfər (427, s. 87) yalnız azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Deportasiya edilənlərin bir qismi sonradan doğma kəndlərinə qayıda bilsə də, az sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "Əlimardan" şəxs adı əsasında formalaşmışdır.

**Əlirzalar** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Kəndin başqa adı "Zəngili"dir (415, s. 68). Kənddə 1873-cü ildə 57, 1886-cı ildə 95, 1897-ci ildə 126, 1904-cü ildə 103, 1914-cü ildə 161, 1916-cı ildə 131 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). 1918-ci ilin yazında azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 33, 1926-cı ildə 47, 1931-ci

ildə 53 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). 1948–1949-cu illərdə kənd əhalisi SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə zorla Azərbaycana köçürülmüş və kənd xarabalığa çevrilmişdir. Hazırda xarabalıqdır. Toponim "əlirzalar" nəsil adı əsasında yaranmışdır.

**Əlisli** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. 1931-ci ildə kənddə 155 nəfər azərbaycanlı yaşamışdır (427, s. 91). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Deportasiya edilənlərin bir qismi sonradan doğma kəndlərinə qayıda bilsə də, az sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. (427, s. 21). Toponim "əlisli" nəsil adı əsasında əmələ gəlmişdir.

**Əlişar** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Sisiandan 18–20 km cənub-qərbdə, Sofulu kəndinin yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 13). Kənddə 1886-cı ildə 138, 1897-ci ildə 48, 1908-ci ildə 160, 1914-cü ildə 214 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıtmışlar. Kənddə 1922-ci ildə 105, 1926-cı ildə 104, 1931-ci ildə 135 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1930-cu illərin sonlarında kənd sakinləri qonşu Sofulu kəndinə köçürülmüş və kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim qədim türk dilində "alçaq dağ" mənasında işlənən "alaşar" sözünün (359, I (1), s. 365) fonetik variantı olan "alışar" sözü əsasında yaranmışdır.

**Əmrəkar** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Mığrı (Meğri) rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Mığrıdan 9–10 km şimal-qərbdə yerləşirdi. Kənddə 1926-cı ildə 42, 1931-ci ildə 67 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 66–67, 142–143). 1940-cı illərdə kənd ləğv edilmiş, əhalisi əsasən qonşu Lök kəndinə köçürülmüşdür (244 a, s. 122). Hazırda xarabalıqdır. Toponim "Əmir" şəxs adı ilə türk dilində "sıldırım", "qaya", "sıldırımlı qaya" mənasında işlənən "kar" (323, s. 107) sözünün birləşməsindən əmələ gəlmişdir.

**Əpəkli** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Cəlaloğlu (Stepanavan) rayonunda, indi Lori vilayəti ərazisində xutor. 1897-ci ildə 13 nəfər azərbaycanlı yaşamışdır (415, s. 78–79). XX əsrin əvvəllərində – 1905–1906-cı illərdə onlar erməni silahlıları tərəfindən deportasiya olunmuş və yaşayış məntəqəsi ləğv edilmişdir. İndi xaraba kənddir. Əpəkli nəsil adı əsasında əmələ gələn patronim toponimdir.

**Ərgəz** – Kənd İrəvan quberniyasının Şərur–Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Vilayətdəki Keşişkəndin yaxınlığında, Ərgəzçayın və Axdərə çayının sahilində, Malışkə (Məlikşah) kəndindən 5–6 km məsafədə yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 59), Qafqazın 5 verstlik xəritəsində (348, s. 18) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 193, 1873-cü ildə 348, 1886-cı ildə 479, 1897-ci ildə 587, 1904-cü ildə 745, 1914-cü ildə 820, 1916-cı ildə 758 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 160–161). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim qədim türk dilində "dağın gün düşən tərəfi" mənasında işlənən "er/ir" sözünün (299, s. 175, 211) fonetik

forması olan "ər" sözü ilə "gədiyin ən aşağı yeri" mənasında işlənən "gəz" sözünün (253, s. 126) birləşməsindən əmələ gəlmişdir.

**Ərikli** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 19). Kənddə 1873-cü ildə 60, 1886-cı ildə 106, 1897-ci ildə 88, 1908-ci ildə 126, 1914-cü ildə 214 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1917–1918-ci illərdə azərbaycanlılar erməni daşnak silahlı birləşmələri tərəfindən deportasiya edilmiş və kənd dağıdılmışdır. Hazırda xarabalıqdır. Toponim "ərik" meyvə adına "-li" sözdüzəldici şəkilçinin artırılması əsasında əmələ gəlmişdir.

**Ərinc** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Paşalı (Vayk) yaşayış məntəqəsindən 16–17 km şimal-şərqdə, Arpaçayın sağ qolu olan Ərinc çayın sahilində yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Ərsinc" (143, s. 60), "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə "Ərnic" (218, s. 60), Qafqazın 5 verstlik xəritəsində "Arinc" (348, s. 19), O.Yeğiazaryanın 1955-ci ildə erməni dilində çap olunmuş "Əzizbəyov rayonunun mədəniyyət abidələri" kitabında "Arinc kənd yeri" (422, s. 109) kimi qeyd edilmişdir. Kənddə 1831-ci ildə 177, 1873-cü ildə 129, 1886-cı ildə 152, 1897-ci ildə 200, 1904-cü ildə 264, 1914-cü ildə 290, 1916-cı ildə 252 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 23, 1926-cı ildə 103, 1931-ci ildə 171 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158–159), SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. 1949-cu ildə kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır.

**Əskilüm** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafandan 21 km cənub-şərqdə, Oxçu çayının sağ sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 21). Hazırda xarabalıqdır. Toponim türk mənşəli "bulqar" etnoniminə mənsub "iskil /eskil" etnonimi (287, s. 135) əsasında əmələ gəlmiş etnotoponimdir.

**Əşirabad** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Nairi rayonu ərazisində, indiki Kotayk vilayətində mövcud olmuşdur. Ərzini kəndinin yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 24). 1972-ci ildə Nairi rayonu təşkil edilənədək Əştərək rayonunun tərkibində olmuşdur. Kənddə 1873-cü ildə 136, 1886-cı ildə 155, 1897-ci ildə 162, 1908-ci ildə 180, 1914-cü ildə 281, 1916-cı ildə 277 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107). 1918-ci ildə kəndin əhalisi erməni silahlı dəstələrinin təcavüzünə məruz qalaraq didərgin salınmışdır. 1920-ci ildə kəndə ermənilər köçürülmüşlər. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz ata-baba yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 24 nəfər azərbaycanlı yaşamışdır (415, s. 107). 1926–1930-cu illərdə azərbaycanlılar zorla kənddən köçürülmüşdür. Kənd 1950-ci ildə ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim tayfa mənasında işlənən "əşirət" sözü ilə ("əşirət" sözündəki "-ət" şəkilçisi ixtisar edilmişdir), "şəhər, kənd, yaşayış yeri" mənasında işlənən "abad" sözündən (339, s. 36) əmələ gəlmişdir.

**Əyrisubat** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktem-

beryan) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. Kəndin digər adı "Əyrisifət"dir (427, s. 249). Kənd 1940-cı ildə ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "ayrılmış", "əyri-üyrü" mənasında işlənən "əyri" sözü ilə "malların su içdikləri yer", "çayda, göldə heyvan suvarılan və ya su götürülən yer" mənasında işlənən "suvat" sözünün (253, s. 130; 12, s. 110) birləşməsindən əmələ gəlmişdir.

# F

**Fərrux** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Yaycı kəndinin yaxınlığında, Zəngi çayının sağ axarında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s. 256) qeyd edilmişdir. Kənddə əvvəllər azərbaycanlılar yaşamışlar. Sonra bura ermənilər köçürülmüş və azərbaycanlılar sıxışdırılaraq kənddən çıxarılmışdır. 1897-ci ildə kənddə 10 nəfər azərbaycanlı yaşamışdır (415, s. 18–19). 1905–1906-cı illərdə erməni silahlı dəstələri kənddə qırğınlar törətmişlər. Azərbaycanlılar erməni silahlıları tərəfindən tarixi torpaqlarından qovulmuş və kənddə yalnız ermənilər yaşamağa başlamışlar. Toponim şəxs adı əsasında düzəlmiş antropotoponimdir. Sonralar kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır.

# G

**Gavurqala** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Əştərək rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Nazırvan kəndinin şimal-şərqində yerləşirdi. 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponimin birinci komponentini təşkil edən "gavur" xalq arasında canavara verilən addır. Toponim "gavur" sözü ilə "qala" sözlərinin birləşməsindən əmələ gəlmişdir.

**Genalı** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Arpa kəndindən 12 km şimal-şərqdə, Yelpin çayının sahilində, Yelpin kəndindən 6 km şimalda yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 60). Kənddə 1873-cü ildə 96, 1886-cı ildə 125, 1897-ci ildə 151, 1904-cü ildə 169, 1914-cü ildə 185, 1916-cı ildə 216 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 162–163). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 49 nəfər azərbaycanlı yaşamışdır (415, s. 162–163). 1924–1925-ci illərdə azərbaycanlılar sıxışdırılaraq tamamilə qovulmuşdur. Kənd 1933-cü ildən xarabaya çevrilmişdir. Toponimin birinci komponenti "gen" sözündən ibarətdir. Bu söz, "kənd" sözünün qısaldılmış formasıdır (399, I, s. 340). Toponimin 2-ci komponenti "Alı" şəxs adından ibarətdir. "Alıya məxsus kənd" mənasını ifadə edir.

**Gendərə** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Kotanlı düzənliyində, Qaraqayadərəsi çayının sahilində, Kotanlı kəndinin 4 km şimal-şərqində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 60). Kənddə 1873-cü ildə 152, 1886-cı ildə 217, 1897-ci ildə 330, 1904-cü ildə 503, 1914-cü ildə 553, 1916-cı ildə 354 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qa-

yıda bilmişlər. Kənddə 1922-ci ildə 78 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 158–159). 1923-cü ildə onlar sıxışdırılaraq kənddən çıxarılmış və kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "böyük, geniş" mənasında işlənən "gen" sözü ilə "dərə" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Gənzək** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Amağu kəndinin yaxınlığında yerləşirdi (85, s. 361). "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmişdir (143, s. 160). Erməni mənbələrində kəndin adı "Qandzak" formasında qeyd edilir. XVIII əsrin II yarısına qədər yaşayış məntəqəsi kimi mövcud olmuşdur (422, s. 34). Sonralar xarabalığa çevrilmişdir. Toponim "gencək" türk tayfa adı (399, I, s. 480) əsasında əmələ gəlmişdir.

**Giləkərli** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. XX əsrin əvvəllərində kənddə 38 nəfər azərbaycanlı yaşamışdır (85, s. 166). Sonralar xarabalığa çevrilmişdir. Nəsil adı əsasında yaranmışdır.

**Gomur** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Şəki kəndindən şərqdə yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Kömür" formasında qeyd edilmişdir (143, s. 150). XX əsrin əvvəllərində ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim "dağ başında dar, yarğanlı, uçurumlu yer" mənasında işlənən "kömür" sözündən (359, II (2), s. 1321) əmələ gəlmişdir.

**Gödəkli** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Şahverdi çayının yuxarı tərəfində yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Kötəkli" formasında qeyd edilib (143, s. 89). Kənddə 1831-ci ildə 80, 1873-cü ildə 79, 1886-cı ildə 133, 1897-ci ildə 204, 1908-ci ildə 242, 1914-cü ildə 258, 1916-cı ildə 237 (415, s. 22–23, 108–109), 1918-ci ildə 242 nəfər (309, s. 221) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir (309, s. 221). Hazırda xarabalıqdır. Toponim qazaxlar türk tayfasından olan "gödəkli" etnonimi (386, s. 535) əsasında əmələ gəlmişdir.

**Gölyand** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Murğuz dağının ətəyində yerləşirdi. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Hazırda kəndin və qəbiristanlığın xarabalıqları mövcuddur. Toponim "təbii su hövzəsi" mənasında işlənən "göl" sözü ilə türk dilində "yan, tərəf" (339, s. 649), "dağın döşü, yamacı" (278, s. 166) mənasında işlənən "yan" sözü əsasında əmələ gəlmişdir.

**Göyabas** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Paşalı (Vayk) yaşayış məntəqəsindən 15–17 km şimal-qərbdə, Herher çayının sahilində yerləşirdi. Kənddə 1873-cü ildə 132, 1886-cı ildə 165, 1897-ci ildə 202, 1904-cü ildə 223, 1914-cü ildə 245, 1916-cı ildə 229 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim rəng bildirən "göy" sözü ilə "Abas" şəxs adı əsasında (287, s. 54) əmələ gəlmişdir.

**Göyçay** – Kənd İrəvan əyalətinin Göyçə mahalında, keçmiş Kəvər (Kamo) rayonunun, indiki

Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Göyçə mahalında xarabalığa çevrilmiş kəndlərin siyahısında Göyçay kəndinin də adı çəkilir (415, s. 17; 386, s. 515). Toponim rəng bildirən "göy" sözü ilə "çay" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Göyərçin** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Arpaçayın sahilində yerləşirdi. Kənddə 1831-ci ildə 20, 1873-cü ildə 48, 1886-cı ildə 34, 1897-ci ildə 84, 1904-cü ildə 60, 1914-cü ildə 66, 1916-cı ildə 72 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişdilər. 1930-cu ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim peçeneq türk tayfasının bir qolu olan "guyerçi" etnonimi əsasında əmələ gəlmişdir (286, s. 42).

**Göyərçin** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunun, indiki Tavuş vilayətinin ərazisində mövcud olmuşdur. İcevan şəhərindən 16 km cənub-şərqdə yerləşirdi. 1930-cu ilin sonlarına kimi keçmiş Dilican rayonuna daxil olmuşdur. Kənddə 1897-ci ildə 257, 1904-cü ildə 89, 1914-cü ildə 93, 1916-cı ildə 132, 1919-cu ildə 141 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31, 114–115). 1919-cu ilin əvvəllərində azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 143, 1926-cı ildə 221, 1931-ci ildə 205 (415, s. 30–31, 114–115), 1939-cu ildə 237, 1959-cu ildə 107 nəfər (427, s. 895) azərbaycanlı yaşamışdır. 1950-ci ildə kənd ləğv edilərək sakinləri qonşu Salah kəndinə köçürülmüşdür. Hazırda xarabalıqdır. Toponim peçeneq türk tayfasının bir qolu olan "guyerçi" etnonimi əsasında əmələ gəlmişdir (286, s. 42).

**Gözəldərə** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Keçmiş Sisian, indiki Hatsavan kəndinin yaxınlığında yerləşirdi. Kənd XIX əsrin sonlarında dağılmışdır. (244 a, s. 140). Hazırda xarabalıqları qalır. Toponom "gözəl" və "dərə" sözlərindən əmələ gəlmişdir.

**Gümüşxana** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Dağ çayının qolu olan Gümüşxana selavının yaxınlığında yerləşirdi. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə Gümüşcük kimi qeyd edilmişdir (143, s. 60). Kənddə 1831-ci ildə 35, 1873-cü ildə 145, 1886-cı ildə 136, 1897-ci ildə 203, 1904-cü ildə 360, 1914-cü ildə 394, 1916-cı ildə 234 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 74 nəfər azərbaycanlı yaşamışdır (415, s. 158–159). 1923–1924-cü illərdə onlar sıxışdırılaraq kənddən çıxarılmışlar. 1925-ci ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Kənddə gümüş filizi olduğu üçün "Gümüşxana" adlandırılmışdır.

**Günbəz** – Kənd İrəvan quberniyasının Abaran qəzasında, keçmiş Əştərək rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə Günbəzli formasında qeyd edilmişdir (143, s. 109). 1828-ci ilə kimi kənddə azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra

– 1829–1830-cu illərdə kənddə Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir (427, s. 977). 1850-ci illərdə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "yarımkürə şəklində bina damı, qübbə" mənasında işlənən "günbəz" sözü (11, s. 214) əsasında əmələ gəlmişdir.

**Güney** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Sevan rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Gölkənd kəndindən 6 km şərqdə yerləşirdi. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Kənddəki evlərin və qəbiristanlığın xarabalığı indi də durur. Toponim Azərbaycan dilində "gün düşən, cənub" mənasında işlənən "güney" sözü əsasında əmələ gəlib, "güneydə olan kənd" mənasını ifadə edir.

**Güneyqoruq** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Dərəçiçək kəndinin yaxınlığında yerləşirdi. XIX əsrin axırlarında 7 nəfər azərbaycanlı yaşamışdır. XX əsrin əvvəllərində kənd ləğv edilmişdir (427, s. 920). Toponim "cənub", "gün düşən yer" mənasında işlənən "güney" sözü ilə "əkilmiş yerlər", "istifadə edilməsi qadağan olunmuş mülkədar yerləri" mənasında işlənən "qoruq" sözündən (9, s. 548) əmələ gəlib.

**Güneyvaz** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. XX əsrin əvvəllərində xarabalığa çevrilmişdir. Toponim Azərbaycan dilində "cənub, gün düşən yer" mənasında işlənən "güney" sözü ilə türk dilində "dağ çökəyi", "düzən yerdə tirə, təpəcik, hündür yer", "çuxur, çökək" mənasında işlənən "bazı/baz" sözünün (253, s. 120; 339, s. 64; 170, s. 136) dialekt variantı olan "vaz" sözündən əmələ gəlmişdir.

**Güneyvəng** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Alagöz çayının yaxınlığında, Alagöz kəndi ilə Qovuşuq kəndi arasında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s. 71) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 58, 1873-cü ildə 40, 1886-cı ildə 75, 1897-ci ildə 103, 1904-cü ildə 124, 1914-cü ildə 136, 1916-cı ildə 115 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 93 nəfər azərbaycanlı yaşamışdır (415, s. 160–161). 1924–1925-ci illərdə azərbaycanlılar sıxışdırılaraq qovulmuş və kənd xarabalığa çevrilmişdir. Güneyvəng kəndinin adı bu kəndin üstündəki güney ərazidə, döşdə tikilmiş alban abidəsindən götürülmüşdür (211, s. 211).

**Güneyyurd** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Xalisa və Avşar kəndlərinin yaxınlığında yerləşirdi. Kənddə 1897-ci ildə 39 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponim "gün düşən yer" mənasında işlənən "güney" və yaşayış yeri mənasını bildirən "yurd" sözündən əmələ gəlmişdir.

**Güzəcik** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. İrəvandan 11 km şərqdə yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 154). Kənddə 1873-cü ildə 100, 1886-cı ildə 109, 1897-ci ildə 127, 1904-cü ildə 119, 1914-cü ildə 138, 1916-cı ildə 165 nəfər (415, s. 46–47, 126–127) azərbaycanlı yaşamışdır. 1905–1906-cı illərdə erməni silahlı dəstələri kənddə dəhşətli qırğınlar törətmişlər. 1918-ci ilin fevralında kənddə 119 nəfər (309, s. 216)

azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur (309, s. 216). Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 53 nəfər azərbaycanlı yaşamışdır (415, s. 126–127). Onlar 1924–1925-ci illərdə tamamilə tarixi-etnik yurdlarından qovulmuş və kənd xarabalığa çevrilmişdir. Toponim bayat türk tayfasından olan "güzücəkli" etnonimi (238, s. 233) əsasında əmələ gəlmişdir.

# H

**Hacatı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafan şəhərindən 38 km şimal-qərbdə, Gığı çayının sahilində, dəniz səviyyəsindən 2050 m hündürlükdə yerləşmişdir. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Hacatı" (143, s. 149), Qafqazın 5 verstlik xəritəsində "Haçaatı" (348, s. 57), Azərbaycan mənbələrində "Həcəti" (85, s. 155), erməni müəlliflərinin əsərlərində "Hacatin" formasında (419, s. 62) qeyd edilmişdir. Kənddə 1897-ci ildə 30, 1922-ci ildə 41, 1926-cı ildə 51, 1931-ci ildə 71 (415, s. 56–57, 134–135), 1939-cu ildə 95 nəfər (416, s. 161) yalnız azərbaycanlı yaşamışdır. Kəndin təsərrüfatı 1950-ci ildə Gığı kəndinə birləşdirilmişdir. Hazırda kənd xarabalığa çevrilib.

**Hacı Bağır** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Abaran çayının yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 54). 1950-ci illərdə ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "Hacı Bağır" şəxs adı əsasında əmələ gəlmişdir.

**Hamamlı** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Abaran çayının sahilində yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 109), Qafqazın 5 verstlik xəritəsində (348, s. 14) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 340, 1886-cı ildə 353, 1897-ci ildə 445, 1908-ci ildə 600, 1914-cü ildə 636, 1916-cı ildə 526, 1918-ci ildə 208, 1919-cu ildə 360 nəfər azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107; 309, s. 219). 1919-cu ilin mart-aprel aylarında kənd sakinləri erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kəndi tərk etmişlər. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 96, 1926-cı ildə 88, 1931-ci ildə 151 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Deportasiya edilənlərin bir qismi sonradan doğma kəndlərinə qayıda bilmişdi. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda kənd xarabalığa çevrilib.

**Haramlı** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Eçmiədzin) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1831-ci ildə 17, 1873-cü ildə 46, 1886-cı ildə 63, 1897-ci ildə 79, 1904-cü ildə 84, 1914-cü ildə 102, 1916-cı ildə 103 (415, s. 82–84, 152–153), 1918-ci ildə 162 nəfər (309, s. 218) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur (309, s. 221). İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 22 nəfər azərbaycanlı yaşamışdır (415, s. 152–153). 1923–1924-cü illərdə kənddə

yaşayan azərbaycanlılar sıxışdırılaraq ata-baba torpaqlarından qovulmuş və kənd 1926-cı ildə ləğv edilmişdir. Hazırda kənd xarabalığa çevrilib.

**Hasar** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. Qurduqulu yaşayış məntəqəsindən 36 km qərbdə, Araz çayının sol sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində "Assar" formasında qeyd edilmişdir (348, s. 21). Kənddə 1831-ci ildə 92, 1873-cü ildə 110, 1886-cı ildə 114, 1897-ci ildə 130, 1908-ci ildə 113, 1914-cü ildə 134, 1916-cı ildə 76 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 62–63, 138–139). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 32, 1926-cı ildə 49 nəfər azərbaycanlı yaşamışdır (415, s. 62–63, 138–139). 1928–1929-cu illərdə azərbaycanlılar tarixi-etnik torpaqlarından didərgin salınmışlar. 1930-cu ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim türk dilində "düzənlikdə qala, istehkamlanmış şəhər" mənasında işlənən "hisar" (hasar) sözü (339, s. 593) əsasında əmələ gəlmişdir.

**Heşin** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Keşişkənd (Yeğeqnadzor) yaşayış məntəqəsindən 14 km şərqdə, Yelpinçayın sağ qolu olan Heşin çayının sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 61). Kənddə 1831-ci ildə 62, 1873-cü ildə 174, 1886-cı ildə 272, 1897-ci ildə 229, 1904-cü ildə 237, 1914-cü ildə 260, 1916-cı ildə 311 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 116, 1926-cı ildə 136, 1931-ci ildə 164 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Deportasiya edilənlərin bir qismi sonradan doğma kəndlərinə qayıda bilmişdi. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim türk dilində "yaşayış məntəqəsi" mənasında işlənən "keş" (heş) sözünə (339, s. 273), türk dilində "daxma, koma, mağara" mənasında işlənən "in" sözünün (299, s. 209; 339, s. 234) birləşməsi əsasında əmələ gəlmişdir.

**Həsənli** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Üçkilsə (Eçmiədzin) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 57). Kənddə 1831-ci ildə 192, 1873-cü ildə 539, 1886-cı ildə 503, 1897-ci ildə 252, 1904-cü ildə 501, 1914-cü ildə 608 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra – 1922–1924-cü illərdə sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişdilər. Kənddə 1926-cı ildə 74, 1931-ci ildə 87 nəfər azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). Toponim "Həsənli" nəsil adı əsasında əmələ gəlmişdir. Kənd sonradan ləğv edilmişdir.

**Həsənsu** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Kənd Zod kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1926-cı ildə

48 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27). 1928–1930-cu illərdə azərbaycanlılar kənddən çıxarılmış və kənd ləğv edilmişdir. Toponim şəxs adı bildirən "Həsən" sözü ilə türk dilində "çay" mənasında işlənən "su" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Hostun** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Alagöz çayının sahilində, Həsənkənd və Alagöz kəndləri arasında yerləşirdi. Kənddə 1873-cü ildə 61, 1886-cı ildə 94, 1897-ci ildə 126, 1904-cü ildə 125, 1914-cü ildə 137, 1916-cı ildə 146, 1919-cu ildə 58 nəfər (1918-ci ildə baş verən erməni təcavüzündən sonra) yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Kəndə xaricdən köçürülmüş ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar öz doğma yurdlarına qayıda bilmişdilər. Kənddə ermənilərlə yanaşı, 1922-ci ildə 29, 1926-cı ildə 19, 1931-ci ildə 43 nəfər azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). Kənd 1940-cı illərdə ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim türk dilində "çay ağızı, mənsəb" mənasında işlənən "os/hos" sözü ilə (337, s. 237) türk dilində "bağlı, sərbəst çıxışı olmayan" mənasında işlənən "tun" sözünün (359, III (2), s. 1439) birləşməsindən əmələ gəlmişdir.

**Hüseynbəyli** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1906-cı ildə 658 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. (249 a, s. 252). Toponim "hüseynbəyli" nəsil adı əsasında əmələ gəlmişdir.

# X

**Xancallı** – Kənd Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, sonradan keçmiş Amasiya rayonunun, indiki Şirak vilayətinin ərazisində mövcud olmuşdur. Amasiya şəhərindən 20 km şimal-qərbdə, dəniz səviyyəsindən 2110 m hündürlükdə yerləşirdi. Erməni mənbələrində kənd sakinlərinin qarapapaqlar olduğu göstərilir, eyni zamanda qarapapaqlar müstəqil xalq kimi təqdim edilir (415, s. 20). Halbuki qarapapaqlar müstəqil xalq yox, azərbaycanlıların etnoqrafik qruplarından olan peçeneqlərə aid tayfalardan birinin adıdır (245, s. 42). Kənddə 1886-cı ildə 178, 1897-ci ildə 253, 1908-ci ildə 303, 1914-cü ildə 392 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevral ayında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhalisi qaçqın düşmüşdür. 1921-ci ildə kənd Qars müqaviləsi ilə Ağbaba nahiyəsinin tərkibində sovet Ermənistanına daxil edilmiş və əhalinin bir qismi kəndə qayıtmışdır. 1922-ci ildə kənddə 95, 1926-cı ildə 137, 1931-ci ildə 134 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). 1940-cı illərdə kənd ləğv edilərək əhalisi Balıqlı kəndinə köçürülmüşdür. Hazırda xarabalıqdır. Toponim "xancallı" tayfa adı əsasında yaranmışdır.

**Xaraba Kotanlı** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Böyük Gilanlar kəndinin yaxınlığında, Allahuəkbər dağının ətəyində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 261). Kənddə 1873-cü ildə 64, 1886-cı ildə 105, 1897-ci ildə 253, 1904-cü ildə 174, 1914-cü ildə 219, 1916-cı ildə 207 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 154–155). 1918–1919-cu illərdə azərbaycanlılar erməni daşnak silahlı birləşmələri tərəfindən qırğınlarla qovulmuş, kənddə kürdlər yerləşdiril-

mişdir. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Kənd 1949-cu ildən xaraba qalmışdır. Toponim "dağıdılmış, viran edilmiş" mənasında işlənən "xaraba" sözü ilə "-lı" mənsubluq bildirən şəkilçi qəbul etmiş "kotan" türk etnonimindən (286, s. 50) əmələ gəlmişdir.

**Xaraba Sarvanlar** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1831-ci ildə 29, 1873-cü ildə 48, 1886-cı ildə 44, 1897-ci ildə 52, 1908-ci ildə 95, 1914-cü ildə 100, 1916-cı ildə 70 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). 1918-ci ildə azərbaycanlılar erməni daşnak birləşmələri tərəfindən soyqırımına məruz qalaraq deportasiya olunmuş və kəndə xaricdən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. Kənddə 1922-ci ildə 36, 1926-cı ildə 32, 1931-ci ildə 33 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Toponim "dağılmış, viran edilmiş" mənasında işlənən "xaraba" sözü ilə kəngərli türk tayfasından olan "sarvanlar" etnonimindən (386, s. 537) əmələ gəlmişdir. Kəndin adı dəyişdirilərək "Nor Qoxb" qoyulmuşdur. Kənd hazırda ləğv edilmişdir.

**Xartlıq** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Qaranlıq kəndinin və Qaranlıq çayının yaxınlığında, Şalıbulaq dağının ətəyində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 262). Kənddə 1873-cü ildə 144, 1886-cı ildə 162, 1897-ci ildə 190, 1914-cü ildə 282, 1916-cı ildə 269 nəfər azərbaycanlı yaşamışdır (415, s. 66–67, 140–141). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. 1930-cu ildə kənd xarabalığa çevrilmişdir. Hazırda xarabalıqdır. Toponim qədim türk dilində "uca, hündür, yaşlı, qoca" mənasında işlənən "qart" (299, s. 429) sözünə "-lıq" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir.

**Xatın bağı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Zeyvə kəndinin yaxınlığında yerləşirdi. 1897-ci ildə kənddə 27 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Hazırda xarabalıqdır.

**Xış** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Baharlı kəndinin yaxınlığında, Gığı çayının sol sahilində yerləşirdi. Erməni mənbələrində kəndin qədim adının "Xıçi", "Xeç" olduğu göstərilir (415, s. 56). 1897-ci ildə 43 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57). XX əsrin əvvəllərində – 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Hazırda xarabalıqdır.

**Xocayarlı** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. Kəndin qədim adı "Xocaayarlı" olmuşdur (415, s. 62). Qurduqulu yaşayış məntəqəsindən 1415 km məsafədə, Araz çayının sol sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 266). Kəndin adı mənbələrdə həm də "Xocayar" formasında öz əksini tapmışdır (309, s. 219). Kənddə 1831-ci ildə 85, 1873-cü ildə 176, 1886-cı ildə 207, 1897-ci ildə 210, 1908-ci ildə 236, 1914-cü ildə 250, 1916-cı ildə 229 (415, s. 62–63, 138–139), 1918-ci ildə 236 (309, s. 219), 1919-cu ildə 200 nəfər

(415, s. 138–139) yalnız azərbaycanlı yaşamışdır. 1919-cu ilin sonlarında azərbaycanlılar erməni silahlı birləşmələrinin törətdikləri qırğınlar nəticəsində kəndi tərk etmək məcburiyyətində qalmışlar. Kənd 1924-cü ildə ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "xocaayarlı" nəsil adı əsasında əmələ gəlmişdir.

**Xosrov** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Küsqayasu çayının yaxınlığında yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmişdir (143, s. 104). Kənddə 1873-cü ildə 155, 1886-cı ildə 182, 1897-ci ildə 269, 1904-cü ildə 199, 1914-cü ildə 388, 1916-cı ildə 315 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 154–155). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin törətdikləri qırğınlar nəticəsində kəndi tərk etmək məcburiyyətində qalmış, əhali bir müddət İran ərazisində sığınacaq tapmışdır. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra əhalinin bir hissəsi doğma yer-yurdlarına qayıtmışdır. Kənddə 1922-ci ildə 24, 1926-cı ildə 34, 1931-ci ildə 31 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 154–155). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "Xosrov" şəxs adı əsasında yaranmışdır.

**Xotanan** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 268). Kənddə 1873-cü ildə 53, 1886-cı ildə 58, 1897-ci ildə 74, 1904-cü ildə 91, 1914-cü ildə 81 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 28–29, 112–113). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. (309, s. 206). 1920-ci ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "xotan" türk tayfa adına (275, s. 399) cəmlik bildirən "-an" şəkilçisinin artırılması ilə düzəldilmişdir.

**Xunut** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Kəndin digər adı "Xnut Qaraqoyunlu" olmuşdur. Kolanlı kəndinin yaxınlığında, Cığın dərəsində, Cığınsu çayının yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 266). Kənddə 1873-cü ildə 114, 1886-cı ildə 143, 1897-ci ildə 253, 1904-cü ildə 315, 1914-cü ildə 346, 1916-cı ildə 213 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 154–155). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra əhalinin bir hissəsi doğma yer-yurdlarına qayıtmışdır. 1922-ci ildə kənddə 42 nəfər azərbaycanlı yaşamışdır (415, s. 154–155). 1924–1925-ci illərdə azərbaycanlılar kənddən köçürülmüş və kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim qədim türk tayfası olan "hun" (xun) etnoniminə (245, s. 38; 286, s. 31–32) cəmlik bildirən "-ut" şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir.

# İ

**İkinci Bəhlul** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talin (Talın) rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Vilayətdəki Mastara kəndindən 8–9 km cənub-qərbdə, Sabunçu kəndinin cənub-qərbində yerləşirdi. Kənddə 1897-ci ildə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s. 34–35). 1905–1906-cı illərdə erməni silahlı dəstələri kənddə qırğınlar törətmişlər. Kənd 1940-cı ildə ləğv edilmişdir (427, s. 561). Toponim "Bəhlul" şəxs adı əsasında əmələ gəlmişdir.

**İkinci Əliyanlı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1886-cı ildə 137 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur (85, s. 163). Kənd 1920-ci ildə ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən "ikinci" sözü ilə kəngərli türk tayfasından olan "əliyanlı" etnonimi (386, s. 538) əsasında əmələ gəlmişdir.

**İkinci Qayaxaraba** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Kəndin başqa adı "Kafir qalası"dır (415, s. 44). Kənddə 1897-ci ildə 68 nəfər azərbaycanlı yaşamışdır (415, s. 44–45). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponim Azərbaycan dilində "qayalı sıldırım yer" mənasında işlənən "qaya" sözü ilə "viranəlik, dağıdılmış yer" mənasında işlənən "xaraba" sözünün birləşməsindən əmələ gəlmişdir. "İkinci" sözü fərqləndirici əlamət bildirir.

**İkinci Qılıcyataq** – Kənd İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Talin (Talın) rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 137). Kənddə 1897-ci ildə 89 nəfər azərbaycanlı yaşamışdır (415, s. 36–37). 1915–1920-ci illərdə kənddə müsəlman kürdlər yerləşdirilmişlər. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim fərqləndirici əlamət bildirən "ikinci" sözündən və Azərbaycan dilində "dağın təpəsi, yoxuşun başı" mənasında işlənən "qılıc" sözü ilə (118, s. 18; 253, s. 16), "payızda, qışda qoyun-quzu, mal-qara saxlanılan yer" mənasında işlənən "yataq" sözünün (10, s. 510) birləşməsindən əmələ gəlmişdir.

**İkinci Qoşabulaq** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Basarkeçər (Vardenis) yaşayış məntəqəsindən 8 km cənub-qərbdə, Qoşabulaq kəndinin yaxınlığında yerləşirdi. Erməni mənbələrində kəndin adının "Qırxbulaq", "Kefli" olduğu da göstərilir (415, s. 26). Kənddə 1897-ci ildə 178, 1908-ci ildə 262, 1914-cü ildə 274, 1916-cı ildə 244 nəfər azərbaycanlı, eyni zamanda kürdlər yaşamışlar (415, s. 26–27, 112–113). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin törətdikləri qırğınlar nəticəsində kəndi tərk etmək məcburiyyətində qalmışlar. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra əhalinin bir hissəsi doğma yer-yurdlarına qayıtmışdır. 1922-ci ildə kənddə 59 nəfər əhali qeydə alınmışdır (415, s. 112–113). 1923-cü ildən sonra kəndin əhalisi Qoşabulaq kəndinə köçmüş və kənd xarabalığa çevrilmişdir. Toponim Azərbaycan dilində "cüt" mənasında işlənən "qoşa" sözü ilə "bulaq" hidronimi əsasında əmələ gəlmişdir.

**İlanlı** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Vilayətdəki Qovşuq kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1897-ci ildə 13, 1916-cı ildə 59 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "ilanlı" türk tayfa adı (92, s. 15) əsasında formalaşmışdır.

**İlxı qoruğu** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Üçkilsə (Eçmiədzin) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 102). Kənddə 1873-cü ildə 242, 1886-cı ildə 345, 1897-ci ildə 432, 1904-cü

ildə 215, 1914-cü ildə 375, 1916-cı ildə 136 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Kənd 1920-ci ildə ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində toplu isim kimi işlənən "ilxı" (at ilxısı) sözü ilə "qoruq" sözündən əmələ gəlib, "atlar üçün qoruğun yaxınlığındakı kənd" mənasını verir.

**İllicə** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Qəmərli (Artaşat) yaşayış məntəqəsindən 28 km şimal-şərqdə, Böyük Gilanlar kəndinin və İllicə çayının yaxınlığında, Milli dərədə yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində "Yelincə" formasında (348, s. 92) qeyd edilmişdir. 1930-cu illərdə kənd keçmiş Vedi (Ararat) rayonunun inzibati ərazi bölgüsünə daxil olmuşdur (415, s. 86). Kənddə 1873-cü ildə 197, 1897-ci ildə 327, 1904-cü ildə 215, 1914-cü ildə 377, 1916-cı ildə 407 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qalib gəldikdən sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 58, 1926-cı ildə 85, 1931-ci ildə 96, 1939-cu ildə 181 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Kənd sonradan ləğv edilmişdir. Toponim qədim türk dilində tayfa ittifaqı mənasında işlənən "el" (il) sözü əsasında əmələ gəlmişdir.

**İmirzik** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Dəvəgözü çayının yaxınlığında, Gərniçayın sol axarında yerləşirdi. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Əmirzik" formasında (143, s. 170), Qafqazın 5 verstlik xəritəsində (348, s. 102) qeyd edilmişdir. 1930-cu illərdə keçmiş Vedi (Ararat) rayonunun inzibati ərazi bölgüsünə daxil idi (415, s. 86). Kənddə 1873-cü ildə 188, 1886-cı ildə 232, 1897-ci ildə 348, 1904-cü ildə 254, 1914-cü ildə 328, 1916-cı ildə 456 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 154–155). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra əhalinin bir hissəsi doğma yer-yurdlarına qayıtmışdır. Kənddə 1922-ci ildə 65, 1926-cı ildə 96, 1931-ci ildə 151, 1939-cu ildə 269 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 154–155). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Sonradan kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim 24 oğuz tayfasından biri olan "eymur" (imir) etnoniminə (309, I, s. 56; 238, s. 324) "-zik" şəkilçisinin artırılması ilə düzəldilmişdir.

**İncəvar** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Xələc çayının sol sahilində yerləşirdi. Kənddə 1873-cü ildə 66, 1886-cı ildə 92, 1897-ci ildə 129, 1904-cü ildə 140, 1914-cü ildə 89 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57, 134–135). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra əhalinin bir hissəsi doğma yer-yurdlarına qayıtmışdır. Kənddə 1922-ci ildə 38, 1926-cı ildə 42, 1931-ci ildə 45 nəfər azərbaycanlı yaşamışdır (415, s. 57, 135).

1930-cu illərin sonunda kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim türk mənşəli qıpçaq tayfasına aid olan "incə" etnonimindən (286, s. 49) və "möhkəmləndirilmiş kənd, bənd, qala" mənasında işlənən "var" sözündən (339, s. 113) əmələ gəlib, "incə tayfasına mənsub qala, kənd" mənasını bildirir.

**İnqala** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Böyük Vedi (Ararat) qəsəbəsindən 22–24 km şimal-şərqdə, Vediçayın sol sahilində yerləşirdi. Kənddə 1886-cı ildə 113, 1897-ci ildə 124, 1916-cı ildə 161 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 154–155). 1918–1919-cu illərdə azərbaycanlılar erməni silahlı birləşmələrinin törətdikləri qırğınlar nəticəsində kəndi tərk etmək məcburiyyətində qalmış, əhali bir müddət İran ərazisində sığınacaq tapmışdır. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar öz doğma kəndlərinə qayıda bilmişdilər. 1926-cı ildə kənddə 30, 1931-ci ildə 33, 1939-cu ildə 127 nəfər azərbaycanlı yaşamışdır (415, s. 87, 155). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Sonradan kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim qədim türk dilində "daxma", "koma", "mağara" mənasında işlənən "in" sözü ilə (299, s. 209) "qala" sözünün birləşməsindən əmələ gəlmişdir.

**İrimis** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Dərəbas kəndinin yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 104). Kənddə 1831-ci ildə 14, 1873-cü ildə 108, 1886-cı ildə 150, 1897-ci ildə 225, 1908-ci ildə 327, 1914-cü ildə 616 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır.

**İskəndərabad** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Eçmiədzin) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1886-cı ildə 87, 1897-ci ildə 135, 1904-cü ildə 81, 1914-cü ildə 201, 1919-cu ildə 555 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndi tərk edən azərbaycanlılardan sağ qalanlar ata-baba torpaqlarına qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 38 nəfər azərbaycanlı yaşamışdır (415, s. 152–153). 1923–1924-cü illərdə onlar sıxışdırılaraq tarixi-etnik torpaqlarından qovulmuşdur. 1925-ci ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "İskəndər" şəxs adı ilə "abad" sözünün əsasında əmələ gəlib, "İsgəndərin saldığı kənd" mənasını verir.

**İtqıran Ortakənd** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1897-ci ildə 169 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91). XX əsrin əvvəllərində, 1905–1906-cı illərdə azərbaycanlılar erməni daşnak silahlı birləşmələri tərəfindən sıxışdırılaraq qovulmuş və kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "itbarak" etnonimində öz əksini tapan "it" sözü ilə (228, s. 16–18; 321, s. 43–45) türk dilində "kənd, yaşayış yeri, meşədə yurd, dəyə, maldarların müvəqqəti yaşayış yeri" mənasında işlənən "qıran" (kuren / kuran) sözündən (339, s. 317–318) və "aralıqda, ortalıqda, iki obyektin arasında yerləşən kənd" mənasında işlənən "ortakənd" söz birləşməsindən əmələ gəlmişdir.

# K

**Kamal** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Nairi rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Nairidən 8 km şimal-şərqdə, Zəngi çayının sağ sahilində yerləşirdi. 1972-ci ilə kimi keçmiş Kotayk (Abovyan) rayonunun tərkibində olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 80), Qafqazın 5 verstlik xəritəsində (348, s. 155) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 37, 1873-cü ildə 395, 1886-cı ildə 565, 1897-ci ildə 597, 1904-cü ildə 621, 1914-cü ildə 780, 1916-cı ildə 715 (415, s. 46–47, 126–127), 1918-ci ilin yanvarında 625 nəfər (309, s. 216) azərbaycanlı yaşamışdır. 1905–1906-cı illərdə erməni silahlı dəstələri kənddə qırğınlar törətmişlər. 1918-ci ildə azərbaycanlılar bir daha erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur (309, s. 216). Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim şəxs adı əsasında yaranan antropotoponimdir.

**Karvansara** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Aşağı Qaranlıq yaşayış məntəqəsindən 10–12 km cənub-şərqdə, Mədinə kəndinin yaxınlığında, Əyriçayın sahilində yerləşirdi. Kəndin adı erməni müəlliflərinin əsərlərində "Əyriçay Karvansara" və "Əyricə Karvansara" kimi də qeyd edilmişdir (415, s. 66). Kənddə 1873-cü ildə 168, 1886-cı ildə 205, 1897-ci ildə 309, 1904-cü ildə 341, 1914-cü ildə 441, 1916-cı ildə 294 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 66–67, 142–143). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra əhalinin bir hissəsi doğma yer-yurdlarına qayıtmışdır. Kənddə 1922-ci ildə 78, 1926-cı ildə 45 nəfər azərbaycanlı, 1931-ci ildə 80 nəfər azərbaycanlı, 69 erməni, 29 kürd yaşamışdır (415, s. 66–67, 142–143). Ermənilər kəndə 1928–1930-cu illərdə köçürülmüşlər (415, s. 66). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Sonra kənd ləğv olunmuşdur. Toponim "ticarət yolu üzərində tikili bina" mənasında işlənən "karvansara" sözü əsasında əmələ gəlmişdir.

**Karvansara** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talin (Talın) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. Alagöz dağının cənub ətəyində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 115). Kənddə 1873-cü ildə 136, 1886-cı ildə 155, 1897-ci ildə 184, 1908-ci ildə 140, 1914-cü ildə 148, 1916-cı ildə 288 (415, s. 36–37, 118–119), 1918-ci ilin yanvarında 210 nəfər (309, s. 221) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin martında azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur (309, s. 221). 1920-ci ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "dəvə dəstəsi" mənasında işlənən "karvan" sözü ilə türk dilində "ev, təsərrüfat tikilisi" mənasında işlənən "saray" sözünün (339, s. 496) birləşməsindən əmələ gələn "karvansara" sözündən yaranıb, "özgə yerlərdən gələn karvanların və yolçuların müvəqqəti qalması, qoşqu heyvanları və minik vəsaitinin saxlanması üçün böyük həyəti və xüsusi binası olan kənd" mənasını ifadə edir. Toponim "ticarət yolu üzərində tikili bina" mənasında işlənən "karvansara" sözü əsasında əmələ gəlmişdir.

**Karvansara** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Armaş kəndinin yaxınlığında yerlə-

şirdi. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Karvansara məzrəsi" formasında (143, s. 173), Qafqazın 5 verstlik xəritəsində "Karvansara" kimi (348, s. 115) qeyd edilmişdir. Kənddə 1897-ci ildə 68, 1914-cü ildə 76 nəfər azərbaycanlı yaşamışdır (415, s. 88–89, 156–157). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "ticarət yolu üzərində tikili bina" mənasında işlənən "karvansara" sözü əsasında əmələ gəlmişdir.

**Keçəl təpə** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Zeyvə kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1926-cı ildə 185 nəfər azərbaycanlı və erməni yaşamışdır (415, s. 62–63). 1930-cu illərdə kənd ləğv edilmişdir. Toponim Azərbaycan dilində "çılpaq, otsuz, ot bitməyən yer" mənasında işlənən "keçəl" sözü ilə (278, s. 88; 11, s. 32) "alçaq dağ" mənasında işlənən "təpə" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Kələli** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunun, indiki Şirak vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali Türkiyəyə köç etmişdir. Toponim nəsil adı əsasında əmələ gəlmişdir. Erm. SSR AS RH-nin 3 fevral 1947-ci il tarixli qərarı ilə adı dəyişdirilərək "Noraber" qoyulmuşdur. Kənd sonradan yaşayış məntəqələri siyahısından çıxarılmışdır.

**Kələşkənd** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Zəngi çayının sağ qolunun üzərində yerləşirdi. Erməni mənbəyində "Kyalaşkənd" (415, s. 6), Qafqazın 5 verstlik xəritəsində "Kələskənd" formasında (348, s. 155) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 96, 1873-cü ildə 288, 1886-cı ildə 363, 1897-ci ildə 404, 1904-cü ildə 373, 1914-cü ildə 437, 1916-cı ildə 372 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 67, 98–99). 1918-ci ildə kənd erməni daşnak silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və yerli sakinlər – azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya edilmişlər. Kənd 1926-cı ildə ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "Kələş" şəxs adına "kənd" sözünün qoşulması yolu ilə əmələ gəlmişdir.

**Kiçik Armudlu** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. Qurduqulu (Hoktemberyan) yaşayış məntəqəsindən 6 km cənubda yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s. 19) qeyd edilmişdir. Kəndin qədim, ilkin adı "Türk Armudlusu" olmuşdur (415, s. 62). Kənddə 1831-ci ildə 72, 1873-cü ildə 178, 1886-cı ildə 218, 1897-ci ildə 289, 1904-cü ildə 309, 1914-cü ildə 327, 1916-cı ildə 225 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 62–63, 138–139). 1918-ci ildə kənd erməni silahlı dəstələrinin təcavüzünə məruz qalmış və sakinlər tarixi-etnik torpaqlarından qırğınlar nəticəsində didərgin salınmışlar. Kənddə Türkiyənin Bəyazid və Ələşkirt vilayətlərindən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. 1930-cu ildə rayondakı Böyük Armudlu kəndi ilə birləşdirilmişdir. Toponim "armud" bitki adına mənsubluq bildirən "-lu" şəkilçisinin qoşulması ilə əmələ gəlmişdir. "Kiçik" sözü fərqləndirici əlamət bildirir.

**Kiçik Gilanlar** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Qəmərli (Artaşat) yaşayış məntəqəsindən 28 km şimal-şərqdə, Yelincə çayının sahilində yerləşmişdir. 1930-cu illərdə keçmiş Vedi (Ararat) rayonunun tabeliyində olmuşdur (415, s. 84). "İrəvan əyalətinin icmal dəftəri"ndə "Kiçik Gilan" (143, s. 102), Qafqazın 5 verstlik xəritəsində "Kiçik Gilyanar" (348, s. 62)

formasında qeyd edilmişdir. Kənddə 1873-cü ildə 96, 1886-cı ildə 167, 1897-ci ildə 178, 1904-cü ildə 183, 1914-cü ildə 201, 1916-cı ildə 194 nəfər azərbaycanlı yaşamışdır (415, s. 84–85, 154–155). 1918-ci ildə azərbaycanlılar erməni daşnak silahlı birləşmələri tərəfindən qovulmuş və kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 21 nəfər erməni ilə yanaşı, 11 nəfər azərbaycanlı yaşamışdır (415, s. 154–155). 1922-ci ildən sonra 11 nəfər azərbaycanlı da qovulmuş və kənddə tam ermənilər məskunlaşmışdır. 1950-ci illərdə Kiçik Gilanlar kəndi ləğv edilmişdir (99, s. 372–373). Hazırda xarabalıqdır. Toponim fərqləndirici əlamət bildirən "kiçik" sözü ilə "gilanlar" nəsil adı əsasında əmələ gəlmişdir.

**Kiçikkənd** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Abaran çayının sağ sahilində, Karbi kəndinin yaxınlığında yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilib. XIX əsrin rusdilli mənbələrində (Сборник сведений о Кавказе, т. V, Тифлис, 1879, № 349) qeydə alınmışdır. Kənddə 1831-ci ildə 77, 1873-cü ildə 166, 1886-cı ildə 235, 1897-ci ildə 296, 1908-ci ildə 366, 1914-cü ildə 292, 1916-cı ildə 249, 1918-ci ildə 370, 1919-cu ildə 233 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22–23, 108–109). 1919-cu ildə sakinlər erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kəndi tərk etmişlər. (309, s. 221). İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar ata-baba yurdlarına qayıda bilmişlər. Kənddə 1922-ci ildə 56, 1931-ci ildə 55 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22–23, 108–109). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd ləğv edilmişdir. Hazırda kənd xarabalıqdır. Toponim Azərbaycan dilində "balaca, sahəsi az olan, xırda" mənasında işlənən "kiçik" sözü ilə "yaşayış məntəqəsi" mənasında işlənən "kənd" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Kiçik Qaraqoyunlu** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Basarkeçər (Vardenis) yaşayış məntəqəsindən 14 km cənub-qərbdə yerləşirdi. Kənddə 1897-ci ildə 235, 1908-ci ildə 253, 1914-cü ildə 328, 1916-cı ildə 301 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27, 112–113). 1919-cu ilin aprel ayında azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur (309, s. 305). İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 197, 1926-cı ildə 212, 1931-ci ildə 209 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27. 112–113). Sonralar Böyük Qaraqoyunlu kəndinə birləşdirilərək ləğv edilmişdir. Toponim "qaraqoyunlu" türk etnonimi (245, s. 52; 232, s. 66; 175, s.18) əsasında əmələ gəlmişdir.

**Kiçik Təpəköy** – Kənd Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, sonradan keçmiş Amasiya rayonunun, indiki Şirak vilayətinin ərazisində mövcud olmuşdur. Amasiyadan 17 km şimal-qərbdə, Arpaçayın sol tərəfində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 237). Kəndin sakinləri azərbaycanlıların etnogenizində iştirak edən qarapapaqlar olmuşdur. Kənddə 1886-cı ildə 164, 1897-ci ildə 206, 1908-ci ildə 321, 1914-cü ildə 209 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). 1920-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. 1950-ci ildə Böyük Təpəköy kəndi ilə birləşdirildikdən sonra yaşayış məntəqələri siyahısından çıxarılmışdır. Toponim Azərbaycan

dilində "kiçik dağ" mənasında işlənən "təpə" sözü ilə türk dilində "kənd" mənasında işlənən "köy" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Kirəşli** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Zəngi çayının yaxınlığında yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Kərəcli" kimi (143, s. 134), Qafqazın 5 verstlik xəritəsində "Kiraşlu" formasında (348, s. 134) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 76, 1873-cü ildə 464, 1886-cı ildə 744, 1897-ci ildə 802, 1908-ci ildə 1061, 1914-cü ildə 1196, 1916-cı ildə 973, 1919-cu ildə 207 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 67, 98–99). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndi tərk etmiş azərbaycanlılardan sağ qalanlar tarixi-etnik torpaqlarına qayıtmışlar. Kənddə 1922-ci ildə 108, 1926-cı ildə 86, 1931-ci ildə 135 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 67, 98–99). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, azərbaycanlı əhali zorla Azərbaycana deportasiya edildikdən sonra kənd ləğv edilmişdir. Hazırda kənd xarabalıqdır. Toponim "kirəcli" türk etnonimi (59, s. 166) əsasında əmələ gəlmişdir.

**Kisarxələc** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. 1897-ci ildə kənddə 10 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56; 427, s. 868). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponim türk dilində "düzənlikdə qala", "möhkəmləndirilmiş şəhər" mənasında işlənən "qisar" (xisar) sözü ilə (339, s. 143, 593) "xələc" (xalac) türk etnonimi əsasında əmələ gəlmişdir.

**Kolanlı** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. 1937-ci ilə kimi keçmiş Vağarşabad (Eçmiədzin) rayonunun tərkibinə daxil olmuşdur. Kəndin digər adı "Kolanlı Aralıq"dır (415, s. 84). Kənddə 1831-ci ildə 284, 1873-cü ildə 673, 1886-cı ildə 701, 1897-ci ildə 886, 1904-cü ildə 768, 1914-cü ildə 887, 1918-ci ildə 768, 1919-cu ildə 1118 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 84–85, 152–153; 309, s. 221). 1919-cu ilin sonlarında azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur (309, s. 221). İran və Türkiyədən köçürülən ermənilər kənddə yerləşdirilmişlər. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz yurdlarına qayıda bilmişdilər. Kənddə ermənilərlə yanaşı, 1922-ci ildə 224, 1926-cı ildə 248, 1931-ci ildə 294 nəfər azərbaycanlı yaşamışdır (415, s. 84–85, 152–153). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd ləğv edilmişdir. Toponim "kolani" türk etnoniminə (212, s. 92; 386, s. 535) mənsubluq bildirən "-lı" şəkilçisi artırılmaqla əmələ gəlib, "kolanı tayfasına məxsus yer" mənasını bildirir.

**Kolanlı** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Erməni mənbələrində kəndin adı həm də "Kolani", "Cermanis Kolanlı" kimi göstərilir (415, s. 88). Kənddə 1831-ci ildə 105, 1873-cü ildə 545, 1886-cı ildə 663, 1897-ci ildə 886, 1904-cü ildə 728, 1914-cü ildə 800, 1916-cı ildə 939 nəfər azərbaycanlı yaşamışdır (415, s. 88–89, 156–157). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti

qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 207, 1926-cı ildə 300, 1931-ci ildə 430 nəfər azərbaycanlı yaşamışdır (415, s. 88–89, 156–157). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd ləğv edilmişdir. Hazırda kənd xarabalıqdır. Toponim türk mənşəli kolanı tayfasının adına (386, s. 535; 212, s. 92) mənsubluq bildirən "-lı" şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir.

**Kollu qışlaq** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1897-ci ildə 75 nəfər azərbaycanlı yaşamışdır (415, s. 62–63). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponim "kol basmış, kol çox olan" mənasında işlənən "kollu" sözü ilə (11, s. 83) "qış vaxtı heyvandarların yaşadığı yer" mənasında işlənən "qışlaq" sözü əsasında yaranmışdır.

**Kosalı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafan şəhərinin yaxınlığında yerləşirdi. Hazırda xarabalıqdır. Toponim kosalı türk tayfasının adı (92, s. 23) əsasında əmələ gəlmişdir.

**Kotuz** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Kənd vilayətin Qarağac kəndinin və Çanqlı çayının yaxınlığında, Kotuz dağının ətəyində yerləşirdi. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Kütus" (143, s. 172), Qafqazın 5 verstlik xəritəsində "Kotuz" formasında (348, s. 142) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 188, 1886-cı ildə 266, 1897-ci ildə 329, 1904-cü ildə 249, 1914-cü ildə 493, 1916-cı ildə 459 nəfər azərbaycanlı yaşamışdır (415, s. 88–89, 156–157). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 58, 1926-cı ildə 110, 1931-ci ildə 154 nəfər azərbaycanlı yaşamışdır (415, s. 88–89, 156–157). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd xarabalığa çevrilmişdir. Toponim qədim türk dilində "çöl sığırı" mənasında işlənən "kituz" sözü (399, I, s. 365) əsasında əmələ gəlmişdir.

**Köhnəkalafa** – Kənd Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunun, indiki Tavuş vilayətinin ərazisində mövcud olmuşdur. Ləmbəli kəndinin yaxınlığında yerləşirdi. 1930-cu illərdə Ləmbəli kəndinə birləşdirilərək ləğv edilmişdir. Həmin illərdə Allahverdi rayonunun tabeliyində olmuşdur. Toponim "qədim" mənasında işlənən "köhnə" və "dağılmış yer, xaraba" mənasında işlənən "kalafa" sözünün (8, s. 251) birləşməsindən əmələ gəlmişdir.

**Köhnə qışlaq** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talin (Talın) rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "qədim" mənasında işlənən "köhnə" sözü ilə "qışlaq" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Köhnə Şahablı** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Çapan çayının yaxınlığında,

vilayətin ərazisindəki Qarağac kəndinin yanında yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 106), Qafqazın 5 verstlik xəritəsində (348, s. 290) qeyd edilmişdir. Kənddə 1897-ci ildə 46 nəfər azərbaycanlı yaşamışdır (415, s. 88–89). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponim fərqləndirici əlamət bildirən "köhnə" sözü ilə oğuzların "şahablı" etnonimi (F.Kırzıoğlu. Rəvan türkləri, "Vətən həsrəti" qəz., 18. 06. 1993) əsasında əmələ gəlmişdir.

**Kömürlü (Gomurlu)** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Vilayətdəki Yelpin kəndinin yaxınlığında, Arpaçayın sol qolu olan Axta çayının yanında yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Kömür" kimi (143, s. 60), Qafqazın 5 verstlik xəritəsində "Gomurlu" formasında (348, s. 128) qeyd edilmişdir. Erməni mənbəyində "Kyomurlu" formasında göstərilir (415, s. 92, 162). Kənddə 1873-cü ildə 95, 1886-cı ildə 147, 1897-ci ildə 192, 1904-cü ildə 205, 1914-cü ildə 225, 1916-cı ildə 259 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 162–163). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim türk dilində "dağ başında dar, yarğanlı, uçurumlu yer" mənasında işlənən "kömür" sözünə (359, II (2), s. 13–21) "-lu" şəkilçisinin artırılması ilə düzəldilmişdir. "Dağ başında dar, yarğanlı, uçurumlu yerdə salınan kənd" mənasını bildirir.

**Körpü qulağı** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Dəvəgözü çayının və Aysor gölü kəndinin yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 130). Kəndin digər adı "Körpükənd"dir (415, s. 88). Kənd 1930-cu illərdə keçmiş Vedi (Ararat) rayonunun tərkibində olmuşdur (415, s. 88). Kənddə 1831-ci ildə 129, 1873-cü ildə 143, 1886-cı ildə 200, 1897-ci ildə 351, 1904-cü ildə 219, 1914-cü ildə 470, 1916-cı ildə 478 nəfər azərbaycanlı yaşamışdır (415, s. 88–89, 156–57). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 150, 1926-cı ildə 141, 1931-ci ildə 174 nəfər azərbaycanlı yaşamışdır (415, s. 88–89, 156–157). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd ləğv olunmuşdur. Hazırda kənd xarabalıqdır. Toponim "körpü" və "kənar, uc" mənasında işlənən "qulaq" (9, s. 567) sözünün birləşməsindən əmələ gəlmişdir.

**Kumand** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1897-ci ildə 42 (415, s. 56–57), 1914-cü ildə 242 nəfər (427, s. 912) azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim qədim türk mənşəli "koman" (kuman) etnonimi (286, s. 50) əsasında əmələ gələn etnotoponimdir.

**Kürdalı** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Abaran çayının sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 154). Kənddə 1873-cü ildə 132, 1886-cı ildə 102, 1897-ci ildə 143, 1908-ci ildə 135, 1914-cü ildə 260, 1916-cı ildə 249 (415,

s. 22–23, 108–109), 1918-ci ildə 135 nəfər (309, s. 219) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 56, 1926-cı ildə 45, 1931-ci ildə 55 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22–23, 108–109). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim şəxs adı əsasında əmələ gəlmişdir.

**Kürəkan** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. Kəndin digər adı "Kürəkənd", başqa bir adı isə "Qaraqanlı" olmuşdur (415, s. 84). İ.Şopen kəndin adını "Kyurakendli" kimi qeyd etmişdir (386, s. 583). Kənddə 1831-ci ildə 47, 1873-cü ildə 298, 1886-cı ildə 426, 1897-ci ildə 498, 1904-cü ildə 470, 1914-cü ildə 556, 1916-cı ildə 560 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 84–85, 152–153). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Kəndə xaricdən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir (415, s. 84). İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə ermənilərlə yanaşı, 1922-ci ildə 23 nəfər azərbaycanlı yaşamışdır (415, s. 152–153). Kənd sonradan ləğv edilmişdir.

**Küsüs** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Böyük Vedi yaşayış məntəqəsindən 22–24 km şimal-şərqdə, Əzizkəndin yaxınlığında yerləşirdi. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Küsüsüz" kimi (143, s. 172), Qafqazın 5 verstlik xəritəsində "Küsüz" formasında (348, s. 155) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 221, 1873-cü ildə 151, 1886-cı ildə 203, 1897-ci ildə 270, 1904-cü ildə 792, 1914-cü ildə 860, 1916-cı ildə 268 nəfər azərbaycanlı yaşamışdır (415, s. 88–89, 156–157). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin törətdikləri qırğınlar nəticəsində kəndi tərk etmək məcburiyyətində qalmış, əhali bir müddət İran ərazisində sığınacaq tapmışdır. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 46, 1926-cı ildə 62, 1931-ci ildə 70 (415, s. 88–89, 156–157), 1939-cu ildə 149 nəfər (85, s. 231) azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır.

# Q

**Qabaxlı** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Misxana (Marmarik) çayının yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 106). Kənddə 1873-cü ildə 94, 1886-cı ildə 138, 1897-ci ildə 154, 1908-ci ildə 181, 1914-cü ildə 431, 1916-cı ildə 190 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 16–17, 102–103). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycan-

lılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 87, 1931-ci ildə 128 nəfər azərbaycanlı yaşamışdır (415, s. 16–17, 102–103). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim "qabaq" türk etnoniminə (406, s. 200) mənsubluq bildirən "-lı" şəkilçisinin artırılması yolu ilə düzəldilib, "qabaq tayfasının yaşadığı kənd" anlamını ifadə edir.

**Qabaxlı** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Paşalı (Vayk) yaşayış məntəqəsindən 7–8 km cənub-qərbdə, Dərələyəz dağının ətəyində, Arpaçayın qolu olan Qabaxlı selavının sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 106). Kənddə 1831-ci ildə 33, 1873-cü ildə 201, 1886-cı ildə 270, 1897-ci ildə 273, 1904-cü ildə 235, 1914-cü ildə 258, 1916-cı ildə 364 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 103, 1926-cı ildə 90, 1931-ci ildə 108 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim "qabaq" türk tayfa adına (406, s. 200) mənsubluq bildirən "-lı" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. "Qabaq tayfasına mənsub yaşayış yeri" mənasını bildirir.

**Qafarlı** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Gərni çayının yaxınlığında yerləşirdi. Kənddə 1831-ci ildə 652, 1873-cü ildə 515, 1886-cı ildə 435, 1897-ci ildə 105, 1908-ci ildə 540, 1914-cü ildə 594, 1916-cı ildə 273 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim türk mənşəli qazaxların çobankərə tayfasından olan "qafarlı" etnonimindən (386, s. 631) əmələ gəlmişdir.

**Qalaça** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talin (Talın) rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Alagöz dağının ətəyində yerləşirdi. Kəndin sakinləri 1918–1920-ci illərdə erməni silahlı dəstələri tərəfindən kütləvi qırğınlara məruz qalmışdır. Kənd 1926-cı ildə ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "qala" sözünə kiçiltmə mənası bildirən "-ça" şəkilçisinin qoşulması ilə əmələ gəlib, "kiçik qala yaxınlığında olan kənd" mənasını verir.

**Qaladibi** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Dəvəgözü çayının yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 110). 1930-cu illərdə keçmiş Vedi (Ararat) rayonunun tabeliyində olmuşdur (415, s. 85–86). Kənddə 1873-cü ildə 155, 1886-cı ildə 221, 1897-ci ildə 300, 1904-cü ildə 242, 1914-cü ildə 399, 1916-cı ildə 428 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlə-

rinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 126, 1926-cı ildə 130, 1931-ci ildə 189 (415, s. 87, 157), 1939-cu ildə 387 nəfər azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd 1950-ci ildə ləğv olunmuşdur. Toponim iki sözün: "qala" və "bir yerin ən uzaq, ən dərin yeri" mənasında işlənən "dib" sözünün birləşməsindən ibarətdir (278, s. 66; 10, s. 90).

**Qalakənd** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə "Qalabəy" formasında qeyd edilmişdir (143, s. 60). 1898-ci ildə kənddə 40 bağ mövcud olmuşdur (85, s. 355). Hazırda xarabalıqdır. Toponim "qala" və "kənd" sözlərindən əmələ gəlib, "qala yaxınlığında olan kənd" mənasını ifadə edir.

**Qalayçı** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Abaran çayının sağ qolu üzərində yerləşirdi. Kəndin digər adı "Qalaça" kimi qeyd edilir (415, s. 4). Qafqazın 5 verstlik xəritəsində "Qalaça" formasında qeyd edilmişdir (348, s. 110). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Kənd 1950-ci illərdə ləğv edilmişdir. Toponim oğuzların bayandır tayfasından olan "qalayçı" etnonimi (238, s. 305) əsasında əmələ gəlmişdir.

**Qamışlı** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, Göyçə gölünün cənub-şərq sahillərində, keçmiş Martuni rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Aşağı Alçalı kəndindən 3 km şimal-şərqdə, Kötük çayın Göyçə gölə töküldüyü yerdən təxminən 1 km aralıda yerləşirdi. 1826–1828-ci illər aralığında baş vermiş Rusiya-İran müharibəsi zamanı kənd yerlə yeksan edilmişdir. Həmin illərdə dağıdılmış Qamışlının sağ qalan əhalisinin az qismi Aşağı Alçalıya, əksər hissəsi isə nisbətən təhlükəsiz olan Qanlı Allahverdi kəndinə pənah aparsalar da, XIX əsrin ortalarında kənd yenidən bərpa edilmişdir. Qamışlının 1873-cü ildə 93, 1898-ci ildə 161 nəfər azərbaycanlı əhalisi olmuşdur. XX əsrin əvvəllərində kənd ləğv edilmiş və yaşayış məntəqələri siyahısından silinmişdir. Toponim "qamış" bitki adına "-lı" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir.

**Qanalı** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Yelpin kəndinin şimal-şərqində yerləşirdi. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Kənd 1924-cü ildə ləğv edilmişdir (427, s. 782). Hazırda kənd xarabalığa çevrilib. Toponimin ilk komponenti "qana, qano" formasında olub, "arx, kanal" mənasını bildirir. (253, s. 122).

**Qapıcıq** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Oxçu çayının sağ sahilində yerləşirdi. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Kənddə 1926-cı ildə 12 nəfər azərbaycanlı yaşamışdır. Hazırda xarabalıqdır. Toponim türk dilində "dar dərənin yarıqlara bölünmüş yuxarı hissəsi", "dağ yamacında dar dərə" mənasında işlənən "qapı" (kapu) sözünə (339, s. 253) kiçiltmə mənası bildirən "-cıq" şəkilçisinin artırılması ilə düzəlib.

**Qarabaşlar** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan

rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafan şəhərindən 15 km şimal-şərqdə, Gığı çayının sol tərəfində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində "Qarabaş" formasında qeyd edilmişdir (348, s. 114). Kənddə 1897-ci ildə 60, 1922-ci ildə 52, 1926-cı ildə 39, 1931-ci ildə 49 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57, 134–135). XX əsrin 30-cu illərinin sonunda kənd ləğv edilmişdir. Toponim muğanlı türk tayfasından olan "qarabaş" etnoniminə (286, s. 72) "-lar" şəkilçisinin qoşulması əsasında əmələ gəlmişdir.

**Qaraboya** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. Araz çayının yaxınlığında yerləşirdi. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Ədirnə (1829) müqaviləsinə əsasən, ermənilərin Türkiyədən köçürülüb məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Kənd 1918-ci ildə ləğv edilmişdir. Toponim "qaraboya" nəsil adı əsasında əmələ gəlmişdir.

**Qaracalar** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Eçmiədzin) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 116). Kəndin başqa adı "Məmmədabad" olmuşdur (415, s. 82). Kənddə 1873-cü ildə 34, 1886-cı ildə 33, 1897-ci ildə 49, 1904-cü ildə 72, 1914-cü ildə 121 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 82–83, 152–153). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1931-ci ildə 18 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 152–153). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim qaracalar türk tayfasının adı (143, s. 30) əsasında yaranmışdır.

**Qaracalar** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Alagöz dağının cənubunda yerləşirdi. Erməni mənbələrində kəndin adı "Qalaçilar" kimi də göstərilir (415, s. 22). Qafqazın 5 verstlik xəritəsində (348, s. 116) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 104, 1873-cü ildə 272, 1886-cı ildə 279, 1897-ci ildə 381, 1908-ci ildə 360, 1914-cü ildə 381, 1916-cı ildə 526 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Ermənilər kəndə 1918–1920-ci illərdə Türkiyədən köçürülmüşdür. Kənd 1940-cı illərdə ləğv edilmişdir. Toponim qaracalar türk tayfasının adı (143, s. 30) əsasında yaranmışdır.

**Qaracalar (Məmmədabad)** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Kəndin başqa adı "Məmmədabad"dır. Vedi çayının və Dəvəli kəndinin yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 116). Kənddə 1897-ci ildə 33 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87). XX əsrin əvvəllərində – 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Hazırda xarabalıqdır. Toponim qaracalar türk tayfasının adı (143, s. 30) əsasında əmələ gəlmişdir.

**Qaraçorlu** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Yuva kəndinin yaxınlığında yerləşirdi. 1918-ci ildə azərbaycanlılar erməni

silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "qaraçorlu" türk etnonimi (386, s. 631) əsasında əmələ gəlmişdir.

**Qaragədik** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Gorus rayonunun mərkəzindən 27–28 km şimal-şərqdə, dağlıq və meşəlik sahədə yerləşirdi. Kənddə XIX əsrin axırlarında 151, XX əsrin əvvəllərində 108 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. (85, s. 165). Hazırda xarabalıqdır. Toponim "böyük, uca, hündür" mənasında işlənən "qara" sözü ilə "dağ belində batıq, aşırım" mənasında işlənən "gədik" sözünün (253, s. 126; 278, s. 55) birləşməsindən əmələ gəlmişdir.

**Qarakənd** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Şəhərcik kəndinin şərqində, kənddən 3 km aralı yerləşirdi (85, s. 139). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Kənd XIX əsrin əvvəllərində ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim türk dilində "böyük" mənasında işlənən "qara" sözünə "kənd" coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir.

**Qaraqala** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Misxana çayının sahilində, Tayçarıx kəndinin yaxınlığında yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 81) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 76, 1873-cü ildə 140, 1886-cı ildə 227, 1897-ci ildə 261, 1908-ci ildə 290, 1914-cü ildə 413, 1916-cı ildə 247 nəfər azərbaycanlı yaşamışdır (415, s. 16–17, 102–103). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 83, 1926-cı ildə 132, 1931-ci ildə 193 nəfər azərbaycanlı yaşamışdır (415, s. 16–17, 102–103). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim rəng bildirən "qara" sözü ilə "qala" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qaraqala** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonradan kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim rəng bildirən "qara" sözü ilə "qala" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qaraqayalı** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Kəndin adı erməni mənbəyində "Təzəkənd" formasında da göstərilir (415, s. 88). Kənddə 1897-ci ildə 55 nəfər azərbaycanlı yaşamışdır (415, s. 88–89). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponim "Qaraqaya" oroniminə "-lı" şəkilçisinin qoşulması yolu ilə nəsil adı əsasında əmələ gəlmişdir.

**Qaraqoyunlu** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. "İrəvan əyalətinin icmal

dəftəri"ndə qeyd edilib (143, s. 99). Kənddə 1831-ci ildə 236, 1873-cü ildə 355, 1886-cı ildə 474, 1897-ci ildə 456, 1908-ci ildə 432, 1914-cü ildə 475, 1916-cı ildə 509 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). 1918-ci ilin sonlarında azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Kənddə xaricdən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə qayıda bilmişdilər. Kənddə ermənilərlə yanaşı, 1922-ci ildə 178, 1926-cı ildə 228, 1931-ci ildə 246 nəfər azərbaycanlı yaşamışdır (415, s. 49, 129). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd ləğv edilmişdir. Toponim "qaraqoyunlu" türk etnonimi (245, s. 52; 232, s. 64–66; ASE, III c., s. 55) əsasında əmələ gəlmişdir.

**Qaraqoyunlu** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Gərnibasar çayının yaxınlığında yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 99), Qafqazın 5 verstlik xəritəsində (348, s. 117) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 376, 1886-cı ildə 464, 1897-ci ildə 389, 1904-cü ildə 551, 1914-cü ildə 606, 1916-cı ildə 589 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. (309, s. 216). İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 60, 1926-cı ildə 101, 1931-ci ildə 119 (415, s. 87, 157), 1939-cu ildə 321 nəfər azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd ləğv edilmişdir. Toponim qaraqoyunlu türk tayfasının adı (245, s. 52; 232 s. 64–66; ASE, III c., s. 55) əsasında əmələ gəlmişdir.

**Qaraquzey** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim qədim türk dilində "böyük, geniş" mənasında işlənən "qara" sözü ilə Azərbaycan dilində "gün düşməyən yer" mənasında işlənən "quzey" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qaralar** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Paşalı kəndinin yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 118). Kənddə 1831-ci ildə 49, 1873-cü ildə 84, 1886-cı ildə 101, 1897-ci ildə 113, 1904-cü ildə 108, 1914-cü ildə 118, 1916-cı ildə 148 nəfər azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. 1918-ci ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "qaralar" türk etnonimi (92, s. 24) əsasında əmələ gəlmişdir.

**Qarapapaq** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Kəndin başqa adı "Seyidkənd" olmuşdur (415, s. 50). Kənddə 1831-ci ildə 130, 1873-cü ildə 345, 1886-cı ildə 346, 1897-ci ildə 483, 1904-cü ildə 410, 1914-cü ildə

705, 1916-cı ildə 382 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz yurdlarına qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 99, 1926-cı ildə 131, 1931-ci ildə 118 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim qazaxlar tayfasından olan "qarapapaqlar" etnonimindən (386, s. 535–536) əmələ gəlmişdir.

**Qarasaqqal** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Alçalı kəndinin yaxınlığında yerləşirdi (415, s. 66). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Hazırda xarabalıqdır. Toponim "qarasaqqal" etnonimi (92, s. 20) əsasında düzəlmişdir.

**Qaratəpə** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Artaşat vilayətinin ərazisində mövcud olmuşdur. Ağhəmzəli (Marmaraşen) kəndinin yaxınlığında yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 99), Qafqazın 5 verstlik xəritəsində (348, s. 119) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 45, 1873-cü ildə 49, 1897-ci ildə 32, 1908-ci ildə 59, 1914-cü ildə 89, 1916-cı ildə 30, 1919-cu ildə 38 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128–129). 1919-cu ilin sonlarında kəndin sakinləri erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kəndi tərk etmişlər. Sonradan kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim türk dilində "böyük, geniş, hündür, şiş, uca" mənasında işlənən "qara" sözü ilə (278, s. 80–81; 94, s. 71) Azərbaycan dilində "kiçik dağ" mənasında işlənən "təpə" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qaratorpaq** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunun, indiki Tavuş vilayətinin ərazisində mövcud olmuşdur. Dilican şəhəri ilə Gölkənd (Ayqut) kəndi arasında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s. 119) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. 1926-cı ildə kənddə 23 nəfər azərbaycanlı yaşamışdır (415, s. 32–33). 1930-cu illərdə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "münbit, keyfiyyətli, yararlı" mənasında işlənən "qara" sözü ilə "torpaq" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qaratorpaq** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Vilayətin ərazisindəki Kolanlı kəndinin yaxınlığında, Cığın dərəsində, Qaratorpaq çayının sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 119). Kənddə 1873-cü ildə 138, 1886-cı ildə 15, 1931-ci ildə 64 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd ləğv olunmuşdur. Toponim rəng mənasında işlənən "qara" sözü ilə "torpaq" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qaravəng** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd

(Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Keşişkənd (Yeğeqnadzor) yaşayış məntəqəsinin yaxınlığında, Təkədonduran çayından axan qolun yaxınlığında yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 60), Qafqazın 5 verstlik xəritəsində (348, s. 115) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 80, 1873-cü ildə 187, 1886-cı ildə 205, 1897-ci ildə 260, 1904-cü ildə 414, 1914-cü ildə 455, 1916-cı ildə 300 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 160–161). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz ata-baba torpaqlarına qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 66 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 161). 1923–1925-ci illərdə kənd sakinləri – azərbaycanlılar erməni rəhbərliyi tərəfindən sıxışdırılmışdır. Onlar rayondakı Qabaxlı və Kotanlı kəndlərində məskunlaşmış, Qaravəng kəndi ləğv edilmişdir (211, s. 209). Hazırda xarabalıqdır. Toponim "böyük, əzamətli, yekə" mənasında işlənən "qara" sözü ilə qədim türk dilində "abidə, möhkəm abidə" mənasında işlənən "vəng" sözünün birləşməsindən əmələ gəlmişdir (211, s. 208, 210).

**Qarınburun** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Kotayk, Abovyan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Vilayətdəki Gərni kəndindən 16 km cənub-şərqdə, Gərni çayının yaxınlığında yerləşirdi. Kənddə 1897-ci ildə 99, 1914-cü ildə 102, 1916-cı ildə 98 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Kənd 1920-ci ildə ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "kiçik arx, kiçik su yolu" mənasında işlənən "qarnım" sözü (253, s. 122) əsasında formalaşan "qarın" sözü ilə Azərbaycan dilində "qurunun dənizin içinə girən dağlıq, qayalıq hissəsi" (9, s. 330), "irəli çıxan və ya suya doğru uzanan quru" (253, s. 99) mənasında işlənən "burun" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qarqar (Qerqer)** – Kənd İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Talin (Talın) rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. 1920-ci ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim yunan tarixçisi Strabonun "Coğrafiya" əsərində adı çəkilən "qarqar" etnonimi (377, s. 477) əsasında əmələ gəlmişdir. Mənbələrdə ən qədim türk tayfalarından biri olan (286, s. 29–30; 168, s. 78–83) qarqar tayfasının adı "qerqer", "herher", "xarxar" formalarında qeyd edilir.

**Qarnıyarıq** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Hrazdan şəhərinin şimal-qərbində yerləşirdi. "İrəvan əyalətini icmal dəftəri"ndə (143, s. 84), Qafqazın 5 verstlik xəritəsində (348, s. 122) qeyd edilmişdir. Kəndin digər adı "Karvansara" olmuşdur (415, s. 18; 427, s. 51). Köhnə Karvansaranın divarları indi də durur. Kənddə tarixən yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinə əsasən, ermənilərin kəndə köçürülüb məskunlaşdırılmasından sonra azərbaycanlılar tədricən kəndi tərk etmişlər (386, s. 591–594). Ermənilərlə yanaşı, 1897-ci ildə kənddə 50 nəfər azərbaycanlı yaşamışdır (415, s. 18–19). 1905–1906-cı illərdə erməni silahlı dəstələri kənddə qırğınlar törətmişlər. Hrazdan şəhərinin genişləndirilməsi nəticəsində kənd 1960-cı ildə ləğv edilərək şəhərə birləşdirilmişdir. Toponim "kiçik arx, kiçik su yolu" mənasında işlənən "qarnım" sözü (253, s. 122) əsasında formalaşan "qarın" sözü ilə, türk dilində "yer səthində olan çay", "yarılmış yer", "dərə" mənasında işlənən "yarıq" sözünün (339, s. 179) birləşməsindən əmələ gəlmişdir.

**Qatar** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Kənd sıra ilə düzülmüş qayaların ətəyində salınmışdı. Kənddə 1831-ci ildə 12, 1873-cü ildə 132, 1886-cı ildə 250, 1904-cü ildə 380, 1914-cü ildə 139 nəfər azərbaycanlı (415, s. 134–135), 1916-cı ildə 5124 nəfər azərbaycanlı və erməni (415, s. 134–135) yaşamışdır. 1906-cı ilin iyulunda erməni silahlı dəstələri kənddə qırğınlar törətmişlər (224, s. 119–125). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə dönə bilmişdilər. XX əsrin əvvəllərində kənd Qafan şəhəri ilə birləşdirilərək ləğv edilmişdir. Toponim Azərbaycan dilində "zəncirvari qaya, təpə" mənasında işlənən "qatar" sözü əsasında əmələ gələn orotoponimdir.

**Qatırabad** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. Araz çayının sol sahilində yerləşirdi. Kənd 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində xaraba qalmışdır. (415, s. 62–63). Toponim türk dilində "sıldırım yarğanlı yer" mənasında işlənən "kadır" sözü ilə (337, s. 115) "abad" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qayalı** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Vilayət ərazisindəki Paşalı kəndinin yaxınlığında, Arpaçayın sahilində yerləşirdi. "İrəvan əyalətinin icmal dəfəri"ndə qeyd edilmişdir (143, s. 60). Kənddə 1831-ci ildə 40, 1873-cü ildə 130, 1886-cı ildə 174, 1897-ci ildə 223, 1904-cü ildə 240, 1914-cü ildə 264, 1916-cı ildə 292 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır (415, s. 59). Azərbaycanlılar 1923–1924-cü illərdə sıxışdırılaraq tarixi-etnik torpaqlarından çıxarılmış və kənd xarabalığa çevrilmişdir. Hazırda xarabalıqdır. Toponim "dağ, daş" mənasında işlənən "qaya" sözünə çoxluq bildirən "-lı" şəkilçisinin artırılması ilə düzəldilmişdir.

**Qılıclı** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Qılıcldərə selavının sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s. 133) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 52, 1886-cı ildə 68, 1897-ci ildə 117, 1904-cü ildə 117, 1914-cü ildə 128, 1916-cı ildə 127 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlara məruz qoyulmaqla kənddən qovulmuşdur. 1920-ci ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "qılıclı" türk etnonimi (286, s. 63–64) əsasında əmələ gəlmişdir.

**Qıllıçarıq** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indiki Tavuş vilayətində yaşayış məntəqəsi. Ləmbəli kəndinin yaxınlığında yerləşirdi. İndiki xaraba kənddir. Toponim oğuz tayfalarından birinin "çarıq" etnonimi (399, s. 58) əsasında formalaşmışdır.

**Qırğılı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzası yaradıldıqdan sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə tarixən azərbaycanlılar yaşamışlar. Mənbələrdə 1914-cü ildə

kənddə 191 nəfər azərbaycanlının yaşadığı da göstərilmişdir. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Sonra kəndə ermənilər yerləşdirilmişdir. Toponim "qırğılı" türk etnonimi (31, s. 25; 182, s. 297; 92, s. 12) əsasında yaranmışdır. Kənd sonralar ləğv edilmişdir. Hazırda xarabalıqdır.

**Qısır xaraba** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Paşalı yaşayış məntəqəsindən 15–17 km şərqdə, rayondakı Terp kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1886-cı ildə 86, 1897-ci ildə 136, 1904-cü ildə 152, 1914-cü ildə 167, 1916-cı ildə 187 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 4, 1926-cı ildə 18 nəfər azərbaycanlı yaşamışdır (415, s. 91, 159). 1928–1929-cu illərdə azərbaycanlılar ermənilər tərəfindən sıxışdırılaraq kənddən çıxarılmışdır. Kənd 1930-cu ildə ləğv edilmişdir. Toponim Azərbaycan dilində "otsuz, bitkisi olmayan torpaq" mənasında işlənən "qısır" sözü ilə "dağılmış, viran edilmiş" mənasında işlənən "xaraba" sözü əsasında əmələ gəlmişdir.

**Qıvraq** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Sisiandan 21 km cənub-qərbdə, Sofulu (Nijdeh) kəndinin yaxınlığında yerləşirdi. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 183), Qafqazın 5 verstlik xəritəsində (348, s. 131) qeyd edilmişdir. Kənddə 1886-cı ildə 69, 1897-ci ildə 80, 1908-ci ildə 148, 1914-cü ildə 220 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–80, 146–147). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 77, 1926-cı ildə 122, 1931-ci ildə 111 nəfər azərbaycanlı yaşamışdır (415, s. 80, 147). Kənd XX əsrin 30-cu illərinin sonunda yaşayış məntəqəsi kimi ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim türk dilində "çöl", "dağ", "zirvə" mənasında işlənən "kır" sözü ilə (339, s. 327) Altay dillərində "bərk", "möhkəm" mənasında işlənən "qax" sözünün (235, s. 89) birləşməsindən əmələ gəlmişdir.

**Qızılxaraba** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Kəndin adı erməni mənbələrində "Qızılabad", "Tulunəbi" kimi də göstərilir (415, s. 22). "İrəvan əyalətinin icmal dəftəri"ndə "Qızılviran" (143, s. 97), Qafqazın 5 verstlik xəritəsində "Qızılxaraba" kimi (348, s. 133) qeyd edilmişdir. Kənddə 1897-ci ildə 102, 1908-ci ildə 56, 1914-cü ildə 60, 1916-cı ildə 38 nəfər azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "qırmızı" mənasında (torpağın suxurlarının rənginə görə) işlənən "qızıl" sözü ilə "dağıdılmış" mənasında işlənən "xaraba" sözündən əmələ gəlmişdir. "Qırmızı" – "torpaqda tikilmiş binaların qalıqları olan xarabalıq yaxınlığındakı kənd" mənasını verir.

**Qızılxaraba** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Əyricə kəndinin yaxınlığında, Arxaşan və Əbdülasar dağları arasında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 133).

Kənddə 1873-cü ildə 188, 1886-cı ildə 136, 1897-ci ildə 125, 1908-ci ildə 215, 1914-cü ildə 421, 1916-cı ildə 249 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 66–67, 140–141). 1918-ci ilin mart ayında kəndin sakinləri erməni silahlı birləşmələri tərəfindən vəhşicəsinə qovulmuşdur. Kənddə 1930-cu illərə kimi heç kim yaşamamışdır. 1930-cu ildən sonra kəndə ermənilər köçürülmüşdür (415, s. 64). Toponim Azərbaycan dilində "qırmızı" mənasında (torpağın suxurlarının rənginə görə) işlənən "qızıl" sözü ilə "dağıdılmış" mənasında işlənən "xaraba" sözündən əmələ gəlmişdir. "Qırmızı" – "torpaqda tikilmiş binaların qalıqları olan xarabalıq yaxınlığındakı kənd" mənasını verir. Hazırda kənd ləğv edilmişdir.

**Qızılqışlaq** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Vilayətdəki Qovuşuq kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1831-ci ildə 85 nəfər, 1897-ci ildə 44 nəfər azərbaycanlı yaşamışdır (415, s. 92–93, 163). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "qırmızı" mənasında (torpağın suxurlarının rənginə görə) işlənən "qızıl" sözü ilə, "qışda mal-qara saxlanan yer" mənasında işlənən "qışlaq" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qızqala** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Ellər (Kotayk, Abovyan) yaşayış məntəqəsindən 26 km şimal-şərqdə yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Qızqala" kimi (143, s. 81), Qafqazın 5 verstlik xəritəsində "Qızqalası kurqan" formasında (348, s. 153) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 149, 1886-cı ildə 210, 1897-ci ildə 237, 1904-cü ildə 297, 1914-cü ildə 345, 1916-cı ildə 380 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 44–45, 124–125). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Kənddə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir (415, s. 44). İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənddə 1922-ci ildə 4 nəfər azərbaycanlı yaşamışdır (415, s. 125). 1923–1925-ci illərdə onlar da kənddən qovulmuşdur. Kənd 1960-cı illərdə ləğv edilmişdir. Toponim oğuz etnoniminin fonetik forması olan "qız" (ğuz/ğız) tayfa adı ilə (122, s. 27; 238, s. 48) "qala" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qisar Xalac** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. 1897-ci ildə kənddə 10 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Kəndin xarabalıqları indiki Xələc kəndinin ərazisindədir. Türk dilində "düzənlikdə qala, möhkəmləndirilmiş şəhər" mənasında işlənən "qisar" (hisar) sözü ilə (339, s. 143, 593) "xalac" türk tayfa adı (228, s. 35; 245, s. 42–43; 226, s. 50–51) əsasında yaranmışdır.

**Qotur** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Vilayət mərkəzindən 42 km şimal-qərbdə, Abaran çayının sağ qolu üzərində, dəniz səviyyəsindən 1720 m hündürlükdə yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s. 142) qeyd edilmişdir (348, s. 142). Kəndin digər adı "Qoytur" olmuşdur (415, s. 4). Kənddə əvvəlcə azərbaycanlılar yaşamışlar. Ədirnə (1829) müqaviləsinə əsasən, İrəvan xanlığının ərazisində ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kəndin aborigen sakinləri olan azərbaycanlılar Türkiyəyə köç etmişlər. 1829–1840-cı illərdə İran və Türkiyədən köçürülən ermənilər kənddə yerləşdirilmişdir (415, s. 96–100). Kənddə ermənilərlə yanaşı, 1873-cü ildə 72, 1886-cı ildə 80, 1897-ci ildə 100 nəfər azər-

baycanlı yaşamışdır (415, s. 45, 96–97). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Kəndin adı 1931-ci ildən sonrakı mənbələrdə çəkilmir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "bitkisiz, otsuz yer" mənasında işlənən "qotur" sözü (339, s. 296) əsasında əmələ gəlmişdir.

**Qoşabulaq** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 143). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "cüt, yanaşı, iki" mənasında işlənən "qoşa" sözü ilə "bulaq" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qoşabulaq** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qarakilsə kəndindən 22–24 km şimal-qərbdə, Bazarçay kəndinin yaxınlığında, Bazarçay çayının sağ tərəfində yerləşirdi. Kənd XX əsrin əvvəllərində ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "cüt, yanaşı, iki" mənasında işlənən "qoşa" sözü ilə "bulaq" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qoşabulaq** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 143). Kənddə 1873-cü ildə 101, 1886-cı ildə 152, 1897-ci ildə 173, 1908-ci ildə 211, 1914-cü ildə 214, 1916-cı ildə 211 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır (309, s. 221). Toponim Azərbaycan dilində "cüt, yanaşı, iki" mənasında işlənən "qoşa" sözü ilə "bulaq" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qoytul** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Əştərəkdən 13 km şimal-qərbdə yerləşirdi. Kəndin digər adı "Qoytur"dur (415, s. 22). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 138). Kəndin adı "Quytul" formasında da qeyd edilib (309, s. 221). Kəndin ərazisində III–V əsrlərə aid azərbaycanlıların həyatı ilə bağlı tarixi abidələr mövcuddur. Kənddə 1831-ci ildə 28, 1873-cü ildə 203, 1886-cı ildə 273, 1897-ci ildə 351, 1908-ci ildə 210, 1914-cü ildə 213, 1916-cı ildə 390 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 22–23, 106–107). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Kənddə Türkiyədən köçürülüb gətirilən ermənilər yerləşdirilmişlər (309, s. 221). İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndi tərk edən azərbaycanlılardan sağ qalanlar öz doğma ocaqlarına dönə bilmişdilər. Kənddə ermənilərlə yanaşı, 1922-ci ildə 15 nəfər azərbaycanlı yaşamışdır (415, s. 106–107). 1924–1925-ci illərdə onlar yenidən tarixi-etnik torpaqlarından qovulmuşdur. Kənd sonradan yaşayış məntəqəsi kimi siyahıdan çıxarılmışdır.

**Qozluca** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Keşişkənd (Yeğeqnadzor) yaşayış məntəqəsindən 3–5 km şərqdə, Qoytul kəndinin yaxınlığında, Ulqyurd çayının sahilində yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 57), Qafqazın 5 verstlik xəritəsində (348, s. 138) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 60, 1873-cü ildə 342, 1886-cı ildə 549, 1897-ci ildə 630, 1904-cü ildə

647, 1914-cü ildə 711, 1916-cı ildə 791 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 162–163). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar doğma evlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 92 nəfər azərbaycanlı yaşamışdır (415, s. 162–163). 1923–1925-ci illərdə azərbaycanlılar sıxışdırılaraq kənddən çıxarıldıqdan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "qoz" bitki adına "-lu" və sifətin çoxaltma dərəcəsinin əlamətini bildirən "-ca" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir.

**Qurbağalı** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Ellər (Abovyan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 149). Kəndin digər adları "Qurbakali", "Qurbağalı ulya" olmuşdur (415, s. 44). Kənddə 1873-cü ildə 118, 1886-cı ildə 185, 1897-ci ildə 332, 1904-cü ildə 203, 1914-cü ildə 415 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 44–45, 124–125). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır.

**Qurbankəsilən** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Vilayətdəki Qoytul kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1873-cü ildə 163, 1886-cı ildə 227, 1897-ci ildə 325, 1904-cü ildə 427, 1914-cü ildə 470, 1916-cı ildə 417 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 162–163). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Kənd sakinlərindən sağ qalanlar yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra öz evlərinə dönə bilmişdilər. Kənddə 1922-ci ildə 48 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 162–163). 1923–1924-cü illərdə onlar yenidən ata-baba yurdlarından qovulmuş və kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim dini mənada işlənən "qurban" sözü ilə "kəsilən" feili sifətin birləşməsindən əmələ gəlmişdir.

**Qurdqulaq** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğaqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Keşişkənd (Yeğaqnadzor) yaşayış məntəqəsindən 4–5 km məsafədə, Arpaçayın sol qolu olan Qurdqulaq çayının sahilində yerləşirdi. Kənddə 1873-cü ildə 336, 1886-cı ildə 379, 1897-ci ildə 470, 1904-cü ildə 690, 1914-cü ildə 760, 1916-cı ildə 581 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 162–163). 1918-ci ildə kəndin sakinləri erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kəndi tərk etmişlər. Yalnız indiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra onlar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 64 nəfər azərbaycanlı, 248 erməni, 1931-ci ildə 66 nəfər azərbaycanlı, 301 erməni yaşamışdır (415, s. 92–93, 162–163). Ermənilər kəndə 1923–1925-ci illərdə yerləşdirilmişlər. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Toponim "qurt //qurd" türk etnoniminə (286, s. 61) "dərə, təpələr arasında düzənlik, təpə, yüksəklik" mənasında işlənən "qulaq" (kulak) sözünün (339, s. 310–311) birləşməsindən əmələ gəlmişdir. "Qurd tayfasına mənsub dərə, təpə yaxınlığındakı kənd" mənasını ifadə edir. Hazırda kənd yaşayış məntəqəsi kimi siyahıdan silinmişdir.

**Quşçu** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. 1590-cı ildə tərtib edilmiş "İrəvan

əyalətinin müfəssəl dəftəri"ndə "Quşçu məzrəsi" (143, s. 174), Qafqazın 5 verstlik xəritəsində "Quşi" (348, s. 152) formasında qeyd edilmişdir. 1931-ci ildən sonra mənbələrdə kəndin adına rast gəlinmir. 1940-cı illərdə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim hunların "quşçu" tayfa adına (267, s. 397; 245, s. 38–39; 148, s. 18) "-çu" şəkilçisinin qoşulması yolu ilə yaranmışdır.

**Quşçu dərəsi (Quşçu)** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Göyçə gölünün şimal-şərqində, Basarkeçər kəndindən 27 km şimal-qərbdə yerləşirdi. 1728-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"ndə Məzrə nahiyəsinə daxil olduğu göstərilir (143, s. 16). 1826–1828-ci illərdə baş vermiş Rusiya-İran müharibəsi zamanı Quşçu kəndi də darmadağın edilmişdir. İ.Şopenin tərtib etdiyi kameral siyahıyalmaya əsasən, kənd "adları unudulmuş ölü kəndlər" qrafasına salınmışdır (386, s. 158). Quşçu kəndinin əzəli sahiblərinin sonrakı taleyi barədə dürüst məlumat yoxdur. Yalnız kəndin xarabalığından 200–300 metr kənarda yerləşən qədim məzarlıqdakı qəbirüstü kitabələrin qalıqlarına əsasən, oğuz türklərinin burada məskunluğunun 1000–1500 illik bir dövrü əhatə etdiyi məlum olur. Quşçu kəndinin ocaq yerləri Pəmbək kəndindən 4–5 km şimalda, dağlarla əhatələnmiş dərə içərisindədir (249 a, 313).

**Quşçulu** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafan şəhərindən 12 km şimal-şərqdə, Oxçu çayının sağ sahilində, Xustup dağının cənub-şərq ətəyində yerləşirdi. Kənddə 1831-ci ildə 38, 1873-cü ildə 149, 1886-cı ildə 221, 1897-ci ildə 144, 1904-cü ildə 400, 1914-cü ildə 93 nəfər azərbaycanlı yaşamışdır (415, s. 58–59, 136–137). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 109, 1926-cı ildə 126, 1931-ci ildə 50 nəfər azərbaycanlı yaşamışdır (415, s. 58–59, 136–137). 1950-ci ildə kənd ləğv edilmişdir. Toponim qədim türk tayfası olan "quşçu" etnonimi (245, s. 39) ilə "-lu" mənsubluq bildirən şəkilçinin birləşməsi əsasında əmələ gəlmişdir. "Quşçu tayfasına mənsub kənd" deməkdir.

# L

**Leyliköçən (Leyliqaçan)** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Culçayın sağ qolu olan Köçbəkçayın yaxınlığında yerləşirdi. Kəndin adı erməni mənbələrində "Leyliqaçan" kimi də göstərilir (415, s. 90). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 159). Kənddə 1873-cü ildə 139, 1886-cı ildə 153, 1897-ci ildə 352, 1904-cü ildə 384, 1914-cü ildə 422, 1916-cı ildə 420 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. 1920-ci ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "Leyli" şəxs adı ilə "köçən" feili sifətinin birləşməsindən əmələ gəlmişdir. "Leylinin köçünün düşdüyü yer" mənasını bildirir.

**Ləlvər** – Kənd Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunun, indiki Tavuş vilayətinin ərazisində mövcud olmuşdur. Barana yaşayış məntəqəsindən 28 km şimal-qərbdə, Tona (Debed) çayının sahilində, Ləmbəli kəndinin yaxınlığında yerləşirdi. Sonralar Ləmbəli kəndi ilə birləşdirilərək ləğv edilmişdir. Ləlvər dağının ətəyində yerləşdiyi

üçün kənd "Ləlvar" adlandırılmışdır. Toponim "ləl" və "möhkəmləndirilmiş kənd, qala, bənd" mənasında işlənən "var" sözündən (339, s. 113) əmələ gəlmişdir.

# M

**Mac** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzası yaradıldıqdan sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə 1897-ci ildə 55, 1904-cü ildə 87, 1914-cü ildə 458 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 28–29, 114–115). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur (309, s. 205). Bundan sonra kənddə ermənilər yerləşdirilmişlər. Toponim türk dilində "təpə" mənasında işlənən "majalık", "meje" sözlərinin (339, s. 357, 367) kökünü əks etdirən "mac" sözü əsasında formalaşmışdır. 1930-cu illərdə kənd Yerisatumb erməni kəndi ilə birləşdirilərək ləğv edilmişdir.

**Mangüz (Məngüs)** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Ellər (Abovyan) yaşayış məntəqəsindən 12 km cənub-şərqdə yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 83), Qafqazın 5 verstlik xəritəsində (348, s. 167) qeyd edilmişdir. Kəndin adı "Mangus", "Mangyok" kimi də göstərilib (415, s. 16). Kəndin köklü sakinləri azərbaycanlılar olmuşlar. Kənddə 1831-ci ildə 60, 1873-cü ildə 316, 1886-cı ildə 383, 1897-ci ildə 450, 1904-cü ildə 420, 1914-cü ildə 639, 1916-cı ildə 621 nəfər (415, s. 46–47, 126–127) azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur (309, s. 216). İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar öz evlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 145, 1926-cı ildə 55, 1931-ci ildə 77 nəfər azərbaycanlı yaşamışdır (415, s. 46–47, 126–127). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd ləğv edilmişdir. Toponim qədim türk dilində "möhkəm abidə, yazılı daş abidə, əbədi abidə" mənasında işlənən "məngü" sözünə (359, IV (2), s. 341) "-z" şəkilçisinin (topoformant) qoşulması əsasında əmələ gəlmişdir.

**Maratuz** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Culçayın sağ qolu olan Kilsəbulaq çayının yaxınlığında yerləşirdi. Kəndin başqa adı "Məratuk" olmuşdur (415, s. 90). "İrəvan əyalətinin icmal dəftəri"ndə "Məradik" kimi (143, s. 57), Qafqazın 5 verstlik xəritəsində "Maratuz" formasında (348, s. 168) qeyd edilmişdir. Kəndin adı mənbələrdə "Maraduz qışlağı" formasında da göstərilmişdir (386, s. 619–620). Kənddə 1831-ci ildə 32, 1873-cü ildə 166, 1886-cı ildə 220, 1897-ci ildə 242, 1904-cü ildə 284, 1914-cü ildə 273, 1916-cı ildə 321 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim türk dilində "təpə" mənasında işlənən "mara" sözü ilə (359, IV (2), s. 20–25) türk dilində "şoran", "şoranlıq" mənasında işlənən "tuz/duz" sözünün (339, s. 562) birləşməsindən əmələ gəlmişdir.

**Məmmədrəsul** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat)

rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Dəvəli kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1897-ci ildə 73 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponim şəxs adı əsasında yaranmışdır.

**Məmmədrza qışlağı** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Kəndin adı rəsmi sənədlərdə "Məmərza" formasında qeyd edilmişdir. Arpaçayın sağ sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s. 166) qeyd edilmişdir. Kəndin adı "Məmərza kənd" kimi qeyd edilir (415, s. 90). Kənddə 1873-cü ildə 67, 1886-cı ildə 52,1897-ci ildə 96, 1904-cü ildə 104, 1914-cü ildə 114, 1916-cı ildə 106 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar doğma yurdlarına qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 36, 1926-cı ildə 77, 1931-ci ildə 104 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "Məmmədrza" ("Məmərza") şəxs adı ilə "qışlaq" sözü əsasında əmələ gəlmişdir.

**Məngük** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. 1937–1948-ci illərdə keçmiş Qarabağlar rayonunun tərkibində yerləşib. Kənd həm də "Mangük" adlandırılmışdır (415, s. 86). Qırxbulaq çayının yuxarı axarında yerləşirdi. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Mənkik" (143, s. 173), 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə "Mənkük" (143, s. 106), Qafqazın 5 verstlik xəritəsində "Mangyuk" («Мангюк») kimi (348, s. 167) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 100, 1886-cı ildə 259, 1897-ci ildə 291, 1904-cü ildə 163, 1914-cü ildə 180, 1916-cı ildə 379 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişdilər. Kənddə 1922-ci ildə 86, 1926-cı ildə 94, 1931-ci ildə 135 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edildikdən sonra kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim qədim türk dilində "möhkəm abidə, yazılı daş abidə, əbədi abidə" mənasında işlənən "məngü" sözünə (359, IV (2), s. 341) "-z" şəkilçisinin (topoformant) qoşulması əsasında əmələ gəlmişdir.

**Mərzqat** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Meğri qəsəbəsindən 12–14 km cənub-şərqdə, Araz çayının sol sahilində, Aldərə kəndinin yaxınlığında yerləşirdi. Kəndin digər adı "Mərzkit" olmuşdur (415, s. 68). Kənddə 1831-ci ildə 54, 1873-cü ildə 255, 1886-cı ildə 301, 1897-ci ildə 281, 1904-cü ildə 766, 1914-cü ildə 751 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 68–69, 142–143). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar 1923–1924-cü

illərdə tarixi-etnik torpaqlarına qayıda bilmişdilər. Kənddə 1926-cı ildə 34 nəfər, 1931-ci ildə 29 nəfər azərbaycanlı yaşamışdır (415, s. 68–69, 142–143). Kollektivləşmə ilə bağlı kəndin sakinləri Aldərə kəndinə köçürüldükdən sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim fars dilində "tarla, bağ, bostan və s. sahəni bir-birindən ayıran xətt, sərhəd" mənasında işlənən "mərz" sözü ilə (11, s. 299) türk dilində "yaşayış məntəqəsi, ev, kənd, şəhər, qala" mənasında işlənən "kat" (qat) (339, s. 263) sözünün birləşməsindən əmələ gəlmişdir.

**Məşədilər** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Həsənkənd və Qoytul kəndləri arasında yerləşirdi. Kənddə 1922-ci ildə 15 nəfər azərbaycanlı yaşamışdır (415, s. 162–163). 1923-cü illərdə onlar erməni daşnakları tərəfindən sıxışdırılaraq kənddən çıxarılmış və kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "məşədilər" tayfa adı əsasında əmələ gəlmişdir.

**Molla Əhməd** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Qəmərli (Artaşat) yaşayış məntəqəsindən 30 km şimal-şərqdə, Molla Əhməd bulağının ətəyində, Böyük Gilanlar kəndinin yaxınlığında yerləşirdi. 1930-cu illərdə keçmiş Vedi (Ararat) rayonunun tərkibinə daxil idi (415, s. 86). Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 176). Kənddə 1873-cü ildə 28, 1886-cı ildə 34, 1897-ci ildə 65, 1904-cü ildə 51, 1914-cü ildə 88, 1916-cı ildə 71 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişdilər. Kənddə 1922-ci ildə 25, 1926-cı ildə 37, 1931-ci ildə 10 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). 1930-cu illərin sonunda kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim şəxs adı əsasında əmələ gəlmişdir.

**Molla Qasım** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Abaran çayının yaxınlığında yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 110) qeyd edilmişdir. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Kənd 1931-ci ildən sonra ləğv edilmişdir. Toponim şəxs adı əsasında əmələ gəlmişdir.

**Mollalı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafan şəhərindən 16 km şimal-şərqdə, Gığı çayının sağ sahilində yerləşirdi. Kənddə 1914-cü ildə 156 nəfər, 1897-ci ildə 34 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 45, 1926-cı ildə 38, 1931-ci ildə 46 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137). Kənd 1940-cı illərdə ləğv edilmişdir. Toponim qaraçorlu türk tayfasının əliyanlı tirəsinə mənsub olan "mollalı" etnonimindən (286, s. 73) əmələ gəlmişdir.

**Mollalı** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Martuni şəhərindən 19 kilometr şərqdə yerləşirdi. Şimaldan Alçalı, şimal-şərqdən Qamışlı, şərqdən Çamırlı, cənub-şərqdən Gödəkbulaq və Yuxarı Zağalı, qərbdən Aşağı Gözəldərə və Gözəldərə, cənub-

dan isə Dərələyəz mahalının Sallı kəndləri ilə həmsərhəd idi. XIV əsrin əvvəllərindən başlayaraq oğuz türklərinin Göyçədəki yurd yerlərindən biri olan və bu kənd onu binələşdirən tayfanın ağsaqqalının şərəfinə əvvəlcə "Yekəalılar", sonradan isə rəsmən bu kəndin bəyi olmuş Dünyamalı bəyin atası Molla Alı Sultanın şərəfinə "Mollalı" adlandırılıb. 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə kənd məhz "Yekəalıca" kimi təqdim olunub (294 a, s. 316). 1873-cü ilin rəsmi statistikasında Mollalı kəndinin 232 nəfər türk sakini olduğu göstərilir. 1914-cü ildə Mollalıda əhalinin sayı 278 nəfərə (73 təsərrüfat) çatmışdı. 1919-cu ildə Göyçədə həyata keçirilən soyqırımı zamanı Mollalı kəndi də viran qoyulmuşdur. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra azərbaycanlılar doğma yurdlarına qayıtmışdılar. Həmin vaxt kənddə 50-yə yaxın erməni ailəsi yerləşdirilmişdi. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, 1949-cu ildə 58 azərbaycanlı ailəsi (315 nəfər) kənddən zorla Azərbaycana deportasiya edilmişdir (294 a, s. 376). Kəndin erməni əhalisi Vedi rayonundakı boşalmış azərbaycanlı kəndlərinə köçürüldükdən sonra kənd 1950-ci ildə ləğv edilmişdir.

**Moz** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Arpaçayın cənub qolu boyu Keşişkənddən Soylana və İstisuya gedən yolun üstündə yerləşirdi (211, s. 220). 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə "Mor kimi" (143, s. 59) qeyd edilmişdir. Toponimdə "r~z" səsdəyişməsi baş vermişdir ki, bu da Azərbaycan dilində qanunauyğun haldır (2, s. 234–248; 211, s. 221). Erməni mənbələrində "Mozrov" formasında da qeyd edilib (415, s. 92). Kənddə 1873-cü ildə 80, 1886-cı ildə 86, 1897-ci ildə 145, 1904-cü ildə 161, 1914-cü ildə 177, 1916-cı ildə 150 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 162–163). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. 1920-ci ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim qədim türk dilində "ağ, çal, boz, bozumtul" mənasında işlənən "moz" sözündən (299, s. 346) əmələ gəlmişdir.

**Muğancıq** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Vağarşabad) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. Üçkilsə yaşayış məntəqəsindən 5 km məsafədə yerləşirdi. Kəndin adı sonralar "Muğan" kimi rəsmiləşdirilmişdir (266, s. 228). 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 169), 1728-ci il mənbələrində "Muğanlı" kimi (143, s. 47), Qafqazın 5 verstlik xəritəsində "Muğancıq" kimi (348, s. 178) qeyd edilmişdir. 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponim "muğanlı" türk etnonimi (386, s. 535–537; ASE, VII c., B., 1983, s. 85) əsasında formalaşmışdır.

**Mumuxan** – Kənd Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, sonralar Amasiya rayonunun, indiki Şirak vilayətinin ərazisində mövcud olmuşdur. Amasiya yaşayış məntəqəsindən 10 km şimal-qərbdə yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 179). Erməni müəlliflərinin əsərlərində kəndin sakinlərinin qarapapaqlar olduğu göstərilir (415, s. 20). Kənddə 1886-cı ildə 127, 1897-ci ildə 156, 1908-ci ildə 153, 1914-cü ildə 229 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevralında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhali Qars vilayətinə köç etmişdir. 1921-ci il Qars müqaviləsindən sonra əhalinin bir qismi kəndə qayıtmışdır. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra – 1921-ci ildə Qars müqaviləsinə əsasən, kənd Ağbaba

nahiyəsinin tərkibində Aleksandropol qəzasına daxil edilmişdir. Kənddə Türkiyədən gələn ermənilər yerləşdirilmişdir. 1931-ci ilin siyahıyaalmasında kənddə 173 erməni və 2 azərbaycanlının yaşadığı göstərilir (415, s. 104–105). Toponim türk mənşəli "Mamak – Mamqun" şəxs adı əsasında formalaşmışdır. "Mamak" şəxs adı "Kitabi-Dədə Qorqud" dastanlarında "Dəmir donlu Mumaq" kimi xatırlanır (157, s. 117). Kənd 1930-cu illərdə ləğv edilmişdir. Hazırda xarabalıqdır.

**Musluqlu** – Kənd Qars vilayətinin Qars qəzasının Ağbaba nəhiyəsində, keçmiş Amasiya rayonunun, indiki Şirak vilayətinin ərazisində mövcud olmuşdur. Amasiya yaşayış məntəqəsindən 17 km şimal-qərbdə yerləşirdi. Erməni mənbələrində kənd sakinlərinin qarapapaqlar olduğu göstərilir (415, s. 20). Kənddə 1886-cı ildə 150, 1897-ci ildə 199, 1908-ci ildə 223, 1914-cü ildə 317 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevralında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmışdır. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra – 1921-ci ildə Qars müqaviləsinə əsasən, kənd Ağbaba nahiyəsinin tərkibində Aleksandropol qəzasına daxil edilmiş və əhalinin bir qismi kəndə qayıtmışdır. Kənddə 1922-ci ildə 57 nəfər, 1926-cı ildə 82 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). Toponim türk dilində "kran, kiçik turba kranı" mənasında işlənən "musluk" sözünə (277, II, s. 264) "-lu" şəkilçisinin qoşulması əsasında düzəlmişdir. Kənd 1930-cu illərdə ləğv edilmişdir. Hazırda xarabalıqdır.

**Mülk** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri (Mığrı) rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Meğri yaşayış məntəqəsindən 16–18 km şimal-qərbdə yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 181). Kənddə 1914-cü ildə 90 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 142–143). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 56, 1926-cı ildə 48, 1931-ci ildə 78 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 68–69, 142–143). Kollektivləşmə ilə bağlı XX əsrin 30-cu illərinin axırlarında kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim ərəb dilində "mülkiyyət, mal-mülk, malikanə", "torpaq sahəsi, malikanə, daşınmaz əmlak" mənasında işlənən "mülk" sözü (104, s. 416; 11, s. 360) əsasında əmələ gəlmişdir.

# N

**Nəbilər** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Qovşuq və Gülüdüzü kəndləri arasında yerləşirdi (85, s. 362). Kənddə yalnız azərbaycanlılar yaşamışlar. 1939-cu ildə kəndin əhalisi qonşu Gülüdüzü kəndinə köçürüldükdən sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "nəbilər" nəsil adı əsasında əmələ gəlmişdir.

**Novlar** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Qoytul kəndinin yaxınlığında, Dəliktəpə dağının ətəyində, Paşadüz düzündə yerləşirdi. Kənddə 1873-cü ildə 71, 1886-cı ildə 100, 1897-ci ildə 179, 1904-cü ildə 285, 1914-cü ildə 313, 1916-cı ildə 217 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 162–163). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovul-

muşdur. 1920-ci ildə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "kanal, arx" mənasında işlənən "nov" sözünə (11, s. 422) "-lar" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir.

**Novlu** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Keşişkənd kəndinin yaxınlığında, Təpəsidəlik dağının şimal-qərbində yerləşirdi. Kənddə 1873-cü ildə 157, 1886-cı ildə 216, 1897-ci ildə 215, 1904-cü ildə 398, 1914-cü ildə 437, 1916-cı ildə 235 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 162–163). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Kənddə İrandan köçürülən ermənilər yerləşdirilmişdir. 1924–1925-ci illərdə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "kanal, arx" mənasında işlənən "nov" sözünə (11, s. 422) mənsubluq bildirən "-lu" şəkilçisinin artırılması ilə düzəlmişdir.

# O

**Oğbin** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Almalı kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1831-ci ildə 37 nəfər azərbaycanlı, 1873-cü ildə 104 nəfər azərbaycanlı, 57 erməni, 1886-cı ildə 169 nəfər azərbaycanlı, 62 erməni, 1897-ci ildə 245 nəfər azərbaycanlı, 104 erməni, 1914-cü ildə 531 nəfər azərbaycanlı və erməni yaşamışdır (415, s. 90–91, 158–159). Ermənilər kəndə 1870-ci illərdə köçürülmüşdür. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar 1924–1925-ci illərdə doğma yurdlarına qayıda bilmişdilər. Kənddə ermənilərlə yanaşı, 1926-cı ildə 37 nəfər, 1931-ci ildə 53 nəfər azərbaycanlı yaşamışdır. (415, s. 90–91, 158–159). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmiş və kənd ləğv olunmuşdur. Hazırda xarabalıqları qalır. Toponim qədim türk dilində "tayfa ittifaqı", "boy təşkilatı" mənasında işlənən "oğ" ("ok") sözündən (365, s. 437; 238, s. 25) və qıpçaq türk tayfasının tərkibində adı çəkilən "min" (bin) etnonimindən (1, s. 70) əmələ gəlmişdir.

**Oğruca (Əyricə)** – Kənd İrəvan xanlığının Göyçə mahalında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Qaraiman kəndinin yaxınlığında yerləşirdi. İ.Şopenin əsərində Göyçə mahalında ləğv edilmiş kəndlərin siyahısında Oğruca kəndinin adı "Ağrıca" formasında qeyd edilir (386, s. 515). Z.Qorqodyan Göyçə mahalında ləğv edilən kəndlərin sırasında "Oğruca" kəndinin adını "Ağrıca" kimi çəkir (415, s. 17). Əslində, kəndin adını yerli əhali "Əyricə" kimi ifadə edib. Kənd 1826–1828-ci illərdə – Rusiya-İran müharibəsindən sonra dağıdılıb. Hazırda xarabalıqdır. Toponim oğuzlardan olan oğur türklərinin adı əsasında əmələ gəlmişdir.

**Oxçu** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Rayon mərkəzindən 32 km şimalda, Oxçu çayının sahilində yerləşirdi. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 197). Kənddə 1831-ci

ildə 143, 1873-cü ildə 541, 1886-cı ildə 1122, 1897-ci ildə 1246, 1904-cü ildə 1709, 1914-cü ildə 200 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Kənddə xaricdən köçürülüb gətirilən ermənilər yerləşdirilmişlər. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə ermənilərlə yanaşı, 1922-ci ildə 16 nəfər, 1926-cı ildə 13 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137). 1930-cu illərdə azərbaycanlılar sıxışdırılaraq tarixi-etnik torpaqlarından qovulmuşdur. Sonradan kənd ləğv edilib. Toponim "Kitabi-Dədə Qorqud" dastanında adı çəkilən oğuz qəhrəmanı "Ənsə Qoca oğlu Oxçu" şəxs adı ilə bağlı əmələ gəlmişdir.

**Oxçu Şabadini** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafan şəhərindən 4 km şimalda, Oxçu çayının sahilində yerləşirdi. Kənddə 1831-ci ildə 65, 1873-cü ildə 371, 1886-cı ildə 582, 1897-ci ildə 433, 1904-cü ildə 789, 1914-cü ildə 516 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim türk mənşəli "oxçu" etnonimi ilə, türk dilində "uçurum, yamac, dağın döşü", "iki dağarası çökəklikdə yüksəklik" mənasında işlənən "çap" (şab) sözündən (339, s. 607) və "maldar köçərinin təsərrüfatı" mənasında işlənən "adin" sözündən (62, s. 434) əmələ gəlmişdir.

**Oxtar binəsi** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1897-ci ildə 77 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponim "qəbilə, boy, tayfa ittifaqları" mənasında işlənən "oxtar/oxdar" sözü ilə Azərbaycan dilində "köçərilərin mal-qara ilə köçüb, kənddən kənarda məskən saldıqları yer, yurd" mənasında işlənən "binə" sözündən (9, s. 273) əmələ gəlmişdir.

**Ortakənd** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Arpaçayın sağ qolu olan Başkənd çayının yaxınlığında yerləşirdi. Erməni mənbələrində kəndin adı "İtqıran Ortakənd" formasında göstərilib (415, s. 90). Kənd İtqıran kəndinin yaxınlığında yerləşdiyi üçün toponim "İtqıran Ortakənd" kimi verilmişdir. Kənddə 1897-ci ildə 169 nəfər azərbaycanlı yaşamışdır (415, s. 90–91). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Kənd iki kəndin ortasında yerləşdiyi üçün "Ortakənd" adlandırılmışdır.

**Ozanlar** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Axta yaşayış məntəqəsindən 10 km cənub-qərbdə, Alapars kəndinin yaxınlığında, Zəngi çayının sahilində yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 79), Qafqazın 5 verstlik xəritəsində (348, s. 192) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 15, 1873-cü ildə 179, 1886-cı ildə 229, 1897-ci ildə 288, 1908-ci ildə 357, 1914-cü ildə 416, 1916-cı ildə 455 nəfər azərbaycanlı yaşamışdır (415, s. 18–19, 102–103). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. 1918–1919-cu illərdə Türkiyədən gələn erməni ailələri kənddə yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulduqdan

sonra sağ qalan azərbaycanlılar kəndlərinə qayıda bilmişdilər. 1922-ci ildə kənddə 118 nəfər azərbaycanlı (415, s. 102–103), 1939-cu ildə 198 nəfər azərbaycanlı, 1959-cu ildə 111 nəfər azərbaycanlı və erməni (427, s. 355) yaşamışdır. 1960-cı ildə kəndin azərbaycanlı sakinləri deportasiya olunmuş, kənd ləğv edilmiş, azərbaycanlılara məxsus tarixi abidələr dağıdılmışdır. İndi kəndin yeri əkin sahəsinə çevrilmişdir. Toponim "Kitabi-Dədə Qorqud" dastanında "aşıq" mənasında işlənən "ozan" sözünə, cəmlik, topluluq bildirən "-lar" şəkilçisi artırmaqla düzəldilmişdir.

# Ö

**Ördəkli** – Kənd Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, sonradan keçmiş Amasiya rayonunun, indiki Şirak vilayətinin ərazisində mövcud olmuşdur. Amasiya yaşayış məntəqəsindən 15 km şimali-qərbdə, Arpa gölünün cənub-şərqində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 194). Erməni mənbələrində kənddə qarapapaqların yaşadığı qeyd edilib. Qarapapaqlar azərbaycanlıların etnogenezində iştirak edən tayfalardır. Kənddə 1886-cı ildə 253, 1897-ci ildə 146, 1908-ci ildə 346, 1914-cü ildə 531 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). Kənd 1918–1919-cu illərdə Qarsda qurulan Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin tərkibində olmuşdur. 1920-ci ilin fevralında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhali Qars vilayətinə köç etmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra – 1921-ci ildə Qars müqaviləsinə əsasən, kənd Ağbaba nahiyəsinin tərkibində Aleksandropol qəzasına daxil edilmişdir. Kənddə Türkiyədən gələn ermənilər yerləşdirilmişdir. 1930-cu illərdə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "ördəkli" türk tayfasının (175, s. 6) adı əsasında formalaşmışdır.

# P

**Persi** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Rayon mərkəzindən 68 km şimal-qərbdə yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 88) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 76, 1873-cü ildə 225, 1886-cı ildə 229, 1897-ci ildə 266, 1908-ci ildə 323, 1914-cü ildə 345, 1916-cı ildə 285, 1918-ci ildə 323, 1919-cu ildə 124 nəfər azərbaycanlı yaşamışdır (415, s. 22–23, 108–109; 309, s. 218). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Türkiyədən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir. Toponim "açıq çöl, bozqır" mənasında işlənən "par" (pər) sözü (359, IV (2), s. 11–44) ilə bağlıdır. "Per" sözü İran toponimlərinin tərkibində "dağ", "sıra dağlar" mənasında işlənir (361, s. 171). Hazırda kəndin adı yaşayış məntəqələri siyahısından çıxarılmışdır.

**Pəyədərə** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1897-ci ildə 20 nəfər azərbaycanlı yaşamışdır (415, s. 90–91). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponim Azərbaycan dilində "tövlə" sözünün sinonimi olan "pəyə" sözü ilə "dərə" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Pircavidan (Pirdavidan)** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafandan 37 km şimal-qərbdə, Oxçu çayının sağ sahilində yerləşirdi. Kəndin adı mənbələrdə "Pirdavdan" (415, s. 62), "Pirdovudan" (348, s. 202) formalarında qeyd edilir. Lakin kəndin əsl adı "Pircavidan"dır.

Kənddə 1831-ci ildə 17, 1873-cü ildə 135, 1886-cı ildə 223, 1897-ci ildə 254, 1904-cü ildə 231, 1914-cü ildə 360 nəfər azərbaycanlı yaşamışdır (415, s. 62–64, 136–137). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakinləri öz evlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır (415, s. 136–137). Sonralar kənd Qacaran şəhərinə birləşdirilmiş və yaşayış məntəqəsi kimi ləğv edilmişdir. Toponim Babəkin qəhrəmanlarından olan Cavidanın adı ilə bağlıdır və "Cavidana aid olan pir, Cavidan piri" mənasını ifadə edir.

**Pirməzrə** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafan şəhərindən 35 km məsafədə yerləşirdi. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Toponim dini məna bildirən "pir", ərəb dilində "əkin yeri" mənasında işlənən "məzrə" sözlərindən əmələ gəlmişdir. "Əkin yerində olan pirin yaxınlığındakı kənd" mənasını ifadə edir. Erm. SSR AS RH-nin 29 iyun 1949-cu il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək "Katnarat" qoyulmuşdur. Kənd hazırda ləğv edilmişdir.

**Porsuq** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talin (Talın) rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Erməni silahlı dəstələrinin 1905–1906-cı illərdə törətdikləri qırğınlardan sonra kənd xarabalığa çevrilmişdir. Toponim "porsuq" heyvan adı əsasında əmələ gəlmişdir.

**Porsuqlu** – İrəvan quberniyasının Eçmiədzin qəzasının ərazisində mövcud olmuşdur. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 161) qeyd edilmişdir. Kənd XIX əsrin ortalarında ləğv edilmişdir. Hazırda xarabalıqdır.

**Pulkənd** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Sisian şəhərindən 22 km şimal-qərbdə yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 151), Qafqazın 5 verstlik xəritəsində (348, s. 207) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 75, 1886-cı ildə 122, 1897-ci ildə 153, 1908-ci ildə 193, 1914-cü ildə 282 nəfər azərbaycanlı yaşamışdır (415, s. 78–79, 148–149). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda kənd xarabalığa çevrilib. Toponim fars dilində "körpü" mənasında işlənən "pül" (pul) sözünə (359, IV (2), s. 13–72; 104, s. 503), "yaşayış məntəqəsi" mənasında işlənən "kənd" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Puşanlı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Baharlı kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1831-ci ildə 34, 1897-ci ildə 39 nəfər azərbaycanlı yaşamışdır (415, s. 62–63, 136). 1905–1906-cı illərdə erməni silahlı dəstələri kənddə qırğınlar törətmişlər (309, s. 206). İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar tarixi torpaqlarına qayıda bilmişdilər. Kənddə 1926-cı ildə 20 nəfər azərbaycanlı yaşamışdır (415, s. 62–63). Kənd XX əsrin 30-cu illərində ləğv edilmişdir. Toponim türk mənşəli puşanlı tayfasının adı (305, s. II, 24) əsasında əmələ gəlmişdir.

**Püsək** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Sisiandan 18 km cənub-qərbdə, Sofulu kəndinin yaxınlığında yerləşirdi. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl tarixi"ndə "Pisək"

(143, s. 135), 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə "Püsyak" (143, s. 150) formasında qeyd edilmişdir. Kənddə 1886-cı ildə 332, 1897-ci ildə 153, 1908-ci ildə 260, 1914-cü ildə 310 nəfər azərbaycanlı yaşamışdır (415, s. 78–79, 148–149). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar öz kəndlərinə dönmüşdür. Kənddə 1922-ci ildə 150, 1926-cı ildə 149, 1931-ci ildə 197 nəfər azərbaycanlı yaşamışdır (415, s. 78–79, 148–149). Kənd 1930-cu illərin sonunda ləğv edilmişdir. Hazırda xarabalıqdır. Kəndin adı qədim türk dilində "gül çələngi" mənasında işlənən "püsək" sözündən (299, s. 398) əmələ gəlmişdir.

# R

**Rəsul qışlağı** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Hors kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1831-ci ildə 23 nəfər azərbaycanlı yaşamışdır (415, s. 162). XIX əsrin ortalarında azərbaycanlılar erməni silahlıları tərəfindən sıxışdırılaraq qovulduqdan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "Rəsul" şəxs adı ilə "qışlaq" sözündən əmələ gəlmişdir. "Rəsula məxsus qışlaq" mənasını bildirir.

# S

**Sahatlı** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. Araz çayının sol sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində "Soqutlu" formasında qeyd edilmişdir (348, s. 227). Tarixən kənddə azərbaycanlılar yaşamışdır. 1840-cı illərdə kəndə kürdlər köçürülmüşdür. 1930-cu illərdə kənd ləğv edilmişdir. Toponim azərbaycanlıların etnogenezində iştirak etmiş saatlı türk tayfasının adı (245, s. 44; ASE, VIII c., B., 1984, s. 242) əsasında formalaşmışdır.

**Sanalı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1897-ci ildə 82 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır.

**Sarıbudaq** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 174) qeyd edilmişdir. Qafqazın 5 verstlik xəritəsində "Sarıbulaq" kimi (348, s. 220) göstərilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. 1831-ci ildən sonra kənddə heç kim yaşamamışdır (415, s. 96–97). Hazırda xarabalıqdır. Toponim qədim türk dilində "təmiz, saf, pak, içməyə, istifadəyə yararlı su" mənasında işlənən "sarı" sözü ilə (94, s. 74) "çayın qolu" mənasında işlənən "budaq" sözünün (339, s. 105) birləşməsindən əmələ gəlmişdir.

**Sarıcalar** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Zəngibasar yaşayış məntəqəsindən 8 km cənub-qərbdə, Zəngi çayının yaxınlığında yerləşirdi. Zəngibasar rayonu yaradılanadək Qəmərli (Artaşat) rayonunun tərkibində olmuşdur. Qafqazın 5 verstlik xəritəsində (348, s. 218) qeyd edilmişdir. Erməni mənbələrində kəndin adı "Saracalar" formasında verilir (415, s. 50). Kənddə 1831-ci ildə 107,

1873-cü ildə 354, 1886-cı ildə 440, 1897-ci ildə 460, 1904-cü ildə 638, 1914-cü ildə 811 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar doğma yurdlarına qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 207, 1926-cı ildə 224, 1931-ci ildə 168 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmiş və kənd ləğv olunmuşdur. Kəndin ərazisi Həbilkəndə (Kalinin adına qəsəbə) birləşdirilmişdir. Toponim sarıcalılar türk tayfasının adı (207, s. 104–105; 213, s. 14) əsasında yaranmışdır. "Sarıcalı tayfasına mənsub yer" mənasını ifadə edir.

**Sarıxanlı** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Böyük Vedi yaşayış məntəqəsindən 14–16 km cənub-qərbdə, Araz çayının kənarında, Vedi çayından axan arxın və Xalisa kəndinin yaxınlığında yerləşirdi. "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (143, s. 141) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 288, 1886-cı ildə 338, 1897-ci ildə 358, 1904-cü ildə 160, 1914-cü ildə 176, 1916-cı ildə 204 nəfər azərbaycanlı yaşamışdır (415, s. 88–89, 156–157). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim təklə türk tayfasının bir qolunu təşkil edən "sarıxanlı" etnonimi (286, s. 72) əsasında əmələ gəlmişdir.

**Sarıqaya** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1897-ci ildə 50 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponim qədim türk dilində "böyük, iri, yüksək, nəhəng, uca, hündür" mənasında işlənən "sarı" sözü ilə (94, s. 74) Azərbaycan dilində "dağ, daş" mənasında işlənən "qaya" sözündən əmələ gəlmişdir.

**Seldağılan** – Kənd Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, sonradan Amasiya rayonunun, indiki Şirak vilayətinin ərazisində mövcud olmuşdur. Amasiyadan 15 km şimal-qərbdə, Ağbaba dağının ətəyində yerləşirdi. Kəndin sakinləri azərbaycanlılar olub. Erməni müəlliflərinin əsərlərində kəndin sakinləri kimi qarapapaqlar göstərilir (415, s. 20). Qarapapaqlar azərbaycanlıların etnoqrafik qruplarından biri olmuşdur. Kənddə 1886-cı ildə 231, 1887-ci ildə 360, 1908-ci ildə 359, 1914-cü ildə 414 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). 1920-ci ilin fevral ayında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhali qaçqın düşmüşdür. 1921-ci ildə Qars müqaviləsi ilə kənd Ağbaba nahiyəsinin tərkibində sovet Ermənistanına daxil edilmişdir. Bundan sonra kənd əhalisi elliklə Türkiyəyə köç etmişdir. Hazırda kənd xarabalığa çevrilib. Toponim "su daşqını" mənasında işlənən "sel" sözü ilə "dağılan" feili sifətinin birləşməsindən əmələ gəlmişdir.

**Seyid kotanlı** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Qəmərli (Artaşat) yaşayış məntəqəsindən 30 km şimal-şərqdə yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 223). 1930-cu illərdə keçmiş Vedi (Ararat) rayonunun inzibati-ərazi bölgüsünə daxil olmuşdur (415, s. 88). Kənddə 1873-cü ildə 156, 1886-cı ildə 201, 1897-ci ildə 279, 1904-cü ildə 128, 1914-cü ildə 377, 1916-cı ildə 356 nəfər

azərbaycanlı yaşamışdır (415, s. 88–89, 156–157). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənddən qovulmuş azərbaycanlılardan sağ qalanlar kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 63, 1926-cı ildə 67, 1931-ci ildə 106 (415, s. 88–89, 156–157), 1939-cu ildə 221 nəfər (85, s. 232–233) azərbaycanlı yaşamışdır. SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmiş və kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim ərəblərin qüreyş qəbiləsindən olan "seyid" etnonimi ilə (245, s. 55) "kotanlı" türk etnoniminin (286, s. 50) birləşməsindən əmələ gəlmişdir.

**Seyidlər** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Hüseynquluağalı (sonradan Nərimanlı) kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1926-cı ildə 36 nəfər azərbaycanlı yaşamışdır (415, s. 26–27). 1930-cu illərdə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim ərəblərin qüreyş qəbiləsindən olan "seyidlər" tayfa adı (245, s. 55) əsasında formalaşmışdır.

**Seyid Məmiş** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Keşişkənd (Yeğeqnadzor) yaşayış məntəqəsindən 1920 km şimal-qərbdə, Səlim çayının sahilində, rayondakı Ağkənd kəndinin yaxınlığında yerləşirdi (85, s. 365). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "seyid" nəsil adı ilə "Məmiş" şəxs adı əsasında yaranmışdır.

**Səfərəli** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Dəvəli kəndinin yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 221). Kənddə 1897-ci ildə 31 nəfər azərbaycanlı yaşamışdır (415, s. 88–89). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponim "səfərəli" nəsil adı əsasında əmələ gəlmişdir.

**Səfiabad** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Qurduqulu (Hoktemberyan) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. Erməni mənbələrində kəndin adı "Sefiabad", "Səfiabad" formalarında göstərilir (415, s. 64). Rayon mərkəzindən 14 km cənub-şərqdə, Böyük Qarasu çayının yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 221). Kənddə 1831-ci ildə 49, 1873-cü ildə 190, 1886-cı ildə 145, 1897-ci ildə 223, 1908-ci ildə 203, 1914-cü ildə 234, 1916-cı ildə 218, 1918-ci ildə 243 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 64–65, 140–141). 1919-cu ilin sonunda azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur (309, s. 221). Kənddə Türkiyədən köçürülən ermənilər yerləşdirilmişlər. Kənd 1930-cu illərdə ləğv edilmişdir. XVII əsrin 70-ci illərində Çuxur-Səəd bəylərbəyi Səfiqulu xan Qarasu çayından susuz torpağa arx çəkdirmiş və həmin yerdə kənd saldırmışdır. Kənd Səfiabad adlandırılmışdır (327, s. 55).

**Səncərli** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Kəndin digər adı "Səncər oğlu"dur (s. 60). Qafan şəhərindən 35 km şimal-qərbdə yerləşirdi. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Yalnız indiki Ermənistanda sovet

hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1926-cı ildə 27 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61). 1930-cu illərdə azərbaycanlılar köçürülərək kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "səncərli" türk etnonimi əsasında əmələ gələn etnotoponimdir.

**Sınıq** – Kənd Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, keçmiş Amasiya rayonunun, indiki Şirak vilayətinin ərazisində mövcud olmuşdur. Amasiyadan 12 km şimal-şərqdə, Mögüz çayının sol tərəfində yerləşirdi. Kəndin sakinləri azərbaycanlılar olmuşlar. Kənddə 1886-cı ildə 130, 1897-ci ildə 118, 1908-ci ildə 164, 1914-cü ildə 241 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20 104–105). 1920-ci ilin fevral ayında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhali qaçqın düşmüşdür. 1921-ci ildə Qars müqaviləsi ilə kənd Ağbaba nahiyəsinin tərkibində sovet Ermənistanına daxil edilmişdir. Bundan sonra əhali elliklə Türkiyəyə köç etmişdir. 1922-ci ildə kənddə ermənilər məskunlaşdırılmışdır. 1940-cı ilin əvvəllərində kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "kənd", "şenlik, yaşayış məntəqəsi" mənasında işlənən "şınıx" sözü əsasında formalaşmışdır.

**Siçanlı** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Təzəkəndin yaxınlığında yerləşirdi. Kənddə 1886-cı ildə 302, 1897-ci ildə 310, 1904-cü ildə 499, 1914-cü ildə 582, 1916-cı ildə 404 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 66–67, 142–143). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim oğuzların bəydili tayfasına mənsub olan "sincan" etnoniminə (238, s. 290) mənsubluq bildirən "-lı" şəkilçisinin qoşulması ilə düzəlmişdir.

**Soyuqbulaq** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Zəngi çayının sağ axarında, Soyuqbulaq çayının yuxarısında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (348, s. 228) qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Kənddə 1831-ci ildə 43, 1897-ci ildə 186 nəfər azərbaycanlı və yezdi kürd yaşamışdır (415, s. 18–19, 102–103). Erməni müəlliflərinin əsərlərində kənd sakinləri kimi yalnız kürdlər göstərilir (415, s. 19, 102–103). 1926-cı ildə kənddə yalnız bir nəfər azərbaycanlı yaşamışdır. Toponim Azərbaycan dilində "sərin" mənasında işlənən "soyuq" sözü ilə "bulaq" hidroniminin əsasında əmələ gəlmişdir. Sonralar kənd yaşayış məntəqələrinin siyahısından çıxarılmışdır.

**Söyüdlü** – Kənd Qars vilayətinin Qars qəzasının Ağbaba nahiyəsində, keçmiş Amasiya rayonunun, indiki Şirak vilayətinin ərazisində mövcud olmuşdur. Amasiyadan 35 km şimal-qərbdə, Arpa gölündən 10 km qərbdə yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 124), Qafqazın 5 verstlik xəritəsində (348, s. 227) qeyd edilmişdir. Kəndin sakinləri azərbaycanlılar olmuşlar. Kənddə 1886-cı ildə 73, 1897-ci ildə 118, 1908-ci ildə 89, 1914-cü ildə 179 nəfər azərbaycanlı yaşamışdır (415, s. 20–21, 104–105). 1920-ci ilin fevral ayında erməni silahlı dəstələrinin hücumu nəticəsində kənd dağıdılmış, əhali qaçqın düşmüşdür. 1921-ci ildə Qars müqaviləsi ilə kənd Ağbaba nahiyəsinin tərkibində sovet Ermənistanına daxil edilmişdir. Bundan sonra kənd əhalisi elliklə Türkiyəyə köç etmişdir. 1922-ci ildən kənd xarabalığa çevrilmişdir.

**Sultanabad** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasının, keçmiş Talin (Talın) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Alagöz dağının cənub-qərbində yerləşirdi. Kəndin digər adı "Məhəmmədabad" olmuşdur (415, s. 36). Kənddə 1873-cü ildə 49, 1897-ci ildə 22 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 36–37, 118–119). 1905–1906-cı

illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponim "Sultan" şəxs adı ilə "abad" sözünün birləşməsindən əmələ gəlib, "Sultanın tikdiyi, abad etdiyi kənd" mənasını ifadə edir.

**Sultanlı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Sisian şəhərindən 32 km şimal-şərqdə, Bazarçay kəndindən 8 km məsafədə yerləşirdi. Kənd XIX əsrin əvvəllərində ləğv edilmişdir. Toponim türk mənşəli "sultanlı" etnonimi (329, s. 13) əsasında əmələ gəlmişdir.

**Südlübulaq** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunun, indiki Araqadz vilayətinin ərazisində mövcud olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 113) qeyd edilmişdir. Erməni mənbəyində "Suddibulaq" formasında əksini tapmışdır (415, s. 4). Kənddə 1897-ci ildə 70, 1914-cü ildə 28 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 45, 98–99). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "keyfiyyətli, içməyə yararlı, süd kimi ağ" mənasında işlənən "südlü" sözü ilə "bulaq" sözünün birləşməsi əsasında əmələ gəlmişdir.

# Ş

**Şabadin axund yeri** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Oxçu kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1897-ci ildə 10 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponim türk dilində "bitkisiz qumlu, daşlı dağ yamacı" (287, s. 477), "uçurum, sıldırım", "yamac", "dərin dağarası çuxurda yüksəklik" (339, s. 607) mənasında işlənən "çap" (şab) sözü ilə türk dilində "dincəlmək üçün dayanmaq", "istirahət", "dincəlmək" mənasında işlənən "din" (dın) sözünün (367, s. 341–343) birləşməsindən əmələ gəlmişdir.

**Şahgəldi qışlağı** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Hors kəndinin yaxınlığında, Səlim çayının sahilində, Arpaçayın sağ qolunun yaxınlığında yerləşirdi. Kənddə 1831-ci ildə 36, 1873-cü ildə 80, 1886-cı ildə 112, 1897-ci ildə 133, 1904-cü ildə 133, 1914-cü ildə 146, 1916-cı ildə 179, 1919-cu ildə 115 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 162–163). 1919-cu ilin sonlarında kənd erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və sakinlər qovulmuşdur. Sağ qalan kənd sakinləri yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra öz doğma yurdlarına qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 42, 1926-cı ildə 37, 1931-ci ildə 45 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 162–163). 1940-cı illərdə azərbaycanlılar köçürülərək kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "şahgəldi" sözü ilə "qışlaq" sözünün birləşməsindən əmələ gəlmişdir. "Qışlağın şaha məxsus olduğu" mənasını ifadə edir.

**Şaqarda** – Kənd Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Cəlaloğlu (Stepanavan) rayonunun, indiki Tavuş vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə tarixən azərbaycanlılar yaşamışdır. Ədirnə (1829) müqaviləsinə əsasən, İrəvan xanlığının ərazisinə ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kəndin aborigen sakinləri olan azərbaycanlılar Türkiyəyə köç etmişlər. Kənddə ermənilərlə yanaşı, 1897-ci ildə 5, 1916-cı ildə 21, 1922-ci ildə 11, 1926-cı ildə 67, 1931-ci ildə 24 nəfər azərbaycanlı yaşamışdır (415, s. 80–81, 150–151). Kənd sonradan

ləğv edilmişdir. "Şaqarda" toponiminin birinci komponenti "saq" türk etnonimi ilə türk dilində "dağbeli" (399, I, s. 42), "dağ, dağ keçidi" (299, s. 55), "təpə" (339, s. 56) mənasında işlənən "art" sözünün birləşməsindən əmələ gəlib. "Dağ keçidində, yaylada, dağda sakların yaşadığı yer" mənasını ifadə edir.

**Şamsız** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1897-ci ildə 124, 1914-cü ildə 186, 1916-cı ildə 911 nəfər azərbaycanlı yaşamışdır (415, s. 28–29, 114–115). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar tarixi-etnik torpaqlarına dönmüşlər. Kənddə 1926-cı ildə 54 nəfər, 1931-ci ildə 52 nəfər azərbaycanlı yaşamışdır (415, s. 28–29, 114–115). 1940-cı illərdə azərbaycanlılar kənddən çıxarılmış və kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim bitki adı bildirən "şam" sözünə "-sız" şəkilçisinin artırılması ilə düzəlmişdir.

**Şenqovit bayat** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Zəngibasar (Masis) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. 1828-ci ilə kimi kənddə yalnız azərbaycanlılar yaşamışdır. 1828-ci ildə Türkmənçay müqaviləsindən sonra azərbaycanlılar sıxışdırılaraq deportasiya olunmuş və kəndə İrandan köçürülən ermənilər yerləşdirilmişdir (386, s. 547–550). Burada ermənilərlə yanaşı, 1831-ci ildə 75, 1897-ci ildə 6 nəfər azərbaycanlı yaşamışdır (415, s. 48–49, 128). XX əsrin əvvəllərində onlar erməni daşnaklarının təzyiqinə məruz qalaraq kənddən çıxarılmışdır. İrəvan şəhərinin ərazisinin genişləndirilməsi ilə əlaqədar 1935-ci ildə kənd müstəqil yaşayış məntəqəsi kimi ləğv edilmiş və İrəvan şəhərinin tabeliyinə verilmişdir (227, s. 217–218). Toponim türk dilində "yaşayış məntəqəsi", "şenlik" mənasında işlənən "şen" və "suyun əmələ gətirdiyi çökək" mənasında olan "qovu" (qobu) sözü ilə (253, s. 22) bayat türk tayfa adı (399, 1, s. 56) əsasında əmələ gəlib, "bayat tayfasının çökəklikdə olan kəndi, yaşayış yeri" mənasını ifadə edib.

**Şəhriyar** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 102), Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 290). Kənddə 1897-ci ildə 84 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87). 1905–1906-cı illərdə erməni silahlı dəstələri kənddə qırğınlar törətmişlər. 1922-ci ilə qədər kənddə yaşayış olmamışdır. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kənddə 1922-ci ildə 44, 1926-cı ildə 35, 1931-ci ildə 37 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmiş və kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim şəxs adı əsasında əmələ gəlmişdir.

**Şərdərə** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Xalac kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1897-ci ildə 59 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61). XX əsrin əvvəllərində – 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Hazırda xarabalıqdır. Toponim "pislik, yamanlıq" mənasında işlənən "şər" sözünə "iki dağ və ya təpə arasında, düzənlikdə dərin çuxur", "çay yatağı" mənasında işlənən "dərə" sözünün (10, s. 74) birləşməsindən əmələ gəlmişdir.

**Şırran** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində möv-

cud olmuşdur. Kənddə 1897-ci ildə 148, 1914-cü ildə 185, 1916-cı ildə 144 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). 1919-cu ilin yazında azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalaraq tarixi-etnik torpaqlarından didərgin salınmış və kənddə kürdlər yerləşdirilmişdir. Hazırda kənd xarabalığa çevrilib. Toponim Azərbaycan dilində "kiçik şəlalə", "fantan", "bulaq" mənasında işlənən "şırran" sözü (253, s. 134) əsasında formalaşmışdır.

**Şirəqala** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Abaran çayının sağ qolu olan Duluçayın yaxınlığında yerləşirdi. Kənddə əvvəlcə azərbaycanlılar yaşamışlar. Ədirnə (1829) müqaviləsinə əsasən, İrəvan xanlığının ərazisində ermənilərin köçürülüb məskunlaşdırılmasından sonra kəndin aborigen sakinləri olan azərbaycanlılar Türkiyəyə köç etmişlər. 1840–1850-ci illərdə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "gil növü, mavi gil" mənasında işlənən "şirə" sözü ilə (253, s. 133) "qala" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Şoran** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1897-ci ildə 148, 1904-cü ildə 80, 1914-cü ildə 185, 1916-cı ildə 144 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). 1918-ci ilin yazında azərbaycanlılar erməni silahlı birləşmələrinin soyqırımına məruz qalaraq tarixi-etnik torpaqlarından didərgin salınmış və kənddə kürdlər yerləşdirilmişdir. Kənd sonralar ləğv edilmişdir. Toponim "şor sahə, əkinə yararsız yer" mənasında işlənən "şoran" sözü (253, s. 134) əsasında formalaşmışdır.

**Şorca** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Amağu, Arpa, Ertiş kəndlərinin yaxınlığında, Arpaçayın kənarında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 297). Kənddə 1873-cü ildə 31, 1886-cı ildə 56, 1897-ci ildə 73, 1904-cü ildə 76, 1914-cü ildə 83, 1916-cı ildə 116 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93, 162–163). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışlar. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "duzlu, şoranlıq yer" mənasında işlənən "şor" sözünə "-ca" şəkilçisinin artırılmasından düzəlmişdir.

**Şotanlı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Oxçu çayının sağ sahilində yerləşirdi. Kənddə 1897-ci ildə 30, 1922-ci ildə 25, 1926-cı ildə 19 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137). Kənd 1930-cu illərdə ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "hunların varisi şato" etnoniminə (180, s. 253) mənsubluq bildirən "-lı" şəkilçisinin qoşulması ilə düzəlib, "şato tayfasına mənsub kənd" mənasını ifadə edir.

**Şotulkənd** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1897-ci ildə 148, 1904-cü ildə 353, 1914-cü ildə 388, 1916-cı ildə 127 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51, 130–131). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışlar. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim təklə türk tayfasına aid "şatul" (şotul) etnoniminə "yaşayış məntəqəsi", "şəhər" mənasında işlənən "kənd" sözünün qoşulması əsasında əmələ gəlmişdir.

**Şuqayıb** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud ol-

muşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 298). Kənddə 1886-cı ildə 109, 1897-ci ildə 163, 1904-cü ildə 90, 1914-cü ildə 200, 1916-cı ildə 192 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 154–155). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışlar. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişdilər. Kənddə 1922-ci ildə 44, 1926-cı ildə 35, 1931-ci ildə 47 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 154–155). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmiş və 1950-ci ildə kənd ləğv olunmuşdur. Toponim türk dilində (qırğız, qazax) "konusvari zirvə" mənasında işlənən "çoku" (şoku) sözü əsasında (339, s. 618, 630) əmələ gəlmişdir.

**Şükar** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Vilayət mərkəzindən 22–24 km şimal-qərbdə, Şağat kəndinin yaxınlığında yerləşirdi. 1921-ci il avqustun 31-də sovet Ermənistanında Zəngəzur qəzasının yaradılmasından sonra yaşayış məntəqəsi Ermənistanın inzibati ərazisinə daxil edilmişdir. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 151), Qafqazın 5 verstlik xəritəsində Şiqar formasında (348, s. 295) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 186, 1886-cı ildə 218, 1897-ci ildə 238, 1908-ci ildə 280, 1914-cü ildə 514 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışlar. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim xalac türk tayfasına aid olan "şikarlı" etnonimi (286, s. 54) əsasında əmələ gəlmişdir.

# T

**Tacədin** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafan şəhərindən 4 km şimal-şərqdə, Baydaq çayının sol sahilində yerləşirdi. Kənddə 1897-ci ildə 58, 1926-cı ildə 25, 1931-ci ildə 32 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57, 134–135). Kənd 1930-cu illərin ortasında ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim şəxs adı əsasında düzəlmişdir.

**Tağəmir** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Meğridən 16–18 km şimal-qərbdə yerləşirdi. Kənddə 1831-ci ildə 19, 1873-cü ildə 74, 1886-cı ildə 129, 1897-ci ildə 163, 1904-cü ildə 194, 1914-cü ildə 255 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 68–69, 142–143). 1918-ci ildə kənd erməni daşnak silahlı birləşmələrinin təcavüzünə məruz qalmış, sakinlər didərgin salınmışlar. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalanlar tarixi-etnik torpaqlarına qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 36, 1926-cı ildə 43, 1931-ci ildə 51 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 68–69, 142–143). Azərbaycanlılar 1930-cu illərin axırlarında qonşu kəndlərə köçürülərək kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim türk dilində "dağ" mənasında işlənən "taq/tağ" sözü ilə (299, s. 526; 337, s. 238; 339, s. 537; 299, s. 375) "Əmir" şəxs adı əsasında əmələ gəlmişdir. "Əmir dağı yaxınlığında kənd" mənasındadır.

**Taxmaxangöl** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında mövcud olmuşdur. İrəvan şəhərinin qərbində yerləşirdi. 1905-ci ildə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Kənd "Toxmaqgöl" sututarının yaxınlığında yerləşdiyi üçün

"Toxmaxangöl" adlandırılmışdır. Toponimin birinci komponenti "toxmaq" qızılbaşların ustaclı tayfasından olan İrəvan xanı Məhəmmədxan Toxmağın adını (175, s. 29) əks etdirir. İrəvan ətrafındakı yeganə göl Toxmaq gölü adlanırdı.

**Tatlı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Berd (Şəmşəddin) rayonunun, indiki Tavuş vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. 1930-cu ildə rayondakı Paravakar kəndi ilə birləşdirilərək ləğv edilmişdir (415, s. 72). Toponim yörük türk tayfasına mənsub olan "tatlı" etnonimi (238, s. 186) əsasında əmələ gəlmişdir.

**Tatul qışlağı** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Daşkənd kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1831-ci ildə 148 nəfər azərbaycanlı yaşamışdır (415, s. 110). XIX əsrin 40–50-ci illərində azərbaycanlılar buradan qovulmuş və kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim şəxs adı əsasında düzəlmişdir.

**Tey** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1873-cü ildə 126, 1886-cı ildə 174, 1897-ci ildə 293, 1904-cü ildə 425 nəfər azərbaycanlı yaşamışdır (415, s. 68–69, 142–143). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışlar (309, s. 205). Sağ qalanlar yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra tarixi-etnik torpaqlarına qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 53, 1926-cı ildə 62, 1931-ci ildə 81 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 68–69, 142–143). Kollektivləşmə adı ilə kənddə yaşayan azərbaycanlılar köçürülmüş və kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim türk dilində "təpə" mənasında işlənən "tey" sözü (337, s. 239; 339, s. 548) əsasında əmələ gəlmişdir.

**Tezxarab** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1831-ci ildə 22 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 158). 1877–1878-ci illərdə rus-türk müharibəsindən sonra Türkiyədən köçürülüb gətirilən ermənilər kənddə məskunlaşdırılmışdır. Bundan sonra azərbaycanlılar kəndi tədricən tərk etmişlər. Hazırda kənd xarabalığa çevrilib. Toponim Azərbaycan dilində işlənən "tez" və "xarab" sözlərindən əmələ gəlmişdir.

**Tərəkəmələr** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Böyük Vedi yaşayış məntəqəsindən 28–30 km şimal-şərqdə yerləşirdi. "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 98), Qafqazın 5 verstlik xəritəsində (348, s. 238) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 32, 1886-cı ildə 46, 1897-ci ildə 35, 1904-cü ildə 50, 1914 ildə 83, 1916-cı ildə 49 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 154–155). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışlar. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim azərbaycanlıların etnogenizində iştirak etmiş türkdilli "tərəkəmələr" etnonimi (ASE, IX c., B., 1986, s. 256) əsasında yaranmışdır.

**Tərp (Tarp)** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. "Tərp kəndi XIII əsrdə tarixi mənbələrdə adı çəkilən Derb kəndidir" (422, s. 93). Tərpçayın yaxınlığında yerləşirdi. Kənddə 1831-ci ildə 96, 1873-cü ildə 192, 1897-ci ildə 187, 1904-cü ildə 223, 1914-cü ildə

245, 1916-cı ildə 281 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışlar. Sağ qalanlar yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra öz yer-yurdlarına qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 67, 1926-cı ildə 86, 1931-ci ildə 191 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 90–91, 158–159). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmiş və 1949-cu ildə kənd ləğv olunmuşdur. Toponim Azərbaycan dilində "kiçik təpə" mənasında işlənən "tərp" sözü (253, s. 130) əsasında əmələ gəlmişdir. "Tərp" sözü ərəb dilində dərb kimi, "dağ keçidi, aşırım, dərə" mənasında işlənir (361, s. 69).

**Təzə Abdallar** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə kəndin adına "Tezxarab" kimi rast gəlirik (143, s. 77). Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Kənd 1929-cu ildə ləğv edilmişdir. Toponim qədim türk "abdal" etnoniminə (355, s. 165) "-lar" şəkilçisinin artırılmasından əmələ gələn etnonim əsasında formalaşmışdır. Toponimin əvvəlindəki "təzə" sözü fərqləndirici əlamət bildirir.

**Təzəkənd** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Şəki kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1897-ci ildə 61 nəfər azərbaycanlı yaşamışdır. (415, s. 76–77). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. "Yeni" mənasında işlənən "təzə" və yaşayış məntəqəsi bildirən "kənd" sözləri əsasında yaranmışdır.

**Tuğut** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Meğridən 11–13 km şimal-şərqdə, Araz çayının sol sahilində yerləşirdi. Erməni mənbələrində kəndin adı "Teğut" formasında qeyd edilib (415, s. 68). Kənddə 1831-ci ildə 31, 1873-cü ildə 162, 1886-cı ildə 199, 1897-ci ildə 237, 1904-cü ildə 294, 1914-cü ildə 513 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 68–69, 142–143). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışlar (309, s. 216). Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 131, 1926-cı ildə 85, 1931-ci ildə 78 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 68–69, 142–143). Kollektivləşmə adı ilə sakinlər qonşu kəndlərə köçürülərək kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim qıpçaq türk tayfasından olan "tuq" etnoniminə (287, s. 56) qədim türk dilində cəmlik bildirən "-ut" şəkilçisinin qoşulması ilə əmələ gəlmişdir. "Tuğlara, yəni tuğ tayfasına mənsub kənd" mənasını bildirir.

**Tuqanlar** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafan şəhərinin yaxınlığında yerləşirdi. Kənddə 1897-ci ildə 16 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponim eyniadlı nəslin – tuqanlar tayfasının adından əmələ gələn patronimdir.

**Tunus (Tulus)** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazi-

sində mövcud olmuşdur. Əcili kəndinin yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində adı qeyd edilmişdir (348, s. 248). Kənddə 1922-ci ildə 94 nəfər azərbaycanlı yaşamışdır (415, s. 134–135). 1924–1925-ci illərdə azərbaycanlılar rayonun qonşu kəndlərinə köçürülərək kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim qədim türk tayfası olan tulusların adını özündə əks etdirir.

**Turabxanlı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1897-ci ildə 105, 1904-cü ildə 123 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57, 134–135). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışdır. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə 1922-ci ildə 27, 1926-cı ildə 19, 1931-ci ildə 27 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57, 134–135). 1930-cu illərin ortalarında azərbaycanlılar köçürülərək kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim turabxanlı nəslinin adı əsasında yaranmışdır.

**Tutiyə** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Ellər yaşayış məntəqəsindən 14 km cənub-şərqdə yerləşirdi. 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə (143, s. 80), Qafqazın 5 verstlik xəritəsində (348, s. 249) qeyd edilmişdir. Kənddə 1831-ci ildə 36, 1873-cü ildə 280, 1886-cı ildə 449, 1897-ci ildə 568, 1904-cü ildə 493, 1914-cü ildə 554, 1916-cı ildə 424 nəfər azərbaycanlı yaşamışdır (415, s. 44–45, 124–125). Erməni silahlı dəstələri ilk dəfə 1905-ci ildə kəndə hücum edərək kütləvi qırğınlar törətmiş, vəziyyət sabitləşəndən sonra kəndin sağ qalan əhalisi geri qayıda bilmişdir. 1918-ci ildə azərbaycanlılara qarşı erməni silahlı birləşmələri yenidən qırğınlar törətmiş, əhalini kənddən didərgin salmışdır. 1925-ci ildə kənddə xaricdən köçürülüb gətirilən ermənilər yerləşdirilmişdir. Toponim oğuzların üç-ox qolunun başında duran Dad bəy adlı İshaq oğlu Tuti (Dudu) şəxs adına (348, s. 126) "-yə" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. Hazırda kənd ləğv edilmişdir.

**Tutpir qışlağı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1897-ci ildə 71 nəfər azərbaycanlı yaşamışdır (85, s. 154). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır.

**Türk Düzkəndi** – Kənd İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Abaran rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Qarabulaq çayının sahilində, Alagöz dağının ətəyində yerləşirdi. Mənbələrdə kəndin adı "Düzkənd", "Türk Düzkəndi", "Tatar Düzkəndi" (415, s. 496), "Düzkənd" (348, s. 90) formalarında qeyd edilmişdir. Sonralar toponimin əvvəlindəki "türk", "tatar" sözləri – etnonimlər ixtisar edilərək rəsmi sənədlərdə "Düzkənd" formasında göstərilmişdir (415, s. 4,96; 85, s. 95; 227, 154). Kənddə 1873-cü ildə 379, 1886-cı ildə 449, 1897-ci ildə 592, 1908-ci ildə 713, 1914-cü ildə 784, 1916-cı ildə 703 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 45, 96–97). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışlar. Türkiyədən köçürülən ermənilər və yezidi kürdlər kənddə yerləşdirilmişdir (415, s. 97). Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişdilər. Kənddə erməni və kürdlərlə yanaşı, 1922-ci ildə 170, 1926-cı ildə 50 nəfər azərbaycanlı yaşamışdır (415, s. 45, 96–97). Azərbaycanlılar 1928–1930-cu illərdə sıxışdırılaraq kənddən çıxarılmışlar. Kənd 1959-cu ildə ləğv edilmişdir. Toponim "türk" etnonimi ilə relyef bildirən "düz" sözünə "kənd" sözünün qoşulmasından yaranıb.

**Türk Qarakilsəsi** – Kənd Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunun, indiki Lori vilayətinin ərazisində mövcud olmuşdur. Başqa adı "Təzəkənd"dir. Noraşen kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1886-cı ildə 122, 1897-ci ildə 172, 1914-cü ildə 420 nəfər azərbaycanlı yaşamışdır (415, s. 42–43, 122–123). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışlar. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır.

# Ü

**Üçtəpələr** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Razdan) rayonunda, indi Kotayk vilayəti ərazisində yaşayış məntəqəsi olmuşdur. Üçtəpələr dağının ətəyində, Novo-Bəyazid yolunun ağzında yerləşir. Qafqazın 5 verstlik xəritəsində (348, s. 255) qeyd edilmişdir. Kənd Üçtəpələr dağının ətəyində yerləşdiyi üçün Üçtəpələr adı almışdır. Bu toponim say bildirən "üç" və relyef bildirən "təpə" sözlərinin birləşməsindən əmələ gəlmişdir.

**Üləşik** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Axta yaşayış məntəqəsindən 18 km şimal-qərbdə, Misxana çayının sol axarında, Maymaq dağının ətəyində, Təkəli kəndinin yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 252). Erməni mənbələrində kəndin adı "Ulaşik" formasında qeyd edilməklə, onun qədim və ya başqa adının "Ulyaşeyx" olduğu da göstərilir (415, s. 18). Kənddə 1831-ci ildə 66, 1873-cü ildə 225, 1886-cı ildə 313, 1897-ci ildə 337, 1908-ci ildə 425, 1914-cü ildə 733, 1916-cı ildə 385 nəfər azərbaycanlı yaşamışdır (415, s. 18–19, 102–103). 1918-ci ildə azərbaycanlılar erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənddən didərgin salınmışdır. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 121, 1926-cı ildə 209, 1931-ci ildə 302 nəfər azərbaycanlı yaşamışdır (415, s. 18–19, 102–103). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmiş, 1950-ci ildə kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim "ulaş" tayfa adına (238, s. 304) cəmlik bildirən "-ik" şəkilçisinin qoşulması yolu ilə düzəlmişdir.

# Y

**Yaqublu** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Mənbələrdə "Yaqubi" kimi də qeyd edilir. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışlar. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim yaqublu tayfasının adı (92, s. 23) əsasında yaranmışdır.

**Yaqublu** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 305). Kəndin digər adı "Təzə Kələş" olmuşdur (415, s. 4). Kənddə 1897-ci ildə 120, 1908-ci ildə 200, 1914-cü ildə 213, 1916-cı ildə 208 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 45, 96–97). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənd-

dən didərgin salınmışdır. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim yaqublu tayfasının adı (92, s. 23) əsasında yaranmışdır.

**Yamaxlı** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Zeyvə kəndinin yaxınlığında yerləşirdi. Kənddə 1897-ci ildə 231 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponim yamaxlı tayfasının adı əsasında yaranmışdır.

**Yappa** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Millidərə bölgəsində, Ağdağ ilə Qızıllı dağın arasında, Çatma kəndi yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 306). 1897-ci ildə kənddə 62, 1905-ci ildə 55, 1914-cü ildə 104 nəfər azərbaycanlı yaşamışdır (99, s. 338). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışdır. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlıların bir qismi öz kəndlərinə qayıda bilmişdilər XX əsrin 30-cu illərində kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim türk mənşəli yapma tayfasının adı əsasında (271, s. 143; 238, s. 187) formalaşmışdır.

**Yavərkənd** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Keşişkənd yaşayış məntəqəsindən 18 km şimal-şərqdə, Ağkəndin yaxınlığında yerləşirdi (85, s. 361). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışdır. Kənddə 1922-ci ildə 2 nəfər azərbaycanlı yaşamışdır (415, s. 162–163). 1924–1925-ci illərdə kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "yuxarı rütbəli zabitlərin yanında xidməti tapşırıqları və ya qərargah işlərini yerinə yetirən kiçikrütbəli hərbi vəzifəli şəxs" mənasında işlənən "yavər" sözü ilə (11, s. 468) "kənd" coğrafi nomeni əsasında yaranmışdır.

**Yaycı** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. İrəvan–Naxçıvan dəmiryol xəttinin kənarında, Armaş kəndinin yaxınlığında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 301). Kənddə 1897-ci ildə 180 nəfər, 1914-cü ildə 157 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışdır. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim oğuz türklərinin yaycı tayfasının adından yaranmışdır (99, s. 337).

**Yelaxlı Mehdi kəndi** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Zeyvə kəndinin yaxınlığında yerləşirdi. 1897-ci ildə kənddə 164 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponim üç komponentdən ibarətdir. Birinci komponent olan "yelaxlı" dialekt və şivələrdə "çuxur", "çökək yer" mənasında işlənən "yalax" sözünə "-lı" şəkilçisinin qoşulması ilə düzəlmişdir. İkinci komponent "Mehdi" şəxs adını bildirir. Toponim "çökəklik yerdə Mehdinin saldığı kənd" mənasını ifadə edir.

**Yellicə** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunun, indiki Kotayk vilayətinin ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 92). Erməni mənbəyində "Yelicə" formasında qeyd edilir (415, s. 46). Kənddə 1897-ci ildə 31 nəfər azərbaycanlı yaşamışdır

(415, s. 46–47). XX əsrin əvvəllərində azərbaycanlılar doğma yurdlarından qovulmuşdur. Kənd 1925-ci ildə ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim "küləkli olan, külək tutan yer" mənasında işlənən "yelli" sözü ilə, çoxaltma dərəcəsinin əlamətini bildirən "-cə" şəkilçisinin birləşməsindən düzəlmişdir.

**Yelli dərə** – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunun, indiki Geğarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Aşağı Şorca kəndinin şimal-şərqində yerləşirdi. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "külək" mənasında işlənən "yel" sözü ilə "dərə" sözündən yaranmışdır.

**Yeməzli** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Qafan şəhərindən 10 km şərqdə, Xalac çayının sol sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 92). Kənddə 1831-ci ildə 27, 1873-cü ildə 278, 1886-cı ildə 244, 1897-ci ildə 110, 1904-cü ildə 130, 1914-cü ildə 89 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışdır. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra kəndin sağ qalan sakinləri öz yurdlarına dönə bilmişlər. Kənddə 1922-ci ildə 45, 1926-cı ildə 46, 1931-ci ildə 54 nəfər azərbaycanlı yaşamışdır (415, s. 60–61, 136–137). 1930-cu illərin sonunda kənd ləğv edilmişdir. Toponim yeməzli tayfasının adı əsasında yaranmışdır.

**Yengicə** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Vilayət mərkəzindən 22 km cənubda, ərazidəki Qnişik kəndindən 3–4 km şimal-şərqdə, Daşxaç dağının yaxınlığında yerləşirdi. Kənd XIII əsrdən xatırlanır və kəndin VIII–IX əsrlərdə mövcud olduğu göstərilir (422, s. 34). "İrəvan əyalətinin icmal dəftəri"ndə "Yenicə" kimi (143, s. 59), Qafqazın 5 verstlik xəritəsində "Yengicə" formasında (348, s. 92) qeyd edilmişdir. Kənddə 1897-ci ildə 422 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 92–93). Ermənilər kəndə 1829–1830-cu illərdə İranın Xoy və Səmas, Türkiyənin Van və Alaşkert vilayətlərindən köçürülmüşlər (427, s. 785; 422, s. 34). Bundan sonra azərbaycanlılar kəndi tərk etmişlər. 1969–1970-ci illərdə isə ermənilər Çivə və Aynazor kəndlərinə köçürülmüş və kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır.

**Yuxarı Bədili** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Talin (Talın) rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. 1897-ci ildə kənddə 45 nəfər azərbaycanlı yaşamışdır (415, s. 34–35). 1905–1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində kənd xaraba qalmışdır. Toponim oğuzların "bəydili" etnonimi (399, I, s. 56; 238, s. 288) əsasında yaranmışdır. "Yuxarı" sözü Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirir.

**Yuxarı Gəzbin** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Talin (Talın) rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. 1918-ci ilin yanvarında kənddə 100 nəfər azərbaycanlı yaşamışdır (309, s. 220). 1918-ci ilin martında azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışlar. Kənd 1920-ci ildə ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim Azərbaycan dilində "aşırım", "dağın təpəsindəki çökəklik", "yüksək və orta dağ beli tirəsində olan enli yarıq" mənasında işlənən "gəz" sözü ilə (235, s. 126; 273, s. 56; 339, s. 167) "köçərilərin mal-qara ilə köçüb, kəndin kənarında məskən saldıqları yer, yurd, köç" mənasında işlənən "binə" sözünün birləşməsindən əmələ gəlmişdir. Toponimin əvvəlindəki "yuxarı" sözü fərqləndirici əlamət bildirir.

**Yuxarı Qarabağlar** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Vedibasarın Cığındərə bölgəsində, Böyük Vedi kəndinin şərqində, Vedi çayının sağ kənarında, dəhnəz kəndinin yaxınlığında yerləşirdi. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə "Yuxarı Qarabağ" (143, s. 172), 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə "Böyük Qarabağlar" (143, s. 104), Qafqazın 5 verstlik xəritəsində "Yuxarı Qarabağlar" (348, s. 14) formasında qeyd edilmişdir. Kənddə 1873-cü ildə 135, 1886-cı ildə 175, 1897-ci ildə 233, 1904-cü ildə 420, 1914-cü ildə 462, 1916-cı ildə 243 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışdır. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra sağ qalan sakinlər doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 78, 1926-cı ildə 80, 1931-ci ildə 84 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi 1950-ci ildə zorla Azərbaycana deportasiya edilmiş, sonra kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim fərqləndirici əlamət bildirən "yuxarı" sözü ilə kəngərli tayfasına mənsub olan "qarabağlar" etnonimi əsasında (386, s. 537; 168, s. 99) yaranmışdır.

**Yuxarı Qaraburun** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 115). Kənddə 1897-ci ildə 208 nəfər, 1914-cü ildə 78 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 156–157). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışdır. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim fərqləndirici əlamət bildirən "yuxarı" sözündən və qədim türk dilində "böyük" mənasında işlənən "qara" sözü ilə "irəliyə çıxan və ya suya doğru uzanan quru", "dağlıq", "çıxıntı" mənasında işlənən "burun" (253, s. 99; 278, s. 41; 339, s. 103) sözünün birləşməsindən əmələ gəlmişdir. Toponimlərin tərkibindəki "burun" sözü "qurunun, dağın və ya qayanın sivri bucaq şəklində düzünə tərəf uzanmış hissəsi" mənasını bildirir (198, s.151).

**Yuxarı Qaraçimən** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Kənddə 1897-ci ildə 237 nəfər, 1922-ci ildə 217 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57, 134–135). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışdır. Yalnız indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz kəndlərinə qayıda bilmişlər. 1926-cı ildən sonra kənd ləğv edilərək Aşağı Qaraçimən kəndi ilə birləşdirilmişdir. Toponim qədim türk dilində "böyük, geniş" mənasında işlənən "qara" sözü ilə (94, s. 70) "yaşıl otla örtülmüş sahə" mənasında işlənən "çəmən" sözünün (12, s. 429) dialekt variantına – "çimən" sözünə birləşməsindən əmələ gəlmişdir. "Yuxarı" sözü fərqləndirici əlamət bildirir.

**Yuxarı Qaraqala** – Kənd Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunun, indiki Lori vilayətinin ərazisində mövcud olmuşdur. 1930-cu illərdə rayondakı Aşağı Qaraqala kəndi ilə birləşdirildikdən sonra yaşayış məntəqələri siyahısından çıxarılmışdır. Birləşdirilən kəndlər rəsmi sənədlərdə Qaraqala kəndi kimi qeyd edilirdi. 1937-ci ilə kimi keçmiş Calaloğlu (Stepanavan) rayonunun tərkibində olmuşdur. Kənddə 1886-cı ildə 183, 1897-ci ildə

273, 1908-ci ildə 205, 1922-ci ildə 154, 1926-cı ildə 146, 1931-ci ildə 175 nəfər azərbaycanlı yaşamışdır (415, s. 78–79, 148–149). Toponim fərqləndirici əlamət bildirən "yuxarı" sözü ilə rəng mənasında işlənən "qara" və "qala" sözlərinin birləşməsindən əmələ gəlmişdir. Kəndin adı ərazidəki "qara daşdan tikilən qala" adından götürülmüşdür.

**Yuxarı Qulubəyli** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Eçmiədzin) rayonunun, indiki Armavir vilayətinin ərazisində mövcud olmuşdur. Böyük Qarasu çayının yuxarı axan sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində (143, s. 147) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 336, 1886-cı ildə 397, 1897-ci ildə 293, 1904-cü ildə 286, 1914-cü ildə 304 (415, s. 82–83, 152–153), 1918-ci ilin yanvarında 286 nəfər (309, s. 219) yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevralında kənd erməni silahlı dəstələrinin təcavüzünə məruz qalmış və sakinlər tarixi-etnik torpaqlarından didərgin salınmışdır (309, s. 219). Kənd 1930-cu ildə ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim fərqləndirici əlamət bildirən "yuxarı" sözü ilə qulubəyli nəslinin adı əsasında yaranmışdır.

**Yuxarı Novruzlu** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə "Novruzlu" kimi qeyd edilmişdir (143, s. 49). Kənddə 1828-ci ilə qədər yalnız azərbaycanlılar yaşamışdır. 1828–1830-cu illərdə İranın Xoy və Səlmas əyalətlərindən köçürülən ermənilər kənddə yerləşdirilmişlər (386, s. 551–554). Kənddə ermənilərlə yanaşı, 1831-ci ildə 37, 1873-cü ildə 115, 1886-cı ildə 158, 1897-ci ildə 180 (415, s. 48–49, 128–129), 1918-ci ilin yanvarında 231 nəfər (309, s. 216) azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışdır (309, s. 216). Kənd sonradan ləğv edilmişdir. Hazırda xarabalıqdır.

# Z

**Zabazadur** – Kənd Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunun, indiki Sünik vilayətinin ərazisində mövcud olmuşdur. Sisiandan 12 km məsafədə, Əxlatyan kəndinin yaxınlığında yerləşirdi. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə qeyd edilmişdir(143, s. 183). Kənddə 1873-cü ildə 53, 1886-cı ildə 64, 1897-ci ildə 103, 1908-ci ildə 243, 1914-cü ildə 120 nəfər azərbaycanlı yaşamışdır (415, s. 76–77, 146–147). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışdır. Kənd xarabalığa çevrilərək ləğv edilmişdir. Hazırda xarabalıqdır.

**Zağabaşı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indiki Kotayk vilayəti ərazisində yaşayış məntəqəsi. Burada 1897-ci ildə 7 nəfər azərbaycanlı yaşamışdır (415, s. 44–45). XX əsrin əvvəllərində azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən qovulmuş və yaşayış məntəqəsi ləğv edilmişdir. Toponim Azərbaycan dilində "mağara", "kaha" mənasında işlənən "zağa" sözü ilə (10, s. 317), "zirvə", "təpə", "əvvəl", "başlanğıc", "çayın yuxarısındakı yerlər", "əsas" mənasında işlənən "baş" sözünün (253, s. 100; 278, s. 34; 339, s. 76–77) birləşməsindən əmələ gəlmişdir.

**Zeynalbulaq** – Kənd İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Əştərək rayonunun, indiki Araqatsotn vilayətinin ərazisində mövcud olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 97). Kənddə 1897-ci ildə 41, 1914-cü ildə 61 (415, s. 22–23, 106–107), 1918-ci ilin yanvarında 295 nəfər (309, s. 219) azərbaycanlı yaşamışdır. 1918-ci ilin fevralında azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi

qırğınlar nəticəsində kənddən didərgin salınmışdır. Hazırda kənd xarabalıqdır (309, s. 219). Toponim "Zeynal" şəxs adı və "bulaq" sözündən yaranıb. Kənd Zeynal adlı adamın düzəltdiyi bulağın yaxınlığında salındığı üçün "Zeynalbulaq" adlandırılmışdır.

**Zimmi** – Kənd İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indiki Ararat vilayətinin ərazisində mövcud olmuşdur. Məngük kəndinin yaxınlığında, Zığındərə bölgəsində, Yağan dağının ətəyində yerləşirdi. 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"ndə "Zimmi Vedisi" formasında (143, s. 51) qeyd edilmişdir. Kənddə 1873-cü ildə 184, 1886-cı ildə 231, 1897-ci ildə 322, 1904-cü ildə 259, 1914-cü ildə 285, 1916-cı ildə 216 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 154–155). 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışlar. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar kəndə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 24, 1926-cı ildə 60, 1931-ci ildə 31 nəfər azərbaycanlı yaşamışdır (415, s. 86–87, 154–155). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmiş, sonra kənd ləğv olunmuşdur.

**Zirak (Zirək)** – Kənd İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indiki Vayotsdzor vilayətinin ərazisində mövcud olmuşdur. Arpaçayın sol qolu olan Zirakçayın sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 98). Kənddə 1831-ci ildə 43, 1873-cü ildə 169, 1886-cı ildə 218, 1897-ci ildə 223, 1914-cü ildə 433, 1916-cı ildə 423 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158–159). 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən didərgin salınmışdır. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra – 1923–1924-cü illərdə sağ qalanlar öz yurdlarına qayıda bilmişdilər. Kənddə 1926-cı ildə 158 nəfər, 1931-ci ildə 545 nəfər yalnız azərbaycanlı yaşamışdır (415, s. 88–89, 158–159). SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmiş, sonra kənd ləğv olunmuşdur. Hazırda xarabalıqdır. Toponim qədim türk tayfalarından olan "siraq" etnonimi (377, s. 480, 235, s. 51–59) əsasında yaranmışdır.

# Adları dəyişdirilmiş hidronimlər

## A

**Abaran** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Abaran rayonunda, indi Araqadzon vilayəti ərazisində çay. Uzunluğu 98 km-dir. Başlanğıcını Alagöz dağından götürür, Araz çayına tökülür. Hidronim apar (abar) türk tayfasının adını (299, s. 47) əks etdirir. Hazırda "Kasax" çayı adlanır.

**Adamdərəsi** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayəti ərazisində çay. Adamxan kəndinin ərazisindən axaraq Göyçə (Sevan) gölünə tökülür. Hidronim şəxs adı ilə "dərə" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Adıyaman** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayəti ərazisində çay. Adı dəyişdirilib "Arkzi" qoyulmuşdur.

**Ağdan** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunun, indi Tavuş vilayətinin Ağdan kəndinin ərazisindən axan çay. Ağstafa çayına tökülür.

**Ağgöl** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində göl. "Keyfiyyətli, içməyə yararlı" mənasında işlənən "ağ" sözünə "göl" coğrafi nomeninin artırılması yolu ilə düzəlib. Erməni mənbələrində "Berandzov" formasında qeyd edilib (85, s. 132).

**Ağstafaçay** – Kür çayının sağ qoludur. Uzunluğu 133 km, hövzəsinin sahəsi 2589 km²-dir. Başlanğıcını Kiçik Qafqazın şimal-şərq hissəsindən, Pəmbək sıra dağlarından götürür. Hazırda "Ağstev" adlanır.

**Ağsu** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində çay. "Keyfiyyətli, yararlı" mənasında işlənən "ağ" sözü ilə "çay" mənasında işlənən "su" sözünün (339, s. 528) birləşməsindən əmələ gəlmişdir.

**Ağsuçay** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayəti ərazisində çay. "Keyfiyyətli" mənasını bildirən "ağ" sözü ilə "çay" mənasında işlənən "su" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Axdərə** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində çay.

**Axtala** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Allahverdi (Tumanyan) rayonunda, indi Lori vilayəti ərazisində selav. Uzunluğu 14 km-dir.

**Axtala** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Allahverdi (Tumanyan) rayonunda, indi Lori vilayəti ərazisində çay. Tona (Debet) çayının sol qoludur. Hazırda "Hovanadzor" adlanır.

**Alagöl çayı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayəti ərazisində çay. Çamırlı kəndinin ərazisindən keçərək Göyçə (Sevan) gölünə tökülür.

**Alagöz** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində çay. Alagöz türk tayfasının adı (407, s. 120) əsasında formalaşmışdır.

**Alagöz** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayətində göl.

**Alagöz** – Göyçə (Sevan) gölünün cənub-şərqində göl. Hazırda "Alliçmedz" adlanır.

**Alapars** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda, indi Kotayk vilayəti ərazisində çay. Alapars kəndinin ərazisindən axır. Uzunluğu 16 km-dir. Kəndin adı "bars" türk etnoniminin (299, s. 84) adını əks etdirir.

**Alçalı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayəti ərazisində çay. Alçalı kəndinin ərazisindən keçərək Göyçə (Sevan) gölünə tökülür.

**Aldərə** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri rayonunda, indi Sünik vilayəti ərazisində çay. Araz çayına tökülür.

**Atdaş** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayəti ərazisində çay.

**Arıqlı (Ərikli) çayı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayəti ərazisində çay. Bazarçayın (Vorotan) sağ qoludur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 19).

**Armudlu** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində çay. Çavundur çayına tökülür.

**Arpa (Şərqi Arpa çayı)** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayətinin ərazisində çay. Başlanğıcını Basarkeçər dağ silsiləsindən götürür. Naxçıvanın Şərur rayonu ərazisində Araz çayına tökülür. Uzunluğu 126 km, hövzəsinin sahəsi 2630 km$^2$-dir. Hazırda "Arpi" adlanır.

**Arpaçay (Qərbi Arpaçay)** – Mənbəyini Arpa gölündən götürür, Gümrü ətrafından Türkiyə ilə sərhədboyu uzanır, Hoktemberyan (Sərdarabad) ərazisində Hacı Bayram (Baqaran) kəndi yaxınlığında Araz çayına tökülür. Uzunluğu 186 km, hövzəsinin sahəsi 9670 km$^2$-dir. Hazırda "Axuryan" adlanır.

**Arpa gölü** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağbaba mahalında, indi Şirak vilayəti ərazisində göl. Sahəsi 22 km$^2$-dir. Su ehtiyatlarına görə Göyçə gölündən sonra indi Ermənistan ərazisində ikinci böyük göldür. Hazırda "Arpi" adlanır.

**Aydın gölü** – İcevan (Karvansara) rayonunda, Dilican şəhərindən şərqdə, Dilican milli parkı ərazisində, uzunluğu 385 m, eni 85 m olan göl. Hazırda "Parz lic" adlanır.

**Ayğır gölü** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Eçmiədzin) rayonunda, indi Armavir vilayəti ərazisində göl. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 8). Sahəsi 60 ha olan gölün sututumu 310 min m$^3$-dir. Hidronim türk dilində "erkək at" mənasında işlənən "ayğır" sözü ilə "göl" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Ayısəsi** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində çay. Uzunluğu 12 km-dir. Arpa çayına tökülür.

# B

**Babacan çayı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, indi Basarkeçər (Vardenis) rayonunun Babacan kəndi ərazisindən keçən, Göyçə gölü hövzəsində çay. Göyçə gölünə tökülür. Uzunluğu 10 km-dir. Hidronim "Kitabi-Dədə Qorqud" dastanında adı çəkilən "Baybecan" şəxs adı əsasında yaranmışdır.

**Bakı gölü** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Araqatsotn vilayətində, Alagöz dağının zirvəsində, dəniz səviyyəsindən 3128 m hündürlükdə yerləşir.

**Balıqçay** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhəri ərazisində çay. Hidronim qədim türk dilində "şəhər" mənasında işlənən "balıq" sözü ilə (299, s. 80) "çay" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Barana** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayəti ərazisində çay. Hidronim türk mənşəli "barana" etnonimi ilə bağlı (271, s. 29) yaranmışdır.

**Basutçay** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində çay. "Basatçay" da deyilir. "Kitabi-Dədə Qorqud" dastanındakı "Basat" şəxs adı ilə bağlı yaranan hidronimdir.

**Bayandur** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayəti ərazisində çay. Bayandur kəndindən 5 km şimal-qərbdə yerləşir. Uzunluğu 14 km-dir. Hidronim qədim türk tayfalarından olan "bayandur" etnonimi ilə bağlıdır.

**Baydarçay** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Quqark rayonunun, indi Lori vilayətinin Mollaqışlaq kəndinin ərazisindən axan çay. Hidronim "baytar/baydar" türk etnonimi əsasında yaranmışdır.

**Bazarçay** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian və Gorus rayonlarının ərazisindən keçən çay. Həkəri çayına qovuşur. Uzunluğu 179 km-dir. Bazar türk tayfasının adından (286, s. 61) və "çay" coğrafi nomenindən əmələ gəlmişdir. Hazırda "Vorotan" adlanır.

**Böyükçay** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunun, indi Kotayk vilayətindəki Qayqoca kəndinin ərazisindən axan çay.

# C

**Cəlaloğlu çayı** – Tiflis quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Cəlaloğlu (Stepanavan) rayonunda, indi Lori vilayəti ərazisində çay. Tona (Debed) çayının sol qoludur. Uzunluğu 67 km-dir. Hazırda "Dzoraqet" adlanır.

**Cığınsu** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayəti ərazisində çay. Cığın dərəsindən axdığı üçün çay Cığınsu adlandırılmışdır. Hidronim cigin türk tayfasının adı ilə (142, s. 40) "su" (çay) sözünün birləşməsindən əmələ gəlmişdir.

**Culçay** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində çay. Arpa çayının sağ qoludur. Hidronim çul türk tayfasının adı ilə (286, s. 31–32; 287, s. 111–114) "çay" coğrafi nomeninin birləşməsindən yaranmışdır.

# Ç

**Çanaqlı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayəti ərazisində çay. Vilayətdəki Kotuz kəndinin ərazisindən axır. Hidronim "çanaqlı" etnonimi əsasında əmələ gəlmişdir.

**Çapan** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayəti ərazisində çay. Köhnə Şahablı kəndinin ərazisindən axır. Hidronim türk dilində "uçurum, sıldırım, yarğan, yamac, dağın döşü, dərin dağarası çökəklikdə təpə" (339, s. 607),

"çılpaq (bitkisiz) daşlıq və ya qumlu yamac" (287, s. 477) mənalarında işlənən "çap" sözünə "-an" şəkilçisinin birləşdirilməsi əsasında əmələ gəlmişdir.

# D

**Daşağan çayı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayəti ərazisində çay. Sarıyaqub (Cağatsadzor) kəndinin ərazisindən axır. Hidronim "daş" (daşmaq) feilinə feildən sifət düzəldən "-ağan" şəkilçisinin qoşulması əsasında yaranmışdır.

**Daşbulaq** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Allahverdi (Tumanyan) rayonunda, indi Lori vilayəti ərazisində çay. Qaçağan (Arevadzor) kəndinin ərazisindən axır. Azərbaycan dilində işlənən "daş" və "bulaq" sözlərindən əmələ gəlmişdir.

**Dəllər** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda, indi Kotayk vilayəti ərazisində çay. Dəllər kəndinin ərazisindən keçir. "Tele" (dəli) qədim türk etnonimini (180, s. 21, 25) əks etdirir.

**Dəlikdaş** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayəti ərazisində çay. Dəlikdaş (Tsaxkar) kəndinin ərazisindən keçir.

**Dəvəgözü** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayəti ərazisində çay. Vilayətin ərazisindəki Milli dərədən axır. Hidronim türk dillərində "dağ aşırımı, hündür dağ keçidi" mənasında işlənən "dəvə" (dava/daba) sözü ilə (253, s. 100–101; 339, 168–169) Azərbaycan dilində "bulağın başladığı yer, suyun çıxdığı yer, qaynaq, mənbə" mənasında işlənən "göz" sözünün (11, s. 174; 339, s. 142) birləşməsindən əmələ gəlmişdir.

**Dəyirmançay** – Qars quberniyasının Qars qəzasında, keçmiş Amasiya rayonunda, indi Şirak vilayəti ərazisində çay. Arpaçay (Axuryan) çayının sol qolu. Uzunluğu 10 km-dir. Dəyirmanın işlədilməsində istifadə edildiyi üçün Dəyirmançay adlandırılmışdır.

# E

**Ecanan çayı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində çay. Baydaq kəndinin yaxınlığında Oxçu çayı ilə birləşir. Başlanğıcını 2700 m yüksəklikdə olan Bərgüşad sıra dağlarından götürür. Uzunluğu 27 km-dir.

# Ə

**Əfsərli çayı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində çay. Hidronim əfşar türk tayfasının adı (399, I, s. 56) əsasında əmələ gəlmişdir.

**Ələyəz çayı** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində çay. Arpa çayının sağ qoludur. Uzunluğu 49 km-dir. Hazırda "Yeğegis" adlanır.

**Əliqırıq** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayəti ərazisində çay. Erməni mənbələrində çayın adı "Əliqırıx" formasında da qeyd edilib (427, s. 84). Vilayətin ərazisindəki Ağıraq (Astğadzor) kəndinin ərazisindən axıb Göyçə (Sevan) gölünə tökülür. Uzunluğu 22 km-dir. "Əli" şəxs adı ilə "qırıq" türk etnonimi əsasında əmələ gəlmişdir.

**Ərgəzçay** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində çay.

**Ərinc** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunun, indi Vayotsdzor vilayətindəki Ərinc kəndinin ərazisində çay.

**Əskili çayı** – Yelizavetvol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində çay. Hidronim bulqar türk tayfasına mənsub "eskil/iskil" etnonimi (287, s. 135) əsasında formalaşmışdır.

**Ətlik gölü** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayətində göl. Cücəkənd (Qızıl Şəfəq, Cunaşoğ) kəndinin ərazisində yerləşir.

**Əyricə** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayəti ərazisində çay. Ağbulaq (Ağberk) və Toxluca (Draxtik) kəndlərinin sərhədindən axır.

# G

**Gedərçay** – İrəvan şəhərində axan bu çay mənbəyini Hədis dağlarından alır. İrəvan şəhərinin Dəmirbulaq məhəlləsindən keçib Zəngi (Hrazdan) çayına tökülür.

**Gendərəçay** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində çay. Uzunluğu 15 km-dir.

**Gərd çayı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində çay.

**Gərgər** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Cəlaloğlu (Stepanavan) rayonunda, indi Lori vilayəti ərazisində çay. Hidronim qədim türk tayfalarından biri olan "qarqar" etnonimi ilə bağlı (377, s. 479) yaranmışdır.

**Gərniçay** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Artaşat (Qəmərli) rayonunda, indi Ararat vilayəti ərazisində çay. Uzunluğu 34 km-dir. Çayın adı dəyişdirilib "Azadçay" qoyulmuşdur.

**Gığıçay** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində çay. Mənbəyini Qazangöl gölündən götürür. Zeyvə kəndi yaxınlığında Oxçu çayına qovuşur. Hidronim "gığı" (kiği) türk etnonimini (305, s. 24) əks etdirir.

**Girətağçay** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində çay. Oxçu çayının sol qolunun adıdır. Vilayətdəki Girətağ kəndinin ərazisindən axır.

**Gomur** – Başlanğıcını Lori vilayətindəki Pəmbək dağlarından alır. Uzunluğu 15 km-dir. Hidronim qədim türk dilində "dağ başında uçurumlu, yarğanlı yer" mənasında işlənən "gomur" sözü (359, II (2), s. 1321) əsasında yaranmışdır.

**Goravan çayı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayəti ərazisində çay. Vilayətdəki Goravan kəndinin ərazisindən axır.

**Gorus** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayəti ərazisində çay. Uzunluğu 29 km-dir. Hidronim "qoros" (gorus) türk tayfa adı (168, s. 10-11; 287, s. 129-133) əsasında formalaşmışdır.

**Göllü** – Qars quberniyasının Qars qəzasında, keçmiş Amasiya rayonunda, indi Şirak vilayəti ərazisində göl. Göllü (Ardenis) kəndinin qərbində yerləşir. Dərinliyi 20 m-dir.

**Göyçə** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunda, indi Geğarkunik vilayəti ərazisində çay. Göyçə (Sevan) gölünə tökülür. Hidronim rəng mənasında (suyun təmizliyinə, mavi rəngdə olduğuna işarədir) işlənən "göy" sözü ilə "çay" sözünün qısaldılmış formasına (şəkilçiləşmiş forması) çevrilmiş "çə" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Göyçə gölü** – İrəvan xanlığının Göyçə mahalında, İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, indi Geğarkunik vilayəti ərazisində göl. Erməni mənbələrində gölün adı "Göyçə dərya", "Göyçə dəngiz", "Göyçay", "Göyçə dəniz" kimi də qeyd edilib (427, s. 894, 899). "Kitabi-Dədə Qorqud" dastanında Göyçə gölünün adı "Göycə dəniz" (157, s. 134) və "Gökcə dəniz" (158, s. 110) formalarında (Dede Korkut kitabı, I, Ankara, 1989, s. 225) qeyd edilmişdir. Göyçə gölü indi Ermənistanın keçmiş Kəvər (Kamo), Sevan, Qaranlıq (Martuni), Basarkeçər (Vardenis), Krasnoselsk rayonlarının ərazisində yerləşir. Sahəsi 1400 $km^2$, orta dərinliyi 28,5 m, maksimal dərinliyi 83 m-dir. Göyçə gölü dağarası çökəklikdə, təqribən 1900 m hündürlükdədir. Qafqazın ən iri və uca dağ gölüdür (28, s. 30). Şimal-qərbdən Pəmbək, cənubdan Basarkeçər, qərbdən Şahdağ silsilələri ilə əhatə olunur. Gölə 28 çay tökülür. Göldən isə yalnız Zəngi (Hrazdan) çayı axır (ASE, VIII c., B., 1984, s. 320). Gölün suyunun rəngi göy (təmiz, duru mənasında) olduğu üçün Göycə, yaxud Göyçə adlandırılmışdır. Göyçə gölünün adı XX əsrin əvvəllərində ermənilər tərəfindən dəyişdirilib, vaxtilə albanlar tərəfindən qara daşdan tikilmiş kilsəyə uyğun olaraq Sevan (Sevvank) qoyulmuşdur.

**Göygöl** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində göl. Suyu təmiz, şəffaf olduğuna və suyun rəngi göyə çaldığına görə "Göygöl" adlandırılmışdır. Adı dəyişdirilib "Kapuyt lic" qoyulmuşdur.

**Gözəldərə** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayəti ərazisində çay. Gözəldərə kəndinin ərazisindən axır.

**Gülüdüz** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətindəki Gülüdüz kəndinin yanından axan çay. Uzunluğu 15 km-dir.

**Gümüşxana** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində selav. Gümüşxana kəndinin ərazisindədir.

# H

**Hallavar** – Tiflis quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark rayonunda, indi Lori vilayəti ərazisində, Hallavar kəndinin yaxınlığında çay.

**Herher** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində çay. Arpa çayının bir qoludur. Hidronim "qarqar" (herher) etnonimi əsasında yaranmışdır.

# X

**Xalacçay** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində çay. Vilayətdəki Xalac (Ecanan) kəndinin ərazisindən axır. "Xalac" adlı türk etnonimi (228, s. 35) əsasında yaranmışdır.

# İ

**İstisu** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayətində mineral su mənbəyi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 105). İndi Cermuk şəhərinin ərazisində yerləşir.

# K

**Kotanlıçay** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində çay. Kotanlı (Karmraşen) kəndinin ərazisindən axır. Hidronim qıpçaqların "kotanlı" etnoniminin adını (286, s. 50) əks etdirir.

**Köçbəyçay** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində çay. Köçbək (Uğedzor) kəndinin ərazisindən axır. Hidronim türk dilində "düşərgə, çobanların müvəqqəti yaşayış yeri, yurd" mənasında işlənən "koş" (koç) sözü ilə (339, s. 298-299) qədim türk dilində "təpə" mənasında işlənən "bək" (bak) sözünün (359, IV (1), s. 754) birləşməsindən əmələ gəlmişdir.

# Q

**Qabaxlı** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində çay. Qafqazın 5 verstlik xəritəsində (348, s. 106) qeyd edilmişdir. Qabaxlı kəndinin ərazisindən keçir. "Qabaq" türk etnonimi əsasında yaranmışdır.

**Qanlıgöl** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Kəvər (Kamo) rayonunda, indi Geğarkunuk vilayətində göl. Kəvər (Kamo) şəhərindən 21 km cənub-şərqdə yerləşir. Dərinliyi 30–32 m-dir. Gölün adı qanlı türk tayfasının adını (245, s. 41) əks etdirir. Adı dəyişdirilərək "Aknaliç" qoyulmuşdur.

**Qanlıgöl** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunun, indi Ararat vilayətindəki Qaraqoyunlu kəndinin yaxınlığında göl. Türk mənşəli qanlı tayfasının adı (245, s. 41) əsasında əmələ gəlmişdir.

**Qaragöl** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayətində göl. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 115). Hidronim Azərbaycan dilində "keyfiyyətsiz, ağır, içməyə, istifadəyə yararsız" mənasında işlənən "qara" sözü ilə "göl" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qaragöl** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Araqatsotn vilayətində, Alagöz dağının ətəklərində, Babakişi kəndi yaxınlığında göl. Dəniz səviyyəsindən 3207 m yüksəklikdə yerləşir, maksimal dərinliyi 8 m, sahəsi 30 ha-dır. Hazırda "Kari lic" adlanır.

**Qaranqu** – İrəvan quberniyasının qəzasında, keçmiş Ağin (Ani) rayonunda, indi Şirak vilayəti ərazisində çay. Molla Gökçə (Maralik) kəndinin ərazisindən axır. Qafqazın 5 verstlik xəritəsində (348, s. 118) qeyd edilmişdir. Uzunluğu 38 km-dir. Mənbəyini Alagöz dağındakı Qara göldən və bulaqlardan alıb Araz çayına tökülür. Hidronim M.Kaşğarinin "Divani-lüğət-it türk" əsərində "tutqun, çirkin, şübhəli" mənasında işlənən "qaranqu" sözü (5, s. 63) əsasında əmələ gəlmişdir. Çayın adı dəyişdirilərək əvvəlcə Sevcur, daha sonra Metsamor qoyulmuşdur.

**Qarlıdərə çayı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində çay.

**Qazangöl** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində göl. Qazangöl dağında, Acıbac kəndindən 20 km şimalda yerləşir. Sahəsi 0,18 km$^2$, dərinliyi 10 metrdir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 107). Hidronim bulqarların "qazan" (kazan) etnonimi ilə (273, s. 235) "göl" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qızılbulaq çayı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayəti ərazisində çay. Çaxırlı (Xaçaxbyur) kəndi ərazisindən axır. Hidronim "qırmızı" mənasında işlənən "qızıl" sözü və "bulaq" hidroterminінin birləşməsi əsasında əmələ gəlmişdir.

**Qızılqoç** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda çay. Adı dəyişdirilərək əvvəlcə "Qukasyan", daha sonra isə "Aşosk" qoyulmuşdur.

**Qolqat** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayətində göl. Hidronim türk dilində "dərə, vadi" mənasında işlənən "qol" (299, s. 453) və "bataqlıq" mənasında işlənən "qat" sözlərindən (339, s. 141) əmələ gəlmişdir.

**Qoşagöl** – İndi Ermənistanın İcevan rayonunda, Tavuş vilayəti ərazisində göl. İcevan şəhərinin cənubunda yerləşir. Hidronim Azərbaycan dilində "cüt", "iki" mənasında işlənən "qoşa" sözü əsasında yaranmışdır.

**Qurdqulaq** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində çay. Türk etnonimi olan "qurd" sözü əsasında yaranmışdır.

**Quşdoğan çayı** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, Dilican şəhəri ərazisində çay.

# M

**Məzrə çayı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətindəki Məzrə kəndinin ərazisindən axan çay. Hidronim "əkin yeri" mənasında işlənən "məzrə" sözündən (104, s. 343) əmələ gəlmişdir.

**Muradtəpəsu** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində çay. Hidronim Muradtəpə toponimi ilə türk dilində "çay" mənasında işlənən "su" sözünün birləşməsindən əmələ gəlmişdir.

# O

**Oxçuçay** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində çay. Başlanğıcını Zəngəzur silsiləsinin Qapıçıq dağından götürür, Qafan rayonundan və Azərbaycanın Zəngilan rayonundan keçərək Araz çayına tökülür. Uzunluğu 85 km, hövzəsinin sahəsi 1140 km$^2$-dir. Hidronim "Kitabi-Dədə Qorqud" dastanında adı çəkilən "Oxçu" şəxs adı ilə bağlıdır. Qeyd etdiyimiz kimi, "oxçu" sonradan etnonimə çevrilmiş, türk tayfalarından biri kimi sabitləşmişdir.

**Oxtar çayı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində çay. "Tayfa, tayfa ittifaqı" mənasını bildirən "oxtar" sözü əsasında formalaşmışdır.

**Ordunçay** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayəti ərazisində çay. Yuxarı Çanaxçı (Sovetaşen) kəndinin ərazisindən axır.

**Ovandərəçay** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Cəlaloğlu (Stepanavan) rayonunda, indi Lori vilayəti ərazisində çay. Ovandərə (Hovanadzor) kəndinin ərazisindən axır.

# P

**Pəmbək çayı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Quqark rayonunda, indi Lori vilayəti ərazisində çay. Uzunluğu 86 km-dir. Hidronim türk dilində "çay içərisində qırılmış qayalıq" mənasında işlənən "bom" (boom) sözü ilə (339, s. 91), "hündür, yüksəklik, başlanğıc" mənasında işlənən "bak" sözünün (339, s. 66) birləşməsindən əmələ gəlmişdir.

# S

**Sələng çayı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri rayonunda, indi Sünik vilayəti ərazisində çay. Vilayətdəki Nüvədi (Nrnadzor) kəndinin içərisindən keçir. Hidronim türk dilində "səs, səs-küy" mənasında işlənən "sələng" (salank) sözü (359, II (1), 479) əsasında formalaşmışdır.

# Ş

**Şəki şəlaləsi** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində şəlalə. Şəki kəndindən 3 km şimal-qərbdə, Bazarçay dərəsində yerləşir. Hündürlüyü 18 metrdir (85, s. 192). Şəlalə Şəki kəndində olduğu üçün "Şəki şəlaləsi" adlandırılmışdır.

**Şıxovuz çayı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində çay. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 296). Hidronim "şıx" (şeyx) sözü ilə "oğuz" etnoniminin fonetik variantı olan "ovuz" etnonimi əsasında əmələ gəlmişdir.

**Şotalı çayı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində çay. Kurud kəndinin içərisindən keçir. Hidronim qədim türk mənşəli hunların varisi olan "şato" etnonimi (180, s. 253) əsasında əmələ gəlmişdir.

**Şurnuxuçay** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayəti ərazisində çay. Şurnuxu kəndinin ərazisindən axdığı üçün "Şurnuxuçay" adlandırılmışdır.

# T

**Tamaşalıq** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində çay. Arpa çayının sol qolunun adıdır. Adı dəyişdirilərək "Akori" qoyulmuşdur.

**Tərp çayı** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində çay. Azərbaycan dilində "təpə" mənasında işlənən "tərp" sözü (253, s. 130) əsasında əmələ gəlmişdir.

**Tərsaçay çayı** – Başlanğıcını Göyçə dağlarından götürür. Qaraqoyunlu dərəsindən keçir. Uzunluğu 58 km-dir. Ağstafa çayının sol qoludur.

**Toxmaqgöl** – İrəvan quberniyasının İrəvan qəzasında, indi İrəvan şəhəri ərazisində göl. İrəvan şəhərinin şərqində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 246). İrəvan xanı Məhəmməd Xudabəndə (1578–1587)

dövründə şəhər torpaqlarını suvarmaq üçün iri bir göl (uzunluğu 400, eni 250 sajın) tikilmiş, yeni arxlar çəkilmişdir. "Toxmaq" qızılbaşların ustaclı tayfasından olan Məhəmməd xanın ləqəbidir (175, s. 29). Göl Məhəmməd xan Toxmaq tərəfindən salındığı üçün "Toxmaqgöl" adlandırılmışdır. Sovet hakimiyyəti illərində bərpa olunduqdan sonra "Şaumyan" gölü adlandırılmışdır. Gölü yerli əhali bu gün də "Toxmaqgöl" adlandırır.

# Y

**Yazyurdsu** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində çay. Hidronim türk dilində olan "yazı" ("çöl", "düzənlik") (299, s. 251), "yurd" ("yaşayış yeri", "ev, eşik", "məskən", "düşərgə") (10, s. 568; 339, s. 643) və "su" (çay) (339, s. 528) sözlərinin birləşməsindən əmələ gəlmişdir.

**Yoğunsu** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində çay. Ələyəz kəndinin ərazisindən axır. Hidronim "çoxlu, bol sulu" mənasında işlənən "yoğun" sözü ilə qədim türk dilində "çay" mənasında işlənən "su" sözündən (299, s. 512; 339, s. 528–529) yaranmışdır.

# Z

**Zeytədərəsi çayı** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində çay. Zeyvə kəndinin ərazisindən axır.

**Zəngi** – Keçmiş İrəvan quberniyasının ərazisində, indi Ermənistanda çay. Bu çay başlanğıcını Göyçə (Sevan) gölündən alır. Axta (Hrazdan) və Sevan rayonlarının, İrəvan şəhərinin Zəngibasar (Masis) rayonunun ərazisindən axıb Araz çayına tökülür. "İrəvan əyalətinin icmal dəftəri"ndə qeyd edilmişdir (143, s. 95). Çayın adı qıpçaqların zəngi tayfasının adı (238, s. 123, 257; 256, s. 26) əsasında yaranmışdır. Sonra bu ad dəyişdirilərək "Hrazdan" qoyulmuşdur.

**Zirakçay** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində çay. Vilayətdəki Zirak kəndinin ərazisindən axır. Hidronim "sirak/şirak" etnoniminin adını (377, s. 480; 235, s. 51–59) əks etdirir.

**Zod** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayəti ərazisində çay. Hidronim "sadak" türk tayfa adını (168, s. 105–107) əks etdirir. Hazırda "Sotk" adlanır.

# Adları dəyişdirilmiş oronimlər

## A

**Abbasbiçənək** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətinin Əmağu kəndi ərazisində dağ. Toponim "Abbas" şəxs adı ilə beçenek (peçeneq) türk tayfasının adı (399, s. 57–58) əsasında yaradılıb.

**Adatəpə** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayəti ərazisində dağ. Adı dəyişdirilərək "Qarnasar" qoyulmuşdur.

**Ağadi** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayəti ərazisində dərə. Ağstafa çayının sahilində yerləşir.

**Ağçala** – Gürcüstanın Ermənistanla sərhəd xəttinin üzərində, Şirak və Lori vilayətləri ərazilərinin kəsişməsində, Qaraarxac (Qaraxaç) aşırımında, Ağçala çayının yuxarı axarında yerləşən dağ. Hündürlüyü 3196 m-dir. Hazırda "Açkasar" adlanır.

**Ağdağ** – İrəvan xanlığının Göyçə mahalında, keçmiş Kəvər (Kamo) rayonunda, indi Geğarkunik vilayəti ərazisində hündürlüyü 3560 m olan dağ. Toponim qədim Azərbaycan dilində "uca", "hündür" mənasını bildirən "ağ" sözü ilə (158, s. 36, 134), "dağ" sözünün (196, s. 37) birləşməsindən əmələ gəlmişdir. Hazırda "Spitakasar" adlanır.

**Ağdağ** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayəti ərazisində dağ. Azərbaycan dilində "uca", "hündür" mənasını bildirən "ağ" sözü ilə (158, s. 36, 134), "dağ" sözünün (196, s. 37) birləşməsindən yaranıb.

**Ağdağ** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində dağ. Məlikşah (Malişka) kəndinin şimal-şərqində yerləşir. Hündürlüyü 1897 m-dir. Toponim qədim türk dilində "uca", "hündür" mənasında işlənən "ağ" sözü ilə "dağ" sözünün (196, s. 37) birləşməsindən yaranıb.

**Ağqaya** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Dağın adı qədim türk dilində "hündür, uca" mənasında işlənən "ağ" sözü ilə "qaya" coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir.

**Ağmanqan** – Göyçə gölündən indi Geğarkunik (Novo-Bəyazid) və Kotayk (Axta) vilayətlərini əhatə etməklə Araz çayınadək uzanan uzunluğu 70 km olan dağ silsiləsi. Ən hündür zirvəsi hündürlüyü 3597 m olan Qızıldağ (hazırda Ajdahak) zirvəsidir. Toponim "ağman" türk tayfa adına (271, s. 17) qədim türk dilində "məkan", "yer", "ərazi" mənasında işlənən "qan" sözünün qoşulması yolu ilə formalaşmışdır. Dağ silsiləsi hazırda "Geğam silsiləsi" adlanır.

**Ağyarğan** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində dağ. Ağxaç kəndinin şimal-qərbində yerləşir. Erməni mənbələrində "Ağyorğan" kimi qeyd edilir (427, s. 242). Hündürlüyü 2528 m-dir. Toponim Azərbaycan dilində "dayaz, çox da dərin olmayan" mənasında işlənən "ağ" sözü ilə (95, s. 269) "ətrafı sıldırımlı iri, uzun dərə" mənasında işlənən "yarğan" sözünün (10, s. 498) birləşməsindən əmələ gəlmişdir.

**Ağyoxuş** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik ərazisindəki Sultan

Əli qışlağı (Canəhməd) kəndi ərazisində aşırım. Toponim qədim türk dilində "hündür" mənasında işlənən "ağ" sözü ilə "yolun dağa, təpəyə qalxan hissəsi" mənasında işlənən "yoxuş" sözünün (10, s. 561) birləşməsindən əmələ gəlmişdir.

**Ağzıböyük** – Ermənistanla Gürcüstanın sərhədində uzunluğu 75 km, ən hündür zirvəsi 2543 m olan (Ləlvər zirvəsi) dağ silsiləsi. Ermənilər hazırda onu "Virahayots dağları" adlandırırlar.

**Axarbaxar** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonu, indi Geğarkunik vilayəti ərazisində dağ. Adı dəyişdirilib "Porak" qoyulmuşdur.

**Alagöllər** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik ərazisində dağ. Göyçə (Sevan) gölünün cənub-şərqində, Basarkeçərin cənubunda yerləşir. Hündürlüyü 2985 m-dir.

**Alagöz (Ələyəz)** – İrəvan quberniyasında, indi Araqatsotn və Şirak vilayətlərinin sərhədində dağ. Hündürlüyü 4090 metrdir. İrəvan şəhərindən 40 km şimal-qərbdə yerləşir. Toponim qədim türkcə olmaq etibarilə "ala" və "kəz" (gəz) hissələrindən ibarətdir. Adın birinci komponenti olan "ala" sözü türk dillərində "geniş" (böyük) mənasındadır. Toponimin ikinci hissəsi olan "göz" (gəz) sözü "dağ başında batıq yer" deməkdir. Alagöz dağı vulkan mənşəlidir və zirvəsində böyük batıq var. Alagöz dağı Azərbaycan türklərinin yaylaq yeri olmuşdur. Hazırda adı dəyişdirilib "Araqadz" qoyulmuşdur.

**Alapapaq** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda, indi Kotayk vilayəti ərazisində dağ. Göyçə (Sevan) gölü hövzəsində, Zəngi çayının yuxarı sahilində yerləşir. "Alapapaq" türk tayfa adı əsasında yaranmışdır.

**Alçalıq** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində yerləşib. "Alça" bitki adına Azərbaycan dilində məkan bildirən "-lıq" şəkilçisinin artırılması ilə düzəlmişdir.

**Alçalı təpə** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayəti ərazisində təpə. Alçalı kəndinin yaxınlığında yerləşir. Azərbaycan dilində işlənən "-lı" şəkilçisi qəbul etmiş "alça" sözü ilə Azərbaycan dilində "kiçik dağ" mənasında işlənən "təpə" sözünün birləşməsindən yaranmışdır.

**Almalıq** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ. "Almalı" sözünə Azərbaycan dilində məkan mənası bildirən "-lıq" şəkilçisinin artırılması ilə yaranmışdır.

**Altuntaxt** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda, indi Geğarkunik vilayəti ərazisində dağ. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 14). Toponim türk dilində "qırmızı" mənasında işlənən "altın" sözü ilə (299, s. 40) "dağın zirvəsində hamar, düzən yer" mənasını bildirən "taxt" sözünün (339, s. 54–70, 210 s. 5) birləşməsindən yaranmışdır.

**Arxaşan** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində dağ. İstisu (Cermuq) şəhərinin şərqində yerləşir.

**Arıqlı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayəti ərazisindəki Arıqlı kəndinin yaxınlığında dağ. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 19). "Arıql" etnonimi əsasında əmələ gəlmişdir.

**Armudlu dərəsi** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dərə.

**Ayıbasan** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Quqark rayonunda,

indi Lori vilayətindəki Həmzəçimən kəndinin ərazisində dağ. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 8). Toponim "ayı" və" basan" feili sifətinin birləşməsindən əmələ gəlmişdir.

# B

**Babaxan** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Tavuş vilayətinin, Dilican şəhərinin ərazisində dağ. Dilican şəhərindən 22 km şərqdə, Ağstafa çayının yaxınlığında yerləşir. Hündürlüyü 2337 m-dir. Şəxs adı əsasında yaranmışdır.

**Babakər** – Ermənistanla Gürcüstanın sərhədi boyu uzanan, Lori və Tavuş vilayətlərini əhatə edən, uzunluğu 80 km olan dağ silsiləsi. Ən hündür zirvəsi hündürlüyü 2446 m olan Çətin (hazırda "Djrasar" adlanır) zirvəsidir. Dağ silsiləsi hazırda "Quqaratsi silsiləsi" adlanır.

**Balatüklütəpə** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayəti ərazisində təpə. Yuxarı Körpülü kəndi ilə Gürcüstanın Marneuli rayonundakı Qaçağan kəndinin sərhədində yerləşir. Toponim Azərbaycan toponimiyasında fərqləndirici əlamət bildirən "bala" (kiçik mənasında) sözü ilə Azərbaycanın Borçalı şivəsində "sıx kol-kosluq" mənasında işlənən "tüklü" (129, s. 64) və "kiçik dağ" mənasında işlənən "təpə" sözlərinin birləşməsindən əmələ gəlmişdir.

**Baldırğanlı dağ** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ. "Baldırğan" bitki adından yaranmışdır.

**Baldırğanlıq** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayəti ərazisində dağ. "Baldırğan" bitki adına "-lıq" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir.

**Bayat dağı** – Tiflis quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark rayonunda, indi Lori vilayətinin Hallavar kəndi ərazisində dağ. Türk mənşəli "bayat" etnoniminin əsasında yaranan toponimdir.

**Bərgüşad** – Ermənistanın cənubunda – Zəngəzur ərazisində, uzunluğu 70 km olan dağ silsiləsi. Ən hündür zirvəsi hündürlüyü 3399 m olan Gəzbel dağıdır. Hazırda "Aramazd" adlanır.

**Bərkdərə** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində dərə. Azərbaycan dilində "çətin" və "möhkəm" mənasında işlənən "bərk" sözü ilə "dərə" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Bəybuğan** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Hazırda adı dəyişdirilib "Bağaysar" qoyulmuşdur.

**Bora dağı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Quqark rayonunda, indi Lori vilayətinin Yuxarı Kilsə kəndi ərazisində dağ. Toponim Azərbaycan dilində "sırsıra" mənasında işlənən "bora" sözü ilə (253, s. 121) dağ oroterminin birləşməsindən əmələ gəlmişdir.

**Bozabdal** – İrəvan quberniyasının Aleksandropol qəzasında, indi Şirak vilayətindən Lori vilayətinədək uzanan, uzunluğu 66 km olan dağ silsiləsi. Ən hündür zirvəsi hündürlüyü 2992 m olan Ağlağan dağıdır (Hazırda "Urasar"adlanır). Dağ silsiləsi hazırda "Bazum" adlanır.

**Bozabdal yaylası** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayəti ərazisində yayla. Vilayətin ərazisindəki Saral kəndində yerləşir. Toponim "boz" və "avdal" (abdal) etnonimləri ilə "dağlıqda olan düzən yerlər" mənasında işlənən "yayla" sözünün (10, s. 477) birləşməsindən yaranmışdır.

**Bozburun** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Talin rayonunda, indi Araqatsotn vilayəti ərazisində dağ. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 41). Dağın adı dəyişdirilib "Yeraxs" qoyulmuşdur (427, s. 716). Toponim türk dilində "otsuz, çılpaq, meşəsiz" mənasında işlənən "boz" sözü ilə (339, s. 88) "dağ çıxıntısı, dağın qolu" (339, s. 103), "qurunun, dağın və ya qayanın sivri bucaq şəklində uzanmış hissə"si (198, s. 151) mənasında işlənən "burun" sözünün birləşməsindən əmələ gəlib "otsuz, çılpaq dağ çıxıntısı" mənasını ifadə edir.

**Bozyoxuş** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayəti ərazisində aşırım. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 41). Toponim türk dilində "otsuz, çılpaq" mənasında işlənən "boz" sözü ilə (339, s. 87–88) "dikə, təpəyə qalxan yol" mənasında işlənən "yoxuş" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Böyük Ağbaba** – Qars vilayətinin Qars qəzasında, Ağbaba nahiyəsində, hazırda Şirak vilayətinin ərazisində, Türkiyə və Gürcüstanla sərhəddə hündürlüyü 3011 m olan dağ. Sovet hakimiyyəti illərində inqilabçı Qukasyanın adı verilmişdi. "Mets Qukasyan" adlanırdı. Hazırda "Yerakatar" adlanır.

**Böyük təpə** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayətinin Cücəkənd (Qızıl Şəfəq, Dzunaşoğ) kəndində təpə. Toponim Azərbaycan dilində "geniş, hündür, iri" mənasında işlənən "böyük" sözü ilə "kiçik dağ" mənasında işlənən "təpə" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Böyüktüklütəpə** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Lori vilayətində təpə. Vilayətin ərazisindəki Yuxarı Körpülü kəndi ilə Gürcüstanın Marneuli rayonundakı Qaçağan kəndinin sərhədində yerləşir. Toponim Azərbaycan dili şivələrində "sıx, kol-kosluq" mənasında işlənən "tüklü" sözü ilə (129, s. 64) "kiçik dağ" mənasında işlənən "təpə" sözünün birləşməsindən əmələ gəlmişdir. "Böyük" sözü fərqləndirici əlamət bildirir.

**Buğdatəpə** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında dağ. Göyçə (Sevan) gölünün yaxınlığında yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 44). Toponim bitki adı bildirən "buğda" və "təpə" sözlərinin birləşməsindən əmələ gəlmişdir.

**Buğdatəpə** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında aşırım. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 44). Toponim bitki adı bildirən "buğda" və "təpə" sözlərinin birləşməsindən yaranmışdır.

**Buğdatəpə** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Hündürlüyü 2057 m-dir. Toponim "buğda" və "təpə"coğrafi nomeninin birləşməsindən əmələ gəlmişdir.

**Buğutlu** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Üçkilsə (Eçmiədzin) rayonunda, indi Armavir vilayəti ərazisində dağ. Dağın adı dəyişdirilib "Arteni" qoyulmuşdur. Toponim türk dilində "dağ maralı" mənasında işlənən "buğut" sözü (323, s. 73) əsasında formalaşmışdır.

# C

**Cəngi təpə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Alagöz (Araqads) rayonunda, indi Araqatsotn vilayəti ərazisində dağ. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 81). Toponim türk dilində "meşə örtüyü olmayan dağ" mənasında işlənən "cəngi" sözü (339, s. 178) əsasında əmələ gəlmişdir.

**Cənub Göyçə** – Göyçə gölü hövzəsinin cənubunda, uzunluğu 60 km olan dağ silsiləsi. Ən hündür zirvəsi hündürlüyü 3552 m olan Basarkeçər dağıdır (Hazırda "Vardenis" adlanır). Dağ silsiləsi hazırda "Vardenisi lerner" adlanır.

**Ciğin dərəsi (Cığın dərəsi)** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətində dərə. Ciğin kəndi, eləcə də Qaraqoyunlu, Kolanlı, Bağçacıq, Camışbasan, Küsüz, Məngük, Göl, Dəhnəz, Qarabağlar, Çimən, Zəncirli, Ərmik, Haxıs, Heyranıs kəndləri bu dərədə yerləşir (156, s. 170). Toponim qaşqay türk tayfasının cigini tirəsi (142, s. 40) əsasında formalaşmışdır.

# Ç

**Çaxmaqlıdağ** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayəti ərazisində dağ. Vilayətdəki Cücəkənd (Cunaşoğ) kəndinin şimal-şərqində yerləşir. Toponim şahsevən türk tayfasından olan "çaxmaqlı" etnonimi (93, s. 87–88) əsasında formalaşmışdır.

**Çal** – Yelizavetpol (Gəncə) quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayəti ərazisində dağ. Vilayətin Toxluca (Draxtik) kəndinin şərqində yerləşir. Toponim türk dilində "təpə, daşlıq yer" (339, s. 606), "kiçik dağ, təpə" (22, s. 27) mənasında işlənən "çal" sözü əsasında formalaşmışdır.

**Çalağan yuvası** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Amasiya rayonunda, indi Şirak vilayətinin Çaxmaq (Kamxut) kəndi ərazisində dağ. Quş adı əsasında əmələ gələn zootoponimdir.

**Çataq** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində yayla. Vilayətdəki Qursalı (Arcahovit) kəndinin ərazisində yerləşir ("Vətən səsi" qəzeti, 24.04. 1991). Toponim türk dilində "iki dağın, təpənin birləşdiyi yer" mənasında işlənən "çataq" sözü (359, III (2), s. 1895) əsasında əmələ gəlmişdir.

**Çatal kaha** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Toponim türk dilində "bir neçə qola ayrılmış", "haçalanmış", "ayrılmış", "ikiyə bölünmüş" mənasında işlənən "çatal" sözü ilə (359, III (2), s. 1896) "mağara" mənasında işlənən "kaha" sözünün (11, s. 26) birləşməsindən əmələ gəlmişdir.

**Çəməndağı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Toponim Azərbaycan dilində "yaşıllıq, otluq" mənasında işlənən "çəmən" sözü ilə (12, s. 429; 339, s. 606) "qayadan, daşdan ibarət hündür bir yer" mənasında işlənən "dağ" sözünün birləşməsindən yaranmışdır.

**Çınqıl** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində dağ. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 285). Toponim "dağda olan daş qırıntıları", "xırda daş" mənasında işlənən "çınqıl" sözü əsasında (339, s. 616; 278, s. 157; 12, s. 441) əmələ gəlmişdir.

**Çınqıllıq** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayəti ərazisində dağ. Vilayətdəki Göykilsə (Kaputan) kəndindən şimalda yerləşir. Toponim "dağda daş qırıntıları" (278, s. 157), "xırda daş" (12, s. 441) mənasında işlənən "çınqıl" sözünə məkan mənası bildirən "-lıq" şəkilçisinin qoşulması yolu ilə əmələ gəlmişdir.

**Çıraqlı** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayəti ərazisində dağ. Toponim

qızılbaşların "çıraqlı" etnonimi (ASE, X c., B., 1987, s. 364) əsasında əmələ gəlmişdir.

**Çuğulxuzan dərəsi** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri rayonunda, indi Sünik vilayətində dərə. Nüvədi (Nrnadzor) kəndinin ərazisindədir.

**Çürük qaya** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətinin Ağudi (Aqudi) kəndi ərazisində dağ. Dağın daşları ovulub töküldüyü üçün Çürük qaya adlandırılmışdır.

# D

**Damdıra qaya** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayəti ərazisində dağ. Azərbaycan dialektində "dəf, nağara" mənasında işlənən "damdıra" sözü ilə (8, s. 170) "qaya" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Dana dağı** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayətinin ərazisində dağ. Toponim türk mənşəli "tana" ("dana") etnonimi (286, s. 65) əsasında əmələ gəlmişdir.

**Dana damı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayəti ərazisində dağ. Toxluca (Draxtik) kəndinin şərqində yerləşir. Toponim heyvan adı bildirən "dana" sözü ilə "tövlə", "mal-qoyun salınan yer" mənasında işlənən "dam" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Dardərə** – Tiflis quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark rayonunda, indi Lori vilayətinin ərazisində dərə. Aşağı Kilsə (Quqark) və Hallavar kəndlərinin arasında yerləşir. Toponim Azərbaycan dilində "ensiz" mənasında işlənən "dar" sözü ilə "dərə" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Dəlidağ** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhəri ərazisində dağ. Toponim hunların "tele" (dəli) etnonimini (180, s. 25) əks etdirir.

**Dəlidağ** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayəti ərazisində dağ. Rayondakı Cücəkənd (Qızıl Şəfəq, Cunaşoğ) kəndinin şərqindədir. Toponim hunların "tele" (dəli) etnonimini (180, s. 25) əks etdirir.

**Dəlikdaş** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayəti ərazisində dağ. Dəlikdaş (Tsaxkar) kəndinin ərazisində yerləşir. Toponim "dərin, dar çuxur" (10, s. 53), "mağara" (278, s. 61) mənasında işlənən "dəlik" sözü ilə "dağ" mənasında işlənən "daş" sözü əsasında formalaşmışdır.

**Dəliktəpə** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində dağ. Novlar kəndinin yanında yerləşir. Toponim Azərbaycan dilində "mağara" (278, s. 61), "dərin, dar çuxur" (10, s. 53, 62) mənasında işlənən "dəlik" sözü ilə "kiçik dağ" mənasında işlənən "təpə" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Dərələyəz** – Ermənistan ilə Naxçıvan sərhədi boyu qərbdən və şimal-qərbdən şərq istiqamətində uzanan, uzunluğu 70 km olan dağ silsiləsi. Arpaçay ilə Naxçıvançay arasında yerləşir. Bu silsilə Gəlinqaya (2800 m) dağının qərb hissəsindən başlayır və Biçənək aşırımına qədər uzanaraq Zəngəzur silsiləsi ilə birləşir. Ən hündür zirvəsi hündürlüyü 3120 m olan Kükürdağ (hazırda "Qoqi" adlanır) zirvəsidir. Dağ silsiləsi hazırda "Hayotddzor" adlanır.

**Dəvəqılıcı** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayəti ərazisində dağ. Cücəkənd (Cunaşoğ) kəndinin ərazisində yerləşir. Toponim "dağ aşırımı, hündür dağ keçidi" mənasında işlənən "dəvə" (dava/daba) sözü ilə (253, s. 100–101; 339, s. 168–169) "dikdir, yoxuşun başı" mənasında işlənən "qılıc" sözünün (253, s. 16; 278, s. 53) birləşməsindən əmələ gəlmişdir.

**Dəymədağıl dağı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Toponim kəbirli türk tayfası ilə bağlı olan "dəymədağıl" etnonimi (286, s. 71) əsasında yaranmışdır.

**Dibəkli** – Tiflis quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark rayonunda, indi Lori vilayətinin Hallavar kəndi ərazisində dağ. Toponim "duz, yarma və s. döymək üçün içi oyuq daş" mənasında işlənən "dibək" sözünə (8, s. 185) "-li" şəkilçisinin birləşməsindən əmələ gəlmişdir.

**Doyşancıq** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayəti ərazisində dağ. Rayondakı Qursalı (Arcahovit) kəndinin ərazisində yerləşir. "Dovşan" adı əsasında yaranmışdır.

# E

**Ecanan** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayətində dərə.

# Ə

**Əsəd düzü** – Zəngəzur sıra dağlarında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Əlincə çayının sağ sahilindən zirvəyə doğru 9 km məsafədə yerləşir. Hündürlüyü 2000 m-dir (85, s. 143). Toponim şəxsi adı ilə Azərbaycan dilində "düzənlik" mənasında işlənən "düz" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Əyricə** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayəti ərazisində dağ. Göyçə (Sevan) gölünün şərqində yerləşir. Hündürlüyü 2660 m-dir. Toponim Azərbaycan dilində "az əyri, bir qədər əyri" mənasında işlənən "əyricə" sözü (10, s. 247) əsasında yaranmışdır.

**Əyridaş** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhəri ərazisində dağ. Toponim "əyri" (ayrı mənasında) sözü ilə "dağ" mənasında işlənən "daş" sözünün birləşməsindən əmələ gəlmişdir.

# G

**Gendərə** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində dərə. Toxluca (Draxtik) kəndinin şərqində yerləşir.

**Gədikdağ** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Sisian rayonu ilə Azərbaycan ərazisi olan Naxçıvan MR-in sərhədində yerləşir. Hündürlüyü 2705 m-dir. Toponim Azərbaycan dilində "dağın beli, aşırım" mənasında işlənən "gədik" sözü ilə (11, s. 149) "dağ" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Gəlincə** – Kiçik Qafqaz sıra dağlarının Zəngəzur silsiləsində, Bazarçay (Vorotan) çayının orta axarında dağ (85, s. 165). Hündürlüyü 2741 m-dir.

**Gəlinqaya** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Hündürlüyü 2489 m-dir.

**Gəncəyal** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində dağ. Toponim "gencək" türk tayfa adına (399, s. 29, 480; 274, s. 201) Azərbaycan dilində "hündür bir yerin təpəsi, dikdir, yoxuşun başı" mənasında işlənən "yal" sözünün (10, s. 479) birləşməsindən əmələ gəlmişdir.

**Gəncəyolu** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində təpə. Vilayətin Toxluca (Draxtik) kəndinin şərqində yerləşir. Həmin yolla Gəncəyə gedib-gəlindiyi üçün "Gəncəyolu" adlandırılmışdır.

**Gəzbel** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Toponim Azərbaycan dilində "gədiyin alçaq yeri, gəzdək" (253, s. 126), "dağ çökəyi, dağın təpəsindəki çökəklik" (339, s. 167) mənasında işlənən "gəz" sözü ilə "alçaq keçid" mənasında işlənən "bel" sözündən (9, s. 227) əmələ gəlmişdir.

**Gığı dağı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Hündürlüyü 3343 m-dir. Toponim türk mənşəli "kiği" etnonimi (305, s. 24) əsasında formalaşmışdır.

**Gilliyin taxtası** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayəti ərazisində dağ. Vilayətin Toxluca (Draxtik) kəndindən şimal-şərqdə yerləşir.

**Gomaran dağı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Dağ Qafan şəhərindən 22 km cənubda, Oxçu çayının sağ tərəfində yerləşir. Toponim komar türk tayfasının adı əsasında yaranmışdır.

**Gödəkburun** – İrəvan quberniyasının İrəvan qəzasında, indi Ellər (Abovyan) rayonu ərazisində dağ. Cuckan kəndinin şimalında yerləşir. Hündürlüyü 1215 m-dir. Toponim Azərbaycan dilində "balaca, qısa" mənasında işlənən "gödək" sözü ilə "irəliyə çıxan, suya doğru uzanan quru" mənasında işlənən "burun" sözünün (253, s. 99) birləşməsindən əmələ gəlmişdir.

**Göyçal** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayəti ərazisində dağ. Toponim Azərbaycan dilində "yaşıllıq, göy ot" mənasında işlənən "göy" sözü ilə türk dilində "təpə", "daşlıq yer" mənasında işlənən "çal" sözündən (339, s. 606) əmələ gəlmişdir.

**Göydağ** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhəri ərazisində dağ. Dilican şəhərindən 32 km şimal-şərqdə, Ağstafa çayının sağ sahilində yerləşir. Hündürlüyü 2350 m-dir. Toponim Azərbaycan dilində "yaşıllıq, otluq" mənasında işlənən "göy" sözü ilə "dağ" sözünün birləşməsindən yaranmışdır.

**Göyərçinli** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayəti ərazisində dağ. Toponim türk mənşəli "göyərçinli" etnonimi əsasında yaranmışdır.

**Göytəpə** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayəti ərazisində dağ. Qoşabulaq (Şadcrek) kəndindən 2 km şərqdə yerləşir. Toponim Azərbaycan dilində "yaşıllıq", "göy ot" mənasında işlənən "göy" sözü ilə "kiçik dağ" mənasında işlənən "təpə" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Göytəpə** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində təpə.

**Gözəldərə** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni)

rayonunda, indi Geğarkunik vilayəti ərazisində dağ. Gözəldərə kəndinin ərazisində yerləşir. Toponim Azərbaycan dilində "gözəl görünüşlü, cəlbedici" mənasında işlənən "gözəl" sözü ilə relyef bildirən "dərə" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Gözəlqaya** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətinin Ağkənd kəndi ərazisində yayla. Kənddən 3 km məsafədə yerləşir. Toponim "gözəl" və "qaya" sözlərindən əmələ gəlmişdir.

**Gözəlli** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunuk vilayəti ərazisində dərə. Toxluca (Draxtik) kəndinin şərqindədir. Toponim Azərbaycan dilində "sulu, yaşıllıq yer, çəmənlik" mənasında işlənən "gözəl" sözünə (11, s. 184) "-li" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir.

**Gülüdüzü** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində dağ. Gülüdüzü kəndinin şimalında yerləşir. Hündürlüyü 2695 m-dir.

**Güney** – Qars quberniyasının Qars qəzasında, keçmiş Amasiya rayonunda, indi Şirak vilayəti ərazisində dağ. Çivinli (Yeğnacur) kəndindən şimal-qərbdə yerləşir. Hündürlüyü 2463 m-dir. Toponim Azərbaycan dilində "cənub, gün düşən yer", "gün tutan yer" mənasında işlənən "güney" sözündən (11, s. 214) əmələ gəlmişdir.

**Güney** – Kiçik Qafqazda, Göyçə gölündən Kəlbəcər dağlarına qədər uzanan, uzunluğu 65 km, ən hündür zirvəsi 2740 m olan dağ silsiləsi. Hazırda bu dağ silsiləsini ermənilər "Arequni" adlandırırlar.

**Güngörməz** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayəti ərazisində dağ. Vilayətdəki Qızılörən (Şenavan) kəndinin ərazisində yerləşir.

**Günəş dağı** – Tiflis quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark rayonunda, indi Lori vilayəti ərazisində dağ. Vilayətdəki Yuxarı Kilsə kəndinin ərazisində yerləşir.

# H

**Hacı Qara yalı** – Tiflis quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark rayonunda, indi Lori vilayətində yal. Hallavar (Halavar) kəndinin şimal-şərqində yerləşir. Yalın adı "Hacı Qara" oykonimi ilə Azərbaycan dilində "dağların ən hündür zirvələrini birləşdirən xətt, dikdir, dağın başı" mənasında işlənən "yal" sözündən (196, s. 37) əmələ gəlmişdir.

# X

**Xalaclar yurdu** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayətində yurd. Qovuşuq kəndinin Soğanlı yaylağında yerləşir (211, s. 198). Toponim "xalac" türk tayfa adı ilə (299, s. 635) Azərbaycan dilində "yaşayış yeri, məskən" mənasında işlənən "yurd" sözündən (10, s. 568) əmələ gəlmişdir.

**Xustup (Üstüpü)** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Hündürlüyü 3206 m-dir. Toponim qədim türk tayfası olan "oğuz" etnoniminin fonetik forması "xus" (quz, ğuz) tayfa adına türk dilində "dağın dibi, dağətəyi", "çayın aşağı axarı" mənasında işlənən "tup" (tub, tüp) sözünün (339, s. 565) birləşməsindən əmələ gəlmişdir.

# İ

**İlanlı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayəti ərazisində dağ. Vilayətdəki Qızılörən (Şenavan) kəndinin ərazisində yerləşir. "İlanlı" etnonimi əsasında yaranmışdır.

**İncəbel** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Toponim qıpçaq türk tayfasına aid olan "incə" etnonimi ilə (286, s. 49) Azərbaycan dilində "dağın təpəsi" (253, s. 99; 339, s. 78), "hündür dağın iki təpəsi arasındakı əyilmiş yer və alçaq keçid" (9, s. 227) mənasında işlənən "bel" sözündən əmələ gəlmişdir.

**İnəkdağ** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayəti ərazisində dağ. Vilayətdəki İnəkdağ kəndinin ərazisində yerləşir. Toponim oğuzların "inək" (inak) tayfasının adını (321, s. 57) əks etdirir.

**İşıqlı dağ** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Dağın adı dəyişdirilib "İşxanasar" qoyulmuşdur.

# K

**Keçəl tala** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayətində təpə. "Otsuz, ot bitməyən yer, çılpaq dağ" mənasında işlənən "keçəl" və "tala" sözlərindən əmələ gəlmişdir.

**Kəmərli** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayəti ərazisində dağ. Vilayətdəki Qursalı (Arcahovit) kəndinin ərazisində yerləşir. Toponim "kimmer" (kəmər) etnoniminə mənsubluq bildirən "-li" şəkilçisinin qoşulması yolu ilə əmələ gəlmişdir.

**Kəpənək** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayəti ərazisində dağ. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 113). Toponim qədim türk dilində "yapıncı" mənasında işlənən "kəpənək" sözündən (157, s. 34) əmələ gələn "kəpənəkçi" etnonimi ilə bağlıdır.

**Kəpəz** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Vilayətdəki Şurnuxu kəndinin şimalında yerləşir. Toponim türk dilində "qaya", "su kənarında qaya" mənasında işlənən "kəpəz" sözü (253, s. 64; 278, s. 101) əsasında yaranmışdır.

**Kiçik düz** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayəti ərazisində dağ. Qızılörən (Şenavan) kəndinin ərazisində yerləşir. Toponim "balaca, xırda, sahəsi az olan" mənasında işlənən "kiçik" sözü ilə "enişi, yoxuşu, çuxuru, təpəsi olmayan", "düzən, çöl, düzənlik" mənasında işlənən "düz" sözünün (10, s. 168) birləşməsindən əmələ gəlmişdir.

**Kiçik təpə** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayəti ərazisində təpə. Vilayətdəki Cücəkənd (Cunaşoğ) kəndinin ərazisində yerləşir. Toponim Azərbaycan dilində "balaca, xırda" mənasında işlənən "kiçik" sözü ilə "kiçik dağ" mənasında işlənən "təpə" sözünün (12, s. 165) birləşməsi əsasında əmələ gəlmişdir.

**Kirkitli** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayo-

nunda, indi Geğarkunik vilayəti ərazisində dağ. Toxluca (Draxtik) kəndinin şərqində yerləşir. Dağın adı "Kirkitdi" kimi də işlənir. Qafqazın 5 verstlik xəritəsində "Kirkitdağ" formasında qeyd edilmişdir (348, s. 134). Toponim qədim türk dilində "dağ silsiləsi, sıra dağlar", "çöl, dağ", "hündür yer, təpəlik", "dağ qılıcı" mənasında işlənən "kir/kır" (359, II (1), s. 860; 339, s. 327) və "tərəf, istiqamət" mənasında işlənən "kıt" (kit) sözlərinin (359, II (1), s. 786) birləşməsindən əmələ gələn "kirkit" sözünə məkan anlayışı bildirən "-li" şəkilçisinin qoşulması ilə əmələ gəlmişdir.

**Kirs dağı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ.

**Koroğlu dərəsi** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayətində dərə. Göykilsə (Kaputan) kəndinin ərazisində yerləşir. Azərbaycan qəhrəmanı Koroğlunun adını əks etdirir.

**Kotandağ** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayəti ərazisində dağ. Toponim qıpçaqların "kotan" etnoniminin adı (286, s. 50) əsasında yaranmışdır.

**Kotuz** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayəti ərazisində dağ. Toponim "çöl sığırı" mənasında işlənən "kituz" heyvan adını (399, I, s. 365) əks etdirir.

**Kömürdağ** – Kiçik Qafqaz sıra dağlarında dağ silsiləsi. İndiki Ermənistanın keçmiş Quqark və Axta (Hrazdan) rayonlarının sərhədində yerləşir. Hündürlüyü 2113 m-dir. Toponim qədim türk dilində "dağ başında dar, yarğanlı, uçurumlu yer" mənasında işlənən "kömür" sözü (359, II (2), s. 1321) əsasında yaranmışdır.

**Kömürlü** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhəri ərazisində dağ. Toponim türk dilində "dağ başında dar, uçurumlu yer" mənasında işlənən "kömür" sözünə (359, II (2), s. 1321) "-lü" şəkilçisinin artırılması ilə düzəlmişdir.

# Q

**Qabaq Güney** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində yayla. Vilayətin ərazisindəki Saral (Nor Xaçakap) kəndinin ərazisində yerləşir. Toponim Azərbaycan dilində "ön tərəf, irəli tərəf" mənasında işlənən "qabaq" sözü ilə (9, s. 381; 339, s. 239) "dağın gün düşən tərəfi" mənasında işlənən "güney" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qabaqtəpə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Talin rayonunda, indi Araqatsotn vilayəti ərazisində dağ. Toponim Azərbaycan dilində "ön tərəf, irəli tərəf" mənasında işlənən "qabaq" sözü ilə (9, s. 381; 339, s. 239), "təpə" sözünün birləşməsindən yaranmışdır.

**Qaçaq qayası** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində dağ. Qaçaqlar məskən saldığı üçün həmin dağ "Qaçaq qayası" adlandırılmışdır.

**Qanqallı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda dağ. Toxluca kəndinin şimal-qərbində yerləşir. Toponim "qanqal" bitki adına "-lı" şəkilçisinin qoşulması ilə əmələ gəlmişdir.

**Qarağac** – əsasən Gürcüstan, qismən isə indiki Ermənistan ərazisində yerləşən, uzunluğu 50 km olan dağ silsiləsi. Ən hündür zirvəsi hündürlüyü 3196 m olan Leyli (Hazırda "Açkasar" adlanır) zirvəsidir. Dağ silsiləsi hazırda "Cavaxk silsiləsi" adlanır.

**Qaradaş dağı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayətinin Sarıyaqub (Cağatsadzor) kəndi ərazisində dağ. Toponim Azərbaycan dilində rəng mənasında işlənən "qara" və "dağ", "qaya" mənasında işlənən "daş" sözlərindən əmələ gəlmişdir.

**Qaragüney** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətində dağ. Toponim böyük mənasında işlənən "qara" sözü ilə "gün düşən yer, gün tutan yer" mənasında işlənən "güney" (11, s. 214; 94, s. 76) sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qaragüney** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayəti ərazisində dağ. Toxluca kəndinin şimal-şərqində yerləşir. Toponim türk dilində "geniş, böyük" mənasında işlənən "qara" sözü ilə (11, s. 214; 94, s. 76) "dağın gün düşən tərəfi, cənub" mənasında işlənən "güney" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qaraqaya** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda, indi Kotayk vilayətinin Dədəqışlaq (Axundov, Pyunik) kəndində kiçik dağ. Toponim Azərbaycan dilində "böyük, hündür, yüksək, şiş" mənasında işlənən "qara" sözü ilə (94, s. 71) dağ mənasında işlənən "qaya" sözündən əmələ gəlmişdir.

**Qaraqaya** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 117). Toponim Azərbaycan dilində "böyük, hündür, yüksək, şiş" mənasında işlənən "qara" sözü ilə (94, s. 71) dağ mənasında işlənən "qaya" sözündən əmələ gəlmişdir.

**Qaraqüzey** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi rayonunda, indi Ararat vilayəti ərazisində dağ. Toponim Azərbaycan dilində "böyük, hündür, yüksək, şiş" mənasında işlənən "qara" sözü ilə (94, s. 71) "şimal, gün düşməyən yer" mənasında işlənən "quzey" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qaraltəpə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayəti ərazisində dağ. Qaral (Katnacur) kəndinin ərazisində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 118). Toponim qaralar türk tayfasının adını (245, s. 57) əks etdirən "qaral", yəni "qara el" (böyük el) etnonimi ilə "kiçik, alçaq dağ" mənasında işlənən "təpə" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qaranlıqkaha** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətinin Ağudi (Aqitu) kəndi ərazisində dağ. Toponim "işıqsız, zülmət, işıq düşməyən" mənasında işlənən "qaranlıq" sözü ilə "qayalıqda, dağda təbii və ya süni oyuq", "mağara" mənasında işlənən "kaha" (11, s. 26) sözündən əmələ gəlmişdir.

**Qarğadaşı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Nüvədi (Nrnadzor) kəndinin ərazisində yerləşir. Dağ kəndi üzük qaşı kimi dövrəyə almışdır. Tədqiqatçı Həmzə Vəli 1985-ci ildə bu ərazidə Orxon-Yenisey yazılarına oxşar 7 daş kitabə tapmış və onlar haqqında "Nüvədi kitabələri" adlı əsərində ətraflı məlumat vermişdir. Toponim Strabonun "Coğrafiya" əsərində adı çəkilən "qarqar" etnonimi ilə (377, s. 477; 24, s. 19) Azərbaycan dilində "dağ, qaya" mənasında işlənən "daş" sözü əsasında əmələ gəlmişdir. Aparılan tədqiqatlar göstərir ki, qarqarlar Albaniyada yaşamış qədim türk tayfalarından biridir (287, s. 77–82). Hər-hər, Xar-xar, Xal-xal, Kər-kər, Kəngər toponimləri də "qarqar" etnonimi ilə bağlıdır (211, s. 184).

**Qatarqaya** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayo-

nunda, indi Geğarkunik vilayəti ərazisində dağ. Toxluca kəndinin şərqində yerləşir. Toponim "zəncirvari qaya, təpə, dağ" mənasında işlənən "qatar"sözü ilə "qaya" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qazanbil** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri rayonunda, indi Sünik vilayətində mağara. Vilayətin ərazisindəki Nüvədi (Nrnadzor) kəndində, Qozluçay adlı ərazinin başı üstündəki dağın yuxarı qurtaracağında – yer səthindən 14–15 m dərinlikdə yerləşir (127, s. 8). Toponim bulqar türk tayfasının tərkibində olan "qazan" etnonimi ilə (273, s. 235) "bil" sözünün birləşməsindən əmələ gəlmişdir. "Bil" sözü qədim türk dilində "nişan, əlamət" mənasında olan "belqü" sözündəndir. Burada "daş" mənasını ifadə edir. XIII–XIV əsrlərə aid bulqar yazılarında "bəlüqü" sözü "qəbir daşı, qəbirüstü daş" mənasında işlənmişdir (109, s. 27).

**Qazançı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Artik rayonunda, indi Şirak vilayəti ərazisində dağ. Qafqazın 5 verstlik xəritəsində (348, s. 107) qeyd edilmişdir. Qazan türk tayfasının adı (273, s. 235) əsasında yaranmışdır.

**Qazangöl dağı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Hündürlüyü 3818 m-dir.

**Qazan dağı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Toponim türk tayfasından olan "qazan" etnonimi (273, s. 235) əsasında əmələ gəlmişdir.

**Qənşər dağı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayəti ərazisində dağ. Qursalı (Arcahovit) kəndinin ərazisində yerləşir. Toponim Azərbaycan dilinin qərb qrupu dialektlərində "qarşı, ön" mənasında işlənən "qənşər"-sözü ilə (8, 128), "dağ" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qılıclıdərə** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayətində dərə. Vilayətdəki Qılıclı kəndinin ərazisində yerləşir. Toponim qılıclı türk etnoniminin adını əks etdirir (286, s. 63–64).

**Qırxlar dağı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətinin ərazisində dağ. Toponim avşarlardan olan qırxlı türk tayfasının adı (286, s. 32; 142, s. 87) əsasında formalaşmışdır.

**Qırıxtəpə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunda, indi Şirak vilayəti ərazisində dağ. Ani yaşayış məntəqəsinin yaxınlığında yerləşir. Toponim Azərbaycan dilində işlənən "qırıq" və "təpə" sözlərindən əmələ gəlmişdir.

**Qırmızıdaş** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayəti ərazisində dağ. Cücəkənd (Cunaşoğ) kəndinin ərazisində yerləşir. Toponim rəng bildirən "qırmızı" sözü ilə Azərbaycan dilində "dağ", "qaya" mənasında işlənən "daş" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qırqalası** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Toponim türk dilində "çöl, dağ qılıcı, kənar, sərhəd, hüdud" mənasında işlənən "qır" (kır) sözü ilə (339, s. 327) "qala" sözünün birləşməsindən əmələ gəlib "dağ qılıcının kənarında yerləşən qala" mənasını bildirir.

**Qısırdağ** – Zəngəzur dağ silsiləsində, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Hündürlüyü 2987 m-dir. Toponim Azərbaycan dilində "meşəsiz, otsuz, bitkisiz" mənasında işlənən "qısır" (yəni "quru") sözü ilə "dağ" sözü əsasında formalaşmışdır.

**Qısırdağ** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində dağ. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 135). Toponim Azərbaycan dilində "bitkisiz, otsuz" mənasında işlənən "qısır" sözü ilə "dağ" sözü əsasında formalaşmışdır.

**Qızıldağ** – Göyçə gölü yaxınlığında, indi Geğarkunik (Novo-Bəyazid) və Kotayk (Axta) vilayətlərini əhatə edən ərazidə dağ. Ağmanqan silsiləsində, hündürlüyü 3597 m olan dağdır. Hazırda "Ajdahak" adlanır.

**Qızılxaraba** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayətinin Qızılxaraba kəndi ərazisində dağ. Toponim torpağın rəngini ifadə edən, "qırmızı" mənasında işlənən "qızıl" və "xaraba" sözlərinin əsasında əmələ gəlmişdir.

**Qızılqaya** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətinin Ağudi (Aquti) kəndi ərazisində dağ. Toponim "qırmızı" mənasında işlənən "qızıl" sözü ilə "dağ" mənasında işlənən "qaya" sözünün birləşməsi əsasında əmələ gəlmişdir.

**Qızılqaya** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Toponimi qırmızı mənasında işlənən "qızıl" sözü ilə dağ mənasında işlənən "qaya" sozündən əmələ gəlmişdir.

**Qızılqaya** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayəti ərazisində dağ. Qursalı (Arcahovit) kəndinin ərazisində yerləşir. Toponim Azərbaycan dilində "qırmızı" mənasında işlənən "qızıl" sözü ilə "dağ" mənasında işlənən "qaya" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qoloybucaq** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Böyük Qarakilsə (Kirovakan) şəhəri ərazisində dağ. Şəhərdən 25 km qərbdə yerləşir. Hündürlüyü 2400 m-dir. Toponim "bucaq" türk tayfa adı (245, s. 53) əsasında yaranmışdır.

**Qoşakaha** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətinin Ağudi (Aquti) kəndi ərazisində dağ. Toponim "cüt" mənası bildirən "qoşa" sözü ilə "mağara" mənasında işlənən "kaha" (11, s. 26) sözlərinin birləşməsindən əmələ gəlmişdir.

**Qoşkuradağ** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Qafan şəhərinin cənub-şərqində yerləşir.

**Qumludərə** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətindəki Toxluca (Draxtik) kəndində dərə. Dərə qumlu olduğu üçün "Qumludərə" adlandırılmışdır.

**Qumluyurd** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhəri ərazisində dağ.

**Qurd dağı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayəti ərazisində dağ. Qursalı (Arcahovit) kəndindən şərqdə yerləşir. Toponim "qurd" (canavar) heyvan adı əsasında formalaşmışdır.

**Qurd təpə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Ağin (Ani) rayonunda, indi Şirak vilayəti ərazisində dağ. Buğdaşen (Baqravan) kəndinin ərazisində yerləşir. Toponim "qurd" heyvan adına Azərbaycan dilində "kiçik dağ" mənasında işlənən "təpə" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qurudağ** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhəri ərazisində dağ. Toponim Azərbaycan dilində "bitkisiz, çılpaq" mənasında işlənən "quru" sözü ilə (9, s. 582) "dağ" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qurudərə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayəti ərazisində dağ. Qızılörən (Şenavan) kəndinin ərazisində yerləşir. Toponim "susuz" mənasında işlənən "quru" sözü ilə "dərə" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Quzeykab** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayətinin ərazisində dağ. Toponim Azərbaycan dilində "şimal, gün düşməyən yer" mənasında işlənən "quzey" və qədim türk dilində "aşırım" mənasında işlənən "kab" sözünün (339, s. 239) birləşməsindən əmələ gəlmişdir. "Şimalda, gün düşməyən yerdə olan aşırım" mənasını bildirir.

# L

**Laçınqaya** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayəti ərazisində dağ. Yuxarı Ağdam kəndinin ərazisində yerləşir. Toponim "laçın" quş adı və "qaya" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Leyli** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayətinin ərazisində hündürlüyü 3196 m olan dağ. Hazırda "Açkasar" adlanır.

**Leyli dağı** – Tiflis quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark rayonunda, indi Lori vilayəti ərazisində dağ. Hallavar (Halavar) kəndinin ərazisində yerləşir. Toponim şəxs adı əsasında əmələ gəlmişdir.

# M

**Maral qayası** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Amasiya rayonunda, indi Şirak vilayətinin Elləroğlu (Lorasar) kəndi ərazisində dağ. "Maral" heyvan adı ilə "qaya", "dağ" mənasında işlənən orotermin əsasında formalaşıb.

**Maral yatağı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Amasiya rayonunda, indi Şirak vilayətinin Çaxmaq (Kamxut) kəndində yataq. Toponim "maral" heyvan adı ilə "payızda, qışda qoyun-quzu, mal-qara saxlanılan yer" mənasında işlənən "yataq" sözündən (10, s. 510) əmələ gəlmişdir.

**Maymaq** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Sevan rayonunda, indi Geğarkunik vilayəti ərazisində dağ. Toponim "maymaq" türk etnonimi (323, s. 166) əsasında formalaşmışdır.

**Maymaqdağ** – Tiflis quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark rayonunda, indi Lori vilayətinin Hallavar (Halavar) kəndi ərazisində dağ. Hündürlüyü 3082 metrdir. Toponim "maymaq" türk tayfa adı (323, s. 166) əsasında formalaşmışdır.

**Millidərə** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayətinin ərazisində bir neçə kəndin yerləşdiyi dərə. Türk mənşəli "milli" etnonimi (386, s. 535; 303 a, s. II) əsasında əmələ gəlmişdir.

**Muradtəpə** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Paşalı (Vayk) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində təpə. Toponim şəxs adı əsasında əmələ gəlmişdir.

**Murğuz dağı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian

rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Toponim "oğuz" (ğuz) etnonimi əsasında formalaşmışdır.

# O

**Oğlannıca pir** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ.

**Ortundərə** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi (Ararat) rayonunda, indi Ararat vilayəti ərazisində dərə. Yuxarı Çanaxçı (Sovetaşen) kəndinin şimal-şərq tərəfində yerləşir. Toponim türk dilində "orta" mənasında "ortun" sözü ilə (299, s. 371) "dərə" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Oy dərəsi** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayəti ərazisində dağ. Cücəkənd (Qızıl Şəfəq, Cunaşoğ) kəndinin ərazisində yerləşir. Toponim qədim türk dilində "çala, çuxur, çökək, qobu, düzən" mənasında işlənən "oy" sözü ilə (365, s. 425–426; 337, s. 238; 339, s. 408–409), "dərə" sözünün birləşməsindən əmələ gəlmişdir.

# Ö

**Öküzölən** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayəti ərazisində dərə.

# P

**Pəmbək** – Hazırda Ermənistanın Şirak, Lori, Araqatsotn, Kotayk, Tavuş və Geğarkunik vilayətlərinin ərazisindən keçən, uzunluğu təqribən 100 km olan dağ silsiləsi. Ən hündür zirvəsi hündürlüyü 3101 m olan Tej Əhməd (hazırda "Tej" adlanır) zirvəsidir.

**Pirhəmzə dağı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Gığı kəndinin ərazisində yerləşir. Toponim dini ibadət yeri mənasında işlənən "pir" sözü ilə "Həmzə" şəxs adı əsasında yaranmışdır.

# S

**Sabunçu** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Talin rayonunda, indi Araqatsotn vilayətinin ərazisində dağ. Qafqazın 5 verstlik xəritəsində (348, s. 213) qeyd edilmişdir. Toponim "sabunçu" türk tayfasının adı (133, s. 45) əsasında əmələ gəlmişdir.

**Sackaha** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətinin Ağudi (Aquti) kəndi ərazisində dağ. Toponim Azərbaycan dilində işlənən "sac" və "mağara" mənasında işlənən "kaha" sözündən əmələ gəlmişdir.

**Sapadərə** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri rayonunda, indi Sünik vilayətinin Nüvədi (Nrnadzor) kəndi ərazisində dağ. Sapadərə "sapa" və "dərə" sözlərindən əmələ gəlmişdir. "Sapa" sözü "hasar, çəpər", "dolama yol" mənasını ifadə edir (359, IV (1), s. 403).

**Sarıdərə** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayətinin Cücəkənd (Cunaşoğ) kəndinin ərazisində dərə. Türk dilində "böyük, iri", "hündür, yüksək, dik dərə" mənasını bildirir.

**Sarıdərə** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keşmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayəti ərazisində dərə. Toxluca (Draxtik) kəndinin şimal-qərb tərəfində yerləşir.

**Sarıdolama** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Vedi rayonunda, indi Ararat vilayəti ərazisində təpə. Böyük Vedi kəndinin şimalında yerləşir. Toponim qədim Azərbaycan dilində "böyük, yüksək, uca, hündür" mənasında işlənən "sarı" sözü ilə (94, s. 74) Azərbaycan dilində "dümdüz olmayan, əyri-üyrü" mənasında işlənən "dolama" sözünün (10, s. 130) birləşməsindən yaranmışdır.

**Sarıgüney** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində təpə. Toxluca (Draxtik) kəndinin şimalında yerləşir.

**Sarıqaya** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda, indi Kotayk vilayətinin ərazisində dağ. Üləşik kəndinin şimal-qərb tərəfində yerləşir. Türk dilində "böyük" mənasında işlənən "sarı" sözü ilə (359, II (2), s. 327) "dağ" mənasında işlənən "qaya" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Sarınər** – Yelizavetpol (Gəncə) quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayəti ərazisində gədik.

**Sarıyal** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayəti ərazisində təpə. Toxluca (Draxtik) kəndinin ərazisində yerləşir. Toponim qədim türk dilində "iri, nəhəng, uca, hündür, yüksək, dik" mənasında işlənən "sarı" sözünə (94, s. 74) Azərbaycan dilində "hündür bir yerin təpəsi, dikdir, yoxuşun başı" (10, s. 479), "dağın döşü, yamac, təpə" (339, s. 648) mənasında işlənən "yal" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Siçanlı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayəti ərazisində dağ. Siçanlı kəndinin ərazisində yerləşir. Toponim "sincan" etnonimi (238, s. 290) əsasında düzəlmişdir.

**Sutökülən** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətinin Ağudi (Aquti) kəndi ərazisində dağ.

# Ş

**Şahdağ** – Ermənistan və Azərbaycanın sərhədində, Kiçik Qafqaz silsiləsinin bir hissəsini təşkil edən, uzunluğu 70 km olan dağ silsiləsi. Silsilə Göyçə gölünün şərq hissəsini əhatə edir. Ən hündür zirvəsi hündürlüyü 3367 m olan Böyük Hinaldağ (hazırda "Satanaxaç" adlanır) zirvəsidir. Dağ silsiləsi hazırda "Sevan" adlanır.

**Şah dağı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayəti ərazisində dağ. Cil kəndi ilə Azərbaycanın Gədəbəy rayonu arasında yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 293). Toponim titul bildirən "şah" sözü ilə "dağ" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Şahvarud** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indi Geğarkunik vilayətinin ərazisində dağ. Keçmiş Xaratlıq kəndinin ərazisində yerləşirdi. Toponim titul bildirən "şah" sözü ilə "bulaq" hidronimi əsasında yaranmışdır.

**Şərqi Göyçə** – Ermənistan və Azərbaycanın sərhədində yerləşən, uzunluğu 40 km olan dağ silsiləsi. Ən hündür zirvəsi hündürlüyü 3426 m olan Axarbaxar (hazırda "Tsarasar") zirvəsidir. Dağ silsiləsi hazırda "Aravelyan Sevan" adlanır.

**Şirak** – İndi Ermənistanın şimal-qərb tərəfində yayla. Toponim "siraq" (şiraq) türk etnonimi (235, s. 47–59) əsasında yaranmışdır.

**Şişdağ** – İrəvan quberniyasının Areksandropol qəzasında, keçmiş Amasiya rayonunda, indi Şirak vilayəti ərazisində dağ. Çaxmaq (Kamxut) kəndinin cənub-qərbində yerləşir. Toponim "dağın, təpənin zirvəsi" mənasında işlənən "şiş" sözü ilə "dağ" sözünün (196, s. 37) birləşməsindən əmələ gəlmişdir.

**Şiştəpə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Qızılqoç (Qukasyan) rayonunda, indi Şirak vilayəti ərazisində dağ. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 297). Toponim "dağın, təpənin ən yüksək zirvəsi" mənasında işlənən "şiş" sözü ilə "alçaq dağ" mənasında işlənən "təpə" sözünün (196, s. 42) birləşməsindən əmələ gəlmişdir.

**Şorandərə** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayəti ərazisində dərə. Toponim "şor (duzlu) sahə, əkinə yaramayan yer" mənasında işlənən "şoran" sözü ilə (253, s. 134) "iki dağ və ya təpə arasında, eləcə də düzənlikdə uzun, dərin çuxur" mənasında işlənən "dərə" sözünün birləşməsi əsasında əmələ gəlmişdir.

# T

**Tej** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Axta (Hrazdan) rayonunda, indi Kotayk vilayəti ərazisində dağ. Hündürlüyü 3100 metrdir. "Tej" sözü Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrində "hündür, zirvə" mənalarında işlənir. Toponim həmin mənada işlənən "tej" sözündəndir və "hündür dağ" mənasını ifadə edir.

**Telli qayası** – Tiflis quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark rayonunda, indi Lori vilayəti ərazisində dağ. Hallavar kəndinin ərazisindədir. Şəxs adı əsasında yaranmışdır. "Tell" şəxs adı ilə "dağ" mənasında işlənən "qaya" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Təkədonduran** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində dağ. Toponim "dağ keçisi, erkək keçi" mənasında işlənən "təkə" sözü ilə (12, s. 153) "donduran" feili sifətinin birləşməsindən əmələ gəlmişdir.

**Təngirçay** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri rayonunda, indi Sünik vilayətində dərə. Toponim Azərbaycan dilində "ensiz, dar sıldırımlı qaya" və "sıldırımlı, uçurumlu dərə" mənasında işlənən "tənqi" sözü əsasında (339, s. 549) yaranmışdır.

**Təpədibi** – İrəvan quberniyasının Eçmiədzin qəzasında, keçmiş Sərdarabad (Hoktemberyan) rayonunda, indi Armavir vilayəti ərazisində dağ. Təpədibi (Haykavan) kəndinin ərazisində yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir (348, s. 237). Toponim Azərbaycan dilində "dağ" mənasında işlənən "təpə" sözü ilə "dağın ətəyi" mənasında işlənən "dib" sözündən əmələ gəlmişdir.

**Təpəsidəlik** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində dağ. Keşişkənd kəndinin yaxınlığında yerləşir.

**Topaqaya** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayəti ərazisində dağ. Ağudi (Aquti) kəndinin ərazisində yerləşir. Toponim "qalaq, yığın" mənasında işlənən "topa" (12, s. 196) sözü ilə Azərbaycan dilində "dağ" mənasında işlənən "qaya" sözündən əmələ gəlmişdir.

**Turu gədiyi** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri

rayonunda, indi Sünik vilayəti ərazisində gədik. Nüvədi (Nrnadzor kəndinin ərazisində yerləşir. Toponim qədim türk dilində, o cümlədən Orxon-Yenisey abidələrində "yer, yaşayış məntəqəsi, yurd, dayanacaq" mənasında işlənən "turuğ" sözü ilə (299, s. 588; 229, s. 179) Azərbaycan dilində "dağın beli, aşırım" mənasında işlənən "gədik" sözünün birləşməsindən əmələ gəlib, "dağ aşırımında yaşayış məskəni, dağ belində olan yurd" mənasını ifadə edir.

# U

**Uzundərə** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayəti ərazisində dərə. Toxluca (Draxtik) kəndinin şərqində yerləşir. Toponim Azərbaycan dilində "geniş" mənasında işlənən "uzun" sözü ilə, "iki dağ və ya təpə arasında düzənlikdə uzun, dərin çuxur" mənasında işlənən "dərə" sözünün (10, s. 74) birləşməsindən yaranmışdır.

# V

**Vers dağı** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində dağ. Dağın yüksəkliyi 3522 m-dir (211, s. 194–195). Toponim varsaq türk tayfasının adı (235, s. 37–38; 238, s. 185) əsasında əmələ gəlmişdir (211, s. 195).

# Y

**Yanıq dağı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Amasiya rayonunda, indi Şirak vilayətinin Çaxmaq (Kamxut) kəndi ərazisində dağ. Toponim Azərbaycan dilində "susuz, quru yer" mənasında işlənən "yanıq" sözü (278, s. 166) əsasında əmələ gəlmişdir.

**Yeldağı** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayəti ərazisində dağ. 1930-cu ilə kimi fəaliyyət göstərən Yeldağı qışlağının yaxınlığında yerləşir.

**Yellicə** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Sisian rayonunda, indi Sünik vilayətinin Ağudi (Aquti) kəndi ərazisində dağ. "Küləkli, külək döyən yer" mənasında işlənən "yelli" sözünə sifətin çoxaltma dərəcəsinin əlamətini bildirən "-cə" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir.

**Yoncalı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayəti ərazisində dağ. Göykilsə (Kaputan) kəndinin ərazisində yerləşir. "Yonca" bitki adı əsasında formalaşmışdır.

# Adları dəyişdirilmiş yaylaqlar və qışlaqlar

## A

**Ada təpə** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Dilican rayonunda, indi Tavuş vilayəti ərazisində qış aylarında yaşayış yeri (bundan sonra – qışlaq). 1926-cı ildə qışlaqda 16 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31). 1930-cu illərdə ləğv edilmişdir. Toponim Azərbaycan dilində işlənən "ada" və "təpə" sözlərinin birləşməsindən əmələ gəlmişdir.

**Ağbaş** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Allahverdi (Tumanyan) rayonunda, indi Lori vilayəti ərazisində qışlaq. Allahverdi (Tumanyan) yaşayış məntəqəsindən 17 km məsafədə yerləşirdi. 1930-cu illərdə ləğv edilmişdir. Toponim ağbaş türk tayfasının (92, s. 24) adı əsasında formalaşmışdır.

**Ağıllı** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayəti ərazisində yay aylarında yaşayış yeri (bundan sonra – yaylaq). Toxluca kəndinin şimal-şərqində yerləşirdi. Oronim Azərbaycan dilində "mal-qara, qoyun saxlamaq üçün hasarlanmış yer" mənasında işlənən "ağıl" sözünə (9, s. 45; 339, s. 38) "–lı" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir.

**Axınçı** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayətində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim türk dilində "talançı əsgər" (359, I (1), s. 100), "cəld, sürətlə hərəkət edən dəstə" (299, s. 48) mənasında işlənən "akınçı" (aqınçı) sözü əsasında yaranmışdır.

**Alaçıqdaş** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayəti ərazisində qışlaq. Çaykənd kəndinin yaxınlığında yerləşirdi. 1926-cı ildə burada 52 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31). XX əsrin 30-cu illərində ləğv edilmişdir. Toponim türk dilində "daxma, koma, müvəqqəti yaşayış yeri" mənasında işlənən "alaçıq" sözü ilə (365, s. 130–131) "daş" sözünün birləşməsindən əmələ gəlib, "daşdan tikilən alaçıq, çadır" mənasını bildirir.

**Alatala** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1960-cı ildə ləğv edilmişdir. Toponim türk dilində "ala-bula", "rəngarəng yer" mənasında işlənən "ala" sözü ilə (359, I (I2), s. 351) Azərbaycan dilində "meşədə ağacsız, çılpaq yer, sahə", "açıqlıq" mənasında işlənən "tala" sözündən (12, s. 130) əmələ gəlmişdir.

**Anağızoğlu** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətinin Toxluca kəndində qışlaq. Toponim Azərbaycan dilində "əsas, böyük" mənasında işlənən "ana" sözü ilə "ğuz oğlu" (oğuz oğlu) sözünün (238, s. 144) birləşməsindən əmələ gəlmişdir.

**Aralıqqoyun** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayəti ərazisində qışlaq. Gölkənd kəndinin yaxınlığında yerləşirdi. 1926-cı ildə burada 13 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31). 1940-cı illərin axırlarında ləğv edilmişdir. Toponim "iki yerin arası, ortalıq, orta, ara" mənasında işlənən "aralıq" sözü ilə (9, s. 117) "dərə, çuxur, dayaz dərə" mənasında işlənən "qoyun" sözünün (339, s. 282) birləşməsindən əmələ gəlmişdir.

**Arxaşan** – Tiflis quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark rayonunda, indi Lori

vilayəti ərazisində qışlaq. Hallavar kəndinin ərazisində yerləşirdi. Toponim Azərbaycan dilində "arxın tirədən keçdiyi yer" mənasında işlənən "arxaşan" sözü (253, s. 120) əsasında əmələ gəlmişdir.

**Arxqırağı** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Berd (Şəmşəddin) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir.

**Armudlu** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, Dilican şəhəri yaxınlığında qışlaq. 1926-cı ildə burada 12 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31). XX əsrin 30-cu illərində ləğv edilmişdir. Toponim meyvə adı bildirən "armud" sözünə Azərbaycan dilində işlənən "-lu" şəkilçisinin artırılması əsasında əmələ gəlmişdir.

**Aşağı Hunud** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim fərqləndirici əlamət bildirən "aşağı" sözü ilə "-ud" şəkilçisi qəbul etmiş "hun" türk etnonimi (287, s. 124–125; 174, s. 49–66) əsasında əmələ gəlmişdir.

**Aşağı Qızqala** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim qədim türk dilində "yayla" (399, s. 324; 299, s. 445) "çöl, dağ zirvəsi, dağ, təpə, dağ qılıcı" (339, s. 327–328) mənasında işlənən "qır" (qız) sözü ilə "qala" sözündən əmələ gəlmişdir. "Aşağı" fərqləndirici əlamət bildirir.

**Aşağı Molla Saflar** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Berd (Şəmşəddin) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Şəxs adı əsasında əmələ gəlmişdir.

**Avtandil talası** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Sünik vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir.

**Aynaxlı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayəti ərazisində qışlaq. Nəsil adı əsasında yaranmışdır.

# B

**Baldırğanlı** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim "baldırğan" bitki adına Azərbaycan dilinə mənsub olan "-lı" şəkilçisinin qoşulması ilə əmələ gəlmişdir.

**Balta dərəsi** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətinin Ardanış kəndi ərazisində qışlaq. 1926-cı ildə burada 12 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31). XX əsrin 30-cu illərində ləğv edilmişdir. Toponim balta türk tayfasının (286, s. 60) adı ilə "dərə" sözünün birləşməsindən əmələ gəlib, "balta tayfasına mənsub dərə", "yaşayış yeri" mənasını ifadə edir.

**Baraxlı** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayətində qışlaq. Noyemberyan şəhərindən 30 km şimalda, Tona (Debed) çayının sahilində yerləşirdi. Ləmbəli sovetliyinin tərkibində olan qışlaqda tarixən yalnız azərbaycanlılar yaşamışlar. Mənbələrdən 1926-cı ildə burada 5 nəfər azərbaycanlının yaşadığı məlum olur (415, s. 67). 1930-cu illərdə yaşayış məntəqəsi kimi ləğv edilmiş, azərbaycanlılar buradan köçürülmüşdür. Toponim türk mənşəli barak tayfasının (228, s. 16–17; 321, s. 43, 45) adı əsasında əmələ gəlmişdir.

**Bataxlı** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim Azərbaycan dilində "lığ, lehmə, palçıq" mənasında işlənən "bataq" sözünə (9, s. 203; 339, s. 75) "-lı" sözdüzəldici şəkilçisinin artırılması ilə düzəlib. "Bataqlıq, palçıqlıq yerdə olan qışlaq" mənasını ifadə edir.

**Bayatlar** – İrəvan quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark rayonunda, indi Lori vilayəti ərazisində qışlaq. Hallavar kəndinin yaxınlığında yerləşirdi. Burada 1926-cı ildə 23 nəfər azərbaycanlı yaşamışdır (415, s. 50–51). 1930-cu illərdə yaşayış məntəqəsi kimi ləğv edilmişdir. Toponim oğuz tayfalarından olan "bayat" etnoniminə (228, s. 391) Azərbaycan dilində cəmlik bildirən "-lar" şəkilçisinin qoşulması yolu ilə əmələ gəlmişdir.

**Bayraməli qışlağı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayəti ərazisində qışlaq. Ayaslı kəndinin yaxınlığında yerləşirdi. Toponim "Bayraməli" şəxs adı əsasında əmələ gəlmişdir.

**Beşbarmaq** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim "beş" sayı ilə türk dilində "dağın şiş təpəsi, zirvəsi" mənasında işlənən "barmaq" sözünün (253, s. 100; 339, s. 74) birləşməsindən əmələ gəlmişdir.

**Bostan tala** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayətinin Yuxarı Ağdan ərazisində qışlaq. 1926-cı ildə burada 12 nəfər azərbaycanlı yaşamışdır (85, s. 78). XX əsrin 30-cu illərində ləğv edilmişdir. Toponim türk mənşəli "bostan" etnonimi ilə (286, s. 61) "meşə sahəsində açıqlıq" mənasında işlənən "tala" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Bozavdal yaylası** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayəti ərazisində yaylaq. Saral kəndinin ərazisində yerləşirdi. Oronim "boz" və "avdal" (abdal) etnonimləri ilə "dağlıqda olan düzən yerlər" mənasında işlənən "yayla" sözünün (10, s. 477) birləşməsindən əmələ gəlmişdir.

**Böyük kotaklı** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim peçeneqlərin "katak" (kotak) etnoniminə (287, s. 114–116) "-lı" sözdüzəldici şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Toponimin əvvəlindəki "böyük" sözü fərqləndirici əlamət bildirir.

**Buğakar** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Allahverdi (Tumanyan) rayonunda, indi Lori vilayətində qışlaq. 1920–1930-cu illərdə burada yaşayış olmuşdur. XX əsrin 30-cu illərinin ortalarında ləğv edilmişdir. Toponim türk dilində "dağ keçidi", "dar, ensiz vadi, yarğan", "dağ ətəyində, çay sahilində düzənlik yer" mənasında işlənən "buk" sözü ilə (339, s. 99–100) türk dilində "sıldırım qaya" mənasında işlənən "kar" sözünün (323, s. 107) birləşməsindən əmələ gəlmişdir.

**Buğakar** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonu, indi Tavuş vilayəti ərazisində qışlaq. 1926-cı ildə burada 1 nəfər azərbaycanlı, 2 nəfər yunan yaşamışdır (415, s. 67). 1930-cu illərdən sonra rəsmi sənədlərdə adı çəkilmir. Toponim türk dilində "dağ keçidi", "dar, ensiz vadi, yarğan", "dağ ətəyində, çay sahilində düzənlik yer" mənasında işlənən "buk" sözü ilə (339, s. 99–100) türk dilində "sıldırım qaya" mənasında işlənən "kar" sözünün (323, s. 107) birləşməsindən əmələ gəlmişdir.

**Buğdalı** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd)

rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim "buğdalı" tayfa adı əsasında yaranmışdır.

# C

**Cantəpə** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. İki hissədən ibarət olub. Polad Ayrım (Xaçardzap) kəndinin yaxınlığında yerləşirdi. 1931-ci ildə keçmiş Dilican rayonunun inzibati-ərazi bölgüsünə daxil olmuşdur (415, s. 32). 1926-cı ildə 1-ci Cantəpədə 4 nəfər, 2-ci Cantəpədə 24 nəfər azərbaycanlı yaşamışdır (415, s. 32–33). 1930-cu illərdə ləğv edilmişdir. Toponim türk dilində "yan", "tərəf" mənasında işlənən "can" sözünə (299, s. 640) "kiçik dağ" mənasında işlənən "təpə" sözünün qoşulması yolu ilə əmələ gəlmişdir.

**Carğan** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. Ləmbəli (Baqrataşen) kəndinin yaxınlığında yerləşirdi. 1930-cu illərdə Ləmbəli kəndinə birləşdirilmişdir. Toponim türk dilində "dərə", "yarğan", "sıldırım dərə, uçurum" mənasında işlənən "car" sözünə (339, s. 178–179) "-ğan" şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. "Carğan" müasir Azərbaycan dilində işlənən "yarğan" sözünün fonetik variantıdır.

**Coğtala** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayətində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim qədim türk dilində su mənasında işlənən "cu" sözünün (339, s. 181) fonetik variantı olan "co" sözü ilə türk dilində "düzənlik, çöl, sahə", "meşənin ortasında açıq yer", "meşədə ağacsız, çılpaq yer" mənasında işlənən "tala" sözünün (339, s. 169–170) birləşməsindən əmələ gəlmişdir.

**Curasdan** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Dilican rayonunda, indi Tavuş vilayətində qışlaq. Haqqıxlı (Hovk) kəndinin yaxınlığında yerləşirdi. 1897-ci ildə 8 nəfər, 1926-cı ildə 50 nəfər azərbaycanlı yaşamışdır (415, s. 32, 38). 1930-cu illərdə ləğv edilmişdir.

# Ç

**Çaxırlı yaylası** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Basarkeçər (Vardenis) rayonunda, indi Geğarkunik vilayəti ərazisində yayla. "Çaxırlı" (çakurlu) etnonimi (272, s. 22; 238, s. 158) əsasında düzəlmişdir. Çaxırlı tayfasının yaylaq yeri olduğu üçün Çaxırlı yaylası adlandırılmışdır.

**Çamırlı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayəti ərazisində yaylaq. Qursalı (Arcahovit) kəndinin ərazisində yerləşir. Toponim "çamırlı" türk etnonimi (407, s. 88) əsasında yaranmışdır.

**Çataq** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində yaylaq. Qursalı (Arcahovit) kəndinin ərazisində yerləşmişdir. ("Vətən səsi" qəzeti, 24. 04. 1991). Toponim türk dilində "iki dağın, təpənin birləşdiyi yer" mənasında işlənən "çataq" sözü (359, III (2), s. 1895) əsasında əmələ gəlmişdir.

**Çatal-çınqıl** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayəti ərazisində qışlaq. Çaykənd (Dprabak) kəndi ilə Dilican şəhəri arasında yerləşirdi. 1926-cı ildə 13 nəfər azərbaycanlı yaşamışdır (415, s. 32–33). XX əsrin 20-ci illərinin sonunda ləğv edilmişdir. Toponim türk dilində "ikiyə ayrılmış", "ayrılmış", "haçalan-

mış" mənasında işlənən "çatal" sözü ilə (359, III (2), s. 1896) tikinti işlərində istifadə olunan daş qırıntısı, xırda daş (12, s. 441), "daş mədəni" mənasında işlənən "çınqıl" (339, s. 616) sözünün birləşməsindən əmələ gəlmişdir.

**Çələbi** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Çələbi türk tayfasının adı əsasında yaranmışdır.

**Çələbiyurd** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. Toponim çələbi tayfasının adı ilə "yurd" sözünün birləşməsindən yaranmışdır.

**Çəpərqırılan** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Dilican rayonunda, indi Tavuş vilayətində qışlaq. Polad Ayrım (Xaçardzap) kəndinin yaxınlığında yerləşirdi. 1926-cı ildə burada 9 nəfər azərbaycanlı yaşamışdır (415, s. 32–33). 1930-cu illərdə ləğv edilmişdir.

**Çınqıl** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim "xırda daşlar, daş qırıntıları" mənasında işlənən "çınqıl" sözü (339, s. 616; 12, s. 441) əsasında əmələ gəlmişdir.

**Çınqıl yaylası** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində yaylaq. Qızılörən (Şenavan) kəndinin ərazisində yerləşir.

**Çıraqlı** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayətində qışlaq. Ləmbəli (Baqrataşen) kəndinin yaxınlığında yerləşirdi. Toponim qızılbaşların çıraqlı etnonimi (ASE, X c., B., 1987, s. 364) əsasında yaranmışdır.

**Çırçır** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim Azərbaycan dilində şəlalə mənasında işlənən "şırşır" sözünün (253, s. 134) fonetik forması olan "çırçır" sözü əsasında əmələ gəlmişdir.

**Çubuqlu** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətində yaylaq. Saral (Nor Xaçakap) kəndinin ərazisində yerləşir. Toponim çubuqlu türk tayfasının adını (193, s. 160) əks etdirir.

**Çuxurtala** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim türk dilində "çala, çökək, qobu, dayaz dərə" mənasında işlənən "çuxur" sözü ilə (339, s. 620; 12, s. 454) "meşədə ağacsız, açıq yer" mənasında işlənən "tala" sözünün birləşməsindən əmələ gəlmişdir.

# D

**Daharlı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Düzkənd (Axuryan) rayonunda, indi Şirak vilayətində yaylaq. Qafqazın 5 verstlik xəritəsində (348, s. 73) qeyd edilmişdir. Toponim qaraqoyunlu türk tayfasından olan "duharlı" etnonimi (238, s. 158) əsasında yaranmışdır.

**Dana damı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayəti ərazisində yaylaq. Saral (Nor Xaçakap) kəndinin ərazisində yerləşir. Toponim heyvan adı bildirən "dana" sözü ilə "tövlə", "mal-qoyun salınan yer" mənasında işlənən "dam" sözünün birləşməsindən yaranmışdır.

**Daşyataq** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonu,

indi Tavuş vilayəti ərazisində qışlaq. 1926-cı ildə burada 7 nəfər azərbaycanlı yaşamışdır (415, s. 89). 1930-cu illərdə yaşayış məntəqəsi kimi ləğv edilmişdir. Toponim "daş" və Azərbaycan dilində "bir şeyin çox olduğu yer", "mədən" mənasında işlənən "yataq" (10, s. 510) sözlərinin birləşməsindən əmələ gəlmişdir.

**Dəlikdaş** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Lori vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim Azərbaycan dilində "dərin, dar çuxur" (10, s. 53, 62), "mağara" (278, s. 61) mənasında işlənən "dəlik" sözü ilə "qaya, dağ" mənasında işlənən "daş" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Dəmirli** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim dəmirli nəsil adının əsasında yaranmışdır.

**Dərəkom** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində qışlaq. Toxluca (Draxtik) kəndinin ərazisində, Göyçə gölünün sahilində yerləşir. Toponim Azərbaycan dilində "iki dağ arasında dərin çuxur" mənasında işlənən "dərə" sözü ilə (278, s. 62, 10, s. 74) "qoyun saxlanılan yer" mənasında işlənən "kom" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Dərməzur** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində qışlaq. Gığı çayının yuxarı axarının sol sahilində, Dərməzur çayının sahilində yerləşirdi. 1926-cı ildə qışlaqda 44 nəfər azərbaycanlı yaşamışdır (415, s. 56–57). 1930-cu illərdə ləğv edilmişdir.

**Dəvədaşı** – Tiflis quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark rayonunda, indi Lori vilayəti ərazisində yaylaq. Hallavar kəndinin ərazisində yerləşir. Toponim "dağ aşırımı, hündür dağ keçidi" mənasında işlənən "dəvə" sözü ilə (253, s. 100–101; 339, s. 168–169) Azərbaycan dilində "dağ", "qaya" mənasında işlənən "daş" sözü əsasında formalaşmışdır.

**Dəvə yatağı** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayəti ərazisində yaylaq. Qızılörən (Şenavan) kəndinin ərazisində yerləşir. Toponim "dəvə" heyvan adı ilə Azərbaycan dilində "payızda, qışda heyvan salınan yer" mənasında işlənən "yataq" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Durnalı** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. "Durnalı" sözündən əmələ gəlmişdir.

**Düz** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri rayonunda, indi Sünik vilayəti ərazisində qışlaq. 1926-cı ildə 2 nəfər azərbaycanlı yaşamışdır (415, s. 66–67). 1930-cu illərdə ləğv edilmişdir. Toponim Azərbaycan dilində "enişi, yoxuşu, çuxuru olmayan yer", "düzən, çöl, düzəngah, düzənlik" mənasında işlənən "düz" sözü (10, s. 168) əsasında əmələ gəlmişdir.

**Düzlər** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim Azərbaycan dilində relyef bildirən "düzən, düzənlik, çöl" mənasında işlənən "düz" sözünə "-lər" şəkilçisinin artırılması ilə yaranmışdır.

**Düzyurd** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində qışlaq. Toxluca (Draxtik) kəndinin ərazisində yerləşir. Toponim "düzən, çöl, düzəngah" mənasında işlənən "düz" sözü ilə (278, s. 68; 10, s. 168) "yaşayış yeri,

məskən, ev-eşik" mənasında işlənən "yurd" sözünün (10, s. 568; 339, s. 643) birləşməsindən əmələ gəlmişdir.

# Ə

**Əmirxan yaylağı** – Tiflis quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark rayonunda, indi Lori vilayəti ərazisində yaylaq. Hallavar kəndinin ərazisində yerləşir. Şəxs adı əsasında formalaşmışdır.

**Əyricə** – İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində yaylaq. Dərələyəz və Göyçə mahalları arasında, sərhəddə yerləşir (211, s. 199). Toponim Azərbaycan dilində "bir qədər əyri" mənasında işlənən "əyricə" sözü (10, s. 247) əsasında yaranmışdır.

**Əyricə** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində qışlaq. Toxluca (Draxtik) kəndinin yaxınlığında, Ağbulaq (Ağberk) kəndi ilə sərhəddə yerləşir. 1960-cı ildən sonra qışlaqda Toxluca kəndinin qoyun ferması yerləşirdi. Toponim Azərbaycan dilində "bir qədər əyri" mənasında işlənən "əyricə" sözünün (10, s. 247) əsasında əmələ gəlmişdir.

**Əyrisu** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayəti ərazisindəki Çaykənd (Dprabak) kəndinin yaxınlığında qışlaq. 1926-cı ildə 8 nəfər azərbaycanlı yaşamışdır. 1930-cu illərdə ləğv edilmişdir. Toponim "ayrılmış, əyri-üyrü, dolambac" mənasında işlənən "əyri" sözü ilə türk dilində "çay" mənasında işlənən "su" sözünün (299, s. 512; 278, s. 131; 339, s. 528–529) birləşməsindən əmələ gəlib. "Əyri çay yanındakı yaşayış məntəqəsi" mənasını bildirir.

# G

**Gəzdək** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. Qışlaq Ləmbəli (Baqrataşen) sovetliyinə daxil idi. 1926-cı ildə 9 nəfər azərbaycanlı yaşamışdır (415, s. 89). 1930-cu ildə Ləmbəli kəndi ilə birləşdirilərək ləğv edilmişdir. Toponim Azərbaycan dilində "yüksək və orta dağ beli tirəsində enli yarıq", "uçuq, batıq yer" (253, s. 126), "aşırım, dağ çökəyi, dağın təpəsində çökək yer" mənasında işlənən "gəzdək" sözü (11, s. 149; 339, s. 167) əsasında əmələ gəlmişdir.

**Gölyeri** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. Ləmbəli (Baqrataşen) kəndinin yaxınlığında yerləşirdi. Sonralar Ləmbəli kəndinə birləşdirilmişdir. Toponim "göl" və "yer" sözlərindən əmələ gəlmişdir.

**Göytala** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Dilican şəhəri yaxınlığında qışlaq. 1926-cı ildə burada 13 nəfər azərbaycanlı yaşamışdır. XX əsrin 30-cu illərində ləğv edilmişdir. Toponim Azərbaycan dilində "yaşıllıq" mənasında işlənən "göy" sözü ilə "meşədə ağacsız, çılpaq yer, açıqlıq" mənasında işlənən "tala" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Güney** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Gorus rayonunda, indi Sünik vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim Azərbaycan dilində "gün düşən yer" mənasında işlənən "güney" sözündən yaranmışdır.

**Güneypəyə** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Karvansara (İcevan) rayonunda, indi Tavuş vilayətinin Haqqıxlı (Hovk) kəndi ərazisində qışlaq. XX əsrin 30-cu

illərində ləğv edilmişdir. Toponim "gün düşən yer, cənub" mənasında işlənən "güney" sözü ilə "pəyə" ("tövlə" mənasında) sözünün birləşməsindən əmələ gəlmişdir.

**Günəş** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. Ləmbəli (Baqrataşen) kəndinin yaxınlığında, Ləmbəli kəndi ilə Körpülü (Dzorakap) kəndinin arasında yerləşir. 1926-cı ildə burada 8 nəfər azərbaycanlı yaşamışdır (415, s. 89). 1930-cu ildə ləğv edilmişdir. Toponim türk mənşəli günəş tayfasının adı əsasında (271, s. 57) əmələ gəlmişdir.

# H

**Hacıqışlaq** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Qəmərli (Artaşat) rayonunda, indi Ararat vilayətinin ərazisində qışlaq. Toponim "Hacı" şəxs adı ilə "qışlaq" sözünün birləşməsindən əmələ gəlmişdir. Sovet hakimiyyəti qurulandan sonra Getazat kəndinə birləşdirilmişdir.

# X

**Xaçabulaq** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim "haça" sözünün fonetik forması olan "xaça" sözü ilə "təbii su qaynağı" mənasında işlənən "bulaq" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Xalıkənd** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində qışlaq. Çaykənd (Dprabak) kəndinin yaxınlığında yerləşmişdir. Tarixən kənd olmuş, sonradan sakinləri Çaykəndə köçmüşdür. 1926-cı ildə burada 5 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31). Toponim "sahibsiz, yiyəsiz, tutulmamış, boş" mənasında işlənən "xali" (Azərbaycan dilinin qərb dialektində "xalı" formasında "əkilən torpaq sahəsinin əkilməmiş hissəsi" mənasında işlənir) sözü ilə (12, s. 296), "kənd" coğrafi nomeninin birləşməsi əsasında yaranmışdır.

**Xanım yurdu** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim "Xanım" şəxs adı ilə "yaşayış yeri, məskən" mənasında işlənən "yurd" sözünün (10, s. 568) birləşməsindən əmələ gəlib, "xanımın yaşadığı yer, məskən" mənasını bildirir.

**Xanmədin yaylası** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayəti ərazisində yaylaq. Vilayətdəki Saral (Nor Xaçakap) kəndindən cənubda yerləşir. "Xanməd" şəxs adı əsasında formalaşmışdır.

**Xanolan** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayətində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim dilimizdə "varlı, ağa, mülk sahibi" mənasında işlənən "xan" sözü ilə Azərbaycan dilində "yaşayış yeri, məskən" anlayışını verən "olan" ("olacaq" mənasında) sözünün birləşməsindən əmələ gəlib, "xanın olduğu yer" mənasını ifadə edir.

**Xaratgah** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Dilican rayonunda, indi Lori vilayətində qışlaq. Polad Ayrım (Xaçardzap) kəndinin yaxınlığında yerləşirdi. 1897-ci ildə 19 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31). 1908-ci ildə ləğv edilmişdir. Toponim "xaratlı" (toponimdə "-lı" şəkilçisi düşüb) türk tayfa adına "qayalıqda, dağda təbii və ya süni oyuq, mağara" mənasında işlənən "gah" (kaha) sözünün (11, s. 26) birləşməsindən əmələ gəlib, "xarat tayfasının yaşadığı kaha yanında qışlaq" mənasını bildirir.

**Xərəvə** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayəti ərazisində yaylaq. Qursalı (Arcahovit) kəndinin ərazisində yerləşir. Azərbaycan dilinin qərb dialektində xaraba mənasında işlənən "xərəvə" sözündən əmələ gəlmişdir.

# K

**Karvansara dərəsi** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayəti ərazisində qışlaq. Ardanış kəndinin yaxınlığında yerləşirdi. 1926-cı ildə burada 12 nəfər azərbaycanlı yaşamışdır (415, s. 32–33). XX əsrin 30-cu illərində ləğv edilmişdir. Toponim "karvansara" və "dərə" sözlərindən əmələ gəlmişdir.

**Keçəltəpə** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. Yuxarı Körpülü kəndinin tabeliyində olmuşdur. 1926-cı ildə burada 14 nəfər azərbaycanlı yaşamışdır (415, s. 16–17). 1930-cu ildə yaşayış məntəqəsi kimi ləğv edilmişdir. Toponim "ot bitməyən", "çılpaq" mənasını bildirən "keçəl" sözü ilə (11, s. 32) "kiçik dağ" mənasında işlənən "təpə" sözünün birləşməsindən əmələ gəlib, "çılpaq, otsuz, ot bitməyən təpə yanında olan qışlaq" mənasını bildirir.

**Keçkeçi** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Azərbaycan dilində işlənən "keçmək" sözündən əmələ gəlmişdir.

**Kərəmbiçən** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayəti ərazisində qışlaq. Vilayətin Toxluca (Draxtik) kəndinin ərazisində yerləşir. Toponim "Kərəm" şəxs adı ilə "biçən" feili sifətinin birləşməsindən əmələ gəlmişdir. Həmin ərazinin otu Kərəm adlı şəxs tərəfindən ilk dəfə biçildiyi üçün "Kərəmbiçən" adlanmışdır.

**Kirəşdərə** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. Yuxarı Körpülü (Dzorakap) kəndinin yaxınlığında yerləşirdi. 1926-cı ildə burada 3 nəfər azərbaycanlı yaşamışdır (415, s. 16–17). Toponim "tikintidə, heykəltəraşlıqda, cərrahlıqda işlənən ağ və ya sarı rəngli, əhəngli mineral maddə" mənasında işlənən "kirəc" sözü ilə (10, s. 71) "iki dağ və ya təpə arasında, eləcə də düzənlikdə uzun dərin çuxur, yarğan" mənasında işlənən "dərə" sözünün (10, s. 74) birləşməsindən əmələ gəlmişdir.

**Kolagir** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. XVI əsrdə Gəncə-Qarabağ bölgəsində yaşayan türk tayfalarından birinin adı kolagirən olmuşdur (406, s. 216). Toponim həmin kolagirən tayfasının adı əsasında formalaşmışdır.

**Köklü** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Nəsil adı əsasında yaranmışdır.

**Kömbəçi** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim "kömbəçi" (çörəkçi) nəsil adı əsasında yaranmışdır.

**Köşəkənd qışlağı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində qışlaq. 1897-ci ildə 34 nəfər azərbaycanlı yaşamışdır (415, s. 62–63). 1905–1906-cı illərdə baş

verən erməni-azərbaycanlı münaqişəsi nəticəsində azərbaycanlılar erməni silahlıları tərəfindən qovulmuş və kənd ləğv edilmişdir. Toponim türk dilində "müvəqqəti yaşayış yeri, yurd, daxma, koma" mənasında işlənən "köşə" sözünə (359, II (1), s. 635; 339, s. 299) "kənd" və "qışlaq" sözlərinin qoşulması əsasında yaranıb.

# Q

**Qamışgöl** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim Azərbaycan dilində işlənən "qamış" (bitki adı) və "göl" sözlərindən əmələ gəlib, "qamışlı göl yaxınlığındakı qışlaq" anlamını ifadə edir.

**Qarabulaq** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. Ləmbəli (Baqrataşen) kəndinin yaxınlığında yerləşirdi. 1926-cı ildə burada 9 nəfər azərbaycanlı yaşamışdır (415, s. 10–11). 1929–1930-cu illərdə əhali köçürülmüş, qışlaq ləğv edilmişdir. Toponim Azərbaycan dilində "keyfiyyətsiz, içməyə yararlı olmayan" mənasında işlənən "qara" sözünə "bulaq" hidroterminin birləşməsindən formalaşmışdır.

**Qaradağ** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim Azərbaycan dilində "hündür, uca, böyük" mənasında işlənən "qara" sözü ilə "dağ" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qara Əhmədli** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində qışlaq. Çaykənd (Dprabak) kəndinin yaxınlığında yerləşirdi. 1937-ci ilədək Dilican rayonunun tabeliyində olmuşdur. 1926-cı ildə burada 38 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31). XX əsrin 40-cı illərində azərbaycanlılar köçürülmüş və yaşayış məntəqəsi kimi ləğv edilmişdir. Türk dilində "böyük" mənasında işlənən "qara" sözü ilə əhmədli türk tayfasının adı (254, s. 40) əsasında yaranan etnotoponimdir.

**Qaraqala** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. Qışlağın başqa adı "Qırğı" olmuşdur (415, s. 72). 1930-cu ildə ləğv edilmişdir.

**Qaranəbi** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. Ləmbəli (Baqrataşen) kəndinin yaxınlığında yerləşirdi. 1930-cu ildə Allahverdi (Tumanyan) rayonunun tərkibində olmuşdur. 1926-cı ildə burada 17 nəfər azərbaycanlı yaşamışdır (415, s. 10–11). 1930-cu illərdə yaşayış məntəqəsi ləğv edilmişdir. Toponim "Qaranəbi" şəxs adı əsasında əmələ gəlmişdir.

**Qarasu** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Tavuş vilayəti ərazisində qışlaq. Dilican şəhəri yaxınlığında yerləşmiş və şəhərin tabeliyində olmuşdur. 1926-cı ildə burada 13 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31). 1930-cu illərdə ləğv edilmişdir. Toponim "ağır, aşağı keyfiyyətli, içməyə yararlı olmayan" mənasında işlənən "qara" sözündən (93, s. 42) və "su" hidronimindən ibarətdir.

**Qarasu** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. Yel dağının ətəyində, Ləmbəli (Baqrataşen) kəndinin yaxınlığında yerləşmişdir. 1930-cu ildə Allahverdi (Tumanyan) rayonunun tərkibində olmuşdur. 1926-cı ildə burada 14 nəfər azərbaycanlı yaşamışdır (415, s. 10–11). 1930-cu illərdə ləğv edilmişdir. Toponim "ağır, aşağı keyfiyyətli, içməyə yararlı olmayan" mənasında işlənən "qara" sözündən (93, s. 42) və su hidronimindən ibarətdir.

**Qazandüşən** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətinin Çaykənd (Dprabak) kəndi ilə Dilican şəhəri arasındakı ərazidə qışlaq. 1926-cı ildə burada 7 nəfər azərbaycanlı yaşamışdır (415, s. 32–33). XX əsrin 30-cu illərində ləğv edilmişdir. Toponim qazan türk etnoniminə "düşən" feili sifətinin artırılması yolu ilə düzəlmişdir.

**Qədir damı** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, Dilican şəhəri yaxınlığında, indi Tavuş vilayəti ərazisində qışlaq. 1926-cı ildə burada 11 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31). XX əsrin 30-cu illərində ləğv edilmişdir. Toponim "Qədir" şəxs adı və "ev, dəyə, qazma" mənasında işlənən "dam" (299, s. 529; 339, s. 170–171) sözünün birləşməsindən yaranmışdır.

**Qızılqaya** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətindəki Gölkənd (Ayqut) kəndinin yaxınlığında qışlaq. 1930-cu ildə keçmiş Dilican rayonunun tabeliyində olmuşdur. 1926-cı ildə burada 12 nəfər azərbaycanlı yaşamışdır (415, s. 32–33). XX əsrin 30-cu illərində ləğv edilmişdir. Toponim "qırmızı" mənasında işlənən "qızıl" sözü ilə "qaya" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qojaravan** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. Ləmbəli (Baqrataşen) kəndinin yaxınlığında yerləşirdi. 1930-cu illərdə Ləmbəli kəndinə birləşdirildikdən sonra ləğv edilmişdir. Toponim qızılbaş türk tayfasına aid olan "qacar" etnoniminin (175, s. 36) fonetik forması olan qojar tayfa adına "kənd yaşayış məntəqəsi" mənasında işlənən "van" sözünün (278, s. 42) birləşməsindən əmələ gəlmişdir.

**Qonaxgörməz** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim qədim türk dilində "istirahət yeri, dayanacaq" mənasında işlənən "qonaq" sözü ilə (299, s. 455) "görməz" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Qoşabulaq** – Tiflis quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark rayonunda, indi Lori vilayətinin Hallavar kəndi ərazisində yaylaq. "Qoşa" və "bulaq" sözlərindən əmələ gəlmişdir.

**Qozlu** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim Azərbaycan dilində işlənən "qoz" bitki adına "-lu" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir.

**Quşçaqaya** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində qışlaq. XX əsrin 50-ci illərində ləğv edilmişdir. Toponim "quşçu" türk etnonimi ilə (245, s. 38–39; 182, s. 313) Azərbaycan dilində "dağ" mənasında işlənən "qaya" sözünün əsasında əmələ gəlmişdir.

**Quzan** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponimin birinci hissəsi oğuz türk tayfasının adını əks etdirən "quz" etnoniminə (89, s. 138; 238 s. 48) cəmlik bildirən "-an" şəkilçisinin qoşulması yolu ilə formalaşmışdır.

**Quzey** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətinin Toxluca (Draxtik) kəndində qışlaq. Toponim "gün düşməyən, həmişə kölgəli yer" mənasında işlənən "quzey" sözündən (9, s. 64) yaranmışdır.

# M

**Mancan yatağı** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayəti ərazisində qışlaq. Çaykənd (Dprabak) kəndinin yaxınlığında yerləşmişdir. 1926-cı ildə burada 2 nəfər azərbaycanlı yaşamışdır. XX əsrin 30-cu illərində ləğv edilmişdir. Toponim "Mancan" şəxs adına "qoyun və keçi saxlanılan yer" (8, s. 241) mənasında işlənən "yataq" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Marallıca** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, Geğarkunik vilayətində qışlaq. Gölkənd (Ayqut) kəndinin yaxınlığında yerləşmişdir. Toponim heyvan adı bildirən "maral" sözünə sifətin çoxaltma dərəcəsini əmələ gətirən "-ca" şəkilçisinin birləşməsindən əmələ gəlmişdir. "Maral olan yer" mənasını ifadə edir.

**Meşə dərəsi** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində qışlaq. Ardanış kəndinin yaxınlığında yerləşirdi. 1926-cı ildə burada 9 nəfər azərbaycanlı yaşamışdır (415, s. 32–33). XX əsrin 30-cu illərində ləğv edilmişdir. Toponim "meşə" sözü ilə relyef mənası ifadə edən "dərə" sözünün birləşməsindən yaranmışdır.

**Mollatala** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim dini mənada işlənən "molla" sözü ilə Azərbaycan dilində "meşədə ağacsız sahə, çılpaq yer" mənasında işlənən "tala" sözünün birləşməsindən əmələ gəlmişdir.

# N

**Nov talası** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim Azərbaycan dilində "arx, kanal" mənasında işlənən "nov" sözü ilə "meşənin ortasında olan açıqlıq" mənasında işlənən "tala" sözünün əsasında formalaşmışdır.

# O

**Oyuqlu** – Tiflis quberniyasının Lori-Pəmbək qəzasında, keçmiş Quqark rayonunda, indi Lori vilayəti ərazisində yaylaq. Hallavar kəndinin ərazisində yerləşmişdir. Toponim "yer bölgüsündə sərhəd bildirmək məqsədilə torpaq və ya daş yığını ilə nişanlanmış ərazi" mənasında işlənən "oyuq" sözünə (9, s. 346) "-lu" şəkilçisinin birləşməsindən əmələ gəlmişdir.

# P

**Paşakənd** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində qışlaq. 1897-ci ildə ermənilərlə yanaşı 21 nəfər azərbaycanlı yaşamışdır (415, s. 62–63). XX əsrin əvvəllərində azərbaycanlılar deportasiya olunduqdan sonra – 1930-cu illərdə qışlaq ləğv edilmişdir. Toponim şəxs adı əsasında əmələ gələn antropotoponimdir.

# S

**Sakar** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim "sakar" türk etnonimi (271, s. 101) əsasında əmələ gəlmişdir.

**Sal dağı** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. Toponim "sal" türk etnoniminə (286, s. 40) "dağ" sözünün əlavəsi əsasında əmələ gəlmişdir. "Sal dağı yaxınlığında olan qışlaq" mənasını bildirir.

**Saraclı** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Kalinino rayonunda, indi Lori vilayətinin ərazisində yaylaq. Rayondakı Cücəkənd (Cunaşoğ) kəndinin ərazisində yerləşir. Toponim sarıcalı türk tayfasının adı (207, s. 104–105) əsasında yaranmışdır.

**Sarayurd** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Qafan rayonunda, indi Sünik vilayəti ərazisində qışlaq. Toponim qədim türk dilində "düzənlik, düz çöl, sahə" mənasında işlənən "sara" (359, IV (1), s. 315) və Azərbaycan dilində "yaşayış yeri, məskən" mənasında işlənən "yurd" sözündən (10, s. 508) əmələ gəlib, "düzənlikdə, çöldə yerləşən yaşayış yeri" mənasını bildirir.

**Sarıbulaq** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayəti ərazisində yaylaq. Qursalı (Arcahovit) kəndinin ərazisində yerləşir. Hidronim qədim Azərbaycan dilində "təmiz, saf, pak, içməyə yararlı" mənasında işlənən "sarı" sözü ilə (93, s. 74–75), "yerin altından sızıb çıxan su mənbəyi" mənasında işlənən "bulaq" sözünün (9, s. 322) birləşməsindən əmələ gəlmişdir.

**Soğanlı** – Dərələyəz qəzasında, keçmiş Keşişkənd (Yeğeqnadzor) rayonunda, indi Vayotsdzor vilayəti ərazisində yaylaq. Qovşuq kəndinin cənubunda yerləşir. "Soğan" bitki adına "-lı" şəkilçisinin artırılması ilə yaranmışdır.

# Ş

**Şacquran** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayətində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim sacilər sülaləsinin başçısı Yusif ibn Əbu Sac Divdadın (ASE, VIII, B., 1984, s. 313) adını əks etdirən "sac" sözünün fonetik variantı olan "şac" (Azərbaycan dilində "s~ş" səs əvəzlənməsi qanunauyğun haldır) sözünə monqol dilində "düşərgə, hərbi düşərgə", "hasar" mənasında işlənən "quran" (əsli "xuren") sözünün (339, s. 317–318) artırılması yolu ilə düzəldilmişdir.

**Şahmurad** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayəti ərazisində qışlaq. Gölkənd (Ayqut) kəndinin yaxınlığında yerləşmişdir. 1926-cı ildə burada 6 nəfər azərbaycanlı yaşamışdır (415, s. 32–33). 1930-cu ildə ləğv edilmişdir. Toponim şəxs adı əsasında əmələ gəlmişdir.

**Şırşır** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri rayonunda, indi Sünik vilayəti ərazisində qışlaq. 1926-cı ildə 2 nəfər azərbaycanlı yaşamışdır (415, s. 68–69). 1930-cu ildə ləğv edilmişdir. Toponim "şəlalə" mənasında işlənən "şırşır" sözü (253, s. 134) əsasında formalaşmışdır.

# T

**Taxça kom** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində qışlaq. Toxluca (Draxtik) kəndinin yaxınlığında, Göyçə gölünün sahilində yerləşirdi. 1926-cı ildə burada 12 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31). 1930-cu illərdə ləğv edilmişdir. Sonralar burada Toxluca kəndinin qoyun ferması yerləşirdi. Toponim "təpəlikdə yerləşən düzənlik" mənasında işlənən "taxta" (Göyçə dialektində həmin söz "taxça" formasında işlənir) sözü ilə (196, s. 40–41) "qoyun saxlanılan yer" mənasında işlənən "kom" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Tala** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayəti ərazisində yaylaq.

**Talıboğlu** – Qars quberniyasının Qars qəzasında, keçmiş Amasiya rayonunda, indi Şirak vilayətinin Ellərkənd kəndi ərazisində yaylaq. Gürcüstanla sərhəd ərazidə yerləşir. Nəsil adı əsasında yaranan toponimdir.

**Taya qaya** – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayəti ərazisində qışlaq. Ardanış kəndinin yaxınlığında yerləşirdi. 1926-cı ildə burada 9 nəfər azərbaycanlı yaşamışdır (415, s. 30–31). Yaşayış məntəqəsi kimi XX əsrin 30-cu illərində ləğv edilmişdir. Toponim "üst-üstə yığılmış daş yığını" mənasında işlənən "taya" sözü ilə "dağ, daş, kiçik dağ" mənasında işlənən "qaya" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Tərnəvut yaylağı** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri rayonunda, indi Sünik vilayəti ərazisində yaylaq. Nüvədi (Nrnadzor) kəndinin ərazisində yerləşir. Toponim xəzər tayfalarından olan "tarna" (tərnə) etnoniminə (286, s. 44) qədim türk dilində cəmlik, topluluq bildirən "-ğut", "-ut" şəkilçisinin dialekt variantı olan "-vut" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir.

**Tərs çay** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, Dilican şəhəri yaxınlığında qışlaq. 1897-ci ildə burada 10 nəfər azərbaycanlı, 18 erməni, 4 rus yaşamışdır (415, s. 30–31). XX əsrin əvvəllərində ləğv edilmişdir. Tərsa çayının sahilində salındığı üçün yaşayış məntəqəsinin adı "Tərs çay qışlağı" adlandırılmışdır.

**Tomardaş** – Qars quberniyasının Qars qəzasında, keçmiş Amasiya rayonunda, indi Şirak vilayətinin Çivinli kəndi ərazisində yaylaq. Kənddən 23 km şimalda, Türkiyə ilə sərhəddə yerləşir.

**Tozluq** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Cəlaloğlu (Stepanavan) rayonunda, indi Lori vilayəti ərazisində qışlaq. 1897-ci ildə burada 4 nəfər azərbaycanlı yaşamışdır (415, s. 78–79). XX əsrin əvvəllərində ləğv edilmişdir. Toponim qədim türk dilində "qovaq ağacı" mənasında işlənən "toz" sözünə (359, III (2), s. 1212) "-luq" şəkilçisinin artırılması ilə əmələ gəlmişdir.

# Ü

**Üçdüz** – Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasında, keçmiş Meğri rayonunda, indi Sünik vilayətində qışlaq. Toponim say bildirən "üç" sözü ilə relyef bildirən "düz" sözünün əsasında formalaşmışdır.

# Y

**Yapalaxlı** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonunda, indi Geğarkunik vilayətində qışlaq. Gölkənd (Ayqut) kəndinin yaxınlığında yerləşirdi. 1926-cı ildə burada 23 nəfər azərbaycanlı yaşamışdır (415, s. 32–33). XX əsrin 30-cu illərində ləğv edilmişdir. Toponim nəsil adı əsasında yaranmışdır.

**Yeldağı** – Tiflis quberniyasının Borçalı qəzasında, keçmiş Barana (Noyemberyan) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1926-cı ildə burada 7 nəfər azərbaycanlı yaşamışdır (415, s. 10–11). 1930-cu illərdə ləğv edilmişdir. Yeldağı dağının ətəyində yerləşirdi. Toponim Azərbaycan dilində "külək" mənasında işlənən "yel" sözü ilə "yerin hündür, dik yamaclı və zirvəli hissəsi", "yaylaq, dağüstü düzənlik" mənasında işlənən "dağ" sözünün (10, s. 11) birləşməsindən əmələ gəlmişdir.

**Yelliyurd** – İrəvan quberniyasının Aleksandropol qəzasında, keçmiş Hamamlı (Spitak) rayonunda, indi Lori vilayətinin ərazisində yaylaq. Qursalı (Arcahovit) kəndinin ərazisində yerləşmişdir. "Küləkli, küləktutan yer" mənasında işlənən "yelli" sözü ilə "yaşayış yeri" mənasında işlənən "yurd" sözünün birləşməsindən əmələ gəlmişdir.

**Yolayrıcı** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Krasnoselsk rayonu, indi Geğarkunik vilayəti ərazisində qışlaq. Gölkənd (Ayqut) kəndinin yaxınlığında yerləşmişdir. 1926-cı ildə burada 4 nəfər azərbaycanlı yaşamışdır (415, s. 32–33). XX əsrin 30-cu illərində ləğv edilmişdir. Toponim Azərbaycan dilində işlənən "yol" və "ayrıcı" sözlərinin birləşməsindən əmələ gəlmişdir.

**Yuxarı Hunud** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim "hun" adlı qədim türk etnonimi (287, s. 72, 101, 124–126) əsasında əmələ gəlmişdir. Toponimin əvvəlindəki "yuxarı" sözü fərqləndirici əlamət bildirir. Hunud toponimindəki "ud" topoformantdır.

**Yuxarı Qızqala** – Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, keçmiş Şəmşəddin (Berd) rayonunda, indi Tavuş vilayəti ərazisində qışlaq. 1930-cu ildə ləğv edilmişdir. Toponim qədim türk dilində "yayla" (399, s. 324; 299, s. 445) "çöl, dağ zirvəsi, dağ, təpə, dağ qılıcı" (339, s. 327–328) mənasında işlənən "qır" (qız) sözü ilə "qala" sözündən əmələ gəlmişdir. "Yuxarı" fərqləndirici əlamət bildirir.

# Z

**Zamanın arxacı** – İrəvan quberniyasının İrəvan qəzasında, keçmiş Ellər (Abovyan) rayonunda, indi Kotayk vilayətinin ərazisində yaylaq. Vilayətdəki Göykilsə (Kaputan) kəndinin ərazisində yerləşir. "Zaman" şəxs adı əsasında yaranmışdır.

# İrəvan xanlığının mahal, sultanlıq və əyalətləri

# A

**Abaran mahalı** – Ələyəz dağının ətəyində, xanlığın şimal qurtaracağında yerləşirdi. Mahal şimaldan Pəmbək əyaləti, cənubdan Seyidli-Ağsaqqallı, Körpübasar, şərqdən isə Dərəçiçək mahalları ilə həmsərhəd idi. Mahalda mövcud olmuş 61 kənddən 22-si rus işğalı nəticəsində dağıdılmışdı. Abaran mahalının ərazisi indiki Araqatsotn vilayətinin, keçmiş Abaran rayonunun ərazisinin bir hissəsinə uyğun gəlir.

# D

**Dərəçiçək mahalı** – şimaldan Pəmbək əyaləti, cənubdan Qırxbulaq mahalı, qərbdən Abaran mahalı və şərqdən Göyçə mahalı arasında yerləşirdi. Mahalda mövcud olmuş 53 kənddən 16-sı rus işğalı nəticəsində dağıdılmışdı. Dərəçiçək mahalının ərazisi indiki Kotayk vilayətinin, keçmiş Hrazdan (Axta) rayonunun ərazisinə uyğun gəlir.

**Dərəkənd-Parçenis** – mahalı xanlığın cənub-qərb qurtaracağında, Araz çayının sağ sahilində yerləşirdi. Hazırda Türkiyə ərazisindədir. Bu mahal şimaldan Sədli mahalı, cənub və qərbdən Bayazid paşalığı, şərqdən isə Sürməli mahalı ilə həmsərhəd idi. Mahalda mövcud olmuş 88 kənddən 8-i rus işğalı nəticəsində dağıdılmışdı. Parçenis dərəsində 26, Dərəkənd dərəsində isə 54 yaşayış üçün yararlı kənd olmuşdur. Dərəkənd-Parçenis mahalı hazırda Türkiyənin Qars vilayətinin Qağızman ilçəsi ərazisinin bir hissəsinə uyğun gəlir.

# G

**Gərnibasar mahalı** – Araz çayının sol sahilində yerləşirdi. O, şimaldan Qırxbulaq mahalı, cənubdan Vedibasar mahalı, şərqdən Göyçə mahalı, qərbdən Zəngibasar mahalı və Araz çayı ilə həmsərhəd idi. Mahalda mövcud olmuş 95 kənddən 43-ü rus işğalı nəticəsində dağıdılmışdı. Gərnibasar mahalının ərazisi indiki Ararat vilayətinin keçmiş Artaşad (Qəmərli) rayonunun ərazisinə uyğun gəlir.

**Göycə mahalı** – şimaldan Şəmşəddil sultanlığı, Gəncə xanlığı, şimali-qərbdən Dərəçiçək mahalı, cənubdan Naxçıvan xanlığı, şərqdən Qarabağ xanlığı, qərbdən Qırxbulaq, Gərnibasar və cənub-qərbdən Vedibasar mahalları ilə həmsərhəd idi. Ərazicə ən böyük olan Göyçə mahalı Göyçə gölü hövzəsini tam əhatə edirdi. Mahalda mövcud olmuş 126 kənddən 67-si rus işğalı nəticəsində dağıdılmışdı. İ.Şopen tərəfindən yalnız 59 kənddə əhali qeydə alınmışdı. 37 kəndin adı isə unudulmuşdu. Göyçə mahalının ərazisi indiki Geğarkunik vilayətinin, keçmiş Martuni (Aşağı Qaranlıq), Sevan, Vardenis (Basarkeçər), Krasnoselo (bir hissəsi) rayonlarının ərazisinə uyğun gəlir.

# K

**Körpübasar mahalı** – şimaldan Seyidli-Ağsaqqallı, cənubdan Zəngibasar, qərbdən Sərdarabad, şərqdən Zəngi çayı, şimal-şərqdən isə Dərəçiçək mahalı ilə həmsərhəd idi. Bəzi mənbələrdə mahalın adı "Karbibasar" kimi verilmişdir. Mahalda mövcud olmuş 49 kənddən 9-u rus işğalı nəticəsində dağıdılmışdı. Körpübasar ma-

halının ərazisi indiki Armavir vilayətinin, keçmiş Eçmiədzin rayonu və indiki Ararat vilayətinin, keçmiş Əştərək rayonunun ərazilərinə uyğun gəlir.

# Q

**Qırxbulaq mahalı** – Dərəçiçəklə Zəngibasar mahalları arasında yerləşirdi. Mahal şərq tərəfdən onu Göyçə gölündən ayıran dağlarla, şimaldan Dərəçiçək mahalı ilə, cənubdan İrəvan şəhəri, Zəngi çayı, cənub-qərbdən Gərnibasar, qərbdən isə Körpübasar mahalı ilə həmsərhəd idi. Qırxbulaq yaylasının bulaqları İrəvan şəhərini içməli su ilə təmin edirdi. Mahalda mövcud olmuş 48 kənddən 26-sı rus işğalı nəticəsində dağıdılmışdı. Qırxbulaq mahalının ərazisi indiki Kotayk vilayəti, keçmiş Abovyan rayonunun ərazisinin bir hissəsinə uyğun gəlir.

# P

**Pəmbək əyaləti** – şimaldan Kartli-Kaxetiya çarlığı, cənubdan Abaran və Dərəçiçək mahalları, şərqdən Şörəyel (Şürəgəl), qərbdən isə Qazax sultanlıqları ilə həmsərhəd idi. 1801-ci ildə Pəmbəkdə mövcud olmuş 44 kənddən 14-ü rus işğalı nəticəsində boşaldılmışdı.

# S

**Seyidli-Ağsaqqallı** – mahalı şimaldan Abaran, qərbdən Talın mahalı, cənubdan və şərqdən Körpübasar, cənub-qərbdən Sərdarabad mahalları ilə həmsərhəd idi. 20 kəndə malik Seyidli-Ağsaqqallı mahalının 11 kəndi Seyidli tayfasına, 9-u isə Ağsaqqallı tayfasına məxsus idi. Bəzi mənbələrdə Ağsaqqallı tayfasının adı yanlış olaraq Axsaxlı kimi verilmişdir. Müharibə nəticəsində bu mahalın kəndlərinə ziyan dəyməmişdir. Seyidli-Ağsaqqallı mahalının ərazisi indiki Araqatsotn və Ararat vilayətlərinin, keçmiş Əştərək, Talin, Abaran rayonlarının həmsərhəd ərazisidir.

**Səədli mahalı** – İrəvan xanlığının ərazicə ən kiçik mahalı idi və onun qərb qurtaracağında yerləşirdi. Həmin ərazidə Arpaçay Araza qovuşurdu. Səədli mahalı şimaldan Talın, qərbdən Qars paşalığı, cənubdan Dərəkənd-Parçenis, şərqdən isə Sərdarabad mahalı ilə həmsərhəd idi. Bəzi mənbələrdə mahalın adı yanlış olaraq Saatlı mahalı kimi verilmişdir. Mahalda mövcud olmuş 14 kənddən 5-i rus işğalı nəticəsində dağıdılmışdı. Səədli mahalının ərazisi indiki Armavir vilayətinin, keçmiş Hoktemberyan (Sərdarabad) rayonunun ərazisinin bir hissəsinə uyğun gəlir.

**Sərdarabad mahalı** – Araz çayının şimal tərəfində, Sürməli mahalının qarşısında yerləşirdi. Mahal şimaldan Talın, qərbdən Səədli, cənubdan onu Sürməli mahalından ayıran Araz çayı, şərqdən isə Körpübasar yə Zəngibasar mahalları ilə həmsərhəd idi. Sərdarabad mahalı İrəvanın sonuncu xanı Hüseynəli xan dövründə yaradılmışdı. 1817-ci ildə tikintisi başa çatdırılan məşhur Sərdarabad qalası bu mahalda yerləşirdi. Mahalda mövcud olmuş 30 kənddən 8-i rus işğalı nəticəsində dağıdılmışdı. Sərdarabad mahalının ərazisi indiki Armavir vilayətinin, keçmiş Hoktemberyan (Sərdarabad) rayonunun ərazisinə uyğun gəlir.

**Sürməli mahalı** – İrəvan xanlığının cənub qurtaracağında, Araz çayının sağ sahili boyunca uzanırdı. Bu mahal şimal, şimal-şərq və şərqdən Araz çayı, cənubdan onu Bəyazid paşalığından ayıran Ağrıdağ silsiləsi və Maku xanlığı ilə, qərbdən isə Dərəkənd-Parçenis mahalı ilə həmsərhəd idi. Mahalda mövcud olmuş 78 kənddən 28-i rus işğalı nəticəsində dağıdılmışdı. Sürməli mahalının ərazisi hazırda Türkiyənin İğdır vilayətinin ərazisinə uyğun gəlir.

# Ş

**Şərur mahalı** – şimaldan Vedibasar mahalı, qərbdən Araz çayı, cənubdan və cənub-şərqdən Naxçıvan xanlığına aid ərazilərlə həmsərhəd idi. Arpa çayı mahalı iki hissəyə bölürdü. Mahalda mövcud olmuş 61 kənddən 11-i rus işğalı nəticəsində dağıdılmışdı. Şərur mahalının ərazisi hazırda Naxçıvan MR-in Sədərək rayonunun ərazisinə uyğun gəlir.

**Şörəyel** (Şürəgəl) – sultanlığı İrəvan xanlığının şimal-qərbində, Alagöz (Ələyəz) dağının ətəyində yerləşirdi. Sultanlıq şimaldan Kartli-Kaxetiya çarlığı, cənubdan Talın və Seyidli-Ağsaqqallı mahalları, şərqdən isə Pəmbək əyaləti və Abaran mahallarını ayıran dağlarla əhatə olunmuşdu. Arpaçay çayı Şörəyel sultanlığını Qars paşalığından ayırırdı. Sultanlığın mərkəzi Ərtik (Artik) idi. "İrəvan əyalətinin icmal dəftəri"ndə Şörəyel sancağında (Pəmbək əyaləti ilə birlikdə) 172 kəndin mövcudluğu göstərilir. Nadir şahın dövründə verilən məlumata görə, İrəvan xanlığının tərkibinə daxil olan mahal kimi, Şörəyel mahalında 109 kənd mövcud olmuşdur. 1804-cü ildə Şörəyel sultanlığının rus qoşunları tərəfindən işğalından sonra bir neçə kənd istisna olmaqla, qalan bütün kəndlərə Türkiyədən köçürülüb gətirilən ermənilər məskunlaşdırılmışdı.

# T

**Talın mahalı** – İrəvan xanlığının şimal-qərbində – Ələyəz (Alagöz) dağının cənub ətəklərində yerləşirdi. Arpaçay çayı mahalı Qars paşalığından ayırırdı. Talın mahalı şimaldan Şörəyel sultanlığı, qərbdən Qars paşalığı, cənubdan Sərdarabad və Səədli mahalları, şərqdən Seyidli-Ağsaqqallı mahalları ilə həmsərhəd idi. Məşhur Talın karvansarası və Talın qalası bu ərazidə yerləşirdi. Mahalda mövcud olmuş 47 kənddən 27-si rus işğalı nəticəsində dağıdılmışdı. Talın mahalının ərazisi indiki Araqatsotn vilayətinin, keçmiş Talin rayonunun ərazisinə uyğun gəlir.

# V

**Vedibasar mahalı** – Araz çayının sol sahili boyunca yerləşirdi. Vedibasar şimaldan Gərnibasar mahalı, cənub və cənub-şərqdən Şərur mahalı və Naxçıvan xanlığı, şərqdən Göyçə mahalı, qərbdən Araz çayı ilə həmsərhəd idi. Bu mahal Vedi və Qapan çaylarının əhatə etdikləri dağlardan, düzənlikdən ibarət idi. Mahalda mövcud olmuş 54 kənddən 33-ü rus işğalı nəticəsində dağıdılmışdı. Vedibasar mahalının ərazisi indiki Ararat vilayətinin keçmiş Ararat (Vedi) rayonunun ərazisinə uyğun gəlir.

# Z

**Zəngibasar mahalı** – İrəvan şəhərinin cənubunda yerləşirdi. Bu mahal şimal və şimali-qərbdən Körpübasar və Qırxbulaq mahalları, cənubdan Araz çayı, şərqdən Gərnibasar, qərbdən isə Sərdarabad mahalları ilə həmsərhəd idi. Mahalda mövcud olmuş 33 kənddən 7-si rus işğalı nəticəsində dağıdılmışdı. Mahalın ərazisi indiki Ararat vilayətinin, keçmiş Masis (Zəngibasar) rayonunun ərazisinə uyğun gəlir.

***Dərəkənd-Parçenis, Sürməli və Şərur mahalları istisna olmaqla, yuxarıda adları sadalanan mahalların əraziləri hazırda Ermənistan Respublikası adlanan dövlətin ərazisinin əsas hissəsini təşkil edir.***

# Hazırda "Ermənistan Respublikası" adlandırılan tarixi Azərbaycan ərazilərini kimlər və nə vaxt idarə etmişlər

**ƏRƏB XİLAFƏTİ DÖVRÜ**

***Əmirlər***

Məhəmməd ibn Mərvan *(693–701, faktiki olaraq 699-cu ildən)*
Məsləmə ibn Əbd əl-Malik *(709–715)*
Cərrah ibn Abdullah əl-Həkəmi *(722–724)*
Məsləmə ibn Əbd əl-Malik *(725–729)*
Cərrah ibn Abdullah əl-Həkəmi *(729–730)*
Məsləmə ibn Əbd əl-Malik *(731–732)*
Mərvan ibn Məhəmməd ("kar" ləqəbli) *(732–744)*
Musafir ibn Kusayr *(745–750)*
Əbu Cəfər *(750–754)*
Həsən ibn Kəhtəbə ət-Tayi *(754–759)*
Mehdi *(760–775)*
Həsən ibn Kəhtəbə ət-Tayi *(771–775)*
Yəzid ibn Usayd əs-Sulami *(752–754), (759–769), (775–780)*
Harun *(780–786)*
Huzayma ibn Hazim ət-Təmimi *(786–787)*
Yusuf ibn Rəşid əs-Sulami *(787)*
Yəzid ibn Məzyəd əş-Şeybani *(787–788)*
Ubəydullah ibn Mehdi *(788–791)*
Fəzl ibn Yəhya ibn Xalid əl-Bərmaki *(792–795)*
Məhəmməd əl-Əmin *(795–809)*
Əhməd ibn Yəzid əs-Sulami *(796–797), (811)*
Səyid ibn Səlm əl-Bahili *(798–799)*
Nəsr ibn Həbib əl-Mühəlləbi *(799)*
Yəzid ibn Məzyəd əş-Şeybani *(799–801)*
Əsəd ibn Yəzid əş-Şeybani *(801–802)*
Məhəmməd ibn Yəzid əş-Şeybani *(802–803)*
Huzayma ibn Hazim ət-Təmimi *(803–806)*
Süleyman ibn Yəzid əl-Əmiri *(806–807)*
Əyyub ibn Süleyman *(807)*
Yəhya ibn Zufər *(808)*
Əbdallah ibn Məhəmməd *(809)*
Məhəmməd ibn Zühəyr əd-Dəbbi *(809)*
Əsəd ibn Yəzid ibn Məzyəd *(809–811)*

İshaq ibn Süleyman əl-Həşimi *(811–813)*
Əbu Əbdallah *(814)*
Hatim ibn Hərsamə ibn Əyun *(815–818)*
Yəhya ibn Muad *(818–819)*
Əhməd ibn Yəhya *(819–820)*
İsa ibn Məhəmməd əl-Məmuni *(820–823)*
Məhəmməd ibn Əbdallah əl-Kəlbi *(823)*
Zurayk ibn Əli *(824–825)*
Əhməd ibn Əbd əl-Əla *(825–826)*
Əbd əl-Əla ibn İbrahim *(826–827)*
Məhəmməd ibn Humayd ət-Tusi *(827–828)*
Xalid ibn Yəzid əş-Şeybani *(829–832)*
Əl-Abbas ibn əl-Məmun *(832–834)*
Əl-Əfşin Heydər ibn Kavus *(835–840)*

**Qeyd:** *Erməni müəllifi Aram Ter-Qevondyan bu siyahıya erməni tarixçilərinin indi "Qərbi Ermənistan" adlandırdıqları Türkiyə ərazisindəki xilafət dövrü əmirlərinin adlarını da daxil etmişdir.*

## QƏRBİ AZƏRBAYCAN (İNDİKİ ERMƏNİSTAN) ƏRAZİLƏRİ IX–XV ƏSRLƏRDƏ

*Sacilər dövlətinin hakimiyyəti altında (879–941)*
*Salarilər dövlətinin hakimiyyəti altında (942–981)*
*Dəbil (Dvin) Əmirliyinin tərkibində (951–981)*
*Şəddadilər dövlətinin hakimiyyəti altında (971–1075)*
*Rəvvadilər dövlətinin hakimiyyəti altında (981–1054)*
*Sulatn Toğrulun hakimiyyəti altında (1054–1063)*
*Alp Arslanın hakimiyyəti altında (1063–1072)*
*Məlik şahın hakimiyyəti altında (1072–1092)*
*Məlik şah oğlu Məhəmməd Təpər şahın hakimiyyəti altında (1105–1117)*
*Azərbaycan Atabəylər dövlətinin tərkibində (1136–1225)*
*Atabəy Cahan pəhləvanın hakimiyyəti altında (1175–1186)*
*Qızıl Arslanın hakimiyyəti altında (1186–1191)*
*Monqolların hakimiyyəti altında (1231–1239)*
*Menku xanın hakimiyyəti altında (1251–1260)*
*Hülakülərin hakimiyyəti altında (1258–1357)*
*Abağa xanın hakimiyyəti altında (1265–1282)*
*Əhməd xanın hakimiyyəti altında (1282–1284)*
*Arqun xanın hakimiyyəti altında (1284–1291)*
*Qazan xanın hakimiyyəti altında (1295–1304)*
*Sultan Məhəmməd Xudabəndənin hakimiyyəti altında (1304–1316)*
*Əbu Səidin hakimiyyəti altında (1316–1335)*
*Çobanilər və Cəlairilər dövlətlərinin hakimiyyəti altında (1338–1380)*
*Əmir Teymurun hakimiyyəti altında (1386–1388, 1392–1396, 1399–1405)*
*Qaraqoyunlu dövlətinin tərkibində (1410–1468)*

**Çuxur-Səəd bölgəsini idarə edən *əmirlər, bəylərbəyilər, paşalar və xanlar***

Əmir Səəd – *(XIV əsrin sonlarından 1411-ci ilə qədər)*
Pir Hüseyn (Əmir Səədin oğlu) – *1411–1420-ci illər*
Pir Yaqub (Pir Hüseynin oğlu) – *1420-ci ildən*
Əvdül (Pir Hüseynin oğlu) – *1430-cu ildən*
Yaqub bəy – *1440-cı illərdən*
Həsən xan (Uzun) – *1460-cı illərdən*
Həsən bəy (Bayandurun nəvəsi) – *1475-ci ildən*
Rəvanqulu xan – *1500-cü illərin əvvəli*
Xalid ibn Yəzid əş-Şeybani *(841)*
Xalid ibn Yəzid ibn Məzyəd əş-Şeybani *(842–845)*
Məhəmməd ibn Xalid *(845–849)*
Əbu Əbdallah əl-Mutazz Billah *(849–862)*
Əl-Abbas ibn əl-Müstain *(863–865)*
Əbdallah ibn əl-Mutazz *(866–867)*
İsa ibn əş-Seyx əz-Zuhri əş-Şeybani *(870)*
Cəfər əl-Mufavvid *(875–883)*
Div Sultan Rumlu – *1515-ci ildən*
Hüseyn xan Sultan Rumlu – *1550-ci ilədək*
Şahqulu Sultan Ustaclı – *1550–1575-ci illər*
Məhəmməd xan Ustaclı (Toxmaq) – *1576–1583-cü illər*
Lələ paşa (Qara Mustafa) – *1577-ci il*
Cığalıoğlu Yusif Sinan paşa – *1583-cü ildən*
Xıdır (Xızır) paşa – *1590-cı illərin sonları*
Əmirgünə xan Qacar – *1604–1625-ci illər*
Təhmasibqulu xan (Əmirgünə xanın oğlu) – *1625–1635-ci illər*
Murtuza paşa – *1630-cu illərin yarısından*
Kalbalı xan – *1636–1639-cu illər*
Məhəmməd xan ( Çağata Kötük) – *1639–1648-ci illər*
Key Xosrov xan – *1648–1653-cü illər*
Məhəmmədqulu xan (Lələ bəyin oğlu) – *1652-1656-cı illər*
Nəcəfqulu xan – *1656–1663-cü illər*
Abbasqulu xan Qacar ( Əmirgünə xanın oğlu) – *1663–1666-cı illər*
Səfiqulu xan (Alxas Mirzə) – *1666–1674-cü illər*
Sarıxan bəy – *1674–1675-ci illər*
Səfiqulu xan (Təbrizli Rüstəm xanın oğlu) – *1675–1679-cu illər*
Zal xan – *1679–1688-ci illər*
Murtuzaqulu xan (naxçıvanlı Məhəmmədrza xanın oğlu) – *1688–1691-ci illər*
Məhəmmədqulu xan – *1691–1693-cü illər*
Fəzl Əli xan Qacar (Əmirgünə xanın nəvəsi) – *1694–1700-cü illər*
Zöhrab xan – *1700–1705-ci illər*
Əbdül Məhəmməd xan – *1705–1709-cu illər*
Mehralı xan – *1709–1719-cu illər*
Allahqulu xan – *1719–1725-ci illər*

Rəcəb paşa – *1725–1728-ci illər*
İbrahim və Mustafa paşalar – *1728–1734-cü illər*
Dəfdərdar Əli paşa – *1734-cü il*
Hacı Hüseyn paşa – *1734-cü il*
Məhəmmədqulu xan – *1735–1736-cı illər*
Pir Məhəmməd xan – *1736-cı ildən*

***İrəvan xanları***

Mehdi xan Qasımlı – *1747–1748-ci illər*
Məhəmməd Hüseyn xan Gəraylı – *1748–1751-ci illər*
Xəlil xan Özbək – *1752–1755-ci illər*
Həsənəli xan Qacar – *1755–1762-ci illər*
Hüseynəli xan Qacar (Həsənəli xan Qacarın qardaşı) – *1762–1783-cü illər*
Qulaməli xan (Hüseynəli xanın oğlu) – *1783–1784-cü illər*
Məhəmməd xan (Qulaməli xanın qardaşı) – *1784–1805-ci illər*
Mehdiqulu xan – *1805–1806-cı illər*
Əhməd xan (Marağalı) – *1806, avqust–oktyabr ayları*
Hüseynqulu xan Qacar – *1806, dekabr – 1827, oktyabr*

## QUBERNATORLAR VƏ VİTSE-QUBERNATORLAR

***Qubernatorlar***

Nazorov İvan İvanoviç *(general-mayor) 1849–1859*
Astafyev Mixail İvanoviç *(general-mayor) 1860–1866*
Roslavlev Mixail İvanoviç *(general-leytenant) 1867–1880*
Şalikov Mixail Yakovleviç *(general-leytenant) 22 mart 1880 – 22 dekabr 1890*
Freze Aleksandr Aleksandroviç *(general-leytenant) 2 fevral 1891 – 16 noyabr 1895*
Tizenhauzen qraf Vladimir Fedoroviç *(həqiqi mülki müşavir) 20 fevral 1896–1916*

**Vitse-qubernatorlar**

Blavatski Nikifor Vasilyeviç *1849–1861 (saray müşaviri)*
Dzübenko Vasili Afanasyeviç *1861–1865 (həqiqi mülki müşavir)*
Bucen Karl İqnatyeviç *1865–1873 (həqiqi mülki müşavir)*
Cexovski Valeri Afanasyeviç *30 dekabr 1873 – 2 sentyabr 1890 (həqiqi mülki müşavir)*
Tizenhauzen qraf Vladimir Fedoroviç *29 noyabr 1890 – 9 oktyabr 1892 (həqiqi mülki müşavir)*
Nakaşidze knyaz Mixail Aleksandroviç *19 noyabr 1892 – 15 aprel 1904 (həqiqi mülki müşavir)*
Baranovski Viktor Petroviç *6 sentyabr 1904–1913 (podpolkovnik)*
Çeqodayev Aleksey Pavloviç *1913–1914 (saray müşaviri)*
Strelbitski Arkadi Yevgenyeviç *1916–1917 (saray müşaviri)*

**Ədəbiyyat:** Siyahıdakı adlar aşağıda qeyd edilən ədəbiyyat əsasında tərtib olunmuşdur:

*Тер-Гевондян Арам. Армения и арабский халифат. Ереван, 1977, с. 271–285, Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). Ziya Bünyadov və Yusif Yusifovun redaktəsilə. Bakı, 1994, səh. 645-648); История армянского народа: С древнейших времен до наших дней. Под ред. М.Г.Нерсисяна. Ереванский университет. 1980, с. 139–144.*

Հակոբյան Թադևոս. Երևանի պատմությունը (1500–1800 թթ.). Երևան, 1971. (Hakobyan Tadevos. Yerevanın tarixi. 1500–1800. Yerevan, 1971), p. 455–456;

Շահազիզ Յերվանդ. Հին Յերևանը: Յերևան, 1931, p. 84–86. (Şahəziz Yervand. Köhnə Yerevan. Erivan, 1931);

Հայկական սովետական հանրագիտարան (Erməni Sovet Ensiklopediyası. 3-cü cild, Yerevan, 1977, İrəvan xanlığı məqaləsi, səh. 571;

İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, 2010, səh. 58–59.

Губернии Российской Империи. История и руководители 1708–1917. Москва, «Объединенная редакция МВД России», 2003, с. 376–377, с. 468.

# İstifadə olunmuş ədəbiyyat

**a) Azərbaycan dilində**

1. Abbasova M.Ə., Bəndəliyev N.S., Məmmədov X.H. Böyük Qafqazın cənub-şərq hissəsinin toponimiyası. Bakı, "Elm", 1993, 196 səh.
2. Abdullayev Ə.Z. Azərbaycan dili məsələləri. Bakı, "Bakı Universiteti", 1992, 329 səh.
3. Ağasıoğlu F. İrəvan mahalının qədim əhalisi. Azərbaycanlıların Qərbi Azərbaycandan – indi Ermənistan adlandırılan ərazidəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasına həsr olunmuş elmi konfransın materialları. Bakı, ADPU, 1998, səh. 110–115.
4. Ağasıoğlu F. Azər xalqı (seçmə yazılar), Bakı, "Ağrıdağ", 2000, 436 səh.
5. Axundov A.A. Torpağın köksündə tarixin izləri. Bakı, "Gənclik", 1983, 183 səh.
6. Anar. "Dünya bir pəncərədir". // Dədə Qorqud dünyası. Bakı, "Gənclik", 1986, səh. 125–217.
7. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı, "Qartal", 1998, 280 səh.
8. Azərbaycan dilinin dialektoloji lüğəti. Bircildlik. Bakı, Azərb. SSR Elmlər Akademiyasının nəşriyyatı, 1964, 480 səh.
9. Azərbaycan dilinin izahlı lüğəti. I c., Bakı, "Elm", 1966, 595 səh.
10. Azərbaycan dilinin izahlı lüğəti. II c., Bakı, "Elm", 1980, 576 səh.
11. Azərbaycan dilinin izahlı lüğəti. III c., Bakı, "Elm", 1983, 555 səh.
12. Azərbaycan dilinin izahlı lüğəti. IV c., Bakı, "Elm", 1987, 544 səh.
13. Azərbaycan filologiyası məsələləri, I buraxılış, Bakı, "Elm", 1983, 270 səh.; II buraxılış, Bakı, "Elm", 1984, 264 səh.

13 a. Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri. Bakı, 1967, 352 səh.

14. Azərbaycanlıların Qərbi Azərbaycandan – indi Ermənistan adlandırılan ərazidəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasına həsr olunmuş elmi konfransın materialları. Bakı, ADPU, 1998, 220 səh.
15. Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları. Bakı, APİ, 1987, 333 səh.
16. Azərbaycan onomastikası problemlərinə həsr olunmuş II elmi-nəzəri konfransın materialları (15–16 aprel 1988). Bakı, APİ, 1988, 306 səh.
17. Azərbaycan onomastikası problemlərinə həsr olunmuş III elmi-nəzəri konfransın materialları (28–29 mart 1990-cı il ). Bakı, APİ, 1990, 312 səh.
18. Azərbaycan onomastikası problemlərinə həsr olunmuş IV elmi-nəzəri konfransın materialları (26–27 mart 1992). Bakı, ADPU, 1992, 243 səh.
19. Azərbaycan onomastikası problemlərinə həsr olunmuş V elmi-nəzəri konfransın materialları (20–21 oktyabr 1994 - cü il). Bakı, ADPU, 1995, 164 səh.
20. Azərbaycan onomastikası problemləri, VI (17 oktyabr 1996-cı ildə keçirilən konfransın materialları). Bakı, ADPU, 1996, 151 səh.
21. Azərbaycan onomastikası problemləri, VII (24 aprel 1998-ci ildə keçirilən elmi-nəzəri konfransın materialları). Bakı, ADPU, 1999, 157 səh.
22. Azərbaycan Sovet Ensiklopediyası. I–X cild, Bakı, 1976–1987.
23. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). I c., Bakı, 1994, 688 səh.
24. Azərbaycan tarixi üzrə qaynaqlar (tərtibçilər: S.S.Əliyarov, F.R.Mahmudov və b.). Bakı, 1989, 328 səh.
25. Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Bakı, "Azərbaycan Ensiklopediyası", 1999, 588 səh.
26. Azərbaycan toponimiyasının öyrənilməsinə həsr edilmiş elmi konfransın materialları. Bakı, "Elm", 1973, 136 səh.

27. Babayev S. Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri. Bakı, "Yeni Nəşrlər Evi", 1999, 224 səh. (şəkilli).
28. Bağdasaryan A., Cuqaryan A., Ohanyan K. Ermənistan SSR-in fiziki coğrafiyası (VII sinif üçün dərslik). Yerevan, 1961.
29. Bağırov İ., Əliyev V. Yurdun Oğuz elləri. "Azərbaycan müəllimi" qəz., 19 sentyabr 1986.
30. Bağramyan R.H., Xəlilov İ.H. Ermənicə-azərbaycanca lüğət. Yerevan, "Luys", 1978, 565 səh.
31. Bakıxanov A. Gülüstani-İrəm. Bakı, Azərb. SSR EA, 1951, 253 səh.
32. Bakıxanov A. Gülüstani-İrəm. Bakı, "Minarə", 2000, 224 səh.
33. Bayramsoylu A. Pəmbək və Tej toponimləri haqqında. "Ulu Göyçə" qəz., 14 iyul 1993.
34. Bayramov A. Ermənistanın Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin türk toponimləri. NDA, Bakı, 1995, 31 səh.
35. Bayramov A. Qədim Oğuz ellərinin – Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları (toponimləri). Sumqayıt, 1996, 248 səh.
36. Bayramov A. "Kitabi-Dədə Qorqud" dastanları ilə bağlı olan Oğuz toponimləri. Dil məsələlərinə dair tematik toplu, №2. Bakı, 1997, səh. 16–19.
37. Bayramov A. "Kitabi-Dədə Qorqud" dastanlarında tayfa adları. Dil məsələlərinə dair tematik toplu, №1. Bakı, 1998, səh. 47–61.
38. Bayramov A. Cənubi Azərbaycandakı türk mənşəli oykonimlərin leksik-semantik xüsusiyyətləri. Filologiya məsələlərinə dair tematik toplu, №1. Bakı, 1998, səh.105–108.
39. Bayramov A. Kitabi-Dədə Qorqud və Qafqaz. Bakı, 2001, 123 səh.
40. Bayramov İ. Unutqanlıq faciədir. "Zəka" jur., № 2. 1992, səh. 27–29.
41. Bayramov İ. Toponimlərin öyrənilməsi tarixi zərurətdir. "Gənc müəllim" qəz., 13 oktyabr 1994.
42. Bayramov İ. Ermənistanın türk mənşəli toponimlərinə dair (oykonimlər). Müasir dil fənlərinin tədrisi problemləri. Bakı, 1995, səh. 69–73.
43. Bayramov İ. Qərbi Azərbaycan toponimlərində türk sözləri. Dil məsələlərinə dair tematik toplu, №2. Bakı, 1996, səh. 52–56.
44. Bayramov İ. İndiki Ermənistan toponimlərində qədim türk tayfalarının izləri. Dil məsələlərinə dair tematik toplu, № 2. Bakı, 1997, səh. 63–69.
45. Bayramov İ. Aşnak etnotoponimi haqqında. Dil məsələlərinə dair tematik toplu, №1. Bakı, 1998, səh. 184–187.
46. Bayramov İ. Öksüz toponiminin etimologiyası. Dil məsələlərinə dair tematik toplu, № 1. Bakı, 1998, səh. 78–80.
47. Bayramov İ. Babacan toponiminin etimologiyası haqqında. Pedaqoji Universitet Xəbərləri, // humanitar elmlər ser., №1. 1998, səh. 70–79.
48. Bayramov İ. "Kitabi-Dədə Qorqud" dastanlarının tədrisində onomastik vahidlərin izahı. Azərbaycan dili və ədəbiyyatı tədrisi, №1. 1998, səh. 19–21.
49. Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimlərinin qrupları haqqında. Azərbaycan onomastikası problemləri, VII (24 aprel 1998-ci ildə keçirilən elmi-nəzəri konfransın materialları). Bakı, ADPU 1999, səh. 77–82.
50. Bayramov İ. Toponimlərdə yaşayan tarixi həqiqətlər. Azərbaycan dili və ədəbiyyatı tədrisi, №1. 1999, səh. 58–60.
51. Bayramov İ. Qərbi Azərbaycan toponimlərinin tərkibində işlənən söz və coğrafi terminlər lüğəti. Bakı, "Elm", 2000, 106 səh.
52. Bayramov İ. Göyçə mahalının türk mənşəli toponimləri haqqında. ADPU-nun professor-müəllim heyətinin 60-cı elmi konfransının materialları. I buraxılış. Bakı, 2000, səh. 35–36.

**53.** Bayramov İ. Qədim Azərbaycan şəhəri – İrəvan. Birinci Beynəlxalq Türkoloji qurultayın 75-ci ildönümünə həsr olunmuş elmi konfransın materialları (67 mart 2001-ci il). Bakı, 2001, səh. 38–44.

**54.** Bayramov İ. Qərbi Azərbaycanın deportasiya olunmuş sonuncu azərbaycanlı kəndi – Nüvədi. "Elturan", 2000, səh. 34–35.

**54 a.** Bayramov İ. Qərbi Azərbaycanın oronimləri haqqında. Azərbaycan onomastikası problemləri, X. Bakı, 2002, səh. 96–101.

**55.** Bayramov Z., Cəfərli N., Çuxur-Səəd bəylərbəyliyi. "Elm və həyat", №6, 1990, səh. 15.

**56.** Bəndəliyev N.S. Dağlıq Şirvanda landşaftların toponimik üsulla öyrənilməsi. Bakı, NDA, 1991, 19 səh.

**57.** Bilal Ənsər. Babamın mirası – torpağımız, "Yurddaş" qəz., 1 aprel 1992.

**58.** Budaqov B., Əliyev Ə. "Kitabi-Dədə Qorqud" dastanı və toponimlərimiz. "Elm və həyat", №6, 1972, səh. 18–19.

**59.** Budaqov B.Ə. Türk uluslarının yer yaddaşı. Bakı, "Elm", 1994, 272 səh.

**60.** Budaqov B. İndiki Ermənistan qədim türk yurdu idi. "Elturan", №1, 1992, səh. 17–18.

**61.** Budaqov B. Çobankərə eli. Bakı, "Elm", 1996, 200 səh.

**62.** Budaqov B.Ə., Qeybullayev Q. Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərinin izahlı lüğəti. Bakı, "Natta Press", 1998,452 səh.

**62 a.** Budaqov B.Ə., Qeybullayev Q. Ə. Gürcüstanın türk mənşəli toponimlərinin izahlı lüğəti. Bakı, "İsmayıllı" Nəşriyyat-Poliqrafiya müəssisəsi, 2002, 320. səh.

**63.** Bünyadov Z.M. Azərbaycan VII–IX əsrlərdə. Bakı, "Azərnəşr", 1989, 336 səh.

**64.** Cabbarov X.M. Laçın toponimləri. "Elm və həyat", №10, 1977, səh.15–16.

**65.** Cahangirov M. "Kitabi-Dədə Qorqud" boylarındakı cəmiyyətin zamanı və məkanı haqqında. Azərb. SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin "Elmi əsərləri", // dil və ədəbiyyat ser., № 4, 1976, səh. 72–77.

**66.** Cavad Heyat. Türklərin tarix və mədəniyyətinə bir baxış (İslamdan əvvəl və islam dövrü). Başlanğıcından XVI əsrə qədər. Bakı, "Azərnəşr", 1993, 176 səh.

**67.** Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı, Bakı, ADU, 1960, 204 səh.

**68.** Cəfərov C.İ. Azərbaycan damğaları. // Azərbaycan filologiyası məsələləri, II buraxılış. Bakı, "Elm", 1984, səh. 240–248.

**69.** Cəfərov C.İ. Bəzi damğa və işarələrin etimoloji izahı // Türk dillərinə dair etimoloji və tarixi morfoloji tədqiqlər (Elmi əsərlərin tematik məcmuəsi). Bakı, ADU, 1984, səh. 31–36.

**70.** Cəlilov F.A. Azərbaycan dilinin morfonologiyası. Bakı, "Maarif", 1988, 285 səh.

**71.** Cəlilov F.A. Qədim türk etnonimləri (2. Qamər "kimmer"). Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları. Bakı, APİ, 1987, səh. 81–83.

**72.** Cəmşidov Ş. Kitabi-Dədə Qorqud. Bakı, 1969.

**73.** Coğrafiya terminləri lüğəti. Bakı, "Elm", 1972, 110 səh.

**74.** Çəmənzəminli Y.V. Tarixi, coğrafi və iqtisadi Azərbaycan. "Bakı Universiteti" nəşriyyatı, 1993, 56 səh.

**75.** Çobanov M. Eçmiədzin nə deməkdir? "Vətən səsi" qəz., 20 noyabr 1992.

**76.** Çobanlı Mədəd, Çobanlı Müşfiq. Borçalı toponimləri. Bakı, 1993, 64 səh.

**77.** Dəmirçizadə Ə.M. "Qaspi", "Xəzər", "Qafqaz" sözlərinin etimologiyası // Azərbaycan Dövlət Pedaqoji İnstitutunun əsərləri. VII cild. Bakı, 1959, səh. 37.

**78.** Dəmirçizadə Ə. 50 söz, Bakı, 1968, 104 səh.

**79.** Dərələyəzli K. Dərələyəz od içində. Bakı, "Ağrıdağ", 2001, 564 səh.

**80.** Didərginlər. Bakı, "Gənclik", 1990, 384 səh.

**81.** Dilicanlı S. Dilican dərəsi. "Vətən səsi" qəz., 3 aprel 1992.

**82.** Dil, etnos və etnonimiya. Bakı, "Örnək", 1994, 116 səh.

**83.** Eldar İsmayıl. Ağrı dağı qədər ağrılarım var. Bakı, "Ağrıdağ", 1999, 372 səh.
**84.** Eldar İsmayıl, Hüseyn Ələsgəroğlu. Göyçənin qisası qalır (roman). Bakı, "Zaman", 1997, 384 səh.
**85.** Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, "Gənclik", 1995, 464 səh.
**86.** Evliya Çələbi. Səyahətnamə (Azərbaycan tarixinə aid seçmələr). Bakı, "Azərnəşr", 1997, 92 səh.
**87.** Eyvazova R. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı, "Elm", 1995, 244 səh.
**88.** Eyvazova R.H. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı, DDA, 1995, 60 səh.
**89.** Əbdürrəşid Əl Bakuvi. Kitab təlxis əl-asar və əcaib əl-Məlik əl-qəhhar ("Abidələrin" xülasəsi və qüdrətli hökmdarın möcüzələri). Bakı, "Bakı–Şur", 1992, 176 səh.
**90.** Əfəndiyev N. Qızılquşa atılan güllə (roman). Bakı, "Yazıçı", 1983, 173 səh.
**91.** Əfəndiyev O. Azərbaycan səfəvilər dövləti. Bakı, "Azərnəşr", 1993, 301 səh.
**92.** Əhmədova E. Azərbaycan etnonimlərinin leksik-semantik və struktur-linqvistik təhlili. Bakı, NDA, 1995, 29 səh.
**93.** Əhmədov T.M. El-obamızın adları. Bakı, "Gənclik", 1984, 128 səh.
**94.** Əhmədov T.M. Azərbaycan paleotoponimiyası. Bakı, ADU, 1985, 88 səh.
**95.** Əhmədov T.M. Azərbaycan toponimikasının əsasları. Bakı, "Bakı Universiteti", 1991, 312 səh.
**96.** Əhmədov T.M. Qədim "şen" coğrafi termininin mənşəyinə dair. Azərbaycan onomastikası problemləri, VI. Bakı, 1996, səh. 63–69.
**97.** Ələkbərli Ə. Qədim türk-oğuz yurdu – "Ermənistan". Bakı, "Sabah", 1994, 208 səh.
**98.** Ələkbərli Ə. Abbasqulu bəy Şadlinski, Bakı, "Sabah", 1996, 320 səh.
**99.** Ələkbərli Ə. Qərbi Azərbaycan. I c., Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları). Bakı, "Ağrıdağ", 2000, 664 səh.
**99 a.** Ələkbərli Ə. Qərbi Azərbaycanlıların 1988-ci il soyqırımı. Sənədlərin dili ilə. Bakı, 2008, 599 səh.
**99 b.** Ələkbərli Ə. Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz. Bakı, "Elm və təhsil", 2020, 96 səh.
**100.** Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı, "Azərnəşr", 1997, 224 səh.
**101.** Əliyev X. Gürcüstanın türk mənşəli toponimləri (el, oba, yer-yurd adları). Gəncə, 1999, 160 səh.
**102.** Əliyev V. Azərbaycanın toponimiyası (dərs vəsaiti). Bakı, 1999, 278 səh.
**103.** Əliyev V., Bayramov İ. Mənəvi soyqırımına məruz qalan adlarımız. Azərbaycanlıların Qərbi Azərbaycandan – indi Ermənistan adlandırılan ərazidəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasına həsr olunmuş elmi konfransın materialları. Bakı, 1998, səh. 104–110.
**104.** Ərəb və fars sözləri lüğəti. Bakı, Azərb.SSR Elmlər Akademiyasının nəşriyyatı, 1966, 1036 səh.
**105.** Əsədoğlu F. İrəvan qədim Azərbaycan şəhəridir. "Aydınlıq" qəz., 23 noyabr 1990.
**106.** Əsədoğlu F. "Asnı" toponiminin etimologiyası. "Yeni fikir" qəz., 4 iyun 1992.
**107.** Əsgərov N. "Qala" apelyativ sözü areal türk onomastikasında. Dilçilik, №3, Bakı, 1997, səh. 37–43.
**108.** Əsgərov N. İki areal türk etnonimi haqqında (qaraman, qanlı). Tarixi-linqvistik fənlərin tədrisi problemləri. Bakı, 1994, səh. 104–106.
**109.** Əzizov E.İ. Söz xəzinəsi // Söz haqqında araşdırmalar. Bakı, "Maarif", 1995, 128 səh.
**110.** Fərzəli Ə. Dədə Qorqud yolu. Bakı, "Azərnəşr", 1995, 360 səh.
**111.** Fərzəli Ə. Əfşarlar. "Günay" qəz., 4 yanvar 1995.
**112.** Fərzəli Ə. Dədə Qorqud yurdu. Bakı, "Azərnəşr", 1989, 181 səh.
**113.** Fərzəliyev Ə. Sofulu bulağı, eşidirsənmi? "Bərəkət" qəz., 18 aprel 1993.
**114.** Filologiya məsələlərinə dair tematik toplu, №1–2 Bakı, "Nurlan", 2001, 252 səh.
**115.** Filologiya məsələlərinə dair tematik toplu, №34. Bakı, 2001, 272 səh.
**116.** Filologiya məsələlərinə dair tematik toplu, №5. Bakı, 2001, 187 səh.

**117.** Filologiya məsələlərinə dair tematik toplu, №6. Bakı, "Adiloğlu", 2001, 118 səh.
**118.** Geologiya terminləri lüğəti. Bakı, "Elm", 1958.
**119.** Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri (Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məmmədov (Qaramanlı). Bakı, "Şuşa", 2000, 576 səh.
**120.** Hacıxəlilov M. Gürcüstanda Azərbaycan mənşəli kənd adları. "Elm və həyat", №11, 1983, səh. 32–33.
**121.** Hacıyev A.Ş. Azərbaycan dilinin onomastik sistemi. Bakı, APİ, 1990, 102 səh.
**122.** Hacıyev T., Vəliyev K. Azərbaycan dili tarixi. Bakı, "Maarif", 1983, 187 səh.
**123.** Hacıyev T. Azərbaycan dilinin yazıya qədərki izləri haqqında. – Azərbaycan filologiyası məsələləri. Bakı, "Elm", 1983, səh. 24–34.
**124.** Hacıyev T. Azərbaycanın qədim onomastikasına dair. Azərbaycan filologiyası məsələləri, II bur., Bakı, "Elm", 1984, səh. 125–136.
**125.** Həbiboğlu V. Türk dünyasının qüdrətli hökmdarları, xaqanları, sərkərdələri. Bakı, "Ömək", 1995, 324 səh.
**126.** Həmzə Vəli. Tarixdən gələn səslər. "Vətən səsi" qəz., 1 avqust 1991.
**127.** Həmzə Vəli. Nüvədi kitabələri. Bakı, "Oğuz eli", 1998, 56 səh.
**128.** Həsənov A.Q. Coğrafi adlarda tarixin izləri. ADU-nun "Elmi əsərləri" // dil və ədəbiyyat ser., №3, 1966, səh. 19–27.
**129.** Həsənov A.Q. Dərəşam toponimi haqqında. Azərb.SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin "Elmi əsərləri" // dil və ədəb. ser., №4, 1976, səh. 62–66.
**130.** Həsənov H. Ulu Göyçə. Ə. Yasinzadə. Göyçədən başlayan yol. Bakı, 1997, səh. 13.
**131.** Hüseynov A. Azərbaycan dialektologiyası (dərs vəsaiti). Bakı, APİ, 1979, 90 səh.
**132.** Hüseynzadə Ə.A. Müasir Azərbaycan toponimiyasında tayfa adlarının izləri. Azərb. SSR EA Xəbərləri, tarix, fəlsəfə və hüquq ser., №2, 1973, səh. 21–30.
**133.** Hüseynzadə Ə.A. Sabunçu toponiminin mənşəyi. Azərb. SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin "Elmi əsərləri", tarix və fəlsəfə ser., №7, 1975, səh. 44–49.
**134.** Hüseynzadə Ə. Boyat (Bayat) coğrafi adının mənşəyi. Azərb. SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin "Elmi əsərləri", tarix və fəlsəfə ser., №5, 1976, səh. 44–52.
**135.** Xalıqov F.P. Qayı etnonimi haqqında. Dil məsələlərinə dair tematik toplu, №1, "Bata", 1994, səh. 68–70.
**136.** Xalıqov F. Folklor onomastikası (I hissə). Bakı, "Elm", 1998, 137 səh.
**137.** Xasiyev Z.Ə. Tovuzun toponim dünyası. Bakı, "Sabah", 1997, 112 səh.
**138.** Xəlilov B. Gümrü və Güyümçü etnonimləri. "Yeni dünya" qəz., 27 fevral 1993.
**139.** Xəlilov İ. İrəvan xatirələri. "Vətən səsi" qəz., 31 oktyabr 1990.
**140.** Xəlilov P. "Kitabi-Dədə Qorqud" – İntibah abidəsi. Bakı, "Gənclik", 1993, 176 səh.
**141.** Xıdırov C.A. İraq türkmanları. Bakı, "Azərnəşr", 1993, 104 səh.
**142.** İbrahimov (Şahin) T.Ə.Qaşqaylar. Bakı, "Elm", 1988, 212 səh.
**143.** İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyadov və H.Məmmədov (Qaramanlı). Bakı, "Elm", 1996, 184 səh.
**143 a.** İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, "Azərbaycan", 2010, 616 səh.
**144.** İslamov M. Azərbaycan dilinin Nuxa dialekti. Bakı, Azərb. SSR EA nəşriyyatı, 1968, 275 səh.
**145.** İsmayıl M. Azərbaycan xalqının yaranması. Bakı, 1995, 72 səh.
**146.** İsmayılov M. Ə. Sənin ulu baban. Bakı, "Azərnəşr", 1989, 302 səh.
**147.** İsmayılov M., Əliyev F. İrəvan xanlığı. "Zəka", №3-4, 1992, səh. 68–70.
**147 a.** İsmayılov M. Azərbaycan tarixi. Bakı, 1994, səh. 4.
**148.** İsmayılov Rəşid bəy. Azərbaycan tarixi. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 163 səh.

**149.** İsrafilov V. Gürcüstan Respublikasının Dmanisi (Başkeçid) rayonundakı Azərbaycan mənşəli toponimlər. Dil məsələlərinə dair tematik toplu, №1, Bakı, 1994, səh.118–120.

**150.** İsrafilov V. Azərbaycan oronim və hidronimlərinin Gürcüstan arealı. Bakı, 1999, 100 səh.

**151.** İsrafilova R.D., Məşədiyev Q.İ., Cəfərov Q.H. Azərbaycan dilinin onomastikası (oçerklər). Bakı, "Elm", 1987, 188 səh.

**152.** Jak Şarden. Parisdən İsfahana səyahət. Bakı, "Elm", 1994, 196 səh.

**153.** Kalankatuklu M. Albaniya tarixi. Bakı, "Elm", 1993, 235 səh.

**154.** Kəngərli Q. Erməni lobbisi... Azərbaycan faciəsi. Bakı, "Gənclik", 1992, 278 səh.

**155.** Kərimli A. Zəngəzurun qeyrət qalası – Nüvədi. Bakı, "Azərnəşr", 1996, 64 səh.

**156.** Kərimzadə F. Vedinin yanı dağlar... (etnoqrafik eskizlər). "Azərbaycan", №9, 1988, səh. 104–134.

**157.** Kitabi-Dədə Qorqud (tərtib edəni: H.Araslı). Bakı, "Gənclik", 1977, 183 səh.

**158.** Kitabi-Dədə Qorqud (tərtib edənlər: F.Zeynalov və S.Əlizadə). Bakı, "Yazıçı", 1988, 265 səh.

**159.** Kitabi-Dədə Qorqud dilinin izahlı lüğəti. Bakı, "Elm", 1999, 204 səh.

**160.** Qarabağnamələr. I kitab. Bakı, "Yazıçı", 1989, 192 səh.

**160 a.** Kırzıoğlu Fahrettin. Rəvan türkləri. "Vətən həsrəti" qəz., 18 iyun 1993.

**161.** Qarabağnamələr. II kitab. Bakı, "Yazıçı", 1991, 450 səh.

**162.** Qasımlı I. Yurd düşüncələri. "Vətən həsrəti" qəz., 18 iyun 1993.

**163.** Qasımov A. Bayat boyu, "bayat" sözü, bayatlılar. Azərbaycan filologiyası məsələləri, II bur., Bakı, "Elm", 1984, səh. 163–169.

**164.** Qayqocalı Z. O yerlərdə izim qaldı (Dərəçiçək mahalının etnik tarixindən). "Vətən səsi" qəz., 12 iyun 1992.

**165.** Qayqocalı Z. Dərəçiçək və erməni vandalizmi. "Ulu Göyçə" qəz., 8 iyun 1993.

**166.** Qeybullayev Q.Ə. Coğrafi adlar tarixi mənbədir. "Elm və həyat", №11, 1975, səh. 16–17.

**166 a.** Qeybullayev Q.Ə. Azərbaycan toponiminin tədqiq edilməsi prinsipləri haqqında. Azərbaycan SSR EA-nın Xəbərləri // tarix, fəlsəfə və hüquq seriyası, №2, 1976, səh. 83–90.

**167.** Qeybullayev Q.Ə. Azərbaycanda qıpçaq mənşəli etnotoponimlər haqqında. Azərbaycan SSR EA-nın Məruzələri, 32-ci cild, №4, 1976, səh. 81–84.

**168.** Qeybullayev Q.Ə. Qarabağ (etnik və siyasi tarixinə dair). Bakı, "Elm", 1990, 248 səh.

**169.** Qeybullayev Q.Ə. Qədim türklər və Ermənistan. Bakı, "Azərnəşr", 1992, 140 səh.

**170.** Qeybullayev Q. Bazz toponiminin mənşəyi. Tarix və onun problemləri, №2, 1992, səh. 135–140.

**171.** Qeybullayev Q.Ə. Qədim ellərdən biri – Qaraçorlu. "Millət" qəz., 31 iyun 1993.

**172.** Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, "Azərnəşr", 1994, 248 səh.

**173.** Qeybullayev Q. Azərbaycanlıların etnik tarixinə dair. Bakı, "Elm", 1994, 102 səh.

**174.** Qəhrəmanov C., Xəlilov Ş. Mustafa Zərir. Yusif və Züleyxa (Poemanın mətni və tarixi-qrammatik oçerk). Bakı, "Elm", 1991, 312 səh.

**175.** Qızılbaşlar tarixi (tərcümə və şərhlər M.Ə. Məhəmmədindir). Bakı, "Azərbaycan", 1993, 48 səh.

**176.** "Qızıl şəfəq" qəzeti (Ermənistan Kommunist Firqəsi Komitəsinin nəşriyyatı. Kəndli qəzetəsidir), 1929-cu ilin nömrələri.

**177.** Quqasyan V.L. Azərbaycan dilinin təşəkkül tarixinə dair qeydlər. Azərbaycan filologiyası məsələləri. Bakı, "Elm", 1983, səh. 35–62.

**177 a.** Quliyeva E.A. Azərbaycan toponomiyasında paralellik. Bakı, NDA, 1994, 26 səh.

**178.** Quliyev Ə. Ayrımlar haqqında. Azərbaycan filologiyası məsələləri, III bur., Bakı, "Elm", 1991, səh. 201–211.

**179.** Quliyev Ə. Naxçıvan etnotoponimləri. Naxçıvan tarixinin səhifələri ("Uluslararası qaynaqlarda Naxçıvan" Beynəlxalq simpoziumunun materialları), Bakı, ADPU, 1996, səh. 206–208.

**180.** Qumilyev L.N. Qədim türklər (tərcümə edənlər: V.Quliyev, V.Həbiboğlu). Bakı, "Gənclik", 1993, 536 səh.

**181.** Qurbanov A. Azərbaycan onomastikası. Bakı, APİ, 1986, 116 səh.

**182.** Qurbanov A. Azərbaycan dilinin onomalogiyası. Bakı, "Maarif", 1988, 596 səh.

**183.** Qurbanov A. Cücəkəndin daşüstü yazıları. Bakı, "Elm", 2001, 15 səh.

**184.** Qurbanov A. Cücəkənd şivəsi. Bakı, "Elm", 2001, 38 səh.

**185.** Ləmbəli V. Nisgilli duyğular. "Vətən həsrəti" qəz., 30 aprel 1993.

**186.** Ləmbəli V. Susuz arx. "Ədəbiyyat qəzeti", 19 mart 1993.

**187.** Solakzadə Mehmed. Tarix: Azərbaycan tarixinə dair iqtibaslar (türk dilindən tərcümə edəni Z.M.Bünyadov). Bakı, "Elm", 1992, 84 səh.

**188.** Mehrəliyev E. Xalq coğrafi terminlərinin izahlı lüğəti. Bakı, "Maarif", 1987, 80 səh.

**189.** Məhərrəmov S. Ermənistan SSR-də Azərbaycan (türk) mənşəli toponimlər. "Elm və həyat", №10, 1986, səh. 26.

**190.** Məmməd Oruc. Köçürülmə (roman). Bakı, "Gənclik", 1992, 312 səh.

**191.** Məmmədli H. Dədəm Qorqud gəzən yerdi bu yerlər, Bakı, "Elm", 1999, 330 səh.

**192.** Məmmədov A. Kəngərlər. Bakı, "Azərnəşr", 1996, 131 səh.

**193.** Məmmədov H. Dəftəri – müfəssəli əyaləti Tiflis"də yer adları. Azərbaycan filologiyası məsələləri, II bur., Bakı, "Elm", 1984, səh. 156–163.

**194.** Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi (qısa tarixi oçerk). Bakı, "Azərbaycan", 1992, 72 səh.

**195.** Məmmədov K. Dərələyəz mahalı, "Vətən səsi" qəz., 29 yanvar 1993.

**196.** Məmmədov N. Azərbaycanın yer adları (oronimiya). Bakı, "Azərnəşr", 1993, 184 səh.

**197.** Məmmədov N.G. Qarqar dağı və Biçənək aşırımı oronimlərinin mənşəyi. "Dilçilik", №2, 1997, səh. 43-44.

**198.** Məmmədov N.G. Azərbaycan Respublikasının oronimləri, Bakı, "Bakı Universiteti" nəşriyyatı, 1999, 302 səh.

**199.** Məmmədov S. Qaynaqların sözü birdir. "Azərbaycan", №9, 1989, səh. 162–171.

**200.** Məmmədov S. İrəvan şəhərində etnik çevrilişlər. "Azərbaycan", №1–2, 1992, səh. 151–158.

**201.** Məmmədov S. O yerlərdə izim qaldı. Bakı, ADPU, 1997, 84 səh.

**202.** Məmmədov S. Qərbi Azərbaycan deportasiyaya məruz qalan azərbaycanlıların qədim diyarıdır. Azərbaycanlıların Qərbi Azərbaycandan – indi Ermənistan adlandırılan ərazidəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasına həsr olunmuş elmi konfransın materialları. Bakı, ADPU, 1998, səh. 43–53.

**203.** Məmmədova F. C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası. Bakı, "Azərnəşr", 1993, 262 səh.

**204.** Məşədiyev Q.İ. Zaqafqaziyanın Azərbaycan toponimləri. Bakı, "Elm", 1990, 148 səh.

**205.** Məşədiyev Q.İ "Qafqaz ərazi və tayfalarının təsviri materialları məcmuəsi"ndə (СМОМПК) qeydə alınmış Azərbaycan (türk) mənşəli toponimlərin tarixi-linqvistik təhlili (dok. disser). Bakı, 1991.

**206.** Mxitar Qoş. Alban salnaməsi. Bakı, "Elm", 1993, 35 səh.

**207.** Mir Mehdi Xəzani. Kitabi-tarixi – Qarabağ. Qarabağnamələr, II kitab, Bakı, "Yazıçı", 1991, səh. 94–202.

**208.** Mir Möhsün Nəvvab. 1905–1906-cı illərdə erməni-müsəlman davası, Bakı, 1993.

**209.** Mirmahmudova S.N. Ermənistan SSR-in ərazisindəki Azərbaycan mənşəli toponimlərin tədqiqinə dair. Azərb. SSR EA-nın Xəbərləri // yer elmləri ser., №6, 1981, səh. 103–109.

**210.** Mirmahmudova S. Ermənistanda türk mənşəli yer adları. Bakı, "Yazıçı", 1995, 72 səh.

**210 a.** Mirzəyev H. Azərbaycan dilində feil, Bakı, "Maarif", 1986, 320 səh.

**210 b.** Mirzəyev H. Qərbi Azərbaycanın Dərələyəz mahalı: monoqrafiya. Bakı, "Elm", 2004, 855 səh.

**211.** Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz. Bakı, ADPU, 1997, 352 səh.

**212.** Mirzəyev H. Gülüdüzü kəndi və onun anomastik vahidləri haqqında. Filologiya məsələlərinə dair tematik toplu, №5, 2001, səh.108–113.

213. Mirzəyev H. Əyər, Azaderek // Azadyer kəndləri. Filologiya məsələlərinə dair tematik toplu, №6, 2001, səh. 3–6
214. Mirzəyev H. Gindivaz, Əynəzur kəndləri. Filologiya məsələlərinə dair tematik toplu, №6, 2001, səh. 80–81.
215. Mirzəyev H. XX əsrdə Ermənistanda məcburi dəyişdirilən yer adlarımız. Azərbaycanlıların Qərbi Azərbaycandan – indi Ermənistan adlandırılan ərazidəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasına həsr olunmuş elmi konfransın materialları. Bakı, 1998, səh. 153–156.
216. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 1990, 376 səh.
217. Mirzəyev H. Dərələyəzdəki Qızılqışlaq, Almalı kəndləri. Filologiya məsələlərinə dair tematik toplu, №6, 2001, səh. 91–92.
218. Naxçıvan sancağının müfəssəl dəftəri (giriş və tərcümənin müəllifləri: akad. Z. Bünyadov və t.e.n. H. Məmmədov (Qaramanlı). Bakı, "Sabah", 1997, 336 səh.
219. Mirzəyev H. Qabaxlı kəndi və onun onomastik vahidləri. Filologiya məsələlərinə dair tematik toplu, №1–2, 2001, səh. 26–33.
220. Mirzəyev H. Ayısası (Qızılgül) kəndi və bu kəndin ərazisində olan onomastik vahidlər. Filologiya məsələlərinə dair tematik toplu, №1–2, Bakı, 2001, səh. 76–87.
220 a. Mustafa N. Erməni silahlı dəstələrinin 1905–1906-cı illərdə Cənubi Qafqazda törətdikləri qırğınlar. "Hərbi bilik" hərbi elmi-nəzəri, publisistik jurnal, №5, Bakı, 2013, səh. 92–100
221. Nəbiyev N. Coğrafi adlar (izahlı lüğət). Bakı, "Azərnəşr", 1982, 282 səh.
222. Nuriyev E. Azərbaycan SSR-in Şəki-Zaqatala zonasının toponimiyası, Bakı, "Elm", 1989, 112 səh.
223. Mirzəyev H. Dərələyəz mahalının oronimləri və hidronimləri. Filologiya məsələlərinə dair tematik toplu, №1–2, 2001, s. 137–143.
224. Ordubadi M. S. Qanlı illər (1905–1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi). Bakı, Qarabağa Xalq Yardımı Komitəsi, 1991, 144 səh.
225. Paşayev A. Köçürülmə, Bakı, "Azərnəşr", 1995, 40 səh.
226. Rəfiq Özdək. Türkün qızıl kitabı. I kitab. Bakı, "Yazıçı", 1992, 184 səh.
227. Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar. Bakı, "Azərnəşr", 1997, 260 səh.
228. Rəşidəddin Fəzlullah. Oğuznamə. Bakı, Azərbaycan Dövlət Nəşriyyat Poliqrafiya Birliyi, 1992, 72 səh.
229. Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı, "Yazıçı", 1993, 400 səh.
230. Rüstəmov Ə. M. Ermənistan SSR-in Qafan, Gorus və Sisiyan rayonları ərazisinin Azərbaycan mənşəli toponimləri (nam. disser.). Bakı, 1990, 158 səh.
231. Rüstəmli Ə. Qədim oğuz yurdu Zəngəzurun türk mənşəli yer-yurd adları (toponimiyası). Bakı, "İşıq", 1998, 172 səh.
232. Seyidov M.Ə. Ağqoyunlu və qaraqoyunlu etnonimlərinin etimoloji araşdırılması. "Qobustan", №3, 1979, səh. 59–66.
233. Seyidov M.Ə. Qarabağ–Arsaq–Apuar toponiminin etimologiyası haqqında qeydlər. Azərbaycan filologiyası məsələləri. Bakı, "Elm", 1983, səh. 142–153.
234. Seyidov M.Ə. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, "Yazıçı", 1983, 326 səh.
235. Seyidov M.Ə. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, "Yazıçı", 1989, 496 səh.
236. Səlimov–Şağani T. Q. Abşeronun yer adları. Bakı, "Elm", 1993, 76 səh.
237. Sovet Ermənistanında Azərbaycan kitabı (1925–1985). Biblioqrafiya (tərtib edən: Məmmədov S.İ.). Yerevan, Erm. SSR Dövlət Kitab Palatası, 1985, 164 səh.
238. Sümər Faruq. Oğuzlar. Bakı, "Yazıçı", 1992, 432 səh.
238 a. Şardən Jan. Səyahətnamə (Fransız dilindən tərcümə edən: V.Aslanov). Bakı, 1994, 96 səh.
239. Şirəliyev M.Ş. Bakı dialekti. II çap. Bakı, Azərb.SSR EA-nın nəşriyyatı, 1957, 226 səh.
240. Şirəliyev M.Ş. Azərbaycan dialektologiyasının əsasları. II nəşr. Bakı, "Maarif", 1967, 420 səh.

**241.** Şükürov S. Uluxanlı elegiyası. "Azərbaycan müəllimi" qəz., 20 aprel 1990.

**242.** Şükürov S. Zəngibasarın səsi. Tariximizdən: toponimik və etnoqrafik notlar. "Azərbaycan müəllimi" qəz., 6 iyul 1990.

**243.** Şükürov S. Uluxanlı (Bədii tarixi, etnoqrafik oçerk). Gəncə, 1999, 282 səh.

**244.** Tanrıverdi Ə. "Kitabi-Dədə Qorqud"a aid şəxs adları. Bakı, "Elm", 1999, 157 səh.

**244 a.** Urud M. Zəngəzur toponimləri. Bakı, "Nurlar", 2013, 400 səh.

**244 b.** Vandalizm: tarixi adlara qarşı soyqırımı. (tərtib edən: Nazim Mustafa). Bakı, "Turxan" NPB, 2014, 128 səh.

**245.** Vəlili (Baharlı) M. Azərbaycan (coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat). Bakı, "Azərnəşr", 1993, 208 səh.

**246.** Vəliyev K.N. Elin yaddaşı, dilin yaddaşı. Bakı, "Gənclik", 1988, 280 səh.

**247.** Vəlizadə İ., Muradov B. Ermənistan azərbaycanlılarının soyqırımı. Bakı, "Gənclik", 1996, 172 səh.

**248.** Vəlizadə İ. Qandal Kənan (roman). Bakı, "Yazıçı", 304 səh.

**249.** Vətən qürbətdə qaldı. Göyçə mahalından toplanmış folklor örnəkləri (toplayan, tərtib edən və ön sözün müəllifi: H.İsmayılov). Bakı, "Yazıçı", 1993, 544 səh.

**249 a.** Vilayətoğlu Salman. Oğuz elinin müqəddəs ocağı Göyçə. Bakı, TS, 2006, 512 səh.

**250.** Voroşil Q. Qafqaz Albaniyası. Bakı, "Öyrətmən", 1993, 104 səh.

**251.** Yusifov Y.B., Kərimov S. K. Toponimikanın əsasları. Bakı, "Maarif", 1987, 204 səh.

**252.** Yasinzadə Ə. Göyçədən başlayan yol. Bakı, "Göytürk", 1997, 94 səh.

**253.** Yüzbaşov R. Azərbaycan coğrafiya terminləri (tədqiqlər). Bakı, "Elm", 1966, 158 səh.

**254.** Yüzbaşov R., Əliyev K., Sədiyev Ş. Azərbaycanın coğrafi adları (oçerklər). Bakı, "Maarif", 1972, 100 səh.

**255.** Zahidov Ə. Azərbaycanın bəzi toponimləri. Gəncə, 1995, 144 səh.

**256.** Zeynalov F. Türkologiyanın əsasları. Bakı, "Maarif", 1981, 347 səh.


b) Rus dilində


**257.** Абих Г. Геология армянского нагорья (западная часть). Пятигорск, Типография А.М.Мануйлова, 1899, с. 202.

**258.** Абрамян Г.С., Мурзаев Э.М. Армянская географическая терминология. – Вопросы ономастики. Межвузовский сборник научных трудов, Свердловск, 1982.

**259.** Аймуратов О. Тюркские этнонимы. Нукус, 1986.

**259 а.** Акопян Тадевос. Очерк истории Еревана. Ереван: Изд-во Ереванского Университета, 1977, с. 490.

**260.** Акты, собранные Кавказской Археографической комиссией. Т. III, Тифлис, 1873.

**261.** Алиев А.И. Топонимия западных районов Азербайджана. АКД, Баку, 1975.

**262.** Алиев А.И. Огузские этнонимы в топонимии Азербайджана. – Ономастика Кавказа. Орджоникидзе, 1980, с. 58–61.

**263.** Алиев А.И., Мамедов И.О. Об этнониме карапапах. Ономастика Кавказа. Орджоникидзе, 1980, с. 61–63.

**264.** Анисимов С. Путеводитель по Кавказу. Кавказский край. М., «Мосполиграф», 1924, с. 376.

**265.** Армянская география VII века по Р. Х. (К.П.Патканов). СПб, Типография Императорская АН, 1877, с. 84.

**266.** Армянская ССР. Административно-территориальное деление. Ереван, «Айастан», 1976, с. 283.

**267.** Аристов Н.А. Заметки об этнических племен и народностей и сведения об их численности. Вып. 34, СПб, 1896, с. 397.

**268.** Аристова Т.Ф. Названия Курдских селений в Закавказье. Ономастика Кавказа. Орджоникидзе, 1980, с. 9296.

**268 а.** Арутюнян Н.В. Биайнили (Урарту). Ереван: АН Армянской ССР, 1970, с. 474.

**269.** Арутюнян Н.В. Топонимика Урарту. Ереван, АН Арм. ССР, 1985, с. 308.

**269 a.** Арутюнян В. Каменная летопись армянского народа. Ереван, 1985, с. 152.

**270.** Асадов С. Миф о «Великой Армении». Баку, «Азербайджан», 1999, с. 280.

**271.** Атаниязов С. Словарь туркменских этнонимов. Ашхабад, «Ылым», 1988, с. 180.

**272.** Бакиханов А. Гюлистани-Ирам. Баку, «Элм», 1991, с. 304.

**273.** Баскаков Н.А. Введения и изучения тюркских языков. Изд. 2-е, М., «Высш. школа», 1969, с. 383.

**274.** Баскаков Н.А. Модели тюркских этнонимов и их типологическая классификация. – Ономастика Востока. М., «Наука», 1980, с. 199–207.

**275.** Брук С.И. Население мира. Этнодемографический справочник. М., «Наука», 1986, с. 828.

**276.** Будагов Б.А. Тюркские топонимии Евразии. Баку, 1998, с. 256.

**277.** Будагов Л.З. Сравнительный словарь турецко-татарских наречий. Т. I, СПб, Типография Императорской АН, 1869, с. 810, Т. II, СПб, 1871, с. 415.

**278.** Бушуева Е.Н. Словарь русской транскрипции географических терминов и других слов, встречающихся в топонимии Азербайджанской ССР.М., 1971, с. 192.

**279.** Вейденбаум Е. Путеводитель по Кавказу. Тифлис, Типография Канцел. Главноначальствующая гражд. частью на Кавказе, 1888, с. 434.

**280.** Вейденбаум Е. Кавказские этюды. Тифлис, скоропечатная ... М.Мартиросяна, 1901, с. 320.

**281.** Велиев М.Г. Населения Азербайджана. «Музей этнографических сокровищ». – Азербайджанский настольный календарь, Баку, 1925.

**282.** Величко В.А. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку, «Элм», 1990, с. 224.

**283.** Ган К.Ф. Опыт объяснения Кавказских географических названий. СМОМПК, вып. 40, Тифлис, 1909, с. 1–164.

**284.** Гандзакеци Кр. История Армении (перевод с древнеармянского, предисловие и комментарий А.А. Ханларян). М., «Наука», 1976, с. 357.

**284 a.** Гасанов А.Г., Гейбуллаев Г.А. О некоторых древнетюркских словах в топонимии Азербайджана. АГУ им. С.М.Кирова, №1, 1979.

**285.** Гейбуллаев Г. Хазарские этнонимы в Азербайджане. Доклады АН Азерб. ССР, 1980, №10, с. 95–96.

**286.** Гейбуллаев Г.А. Топонимия Азербайджана (историко-этнографическое исследование). Баку, «Элм», 1986, с. 192.

**287.** Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Т. I., Баку, «Элм», 1991, с. 552.

**288.** Глинка С.Н. Описание переселения армян азербайджанских в пределе России. Баку, «Элм», 1990, с. 144.

**289.** Гукасян В. Азербайджанские палеотопонимы в Закавказских источниках. // Azərbaycan filologiya məsələləri, II bur., Bakı, "Elm", 1984, s. 136–150.

**290.** Гулиева Л.Г. Типология семантической структуры топонимиконов разносистемных языков (на материале топонимии Азербайджана). Баку, АПИ, 1990, с. 204.

**291.** Гусейнзаде А.А. Параллели огузских этнонимов в современной топонимии Азербайджанской ССР. – Советская тюркология, №4, 1977, с. 47–51.

**292.** Гусейнзаде А. К этимологии топонима Kuşçu. - Советская тюркология, №6, 1971, с. 91–95.

**293.** Гусейнзаде А.А. Ойконимы Закавказья, включающие этнонимы «Биченек». – Советская тюркология, №5, 1982, с. 20–24.

**294.** Деконский А.Г. Экономический быт государственных крестьян в западной части Шарура-Даралагезского уезда Эриванской губернии. – Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Т. I, Тифлис, 1886, с. 683–767.

**294 a.** Депортация азербайджанцев из Армянской ССР (сборник документов). Баку, 2013, с. 784.

**295.** Добродомов И.Г. О половецких этнонимах в древнерусской литературе. – Тюркологический сборник. 1975, М., «Наука», 1978, с. 102–129.

**296.** Долженко И.В. Хозяйственный и общественный быт русских крестьян восточной Армении конца XIX – нач. XX вв. Ереван, АН. Арм. ССР, 1985, с. 179.

**297.** Донидзе Г.И. Отрицание в тюркской топонимии. Ономастика Средней Азии. М., 1978, с. 48–52.

**298.** Дорога Мгера. Армянские легенды и предания. Составление, перевод с армянского, предисловие и комментарий Г.О.Карапетяна. М., «Наука», 1990, с. 176.

**299.** Древнетюркский словарь. Л., «Наука», 1969, с. 676.

**300.** Егиазаров С. Административно-экономический строй сельской общины в Эриванской губернии. – Свод материалов по изучению экономического быта государственных крестьян Кавказского края. Тифлис, 1887.

**301.** Ереван и его окрестности. Фотоальбом (Авт. статьи Т.О.Асратян). Л., «Аврора», 1973, с. 17.

**302.** Ереван в цифрах (статистический сборник). Ереван, 1968, с. 224.

**303.** Ереванци С. Джамбр. Памятная книга. Зерцало и сборник всех обстоятельств святого престола Эчмиадзина и окрестных монастырей. М., Изд-во вост. литер., 1958, с. 400.

**303 a.** Еремеев Д.Е. Юрюки. М., Наука, 1969, с. 104.

**304.** Жучкевич В.А. Общая топонимика. Минск, «Вышэйш школа», 1980, с. 287.

**305.** Зелинский С.П. Экономический быт государственных крестьян в Зангезурском уезде Елисаветпольской губернии. – Материалы для изучения экономического быта государственных крестьян Кавказского края. Т. IV, ч. I, Тифлис, 1886, с. 1–220.

**306.** Зелинский С.П. Экономический быт государственных крестьян в Бамбакском участке и в северной части Шорагяльского уезда Эриванской губернии. – Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Т. III, ч. 2, Тифлис, 1886, с. 227–455.

**307.** Зелинский С.П. Экономический быт государственных крестьян в Шорагяле Александропольского уезда Эриванской губернии. – Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Т. I, Тифлис, 1886, с. 1–101.

**308.** Известия Кавказского отдела императорского Русского географического общества. Т. X, №1, Тифлис, 1889–1891 годы.

**309.** История Азербайджана по документам и публикациям. Баку, «Элм», 1990, с. 348.

**310.** Историческая география Западного Азербайджана. Баку, «Азербайджан», 1998, с. 560.

**311.** Кайдаров А.Т. К историко-лингвистической характеристике этнонима канглы /Уканлы. – Тюркская ономастика. Алма-Ата, «Наука», 1984, с. 34–47.

**312.** Кавказский календарь на 1847. Тифлис, 1846.

**313.** Кавказский календарь на 1879. Тифлис, 1878.

**314.** Кавказский календарь. Тифлис, Типография К.П.Козловского, 1907, с. 64, 150–157, 256–319.

**315.** Кавказский календарь. Тифлис, 1909.

**316.** Кавказский календарь. Тифлис, Типография канцелярии наместника Е.И.В. на Кавказе, 1916, с. 95–134.

**317.** Капанцян Гр. Общие элементы между урартскими и хеттскими языками. Эриван, ГИЗ ССРА, 1936, с. 76.

**318.** Капанцян Гр. Историко-лингвистическое значение топонимики древней Армении. Ереван, Издательство Государственного Университета, 1940, с. 113.

**319.** Капанцян Гр. Историко-лингвистические работы. К начальной истории армян. Ереван, АН Арм. ССР, 1956, с. 471.

**320.** Кармышев Б.Х. Следы средневековых этнонимов и антропонимов в узбекских генеалогиях (ас, кышлык, урус). – Ономастика Средней Азии. М., 1978, с. 18–27.

**321.** Кононов А.Н. Родословная туркмен. Сочинение Абул Гази хана Хивинского. М., Л., Изд. АН СССР, 1958, с. 112.

**322.** Кононов А.Н. Семантика цветообозначений в тюркских языках. – Тюркологический сборник. 1975, М., «Наука», 1978, с. 159–179.

**323.** Койчубаев Е. Краткий толковый словарь топонимов Казахстана. Алма-Ата, «Наука», 1974, с. 110.

**324.** Латышев В.В. Известия древних писателей (греческих и латинских) о скифнии и Кавказе. СПб, Типография Императорской АН, 1906, с. 454.

**325.** Лейстер А.Ф. К вопросу о происхождении озера Гокчи. Известия Кавказского отдела императорского русского и географического общества. Т. XXI, 1911-1912, Тифлис, Типография К.П.Козловского, 1910, с. 355–368.

**326.** Линч Ф.Б. Армения. Путевые очерки и этюды. Т. I, Русские провинции. X–XIII, Тифлис, Изд. И.Е.Питоев и К., 1910, с. 597.

**327.** Мамедов С.А. Азербайджан по источникам XV – первой половины XVIII вв. Баку, «Элм», 1993, с. 240.

**328.** Маркова Ф.Т. Экономический быт государственных крестьян Эриванского уезда. – Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Т. III, ч. 1, Тифлис, Типография: А.А.Михельсона, 1886, с. 1–226.

**329.** Материалы для изучений экономического быта государственных крестьян Закавказского края. Т. IV, Тифлис, 1886.

**330.** Материалы докладов II научной конференции, посвященной изучению топонимии Азербайджанской ССР, сентябрь 1981. Баку, «Элм», 1981, с. 88.

**331.** Машадиев К.И. Историко-лингвистический анализ топонимов азербайджанского (тюркского) происхождения, зарегистрированных в «Сборнике материалов для описания местностей и племен Кавказа» (СМОМПК). АДД, Баку, 1991, с. 56.

**332.** Меликишвили Г.А. Урартский язык. М., «Наука», 1964, с. 74.

**333.** Мирзазаде Ч.Х. Топонимы Азербайджана в средневековых арабских географических источниках. Баку, «Элм», 1988, с. 120.

**334.** Мирмахмудова С.Н. Исследование Азербайджанских ойконимов на территории Армянской ССР, автореферат кандидата географических наук. Баку, 1986, с. 20.

**335.** Мирмахмудова С.Н. Азербайджанские гидронимические ойконимы на территории Армянской ССР. – Всесоюзная конференция. Топонимика в региональных географических исследованиях (13 февраля 1984 г.). Тезисы докладов. М., 1984, с. 70–71.

**336.** Моллазаде С.М. Топонимия северных районов Азербайджана. Баку, «Маариф», 1979, с. 206.

**337.** Молчанова О.Т. Структурные типы тюркских топонимов Горного Алтая. Саратов, Изд. Саратовского Университета, 1982, с. 256.

**338.** Муниснаме. Словарь собственных имен, географических названий и непереведенных восточных слов. Баку, 1991, с. 574.

**339.** Мурзаев Э. М. Словарь народных географических терминов. М., «Мысль», 1984, с. 653.

**340.** Мурзаев Э.М. Топонимы в межнациональном общении. Топонимика и межнациональные отношения. М., 1992, с. 14–19.

**341.** Мусаев К.М. Лексика тюркских языков в сравнительном освещении. М., «Наука», 1975, с. 357.

**342.** Наджафов Б.И. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX – начале XX вв. Т. I, Баку, «Элм», 1993, с. 382.

**343.** Обзор Эриванской губернии за 1914. Эриван, Типография Эриванского Губернского Правления, 1915, с. 79.

**344.** Обозрение Армении, в географическом, историческом и литературном отношениях (собрал и составил А.Худабашев). СПб, 1859.

**345.** Ономастика Востока. М., 1980.

**346.** Ономастика Узбекистана. Ташкент, 1987.

**347.** Ономастика Средней Азии. М., 1978.

**348.** Пагирев Д.Д. Алфавитный указатель к пятиверстным картам Кавказского края. Тифлис, Типография К.П.Козловского, 1913, с. 530.

**349.** Парвицкий В.А. Экономический быт государственных крестьян северо-восточной части Ново-баязетского уезда, Эриванской губернии. – Материалы для государственных крестьян Кавказского края. Т. IV, ч. 2, Тифлис, 1886, с. 1–96.

**350.** Парвицкий А.В. Экономический быт государственных крестьян северо-западной части Шарура и восточной части Даралагеза Шарура-Даралагезского уезда Эриванской губернии. – Материалы для изучения экономического быта государственных крестьян Кавказского края. Т. IV, ч. 2, Тифлис, 1886, с. 97–178.

**351.** Парвицкий В.А. Экономический быт государственных крестьян юго-западной части Новобаязетского уезда Эриванской губернии. – Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Т. 1, Тифлис, 1862, с. 315–347.

**352.** Парвицкий А.В. Экономический быт государственных крестьян северо-западной части Шарура - Даралагезского уезда Эриванской губернии. – Материалы для изучения экономического быта государственных крестьян Кавказского края. Т. IV, 2 ч., Тифлис, 1886, с. 129–132.

**353.** Парсамян В. История армянского народа, 1801–1900 гг. кн. I, Ереван, «Айастан», 1972, с. 398.

**354.** Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв. Л., Изд. Ленинградского Университета, 1949, с. 383.

**355.** Пигулевская Н. Сирийские источники по истории народов СССР. М. Л., АН СССР, 1941, с. 169.

**356.** Подольская Н.В. Связи демографо-этнических и топонимических процессов. – Топонимика и межнациональные отношения. М., 1992, с. 19–25.

**357.** Пиотровский Б.Б. Урарту–древнейшее государство Закавказья. Л., 1939, с. 56.

**358.** Путеводитель по Армении. Ереван, 1939.

**359.** Радлов В.В. Опыт словаря тюркских наречий. Т. I, ч. 1–2, СПб, 1893, с. 1914; т. II, ч.1–2, СПб, 1899, с. 1814; Т. III, ч.1-2, СПб, 1905, с. 2204; Т. IV, ч. 1–2, СПб, 1911, с. 2230.

**359 a.** Развитие Еревана после присоединения Восточной Армении к России. Сборник документов. 1801–1917 гг. Ереван: Изд-во Ереванского Университета, 1978, с. 490.

**360.** Савина В. И. Типы тюркских топонимов в Иране. Топонимика Востока (исследования и материалы). М., «Наука», 1969, с. 71–72.

**361.** Савина В.И. Словарь географических терминов и других слов, формирующих топонимию Ирана. М., «Наука», 1971, с. 346.

**362.** Савина В.И. Этнонимы в топонимии Ирана. – Ономастика Востока. М., 1980, с. 147–154.

**363.** Сборник сведений о Кавказе. Тифлис, 1875.

**364.** Сборник сведений о Кавказе. Губернии Эриванская, Кутаисская, Бакинская, Ставропольская и Терская область. Т. V, ч. 1, Тифлис, Типография Главного Управления Наместника Кавказского, 1879, №1–1370.

**365.** Севортян Э.В. Этимологический словарь тюркских языков (Общетюркские и межтюркские основы на гласные). М., «Наука», 1974, с. 768.

**366.** Севортян Э.В. Этимологический словарь тюркских языков (Общетюркские и межтюркские основы на букву «Б»). М., «Наука», 1978, с. 352.

**367.** Севортян Э.В. Этимологический словарь тюркских языков (Общетюркские и межтюркские основы на букву «В», «Г» и «Д»). М., «Наука», 1980, с. 396.

**368.** Сейидов М. Некоторые заметки о гуннско-азербайджанских мифологических связях (на основе этимологического анализа слова куар//гуар. // Azərbaycan dilçiliyi məsələləri. Bakı, Azərb. SSR EA nəşriyyatı, 1967, səh. 205–216.

**369.** Серебренников Б.А., Гаджиева Н.Э. Сравнительно историческая грамматика тюркских языков. Баку, «Маариф», 1979, с. 304.

**370.** СМОМПК, вып. 4. Тифлис, 1884.

**371.** СМОМПК, вып. 5. Тифлис, 1886.

**372.** СМОМПК, вып. 13. Тифлис, 1892.

**373.** СМОМПК, вып. 25. Тифлис, 1898.

**374.** СМОМПК, вып. 27. Тифлис, 1900.

**375.** Старостин Б.А. Несколько слов о топонимике Армянской ССР. – Всесоюзная конференция по топонимике СССР 29 января – 2 февраля 1965 г. Л., 1965, с. 156–158.

**376.** Статистическое описание Нахичеванской провинции. СПб, 1833, с. 263.

**377.** Страбон. География. В 17-ти кн. Л., 1964, с. 943.

**378.** Султанов Т.И. Опыт анализа традиционных списков 9 племен платийа. В сб. «Средняя Азия в древности и средневековье». М., 1977, с. 166.

**379.** Сумбатзаде А.С. Азербайджанцы – этногенез и формирование народа. Баку, «Элм», 1990, с. 304.

**380.** Суперанская А.В. Топонимия Крыма как свидетельство межэтнических контактов. – Топонимика и межнациональные отношения. М., 1992, с. 40–57.

**380 а.** Тер-Гевондян А.Н. Армения и арабский хилафат. Ереван, 1977, с. 323.

**381.** Тюркская ономастика, Алма-Ата, «Наука», 1984, с. 248.

**382.** Хан-Агов А.Е. Экономический быт государственных крестьян в Эчмиадзинском и Сурмалинском уездах Эриванской губернии. – Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Т. III, ч. 2, Тифлис, 1886, с. 227–455.

**383.** Хоренски М. Армянская история, ч. II. СПб, 1809, с. 222.

**384.** Шаврова Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. Баку, «Элм», 1990, с. 156.

**385.** Шервашидзе И.Н. Еще раз об этимологии имен Asina и Attila. Авитохолъ. Советская тюркология, 1989, №3, с. 79–81.

**386.** Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб: Типография Императорской Академии Наук, 1852, с. 1231.

**387.** Шопен И. Новые заметки на древние истории Кавказа и его обитателей. СПб: Типография Н. Тиблена и комп., 1866, с. 501.

**388.** Эзов Г.А. Внутренний быт Древней Армении. Историческое исследование. СПб.: В тип. Морского министерства, 1859, с. 146.

**389.** Юсифов Ю.Б. Гунны в Закавказье. Этнические и исторические связи тюркских народов СССР. – Тезисы докладов и сообщений Всесоюзной тюркологической конференции. Алма-Ата, 1976, с. 120–122.

**390.** Ямпольский З.И. О значении слова «ван» в имени Нахичевань. К анализу имени Нахичевань. – Изв. АН Азерб. ССР, сер. обществ. наук, 1961, №1, с. 13–19.

**391.** Тер-Казарян. Ереван. Памятники и история. – Литература Армении, 1983, №7, с. 13–20.

**c) Türk dillərində**

**392.** Bayramov İ. M. Manevi soykırım türk toponimleri ve onların geleceyi. Kiyasi C., Bozyel İ. Ermeni Kültür terörü, Ankara, 1996, s. 15–18.

**393.** Әбдирахианов А. Казакстан этнотопонимикасы (зерттелу тарихынан), Алматы, "Ғылым", 1979, 127 с.

**394.** Həmdi Özdamlar. Develi tarihi. "Türk dünyası tarihi", mayıs, Ankara, 1995, s. 44–45.

**395.** Faruk Sümer. Çepniler. Anadoludakı türk yerleşmesinde önemli rol oynayan bir oğuz boyu, İstanbul, Türk Dünyası Araştırmaları Vakfı, 1992, 139 s.

**396.** İğdıroğlu. Torpağın dili olsaydı..., "Azerbaycan türkleri", nisan, 1990, №1, s. 37–40.

**397.** İslam Ansiklopedisi, cilt 9, İstanbul, Türkiye Diyanet vakfı, 1994, 560 s.

**398.** Kafesoğlu İ. Selçuklu tarihi, İstanbul, M.E.B., 1992, 125 s.

**399.** Kaşğari M. Divani-lügat-it türk, I–III cilt, Ankara, 1992.

**400.** Kirzıoğlu M. Fahrettin. Dede Korkut oğuznameleri, I kitab, Burhanettin Erenler Matbaası, İstanbul, 1952, 132 s.

**401.** Kirzıoğlu F. Revan türkleri. – "Türk kültürü", 1963, sayı 11, s. 31-36.

**402.** Kirzıoğlu F. Kars tarihi, I cilt, İstanbul, İşil matbası, 1953, s. 560.

**403.** A.Mecit Doğru. Kırım ve Maykopun yer adları. "Türk dünyası araştırmaları", haziran, 1987, № 48, s. 73–100.

**404.** Muharrem Ergin. Dede Korkut kitabı, I–II cilt, Ankara, 1989, 1991.

**405.** M.Fahrettin Çelik. Dede Korkut kitabındakı coğrafi isimler. Ülkü, temmuz, 1941, s. 449–456.

**406.** M.Fahrettin Kırzıoğlu. 1593 (H.1001) yılı Osmanlı vilayet Tahrir defterinde anılan Gence-Karabağ sancakları: "Ulus" ve "Oymak"lar. Atatürk Universitesi Edebiyat Fakültesi Araştırma dergisi. Ahmed Caferoğlu. Özel sayısı. Fazikül: 1, sayı: 10, Ankara, 1979, s. 199–222.

**407.** Necdet Sevinç. Gaziantep'te yer adları ve türk boyları, aşiretleri, türk oymakları. "Türk dünyası araştırmaları", 1983, №26, s. 1-38.

**408.** Нафасов Т. Жанубин Узбекистон топонимиясинин этно-лингвистик анализи. Тошкент Давлат Педагогика Иниституту, 1985, с. 83.

**409.** Polat Kaya. Sümere ile türkçenin aynı kökten geldiğini işaretleyen sözcükler, zamirler, ekler ve dil özellikleri. Yeni Forüm, cild 13, mayıs, 1992, s. 60–66.

**410.** Türk yer adları sempozyumu bildirileri, 11–13 eylül 1984, Ankara, Başbakanlık Basım evi, 1984, 288 s.

**ç) Erməni dilində**

*(Erməni dilində istifadə olunan ədəbiyyatlar latın qrafikalı Azərbaycan əlifbasında verilir.)*

**411.** Acaryan Hr. Erməni dili kök sözlərinin izahlı lüğəti. I c., İrəvan, "İrəvan Universiteti", 1971, 698 səh.

**412.** Avetisyan K.M. Coğrafi adlar lüğəti. İrəvan, 1969, 362 səh.

**413.** Arakelyan B.N. Qədim Artaşat. İrəvan, Erm. SSR EA-nın nəşriyyatı, 1975, 49 səh. *(şəkilli)*

**414.** Arakelyan H.M. Sisian. İrəvan, Erm.KP MK-nın nəşri, 1987, 132 səh.

**415.** Qorqodyan Z. 1831–1931-ci illərdə sovet Ermənistanının əhalisi. İrəvan, "Melkonyan fond", 1932, 188 səh.

**416.** Ermənistan Respublikasının yaşayış yerlərinin lüğəti. Yerevan, 2008, 211 səh.

**417.** Ermənistan Sovet Ensiklopediyası, I–XII cildlər. İrəvan, 1974–1986.

**418.** Ermənistanın Mərkəzi Dövlət Arxivi. Fond 102, iş 999; Fond 102, iş 1043.

**419.** Ermənistan SSR. İnzibati-ərazi bölgüsü. İrəvan, "Ayastan", 1976, 283 səh.

**420.** Ermənistan SSR-in coğrafi adları, İrəvan, 1951.

**421.** Ərəb mənbələrində Ermənistan və qonşu ölkələr haqqında (tərtibçi: Nalbandyan A.T.). İrəvan, 1965.

**422.** Yeğiazaryan O. Əzizbəyov rayonunun mədəniyyət abidələri. İrəvan, "Haypetrat", 1955, 110 səh. *(şəkilli)*

**423.** Yefrikeyan H.S. İllüstrasiyalı coğrafi adlar lüğəti. Venesiya, 1900, 806 səh.

**424.** Meliksetyan O.U. Qərbi ermənilərin deportasiyası və xaricdə yaşayan ermənilərin sovet Ermənistanında repatritasiyası (1914–1940). İrəvan, "İrəvan Universiteti", 1975, 295 səh.

**425.** Ohanyan K.O. Ermənistan SSR-in çay və gölləri, İrəvan, 1961.

**426.** Simonyan A.P. Yerevan (1920–1967). İrəvan, "Mitk", 1968, 343 səh.

**427.** Hakopyan T.X., Melik Baxşyan St.T., Barseğyan O.X. Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti. I c., AD, İrəvan, "İrəvan Universiteti", 1986, 991 səh.

**428.** Heponyak T.X. Ermənistanın tarixi coğrafiyası (oçerklər). II nəşr. İrəvan, "Ayastan", 1968, 508 səh.

**429.** Şahəziz Y. Köhnə İrəvan. İrəvan, 1956.

d) Avropa dillərində

**430.** Bayramov İ.M. Cultural genocide turkish placenames and ther future. Kiyasi C., Bozyel I. Armenian ackts of cultural terrorism, Ankara, 1997, p. 19–22.

**431.** Bayramov I.M. Cultural genocide continues. Kiyasi C., Bozyel I. Armenian ackts of cultural terrorism, Ankara, 1997, p. 39–41.

**432.** Budagov B. Turkic Toponyms of Eurasia. Baku, "Elm", 1997, 174 p.

**433.** Hübscman H. Die altarmenischen Ortsnamen, Verlag von Karl J. Trübner, Strassburg, 1904, s. 197–490.

e) Xəritələr

**434.** Карта Кавказа, составлена и литографирована в Военно-топографическом отделе Кавказского военного округа. Тифлис, 1903.

**435.** Армянская ССР. Москва, 1970.

**436.** Армянская ССР. ГУТК ССР, Москва, 1987.

www.eastwest.az
www.fb.com/eastwest.az
info@eastwest.az

Buraxılışa məsul: Rafiq Kazımov
Üz qabığının dizaynı: Nurlan Nəhmətov
Dizayner və səhifələyici: Ayaz Abdulzadə
Redaktorlar: Gültəkin Cəfərova
Aida Quliyeva
Korrektorlar: Qızılgül Abdinova
Nigar Əliyeva
Qurban Nuriyev
Elsevər Muradov
Texniki redaktor: Sevinc Yusifova
Baş redaktor: Nərgiz Cabbarlı
Texniki direktor: Xəqani Fərzalıyev
Nəşriyyat direktoru: Sevil İsmayılova

Çapa imzalanmışdır: 19.04.2021. Format: 60×90 $^1/_8$. Ofset çapı.
Fiziki çap vərəqi 58. Sifariş 20442. Tiraj 500

ŞƏRQ-QƏRB

"Şərq-Qərb" ASC-nin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17.
Tel.: (+99412) 374 83 43
(+99412) 374 73 84